**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

# FİLOLOGİYA MƏSƏLƏLƏRİ

# № 6

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

**«Elm və təhsil»**
**Bakı – 2023**

**REDAKSİYA HEYƏTİ**: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2023, №6

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2023

www. filologiyameseleleri.com

# *DİLÇİLİK*

**NADİR MƏMMƏDLİ**
**Filologiya elmləri doktoru, professor**
**AMEA-Nəsimi adına Dilçilik İnstitutu**

## AZƏRBAYCANDA DİL SİYASƏTİ VƏ ORTAQ TÜRK ƏLİFBASI

**Xülasə**

Əlifba siyasətində də qlobal məqsədlər əsas götürür və hər hansı bir məsələnin həllində onun bütün cəhətləri, bu günü, gələcəyi nəzərə alınır. Türk xalqlarının gələcəyi, təhlükəsizliyi ortaq türk mədəniyyəti yaratmaqdan asılıdır. Müasir dövrdə müstəqillik qazanan türkdilli respublikalarda orfoqrafik və orfoepik problemlərin öyrənilməsinə, leksik-semantik və qrammatik layların sinxron planda, müqayisəli şəkildə araşdırılmasına maraq artmışdır. Əlifbanın birliyini təmin etmək milli dil siyasətinin tərkib hissəsidir. Hal-hazırda dövləti olan türk xalqları arasında latın əlifbasına keçməklə bağlı ciddi addımlar atılmışdır: Azərbaycan və Türkiyədən savayı, Özbəkistan, Qazaxıstan, Qırğızıstanda da latın əlifbasına keçmək haqqında qərar verilmişdir. Beynəlxalq Türk Akademiyasının türkdilli ölkələrin ümumi istifadəsi üçün nəzərdə tutulan 34 hərfli ortaq latın əlifbasından istifadə etdiyini bildirən qazax alimləri bu əlifbanın latın qrafikalı Azərbaycan əlifbasına daha yaxın olduğunu qeyd edirlər. Azərbaycan Şərq və Qərb türklüyünün arasında bir körpü, dili də həm oğuz, həm də qıpçaq türklərinə yaxın olduğundan, istifadə etdiyi əlifbada türk xalqlarının çoxunun səsi əhatə edildiyindən bu əlifbanı transkript, istifadə ediləcək, anlaşa biləcək ortaq əlifba kimi düşünürlər.

Gözlənilən nəticələr:

- Türk Dünyası birgə əlifba Komissiyasının iş prinsiplərini müəyyən etmək.
- Türk dünyasının dekommunizasiyasına cavabdeh olan dövlət orqanları arasında əməkdaşlığı dərinləşdirmək.
- Latın əlifbasına keçid prosesini başa çatdıran türk dövlətlərinin təcrübəsinə əsaslanmaq.
- Əlifbada birliyə nail olmaq üçün atılacaq konkret addımları müəyyən etmək.

**Açar sözlər**: latın qrafikalı ortaq türk əlifbası, dil siyasəti, türk dövlətləri, əlifba bayramı, müstəqil türk dövlətləri.

Müstəqilliyimiz bərpa olduqdan sonra Azərbaycan dili cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində daha geniş istifadə

edilməyə başlamış, onun dövlət dili olaraq maneəsiz inkişafı üçün zəmin yaranmışdır. XX – XXI yüzilliklər Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrüdür. Məhz bu dövrdə dilimizin funksional imkanları genişlənmiş, üslubları zənginləşmiş, dilin daxili inkişaf meyilləri əsasında yazı qaydaları cilalanmışdır. İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır.

Əlifba siyasətində də qlobal məqsədlər əsas götürür və hər hansı bir məsələnin həllində onun bütün cəhətləri, bu günü, gələcəyi nəzərə alınır. Bu mənada, əlifbada Azərbaycan xalqının bəxti gətirməyib, təkcə XX əsrdə xalqımız dörd əlifbadan istifadə etməli olub. 1929-cu ilədək ərəb qrafikali əlifbadan, on il latın qrafikalı, 1939-cu ildən 1991-ci ilədək kiril qrafikalı əlifbalardan istifadə olunub,

Bütün bunlar dövlətçilik tariximizdə və dil siyasətimizdə o qədər də asan başa gəlməmişdir.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsdiq edilmişdir. Hər hansı dilin dövlət statusu alması, şübhəsiz ki, hər bir dövlətin dövlət kimi formalaşması ilə bilavasitə bağlıdır. Xalqımızın tarixində Azərbaycan dili XVI əsrdə Səfəvilər hakimiyyəti dövründə dövlət dili səviyyəsinə qalxsa da, milli dövlətçiliyin itirilməsi nəticəsində həmin ənənə uzun müddət pozulmuşdur. Yalnız 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açıldı. Bu sahədə bəzi addımlar atılsa da, gənc respublikanın ömrünün qısa olması Azərbaycan dilinin cəmiyyətdə dövlət dili kimi mövqelərinin tam bərqərar edilməsinə imkan vermədi.

Şübhəsiz ki, müstəqilliyin ən mühüm atributlarından biri dil və əlifba məsələsidir. 1990-cı ildə Azərbaycandakı yeni hakimiyyət dövlət dilinin Azərbaycan dili yox*, türk dili* ilə əvəz olunmasını, beləliklə tarixi həqiqətin "geri qaytarılması"na təşəbbüs edir. Bütün dövlət strukturları, orta və ali məktəb dərsliklərində Azərbaycan kəlməsi *türk* sözü ilə əvəz olunur. Bu əvəzolunma ictimaiyyət tərəfindən narazılıqla qarşılanır. Məsələnin ciddiliyini nəzərə alan H.Əliyev xalqın və dövlətin adı ilə bağlı müzakirələr keçirir. Xalq 1995-ci il noyabrın 12-də referendum yolu ilə öz mövqeyini nümayiş etdirərək, Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması müddəasına tərəfdar olduğunu bildirdi.

*Türk dili, Azərbaycan türk dili, Azəri türk dili, Azərbaycan türkcəsi, Azərbaycan dili* anlayışları "Azərbaycan – türk dili" modelinin tərkib hissəsidir. Bu, ilk növbədə, türklərin tarix səhnəsində etnos diferensiasiyası ilə bağlıdır. Türk dili Azərbaycan dili anlayışını həm keçmişə bağlamış, həm də gələcəyə aparmaqdadır. **Türk dili** bütün türk dilləri üçün ümumi ad olmuş, daha sonralar coğrafi təzahürləri ilə adlandırılmışdır.

Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi.

11 sentyabr 1990-cı ildə əlifba Komissiyası yaradıldı. Təklif olunan əlifba Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 25 dekabr 1991-ci ildə keçirilən iclasında müzakirəyə çıxarıldı və "Latın əlifbası əsaslı Azərbaycan əlifbasının islah edilməsi haqqında Azərbaycan Respublikasının qanunu" qəbul edildi. Yeni əlifbanın təsdiqindən sonra da müzakirələr səngimirdi. Lakin müxtəlif səbəblərdən 10 il latın qrafikalı yeni əlifba kirill əlifbası ilə paralel işləndi, yalnız Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli fərmanından sonra bütün Azərbaycan ərazisində latın əlifbasına keçilir (1). 1 avqust 2001-ci ildə Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edilməsilə iki əlifbadan istifadəyə birdəfəlik son qoyulur. Latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il avqust ayında bütövlükdə təmin edilməsi və yeni əlifbadan istifadə müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə oldu. Ölkə rəhbəri, – "...bunu (əlifbanı – *N.M.*) əlimizdən daha heç kim ala bilməyəcəkdir. Çünki biz artıq müstəqil bir dövlətik və müstəqilliyimiz də daimidir, əbədidir, - deməklə, çox geniş mənada, elmi-konseptual əsasları ilə dil siyasətinin dövlətçiliyin bünövrəsi olduğunu sübut etdi. Bu baxımdan, dil siyasəti ilə bağlı həyata keçirilən işlərin davamı kimi, 12 yanvar 2004-cü ildə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı", 5 avqust 2004-cü ildə "Azərbaycan dilinin orfoqrafiya qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı", 27 dekabr 2004-cü ildə, "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı", 24 avqust 2007-ci ildə, "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı", həmçinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 2012-ci il 23 may tarixli, "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2013-cü il 9 aprel tarixli, "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli sərəncamları, eləcə də "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli Qərarı (2; 3), ana dilinə dövlət qayğısının artırılması, Azərbaycan dilinin saflığının qorunması ilə bağlı 01 noyabr 2018-ci il

tarixli "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi və araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır.

Maraq üçün qeyd edək ki, Türkiyədə 1928-ci il 1 noyabr tarixində yeni əlifba qanunla təsdiqlənəndə Dil komissiyası bu işin tam gerçəkləşməsi üçün 5-10 illik keçid dövrü təklif etsə də M.Atatürk bunu qəbul etmir, 3 aya yekunlaşdırılmasını israr etdi.

Azərbaycanın dil siyasəti Azərbaycan dövlətçilik tarixinin ən önəmli qoludur. Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır. Azərbaycanın tarixi türk dövlətləri tarixinin ayrılmaz hissəsi, dövlətçiliyin ulu Türk fəlsəfəsidir. Ümumi kökə və mədəniyyətə sahib olan türk xalqlarının bir-biri ilə sürətli inteqrasiya proseslərinin getdiyi müasir mərhələdə bu xalqların ortaq əlifbasının olmasının müstəsna əhəmiyyəti vardır. Səs sistemlərini ideal, tam ifadə etməsə də, 34 hərfdən ibarət olacaq ortaq latın əlifbası türk xalqlarını daha da yaxınlaşdıracaq bir mədəniyyət mirası, həm də siyasi hadisəsidir. Hər bir ədəbi dilin inkişafında əlifba əsas rol oynayır, yazılı ədəbi dillər əlifba vasitəsilə yüksək tərəqqiyə ucala bilir. Şübhəsiz ki, yaradılan ümumtürk ədəbi dilinin formalaşması və inkişafında da türk xalqları üçün ortaq əlifba xüsusi əhəmiyyət kəsb edir.

Latın qrafikası əsasında ortaq əlifbanın yaradılması türkdilli xalqların tarixini, ədəbiyyat və mədəniyyətini, foklorunu, adət-ənənələrini öyrənməkdə, təbliğ etməkdə böyük rol oynayacaq. Türk dünyası üçün son dərəcə zəruri olan bu problemin həlli bütün ziyalıların, o cümlədən xüsusi olaraq türkoloqların qarşısında təxirəsalınmaz bir vəzifə kimi durmaqdadır

XX əsrin əvvəllərindən başlayaraq ortaq türk əlifbası bütün türkdilli dövlətlərin maraq dairəsindədir, çünki ortaq ünsiyyətə gedən yol ortaq əlifbadan başlayır. Ortaq səslər üçün ortaq qrafik işarələr olmalıdır. Türk dilləri genetik-tipoloji cəhətdən eyni olduqları kimi, bəzi fərdi xüsusiyyətlərindən savayı, onların əsas lüğət fondları və qrammatik quruluşları da eynidir, türk ailəsində birləşən bu xalqlar üçün ortaq əlifbdan istifadə olduqca vacibdir. XX əsrin 90-cı illərindən sonra türk xalqlarının bir-birinə yaxınlaşması, daha da güclənən türkçülük hərəkatı ortaq türk əlifbasını daha da aktuallaşdırdı, zamanın tələbinə çevrildi. Türkdilli xalqlar üçün hazırlanmış ortaq əlifba bütün dünyanın marağına səbəb olacaq universal əlifba probleminin həllində irəliyə atılan addımdır.

Hələ 1922-ci ildən Azərbaycanda ümumtürk səciyyəli latın əlifbasına keçidə başlanılmış, 1929-cu ildə bu proses başa çatmışdır. Az sonra türkdilli xalqların böyük əksəriyyəti bu əlifbanı qəbul etdi. Lakin siyasi səbəblərdən, daha dəqiq desək, türk xalqlarının bir-birinə daha da yaxınlaşmasına xor baxdıqlarına görə bu layihəni tam həyata keçirmək mümkün olmadı. Sovet liderlərinin repressiya siyasəti latın qrafikalı ortaq türk əlifbasına münasibətdə də özünü göstərdi. Heç 20 il keçməmiş Sovetlər

birliyinin daxilində yaşayan türk xalqlarının əlifbası məcburi surətdə rusların istifadə etdiyi kiril əlifbası ilə əvəz edildi. İlk dəfə 1926-cı ildə Bakıda keçirilən Türk Dili qurultayında ortaq türk əlifbası qəbul edildi. Türkiyədə M.Atatürk əleyhinə istifadə edilən ən ciddi arqumentlərdən biri bu idi ki, əlifbanı dəyişdirdi və bizi tariximizdən qopardı, ona görə də cəmiyyətimiz savadsız qaldı. Halbuki, 1926-cı ildə Bakıda qurultay qərar qəbul etmişdi ki, ortaq əlifba bütün türklər üçün məcburidir. M.Atatürk iki illik hazırlıq mərhələsindən sonra latın qrafikalı və ortaq türk əlifbasını tətbiq etməyə başlamışdı. Ruslar ortaq türk əlifbasının ortaq şüur formalaşdıracağından ehtiyat edib, kiril əlifbasına keçməyi məcburi hala gətirdilər. İ.Stalin dönəmində SSRİ daxilindəki türklərin kiril əlifbasına keçid edilməsi qərarı verildi, ortaq kiril əlifbası türk xalqları arasında əlifba birliyini pozdu, hər türk xalqına eyni tərkibli yox, fərqli kiril əlifbaları təqdim edildi, türk xalqlarının bir-birinin yazı dillərini oxuyub anlaması daha da çətinləşdirildi.

Sovet hakimiyyətinin mövcud olduğu bütün dövr ərzində ümumtürk əlifbası və imlası problemi öz aktuallığını saxlamaqda davam etdiyindən, imperiya dağılan kimi bu ideya yenidən aktuallaşdı və bir çox türkdilli dövlətlərdə ortaq türk əlifbasına qayıdış baş verdi. İftixarla deyə bilərik ki, bu ideyanı ilk dəfə gerçəkləşdirən yenə Azərbaycan dövləti və xalqı oldu.

Türkdilli ölkələr arasında qarşılıqlı anlaşmanı təmin etmək, inteqrasiya proseslərini sürətləndirmək və elmi tədqiqatları daha geniş şəkildə əlaqələndirmək üçün ortaq əlifbanın tətbiqi vacibdir. Türk dillərinin əlifba, orfoqrafik və orfoepik problemlərinin müqayisəli-tipoloji müstəvidə araşdırılmasına türkologiya elmində həmişə maraq olmuş, bu məsələlər siyasi-ictimai əhəmiyyət daşımışdır. Son dövrlərdə, xüsusilə İstanbul, Bursa konfranslarından sonra türklər üçün ortaq əlifba ilə bağlı bir sıra ciddi fikir ayrılıqları olsa da, ünsiyyət dilinə gedən yolda sistemli işlər görülmüşdür. Təsadüfi deyildir ki, 2023-cü ildə Qazaxıstanda latın əlifbasına keçmək haqqında qərar verilmişdir. Azərbaycan, Özbəkistan, Türkmənistanın ardınca Qazaxıstanın da latın qrafikalı ortaq türk əlifbasına keçmək istəyi sevindirici haldır. Beynəlxalq Türk Akademiyasının türkdilli ölkələrin ümumi istifadəsi üçün nəzərdə tutulan 34 hərfli ortaq latın əlifbasından istifadə etdiyini bildirən Darhan Kıdıralı bu əlifbanın latın qrafikalı Azərbaycan əlifbasına daha yaxın olduğunu qeyd edir, bunun da obyektiv səbəblərini diqqətə çatdırır: "Bu 34 hərf xüsusilə Azərbaycanda hazırda istifadə olunan əlifba ilə eynilik təşkil edir. Azərbaycan Şərq və Qərb türklüyünün arasında bir körpü, dili də həm oğuz, həm də qıpçaq türklərinə yaxın olduğundan, istifadə etdiyi əlifbada türk xalqlarının çoxunun səsi əhatə olunduğundan biz bu əlifbanı transkript, istifadə edəcəyimiz, anlaşa biləcəyimiz ortaq əlifba kimi düşünürük". Qeyd edək ki, artıq Qazaxıstan 2025-ci ilədək latın əlifbasına keçməklə bağlı hazırlıqlar həyata keçirir və hesab olunur ki, Qazaxıstanın qəbul edəcəyi əlifba ortaq türk əlifbası olacaq. Doğrudur, Qazaxıstanın qəbul etdiyi latın qrafikalı əlifbasında ortaq türkcə ilə uzlaşmayan bəzi hərflər var, ancaq bütövlükdə Qazaxıstanın belə bir addım atması ortaq türk əlifbasının gerçəkləşməsini

sürətləndirəcək. İkinci mərhələdə Rusiya Federasiyası tərkibindəki dövləti olmyan türk xalqlarının da latın qrafikalı əlifbaya keçməsi baş tutacaq, beləliklə, ortaq türk əlifbası daha da təkmilləşəcək.

Hal hazırda 34 hərfli latın qrafikalı əlifba bütün türklər üçün uyğun hesab edilir. Azərbaycan əlifbasına sadəcə "w" və "ň" hərfinin əlavəsi, bir də "ə" hərfinin "ä" kimi yazılması nəzərdə tutulur. Bəzən deyilir ki, Azərbaycan dilində "ə" səsi çox işləndiyindən bu halda da yazıda çox nöqtələr olacaq, yazı sürəti yavaşıyacaq. Əks dəlil kimi – onsuz da artıq əllə yazı dövrü bitmiş, kompüter dönəmidir, yazı sürətinə heç bir təsir olmayacaqdır.

Bu gün türk dövlət liderləri yaxşı başa düşür ki, bütün türk xalqlarının gələcəyi, təhlükəsizliyi ortaq türk mədəniyyəti yaratmaqdan asılıdır. Bu yöndə daha çox çalışan Türkiyə və Azərbaycan dövləti olmuşdur və sevindirici haldır ki, bütün türk xalqları dövlət səviyyəsində bu müqəddəs işə qoşulmuş, vahid əlifbanın yaradılması ideyası uğrunda addımlar atmaqdadırlar.

Ortaq imla, dil planlanması, ortaq əlifba türk xalqlarının ümumi mədəniyyətini inkişaf etdirməkdə xüsusi əhəmiyyətə malikdir: ortaq əlifbadan istifadə türk xalqlarının mənsubiyyətinin tərifi, milli dövlətlərin quruculuğu siyasətinin tarixidir. Dil konvergensiyası milli dövlətlərin inkişafının mühüm bir hissəsidir. Milli dil dövlət quruculuğu prosesində mühüm rol oynayır: kommunikasiya vasitəsi kimi millətin siyasi və iqtisadi həyatında səmərəli fəaliyyət göstərir. Əlifba hər bir xalqın varlığını, mövcudluğunu təsdiq edən əsas amillərdəndir – ortaq əlifba müstəqil dil siyasətində sosial inkişaf vasitəsidir, türk xalqlarının ümumi mədəniyyətinin inkişafında müstəsna rola malikdir.

Türkün böyük, şərəfli tarixi run, Orxon-Yenisey əlifbası ilə yazılmışdır, indi də ortaq türk əlifbası ilə yazılacaq! Böyük fikir adamı İsmayıl Qaspralının "dildə, fikirdə, işdə birlik!" – düsturu gerçəkləşəcək.

**Ədəbiyyat**

1. Dah ətraflı bax: Azərbaycan Milli Ensiklopediyası, Bakı, «Azərbaycan Milli Ensiklopediyası» Elmi Mərkəzi, 2007, s.149-151.
2. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 9 aprel 2013-cü il // https://e-qanun.az/framework/25537 ;
3. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 23 may 2012-ci il // https://e-qanun.az/framework/23583

Надир Мамедли

# ЯЗЫКОВАЯ ПОЛИТИКА В АЗЕРБАЙДЖАНЕ И ОБЩИЙ ТЮРКСКИЙ АЛФАВИТ

**Резюме**

В алфавитной политике также за основу берутся глобальные цели, и при решении любого вопроса учитываются все его аспекты, настоящее, будущее. От создания общей турецкой культуры зависит будущее, безопасность тюркских народов. В современный период в тюркоязычных республиках, получивших независимость, возрос интерес к изучению орфографических и орфоэпических проблем, к исследованию лексико-семантического и грамматического пластов в синхронном плане, сравнительном. Обеспечение единства алфавита является составной частью национальной языковой политики. Серьезные шаги по переходу на латиницу были предприняты среди тюркских народов, которые в настоящее время являются государствами: помимо Азербайджана и Турции, решение о переходе на латиницу было принято в Узбекистане, Казахстане, Кыргызстане. Отметив, что Международная Тюркская академия использует общий латинский алфавит из 34 букв, предназначенный для общего блага тюркоязычных стран, казахские ученые отмечают, что этот алфавит ближе к азербайджанскому алфавиту с латинской графикой. Азербайджан является мостом между Восточным и западным тюркизмом, поскольку его язык близок как к Огузскому, так и к кипчакскому тюркскому языкам, а используемый им алфавит охватывает большинство тюркских народов, поэтому они рассматривают этот алфавит как транскрипцию, общий алфавит, который можно использовать, понимать.

Ожидаемые результаты:

- Определить принципы работы совместной алфавитной комиссии тюркского мира.

- Углубление сотрудничества между государственными органами, ответственными за декоммунизацию тюркского мира.

- Опираться на опыт тюркских государств, завершивших процесс перехода на латиницу.

- Определить конкретные шаги, которые необходимо предпринять для достижения единства в алфавите.

**Ключевые слова:** общий турецкий алфавит с латинской графикой, языковая политика, турецкие государства, алфавитный праздник, независимые турецкие государства.

Nadir Mammadli

# LANGUAGE POLICY IN AZERBAIJAN AND COMMON TURKISH ALPHABET

**Resume**

The alphabetic policy is also based on global goals, and when solving any issue, all its aspects, the present and the future are taken into account. The future and security of the Turkic peoples depend on the creation of a common Turkish culture. In the modern period, in the Turkic-speaking republics that have gained independence, there has been an increased interest in the study of spelling and orthoepic problems, in the study of lexico-semantic and grammatical layers in synchronous terms, comparative. Ensuring the unity of the alphabet is an integral part of the national language policy. Serious steps to switch to the Latin alphabet have been taken among the Turkic peoples, which are currently states: in addition to Azerbaijan and Turkey, the decision to switch to the Latin alphabet was made in Uzbekistan, Kazakhstan, Kyrgyzstan. Noting that the International Turkic Academy uses a common Latin alphabet of 34 letters intended for the common good of Turkic-speaking countries, Kazakh scientists note that this alphabet is closer to the Azerbaijani alphabet with Latin graphics. Azerbaijan is a bridge between Eastern and Western Turkism, because its language is close to both the Oguz and Kipchak Turkic languages, and the alphabet it uses covers most of the Turkic peoples, so they consider this alphabet as a transcription, a common alphabet that can be used, understood.

Expected results:

- To determine the principles of the joint alphabetic commission of the Turkic world.
- Deepening cooperation between state bodies responsible for the decommunization of the Turkic world.
- To rely on the experience of the Turkic states that have completed the transition to the Latin alphabet.
- Identify specific steps that need to be taken to achieve unity in the alphabet.

**Keywords: common** Turkish alphabet with Latin graphics, language policy, Turkish states, alphabetic holiday, independent Turkish states.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: filologiya elmləri doktoru, professor Rüfət Rüstəmov tərəfindən çapa tövsiyə olunmuşdur**

**KÖNÜL ELMAR ABDULRƏHİMOVA,**
**e-mail: konulabdulrehimova@gmail.com**
***Azərbaycan Respublikasının***
***Prezidenti yanında Dövlət***
***İdarəçilik Akademiyası, Dillər kafedrasının dosenti, f.f.d.***
***Ünvan: Azərbaycan, Bakı, Lermontov küçəsi,74 AZ1001***

## İNGİLİS ATALAR SÖZLƏRİNDƏ İŞLƏDİLƏN MODAL FELLƏRLƏ MƏSDƏR BİRLƏŞMƏLƏRİNİN SİNSEMANTİK ƏLAMƏTLƏRİ

**XÜLASƏ**

Ünsiyyət zamanı şəxsin münasibəti, fikri, hərəkəti ingilis dilində mövcud olan modal fellər vasitəsilə ifadə olunur.

Təqdim olunan məqalədə ingilis atalar sözlərində işlədilən modal felli birləşmələrdə funksional sintaktik və semantik (sinsemantik) əlamətlərinin təhlili aparılır. Cümlənin sintaktik quruluşunda funksional vahid kimi çıxış edən sintaksemlər sinsemantik əlamətləri özündə birləşdirir. Burada ingilis atalar sözlərində ən çox işlədilən *can, may, must, should, would* modal fellərlə əsas feldən ibarət olan birləşmələr müqayisə edilir. *Can* $V_i$ *may* $V_i$, *must* $V_i$, *should* $V_i$, *would* $V_i$ tərkibli belə birləşmələr bölünməz sintaktik vahid olmaqla sintaksem kimi çıxış edir. Sintaksemlər arasında əsasən prosessuallıq, substansiallıq, kvalifikativlik kimi sinsemantik əlamətlərin kateqoriyaları əks olunur. Modal felli birləşmələrdə ifadə olunan sintaksemlərin formal və mənaya malik əlamətləri vardır. Əsas formal əlamət onun leksik tutumu və xəbər mövqeyində hansı nitq hissəsinin işlənməsidir. Digər formal əlamət isə sintaktik əhatədə olan üzvlərlə sintaksemin birləşmə qabiliyyəti ilə səciyyələnir. Hərəkət (aksionallıq) bildirən sintaksemin variantları onun sintaktik mövqeyindən asılıdır. *Can* $V_i$ və *may* $V_i$ fel birləşmələri aksionallıq və mümkünlük (potensiallıq) kimi sinsemantik əlamətləri ifadə edir. *Must* $V_i$ və *should* $V_i$ fel birləşmələri aksionallıqla yanaşı zərurət mənalı sinsemantik əlaməti ilə çıxış edir. *Would* $V_i$ birləşməsi cümlədə aksionallıq və istək, arzu mənalarını kəsb edir. İnkar formasında işlədilən modal fel cümlədə əlavə olaraq inkarlıq (neqativlik) sinsemantik əlamətini ifadə edir. İngilis atalar sözlərində modal felli birləşmələr sintaksemin həm fakultativ, konnotativ (məna çalarlı), həm də kombinator variantlarında çıxış edə bilir.

**Açar sözlər**: *sintaksem, sinsemantik əlamət, prosessuallıq, aksionallıq, potensiallıq, debitivlik, kvalifikativlik, kvalitativlik, stativlik, konnotativ variant, distributiv xüsusiyyət, sintaktik əhatə*

Dünya xalqlarının şifahi xalq yaradıcılığının yaranmasından başlanmış müasir dövrə qədər bir-biri ilə ünsiyyət zamanı insanlar öz münasibətlərini, şəxsi fikri,

hərəkəti, mühakimə və iradəsini danışdıqları dildə mövcud olan xüsusi söz qrupu vasitəsilə ifadə edirlər.

Dilçilik elmində müxtəlif üslubi, məna çalarlarına malik olan xüsusi fel qrupu modal fellər kimi qəbul olunmuş və dilin inkişaf mərhələlərində, müəyyən dövrdə əsas məna daşıyan fel köklərindən köməkçi fel statusuna qədər nitqdə daim işlək olmuşdur. Bununla əlaqədar əksər dillərdə mövcud olan modal fellərə həsr olunmuş külli miqdarda tədqiqat işləri və müqayisəli araşdırmalar aparılmışdır. Avropa dillərində leksik, morfoloji, sintaktik, üslubi və mətn səviyyələrində modal fellərin işlənməsinə dair geniş mülahizələr və elmi nəticələr söylənilmişdir. (R.Quirk, S.Greenbaum, G.Leech, J.Svartvik, A Comprehensive Grammar of the English Language. Longman Group Limited.1987, s.219-236; D.Biber, S.Johansson, G.Leech, S.Conrad, E.Finegan. Longman Grammar of Spoken and Written English. Pearson Education Limited.2000, s.485-502; Г.А.Вейхман. Новое в грамматике современного английского языка. Москва, Астрель.АСТ. 2002, s.107-137)

Təqdim etdiyimiz məqalə ingilis atalar sözlərində işlədilən modal fellərin əsas fellərin məsdəri ilə birləşmələrində struktur və funksional sintaktik və semantik (sinsemantik) əlamətlərinin təhlilindən bəhs olunur. Məlumdur ki, ingilis atalar sözlərinin işlənməsi praqmatik baximdan, konkret kontekst çərçivəsində danışanın dinləyiciyə (müsahibinə) olan münasibətdən asılıdır. Şəxsiyyətin hadisəyə, əşyaya və ya şəxsə olan münasibəti ingilis dilində hansı modal fellərin əsas fellərlə işlənməsi, danışanın nitqində onların gerçəkləşməsi, sintaktik quruluşda yaranan sinsemantik əlamətlərin araşdırılması məqalənin məqsədini təşkil edir. İngilis atalar sözlərində "modal fel+məsdər" tərkibli birləşmələrdən ibarət cümlənin sintaktik quruluşunda funksional vahid kimi çıxış edən sintaksemi səciyyələndirən sinsemantik əlamətlər araşdırılaraq, onların kəsb etdiyi ümumi və fərqli cəhətlər müqayisə edilir.

İstinad etdiyimiz dilçilik nəzəriyyəsinə görə, sintaksem cümlədə funksional, sintaktik vahidi kimi özündə birləşən sinsemantik əlamətləri ilə dilin paradiqmatik və sintaqmatik planında qarşılaşdırılan sıraları təşkil edir. (А.М.Мухин. Функциональный синтаксис. Санкт-Петербург. Наука.1999, s.5-6; А.М.Мухин. Морфологические категории и функциональный синтаксис. Санкт-Петербург. Наука. 2002, s.40-51; s.163-167)

Məqalədə ingilis atalar sözlərində ən çox işlədilən *can, may, must, should, would* modal fellərlə əsas fellərdən ibarət birləşmələrin modallıq mənasını ifadə edən bölünməz sintaksemlərin qarşılaşdırılan sıra üzvləri kimi təhlil olunur. *Can* $V_i$ ($V_i$ – verb infinitive, əsas felin məsdəri), *may* $V_i$ , *must* $V_i$ , *should* $V_i$ , *would* $V_i$ birləşmələrindən ibarət sintaksemlər, eyni qarşılaşdırılan sıranın üzvləri, hərəkət (action - aksionallıq) bildirən sinsemantik kimi ümumi əlamətin olması ilə digər sintaksemlərdən seçilir. Sintaksemlər arasında qarşılaşdırılan sırada hal-vəziyyət mənasını daşıyan stativlik, keyfiyyət mənasını bildirən kvalitativlik və digər ümumi sinsemantik əlamətlər də müvafiq sintaksemlərdə birləşir. Qeyd etmək lazımdır ki, sinsemantik əlamətlərlə yanaşı prosessuallıq, substansiallıq, kvalifikativlik kimi

təsnif olunan əsas kateqoriyalar sintaksemlərdə əks olunur. Sintaksemin əsas formal əlamərləri onun leksik tutumu, cümlədə digər üzvlərlə birləşmə qabiliyyəti, onun bilavasitə sintaktik əhatəsi, müəyyən sintaktik mövqedə işlənməsidir. Birləşmələrdə sintaksemlərin bu cür distributiv xüsusiyyətləri onların bütün əsas variantlarına xas olan cəhətdir. Əyani olaraq *can* $V_i$ fel birləşmələrində hərəkət (aksionallıq) və mümkünlük (potensiallıq) bildirən sinsemantik əlamətlərin ifadəsini müqayisə edək. Məsələn:

1) Little pigeons can carry great messages (Balaca göyərçinlər böyük məktublar gətirə bilir). (Məqalədə verilən ingilis atalar sözləri "Abasquliyev T. İngilis atalar sözləri və onların Azərbaycanca, rusca qarşılıqları. Bakı."Elm" nəşriyyatı.1981" lüğətindən seçilmişdir.)

2) Why keep a cow when you can buy milk? (Süd almaq mümkün olan yerdə inək saxlamaq nəyə gərək?)

Aşağıdakı misallarda hərəkət və potensiallıq kimi sinsemantik əlamətlərlə yanaşı inkarlıq mənası da əks olunur: 1) You cannot judge a tree by its bark (Ağacın saflığını qabığından bilmək olmaz; dona baxma, içindəki cana bax.) 2) You can't make an omelette without breaking eggs (Yumurta sındırmasan, qayğanaq bişirə bilməzsən.)

*Cannot* $V_i$ birləşməsi potensiallıq və inkarlıq kimi sinsemantik əlamətlərə əlavə olaraq, əsas felin leksik tutumuna görə, hal-vəziyyət (stativlik) bildirən sinsemantik əlamətini də ifadə edir: A house divided against itself cannot stand (≈ Birlik olmayan herdə heç nə olmaz).

*Can* modal feli və məchul növündə olan əsas feldən ibarət "*can be* $V_{pII}$, *cannot be* $V_{pII}$" birləşmələr hərəkət (aksionallıq) və potensiallıq kimi sinsemantik əlamətlərini bildirməklə yanaşı məchulluq (passivlik) əlamətini də özündə birləşdirir: 1) The sun can be seen by nothing , but its own light. (Günəşi yalnız öz işığında görmək olar.) 2) Love cannot be forced (Zorla sevmək olmaz.)

Atalar sözləri arasında hərəkət (aksionallıq) və mümkünlük (potensiallıq) bildirən sintaksem təkcə *can* $V_i$ birləşməsində deyil, digər modal fel "*may* $V_i$" modelli birləşmələrdə də təsadüf olunur. Məsələn: Men may meet, but mountains never. (= Dağ dağa rast gəlməz, adam adama rast gələr.) *May* $V_i$ modal felli birləşmənin *may not* $V_i$ inkar forması aksionallıq, potensiallıq və inkarlıq sinsemantik mənasını kəsb edir: One man may steal a horse while another may not look over a hedge. (Birisi at oğurlaya bilər, başqası isə heç çəpərdən də boylana bilməz)

*May* modal feli və məchul növündə olan əsas feldən ibarət (*may be* $V_{pII}$) birləşmədə məchulluq kimi sinsemantik əlamətini bildirir: Every door may be shut, but death's door. (Ölümün qapısından başqa hər qapı bağlı ola bilər.)

*Can* və *may* modal felləri ilə məsdər birləşmələrinin sintaksem təhlili göstərir ki, *can* $V_i$ , *may* $V_i$ aksionallıq, potensiallıq kimi sintaksemlər prosessuallıq bildirən kateqoriyaya daxildir. Belə sintaksemlər eyni sintaksemin konnotativ (yəni çalarlı) variantı, *cannot* $V_i$ , *may not* $V_i$ birləşməsi inkarlığın iştirak etdiyi sintaksemin

konnotativ variantı, *can be* $V_{pII}$ , *may be* $V_{pII}$ birləşməsi məchulluğun mövcud olduğu sintaksemin konnotativ variantı hesab edilir.

*Cannot* $V_i$ birləşməsinin ifadə etdiyi aksionallıq, potensiallıq, inkarlıq mənalarını bildirən konnotativ variantı *if* bağlayıcılı şərt budaq cümləsində fəal iştirak edir. Məsələn; If you can't bite, never show your teeth. (Dişləyə bilmirsənsə, heç dişini də göstərmə.) Aksionallıq, potensiallıq mənasında konnotativ variantı sayılan *may* $V_i$ birləşməsinə *but*, *while* bağlayıcıları ilə başlanan qarşılaşdırma bildirən budaq cümlələrində rast gəlmək olur. Məsələn: No man is so old but thinks he may yet live. (İnsan nə qədər qoca olsa da, yenə yaşamaq istəyir.)

İngilis atalar sözlərində modal fellərlə məsdərdən ibarət birləşmələr arasında digər konnotativ variantda çıxış edən *must* $V_i$ modelli aksionallıq, zərurət (debitivlik) bildirən sintaksemlər də ola bilər. Məsələn: One must howl with his wolves (Qurda qoşulan ulasın gərək.) Qeyd etmək lazımdır ki, zərurət mənasını vurğulamaq məqsədilə *must* $V_i$ birləşməsi ilə ifadə olunan sintaksemin inversiyalı variantı da işlənə bilər: As you brew, so must you drink. (Necə dəmləyibsən, elə də içməlisən.) *Must* $V_i$ modelli birləşmə şərt budaq cümləsi ilə yanaşı baş cümlənin xəbəri mövqeyində işlənərək, aksionallıq və zərurət bildirən sintaksemi kimi çıxış edir: If you dance, you must pay the fiddler. (Oynamaq istəyirsənsə, gərək musiqiçinin haqqını ödəyəsən.)

*Must be* $V_{pII}$ modelli birləşmə aksionallıq, zərurət və məchulluq bildirən sintaksemin konnotativ variantına da rast gəlmək olur: Experience must be bought. (Həyat təcrübəsinin haqqı ödənilməlidir.)

*Must be A* (A – adjective, sifət) modelli birləşmə kvalifikativlik kateqoriyasından olan zərurət və keyfiyyət (kvalitativlik) bildirən sintaksemin konnotativ variantını təşkil edir. Məsələn: Jerers must be content to taste of their own broth. (Başqasına rişxənd edən qoy öz şorbasının dadına baxsın.)

*Must* $V_i$ birləşməsi bəzi atalar sözlərində *should* $V_i$ modelli aksionallıq və zərurət bildirən sintaksemin konnotativ variantı ilə əvəz edilir: The cobbler must (or should) stick to his last. (Çəkməçi qoy öz işi ilə məşğul olsun.) *Must* modal feli kimi *should* feli də *should be* $V_{pII}$ birləşməsində aksionallıq, zərurət və məchulluq bildirən sintaksemin konnotativ variantını ifadə edir. Məsələn: Children should be seen, but not heard. (Uşaqlar gərək baxsınlar, qulaq asmasınlar.)

İngilis atalar sözlərində *would* modal felinin əsas fel ilə birləşməsi cümlənin xəbəri mövqeyində sintaktik cəhətdən bölünməyən müxtəlif analitik formalarında aksionallıq və istək, arzu bildirən sintaksem kimi çıxış edir. *Would* $V_i$ modelli sintaksem həm fakultativ, konnotativ, həm də sintaktik əhatəsindən asılı olaraq kombinator variantlarında olur. Məsələn: A rose by any other name would smell as sweet. (Qızılgülə hər nə ad versən, yenə də ətir saçar.) *Would* $V_i$ sintakseminin tabeli mürəkkəb cümlədə digər modal felli birləşmələrlə sintaktik əhatədə kombinator variantda işlənməsinə rast gəlmək olur. Məsələn: 1) He who would eat the nut, must first crack the shell. (Qozun ləpəsini yemək istəyən əvvəlcə gərək qabığını sındırsın.)

Cümlədə would eat – aksionallıq və istək bildirən sintaksem, must crack – aksionallıq və zərurət bildirən sintaksem paradiqmatik sırada kombinator variantlardır. 2) If each would sweep before his own door we should have a clean city. (Hər kəs öz qapısının ağzını süpürsə, bizim şəhər də təmiz olar.) cümləsində would sweep – aksionallıq və istək bildirən sintaksem, should have – aksionallıq, posessivlik və zərurət mənasında işlənən sintaksemin kombinator variantlarıdır.

İngilis atalar sözlərində işlədilən modal fel ilə əsas fellərdən ibarət birləşmələrin sintaksem təhlili göstərir ki, xəbər mövqeyində çıxış edən sintaksemlər müxtəlif növ sinsemantik əlamətlərə malikdir. Bu əlamətlər xüsusilə hərəkət (aksionallıq), halvəziyyət (stativlik) mənalarını ifadə edən sintaksemə və onun variantlarına xas olan cəhətlərdən biridir. Aparılan sintaksem təhlil praktiki olaraq, onların formal və məzmun tərəflərinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

**Абдулрагимова Кенуль Эльмар кызы**

**РЕЗЮМЕ**

При общении отношение лица к окружающей среде, его мысли, действия передаются посредством существующих в языке модальных глаголов.

В статье рассмотрены и проанализированы функциональные синтаксические и семантические признаки сочетания модальных глаголов со смысловыми глаголами. Также проведен сравнительный анализ сочетаний с наиболее употребительными модальными глаголами *can, may, must, should, would* в английских пословицах. Синтаксемы как функциональные единицы в синтаксической структуре предложения включают в себя синсемантические признаки. Такие синтаксемы выступают как неделимые синтаксические содержательные единицы. Категориальные синсемантические признаки процессуальности, субстанциальности и квалификативности также находят свое отражение в предложениях английских пословиц. Синтаксемы в сочетаниях модальных глаголов имеют формальные и содержательные признаки. Основным формальным признаком синтаксемы в сочетаниях является лексическая наполняемость. Способность сочетаемости синтаксемы с другими членами предложения в синтаксическом окружении – это другой формальный признак синтаксемы. Акциональные синтаксемы в зависимости от их дистрибутивных особенностей могут иметь различные варианты.

В английских пословицах сочетания *can* $V_i$ и *may* $V_i$ приобретают синсемантический признак возможности (потенциальности) наряду с акциональностью. Сочетания *must* $V_i$ и *should* $V_i$ выражают акциональность и долженствование (дебитивность) как синсемантический признак. Сочетание *would* $V_i$ наряду с акциональностью может выражать и синсемантический признак желательности. Отрицательные формы модальных глаголов в сочетании с инфинитивом смыслового глагола имеют синсемантический негативный признак. В структуре английских пословиц акциональные

синаксемы могут выступать в различных (факультативных, коннотативных и комбинаторных) вариантах.

**Ключевые слова**: *синтаксема, синсемантический признак, процессуальность, акциональность, потенциальность, дебитивность, квалификативность, квалитативность, стативность, коннотативный вариант, дистрибутивная особенность, синтаксическое окружение*

**Abdulrahimova Konul Elmar**

## SUMMARY
## SYNSEMANTIC FEATURES OF PHRASES WITH MODAL VERBS IN ENGLISH PROVERBS

A person's relation to the environment, one's thoughts, actions in communication is conveyed by means of modal verbs of the language.

In this article the author describes the analysis of syntactic and semantic (synsemantic) features of phrases with modal verbs. Syntaxemes as functional units in the syntactic structure of the sentence involve synsemantic features in themselves. The phrases with such widely used modal verbs as *can, may, must, should, would* in English proverbs are also compared to one another. *Can* $V_i$ , *may* $V_i$ , *must* $V_i$ , *should* $V_i$ , *would* $V_i$ phrases are presented as indivisible meaningful syntactic units called syntaxemes. Such categorial synsemantic features as processuality, substantiveness, qualificativeness in the syntaxemes find their reflection in English proverbs. Syntaxemes in phrases with modal verbs have formal and meaningful features. The main formal features are lexical usage of syntaxemes and their distributive properties. Another formal feature is the capacity of the syntaxeme to collocate with other elements in a syntactic context. Syntaxemes expressing actions may have different variants dependent on their syntactic positions. *Can* $V_i$ and *may* $V_i$ phrases in English proverbs acquire synsemantic features expressing an action and possibility (potentiality). *Must* $V_i$ and *should* $V_i$ phrases mark an action and necessity (or debitiveness) as a synsemantic feature. The phrases with *would* $V_i$ have synsemantic features, such as an action and volition (want). The negative form of modal verbs may express negation. Syntaxemes denoting an action in English proverbs can be represented in optional, connotative and combinatorial variants.

**Keywords**: *syntaxeme, synsemantic features, processuality, action, potentiality, debitiveness, qualificativeness, qualitativeness, stativeness, connotative variant, distributive property, syntactic context*

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: f.f.d. Gözalova Nigar Rəhim qızı tərəfindən çapa tövsiyə olunmuşdur.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**АБДУЛРАГИМОВА ГОНЧА ВАСИФ**
**Кандидат филологических наук, доцент**
**(AZ1014 Азербайджан, Баку, Насими, Рашид Бейбутов, 134**
**e-mail knospe2124@gmail.com**

# СОВРЕМЕННЫЕ ТЕХНОЛОГИИ ПРЕПОДАВАНИЯ НЕМЕЦКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО

**Резюме**

Вопросы совершенствования технологий в изучении иностранных языков играют большую роль в деле обучения языка. Для повышения эффективности проведения уроков немецкого языка используют следующие образовательные технологии т.е технология коммуникативного изучения немецкого языка. Этот процесс позволяет учащимся лучше овладеть немецким языком, и чтобы они уверенно заговорили на немецком языке, необходимо пробудить в них интерес к этому процессу, ИКТ – это помогает обеспечивать индивидуальность и дифференциацию обучения. Возможность использования Интернет-ресурсов огромны. Интернет даёт возможность для получения любой информации. На занятиях немецкого языка с помощью интернета можно решить ряд дидактиче-ских задач, таких, как формирование навыков и умений чтения, пополнение словарного запаса, формирование мотивации и т.д. Формы работы с компьютерными программами на уроках немецкого языка включают изучение лексики, обучение письму и отработку грамматических явлений. Одним из основных требований является использование интернет-ресурсов. Интернет-ресурсы способствуют формированию на занятиях метода интерактивности. Интерактивность не просто создает реальные жизненные ситуации, но и заставляет обучаемых адекватно реагировать на немецкий язык. Еще применяется технология использования компьютерных программ. Компьютерные технологии помогают в современном мире жить в ногу со временем. Большую помощь при изучении немецкого языка оказывает использование электронных словарей. Внедрение технологий в учебный процесс связано с содержанием и методов образования в процессе обучения немецкого языка. Поэтому основная цель современного педагога – выбрать методы и формы организации учебной деятельности учащихся.Тем не менее, учителя должны пробовать современные методы обучения на уроках, не только для достижения эффективности занятия, но и также из-за разнообразия этих методов. Тема может заинтересовать учащихся, повлиять на восприятие и освоение других предметов, на формирование своего стиля мышления. На занятиях немецкого языка есть много способов донести новые знания до учащихся в игровой и занимательной форме.

**Ключевые слова:** компьютер, интерактивная доска, проект, современная технология, игра.

**Введение в проблему**. На сегодняшний день современная система образования требует на занятиях немецкого языка использовать различные методы и вспомогательные средства. Большинство учебных заведений имеет доступ к этим вспомогательным средствам, таким, как компьютеры, интерактивные доски. Общество не только поддерживает инновацию в образовании, но и требует их применения. Если сегодня вы хотите работать в сфере образования, вы должны знать, хотя бы основы работы с компьютером. А если есть возможность работать и с другими устройствами, например с интерактивной доской, то это, несомненно, большое преимущество.

Но не все педагоги используют на уроках эти средства, хотя большинство учебных заведений имеют их в своём распоряжении. Многие педагоги отказываются использовать новые методы на уроках немецкого языка в основном по нескольким причинам. Либо они боятся пробовать что-то новое, либо у них недостаточно хорошие идеи для новых методов обучения. Кроме того, большинство учителей отказываются от использования инновационных методов из-за их трудоемкости. Придумать идею, подумать о чем-то, подготовить все необходимые инструменты и материалы для конкретного занятия – все это занимает слишком много времени. Если бы каждый педагог занимался этой напряженной подготовкой полный рабочий день, у него почти не осталось бы свободного времени.

Учащиеся не хотят без движения сидеть на занятиях, просто слушать педагога. Это приносит им мало пользы. Если занятия не интересные, им трудно высидеть на занятиях. Педагоги могут на занятиях сидеть, стоять или ходить в любое время. При этом они могут утомлять учащихся монотонными лекциями, заданиями по выполнению классических упражнений в тетрадях или просто выполнением одних и тех же заданий. Педагог должен стимулировать в них воображение и любознательность. Есть много способов, которыми это может быть достигнуто. Мы можем рассмотреть новые методы, которые подходят конкретно для немецкого языка.

**Степень исследованности проблемы**. “Начало попыток применения проектного и других методов приходится на конец XIX – начало XX века» [2; 96]. Проблема современных технологий преподавания немецкого языка как

иностранного является достаточно хорошо исследованной, так как в

последние годы активно развиваются методы и подходы к обучению

иностранным языкам. Ведущими исследователями следует назвать таких, как Маркус Бернхард – профессор немецкого языка и лингвистики. Клаус

–Питер Зеппельт- профессор немецкой лингвистики, Леонхард Лайзингер-профессор компьютерной лингвистики и т.д.

В частности, существуют исследования, посвященные применению Различных методов и технологий в обучении немецкому языку как иностранному, таких как коммуникативный метод, метод обучения через игру и т.д. Также проводятся исследования ,направленные на изучение эффективности использования различных технологий в обучении, таких как компьютерные программы, интернет-ресурсы, мультимедийные материалы и другие. Однако, в связи с быстрым развитием технологий,

появляются новые исследования, которые позволяют углубиться в проблему и изучить ее более детально. Также стоит отметить, что проблема современных технологий преподавания немецкого языка как иностранного может иметь множество аспектов и подходов, которые также требуют дальнейшего изучения и анализа.

**Цель данного исследования**. *Целью данной статьи является использования* современных технологий на уроках немецкого языка , обеспечивание индивидуальности обучения с учетом способностей и уровни учащихся. *Использования* современных технологий является формирование навыков и умения чтения, совершенствовать умения письменной и устной речи , пополнять словарный запас, формировать мотивацию изучения немецкого языка, создать комфортную и свободную атмосферу.

**Методы исследования**. В данной статье будут изложены различные методы такие как: метод проектов, работа с интерактивными досками, игровая технология, и т.д.

**Основное содержание**. **О некоторых методах изучения немецкого языка.**

Проектное обучение является важным методом обучения, который должен использовать каждый педагог. С помощью проектного метода учащиеся не только усваивают информацию по определённой теме, но и учатся работать вместе, а также отбирать, сортировать и обрабатывать информацию из разных источников. Им предстоит представить свои работы, выбрать самое важное и отстоять свое мнение. При выборе проекта фантазия не знает границ, нужно лишь учитывать возраст и уровень успеваемости учащихся. Метод подходит для работы в группах не менее трёх человек. Также возможна совместная работа над проектом.

Каждый проект должен состоять из нескольких этапов.

1. учащиеся или их педагог находят тему или проблему
2. Педагог или учащиеся сами решают, насколько большими должны быть группы, в которых они будут работать.
3. Каждая группа работает самостоятельно.
4. информации из различных источников (книги, интернет, журналы или газетные статьи, фильмах и т.д.)
5. Группа сортирует собранную информацию и согласовывает результат. Также педагог может самостоятельно определить результат.
6. Результатом может быть, например, создание доски объявлений, плакаты, фотоальбома и т.д.
7. Учащиеся работают над результатом в проекте. В этом педагог может помочь и посоветовать.
8. В конце группы представляют результаты проекта в виде презентации.
9. Последний пункт работы – это анализ и оценка.

Проектный метод имеет много преимуществ, о чем уже говорилось выше. Метод развивает необходимые навыки и формирует самостоятельность. Учащиеся получают что-то новое в более увлекательной форме. Во время проекта они

работают с различными источниками (книги, журналы, интернет, собственные фотографии, картинки из газет или журналов, информация из новостей, из рассказов родителей и т.д.). В проектной работе главное – не столько время, сколько результат. Менее способные учащиеся с плохой концентрацией внимания также могут добиться успеха. Проект также улучшает социальный климат. Учащиеся понимают связи и могут все испытать сами, в отличие от занятий, на которых педагог им все рассказывает, а они пассивно воспринимают все. Эта форма обучения доставляет учащимся удовольствие и пробуждает их любопытство и мотивацию к обучению.

У методов занятия имеются не только положительные стороны, но и отрицательные стороны. Например, несоответствующий шум в аудитории или переключения с немецкого на родной язык при работе над проектами часто является проблемой. Ещё один недостаток – это занимает много времени. При выборе темы имеются много возможностей. Необходимо убедиться, что тема не слишком узкая и не слишком широкая, и что можно найти достаточное количество информации по этой теме.

Подходящие темы включают:

а) Достопримечательности, знаменитые личности из стран, где говорят на немецком языке.

б) Путешествия, например, через Берлин в Вену.

в) Город, в котором находится наша школа.

г) Образование в Азербайджане по сравнению с образовательной системой Германии.

д) История городов Берлина и Баку.

Идеальным опытом для обеих сторон может быть совместный проект. Совместное обучение не должно заканчиваться в рамках проекта, но может быть и продолжено.

Перед началом проекта каждый выдвигает различные предложения по тематике, и затем каждый выбирает тему. Они распределяют задания, каждый должен получить материалы из определённого источника. Каждому из них поручается отдельная работа. Кто-то придумывает заголовки, кто-то пишет тексты, кто-то наклеивает фотографии и другие картинки. После завершения работы приступают к подготовке презентации. Обе группы представляют свои результаты, используя плакат.

Например, возьмём тему «Das Schulsystem in Deutschland und in Aserbaidschan». Сначала мы составляем план к презентации:

1.Einleitung –Введение

2.Mitte -Содержание

3.Meinung -Мнение

4.Schluß -Заключение

После плана студенты приступают к презентации.

**Работа с интерактивными досками**. Как мы отмечали, на уроках немецкого языка нужно использовать интерактивные доски. В случае интерактивных досок это не совсем новая технология, поскольку она уже использовалась в 1990-х годах. Интерактивная доска представляет собой сенсорную поверхность, посредством которой происходит взаимная активная коммуникация между пользователем и компьютером с одной целью – обеспечить максимальную наглядность отражаемого конвента» [3; 56].

Работа с интерактивными досками позволяет предмет представить по-новому. Учителя и учащиеся имеют доступ к богатым источникам учебных материалов – текстам, изображениям и видео .

Интерактивная доска может использоваться как в коллективной работе, так и в индивидуальной работе со студентом (например, на экзамене)«Доска подходит для учащихся с особыми потребностями, особенно с дефектами зрения. Доска позволяет увеличивать текст и изображения. Неподвижные учащиеся также могут участвовать в работе. Им даже не нужно подходить к доске, если у них есть планшет [10; 75]. Интерактивная доска может мотивировать учащихся, но сама по себе доска этого сделать не может.

Вызывать интерес учащихся должен преподаватель, а интерактивная доска может ему в этом помочь. «С помощью доски можно лучше визуализировать материал урока и дольше удерживать внимание учащихся» [5;87]. Когда два или более учащихся работают с доской одновременно, иногда доска не реагирует должным образом. Часто оказывается, что стационарное крепление интерактивной доски – это большой минус.

Если использовать интерактивную доску очень часто, мотивация и интерес учащихся снизятся. Это проблема легко решается путем изменения действий. «Некоторые учителя просто используют доску как проекционный экран, но это снижает интерактивность» [6; 95].

Создание интерактивных упражнений занимает очень много времени. Это основная причина, по которой учителя не хотят работать с интерактивной доской. Некоторые педагоги вообще не умеют работать с компьютером, поэтому не могут самостоятельно подготовить упражнения и материалы. Педагог должен быть обучен работе с интерактивной доской.

Как мы говорили выше, обучения иностранного языка с помощью компьютеров имеет много преимуществ. Вы можете предложить учащимся дополнительные упражнения и коммуникативные задания, а также передать актуальную географическую, экономическую или политическую информацию о немецкоязычных странах и контакте с окружающим миром. Вы также можете играть в различные игры (например, игры для тренировки словарного запаса и различных грамматических явлений). Существуют также различные программы самообучения. При работе с компьютерами учащимся необходимо проявлять большую

самостоятельность, что является важным навыком. Они улучшают свои навыки письма и чтения на компьютере.

Преподаватель может показать фильм на немецком языке. Во время этого занятия атмосфера в аудитории улучшается.

Среди недостатков, связанных с работой на компьютере, есть, например, недостаточная обратная связь и дорогостоящие обучающие программы, которые часто плохо коммуникативные. Упражнения однообразные, часто с ошибками и не дидактичные. Программы часто не соответствуют целевой группе и не соответствуют рамочной программе обучения.

Технические проблемы могут стать серьёзным препятствием. Некоторые учащиеся также могут злоупотреблять ситуацией, и когда педагог не видит, что они делают, они переходят к другим занятиям.

Эту проблему может решать программа, позволяющая педагогу следить за активностью учащихся на всех компьютерах.

Многие преподаватели не используют компьютеры при обучении немецкого языка не только потому, что у них нет возможности, но главным образом потому, что они боятся, что техника неожиданно выйдет из строя или, что они потеряют свой авторитет, если учащиеся лучше владеют компьютером, чем учитель. К работе с компьютером также необходимо заранее подготовиться, и некоторые учителя не готовы жертвовать для этого своим свободным временем. Для некоторых учителей, предпочитающих обычные правила, работа с компьютером может означать нарушение их стереотипа. Но учитель должен быть гибким и открытым к изменениям.

Есть много преимуществ, но есть и недостатки в использовании компьютера в обучении немецкому языку. Тем не менее, нужно использовать компьютеры, по крайней мере, раз в неделю, потому что компьютер – естественная часть жизни ребёнка. Учитель использует компьютеры для повышения навыков компьютерной грамотности учащихся.

Подходящей идеей для инновации в обучении немецкому языку, безусловно, является преподавание немецкого языка в течение всего учебного дня. Большим преимуществом этого метода обучения является то, что вам не нужно прерывать только что изученную тему. Вам не нужен, делать перерывы, вы можете делать их по мере необходимости, не прерывая работу, которую вы только что делали. На практике этот метод может, применен к любой форме обучения. При фронтальном обучении, когда учащийся сидят парами за партами и смотрят в доску, они вскоре начинают скучать. Две парты лучше всегда ставить вместе таким образом, чтобы учащийся сидели друг напротив друга.

Лучший способ преподавания немецкого языка в течение дня – это когда учащиеся работают в разных местах, где у них разные задачи. Учащийся могут выполнить каждое задание по своему выбору и отправиться в любое место, если оно бесплатно. В любое время они могут использовать инструменты, которые педагог подготовил для них в определенном месте, например, словарь, карты,

правила правописания, обзор грамматики и т.д. Далее проверяются выполненные задания совместно с учителем или индивидуально с помощью контрольного листа. В последствие также могут задавать педагогу дополнительные вопросы.

Лучшее занятие на весь день – это работа с текстом. Работа с текстом часто используется учителями. Но как подобрать правильный текст для конкретной группы? Прежде всего, учитель должен учитывать освоенный словарный запас.

Далее ему предстоит определить цель работы с текстом, при этом главной целью должно быть содержание. Преподаватель должен продумать, требует ли он общего или детального понимания текста, хочет ли он использовать текст для тренировки грамматики, общения, специальной лексики или чего- то еще. Важно учитывать, будут ли учащиеся слышать, но не видеть текст, или слышать и также видеть, читать текст индивидуально или хором и т.д. Педагог должен тщательно продумывать задания к каждому тексту. Педагог может найти тексты в книгах, журналах, газетах или в интернете.

Самым большим преимуществом этого метода является тот факт, что вы можете создать большее количество заданий, чем на классическом уроке. Учащимся трудно, когда они начинают тему и должны через несколько дней вспомнить, что педагог сказал на предыдущем уроке. Лучше, если вся тема будет представлена, объяснена и отработана разными способами в один день.

Как и любой метод, этот также имеет некоторые недостатки. Условием реализации этого метода является наличие в аудитории только одного или максимум двух учителей. Еще одним недостатком является тот факт, что учащийся не всегда могут сесть в том месте, где они хотят работать. Последним и в то же время самым большим недостатком для педагога являются затраты времени.

Одним из подходящих методов оживления урока является включение игр. С помощью игр учащиеся не только практикуют конкретный предмет, но также улучшают свои навыки общения и самовыражения и расширяют словарный запас. Игры также должны мотивировать учащихся и доставлять им удовольствие. Они узнают, как побеждать и проигрывать, и как работать вместе, когда они играют в игру в команде. Игры могут быть разнообразными по своему содержанию, организации и проведения. “С помощью игр можно грамматические, лексические навыки осуществить.”[7;26]

Одни игры на занятиях можно провести индивидуально, другие коллективно.

Индивидуальные игры можно проводить в любое время, коллективные желательно в конце урока. В процессе обучения немецкому языку употребляются деловые игры, в основе которых лежит модельный метод обучения.

Игра на занятиях по немецкому языку – это не просто коллективные развлечение, а основной способ обучения языка на начальном этапе. В игре все равны, любой может играть, независимо от того, что он слабый или сильный. Чувства равенства даёт возможность свободно употреблять слова, разговаривать и благотворно влияет на обучения языка. Развития личности, мышления, памяти и воображения

происходит в процессе употребления игр во время занятиях. Игра даёт возможность овладеть всеми речевыми навыками, позволяет вызвать чувство удовлетворения и радости.

В последние годы многие грамматисты задают вопрос, реально ли играть на уроках при изучении грамматики немецкого языка. Во многих литературных источниках можно найти упражнения по изучению грамматики в игровом стиле. Известные грамматисты , как Херман Финк и Михаил Кёниг пишут:» Игры дают не только возможность читать, но и обдумать, быть внимательными и играть на уроке»[ 2, 94]

Как нам известно, грамматисты представляют шесть игровых принципов, которые можно не только связать с грамматической структурой, но и употребить с определённой темой. [ 8; 10-11]

1.Поиск слов - Первый игровой принцип.

Например : Поиск глагола

Многие грамматические упражнения в немецком языке имеют коррективные познания и пополнения глагольных форм в различных временах и лицах. Рассмотрим грамматическую таблицу на занятиях из книги «Deutsch Aktiv". Педагог читает глагольную форму. Например «gehen". Учащиеся задумываются и отвечают "ging/ ist gegangen" . В этом случаи учащийся должны быть очень внимательными и дать правильный ответ.

2. Необычные истории – Второй игровой принцип.

Педагог рассказывает необычную историю. Далее требует написать обоснование или объяснение содержания (5-10 предложения). После того как каждый учащийся придумывает несколько предложений, можно записать на доске. Вместо необычной истории другая альтернатива, можно показать интересную картинку или фото.

3. Исправление ошибок в виде игры. Например: Аукцион – третий игровой принцип.

Педагог часто встречается с неправильными предложениями при исправлении работ, которые допускаются многими и эти типичные ошибки обсуждаются со всеми. Эти обсуждение для многих очень утомительное, особенно если эти ошибки они не допускали. Многие грамматисты могут решить эту проблему. Педагог пишет 15 предложений на рабочем листе: 5 правильных и 10 неправильных. Потом он объясняет понятие «Аукцион». Д. Каждая пара имеет в своём распоряжении 5000 Евро. Минимальная цена за предложения составляет 200 Евро. Выигрывает тот, кто больше купит на аукционе правильные предложения, а также владеет большим количеством денег. Это означает, должны умно разделить деньги и возможно не купить неправильные предложения. Педагог читает первое предложение, если оно правильное, то предлагает цену. В конце аукциона устанавливается победитель. Преимущество этого анализа ошибок: интенсивное занятие с синтаксисом, быстрое составление гипотезы и находить настоящую мотивацию.

4. Соревнование- четвёртый игровой принцип.

Например: угадывать вопросы. Как правило, педагог задаёт вопрос, который он уже знает. Предлагается простое игровое упражнение для развития вопросов, которые вовремя можно применить и употребить вопросительные местоимения. В книге «Deutsch als Fremdsprache» представляется игра на грамматическую тему Aktiv/Passiv.[9; 46] В начале педагог делит всех на 2 группы: А и В. Далее группы пишут 10 предложений в Активной форме. Участники группы А читают предложения в Активной форме и требуют группу В переделать в Пассивную форму.

5. Игры с карточкой- пятый игровой принцип.

Например: составить предложения. Главное в начале занятия, объяснения педагога порядка слов в немецких предложениях. Педагог составляет игровые карточки, далее учащийся должны составить правильное предложение.

6. Память- шестой игровой принцип.

Игровой принцип память очень простой и известный принцип . В начале составляются карточки и учащийся должны выбрать 2 карточки, которые подходят друг другу. Пример с карточками можно объяснить любую грамматическую тему. С помощью этого простого принципа можно часто облегчить грамматические структуры.

**Выводы**. В настоящее время существуют много интересных обучающих программ, такие, как программа отработки произношения, программа для отработки грамматики, помогает усвоить грамматические явления языка. Также существует программа для виртуального общения. На сегодняшний день педагог должен хорошо ориентироваться в мультимедийных учебниках и Интернет-ресурсов. Когда мы говорим об использовании интернета в изучении немецкого языка выступают различные виды речевой деятельности: аудирование, говорение, чтение, письмо.

Таким образом, компьютерные технологии способствуют усилению мотивации и интереса учащихся к немецкому языку. Применение компьютерных технологий в обучении приносит удовольствие от преподавания, радость от результата, доставляет всем наслаждение от процесса изучения.

## СПИСОК ЛИТЕРАТУРЫ.

Anne Spier „ Mit Spielen Deutsch lernen“ 1999 S 160

1. Hermann Funk und Michael Koenig «Grammatik lehren und lernen”1991 München S. 113
2. Heinz Klippert „Methoden-Training“ 2010 S.275
3. Jürgen Baumann, Tilman von Brand „Methoden im Deutschunterrich” 2015 S 237
4. Johannes Bastian,Arno Combe,Roman Langer „Feedback-Methoden“ 2016 S 200

6.Martin Kohn «Lehren und Lernen mit interaktiven Tafelbildern” 2011 S200

7. Renata Czaplikowska ‚Artur Dariusz Kubacki „Methodik des Unterrichts Deutsch als Fremdsprache“ 2016 S.234
8. Renate Osterloh „33 kleine Spiele für den Deutschunterricht“ 2010 S. 53

9. Stefan Krammer, Matthias Leichtfried, Markus Pissarek „Deutschunterricht im Zeichen der Digitalisierung“ 2021 Wien S.238
10. Tilman von Brand « Deutsch unterrichten” 2010 S 285

**ABDULRƏHİMOVA QÖNÇƏ**

## ALMAN DİLİNİN XARİC DİL KİMİ TƏDRİSİNİN MÜASİR TEXNOLOGİYALARI

## XÜLASƏ

Xarici dillərin öyrənilməsində texnologiyaların təkmilləşdirilməsi məsələləri mühüm rol oynayır. Alman dili dərslərinin aparılmasının səmərəliliyini artırmaq üçün aşağıdakı təhsil texnologiyalarından, yəni alman dilinin kommunikativ öyrənilməsi texnologiyasından istifadə olunur. Bu proses tələbələrə alman dilini daha yaxşı mənimsəməyə imkan verir və onların alman dilində inamla danışması üçün onlarda bu prosesə maraq oyatmaq lazımdır, İKT- bu təhsilin fərdiliyini və differensiallığını təmin etməyə kömək edir. İnternet resurslarından istifadə imkanları çox böyükdür. İnternet istənilən məlumatı əldə etməyə imkan verir. İnternetdən istifadə edilən alman dili dərslərində oxu bacarıq və vərdişlərinin formalaşdırılması, lüğət ehtiyatının artırılması, motivasiyanın formalaşdırılması və s. bu kimi bir sıra didaktik tapşırıqları həll etmək mümkündür. Alman dili dərslərində kompüter proqramları ilə iş formalarına lüğətin, yazının öyrənilməsi və qramatik şəkillərin işlənməsi daxildir. Əsas tələblərdən biri internet resurslarından istifadədir. İnternet resursları dərsdə interaktivlik metodunun formalaşmasına kömək edir. İnteraktivlik təkcə real həyat situasiyaları yaratmır, həm də tələbələri alman dilinə adekvat yanaşmaya məcbur edir. Həm də kompüter proqramlarından istifadə texnologiyası da tətbiq olunur. Kompüter texnologiyaları müasir dünyada zamanla ayaqlaşmağa kömək edir. Alman dilinin öyrənilməsində elektron lüğətlərdən istifadə böyük kömək göstərir. Texnologiyanın tədris prosesinə tətbiqi alman dilinin tədrisi prosesində təhsilin məzmunu və metodları ilə bağlıdır. Buna görə də müasir müəllimin əsas məqsədi şagirdlərin təhsil fəaliyyətinin təşkili üsul və formalarını seçməkdir.

Bununla belə, müəllimlər dərsdə müasir tədris üsullarını təkcə təhsilin səmərəliliyinə nail olmaq üçün deyil, həm də bu üsulların müxtəlifliyi üçün sınamalıdırlar. Mövzu tələbələri maraqlandıraraq, digər fənlərin qavranılmasına və dərk edilməsinə, öz düşüncə tərzinin formalaşmasına təsir göstərə bilər. Alman dili dərslərində yeni biliklərin oyun və əyləncə formasında şagirdlərə çatdırmağın bir çox üsulları vardır.

**Açar sözlər:** kompüter, interaktiv lövhə, layihə, müasir texnologiya, oyun.

**ABDULRAHIMOVA GONCHE VASIF**

## MODERN TECHNOLOGIES OF TEACHING GERMAN AS A FOREIGN LANGUAGE

**Summary**

Issues of improving technologies play an important role in learning foreign languages. To increase the efficiency of conducting German language classes, the following educational technologies are used, that is, the technology of communicative learning of the German language. This process allows students to get better the German language, and in order for them to speak German confidently, they need to be interested in this process, ICT helps to ensure the individuality and differentiation of this education.

The possibilities of using Internet resources are huge. The Internet allows you to get any information. It is possible to solve a number of such didactic tasks, formation of reading skills and habits, increase of vocabulary, formation of motivation, etc. in German language classes where is used the Internet.. Work with computer programs in German language classes includes the study of vocabulary, writing and the processing of grammatical images.One of the main requirements is the use of Internet resources. Internet resources help to form the method of interactivity in the lesson. Interactivity not only creates real-life situations, but also forces students to approach the German language adequately. The technology of using computer programs is also applied. Computer technologies help to keep up with the times in the modern world. The use of electronic dictionaries is of great help in learning the German language. The application of technology to the teaching process is related to the content and methods of education in the process of teaching the German language. Therefore, the main goal of a modern teacher is to choose methods and forms of organizing students' educational activities.

However, teachers should try modern teaching methods in the classroom not only to achieve the efficiency of education, but also for the variety of these methods. The subject can interest students, influence the perception and understanding of other subjects, and the formation of their own way of thinking. In German language classes, there are many ways to convey new knowledge to students in the form of games and entertainment.

**Keywords:: computer, interactive board, project, modern technology, game.**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: elmləri namizədi , Sobor Aida tərəfindən çapa tövsiyə olunmuşdur**

**NİGAR MİRZƏLİYEVA**
**pedaqogika üzrə fəlsəfə doktoru**
**ADİU**
**İstiqlaliyyət küç., 6**
**e-mail: Nigar-aliyeva-adiu@mail.ru**

# ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI SOSİAL ŞƏBƏKƏLƏRDƏN İSTİFADƏ METODİKASI

## XÜLASƏ

İnnovasiya sadə şəkildə yeni ideya, metod və yaxud vasitənin təqdim olunmasıdır. İnnovasiya inkişafın həqiqi təcəssümüdür. Zaman keçdikcə bütün elm sahələrində yeni fikirlərə rast gəlinir. Cəmiyyətin inkişafı və dövrümüzün reallığı olan qloballaşma xarici dillərin tədrisinin metodikası və metodologiyasında da yeniliklərin meydana gəlməsinə birbaşa təsir göstərməkdədir. Müasir dövr xarici dillərin tədrisi metodikası və metodologiyası üçün *"post-metodika erası"* hesab olunur və tədrisdə eklektizm yanaşması əsas götürülür. Eklektizm konseptual bir yanaşma kimi yalnız bir paradiqmanı və yaxud müəyyən fərziyyələri deyil, ümumilikdə, müxtəlif çoxsaylı yanaşma, forma, üsul və ideyaları özündə ehtiva edir. Tədris prosesinə eklektik yanaşma o deməkdir ki, qarşıya qoyulan məqsədə nail olmaq üçün bizə məlum olan yanaşmalar, metodlar və nəzəriyyələrdən ən uyğun olanını seçirik və tədrisdə tətbiq edirik. İstənilən təhsil verən özünün istifadə etdiyi metodları, istinad etdiyi yanaşmaları və üsulları özü üçün aydınlaşdırmalı, onların əsasında dayanan nəzəriyyələrdən xəbərdar olmalıdır. İlk növbədə biz tədris prosesindən danışarkən onun komponentləri haqqında aydın təsəvvürə malik olmalı və adını çəkdiyimiz anlayışların – metod, yanşma, üsulun fərqini, nə demək olduğunu aydın dərk etməliyik. Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdur. İlk öncə ona görə ki, məhz bu sahələrdə təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir. Dillər, onlara məxsus söz və ifadələr daim biri- birinə inteqrasiya edir. Bu mənada dillər bir-birindən təkcə bu və ya digər qrammatik mənaları ifadə edib-etməməsinə görə deyil, həm də daha çox necə səslənmələri ilə fərqlənirlər. Müxtəlif dillərdə ifadə üsullarından istifadə etmə baxımından müxtəliflik, fərqlər olduğu kimi mühüm oxşarlıqlar da vardır ki, bunlar da səslərin kəsb etdiyi mənaların öz təbiəti, mahiyyəti ilə əlaqədardır. Hər bir sözün yaranması müəyyən ehtiyacdan doğur. Ünsiyyətin müəyyən şəraitə bağlı ehtiyacından yaranan söz sonra bütün dil daşıyıcıları üçün zərurətə çevrilir.

**Açar sözlər: şifahi nitq, metod, dil, sosial şəbəkə, ünsiyyət**

Şifahi nitqin sosial şəbəkələr vasitəsilə inkişaf etdirilməsi zamanı müəllim amili vacib sayılır. Həqiqi dil mühitinin olmadığı bir şəraitdə müəllim tələbələr üçün nümunə olmalıdır. Müəllim həm dil daşıyıcıları, həm də dildən ünsiyyət vasitəsi kimi istifadə edən, lakin dil daşıyıcısı olmayan şəxslərlə ünsiyyətə girərək onların professional maraqları çərçivəsində olan mövzular ətrafında söhbət etməyi bacarmalıdır. Burada müəllim sosial medianın imkanlarından yararlanarkən istifadə olunan materialların seçimində vacib rol oynayır. Belə ki, onlardan hansıların faydalı olub olmadığını müəyyənləşdirir. Müəllimin dil vasitələri və diskursu tənzimləyən strukturlardan istifadə etmə strategiyaları maksimum dərəcədə linqvistik baxımdan savadlı olan dil daşıyıcılarının strategiyalarına uyğun olmalıdır. Fikrimizcə, dillərin tədrisinə tələbəyönümlü yanaşmanın tətbiqi bu islahatların ən önəmlisidir.“Tələbəyönümlülük”(“learner-centredness”) termininin tarixini araşdırarkən ingilis dilində son zamanlar bu terminə kifayət qədər tez-tez rast gəldiyimizi qeyd etməliyik. Dilöyrənənlərin maraqlarının inkişafına məzmun, metod və digər vasitələr həlledici təsir göstərir. Təbii ki, işin məzmun və metodlarının seçilməsinin əsasında hamıya məlum olan didaktik prinsiplər durur. Bunlar tədris prosesinin hər anında təlim strategiyası və taktikasını müəyyən etməyə təkan verən başlanğıc müddəalardır. Sosial şəbəkələrdən, daha dəqiq desək, internetin imkanlarından faydalı şəkildə yararlanaraq, müxtəlif fəaliyyət növlərindən ingilis dilinin tədrisində tətbiq etmək olduqca vacib və sərfəli yollar hesab edilir. Bu zaman mövzu marağa uyğun olaraq, sərbəst şəkildə seçilə bilər. Belə ki, dilöyrənənlər istədikləri mövzuda debatlar təşkil edə bilərlər. Bu növ çalışmaları yerinə yetirərkən onlar lazım olacaq leksik vahidlər və qrammatik strukturları müəllimin göstərişi ilə öz nitqlərində məşq etmiş olurlar. Bu işlər zamanı dilöyrənənlər sosial şəbəkələr üzərindən də müəyyən layihələr ətrafında birləşə bilərlər. Belə ki, layihə metoduna əsaslanan bu fəaliyyət zamanı bəzi prinsiplər əsas götürülə bilər. Tədris zamanı müxtəlif tələbə qruplarının təşkili həssaslıqla həyata keçirilməlidir. Bu zaman tapşırığın təbiəti, dilöyrənənlərin bir-birlərinin işinə reaksiyası vacib sayılır. Başqa sözlə, bütün bunları düzgün təşkil edərək, neqativ reaksiyalardan fərqli olaraq, pozitiv öyrənmə situasiyaları yaratmalıyıq. Dillərin tədrisində müxtəlif tələbələrin maraqlarına cavab verə bilən fərqli metod və üsulların istifadə edilməsi onlarda motivasiyanın formalaşdırılmasına kömək edir, onları öyrənmə prosesinin fəal iştirakçısına çevirir və dillərin sərbəst öyrənilməsi bacarığının inkişaf etdirilməsini təmin edir. Tələbələri xarici dildə sosial şəbəkələrin faydalı tərəflərindən istifadə edərək, real ünsiyyətə cəlb etməklə onların öyrədilən dildən səlis və düzgün istifadə etmək bacarığına malik və kommunikativ sərişdəsi olan dil mütəxəssisləri kimi yetişdirilməsini təmin etmək üçün səmərəli şərait yaratmış olarıq. Belə ki, həm xarici dili tədris edən müəllimləri, həm də bu və ya digər xarici dili öyrənən tələbələri birləşdirən maraqlardan ən önəmlisi öyrənilən dildən kommunikasiya vasitəsi kimi istifadə etməkdir. Burada da yuxarıda qeyd etdiyimiz kimi, internetin yaratdığı imkanlardan bəhs etməmək mümkün deyil. Onu da qeyd etmək lazımdır ki, internet əsaslı müzakirələr düzgün istiqamətdə keçmədiyi halda, müəllimin vəzifəsi onu düzgün istiqamətə yönəltmək, eyni zamanda utancaq tələbələri və müzakirədə iştirak etməkdən imtina edənləri həvəsləndirərək, onları dərsdə baş verən proseslərin

iştirakçılarına çevirməkdən ibarətdir. Göründüyü kimi, dilöyrənənlərin tam müstəqilliyi və fəallığı şəraitində tədris materialının şüurlu və tam mənimsənilməsinə, onların psixoloji inkişafına yardım edən dərs-interaktiv dərs kimi başa düşülür. Belə dərslərdə qazanılmış biliklər təhsilalanların yaddaşında uzun müddət qalır və onlar təbii olaraq, ünsiyyət prosesində fəal iştirak edirlər. Xarici dillərin tədrisində həyata keçirilən sosial şəbəkə əsaslı işlər ilk növbədə tədrisin tələblərinə cavab verməlidir. Bu o deməkdir ki, o məhdud formalı təcrübi məqsədlərə deyil, tədrislə bağlı qarşıya qoyulmuş məqsədlərə cavab verməlidir. Bu işlər təhsilalanların şəxsiyyətinin formalaşdırılmasına yönəldilməlidir. Tələbəyönümlü tədrisin başqa bir xüsusiyyəti bu prosesdə proqramlaşdırma tərzindən düzgün yararlanmadır. Tədris materialı proqramlaşdırılarkən hissələrə ayrılır. Müəllim tədris materialının birinci hissəsini qrupa təqdim edir, tələbələr həmin hissəni qəbul edir, qavrayırlar, müəllim bu hissəyə aid izahat verir, tələbələr bu barədə düşünür, onu anlayırlar, müəllim nəzarət məqsədli sual qoyur, tələbələr ona cavab verirlər. Cavab düz olduqda tədris materialının sonrakı hissələrinin hər biri ilə əlaqədar yenidən yuxarıdakı ardıcıllıqla iş aparılır.Tələbəyönümlü tədris prosesində istifadə olunan yanaşmalardan biri də alqoritmləşdirmə tərzidir. Alqoritmləşdirmədə adətən, tədris bacarıqları və idrak bacarıqları iştirak edir. Tədris materialının alqoritmləşdirilməsi zamanı bir-birini tamamlayan bir neçə idrak əməliyyatı icra edilir. Onu da qeyd edək ki, KİV sənayesinə televiziya, radio, kitab, qəzet, jurnal, səsyazmalar, kino, internet daxildir. Televiziya ilk növbədə informasiya mənbəyidir. TV dili məhz qaydaya salınmış, ədəbi dil normalarını özündə ehtiva edən şifahi dildir. Bu mənada dinləyicilərin böyük həssaslıqla yanaşdıqları diktor və aparıcılardan səsləri, sözləri məharətlə, xüsusi vurğu və intonasiya ilə istifadə etmək tələb olunur. Dilin vəzifəsi ancaq informasiya vermək və ünsiyyət vasitəsi olmaqla bitmir. O, etik mədəniyyətin, milli şüur və təfəkkürün vahid göstəricisi kimi xarakterizə olunur. Dil bir sistem kimi öz ictimai funksiyasını nitqlə həyata keçirir. Kütləvi informasiya vasitələrində nitq yeni mükəmməl keyfiyyət qazanır. Burada nitq bir-birindən fərqlənən müxtəlif üslublarda - danışıq, publisistik, ədəbi-bədii üslubda özünü göstərir. Televiziyada musiqi, əyləncə, şou verilişlərində isə məişət üslubu üstünlük təşkil edir. Bu əsasən müsahibələr, iştirakçıların bir-biri ilə dialoqu formasında əks olunur. TV dilində bütün informasiyalar ədəbi dilin fonetik, leksik, qrammatik səviyyələrini əhatə edir. Bu zaman dil normalarına riayət etmək vacib şərtlərdəndir. Mətnin leksik quruluşunun formalaşmasında, onun məna tamlığının və əlaqəliliyinin təminatında leksik vahidlərin semantik əlaqələri əhəmiyyətli rol oynayır. Kontekst sözlərin əsas semantik əlamətlərinin reallaşmasına imkan verir[1, s.84]. Leksik normada dilin ən çevik vahidi sözdür. Kütləvi informasiya vasitələrində təkrarlar da böyük rol oynayır. Qrammatik normaya gəlincə isə o dilin qrammatik quruluşunu nitq prosesində nizamlayır. Sosial şəbəkələrdən əldə edilmiş materialların dərslərə tətbiqi planlaşdırılarkən şərait, təhsilalanların maraq və arzusu, eləcə də əməyi nəzərə alınır. Dilöyrənənlər bu və ya digər iş növünə maraq və qabiliyyətlərinə görə cəlb olunurlar. Qəzetlər kütləvi informasiya vasitələrindən biridir və onların yeni söz və ifadələrin yaranmasında və yayılmasında böyük rolu vardır. Belə ki, qəzet və məqalələrdə yeni sözlərdən daha çox istifadə olunur. Belə sözlərin yaranma

xüsusiyyətlərini öyrənmək vacibdir. Dünyada altyazı ilə yayın edən bir çox TV kanalları vardır. Bir çox insan bu televiziya kanallarını izləyərək xarici dildə dinləyib-anlama qabiliyyətini inkişaf etdirməyə çalışır. Qeyd edək ki, bu şifahi nitqin inkişafını tam təmin etmək iqtidarında deyil. Bunun üçün sosial media vasitəsilə dostlar tapmaq, xarici dildə yazışmaq, səsli ismarıclar göndərmək və s. məqsədəuyğundur. Sosial şəbəkələr üzərindən müxtəlif layihələrin həyata keçirilməsi də maraqlıdır. Layihə metodunun əsasını şagird və tələbələrin dərketmə bacarıqlarının inkişaf etdirilməsi, bilik və bacarıqların müstəqil şəkildə əlaqələndirilməsi, informasiya məkanına inteqrasiya bacarıqlarının inkişaf etdirilməsi, əldə olunmuş məlumatların müstəqil şəkildə təhlil edilməsi, müstəqil şəkildə fərziyyə irəli sürə bilmək, qərarlar qəbul edə bilmək, mövcud problemlərin həlli istiqamətlərinin və metodlarının müəyyənləşdirilməsi qabiliyyətinin möhkəmləndirilməsi, tənqidi təfəkkürün, yaradıcı, eləcə də tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi kimi amillər təşkil edir. Yerinə yetirilmiş layihələrin nəticələri cəlbedici və aydın olmalıdır. Qiymətləndirmə müəllimlər, həmyaşıdlar tərəfindən, eləcə də, özünüqiymətləndirmə yolu ilə həyata keçirilə bilər. Müəllimlər dilöyrənənlər tərəflndən işlərin həyata keçirildiyi müddətdə istifadə edilən bilik və bacarıqların səviyyəsini, keyfiyyətini müşahidə etmək imkanı əldə edə bilərlər. Təhsilalanlar isə özlərinin və həmyaşıdlarının işlərini nəzərdən keçirə, komandanın necə işləməsi və əldə etdiyi nailiyyətlər barədə fikir mübadiləsi apara bilərlər. İngilis dilində olan kanallara abunə olmaq da faydalı hesab edilir. Burada da müəyyən çətinliklər meydana çıxır. Belə ki, səsləndirilən materialların dialekt və şivələrdə səsləndirilməsi çətinliklər yaradır. Zaman keçdikcə, onları tədricən anlamaq mümkün olur. Sosial şəbəkələrdə paylaşım edən dostlar şifahi nitqin inkişaf etdirilməsində yardımçı ola bilər. Bu paylaşımlara xəbər, jurnal məqalələri, videolar, danışıqlar, bloq yazıları, mahnılar və s. aid ola bilər. İngilis dilində şifahi nitq vərdişlərini KİV ilə inkişaf etdirmək istərkən bloqlar, vebinarlar, veb səhifələr, forumlar yardımçı ola bilər. Klassik ədəbiyyat, kitablar, qəzet, internet saytları, e-maillər, ictimai mediadakı xəbər axışı şifahi nitqi inkişaf etdirən intensiv fəaliyyətlərə aid edilir. Multimedia vasitələri, həftəlik radio proqramları, ödənişsiz açıq "online" kurslar da faydalı hesab olunur. "Online" ingilis dili mərkəzləri layihəsi sosial şəbəkələr vasitəsilə öyrənmədə xüsusi əhəmiyyət kəsb edir. Pulsuz video epizodlar, video dərslər söz bazası yaratmaq üçün asan və sürətli yoldur. Getdikcə daha çox Facebook, Twitter, Mixi və s. kimi sosial şəbəkə saytlarının artan məhşurluğu sayəsində xarici dili öyrənmək üçün belə şəbəkələrin istifadəsinin faydalarını təsdiq edən xeyli tədqiqatlar vardır. Müasir metodiki ədəbiyyatlarda sosial şəbəkə saytlarından istifadənin yüksək motivasiya yaratdığı israrla qeyd edilir. Bundan əlavə, qeyd edilir ki, "Facebook" istifadəçilərinin şəkillərini, videolarını və dostları ilə paylaşdıqlarını müzakirə etmək üçün sosial şəbəkə saytları nəinki yararlı və rahatdır, hətta tədris prosesində gərginlik və demotivasiyanın aradan qaldırılmasında əhəmiyyətli rola malikdir. Tədqiqatçılar "Facebook"dan istifadənin ingilis dilində danışmaq üçün daha çox imkanlar təklif etdiyini nəzərə alaraq dilöyrənənlərin rəqəmsal savadlılığını inkişaf etdirmək və xarici dilə yiyələnmək sahəsində "Facebook"un təsirli bir vasitə olduğunu qeyd etmişdir [1, s.80]. Beləliklə, aydın olur ki, kütləvi informasiya materialları vasitəsilə

şifahi nitq vərdişlərinin öyrədilməsində sosial şəbəkə saytlarının rolu əvəzsizdir. Dilöyrənənlərə bu dildə ünsiyyət bacarığını aşılamaq məqsədilə onlara sosial şəbəkələr vasitəsilə situasiyalar təqdim edilə bilər. Bunlar motivasiya edici xarkterə malikdir. Motivasiya bir kəsi həvəsləndirmək məqsədə nail olmaq üçün daxili təkan və istiqamət verən ən önəmli şərtlərdən biridir. Hər hansı bir məqsəd üçün hərəkətə keçməyə sövq edir, həm də arzuları, ehtiyacları, impulsları təmin edir. Əgər məqsədimiz öyrətmə və öyrənmə prosesində ən güclü təsir formalarını müəyyənləşdirməyi araşdırmaqdırsa ən mühüm məsələnin motivasiya olması meydana çıxar. Kütləvi informasiya vasitələri dinləyib-anlama vərdişlərinin formalaşdırılması üçün stimul xarakteri daşıyır. Buraya televiziya, radio və s. aid edilir. Televiziya səlis nitqin inkişafı, orfofonik normaların qorunması baxımından xüsusilə faydalıdır. Bu qurğu səs və görüntünün insanların evində mövcudluğunu reallaşdırır. Bu zaman müxtəlif dillərdə olan məlumatları ingilis dilində evlərə daşımaq mümkün olur. Radio yığcamlılığı ilə diqqət çəkir. Belə ki, onu hər yerə rahat şəkildə daşımaq mümkündür. Burada musiqi, xəbərlər, radio-tamaşalar, radio- tədris kimi yayınlar şifahi nitqin inkişafında əlverişli sayılır. Ən ucuz kütləvi informasiya vasitələri jurnallar hesab olunur. Şagird və tələbələr ailə həyatı, qonşular, sevimli heyvanlar, məktəb həyatı və dostlar barədə real həyat hadisələrini auditoriyaya çatdırmaq və videolaşdırmaq işini planlaşdıra bilərlər [2, s.101]. Sinifdənxaric iş dərsdən sonra baş verən istənilən dil fəaliyyəti, xarici dilin öyrənilməsi ilə əlaqəli ola biləcək hər hansı sosial fəaliyyət forması, dilöyrənənlərin öz təşəbbüsü ilə xarici dildən istifadə üçün ilkin şərtlər yaradan imkanlar məcmusudur. Bu zaman sosial şəbəkələrdən də faydalı şəkildə yararlanmaq olar. Sinifdənxaric işlərin əhəmiyyətini araşdıran zaman onun xarici dillərin mənimsənməsi üçün özünəməxsus üstünlüyə və dəyərə malik olmasının şahidi oluruq. Dram fəliyyəti, texnoloji nailiyyət və kommunikativ öyrənməni özündə ehtiva edən videotapşırıqlar da dilöyrənənlərin dərsə olan həvəs və marağının artmasına səbəb olur. Bu zaman onlar həmyaşıdları ilə sosial şəbəkələr vasitəsilə fəal əməkdaşlıq edir, bir-birlərini dəstəkləyirlər. Bu isə onların psixoloji inkişafında müsbət məcraya doğru mühüm əhəmiyyət kəsb edir[3, s.56]. Tələbəyönümlü tədrisdə müasir yanaşmaların auditoriya-larda istifadəsi tədris prosesinin səmərəli həyata keçirilməsinə kömək edir. Bu zaman internetdən də tələbələr autentik materialları daha rahat əldə edirlər. Autentik təlim materiallarının istifadəsi dil öyrənənlərə dildə olan yeniliklərdən xəbərdar olmağa və canlı danışıq zamanı effektiv kommunikasiyaya hazırlayır. Əlbəttə, burada sosial medianın rolunu danmaq olmaz. Həmçinin, müasir texnologiyalardan istifadə zərurəti həm tələbələrdən, həm də müəllimlərdən bu sahədə də qabiliyyətlər tələb edir. Müasir dövrün reallığı olan informasiya kommunikasiya texnologiyaları ilə səmərəli şəkildə işləmək qabiliyyəti sadəcə xarici dillər tədris edilərkən deyil, həm də dilöyrənənlərin gələcək fəaliyyətlərində onlara üstünlük qazandırır. Müəllimin tədris prosesinə eklektik yanaşması, yəni, sadəcə bir metodun prinsiplərinə əsaslanmadan, yeri gəldikdə, şəraitdən və vəziyyətdən asılı olaraq, hətta özünün inandığı üsullara müraciət etməyi tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir. Beləliklə, ali məktəblərdə ingilis dili dərslərində sosial şəbəkə materiallarından geniş şəkildə istifadə etməklə şifahi nitqin

inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür.

## ƏDƏBİYYAT

1. Brown H.D. Principles of language learning and teaching. Longman Publication, 2000, 352 p.
2. Cook G. Y. Applied Linguistics. Oxford: Oxford University Press, 2003, 134 p.
3. Fox K. Watching the English. The Hidden Rules of English Behavior. London: Hodder. 2005, pp. 56-57

**N. Mirzaliyeva**

**The methodology of using mass media in developing oral speech abilities in English language teaching at high schools**

**Summary**

The article is devoted to the mass media in modern methodology. Great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the role mass media. The author emphasizes its role in methodology. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. Phonological awareness is essential for learning to read and write. It was measured by, for instance, the following items of the initial test: finding rhyme words, in the general section of the test, and building words out of sounds and segmenting words into syllables, in the auditory section of the test. The success in tasks that require phonemic awareness is considered the most important prerequisite for learning to read. In the auditory section of the initial test for instance, the identification of the first or last phoneme in a word, and the phoneme synthesis task. Learners are often too embarrassed to say anything when they do not understand another speaker or when they realize that a conversation partner has not understood them. Instructors can help students overcome this by assuring them that misunderstanding and the need for clarification can occur in any type of interaction. Instructors can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom. So, using mass media gives us opportunity to develop students oral speech and at this time they will communicate successfuly.

**Key words: oral speech, method, language, mass media, communication**

**Н. Мирзалиева**

## Методика использования социальных сетей на формировании навыков устной речи в преподавании английского языка на высших вузах

**Резюме**

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Статья посвящена k СМИ на современном методике. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль СМИ. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Как известно, при обучении иноязычно-речевой коммуникации, основные трудности составляют различия в системах контактирующих языков. В свою очередь, потребности относительно изучения иностранных языков следует непременно стимулировать. Причём, работа в этом направлении должна носить целенаправленный, последовательный, поэтапный характер. Следующий фактор это понятие о самостоятельности (автономии) обучаемого. Исходя из общих положений философии обучения и психологии, а также основываясь на опыте преподавания языков, многие исследователи проблемы приходят к выводу о том, что лучший, способствующий более успешному овладению языком процесс - это тот, где центральной фигурой учебного процесса является сам обучаемый. Следует отметить, что в настоящее время происходят значительные изменения в методике обучения иностранным языкам, и, в первую очередь, являющемся основным языком общения на глобальном уровне, английскому разрабатываются творческие методы преподавания, предполагающие обучение путем вовлечения обучаемых в процесс изучения языков в качестве заинтересованных, мотивированных участников данного процесса. Коммуникативное преподавание языка предполагает обучение языку в определенном контексте для обмена мыслями.

**Ключевые слова: устная речь, метод, язык, социальные сети, коммуникация**

:

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur**

**ŞAHRUN SƏMƏDZADƏ**
**ADU**
**Rəşid Behbudov 134**
**e-mail:** ***shahrunsamadzadeh@gmail.com***

# ALİ MƏKTƏBLƏRİN YUXARI KURSLARINDA İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ AUDİO VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ METODİKASI

**Xülasə**

Tələbəyönümlü yanaşmanın əsasını tələbələrin dərketmə bacarıqlarının inkişaf edtirilməsi, bilik və bacarıqların müstəqil şəkildə əlaqələndirilməsi, informasiya məkanına inteqrasiya imkanlarının inkişafı, əldə olunmuş məlumatların müstəqil şəkildə təhlili və fərziyyə irəli sürə bilmək, mövcud problemlərin həlli istiqamətlərinin müəyyənləşdirilməsinə dair qərarlar qəbul edə bilmək, qabiliyyətin möhkəmləndirilməsi, tənqidi təfəkkürün, yaradıcı, eləcə də tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi kimi faktorlar təşkil edir. Təbii dil mühitinin olmadığı bir şəraitdə müəllim tələbələr üçün nümunə olmalıdır. Müəllim həm dil daşıyıcıları, həm də dildən ünsiyyət vasitəsi kimi istifadə edən, lakin dil daşıyıcısı olmayanlarla ünsiyyətə girərək onların maraqları çərçivəsində olan mövzular ətrafında söhbət etmək səriştəsinə malik olmalıdır. Müəllimin dil vasitələri və diskursiv biliklərdən istifadə etmə strategiyaları maksimum dərəcədə linqvistik baxımdan savadlı olan dil daşıyıcılarının strategiyalarına uyğun olmalıdır. Zənnimizcə, dillərin tədrisinə tələbəyönümlü yanaşmanın tətbiqi bu islahataların ən önəmlisidir. Bu gün islahatların keçirilməsində əsas məqsəd effektiv, çevik və daim dəyişən təhsil sisteminin inkişaf etdirilməsidir. Öyrənənlərin tələbatlarını ödəmək üçün dil müəllimləri zamanın nəbzini tutmalı, metodlar, biliklər, istifadə edilən tədris materialları və ona uyğun təlim texnologiyaları müntəzəm olaraq yeniləndirilməlidir. Tələbəyönümlü yanaşmanın əsas məğzi tələbələrin müəyyən problemlərin həlli, əldə olunmuş bilikləri praktikaya tətbiq etmək maraqlarını stimullaşdırmaq, tədrisin hər bir mərhələsində müvafiq balansı saxlamaq şərtilə bir və ya bir sıra problemlərin həllinə nail olmaqdır. Dilöyrənənlərin təlim prosesinə fəal iştirakçı qismində cəlb edilməsini təmin edə bilən şərtlərdən ən önəmlisi ingilis dilinin tədrisi prosesinin onların tələbat və ehtiyaclarına, yaş səviyyəsinə, və eləcə də onların maraq dairəsinə uyğun olan tərzdə qurulmasıdır.

Başqa sözlə desək, dil mütəxəssisi, ilk növbədə xarici dil müəllimi kommunikativ cəhətdən səriştəli olmalıdır. Məhz bu səbəbdən orta və ali məktəblərdə dilöyrənənlərə şifahi nitq vərdişlərinin aşılanmasına xüsusi diqqət yetirilməsi olduqca vacibdir. Əgər dilöyrənənlər ingilis dilindən fikir, ideya və informasiya mübadiləsi məqsədilə istifadə edə bilmirlərsə, linqvistik biliklərin əldə edilməsi tamamilə mənasız və nəticəsiz olur.

**Açar sözlər: innovasiya, dil, metod, texnologiya, nitq**

Bildiyimiz kimi, xarici dili öyrənən bir çox insan heç də həmişə dil daşıyıcıları ilə ünsiyyətdə olmaq şansını əldə etmir. Belə olan halda məsulliyyətin çox hissəsi müəllimin

üzərinə düşür və müəllim tələbənin dinləmə bacarıqlarını inkişaf etdirmək üçün audio materiallardan daha çox istifadə etməlidir. Audio materiallar nə qədər çox səsləndirilərsə tələbələr bir o qədər bu dilə yaxın olar. Videomaterialların istifadəsi tələbələrə təkcə dinləmə deyil, həmçinin görmə şansı yaradır. Tələbələr bir-birindən yeni informasiyanı qavrama və yadda saxlama üsullarına görə çox fərqlənir. Bəzi tələbələr ancaq dinləyərək, bəziləri isə vizual şəkildə görərək, informasiyanı yadda saxlayır. Bu da informasiyanin daha yaxşı mənimsənilməsinə səbəb olur. Tədqiqatçılar dinləmənin iki növü olduğunu qeyd etmişdir. Tələbələrin sadəcə dinlədikləri parçadan zövq almaq və kommunikativ bacarıqlarını inkişaf etdirmək üçün istifadə etdiyi dinləmə növü ekstensiv dinləmədir. Əgər tələbə dinlədiyi mətnin və ya dialoqun hər hansı hissəsini anlamırsa, bu onun demotivasiyasına gətirib çıxarır. Hər bir dil səviyyəsinə uyğun olan belə qısa mətnlər isə onların tələbələr tərəfindən rahat mənimsənilməsinə kömək edir. Ekstensiv dinləmədən fərqli olaraq, intensiv dinləmə əsasən dərs prosesində baş verir. İntensiv dinləmə üçün istifadə olunan audio materiallar müəllim tərəfindən seçilir. Müəllim hər hansı materialı seçərkən bir çox amilləri nəzərə almalıdır. Ən başlıca amil tələbələrin dil səviyyəsidir. Hər bir audio material tələbələrin dil səviyyəsinə uyğun olmalıdır. Əks təqdirdə dərs prosesində istifadə olunan materiallar heç bir nəticə vermir. İntensiv dinləmə zamanı istifadə edilən audio materilların müsbət və mənfi cəhətləri də vardır. Audio materiallardan istifadə tələbələrə müxtəlif danışıq formalarını eşitməyə şərait yaradır, fərqlı danışıq tərzləri ilə yaxından tanış olan tələbə dil daşıyıcıları ilə ünsiyyətdə olarkən heç bir problem yaşamır. Lakin audio materillardan istifadə heç də həmişə problemsiz keçmir. Bəzən sinifdə akustik problemlər yarana bilər. Belə olan halda tələbələr audio mətni tam eşitmədiklərinə görə anlaya bilmirlər[1, s.136]. Bəzən tələbələr hər hansı söz və yaxud da ifadəni anlamadıqları üçün dinlədikləri mətnin məzmununu da dərk edə bilmirlər. Söz və ifadələrin tam şəkildə başa düşülməməsinə başlıca səbəb bəzi səslərin fərqli tələffüz edilməsidir. Danışıq zamanı səslərin bəzilərinin assimilasiya prosesində təhrif edilməsi problemlərə yol açır. Bu səbəbdən tələbələr tələffüz edilən söz və ifadənin nə olduğunu anlamaqda çətinlik çəkirlər. C.Harmer problemin həllinə dair iki yol göstərmişdir. İlk növbədə, tələbələrə diaqramlar və izahat vasitəsilə səslərin danışıq prosesində necə ifadə olunduğunu göstərə bilərik. Daha bir həll yolu dinləmə prosesində tələbələrin diqqətini bu səslərə yönəltməkdir. Onlar təhrif edilən səsləri tam eşitsinlər deyə biz konkret bir parçanı təkrar-təkrar onlara dinlətdirə bilərik. Bu tələbələrin bu səslərə alışmasını təmin edəcəkdir. Onlar dinləmə ilə bərabər tələbələri görüntü ilə də təmin edir. Lakin bəzi hallarda videomaterialların istifadəsi də problemsiz ötüşmür.

Dilöyrənmə prosesində audio və videomaterialların istifadəsində qarşıya çıxan problemləri aşağıdaki kimi qruplaşdıra bilərik:

1.Texniki problemlər - Audio və videomateriallardan istifadə prosesində texniki avadanlıqlarla işlədiyimizi nəzərə alsaq, texniki problemlərin qaçılmaz olduğunu anlaya bilərik. Videomaterialların proyektorlar vasitəsilə işiqlandırılması zamanı lampalarda yaranan problemlər görüntünü mümkünsüz hala gətirir. Power Point slaydlarından istifadə

zamanı şriftin ölçülərinin və ya rənginin standartlara uyğun olmaması çətinliklər törədə bilər.

2. Diqqətli olmamaq - Bəzi hallarda texniki avadanlıqlar belə tələbələrin diqqətinin yayınmasına səbəb ola bilər. Misal üçün, proyektorlardan gələn xüsusi effektlər və ya işıqlar dilöyrənənlərin diqqətini çəkə və videodakı məlumatın tam şəkildə mənimsənilməməsinə səbəb ola bilər. Başqa bir problem isə slaydlardakı məlumatın mürəkkəb və çox olması ilə bağlıdır. Təqdim edilən videomaterialdakı parçanın mürəkkəb, dilöyrənənlərin dil səviyyələrinə uyğun olmaması onların demotivasiyasına və diqqətlərinin yayınmasına səbəb ola bilər.

3. Xərc - Proyektor, kompyuter və başqa texniki vasitələrdən istifadə maddi cəhətdən müxtəlif problemlər törədə bilər.

4. Vaxt - Audivizual materialların hazırlanması kifayət qədər vaxt apara bilər. Materialın hazırlanması dedikdə biz keçilən mövzuya uyğun videoların və ya film parçalarının tapılması, buna uyğun olaraq dərs planının yazılmasını nəzərdə tuturuq.

5. Məkan - Texniki avadanlıqların istifadəsi zamanı ortaya çıxan başlıca problemlərdən biri də otaqlarla bağlı olur. Bəzən otaqların çox böyük olması nümayiş etdirilən videonun hamı tərəfindən izlənilməsinə və yaxud da istifadə edilən audio materialın hər kəs tərəfindən eşidilməsinə mane törədə bilər. Başqa bir problem isə sinif otaqlarının işiqlandırılması ilə bağlıdır. Çox işıqlı otaqlarda proyektorun istifadəsi mümkünsüz ola bilər. Günəş işığının çox olması səbəbindən proyektor vasitəsi ilə təqdim edilən video və ya slaydların keyfiyyəti aşağı düşə bilər. Bu problemi yaşamamaq və yüksək keyfiyyətli səs və görüntü təqdim etmək üçün müəllim dərs keçəcəyi otağı əvvəlcədən nəzərdən keçirməli və lazımı gəldikdə otağı dəyişməlidir. Ünsiyyət prosesində çox tez-tez istifadə edilən jestlər, mimika və digər qeyri-verbal ünsiyyət vasitələri dilöyrənən şagirdlərə əlavə məlumat ötürmüş olur. Şagirdlər izlədikləri video parçasının mənasını səhv interpretasiya edə bilərlər. Bu isə dərs prosesinin faydalı və səmərəli olmasını şübhə altında qoyur. Belə çətinliklərin yaşanmaması üçün müəllim əvvəlcədən bəzi hərəkət, jest və mimikaların mənasının şagirdlərə anlatmalıdır. Ünsiyyət prosesində nəzərdə tutulan məqsəd hər iki iştirakçının birgə fəaliyyətinə və qarşılıqlı münasibətinə əsaslanır. Belə qarşılıqlı təsir müzakirələrə zəmin yaradır. Bu prosesdə verilən motivasiya və sərbəstlik birbaşa ünsiyyət zamanı özünəinamın artmasına, xarici dildən daha çox istifadəyə və nəticədə təqdim olunan materialı şüurlu öyrənməyə səbəb olur.

Məlumdur ki, xarici dilin öyrənilməsində müəllimin rolu böyük və danılmazdır. Müəllimin vacib rollarından biri də onun informasiya mənbəyi olmasıdır. Müəllim tələbələrin dinləmə və anlama bacarıqlarını inkişaf etdirmək, onları videomateriallarla təmin etmək üçün müxtəlif mənbələrdən, internet resurslarından istifadə edərək xarici dildə olan videolar, qisa metrajlı filmlər izləməyi məsləhət görə bilər. C.Harmer auditoriyada videomaterialların istifadə metodikasından da danışmışdır. O, videomateriallardan səmərəli şəkildə istifadə etmək üçün bir neçə üsul göstərmişdir:

- Fast Forward (sürətlə irəli çəkmək) – Bu üsuldan istifadə edərək müəllim filmdən bir parçanı və yaxud bir videoroliki sürətlə irəli çəkir. Videorolik bitdikdən sonra müəllim tələbələrdən bu videonun nə haqqında olduğunu və personajların nə dediyi haqqında məlumat alır. Bizim fikrimizcə, belə üsuldan istifadə tələbələrə videonu izləyərkən diqqətini onun əsas və vacib hissələrinə istiqamətləndirmək və videodan danışılan mövzunun məğzini anlamağa imkan yaradır.
- Silent viewing (for language**)** – səssiz izləmə- Bu üsüldan istifadə edərək müəllim tələbələrə səssiz şəkildə, lakin normal sürətdə filmi izləməyə şərait yaradır. Film parçası bitdikdən sonra o tələbələrdən personajların nə haqqında danışdıqlarına dair ehtimallar irəli sürməyi istəyir. Hər bir tələbənin cavabını aldıqdan sonra müəllim film parçasını yenidən, lakin səsli şəkildə təqdim edir və beləliklə, tələbələr ehtimallarının doğru olub olmadığını yoxlayırlar. Belə üsuldan istifadə edərək, müəllim tələbələrə ünsiyyət zamanı təkcə deyilən sözlərə deyil, həmçinin jestlər və mimikaya da fikir verməyi öyrədir.
- Freeze frame: (stop-kadr) – burada isə müəllim, videonu hər hansı hissəsində dondurur və tələbələrdən növbəti səhnədə nə baş verəcəyini və yaxud personajın növbəti səhnədə nə deyəcəyini soruşur. Bu üsul da digər üsullar kimi kommunikativ bacarıqların formalaşmasında böyük rol oynayır. Tələbələr artıq situasiyadan və yaxud ünsiyyətdə olduqları şəxsin mimika və jestlərindən onun nə deyə biləcəyini əvvəlcədən təxmin edə bilər və bu biliyə əsaslanaraq ünsiyyəti davam edə bilərlər [2, s.45]. Müəllim hər hansı audio materialı dinlətməzdən əvvəl mütləq materialı dinləmələrinin səbəbini, dinlədikləri parçadan hansı informasiyanı əldə etməli olduqlarını tələbəyə əvvəlcədən bildirməlidir. Belə olan halda tələbə dinlədiyi parçanın hansı hissəsinə daha çox önəm verməli olduğunu bilir və artıq bu hissəyə fikrini cəmləyərək, informasiya əldə etməyə çalışır. Tələbə qarşısında qoyulmuş məqsədlər onun motivasiyasını qaldırmağa qadirdir. Məqsədlər müxtəlif şəkildə qoyula bilər. Onlardan biri əvvəlcədən hazırlanmış suallardır. Müəllim hər hansı parçanı tələbəyə dinlətməzdən əvvəl, onu suallarla tanış edir və dinləyəcəyi parçadan konkret sualların cavabını tapmağı tələbəyə tapşırır. Belə olan halda tələbə məlumat üçün bütün parçanı dinləyir, suallara cavab tapa biləcəyi hissəyə isə daha çox önəm verərək daha diqqətlə dinləməyə və anlamağa çalışır. Texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaradılmış olur [3,s.34]. Biliklərə əsaslanan iqtisadiyyatın təşəkkül tapdığı dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı və onlardan məqsədyönlü şəkildə istifadə olunması hər bir dövlətin elmi potensialının vacib göstəricilərindəndir.Son dövrlərdə İKT-nin artan sürətlə elm və təhsil sahəsinə, xüsusilə də xarici dillərin tədrisi prosesinə tətbiq olunması mühüm dəyişikliklərin bariz nümunəsidir. Araşdırmalar göstərir ki, İKT bütövlükdə təlim prosesinin, dərsdənkənar vaxtlarda müstəqil işlərin təşkili, bilik və bacarıqların yoxlanılması vasitəsi, daha doğrusu tədrisdə köməkçi vasitə kimi qiymətləndirilmişdir. İstifadə edilən metodların arzu edilən nailiyyətlər və nəticələrə uyğun olması mütləq tələblərdəndir. Tədris prosesinin təşkili zamanı tələbələrin müxtəlif üsullarla öyrədilməsi və dillərin mənimsəmə prosesinin

aktiv, dinamik bir proses olmasını nəzərə almaq olduqca vacibdir. Müvəffəqiyyəti təmin edən əsas amillərdən biri məqsədlərin düzgün müəyyənləşdirilməsidir. Məqsədlər və gözlənilən nəticələr aydın, konkret olmalıdır. Həm dil müəllimləri, həm də tələbələr tədris kursunun nəticəsi olaraq hansı bilik, vərdiş və bacarıqların əldə ediləcəyi haqqında məlumatlı olmalıdırlar. Xarici dillərin tədrisində bilik və bacarıqların möhkəmləndirilməsi, onların tətbiqi prosesi mühüm yer tutur. Bu yanaşmanın üstünlüyü ondadır ki, tələbə tədris materialını qoyulan problem əsasında müstəqil həll etməyə çalışır. Bu təlimin əsasını situativlik təşkil edir. Təlimdə problemli situasiya yaradan zaman müəllimin və tələbələrin fəaliyyət xüsusiyyətləri xeyli fərqlənir. Problemli situasiyada ağırlıq mərkəzi tələbənin üzərinə düşür, onun fəallığı bir qədər artır. Dərsdə müəllim yeni mövzu ilə əlaqədar tələbələrin qarşısında problemli vəzifə qoyur, tələbələr qoyulmuş vəzifəni qavrayır və onun mümkün olan həlli yollarını düşünürlər, müəllim problemin həlli yollarını danışmağı təklif edir, tələbələr vəzifənin mümkün olan həlli yollarını sadalayırlar, müəllim öz fikirlərinin doğruluğunu əsaslandırmağı tələbələrdən tələb edir, tələbələr öz mülahizələrinin həqiqiliyini isbat etməyə çalışırlar, müəllim daha düzgün olan mülahizəni müəyyənləşdirməyi tələb edir, tələbələr bu tapşırığın da öhdəsindən gəlirlər. Müəllim düzgün ehtimaldan yeni biliklə əlaqədar müvafiq nəticə çıxarmağı onlara təklif edir, tələbələr müəllimin rəhbərliyi altında yeni biliklə əlaqədar nəticələr çıxarırlar, lazım gəldikdə müəllim tələbələrin aldıqları nəticələri ümumiləşdirir, tələbələr ümumiləşmiş yeni biliyi dərk edirlər, müəllim mənimsənilən yeni biliyi möhkəmləndirmək üçün sual və tapşırıqlar verir, tələbələr müxtəlif formalarda təkrarla məşğul olurlar, müəllim öyrənilmiş yeni biliyi tətbiq etmək məqsədi ilə tələbələrin əməli işini təşkil edir.

Beləliklə, orta və ali məktəblərdə xarici dilin tədrisinin ən başlıca məqsədi şagird və tələbələrdə ünsiyyət vərdişlərinin formalaşdırılmasıdır. Ünsiyyət vasitələri dedikdə, biz təkcə danışıq bacarıqlarını deyil, həmçinin dinləmə bacarıqlarını da nəzərdə tuturuq. Təəssüflər olsun ki, bəzən tələbələr öz fikirlərini ifadə etmək bacarığına malik olsalar da, dinləyib-anlama bacarıqlarının olmaması səbəbindən ünsiyyət qurmaqda çətinlik çəkirlər. Zəif akustikası olan böyük auditoriyalarda qeyd olunan materialın səsləndirilməsi tez-tez narahatlığa səbəb olur və nəticədə auditoriyada bütün tələbələrin eyni dərəcədə yaxşı eşitməsini təmin etmək bəzən çətinləşir [3, s. 21]. Audio materialların istifadəsinə dair qeyd edilmiş başqa bir problem ondadır ki, auditoriyadakı hər kəs səs yazısını əvvəlcədən müəyyənləşdirlimiş və hər kəs üçün eyni olan sürətlə dinləməlidir. Dinləmə materiallarının daha bir mənfi xüsusiyyəti ondan ibarətdir ki, tələbələr dinlədikləri şəxsin danışıq prosesində meydan çıxan üz cizgiləri, mimikalarını görmür və beləliklə, dinlədikləri materialı tam şəkildə anlamaqda çətinlik çəkirlər. Təbii danışıq prosesində dinlənilən mətnlə audio materiallar vasitəsilə dinlənilən mətn arasında çox böyük fərq vardır. Dinləmə materiallarını müəllimlər dərs prosesində istifadə edirlər və bu istifadənin maksimal şəkildə faydalı olması üçün ortaya çıxan çətinlikləri və problemləri həll etməyə çalışırlar. Buradan belə nəticəyə gəlmək olar ki, audio və video materiallardan dərs prosesində istifadə vacib şərtlərdən hesab edilir.

## ƏDƏBİYYAT

1. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, p. 136-143
2. Harmer J. English Language Teaching, 2005, pp. 45-46
3. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

**Sh. Samadzadeh**

**The methodology of using audio and video materials in developing oral speech in ELT at senior courses of high schools**

**Summary**

The article deals with the role of audio and video materials in developing communicative competence in language faculties and working out effective ways of listening skills. Language learners are often too embarrassed or shy to say anything when they do not understand another speaker or when they realize that a conversation partner has not understood them. Instructors can help students overcome this reticence by assuring them that misunderstanding and the need for clarification can occur in any type of interaction, whatever the participants' language skill levels. Instructors can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning.

**Key words: innovation, language, method, technology, speech**

**Ш. Самедзаде**

## Методика использования аудио и видео материалов в формировании устной речи на преподавании английского языка на старших курсах высшего вуза

### Резюме

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Сегодня существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. Соответственно, в процессе обучения необходимо использовать реальные тексты и истории из реальной жизни, а не созданные писателями и зачастую не имеющие ничего общего с реальной действительностью и реальными условиями использования языка рассказы.

**Ключевые слова: инновация, язык, метод, технология, речь**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur**

**HƏSƏNOVA ŞƏFƏQ MƏCID QIZI**
*Bakı Slavyan Universiteti*
*shafaq.hasanova83@gmail.com*
Süleyman Rüstəm küç. 33

# İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SOMOTOM KOMPONENTLİ SABİT İFADƏLƏR

**Xülasə:**

Dilin ən kiçik vahidi olan söz kimi frazeoloji vahidlər də insanın fəaliyyəti, onun daxili aləmi və psixoloji durumu ilə bağlı hadisələri əks etdirir. Təsadüfi deyildir ki, frazeoloji vahidlərin varlığını şərtləndirən komponentlər əsasən insana daha yaxın, daha doğma və daha çox geniş yayılmış sözlərdən ibarət olur.

Frazeoloji birləşmələr tərəflərinə, komponentlərinə ayrıla bilməyən söz birləşmələridir. Frazeoloji birləşməni əmələ gətirən sözlərin ya hamısı, ya da bəziləri öz mənasını itirir və yaranmış birləşmə bütövlükdə bir leksik vahidi ifadə edir. Azərbaycan və ingilis dillərində, xüsusən məişət üslubunda və bədii üslubda frazeoloji birləşmələrdən aktiv formada istifadə olunur. Bunların içində bədən üzvləri ilə bağlı frazeoloji birləşmələr kəmiyyət baxımdan üstünlük təşkil edir. Elə ifadələr var ki, dilin tarixi inkişaf prosesində tədricən sabitləşərək müəyyən mənanı bildirmək üçün leksik vahidə çevrilir. Bu prosesdə ifadənin tərkibindəki sözlər öz ilkin leksik mənasını itirərək məcazlaşır və qoşulduğu sözlə birlikdə tamamilə yeni məna yaradır.

Məqalədə ingilis və Azərbaycan dillərindəki sabit ifadələrdən bəhs edilmişdir. Sabit ifadələr digər dil vahidlərindən fərqli olaraq nitq prosesində yaranmır. Dilə hazır şəkildə gəlir. Məhz bu xüsusiyyətinə görə də sabit birləşmələr daha çox frazeologizmlərlə eyniləşdirilir. İstər ingilis, istərsə də Azərbaycan dillərində mövcud olan sabit ifadələrin əksəriyyəti somotom komponentlidir. Somotomlar insanın bədən üzvlərinin adlarıdır. İnsan dil açandan ilk növbədə öz bədənləri ilə təmasda olurlar və bədən üzvlərinin adlarını öyrənib söyləyirlər. Məhz bu səbəbdən də hər iki müxtəlifsistemli dildə mövcud sabit ifadələrin əksəriyyəti somotom komponentlidir.

**Açar sözlər:** sabit, ifadə, somotom, bədən, dil, ingilis, Azərbaycan.

**Гасанова Шафаг Маджид кызы**
***Бакинский Славянский Университет***

# УСТОЙЧИВЫЕ ВЫРАЖЕНИЯ С КОМПОНЕНТАМИ СОМОТОМА В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

**Резюме:**

Фразеологические единицы, как и слово, являющееся наименьшей единицей языка, также отражают события, связанные с деятельностью человека, его внутренним миром и психологическим состоянием. Не случайно компоненты, определяющие существование фразеологизмов, в основном состоят из слов, более близких людям, более родных и более распространенных.

Фразеологические сочетания – это словосочетания, которые не могут быть разделены на части и составные части. Либо все, либо некоторые слова, образующие фразеологическое сочетание, теряют свое значение, и полученное сочетание выражает лексическую единицу в целом. Фразеологические сочетания употребляются в активной форме в азербайджанском и английском языках, особенно в бытовом и художественном стилях. Среди них по количеству преобладают фразеологические сочетания, относящиеся к частям тела. Есть выражения, которые постепенно закрепляются в процессе исторического развития языка и превращаются в лексическую единицу для выражения определенного значения. В этом процессе слова в фразе теряют свое первоначальное лексическое значение и становятся переносными и создают совершенно новое значение вместе со словом, с которым оно связано.В статье рассматриваются устойчивые выражения в английском и азербайджанском языках. Устойчивые выражения, в отличие от других единиц языка, не возникают в процессе речи. Это легко приходит на язык. Именно по этой особенности устойчивые сочетания часто отождествляют с фразеологизмами. Большинство устойчивых выражений как в английском, так и в азербайджанском языках имеют соматический компонент. Сомотомы — это названия частей человеческого тела. Когда люди открывают язык, они сначала вступают в контакт со своим телом, узнают и произносят названия частей своего тела. Именно по этой причине большинство устойчивых выражений в обоих языках с разными системами имеют соматический компонент.

***Ключевые слова:*** константа, выражение, сомотом, тело, язык, английский, азербайджанский.

**Hasanova Shafaq Majid gizi**
***Baku Slavic University***

# FIXED EXPRESSIONS WITH SOMOTOM COMPONENTS IN ENGLISH AND AZERBAIJAN LANGUAGES

***Summary:***

Phraseological units, like the word, which is the smallest unit of the language, also reflect events related to human activity, his inner world and psychological state. It is not by chance that the components that determine the existence of phraseological units mainly consist of words that are closer to people, more native and more widespread.

Phraseological combinations are word combinations that cannot be separated into their parts and components. Either all or some of the words forming a phraseological combination lose their meaning, and the resulting combination expresses a lexical unit as a whole. Phraseological combinations are used in the active form in Azerbaijani and English languages, especially in everyday and artistic styles. Among them, phraseological combinations related to body parts are dominant in terms of quantity. There are expressions that gradually become fixed in the process of historical development of the language and turn into a lexical unit to express a certain meaning. In this process, the words in the phrase lose their original lexical meaning and become figurative and create a completely new meaning together with the word to which it is connected.

Fixed expressions in English and Azerbaijani languages are discussed in the article. Fixed expressions, unlike other language units, do not arise in the speech process. It comes readily to the language. Precisely because of this feature, fixed combinations are often identified with phraseologisms. Most of the fixed expressions in both English and Azerbaijani languages have a somatic component. Somotomes are the names of human body parts. When people open their tongues, they first come into contact with their bodies and learn and say the names of their body parts. It is for this reason that most of the stable expressions in both languages with different systems have a somatic component.

***Key words:*** constant, expression, somotom, body, language, English, Azerbaijan.

Müxtəlif dil ailəsinə daxil olan dillərin somatik sabit ifadələrin funksional-semantik xüsusiyyətlərinin müqayisəli tədqiqi bu dillərdə oxşar komponent tərkibinin və obrazlı mənaların olduğunu göstərir. Struktur-fonetik cəhətdən bir-birindən fərqli olan ingilis və Azərbaycan dili real həyatın obrazlı əksində məntiqi təfəkkürün ümumiliyi, insan kollektivinin ümumi təcrübəsi, eyni dünyagörüşü, həyat baxışı bədən üzvlərinin əsas funksiyalarının universallığı ilə bağlıdır.

Sabit birləşmələr dil vahidi olub nitq prosesində yaranmır, dilə hazır şəkildə gəlir. Sabit ifadələr danışıq aktında hazır şəkildə istifadə olunaraq mətnin qurulmasında önəm daşıyır. Dildəki sabit ifadələr cümlənin tərkib hissələrini yaranmasında əsas meyar rolunu oynayır. Dildə sabit ifadələr söz birləşməsi və cümlənin məcaziləşib yeni, fərqli semantika daşıması, sərbəst söz birləşməsinin və yaxud cümlənin komponentləri arasında məntiqi rabitənin itməsi nəticəsində yaranır. Sabit ifadələr koqnitiv xüsusiyyətlərə malik olaraq müxtəlif konseptləri əks etdirən maraqlı dil faktlarıdır.

Dil bütöv xalqa mənsubdur və nəsillər dili bir nəsildən digərinə ötürür. Dil vahidləri içərisində xalqın ruhunu yaşadan ən maraqlı dil vahidləri olan sabit ifadələrin özünəməxsus yeri və mövqeyi mövcuddur. Xalqların dini inancları, adət - ənənələri, onların qədim dövrlərdəki həyatı sabit ifadələrdə reallaşır. Sabit ifadələr bizə xalqların mədəni münasibətləri və adət-ənənələri barədə məlumat verir. Xalq öz inancını, adət-ənənələrini, adət-ənənələrini, həyat tərzi qanunlarını dəyişə bilər, lakin bu vərdişlər dildəki sabit birləşmələrdə qorunub hifz olunur.

Sabit ifadələr ingilis və Azərbaycan dillərinin lüğət tərkibində xüsusi təbəqə təşkil edir. Sabit ifadə termini əksər zamanlar frazeologizm termini ilə eyniləşdirirlir. Çünki sabit ifadələrdə və frazeologizmlərdə məcazlıq, emosionallıq və obrazlılıq, ekspressivlik müşayiət olunur. Azərbaycan və ingilis dilinin somatik frazeologizmlərinin müqayisəli tədqiqi onların öz ətrafında tematik qruplar formalaşdırma imkanlarını üzə çıxarır və hər iki dilin somatik frazeoloji qrupları arasında xeyli oxşarlıq və ekvivalentliklər aşkara çıxarmağa imkan verir.

Hər iki müxtəlifsistemli dildə təkcə dil faktları izah edilmir, burada xalqın psixologiyası və mədəniyyəti də nəzərə alınır. İngilis və Azərbaycan dilinin somatik sabit ifadələrin təhlili göstərir ki, bu sahədə həmin dillər arasında xeyli oxşarlıqlar var. Azərbaycan və ingilis dilindəki somatom komponentli sabit ifadələr əsasən bir-birlərinə ekvivalent və bənzərdirlər. Hər iki müxtəlifsistemli dildə "baş, ürək, dil, əl, ayaq və s" komponentli sabit ifadələr daha çoxluq təşkil edir.

Tam və natamam somatik sabit ifadələr vardır. Buraya leksik cəhətdən eynilik təşkil edib, lakin semantikasına görə fərqlənənlər aiddir. Üslubuna görə eynilik eyni olub, lakin leksik cəhətdən cüzi fərqlənənlər, somatik frazeoloji analoqlar aiddir.

Azərbaycan və ingilis dilində *baş. əl, ayaq, ağız, qulaq, göz* sözləri somatik frazeologizmlərin formalaşmasında daha fəaldır. Məsələn, to throw dust into smb`s eyes, to be narrow in the shoulders; to burn one's fingers; to throw dust into smb`s eyes; the thinkling of an eye "bir göz qırpımında"; to strengthen somebody's hand "bir kəsi dəstəkləmək"; to bend the knee to (smb) "diz çökmək"; to gnash the teeth "dişlərini qıcırdatmaq"; to wash one's hands off "məsuliyyəti öz üzərindən atmaq"; look not a gift horse in the mouth "bəy verən atın dişinə baxmazlar". to one`s heart`s content " ürəyi istədiyi qədər"; ; to gnash the teeth "dişlərini qıcırdatmaq" ;to spread before the eye "elə bil ovucumun içindədir"; "be born with a silver spoon in one's mouth "xoşbəxt ulduz altında doğulmaq" ;What caused the meeting to get out of

hand yesterday? – Dünənki iclas nə üçün belə qeyri-mütəşəkkil keçdi? Bu cümlədə isə "to get out of hand" frazeologizmi "qeyri-mütəşəkkil keçmək (olmaq)" mənasını ifadə edir (2).

Azərbaycan dilinin frazeologiyasını Azərbaycan dilçiliyində ilk dəfə olaraq H. Bayramov tədqiqata cəlb etmişdir. O, Azərbaycan dilində və dastanlarda somatom komponentli frazeoloji vahidləri tədqiqi etmişdir. Alim "Kitabi-Dədə Qorqud" dastanında üç yüzdən artıq frazeoloji vahidin olduğunu qeyd edərək onları abidənin mətnində və müasir dilimizdə işlənilmə tezliyinə və özəlliklərinə görə dörd qrupa bölmüşdür: "1) heç bir məna dəyişikliyinə uğramadan müasir dilimizdə işlənənlər; 2) mənaca eyni olub, yalnız komponentlərindən biri arxaik səciyyə daşıyanlar; 3) komponentlərindən biri həm ilk mənbədə, həm də müasir dilimizdə işlək sözlərdən ibarət olmaqla eyni məna ifadə edənlər; 4) müasir dilimiz üçün arxaik səciyyə daşıyanlar" (7, 28-31). Son illərdə Azərbaycan dilçiliyində dastanların dilində işlənilən frazeoloji vahidlərin ayrı-ayrı struktur modelləri tədqiq edilmiş, frazeologizmlər ikikomponentli və üçkomponentli olmaqla iki qrupda birləşdirilmişdir. Tərəflərinin ifadə vasitələrinə görə frazeoloji vahidləri "isim+fel, sifət +fel" və hər iki tərəfi adlardan ibarət olan frazeologizmləri "isim+isim, isim+sifət" olaraq iki yerə bölünür. Dədə Qorqud dastanlarının dilində işlənilən somatik kimponentli sabit ifadələrdə böyük qismi feili frazeoloji birləşmələr təşkil edir. Araşdırmalarda isə Dədə Qorqud dastanlarında işlənilən deyimlər digər bənzər folklorik və filoloji-linqvistik vahidlərin, daha doğrusu atalar sözlərinin, məsəllərin və məcazi mənalı qəlib ifadədərin içərisində tədqiq olunmuşdur. . Yuxarıda adı çəkilən tədqiqatlarda frazeoloji vahidlərin tematik-konseptual təsnifləndirilməsi verilməmiş, istər somatik, istərsə də digər bütün frazeologizmlər elə ümumi tipoloji-frazeoloji bölgüyə əsasən qruplaşdırılmışdır. Ümumiyyətlə, hər iki müxtəlifsistemli dildə var olan sabit ifadələr somatik və qeyri-somatik olmaqla iki yerə bölünür.

Universallığı ilə seçilən bu somatizmlər hər iki dildə somatik frazeoloji birləşmələrin zəngin tematik qruplarının yaranmasında başlıca rol oynamışdır. Ümumiyyətlə, əksər dillərdə sabit ifadələrin əsas tematuk qrupları arasında böyük oxşarlıq, yaxınlıq vardır. Təbii ki, ingilis və Azərbaycan dilləri müxtəlif dil ailəsinə, müxtəlif dil qrupuna aid olduğu üçün bu qrupa daxil olan dillərin somatik frazeologizmlərinin arasında fərqli nüanslar çoxluq təşkil edir. Ümumiyyətlə, bütün dillərdə somatik sabit ifadələri yaradan əsas mərkəzi komponent insanın bədən üzvlərinin adları, heyvan adları, bitki adları, müxtəlif təbiət hadisələrinin adları, dini-mifoloji zəminli və alqış-qarğış mənalı anlayışlardır. Həyatın elə bir sahəsi yoxdur ki, ona aid sabit ifadə olmasın. Sabit ifadələr bir növ cəmiyyət həyatının tarixi aynasıdır.

Hər iki dildə somatik frazeologizmlərin müxtəlif tematik qruplarını araşdırarkən bir fakt ortaya çıxır. Elə insan orqanı var ki, ona aid 200 dən çox frazeologizm mövcud olduğu halda, eləsi də olur ki, ona aid 1 somatik frazeologizm

olur. Məsələn ingilis dilində **"baş"** komponentli 300 dən çox somatik frazeologizm olduğu halda, "**bağırsak**" komponentli bir neçə sabit ifadə mövcuddur.

Azərbaycan dilində ən son çap olunmuş frazeologiya lüğətində ***başla*** əlaqədar 200-dən çox somatik sabit ifadə işləndiyi halda, ***dırnaqla*** bağlı 5 somatik sabit ifadəyə rast gəlinir.

Somatom komponentli sabit ifadələrə nəzər saldıqda görürük ki, xalqın düşüncəsində, yaradıcılığında "görünən", yəni xarici orqanlarla (*əl, ayaq, baş, diş, göz, çiyin, dil, boğaz, üz*) bağlı sab daha çox işlənmə aktivliyinə malikdir.

Somatik sabit ifadələr öz sabitliyinə rəğmən, fasiləsiz olaraq dəyişir və inkişaf edirlər. Azərbaycan ədəbi dilində işlənən somatik frazeologizmlər ən çox *"baş"* komponenti ilə bağlıdır.Azərbaycan dilində statistik hesablamalara görə 237 *"baş"* komonentli somatik frazeologizm işlənir. Məsələn, *baş aparmaq, başı işləmək, başına at təpmək, başına cin vurmaq, başına gəlmək, başına daş düşmək, başına girmək, başına itin suyunu tökmək, başda gəzdirmək, başına turp əkmək, başından eləmək, başından tük əskik etməmək* , *başını alıb qaçmaq, başını bağlamaq (evləndirmək anlamında), başını bişirmək, başını daşa vurmaq, başını əkmək, başını xarab eləmək, başını işə salmaq, başının altına yastıq qoymaq, başının üstünü almaq, başına çıxmaq və s*

Dildə frazeoloji vahidlərin öyrənilməsi ilə əlaqədar olaraq tədqiqat obyekti kimi ***"baş"*** komponentli somatik birləşmələrin araşdırılması onların Azərbaycan dilində mühüm yer tutduğunu göstərir. Bildiyimiz kimi, dildə somatizmlərin semantikası aşağıdakı kimi təzahür edir:

Bədənin üzvü - həmin üzvün fəaliyyət funksiyası:

baş ^ «düşünmək», «ağıl»,«dərrakə».

Baş insan bədəninin kəllə və sifətdən ibarət olan hissəsidir. Azərbaycan dilində "baş" somatizminin etimologiyası haqqında prof. A.Axundovun fikrinə əsaslanaraq demək olar ki, bu söz qədim ümumaltay dilinin süqutundan sonra yaranmış ümumtürk sözüdür(1,s.45).

"Baş" sözü Azərbaycan və ingilis dilində bu mənaları verir:

1) insanın anatomik orqanı;

2) hər hansı bir məsələni düşünən, anlayan hissə;

3) bir şeyin ən yuxarı hissəsi, təpəsi, zirvəsi,üstü;

4) bir şeyin başlandığı yer, başlanğıc.

Azərbaycan və ingilis dillərində mövcud olan ***baş*** tərkibli somatik frazeologizmləri aşağıdakı tematik qruplara ayırmaq olar:

Əqli fəaliyyət bildirənlər: baş açmaq - anlamaq, düşünmək. **Azərbaycan dili**: *Vallah, mən sənin sözlərindən baş açmıram. (C.Məmmədquluzadə). Biz də bisavad adamıq, kitabdan nə baş açacaq idik. (Ə.Haqverdiyev); Baş çıxarmaq-anlamaq, başa düşmək, qanmaq.*

İngilis dilindəki "baş" komponentli sabit ifadələrə nəzər salaq: to heap coals of fire on somebody's head "bir kəsi utandırmaq"; to keep one's head "başını itirməmək"; to keep one`s head above water "borca girməmək";

Azərbaycan dilində ***"qəlb, ürək"*** komponentli somatik frazeologizmlər çoxdur. Bu tip frazeologizmlərdə "ürək və qəlb" sözləri bir-birlərinə sinonim olduğu üçün bunları eyni başlıq alıtında öyrənməyi qərara gəlmişik.

Məsələn*, ürək-dirək vermək, ürəyi düşmək, ürəyi daş olmaq, ürək eləməmək, şir ürəyi yemək, ürəyi qızmaq, ürəyi yanmaq, ürəkdən çalışmaq, ürəyini boşaltmaq, ürək vermək, ürək qırmaq, ürəyi açılmaq, ürəyi ağzına gəlmək, ürəyi bulanmaq, ürəyi getmək (özündən getmək və bir şeyi çox istəmək anlamlarında), ürəyi qana dönmək, ürəyi partlamaq, ürəyi yerinə gəlmək, ürəyinə daş bağlamaq, ürəyində oxumaq, ürəyində tutmaq, ürəyindən xəbər vermək, ürəyindən qara qanlar axmaq, ürəyinə dammaq, ürəyini oxumaq və s.*

Azərbaycan dilinin sonuncu frazeologiya lüğətində 129 "ürək" komponentli frazeoloizmin varlığından söz açılır (3,s.257-262). İngilis dilindəki nümunələri verək:To wear one's heart upon one's sleeve for day to pack it "hisslərini gizlətməmək" frazeolgizmi müasir ingilis dilində "to wear one's heart upon one's sleeve" formasnda istifadə olunur.

Azərbaycan dilində ***"dil"*** komponentli 54 somatik frazeologizm vardır.

"Dil" komponenti ilə yarananlar.**Azərbaycan dili:** Məsələn, *dili acı olmaq, dili açılmaq, dili tutulmaq, dili qurumaq, dil boğaza qoymamaq, ağzında dili yoxdur (mülayim, sakit adam haqqında), dili dinc durmamaq, dili iki metr çıxır, dilim ağzımda bişər, dilindən kağız almaq, dilini heç ne dəyməmək (çoxdan yemək yeməyən adam haqqında), dilini pişik yemək, dilini təmiz saxlamaq* və s.

Ümumiyyətlə, hər iki dildə somatom komponentli sabit ifadələrin böyük qismi feili frazeologizmlərdir. Ə. Hacıyeva feili somatik frazeologizmləri iki yerə bölür:

1.Metaforik idiomatik birləşmələr. **Azərbaycan dili:** Məsələn, tamah dişini çəkmək, başının altına yastıq qoymaq; **İngilis dili:** to throw dust into smb's eyes "bir kəsin başını aldatmaq"; broad shoulders "enli kürək";

2.Adla feilin birləşməsindən, komponentləri leksikləşmiş, tək bir sözlə əvəz edilən, bir məfhum ifadə edən, frazeoloji və sintaktik vahidlərə yaxınlaşan sabit söz birləşmələri. Azərbaycan və ingilis dillərində ad komponenti əvvəldə, feil komponenti isə ondan sonra gəlir. **Azərbaycan dili:**Məsələn. *üzünə gülmək, üzünə qapı çırpmaq* və s. (5,s.55). **İngilis dili:** from the bottom of the heart "səmimi qəlbdən", "ürəkdən"; Achilles' heel "axilles dabanı" (yeganə ən zəif yer);

Feili somatik sabit ifadələrdə feillər uyuşduğu, qovuşduğu və ya birləşdiyi sözlə birlikdə daşlaşma prosesi keçirmişdir. Feildə bu və ya digər kateqoriyanın formal əlaməti varsa bu o deməkdir ki, somatik frazeoloji birləşmələr məhz feilin həmin formal əlaməti ilə birlikdə digər sözlə birləşməsi nəticəsində yaranır.

Beləliklə, araşdırma sonunda bu nəticəyə gəlirik ki, ingilis və Azərbaycan dilində somatizmlərin iştirakı ilə yaranmış külli miqdarda sabit ifadələr mövcuddur. Eyni dil ailəsinə eyni dil qrupuna daxil olmasalar belə ingilis və Azərbaycan dilində işlənən somatik frazeologizmlər çox qədim tarixə malikdirlər və onlar dilin təşəkkül

tapmasından sonrakı dövrlərdə yaranmışlar. Çünki dillərin ilkin formalaşdırma dövründə sözlər yalnız nominativ mənada işlənmişdir. Ona görə də somatom komponentli sabit ifadələrin yaranmasına ehtiyac olmamışdır. Sonrakı dönəmlərdə sərbəst somatom komponentli ifadələr əsasında sabit somatik birləşmələr əmələ gəlmişdir və bu proses daim davam edir. Somatik sabit ifadələr eyni mənbədən törəyib, eyni inkişaf yolu keçmiş birləşmələrdir. Hər iki dildəki somatik sabit ifadələr bu dillərin daşıyıcısı olan xalqıarın mədəni-milli dünyagörüşünü əks etdirir. Təbii ki, eyni dil qrupuna daxil olduqları üçün ingilis və Azərbaycan dillərində somatom komponentli tematik qrupları arasında fərqli və ümumi cəhətlər çoxdur. Hər iki dildə bədən üzvlərini bildirən aşağıdaı somatizmlərlə daha çox somatik frazeologizmlər yaranır: ***əl, ayaq, baş, göz, dil, diş.*** İngilis və Azərbaycan dilindəki somatik sabit ifadələr quruluşlarına görə əsasən feili frazeologizmlərdir. Hər iki dildə somatik sabit ifadələrin yarardan feillərin əksəriyyəti hərəkət, anlama, qavrayış və s. bildirən feillərdir. İngilis və Azərbaycan dillərində somatik sabit ifadələrin ən çox işləndiyi sahələr ümumxalq danışıq dili və bədii ədəbiyyatdır.

Komponentlərinin sinataktik əlaqəsinin səciyyəsinə görə hər iki dildəki somatik sabit ifadələrin bir qismi söz birləşməsi şəklində, bir qismi isə cümlə şəklində işlədilir. Hər iki dilin somatik sabit ifadələrdə struktur dəyişkənliyi müxtəlif şəkildə baş verir. Somatik sabit ifadələrin komponentlərindən biri öz sinonimi ilə əvəz edilir, somatik frazeologizmlərin strukturunda ixtisarlar aparılır.

## ƏDƏBİYYAT:

1. Axundov.A. Dil və ədəbiyyat, Nurlan, 2003
2.Alekhina, A. Idiomatic English / A.Alekhina. – Minsk: Vysheishaya shkola, – 1982. – 278 p.
3. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı: Altun, 2015, 287s.
4.Cutler, A. Idioms: The Colder the Older // – London: Linguistic Inquiry, – 1982. Vol. 13, № 2, – p. 317-320.
5. Hacıyeva Ə. İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin struktur – semantik xüsusiyyətləri. Bakı: Nurlan, 2004, 191 səh.
6.Spears, Richard A. İngilizce deyimler sözlüğü / A. Richard Spears, B.Kirkpatrick. – İstanbul: Alfa, – 2003. – 650 s.
7. Bayramov H. Müasir Azərbaycan dilinin frazeologiyasının əsasları, Bakı: 1978, Maarif, 174 s.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent**
***Qətibə Çingiz qızı Mahmudova***
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**İBRAHİMOVA İRADƏ RZA QIZI**
Azərbaycan Tibb Universiteti
"Xarici dillər"kafedrası,b\m
S.Vurğun15
iradaigragimova@mail.ru

# MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İNKARLIQ KATEQORİYASI VƏ ONUN FƏRQLİ-OXŞAR XÜSUİYYƏTLƏRİ

**Xülasə**

İnkarlıq terminini fəlsəfəyə ilk dəfə Hegel gətirmişdir.O , inkarlığa ideoloji məna verirdi.Onun fikrincə, inkarlığın əasasını ideya və fikirlərin inkişafı təşkil edir və o bu termini materialistcəsinə izah etmişlər. O subut etmişdir ki , inkarlıq bizi əhatə edən materianın ayrılmaz bir hissəsidir.

Elmi ədəbiyyatda inkarlığın linqvistik statusu haqqında yekdi bir fikir yoxdur. Bəzi linqvistlər onun sintaktik ( Bulax , 1951 ), qrammatik (Şendels , 1977) , bəziləri isə onu məntiqi-qrammatik ( Bondarenko , 1985 ) kateqoriya kimi izah edirlər. Dilçilikdə inkarlığı modallığın bir kateqoriyası kimi izah edənlər də var. (Koduxov , Barannikova 1979)

Psixoloji konsepsiyasının tərəfdarları ( Qrinneken 1907, O. Yespersen, 1958, A. Potebnya, 1958) isə belə hesab edirlər ki inkarlıq insan psixikasının subyektiv hadisəsidir. İnkarlıq- dilin leksik , sintaktik , morfoloji və s. vasitələrlə müxtəlif elementlər arasında əlaqənin olmamasını göstərən bir kateqoriyadır.

Dilçilikdə inkarlığın absolyut , sadə, mürəkkəb və yarım- imkar növləri fərqləndirilir. Absolyut inkar bütöv bir cümləyə və ya məfhuma ( leksik və ya frazeoloji inkar ) aid edilir. Sadə inkar ifadə formasından asılı olmayaraq yalnız inkar anlayışını ifadə edir. Mürəkkəb inkar deyərkən zaman ( never ) şəxs ( nobody ) , və ya əşya ( nothing ) anlaşılır. Yarım inkar dedikdə isə təsdiq cümləsində inkarın zəif ifadə olunması nəzərdə tutulur.

**Açar sözlər: inkarlıq kateqoriyası, Ingilis dili,inkişaf,termin,təsdiq forma**

**Мамедов Б. Р. Категория отрицания в современном английском и азербайджанском языках. Автореферат канд. дисс. Баку, 1967.**Müəllif yazır**:** Müasir ingilis və Azərbaycan dillərində inkarlıq kateqoriyas adlı monoqrafiyasında B .P . Məmmədov qeyd edir ki, semantik- sintaktik tipinə görə inkarlığın dörd tipi var:
1.İnkar söz- cümlə ;2.Ümumi inkar ;3.Xüsusi inkar ;4.Leksik inkar

1. **İnkar söz-cümlə** bir sözdən ibarət olur. Yalnız inkarlıq ifadə edir; **No. You got wrong . Məs:Yox siz səif anladınız .**

2.**Ümumi inkar** mübtəda ilə xəbər arasında əlaqənin olmadığını göstərir. Bu halda xəbər həmişə inkarda işlənir. Məsələn ,But this love did not come in a day . Lakin bu məhəbbət bir günə qazanılmamışdır.

3. **Xüsusi inkar** cümlə üzvlərindən birinin inkarda işlənməsidir. Bu zaman cümlənin xəbəri təsdiqdə işlənir məs , Buck's senses came back to him , but not his strength. Bekin gücü deyil hissləri özünə qayıtmışdı.

4**. Leksik inkar** bütöv bir kompleksə deyil ayrı- ayrı sözlərə aid olur. Bunlara misal olaraq inkarlıq ifadə edən feilləri , prefiksləri və s. göstərmək olar. Məsələn;

1. He denied breaking into the shop . O, mağazaya soxulduğunu dandı.

2. He used to have a lack of mone . O , az pula malik otağa öyrəşmişdi. **(1.s.140-156)**

Qeyd etmək lazımdır ki , inkarlıq kateqoriyası və müasir ingilis dilində onun ifadə vasitələrinə dair bir çox tədqiqatlar aparılsa da , alimlər arasında yekdil bir fikir yoxdur . Bəzi dilçilər müasir ingilis dilində üç , bəziləri isə altı ifadə vasitəsini oldugunu qeyd edirlər.L . S . Barxudarov və D . A . Ştellinq inkarlığın ifadə vasitələrini üç yerə bölür.(2-s.42-56)

1) Inkar əvəzlikləri ( no, noting , nobody və s )2) Zərflər ( hardly , scarcely və s )
3) İnkar bağlayıcıları ( neither – nor , no )L . S . Barxudarov və D. A . Ştellinqdən fərqli olaraq B. N . Bondarenko " İnkarlıq məntiqi –qramatik kateqoriya kimi " monoqrafiyasında inkarlığın müasir ingilis dilində altı ifadə vasitəsini qeyd etmişdir.(3-s.98-110) Bunlar aşağıdakılardır :

1. İnkarlıq bildrən affikslər (un , nis , in , dis , less , anti və s )2 .İnkar hissəcik (not )
3. İnkar əvəzliklər və zərflər ( nobody , neither , nothing; hardly , nowhere ,seldom , scarcely )4. Inkarlıq bildirən bağlayıcılar (neither-nor)5. İnkarlıq bildirən sözönüləri ( without , against )6. Inkarlığın implict ifadəsi .

1.**İnkarlıq bildirən affikslər** –müasir ingilis dilində bir çox şəkilçilər var ki , sözün əvvəlinə və ya sonuna artırılaraq ona inkarlıq mənası verilir , bəziləri sə həmin sözə əlavə məna verir.Bir çox Hind-Avropa dillərində çox tez- tez rast gəlinən " un" prefiksi , müasir ingilis dilində qədim ingilis dilndə işləndiyi kimi işlənir. Məs ,Grateful- ungrateful Written-unwritten
Employment-unemployment.Qeyd etmək lazımdır ki, bu prefiksə ən cox sifətlərdə rast gəlinir. Məs He had one peculiarity which Buck was unlucky enough to discover.
O , elə bir xüsusiyyətə malik idi ki. Bek onu anlamaqda aciz idi.

**Barxudarov və D.A.Ştelling:"İnkarlığın dilçilikdə ifadə vasitələri. M."Nauka" nəşr.1981**.

O yazır:"Bəzi hallarda "un" prefiksi əlavə edilən sözlərdə təkcə inkar məna deyil, həm də yeni keyfiyyət bildirən məna kəsb edir. Məs , wise -ağıllı , müdrik , unwise isə ağılsız , düşüncəsiz mənası daşıyır , bəzi kontekstlərdə isə " foolidh " sözünün sinonimi kimi çıxış edir. Önünə " **un** " prefiksi əlavə edilən sözlər inkar

məna bildirir, bu prefiks işlənməyəndə " less" suffiksindən , istifadə edilir. Məs , careful-careless (uncareful )Hopeful-hopeless ( unhopeful )

The barometer is useless ( or unuseful ) ; it is as misleading as the newspaper forecast . Barometr səmərəsizdir ( yararsızdır ) ; o , qəzetdəki hava məlumatları kimi aldadıcıdır"**.(2.s.42-56)**

Latın dilindən götürülmüş " **in** " prefiksi german " **un** " prefiksinə bərabərdir və əsasən fransız dilindən alınmış sözlərlə işlənir. Məs ,Incorrect – yalnış;Indifferent - laqeyd

Innumerable - saysızInactive - qeyri fəal ( passiv )

"in "prefiksinin " il , im , ir " variantları var : " il – " l " hərfi ilə başlayan sözlərə , " im – "p , b, m " ilə başlayan sözlərə : " ir " isə " r " hərfi ilə başlayan sözlərə artırılır . Məs , incorrect illegal , impolite , irresponsible ." miss " german mənşəli prefiks olub ən çox feillərə artırılır . Məs , mistrust , miscredit , misfit .Latın mənşəli " dis " prefiksi isə faransz dilində alınma sölərə əlavə edilir . Məs, When critics disagree the artist is in accord with himself. Tənqidçilər mübahisə edəndə rəssam özundən razı qalır.

Yunan mənşəli " anti "prefiksi artırılan sözlərə elmi- siyasi ədəbiyyatda çox rast gəlinir və bu prefs təkcə german dillərində deyil , bir çox başqa dillərdə də işlənir . Yazıda prefiks ilə sözun özü arasında defis işarəsi qoyulur . Məs , anti- social , anti – fascist və s.

1." counter " isə latın mənşəli olub orta ingilis dilində fransız dilindən alınma sözlərə artırılır və " anti " prefiksi kimi ən çox elmi – siyasi və bədii ədəbiyyatda işlənir. Məs , counter- revolution.

2. İnkarlığın leksik yolla ifadəsi dediksə neqativ mənalı sözlərin cümlədə işlənməsi nəzərdə tutulur. Məs , to deny – inkar etmək , danmaq :To doubt - şübhələnmək , inanmamaq ;

To fail - bacarmamaq , olmamaq , itirmək ;He denied having seen her at the theatre . O , onu teatrda gördüyünü dandı .

I doubt he was really able to do that . Mən onun bunu edəcəyinə şübhə edirəm inanmıram

I waved to Katherine , but failed to attract her attention . Mən katerinaya əl eldim , lakin onun diqqətini cəl edə bilmədim .

3. İnkarlığın sintaktik vasitələrlə ifadəsi .

İnkarlığın sintaktik vasitələrlə ifadəsi dedikdə , əsasən ,aşağıdakılar anlaşılır :

1.İnkarlığın ekspressiv- istehsalı ifadəsi ;

2.İnkarlığın sual vasitəsilə ifadəsi ;

3.İnkarlığın inkar bağlayıcıları ilə ifadəsi ;

**V.N.Bandarenko:"İnkarlıq məntiqi-qrammatik kateqoriya kimi".** Aparılan tədqiqatların nəticəsində inkarlıq mövzusu fonunda Azərbaycan və ingilis dillərinin tipoloji xüsusiyyətləri, aqqlütinativlik-flektivlik, sintetiklik-analitiklik kimi linqvistik məsələlər dil faktları əsasında bir daha aydınlaşdırılır və bir aqqlütinativ dil

tipinə daxil olan Azərbaycan dilində inkarlıq anlayışının morfoloji vasitələrlə ifadə olunmaq baxımından ingilis dilindən zəngin olduğu aşkarlanır**.(3.s.98-110)** Çünki, Azərbaycan dilində inkarlığa aid sırf bir şəkilçi olsa da, bu anlayış omonim şəkilçisi funksiyasında olan *–sız, -bi, -na, -a, -anti* şəkilçiləri ilə də ifadə olunur. Düzdür, bu şəkilçilərin əsas və ilkin vəzifəsi sifət düzəltməkdir, lakin onların düzəltdiyi sifətlərdə çatışmamazlıq, inkarlıq, mənfilik mənası qabarıq şəkildə özünü göstərir. Bu xüsusiyyətlər də məhz inkarlıq anlayışının semantik mayasını təşkil edir. Ingilis dilində inkarlığın morfoloji yolla ifadəsi Azərbaycan dilinə nisbətən zəifdir. Deyildiyi kimi, bu da ingilis dilinin analitik dil tipinə daxil olması ilə bağlıdır.

İnkarlığın linqvistik təbiəti geniş tədqiq edilmiş məsələlərdən biridir.İnkarlıq həm ümumi aspektlərdən, həm də konkret dilin materialları üzrə, həm də müxtəlif dillərin materialları əsasında müqayisəli şəkildə araşdırılsa da, onun tipoloji aspektdən qiymətləndirilməsi, belə vasitələrin dilin yarusları üzrə bölgüsünə az diqqət yetirilmişdir.

**Akademik V.V.Vinoqradov: «Общая лингвистика**» Qohum və qohum olmayan dillərin, müxtəlif sistemli dillərin materialları əsasında inkarlığın öyrənilməsi bu sahədə ümumi faktaloji materialı artırmış, problemin daha geniş müstəvidə araşdırılması üçün zəmin yaratmışdır. Şübhəsiz ki, müxtəlif sistemli dillərdə, o cümlədən ingilis və Azərbaycan dillərində inkarlıq vasitələrinin müqayisəli-tipoloji tədqiqi böyük maraq doğurur**.(4.S.66-69)**

”Sırf qrammatik və struktur-tipoloji tədqiqatla məhdudlaşan araşdırmalarda təsdiq və inkar kateqoriyalarının məzmun və ifadə planlarının qarşılıqlı münasibətinin, eləcə də qarşılıqlı əlaqəsinin incə məqamları, onun semantic-üslubi və kommunikativ-praqmatik aspektləri açılmır” Ona görə də müxtəlif sistemli dillərdə qeyd edilən kateqoriyanın müqayisəli şəkildə araşdırılmasına ehtiyac artmışdır.Dil forması kimi qəbul edilən inkar təstiqlə birlikdə fikrin iki formasının-anlayış və mühakimənin mahiyyətidir. İnkara bütün dillər üçün universali kimi baxmaq olar. “Qrammatik kateqoriya dedikdə, həmcins əşya və hadisələrin müəyyən qruplar üzrə toplanması haqqında anlayış nəzərdə tutulur. …

Qrammatik mənalar və onların dildə ifadə vasitələrinin vəhdəti qrammatik kateqoriya adlanır”. İnkarlıq da belə kateqoriyalardan biridir. Təstiq/inkar kateqiyasının semantic potensialının təhlili zamanı “təstiq/inkar”,”pozitiv/neqativ” terminlərinin başa düşülməsində meydana çıxan bəzi anlaşılmazlıqları aradan qaldırmaq lazım gəlir

**M.Hüseynzadə:,” Azərbaycan dilində “inkarlıq kateqoriyası”M.Hüseynzadə** göstərir ki,”sözün öz əsas mənasından başqa, onun nitqdə cümlə daxilində bir və ya bir neçə qrammatik mənası olur. Sözün qrammatik mənası leksik mənasından çox olur. …qrammatik məna nitqdə sözün anlaşılmasını dəqiqləşdirir. ...sözlərin bir-biri ilə əlaqəsini göstərir, ...danışan şəxsin haqqında danışdığı əşya və ya hadisəyə münasibətini bildirir.B.Xəlilova görə, “qrammatik məna sözün formal elemetlərinin, şəkilçilərinin, köməkçi sözlərin, köməkçi vasitələrin ifadə etdiyi mənadır.

Qrammatik məna sözün əsas mənasına sonradan əlavə edilir". Türk dilləri sintetik quruluşlu olduğuna görə bu dillərdə inkarlığın özunəməxsus qrammatik göstəriciləri, eləcə də onların ayri-ayri nitq areallarında bir sira variantları formalaşmışdır.Türk dillərində feilin inkar şəkilçilərinə müxtəlif fonetik variantlarda rast gəlinsə də, praformanın – ma, -mə variantları olmasa qənaətinə gəlmək mümkündür. Bu dillərdə inkarlıq şəkilçiləri, başlıca olaraq, -ma, -mə, -m şəkilçilərindən və onların digər fonetik variantlarından ibarətdir. Türk dilində -ma, -me, -m; özbək dilində -ma; uyğur dilində -ma(-mə, -mi);qazax dilində -ma, -me, -ba, -be, -pa, -pe; qırğız dilində: -ba(-be); çuvaş dilində: -ma (-me),-mas(-mes)və s.

O həmçinin qeyd edir ki," Azərbaycan dilində "inkarlıq kateqoriyası xüsusi şəkli əlamətlərlə ifadə olunur. Bunun şəkli əlaməti –ma, -mə (m) şəkilçiləridir ki, bunlar felin quruluşundan asılı olmayaraq feil kökünə bütün sözdüzəldici və sözdəyişdirici şəkilçilərdən əvvəl əlavə olunurş yalnız feilin məna növ şəkilçiləri inkarlıq şəkilçisindən əvvəl feil kökünə əlavə olunur**.(5.s.23)**Azərbaycan dilində 19 növ. inkar vasitəsi mövcuddur:

1)-ma(-mə, -m) morfemi-dominant vasitə;

2) inkar ədatları-deyil, yox;

3)inkar əvəzliyi və zərfləri(leksik-qrammatik vasitələr): heç kim, heç kəs, heç biri/heç birisi, heç zaman/heç vaxt/ heç bir zaman, heç bir vaxt, heç cür/ heç cürə, heç vəchlə/ heç bir vəchlə, heç bir şey/heç yanda, heç yerdə, heç yandan, heç yerdən və s.;

4)koordonativ inkar bağlayıcısı:nə...nə, nə... nə də ki, nə və nə də ki;

5)privstiv frazeoloji vahidlər(leksik-qrammatik vasitələr);

6)"yox" və "xeyr" sözləri; "ömründə, dünyada, dünyasında, qətiyyən, əsla,"qəti"sözləri;

7)"heç" sözü və bu sözün fəal assosiativ əlaqə sahəsi(heç) bir damcı da, bir gilə də, bir qırıq da və s.;

8)eksplisit inkar komponentli frazeoloji vahidlər; responsible-irresponsible və s.Un- önşəkilçisi Hind-Avropa dillərinin çoxunda müxtəlif formalarda işlənir. Bu, məhsuldar önşəkilçi olub müxtəlif nitq hissələrindən yeni sözlər əmələ gətirir. İnkar vasitəsi daha çox sifət və zərflərdə artırılır.The only thing that makes me unhappy is that I'm making you unhappy –Məni sevindirməyən yeganə şey, mənim səni sevindirməməyimdir.

**Mis**- ümumgerman mənşəli önşəkilçidir. Bu prefiks çox zaman fellərdən törəmə əsaslar yaradır. Əmələ gələn yeni sözlərdən bəziləri yanlışlıq, səhv, bəziləri isə inkarlıq ifadə edir. Məsələn, miscalculate- hesablamada səhv etmək; mistrust-inanmamaq. I have never begunnovel with more misgiving/ The barometer is useless^ it is as misleading as the newspaper forecast.**Dis**- latın mənşəli prefiksdir. Bu önşəkilçinin artırılması ilə düzələn sözlər keyfiyyətin, əlamətin və ya fəaliyyətin yoxluğunu bildirir.

Məsələn: I do not want the reader to think I am making a mystery of whatever it was that happened to Larry during the war that so profoundly affected him, a mystery that I shall disclose at a convenient moment.Dildə inkarlıq leksik-qrammatik kateqoriyadır. İnkarlıq leksik, qrammatik, o cümlədən də sintaktik yolla ifadəsini tapır. Dil universalisi kimi inkar dilin müxtəlif səviyyələrində leksik, qrammatik və fonetik səviyyələrdə qeydə alınır. İnkarlığın leksik və qrammatik ifadə vasitələri arasında kəskin fərq yoxdur.To deny (etməmək, həll etməmək, qərara gəlməmək); He denied breaking into the shop (Murthy). To doubt (şübhə etmək): I doubt whether he was really ablo to do that (Christie).Bir sıra zərflər ingilis dilində inkar mənasında işlənir. Məsələn, hardly –we could hardly understand him (Christie); scarcely-She scarc

Bildiyimiz kimi , nitqin əsas xüsusiyyətlərindən biri müxtəlif ( alçaq və ya yüksək ) tonlu intonasiyadır . Akademik V . Vinoqradov düzgün olaraq qeyd edir: “Bəzən sözün bir qədər fərqli tələffüzü həmin sözün həqiqi mənasını dəyişdirir. (4-s.66-69) O , Yespersenin fikrincə , elə buna görə də intonasiya təsdiq cümləsinə inkar mənası vermək xüsusiyyətinə malik olur.”.Bu fikri A . N . Qvozdev , M . Qalkina-Fedoruç , D . N . Şmelev kimi dilcilər də bölüşürlər .

“ A lot you know about love.....” cümləsini nəzərdən kecirəndə asanlıqla görmək olar ki , bu cümlə : “ You do not know anything about love ” cümləsinə bərabər olur.

.

**Ədəbiyyat:**

1..Мамедов Б. Р. Категория отрицания в современном английском и азербайджанском языках. Автореферат канд. дисс. Баку, 1967.s.140-156
2.Barxudarov və D.A.Ştelling:”İnkarlığın dilçilikdə ifadə vasitələri. M.”Nauka”nəşr.1981 s.42-56
3.V.N.Bandarenko:”İnkarlıq məntiqi-qrammatik kateqoriya kimi”L.1987 il.səh:98-110.
4.Akademik V.V.Vinoqradov: «Общая лингвистика» Москва.1992.стр:66-69.
5.M.Hüseynzadə:,” Azərbaycan dilində “inkarlıq kateqoriyası”səh:23.

**Средства выражсния категории отрицания**
**в современном английском языке**
**Резюме**

Данная статъя направлена на изучение одного из явлений грамматического раздела синтаксис. Так же уделяется немалое внимание морфологической и лексической составляющей. Основное содержание этой статъи – рассматривание и исследование одного из сложных грамматических явлений английского языка- отричания. Фктуалъностъ должной темы заключается в том, что отрицание в английском языке-это многогранное

требующее постоянного осмысления явление, изменяющееся вместе с развитием языка. Целъ этой статьи – обзор наиболее распространенных способов выражения отричания в современном английском языке. В данной статъе были исследованы и проанализированы наиболее употребителъные средства выражения отрицания в английском языке.

**Ключевые слова: категория отрицания, английский язык, развитие, термин, утвердительная форма**

## Means of expression of the category of negative in Modern English

## Summary

This article has been directed to the close study one of the phenomena of syntax. The main content of this article is to look through and investigate one of the most complicated phenomena of the English grammar- negation. The actuality of this theme is that the negation in Modern English is many-sided process which is changing permanently together with the development of the language. The aim of this article is to review the more widely used means of the expression of negation in Modern English . The more widely used means of expression of negation in Modern English have been investigated and analysed in this article. The samples from the foreign authors' books have been studied in this article , too. This has allowed more accurately and for certain to determine the sphere of the means of negation used in literature and in dialogues.

The article is dealing with the ways of morphological expression of negation in English and Azerbaijanian. Here is spoken about the role of negation in the expression of ideas and given examples to show how the means of negation shift in sentences with the same lexical and syntactical structure

**Key words;category of negation, English language, development, term, affirmative form.**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru,dosent Nuriyə Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur**

**İLKNUR ƏSGƏROVA ÜLVİ qızı**
**ilknurasgerova@mail.ru**
**Xəzər universiteti magistr**
***11 Məhsəti Gəncəvi , Bakı***

# MƏSNƏVİLƏRDƏ RƏMZLƏŞƏN SAYLAR

**Xülasə:**

Məqalədə sayların müəyyən kontekstlərdə rəmzi mənalarından söz açılıb. Klassik poeziyada geniş yayılmış bu metoda, istər məsnəvilərdə, istərsə də digər şeir nümunələrində qarşılaşmaq mümkündür. Nizami Gəncəvinin "Xəmsə"sində hər beş poemada kosmoqonik ünsürlərlə rastlaşırıq. "Yeddi gözəl" məsnəvisini burda xüsusi araşdıracağıq. Eyni zamanda Məhəmməd Füzulinin "Yeddi cam" mənzum əsəri ilə paralellər aparacağıq. Bununla yanaşı, N.Gəncəvinin "Yeddi gözəl" əsərinə nəzirə kimi yazılan Abdullah Hatifinin "Həft peykər" məsnəvisinə də toxunulmuşdur. Burada əsasən, geniş bəhs edəcəyimiz yeddi sayıdır. Yeddinin sakramental anlamı, yeddinin ifadə etdiyi məna üzərində araşdırma aparılacaqdır. Yeddiylə yanaşı, digər saylar da araşdırmaya cəlb edilib. Məlumdur ki, bu dövrdə "Dəhnamə"lər də yazılırdı. Onun ən gözəl nümunəsini Şah İsmayıl Xətai yazmış, Fədainin "Bəxtiyarnamə" poeması da strukturca "Dəhnamə"lə bənzərdir. "Dəhnamə" on məktubdursa, "Bəxtiyarnamə" də on vəzirin hekayətidir. Əsasən, bir və on arası sayların mətn daxilində intensiv işləndiyini görürük. Say və onun mərtəbələri, onun digər saylarla riyazi kombinasiyasından istifadə edərək məlumatın şifrələnməsi hallarına rast gəlirik. Xüsusilə, İmadəddin Nəsimi yaradıcılığında bunun şahidi oluruq. Yeddi, on dörd, on altı, iyirmi səkkiz, otuz iki, on səkkiz min kimi saylarına Nəsimi poeziyasında xüsusi diqqət yetirilməkdədir.

**Açar sözlər:** məsnəvilərdə saylar, N. Gəncəvi "Yeddi gözəl", M.Füzuli "Yeddi cam" , Şah İsmayıl Xətai "Dəhnamə", əbcəd, kundalini, təsəvvüf.

**Giriş.** Saylar riyazi hesablamalarda önəm daşıdığı qədər ədəbiyyatda da əhəmiyyətlidir. Xüsusilə klassik poeziyada intensiv işlənmiş, mətn daxilində sayların sakral qatından istifadə etmişlər. Məsələn, Nəsimi bütün kainatın sirrini yeddi sayında görürdü. Bu fikri dəfələrlə təkrarlayır: "Laməkan təxtində gizlidir yedi", "Yer yedivü göy yedi, sən də yedi" və s. Həmçinin Nəsimi yeddidən riyazi hesablama vasitəsi kimi də istifadə edir.

Müəlliflər məsnəvidə əbcəd hesabı vasitəsilə əsərin yazılma tarixini göstərirdilər. Əbcəd hesabında hər bir hərf müəyyən rəqəmi bildirir. Sənətkar beyt daxilində göstərmək istədiyi tarixi həm kontekstə, həm də hesaba uyğun olan sözlə ifadə edir. Məsələn, Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasına diqqət yetirək. Şair aşağıdakı beytlərlə əsərin yazılma tarixini göstərir:

*İzharə gəlib rümuzi-vəhdət,*
*Vəhdətdə təmam olub hekayət,*
*Tarixinə düşdülər müvafiq:*
*Bir olmaq ilə ol iki aşiq. (6, 225)*

Füzuli əsərin yazılma tarixini "iki aşiq" sözü ilə ifadə edir, buna "bir" sözünü də əlavə edəndə, yazılma tarixi ortaya çıxır, yəni 1537-ci il.

Müəyyən saylar var ki, onlara xüsusi məna yüklənir və ya o sayın tutumu məxsusi əhəmiyyətə malikdir. Məsələn, yeddi sayı, on sayı bu qəbildəndir. Ədəbiyyatımızda sayca xeyli "Yeddi gözəl" var. Təbii ki, bu Nizami Gəncəvinin "Xəmsə" ənənəsinin davamı kimi də düşünülə bilər. Daha sonra Məhəmməd Füzuli "Yeddi cam" əsərində alleqorik ünsürlərdən istifadə edərək sufi-fəlsəfi məsnəvi yaradır, Ş.İ.Xətai "Dəhnamə" ni yazır.

Xətai əvvəlcədən işlənmiş bir mövzuya müraciət etsə də, orijinal əsər yarada bilib. Hümam Təbrizi və Marağalı Övhədinin "Dəhnamə"lərindəki obrazları artırıb (Səba, Göz yaşı, Ah, Huş, Bağban, Aşiq, Məşuqə), süjeti şaxələndirir. "Dəhnamə" hərfi mənasına görə "on məktub" anlamını verir. Eynilə "Bəxtiyarnamə" də on vəzirin hekayətindən ibarətdir. Strukturca "Sindbadnamə", "Tutinamə" (Ziyaəddin Nəxşəbi) ilə bənzəyirlər. Ola bilər ki, bu struktur hind folklorundan qaynaqlanır. "Sindbadnamə" və "Tutinamə" də "Minbir gecə nağılları"ndan qaynaqlanır. Prinsipcə hər üçü eyni mövzuyla bağlıdır – zamanı təxirə salmaq. "Min bir gecə" də Şəhrizad 1001 gün nağıl danışaraq ölümdən yaxa qurtarmağa çalışır. "Sindbadnamə"də şahzadəyə atılan böhtan səbəbilə şah oğlunun edamına fərman verir. Bunun qarşısını almaq üçün vəzirlər yeddi gün şahzadənin lehinə hekayə danışarkən, cariyələr də əleyhinə hekayələr danışır. Azərbaycan klassik poeziyasında bu çox işlənmiş mövzudur. Burda xeyir-şər qarşıdurması özünü göstərir, paralel qaydada bir hekayə xeyir üçün, bir hekayə şər üçün deyilirdi. Bu paralelizm özünü klassik ədəbiyyatda güclü göstərir. Xətai "Dəhnamə" ni işləyərkən sufizmə əsaslanır. Məşuqə obrazıyla Tanrı nəzərdə tutulur. Şair yaratdığı alleqorik obrazları da yaradılışın dörd ünsürünə uyğun şəkildə sistemləşdirib. Səba- hava, Göz yaşı- su, Ah- od uyğun gəlir. Fikrimizcə, bağban obrazı da torpaqla əlaqələndirilib. Bağbanın gördüyü iş baxımından bunu güman etmək mümkündür. Hadisələr isə yuxuda baş verir. Xətai məkanı da təsadüfi olaraq seçməmişdi. Yuxu zamanı insanın şüuraltının aktiv olduğu vaxtdır, zehnimiz başqa fazaya keçir. Yuxunu ilahi aləmlə əlaqələndirirlər. Z.Freydə görə yuxu fərdin həyata keçirə bilmədiyi və şüuraltındakı arzularını ifadə edir. Səba, Ah, Huşun məktublarına rədd cavabı Məşuqənin, nəhayət, Göz yaşının məktubundan sonra ürəyi yumşalır. Bu məqam da xüsusi düşünülmüşdür. Təsəvvüf ədəbiyyatında Göz yaşı qəlblə, ruhla bağlıdır. Qəlbin yanğısının üzdəki ifadəsidir. Tanrının mərhəmətinə gedən yoldur. Bunu Məhəmməd Füzuli "Hədiqətüs-süəda" əsərində gözəl ifadə edir. Adəm və Həvva günah edəndən sonra peşman olub tövbə edirlər və göz yaşı sayəsində Allah onların tövbəsini qəbul

edir. “Ey Adəm, heç bir gövhər niyaz əhlinin göz yaşı gövhərindən qiymətli deyildir. Heç bir şərbət təmiz ruhlu insanların göz yaşından dadlı ola bilməz. Bir cövhər ki, mənim dərgahımın hədiyyəsidir, ondan qiymətli heç nə ola bilməz”. (5, 96) “Dəhnamə”də də Məşuqə Allahı simvolizə edir, Göz yaşının gəlişiylə ürəyi yumşalır, Aşiqin təklifinə razılıq verir. Aşiq Məşuqa- fərd vəhdətə qovuşur.

Klassik poeziya müəllifləri çoxşaxəli biliyə malik idilər. Həm dünyəvi, həm ezoterik, həm də dini biliklərə yaxşı bələd idilər. Xüsusilə səmavi biliklərdən intensiv istifadə edirdilər. N.Gəncəvi kosmoqonik biliklərindən ən çox “Həft peykər”də istifadə edir. Nizami körpənin ana bətninə düşdüyü günün, doğulduğu günün onun xarakterinə, bəxtinə təsir etdiyi fikrində idi.

*Yəqin etdilər ki, təzə doğulan*
*Olacaq hünərli, şöhrətli insan.*
*Taleyi Hut idi, Müştəri Hutda,*
*Zöhrə bir ləl idi sanki yaqutda. (9, 52)*

Bəhram yeddi günbəz tikdirir. Yeddi eldən yeddi qız gəlir. Hər gecə biri nağıl danışır Bəhrama. Yeddi günbəz planetlərə uyğun şəkildə tikilmişdi. “N.Əbülqasımova qeyd edir ki, Nizami çağının astronomları dünyanı Ptolemey üzrə təsəvvür edirdilər. Ptolemeyin geosentrik sistemində Yer planeti 7 göy qatı ilə əhatə olunur. Hər bir göy qatında isə bir planet hərəkət edir: Yerə ən yaxın Ay(Qəmər) sferasıdır, 2-ci Merkuri (Utarid), 3-cü Venera(Zöhrə), 4-cü Günəş(Şəms), 5-ci Mars(Mərrix, Bəhram), 6-cı Yupiter(Müştəri), 7- ci Saturn (Zühəl, Keyvan) durur”. (11, 153) S.Rzasoy qeyd edir ki, məscid, kilsə və s. kimi mikrokosm modelli tikililərdə günbəz, qübbə kosmosu simvolizə edir.

*Şah baxdı hasara, yeddi qülləyə,*
*Hər güllə oxşardı bir səyyarəyə. (9, 126)*

“Xosrov və Şirin”də də şair planetləri “dolanan günbəzlər” deyə adlandırır.(Ə.Əhmədov) Babil mədəniyyətinə diqqət yetirdikdə yenə yeddinin təzahürünü görürük. Zikkuratlar da həmçinin yeddi pilləli tikilirdi. Bu da ulduzlara sitayiş etməklə bağlıydı. Nizami “Yeddi gözəl” də kosmos modeli yaradır, hətta günbəzlərin rəngləri də səma cismləri ilə əlaqədardır.. Təkcə makrokosmosu yox, insanı mikrokosmik müstəvidə göstərir. Nizami kainat-insan paralelini ustaqlıqla işləyib. Məsnəvidə bu paralel bir-biriylə o qədər iç-içə keçmiş vəziyyətdədir ki, onları ayırd etmək bəzən çətinləşir. Danışılan hekayələrlə Nizami kamilləşmənin yeddi pilləsini göstərir. “Sufi ədəbiyyatında işlədilən yeddi vadi, yeddi günbəz, yeddi qəsr, yeddi cam anlayışları, əslində, yeddi mərkəzin- lətif çarxın kodları, bədii rəmzi ifadələridir”.(1, 119) Füzulinin “Yeddi cam” əsəri də prinsipcə “Yeddi gözəl” kimi işlənib. Eyni sistemlidir. Füzuli də kamilliyə gedən yeddi pillədən keçirir lirik qəhrəmanı. Hər iki sənətkar əsəri işləyərkən ezoterik biliklərə əsaslanaraq işləyib. İnsanın efir bədənində çakralar yerləşir. “Kundalini sankskritcə “halqa-halqa

burulmuş: ilan gücü" deməkdir. Bu, hər bir fərddə ilan kimi halqalar şəklində burularaq onurğanın əsasındakı sakrum sümüyündə yerləşən ilkin kosmik enerjidir, buna həyati enerji də deyirlər. (1, 121) Kundalinin simvolu başını yuxarı qaldırmış ilandır. Başını qaldırmış ilan kamil insanı simvolizə edirdi. Klassik poeziyada birinci pilləni keçmək bülbül-qəfəs prinsipi ilə işlənib. Yəni, bülbül qəfəsdən çıxıb, gülüstan seyrinə çıxır. (M.Abdullayeva) Nəsimi mövzuya belə yanaşır:

*Ey bülbüli-qüdsi, nə giriftari-qəfəssən,*
*Sındır qəfəsi, tazə gülüstan tələb eylə.*

Bəhram birinci gün qara günbəzə gedir. Birinci iqlim şahının qızı hekayə danışır. Hekayədə şah öz halından narazılılq edir. Salik aldanır:

*Gör, taladı məni uca fələklər,*
*Başımda oynadı necə kələklər.*
*İrəm diyarından aldırdı məni,*
*Qələm qarasına saldırdı məni. (9, 130)*

İrəm diyarı, yəni, ilahi aləm nəzərdə tutulur. Ruhun ilahi mənşəli olduğunu bilirik. İslami qaynaqlara görə insan ana bətninə düşəndən üç ay sonra ona ruh üfürülür. Burda da ruh səmavi aləmdən maddi aləmə keçdiyi üçün narazılıq edir. Məhəmməd Füzuli yaradıcılığına diqqət yetirdikdə eyni ideyanı "Həft cam"da da görürük. İlk söhbət neylədir.

*Ney söylədi: "Ey halımı məndən soran həmdəm!*
*Ol dəm ki, ədəm idi yerim, bilməz idim qəm.*
*Asudə gəzərdim, nə deyim çərxi-qəzayə,*
*O öz həsədindən məni qərq etdi bəlayə.( 7, 139)*

Füzuli yeddi camın keyfiyyətini bəyan edir, sonra onu izah etmək üçün çalğı alətlərindən istifadə edir. İlahi eşq məqamında insan arifanə məstlik halı keçirir. Burda içilən şərab eşq şərabıdır, zərrəni vəhdətə qovuşduran şərabdır. Burda cam həmin ilahi məstliyə eyhamdır. İmadəddin Nəsimi yaradıcılığında məstlik anlayışına tez-tez rast gəlirik:

*Şöylə məstəm ki, qiyamət dəxi hüşyar olmazam,*
*Çün məni vəhdət meyindən eylədi dildar məst. ( 8, 260)*

Kamilləşmənin birinci pilləsini xatırlama, tanış olma kimi qiymətləndirə bilərik. Hər iki məsnəvidə salik mənəvi aləmlə tanış olur. Əvvəldən sakini olduğu məkanı, vətəni (Ələst) xatırlayır. İkinci məqamı isə dərketmədir. Mistik yolçu maddi aləmin aldadıcı olduğunun qənaətinə gəlir.

*Ver, ver ki, içim, təşvişimi ta eləyim kəm.*
*Ver, ver ki, görünsün gözümə büsbütün aləm.( 7, 141)*

İkinci söhbət dəflədir. Dəf burda dünyanı simvolizə edir. Salik dəfdən soruşur, dünyada ağalıq iddiasında olanların aqibətini, müharibənin vəhşətindən feyz alan şahları xəbər alır.

*Sök qəlbini, tök sirləri, et hər şeyi izhar,*
*Söylə, de görək, bir harada qaldı o şahlar?!*
*Noldu o Firidunü Keyin axırı, kamı,*
*Kim saldı o Cəmşidin əlindən dolu camı?!*
*Qəbrin evinə möhtac olub ömr edən onlar,*
*Sülh eylədilər, ya ki, hələ davadadırlar?!(7, 142)*

Nizami Gəncəvidə də eyni tipdə davam edir, ümumiyyətlə bu 2 əsərə süjet, ideya baxımdan paralellik xasdır. İkinci iqlim padşahı qızının əfsanəsi belədir ki, İraq şəhərlərindən birinin şahına münəccimlər evlənməməsini məsləhət görür. Çünki əgər evlənsə, arvadı düşməni olacaq. Şah deyiləni edir, lakin tənhalıqdan bezir, kəniz alır. Amma aldığı kənizləri də bəyənmir. Sarayda bir qozbel qarı olur, şahın aldığı kənizlərdə dünyaya hərislik, təkəbbür hissi oyadır. Şah buna görə də o kənizlərdən soyuyurdu. Bir gün ona gözəl kəniz göstərirlər, şah aşiq olur. Lakin şah çox cəhd etsə də, kəniz ona razılıq vermir. "Hekayədə qozbel qarı alleqorik fiqur kimi insanı dünyəvi işlərə sövq edən, insanda təkəbbür oyadan nəfsi, gözəl kənizlər- dünyəvi həzləri, kəniz satmaq – nəfsi öldürməyi, sübh ulduzundan nuru aparan pəri kimi bir kəniz isə ilahi eşqin ikinci məqamındakı təzahürünü simvolizə edir".( 1, 144) Nizami burda dünyanı kaftar qarıya bənzədir.

Beləliklə, iki əsərdə də kamilləşmənin hər mərhələsinin xarakteristikası təsvir olunaraq, o mərhələlərdə mistik yolçunun qarşılaşdığı maneələr və onlarla mübarizə yolları hekayələrlə əks edilir. Salik bir-bir hallar-məqamlar silsiləsindən keçib fənaya çatır. Sonuncu mərhələdə eşq yolçusu məqamın təsirindən sərməstdir. Fərd daha çox məstlik arzulayır. Məstlik halı onu özündən bixəbər edir.

*Artır daha da məstliyimi ta ki, içib mən,*
*Yeddinci qədəh ilə olum qafil özümdən.*
*Bu nəşə ilə mən keçirib zövqli hallar,*
*Utanmayaraq eləyim halımı izhar, (7, 153)*

"Yeddinci mənzildə mistik aşiq fundamental yaşantı keçirir. Belə yaşantı sonsuz bir Sükutda, Yoxluqda- Fənada baş verir. Belə yaşantı azadlığın tam qələbəsi deməkdir. (1, 176) Nizami Gəncəvi yeddinci iqlim şahzadəsinin nağılında təsvir edir ki, xacə bağda gördüyü gözələ aşiq olur. Həmin gözəl iki kənizlə xacənin yanına gətirilir. Mətanət Abdullayevaya görə bu iki kəniz sağ və sol enerji kanallarını ifadə edir, gözəl isə kundalini enerjisinə işarədir. Aşiqlərin qarşısına maneələr çıxsa da, sevgililər onları aşıb vüsala yetirlər.

*Xacə, padşahlığa bayraq vurdu, şad,*
*Köləlikdən etdi özünü azad. (9, 261)*

Artıq bu səviyyədə insan onu bu dünyaya əsir edən bütün buxovları qırıb. İndi fərd tamamilə azaddır, onun üçün kainatın qapısı açılıb. Biz bu məsnəvidə rənglərin və günbədlərin uyğunluğundan bəhs etmişdik. Bəhram ilk gün qara günbədə gedir, son gün isə ağ günbədə. Yəni insan günahlarından, nəfsindən arınmayanda qara kimi qaranlıq bir qəlbə malikdir. Qara rəng bədbəxtlik rəmzidir. "Kitabi-Dədə Qorqud" da "Dirsə xan oğlu Buğac" boyunda övladı olmadığına görə Dirsə xanı qara otaqda oturdurlar : "Oğlu-qızı olmayanı Allah qarğayıb, biz də qarğayırıq". (13, 67)

*Rənglər çox sünidir, dünyada bir ağ*
*Bilməyir sünilik, bilməyir boyaq. (9, 261)*

Fənadan sonrakı pillə Bəqadır. Bəqanın simvolu ağ rəngdir. "Ağ rəng işıqdır, nurdur, nur isə Allahın keyfiyyətidir".(1, 181) Ağ bütün rəngləri özündə birləşdirir. Abdullah Hatifinin "Həft mənzər" məsnəvisində də bu fikir açıq-aydın bəyan edilib: Rənglərin padşahı ağ rəngdir// Ağdan başqa ümid sübhü yoxdur.( 3, 159)

**Nəticə:**

Gördüyümüz kimi, saylar klassik poeziyada xüsusi mahiyyətə malikdir. Yeddi iqlim, yeddi ana rəng, yeddi yer-göy qatı, yeddi not, yeddi planet dövrün mütəfəkkirlərini düşündürmüş, istər-istəməz bu saya sakral anlam yüklənmişdir. "Həft peykər" mövzusunda kifayət qədər əsər yazılmışdır( Ə.Cami "Həft övrəng", Əhdi bəy Şirazi "Həft əxtər", A.Hatifi "Həft mənzər" və s). Bu mövzunu yalnız Nizami Gəncəvi və davamçıları işləməyib, hər zaman yeddi, onun mərtəbələri xüsusi tutuma malik idi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1. Abdullayeva M. "Klassik poeziya: ezoterik xəzinə" : Bakı: "Bakı universiteti" nəşriyyatı, 2009, 328 s.
2. Abdulla B. "Folklorda say simvolikası" : Bakı, "ELM", 2006, 148 s.
3. Abdullah H. "Həft mənzər": Bakı : "Elm", 2021, 428 s.
4. Cümşüdoğlu N. "Füzulinin sənət və mərifət dünyası": Bakı-Tehran: "Süruş" Beynəlxalq nəşriyyatı(İran), 1997, 368 s.
5. Əliyeva L, Səfərli G: "Klassik Azərbaycan bədii nəsrindən seçmələr": Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2018, 208 s.
6. Məhəmməd F. Əsərləri. Altı cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 336 s.
7. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. V cild. Bakı, "Şərq-Qərb", 2005, 224 s.
8. Nəsimi İ. Seçilmiş əsərləri. Bakı, "Maarif" nəşriyyatı, 1985, 440 s.
9. Nizami G. "Yeddi gözəl" : Bakı, "Lider nəşriyyatı", 2004, 336 s.
10. Nəxşəbi Z. "Tutinamə" : Bakı, JekoPrint, 2020, 472 s.
11. Rzasoy S. "Nizaminin "Yeddi gözəl" poemasında mif, folklor və təsəvvüf": Bakı, Elm və təhsil, 2021, 344 s.
12. Şah İsmayıl Xətayi. Əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 384 s.

13. Kitabi-Dədə Qorqud: Bakı, TEAS Press Nəşriyyat evi, 2016, 404 s.

**ILKNUR ASGAROVA**

## NUMBERS SYMBOLIZED IN MASNAVİS

**Key words:** numbers in masnavis, N.Ganjavi “Seven beauty”, M.Füzuli “Seven glass”, Shah Ismail Khatai "Dahnama", abjad, kundalini, sufism

**Summary:** The article discusses the symbolic meanings of numbers in context. This method was widespread in classical poetry. It is possible to find it either in masnavis or examples of poetry. In Nizami Ganjavi's "Khamsa" we find cosmogonic elements in all five poems. Here we will examine the "Seven Beautiful" masnavi. At the same time, we will draw parallels with Muhammad Fuzuli's verse work "Yeddi cam". Abdullah Hatifi's "Haft peykar" which is a reference to N. Ganjavi's "Seven Beauties" was also touched upon. Basically, the number we are talking about here is seven. We will examine the sacramental meaning of seven, the meaning expressed by seven. In addition to seven, other numbers were also involved in the investigation. During this period, "Dahnama" were written. The best example of it is written by Shah Ismayil Khatai. Fedai's poem "Bakhtiyarname" is structurally similar to "Dahname". If "Dahnama" is ten letters, "Bakhtiyarnama" is the story of ten ministers. Basically, we see the numbers between one and ten working intensively within the text. We find cases of data encryption using a number and its floors, its mathematical combination with other numbers. In particular, we witness this in the work of Imadedin Nasimi. Numbers like seven, fourteen, sixteen, twenty-eight, thirty-two, eighteen thousand should be given special attention in Nasimi's poetry.

**ИЛЬКНУР АСГАРОВА**

## ОБОЗНАЧЕННЫЕ СИМВОЛИЧЕСКОЙ ЦИФРЫ В МАСНАВИ

**Ключевые слова:** Числа в маснави, Н. Гянджеви «Семь красавиц», М. Физули «Семь кубков», Шах Исмаил Хатаи «Дахнаме», Абджад, кундалини, суфизм.

**Краткое содержание:** В статье рассматриваются символические значения чисел в контексте. Этот прием был широко распространен в классической поэзии. Его можно найти либо в мансависах, либо в примерах поэзии. В «Хамсе» Низами Гянджеви мы находим космогонические элементы во всех пяти стихотворениях. Здесь мы рассмотрим мансаву «Семь красивых». При этом проведем параллели со стихотворным произведением Мухаммада Физули «Едди джам». Был также затронут «Хафт пейкар» Абдуллы Хатифи, являющийся отсылкой к «Семи красавицам» Н. Гянджеви. По сути, число, о

котором мы здесь говорим, равно семи. Мы исследуем сакраментальное значение числа семь, значение, выраженное числом семь. Помимо семерых, в расследовании участвовали и другие номера. В этот период были написаны «Дахнама». Лучший пример этого написан Шахом Исмаилом Хатаи. Стихотворение Федая «Бахтиярнаме» структурно похоже на «Дахнаме». Если «Дахнама» — это десять букв, то «Бахтиярнама» — это история десяти министров. По сути, мы видим, что числа от одного до десяти интенсивно работают в тексте. Находим случаи шифрования данных с помощью числа и его этажей, его математического сочетания с другими числами. В частности, мы наблюдаем это в творчестве Имадедина Насими. Таким числам, как семь, четырнадцать, шестнадцать, двадцать восемь, тридцать два, восемнадцать тысяч, следует уделить особое внимание в поэзии Насими.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: DOS.Dilbər Zeynalova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**QASIMOVA AZADƏ HƏSƏHALI QIZI**
**Azərbaycan Kooperasiya Universiteti**
**"Tərcümə"kafedrası ingilis dili üzrə b\m**
**N.Nərimanov 93.**
**qaza555@yahoo.com**

# AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ ZAMAN KATEQORİYASININ LİNQVİSTİK TƏHLİLİ

**Xülasə**

Obyektiv gerçəkliyin əsas xassələrindən biri olan zaman məkanla bərabər insanın həyatında mühüm rol oynayır.İnsan özünün praktik fəaliyyətinin bütün sahələrində zaman amili ilə üzləşir.Bu səbəbdən zaman kateqoriyası,onun mahiyyəti,zamanın dildə ifadə üsulları və vasitələri ilə bağlı məsələlər zaman – zaman müxtəlif elm sahələrini təmsil edən tədqiqatçıların,o cümlədən dilçilərin diqqətini cəlb etmişdi. Temporal leksikanın İngilis və Azərbaycan dillərində işlənməsinə və tətbiqi
məsələlərinə həsr olunmuş çoxlu əsərlər vardır.Bu əsərlərdə obyektiv zaman kateqoriyasının dildə müxtəlif və rəngarəng ifadə vasitələri fərqləndirilmişdi:

**1) Morfoloji vasitələri** ( feilin zaman formaları);

**2) Sintatik vasitələr** (zaman budaq cümləsi,xüsusi zaman bağlayıcıları,tərkibli bəzi cümlə tipləri və s.);

**3) Leksik vasitələri** (zaman anlayışlı və ya temporal isimlər,sifətlər,sabit birləşmələr);

**4) Leksik-qrammatik vasitələr** (temporal isimlərin müəyyən sözönləri,və ya hal şəkilçiləri ilə işlənən formaları,eləcə də temporal isimlərin sifət və əvəzliklərlə birlikdə əmələ gətirdikləri sərbəst söz birləşmələri).

Dilçilik ədəbiyyatında zaman münasibətlərinin bütün ifadə vasitələrinə diqqət yetirilsə də,ən çox morfoloji vasitələr müfəssəl şəkildə tədqiqat obyekti olmuşdur. Azərbaycan dili üzrə dərslik,dərs vəsaiti və qrammatika kitablarından əlavə,zaman münasibətlərinin feil formaları ilə ifadəsinə həsr edilmiş xeyli miqdarda xüsusi monoqrafiya,dissertasiya və məqalələr vardır.

.Bu araşdırmaların əksəriyyətində zaman münasibətlərinin dildə morfoloji ifadə vasitələri,yəni feil formaları ilə ifadə xüsusiyyətləri müfəssəl, amma zamanın digər ifadə vasitələrində təcrid olunmuş şəkildə tədqiq edilmişdir.Bəllidir ki,bütün dil vahidləri kimi,zamanın dildə ifadəsini reallaşdıran vasitələr də kommunikasiya prosesində,nitqdə bir-birinə təsir etməklə qarşılıqlı surətdə fəaliyyət göstərir.

**AÇAR SÖZLƏR: temporal sözlər,leksika,semantika,morfologiya,dilçilik**

**А.А.Алекперов:Фонематическая система современного Азербайджанского**

**Языка.Изд.»Елм».Баку.1971.Müəllif yazır:”**Dilçilikdə son vaxtlar dil vahidlərinin öyrənilməsinə yeni yanaşma, zaman münasibətlərinin ifadə vasitələrinin qarşılıqlı fəaliyyət kontekstində təhlil etmək üçün yeni imkanlar açır.Müxtəlif səviyyəlı dil vahidlərinin daşıdığı semantik funksiyalarının oxşar və ümumi olması müddəasına əsaslanaraq həmin ifadə vasitələrinin qarşılıqlı əlaqə və münasibətlərini nəzərdən keçirmək olar və bu, vacib məsələlərdən biridir.Azərbaycan dilində zaman münasibətlərinin leksik ifadə vasitələri bu baxımdan tədqiqat cəlb edilməməmişdir. Zaman münasibətlərinin leksik ifadə vasitələrinin ,yeni temporal leksikanın feilin zaman formaları ilə qarşılıqlı əlaqəsinin bir çox mühüm vasitələrinin bizim dilçiliyimizdə hələ də təfsilatlı tədqiqini tapmamışdır**.(1.s.166)**

Bu yönümdə aparılacaq tədqiqatlar,şübhəsiz, Azərbaycan dilçiliyində funksional-semantik istiqamətin inkişafına kömək edəcək. Azərbaycan dilində temporal leksikanın qeyd ediləcək istiqamətdə araşdırılması və başqa dillərin xüsusilə ingilis dilinin materiallarını cəlb etmək yolu ilə bu növ araşdırma sahəsinin genişləndirilməsi gerçəkliyin zaman münasibətlərinin bəşəri dildə ifadə edilməsi qanunauyğunluqlarının bir sır nəzəri,eləcə də dillərin öyrədilməsi metodikasının optimallaşdırılmasına kömək edəcək praktiki məsələlərinin həlli üçün imkanlar açır.

İnsanın onu əhatə edən ətraf aləm haqqında biliklər əldə etmək, ətraf aləmin hansı əlamətlərdən təşkil olunduğunu və həmin elementlərin bir-birilə nə cür əlaqə və münasibətdə olduğunu dərk etmək, buradan əldə etdiyi bilikləri özündə saxlamaq,qazandığı müxtəlif növ bilikləri cəmiyyətin digər üzvlərinə,nəticə etibarilə sonrakı nəsillərə ötürmək arzusu və istəyi təmamilə təbiidir.

Həmin təbii arzu müxtəlif növ biliklərin əldə edilməsi,qorunması və ötürülməsi üçün vasitəlrin meydana çıxmasına gətirib çıxarmışdı.Bir sıra səbəblərdən insanların birgə fəaliyyətini təşkil etməyə,bilikləri qorumağa və ötürməyə imkan verən universal vasitə məhz dil oldu.

Bu özünəməxsus sistem qeyri-adi çevikliyi sayəsində içindəki müəyyən vahidləıri özündən xaric və özünə daxil etməklə,onların forma və məzmununu dəyişdirməklə,onların tətbiq sahəsini daraldıb-genişləndirməklə ən müxtəlif ehtiyaclar üçün uyğunlaşmaya qabildir.İnsanın fəaliyyət sahəsinin genişlənməsi,insan idrakının inkişafı yolu, insanın öz fəaliyyətini gerçəkləşdirilməsi üçün istifadə etdiyi dil vahidlərində və onların xarakterində inikas edir.

**R.C.Cəfərov:Azərbaycan dilinin terminoloji sistemində Qərbi Avropa mənşəli sözlərin işlənməsinə dair”.Barı.”Nurlan”nəşriyyatı.2014.s.211.**

Dili onun vahidlərinin nomenklaturasını,onun cəmiyyətdəki funksiyalarını təyin etmək yolu ilə öyrənmək,dil vahidlərinin təfəkkür vahədləri ilə əlaqəsini araşdırmaq bəşər övladına dünyanın sirlərinə vaqif olmağn hansı yollarla baş verdiyi və bu prosesdə dilin hansı rolu oynadığı barədə dolayısı yolla mühakimələr irəli sürməyə imkan vermişdir. Məhz belə yanaşma nəticəsində dilin meydana gəlməsi üçün

obyektiv ilkin şərtləri müəyyənləşdirməklə bağlı bir sıtra təcrübi məsələlərin cavablandırılmasında mədəniyyətin digər elementləri arasında dilin mövqeyinin üzə çıxarılmasına kömək etmişdir.**(2.s.211**)

Məhz belə yanaşma nəticəsində müəyyən edilmişdir ki, dil cəmiyyətin mövcudluğunun zəruri şərtidir. Müəyyən edilmişdir ki,dil cəmiyyətin yaddaş saxlancı və əvvəlki nəsillərin təcrübəsinin sonrakılara ötürülmə vasitəsidir. ”İnsan-dil-cəmiyyət” cərgəsində “dil”in mövqe tutması belə bir faktla səciyyələndirilir ki,dil kökləri etibarilə insan psixikasının dərinliklərinə işləsə də,yalnız cəmiyyətdə meydana gələrək fəaliyyət göstərə bilər.Dilə sahib insanın mövcud olduğu,yaşadığı ətraf aləmin ayrılmaz kompanentlərindən biri zaman hesab olunur.

Zaman və insan ta qədimdən fəlsəfi problemlər sahəsinə aid olan mövzulardan olmuşdur.Bununla belə,zamanla bağlı olan və üzərində filosofların işlədiyi faktik material ilkin olaraq müxtəlif elm sahələri çərçivəsində işlənib sistemləşdirilir ki,onların arasında
fizika,astronomiya,arxeologiya,tarix,fiziologiya,psixologiya,iqtisadiyyat,sosiologiya və s. mühüm yer tutur.

Obyektiv gerçəkliyin təfəkkür vasitəsilə proyeksiyalandığı dil ilə bağlı elmi dilçiliyin bu planda xüsusi yeri və xüsusi rolu vardır.Bu elm vasitəsilə dünyanın müxtəlif dillərində müxtəlif cür adlansa da, Azərbaycan dilindəki “zaman”anlamı ilə birbaşa və dolayısı ilə əlaqələnən vahidlər öyrənilir.

Dilçilik ədəbiyyatında gerçəkliyin zaman münasibətləri ilə əlaqəli olan dil vahidləri müxtəlif səviyyələrdə və müstəvilərdə izah edilir.Məsələn, zamanı adlandıran,onu təmsil etməyə,işarələməyə,onunla assosiasiya yaratmağa qabil olan vahidlər araşdırılır.Bu halda zamanın bir obyekt,anlayışla əlaqəli dil vahidi kimi mövcud olması faktı aşkar,ya da üstüörtülü şəkildə qəbul edilir.Nəticədə zaman,yaxud temporal mənalı vahidlərdən söhbət gedir.

Obyektiv gerçəklikdə zaman və insan arasında münasibətlərin nəticələrini ifadə edən dil vahidləri zaman və ya temporal məna,anlam və anlayış sahəsini təmsil edir. Bununla məşğul olan tədqiqatçılar diqqəti zaman anlayışını və ya kateqoriyasının ifadə üsulları yönəldərək temporal münasibətlərin ifadə üsulları,bu münasibətlərin linqvistik ifadə imkanları,yaxud zaman münasibətlərinin tipologiyası kimi məsələlərə müraciət edirlər.

Temporal məna,anlam və anlayışların mövcud olması faktı morfoloji səviyyədə zaman,yəni feilin zamanı ilə birlikdə,leksik,sintaktik və hətta mətn səviyyəsində zaman,eləcə də bədii zaman,zaman sahəsi,temporallıq sahəsi,zamanın leksik göstəriciləri, temporal genişləndiricilər,leksik dəqiqləşdiricilər,indikatorlar və s. kimi termin və anlayışların dilçilik ədəbiyyatında dövriyyəyə daxil olmasına rəvac verdi. Zaman və ya temporal tematika özrə terminologiya çoxşaxəli olmaqla və ya qarışıq məsələlər barədə danışmaqda mümkündür ki, bu barədə az sonra danışılacaqdır.

Söylədiklərimizdən belə qənayətə gəlmək olar ki,gerçəkliyin zaman strukturunun dildə insan tərəfindən mənimsənilməsində iştirak edən morfoloji,leksik,sintaktik vahidlərin mütəşəkil sistemi vardır.Bu dil vahidləri tərkibinə görə müxtəlif olan həm məzmun,həm də funksional planda təzahür edir.

Məzmun planda müxtəlif dillərdə dilin ayrı-ayrı səviyyələri üçün temporal mənası aşkar olan vahidlər fərqləndirilə bilər.Morfoloji səviyyədə belə vahidləri xüsusi zaman morfemləri,leksik səviyyədə zaman anlayışlı sözlər və ya temporal leksika,sintaktik səviyyədə konstruksiyaları təmsil edir.Funksional planda müxtəlif dillərdə zaman məzmununun ifadə üsulları baxımından ixtisaslaşmış dil vahidləri vardır.Yuxarıda xatırlanan dil vahidləri arasında zaman mənalı sözlər və ya temporal leksika xüsusi mövqeyə malikdir.

**Musayev O .İ . ( Türksevər ) . İngilis dilinin qrammatikası , B , Qismət , 2007Oruc Musayev qeyd edir:"**Temporal leksikaya mənasında zaman anlayışı olan sözlər daxildir.Onları temporal sözlər də adlandırırlar.Bir çox müəlliflərin fikrinə görə,zaman mənalı sözlərdə gerçəkliyin zaman münasibətlərinin bir-birini əvəzetmə ardıcıllığı ilə bağlı olan təbii proseslər üzərındəki müşahidələr öz təsbihini tapır.(**3.s.123**)

Zaman proseslərinin uzunluğunu ölçmək zərurəti zamanın ölçülməsi vasitələrinin meydana gəlməsinə gətirib çıxardı ki,bu da zamanın ölçü vahidlərini bildirən müvafiq qrup sözlərin üzə çıxması ilə nəti-cələndi."İnsanın zaman daxilində özünün mövcudluğunu dərk etməsi onun yaş dövr-lərinin adları bildirən sözlərin (məsələn,uşaqlıq,gənclik,yeniyetməlik və s.), eləcə də özünün tarixini,onun ayrı-ayrı dövrlərini (məsələn,keçmiş,indi,gələcək,əbədiyyət,əsr və s.) əks etdirən sözlərin meydana gəlməsinə gətirib çıxardı". Zamana münasibətdə dil vahidləri kompleks təhlili,onların formalaşması mexanizminin nəzərdən keçirilməsi geniş faktik materialın,eləcə də artıq mövcud olan tədqiqatların nəticələrinin sərfnəzər edilməsi tələb edir. Müasir dilçiliyin ən aktual məsələlərindən biri də mətn dilçiliyidir. Müvafiq olaraq mətn dilçiliyinin tədqiqat obyektini mətn təşkil edir. Mətni xarakterizə edən, ona spesifik məna verən bir sıra əlamət və xassələr vardır. Bunlardan biri kimi mətnin tamlığını, bütövlüyünü qeyd etmək olar. Mətnin bütöv olması onun hərtərəfli dərk olunması üçün lazım olan başlıca tələblərdən biridir. Mətnin bütövlüyünü, tamlığını da şərtləndirən bir sıra amillər vardır. Bütöv olmaq üçün mətn eyni zamanda əlaqəli olmalıdır.Mətndaxili əlaqələr, onların struktur semantik parametrləri mətn dilçiliyi üçün vacib əhəmiyyət kəsb edir. Bu səbəbdən onların öyrənilməsinə bir çox linqvistik tədqiqatlar həsr olunmuşdur. Bu tədqiqatlar içərisində M.A.K. Halliday və R.Hasanın əsərlərini vurğulamaq olar. Müəlliflər öz əsərlərində mətndaxili əlaqəliliyi bildirmək üçün koheziya (cohesion) terminindən istifadə etmiş, koheziv vasitələrin əhatəli təsvirini vermişdir.Burada irəli sürülən əsas konsepsiya və konseptual əsasda koheziyanın leksik və qrammatik üsullarının təsnifatı çox böyük uğur qazandı. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, həmin konsepsiyanın bütün müddəaları bəzi linqivistlər tərəfindən qeyd-şərtsiz qəbul

edilmədi. De Boqrand və Dreslerin koheziya termininin izahı ilə bağlı fikirləri mövcuddur. Sözü gedən dilçilər və onlara həmfikir bəzi dilçilər yuxarıda qeyd olunan konsepsiyanı tənqid edərkən haqlı olaraq göstərir ki, M.A.K. Halliday mətn əlaqələrində dərinlik və səthi planlar arasında həddi düzgün müəyyənləşdirmir.Müəyyən məlumatın maksimal dərəcədə səmərəli ötürülməsi üçün mətn sintaktik və semantik çərçivəyə malik olmalıdır. Mətn həm də daxili təşkilatlanmaya, orqanizasiyaya malikdir.Mətnin səthi struktur elementləri olan dil ifadələri arasındakı əlaqələrdən, yəni koheziyadan danışmaq lazım gəlir. Koheziya linqivistik cəhətdən eksplisitdir və mətnin elementləri arasında semantik əlaqələri vurğulamaqla özünü göstərir. Ardıcıl cümlələr arasında semantik bağlar koherensiya və koheziya üçün fundamentaldır. Fikrimizcə burada tematik ardıcıllıq, qanunauyğunluq olmalıdır. Məhz bu cür ardıcıllıq və qanunauyğunluq koheziya ilə koherensiyanın qarşılıqlı əlaqəsini və onların birinin digərini vurğulamasını şərtləndirən amillər sırasına daxildir. Ulla Connor koheziyaya aşağıdakı təyinatı verir: "Koheziya cümlələr və mətnin hissələri arasında əlaqələri göstərmək üçün istifadə eksplisit linqivistik vasitələrin işlədilməsidir". Bu cür koheziv vasitələr oxucunun öncəki müddəaları müvafiq olanlarla əlaqələndirməyə köməkçi olan ifadə və sözlərdən ibarətdir.

**Z.Verdiyeva,F.Ağayeva,MAdilov,"Azərbaycan dilinin semisiologiyası" Bakı 1979**.Müəlliflər öz əsərlərinrdə yazırlar:"Mətn tekstuallığın tələblərinə cavab verən kommunikativ hadisədir. Mətnin tamlığını təyin edən standartları mövcuddur ki, bunlara koherensiya (mətnin alt qatlarından bəhs edir, o, mətn istifadəçiləri arasında koqnitiv proseslərin məhsuludur), intersionallıq və koheziya aiddir. Qeyd edildiyi kimi koheziya mətnin üst qatının komponentlərindən, yəni bizim eşidib yaxud gördüyümüz real sözlərin əlaqə daxilində qarşılıqlı birləşməsini bildirən yollardan bəhs edir. Fikrimizcə əsas olaraq bunlardan aşağıdakıları vurğulamaq lazımdır: qrammatik-referensiya; substitusiya; ellipsis; leksik-qrammatik-bağlayıcı; leksik koheziya.Biz bu məqalədə qrammatik koheziyanın növlərindən biri olan ellipsisdən danışırıq**.(4.s.36-42**)

Generativ dilçilikdə ellipsis termini bir sıra hadisələrə aid edilir, onların dərk edilən mənası linqvistik formalarla ifadə edilən mənasından daha əhatəlidir. Ellipsis o zaman yaranır ki, struktur cəhətdən vacib olan buraxılmamış, deyilməmiş olsun.Ellipsis leksiko-qrammatik kateqoriyadır. Temporal leksikanı qrammatik zaman kateqoriyasının tədqiqindən təcrid olunmuş şəkildə öyrənmək mümkün deyildir, çünki temporallıq anlayışının ifadəsində leksik və qrammatik vasitələr qarşılıqlı şəkildə əlaqəlidir. Həqiqətən, müxtəlif cümlə strukturlarında feilin zaman formalarının köməyi olmadan da nəql olunan hadisələrin zaman daxilində lokallaşdırılmasının mümkünlüyünün şahidi oluruq. Bundan əlavə, feil formaları ilə reallaşan zaman planının çox vaxt temporal leksik ünsürlərlə tamamlanmasına rast gəlirik və bu yolla da temporal leksikanın təsriflənən feilin aparıcı qrammatik kateqoriyasına təsir etdiyini görürük. İngilis və Azərbaycan dillərinin izahlı

lüğətlərində qeydə alınmış temporal leksikanın lüğət definisiyalarını nəzərdən keçirdikdə, onların leksik mənalarında aşağıdakıların öz əksini tapdığını aşkar edirik:

1) Temporal leksika leksik məna etibarilə daim hərəkətdə olan, dəyişən ümumi mücərrəd zaman anlayışı ifadə edir;
2) Bu sözlərin leksik mənasında müxtəlif uzunluğa malik zman kəsiklərinə bölünmə və onların ölçülmə xüsusiyyətləri ifadə olunur;
3) Həmin sözlərin leksik mənasında hər hansı bir hesablama və ya çıxış nöqtəsi, yəni nitq momenti, başqa bir hərəkət və hadisə ilə əlaqəli zamanın keçmiş, indiki və gələcək sferalarının bölgüsü təzahür edir;

## Ə D Ə B İ Y Y A T:

1A.A.Алекперов:Фонематическая система современного Азербайджанского Языка.Изд.»Елм».Баку.1971.c.166.
2.C.R.Cəfərov:Azərbaycan dilinin terminoloji sistemində Qərbi Avropa mənşəli sözlərin işlənməsinə dair".Barı."Nurlan"nəşriyyatı.2014.s.211.
3.Musayev O .İ . ( Türksevər ) . İngilis dilinin qrammatikası , B , Qismət , 2007 s.123.
4.Z.Verdiyeva,F.Ağayeva,MAdilov,"Azərbaycan dilinin semisiologiyası" Bakı 1979.s.36-42.
5.F.Yadigar "German diliçiliynə giriş" Bakı 2003.s.188-214.

**A.Qasımova**

## TIME IN AZERBAIJAN AND ENGLISH LANGUAGES LINGUISTIC ANALYSIS OF CATEGORY

### Summary

The article deals with the main principa ls of competence. Today the main goal of teaching and learning foregin languages in the global world is developing language learns' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach of teaching languages.

The need to measure the length of time processes led to the creation of time measurement tools, which resulted in the emergence of a group of words that denote time units. , youth, adolescence, etc.), as well as led to the creation of words that reflect its own history, its separate periods (for example, past, present, future, eternity, century, etc.)"

The need to measure the duration of time processes led to the creation of means of time measurement, the result of which was the appearance of a group of words denoting units of time (youth, youth, etc.), and also led to the creation of words reflecting its own history, its separate periods (for example, the past , present, future, eternity, age etc.)»

**KEY WORDS:temporal words,lexical,semantics,morphology,linguistics.**

*А.Касумова*

## ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ КАТЕГОРИИ ВРЕМЯ НА АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

**Резюме**

В статье рассматриваются основные принципы компетентности. Сегодня основной целью преподавания и изучения иностранных языков в глобальном мире является развитие способности изучающих язык использовать изучаемый язык для общения. Процесс обучения английскому языку должен быть основан на коммуникативно-функциональном подходе обучения языкам.

Необходимость измерения длительности временных процессов привела к созданию средств измерения времени, следствием чего стало появление группы слов, обозначающих единицы времени. , юность, отрочество и др.), а также привели к созданию слов, отражающих собственную историю, отдельные ее периоды (например, прошлое, настоящее, будущее, вечность, век и др.)»

Необходимость измерения длительности временных процессов привела к созданию средств измерения времени, результатом чего стало появление группы слов, обозначающих единицы времени (молодость, отрочество и др.), а также привело к созданию слова, отражающие его собственную историю, отдельные его периоды (например, прошлое, настоящее, будущее, вечность, век и т. д.)»

**Ключевые слова: темпоральные слова, лексика, семантика, морфология, лингвистика.**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Rəfiq Cəfərov tərəfindən çapa tövsiyə olunmuşdur**

**f.ü.f.d.DÜRDANƏ Əsəd qızı NAĞIYEVA**
**LEYLA Vəli qızı QOCAYEVA**
**Azərbaycan Tibb Universitetinin Azərbaycan dili kafedrasının dosentləri**
**emal:d_nagiyeva@mail.ru**

# MÜASİR AZƏRBAYCAN DİLİNDƏ FUNKSİONAL ÜSLUBLARDAN İSTİFADƏ İMKANLARI, PUBLİSİSTİK ÜSLUB

**Açar sözlər:** üslubiyyat, funskional üslublar, ictimai təfəkkür, ədəbi dil tarixi, ümumxalq dili, ictimai tribuna, milli dilə təsirlər, üslub özünəməxsusluğu
**Ключевые слова**: стилистика, функциональные стили, социальное мышление, история литературного языка, национальный язык, общественная трибуна, влияния на национальный язык, стилистическое своеобразие
**Keywords:** stylistics, functional styles, social thinking, history of the literary language, national language, public platform, influences on the national language, stylistic originality

Aydındır ki, cəmiyyətin müxtəlif sahələrində dil vahidlərindən eyni səviyyədə istifadə edilmir. Həmin sahələrin tələblərinə görə dil vahidləri seçilir. Məsələn, elm sahəsi ilə məişət sahəsi eyni tərkibli lüğət fondu tələb etmir. Bu zaman ümumi lüğət fondundan söz seçimi üslubunun özünəməxsusluğu zərurəti yaranır.

Dilçilikdə üslub dedikdə dil vahidlərindən məqsədyğnlü istifadə üsulu, forması nəzərdə tutulur. Bu cəhətdən müxtəlif üslublar yaranır. "Üslubiyyat" terminə nisbətən özündə daha geniş məzmun, funksiya cəmləyən üslub dildə olduğu kimi, ədəbiyyatda, incəsənətdə, ictimai fəaliyyətin başqa sahələrində də özünü göstərir. Buna bəzən "dəst-xətt", "yol" və s. deyilir. Məsələn, Cəlil Məmmədquluzadə üslubu (bunu "Cəlil Məmmədquluzadənin dili" məzmununda yox, "Satirik ədəbiyyat üslubu" məzmununda anlamaq lazımdır). Bülbül üslubu, Səttar Bəhlulzadə üslubu və s. Yaxud klassik üslub, folklor üslubu, romantik üslub, realist üslub və s.

Milli ictimai təfəkkürün müxtəlif sahələrini əks etdirən funksional üslubların tarixi inkişaf tendensiyası dil vahidlərindən məqsədyönlü istifadə və həmin sahələrin tələbi ilə seçilən , sistemləşən, formalaşan spesifik dil vahidlərinin yeni, özünəməxsus cizgiləri ilə yadda qalacaq tərzdə funksionallaşması məsələsi ilə bağlı olur. Məsələn, bədii təfəkkürün tələbi ilə bədii üslub, elmi təfəkkürün tələbi ilə elmi üslub, publisistik üslubun tələbi ilə publisistik üslub və s. müəyyənləşir. Bu üslubların hər birinin cəmiyyətdə özünəməxsus funksiyaları var, həmin funksiyalarına görə bir-birindən fərqlənirlər. Sözsüz ki, bədii, elmi, publisistik və s. təfəkkür sahələri , yaxud formaları arasında əlaqə olduğu kimi , bədii, elmi, publisistik və s. üslublar da biri digəri ilə bağlıdır.

Ədəbi dilimiz funksional üslublar (bədii, elmi, publisistik, rəsmi-işgüzar, məişət) hesabına formalaşır, inkişaf edir. Ədəbi dilin ümumi leksik, fonetik, qrammatik normaları onun funksional üslublarının hər biri üçün məcburidir. Yəni, həmin normalara yazıçı da, jurnalist də, məmur da, hər hansi bir mədəni insan da əməl etməlidir. Məsələn, bir söz bədii üslubda necə yazılır, yaxud tələffüz edilirsə, elmi, publisistik və s. üslublarda da o cür yazılır , yaxud tələffüz olunur. Lakin bu gün dilçiliyin bir çox sahələrinin problemləri kimi, üslubiyyat sahəsinin də problemləri diqqəti cəlb edir.

Sosial-siyasi, ictimai-iqtisadi, ədəbi-estetik, mədəni-intellektual və digər sahələrdəki problemlər həm də ictimai şüur əksetdirməsi olan dildə də özünü biruzə verir. Demokratiya, azadlıq uğrundakı mübarizə prosesində pərakəndə, sistemsiz müdaxilələr bəzi hallarda düzgün olmayan nəticələrlə sonlandı. Müstəqillik illərində dilimizi, onun leksik-qrammatik inkişafını düzgün yönləndirmək üçün normal şərait yaratmasına baxmayaraq əksinə oldu. Dilə, onun mədəni səviyyəsi hesab olunan ədəbi dil qatına , demək olar ki, mənfi təsirlər qanunauyğun hal kimi intensivləşdi. Əgər 25-30 il öncə televiziya, mətbuat, bədii dil yaradıcılarının fəaliyyəti gənclik üçün ədəbi-mədəni dil mənimsəməsində əsas yardımçı vasitələr idisə, həmin fəaliyyətlər bu gün əksinə bir proses kimi diqqəti çəkir.

Publisistika, latın sözü olub "ictimai" deməkdir. Publisistika termini XIX əsrdə yaranmış və uzun müddət sosial ədəbiyyat mənasında işlənmişdir. Müxtəlif mövqe və maraqları, emosiyaları əks etdirən bu üslubun dili ümumxalq dilinə yaxın olur. Aydınlığı, anlaşıqlığı ilə seçilən bu üslubun yaradıcıları bəzən ədəbi dil qanunlarını nəzərə almadan, ictimai tribunadan məhz şəxsi mənafeyi, tanınması üçün sui-istifadə edir. Dilimiz tarix boyu ağır sınaqlardan, mübarizələrdən keçib, öz varlığını, mövcudluğunu qoruyub saxlayıb. Böyük siyasi, ideoloji mübarizələr, mücadilələr bu dilə yaşama, varolma səlahiyyəti qazandırıb. Bildiyimiz kimi, KİV-lərin dili ədəbi dilin funksional üslublardan biri olan publisistik üslubda , başqa sözlə desək, ictimai-siyasi üslubda inkişaf edir. Müasir dövrdə bu üslubun dilinin ədəbi dildən kəskin fərqləndiyinin şahidi oluruq. Fərqlər o həddə çatıb ki, artıq publisistik üslubu ədəbi dilin üslubu kimi səciyyələndirmək sxematik və ənənəvi nəzəriyyə səciyyəsi daşıyır. Bu fərqlər özünü mətbuat dilinin leksikasında, tərkibində işlənən alınmaların çoxluğu baxımından, dialekt sölərindən bolluca istifadə baxımından, durğu işarələrinin fərqli təyinatlarda işlədilməsi baxımından göstərir. Difər fərq də budur ki, söz sırası qeyri-ənənəvi dəyişdirilir. Son dövrlərdə tərcümə jurnalistikası inkişaf etmişdir və bu inkişafın nəticəsi olaraq, KİV dilində söz sırasının qeyri-ənənəvi dəyişdirilməsi problemi, bir sözlə sintaktik problemlər üzə çıxmışdır. Sonrakı dövrlərdə jurnalistlər və media sahəsində çalışan yazarlar öz kommersiya maraqları və fərqlilik yaradaraq oxucu cəlb etmək üçün bu problemlərdən üslubi fiqur kimi istifadə etməyə başlamışlar.

Söz azadlığının pozulması nəticəsində jurnalistikanın ən kəskin silahı olan şərhçilik demək olar ki, onun əlindən alınmış və bunun nəticəsində media kütləvi

oxucu sayı itirmişdir. Yenidən müstəqil media öz ətrafına oxucu cəlb etmək, eyni zamanda bunu təhlükəsiz etmək və təqibdən yayınmaq üçün sadə analitik xəbərlərə öz düşüncələri ilə desək, rəng qatmaqla məşğul olmuşlar. Təbii ki, jurnalistin sözünə vurduğu bəzək, elə sözlə də olmalıdır. Və bu bəzək mühafizəkar dilçilərin təbirincə desək, ədəbi dilimizi korlamaqla məşğuldur. Nəzərə alsaq ki, ölkəmizdə yalnız mühafizəkar dilçilər söz sahibidir, ona görə də medianın tənqidinə təəccüblə yanaşmamalıyıq. Dilçilik baxımından yanaşsaq, həqiqətən bəzən mətbuatda dilimizin acınacaqlı hala gəldiyini etiraf etməliyik. Ancaq bu acınacaqlı halın birtərəfli şərh edilməsi düzgün nəticəyə gəlməyə imkan verməyəcək. Bu halların baş verməsini zəruri edən şərtlərə yuxarıda toxunsaq da, mətbuat dilindəki nöqsanlardan danışan hər bir dilçi fikirlərini söyləyərkən mətbuatın dilinə birtərəfli yanaşmamalı, mövcud, ümumi problemləri şərh etməklə bərabər dilin müdafiəsinə qalxmalıdır. Əks halda, birtərəfli olan kəskin tənqidlər, mətbuatda senzura vəziyyəti yaradır və biz bunun acı nəticəsini Sovet imperiyası dövründə görmüşük. Dilin bu cür kortəbii müdafiəsi nəinki dilin inkişafına, hətta dövlərin və cəmiyyətin inkişafına mənfi təsir göstərir" (10). Çar Rusiyasının ruslaşdırma siyasətindən sonra 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu qısa müddətdə dilimizin inkişafına böyük önəm verildi.

1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti yaranandan az sonra Azərbaycanda sənədləşmənin türk dilində aparılması ilə bağlı qərar qəbul olunur. 1921-ci ildə Nəriman Nərimanov Dadaş Bünyadzadə ilə birlikdə Azərbaycanda dövlət dilinin türk dili olması iləbağlı dekret imzalayır və qəribədir ki, 1921-ci ildə Azərbaycanın ilk Konstitusiyası qəbul olunur, ancaq oraya dövlət dili haqqında maddə salınmır. 1924-cü ildə Mərkəzi İcraiyyə Komitəsinin Azərbaycanda dövlət dilinin türk dili olması ilə bağlı qərarı qəbul olunur. 1936-cı ildə Azərbaycanın yeni Konstitusiyası hazırlanarkən orada Azərbaycanın dövlət dili türk dili kimi göstərilir. Lakin 1937-ci ilin aprel ayında qəbul olunan əsas qanunda dövlət dili haqqında heç bir qayda öz əksini tapmır. Ancaq Konstitusiyada xüsusi maddə olmasa da, 1936-cı ildən sonra bütün normativ sənədlərdə dövlət dili Azərbaycan dili kimi qeyd edilir. 1956-cı ildə Azərbaycanın 1937-ci ildə qəbul olunmuş Konstitusiyasına aşağıdakı məzmunda maddə əlavə edildi:"Azərbaycanın dövlət dili Azərbaycan dilidir". Daha sonra Azərbaycanın Sovet imperiyasının tərkibində olduğu illərdə isə dilimizə qarşı hücumların yeni dalğası başlandı. Ölkədə rəsmi dövlət dili rus dili idi, rəsmi tədbirlərdə bir qayda olaraq rus dilində çıxışlar üstünlük təşkil edirdi.

Belə bir zamanda Ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə mesaj vermiş oldu. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində dilində çıxış etməklə dilimizə hörmət aşılayırdı. O, həmçinin, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdi. Eyni zamanda, 1978-ci ildə tarixi bir uğura da imza atdı. Belə ki, həmin ildə qəbul olunan Azərbaycan SSR-nin növbəti Konstitusiyasında ilk dəfə olaraq,

rus dili ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu əldə etdi. Azərbaycan yerli dilin rəsmi dil statusuna malik olduğu azsaylı Sovet respublikalarından biri idi.

Bütün zamanlarda Azərbaycan dilinin qorunub saxlanılması və kənar təsirlərdən mühafizə məsələsi təkcə ictimai-siyasi sferada deyil, həm də ədəbi-bədii qüvvələr tərəfindən dəstəklənmişdir. Ş.İ.Xətayi, M.Füzuli, eləcə də XIX əsrin sonunda mütərəqqi ideyalar uğrunda mücadilə edən maarifçilərimiz və fəaliyyətinin əsas məsələsini dil məsələsinə həsr edən "mollanəsrəddinçilər"in fəaliyyəti danlımazdır. Təbii ki dili xalq yaşadır, dildə xalqın ruhu, mənəviyyatı, düşüncəsi, intellektual potensialı əks olunur, lakin onu nəzəri cəhətdən tədqiq edən, öyrənən elm isə dilçilikdir. Üslubiyyat dilçiliyin zəruri tədqiqat sahələrindən biridir.

Bütün inkişaf etmiş dillərdə bir-birini tamamlayan iki tendensiya mövcuddur. İctimai təfəkkürdə differensiasiya-ixtisaslaşma prosesi gedir. Bu isə funksional üslubların yaranmasına və tədricən bir-birindən köklü şəkildə fərqlınməsinə gətirib çıxarır. İctimai təfəkkürdə inteqrasiya, hər bir insanın maraq dairəsinin genişlənməsi prosesi funksional üslubların bir-birinə yaxınlaşması, ümumi cəhətlərin yaranması prosesi gedir.

Beləliklə, bir tərəfdən ədəbi dil ixtisaslaşır, digər tərəfdən həmin ixtisaslşma hər bir cəmiyyət üzvü üçün əlçatan olur. Dilin üslubi imkanları nə qədər genişdirsə, dil də bir o qədər zəngin olur. Dilimizin funksional üslubları aydın məsələdir ki, bərabər şəkildə inkişaf etməmişdir. Məsələn, lap qədim dövrlərdən Azərbaycan alimləri və yazarları əsərlərini daha çox xarici dillərdə yazdıqlarına görə elmi üslub bədii və publisistik üslub qədər geniş ifadə imkanları qazanmamışdır.

Lakin hər üslubda həm bütün üslublar üçün ümumi olan ədəbi dil normaları (fonetik, leksik, qrammatik), həm də yalnız o üslub üçün xarakterik olan xüsusi normalar müəyyənləşmişdir. Elə xüsusi normalar müəyyənləşmişdir ki, onlar yalnız bir üsluba aiddir. Məsələn cümlə üzvlərinin bu və ya digər dərəcədə sərbəstliyi bədii üslub üçün, ancaq mütəxəssislərə aydın olan şərti işarələrdən, formullardan istifadə isə elmi üslub üçün xarakterikdir (1, 137).

Bədii üslub milli bədii təfəkkürün ifadəsi olub, obrazlı, emossional (ekspressiv) nitq formasıdır. Azərbaycan ədəbi dilinin tarixində bədii üslub həmişə aparıcı olmuşdur, müəyyən mərhələlərdə isə hətta bütövlükdə ədəbi dili təmsil etmişdir. Funksional imkanlarının genişliyinə görə bədii üslub bir sıra hallarda ümumən ədəbi-bədii dil adlandırılmışdır. Ədəbi dilin əsas aparıcı üslubu bədii üslubdur. Ancaq bu gün eynən XX əsrin əvvəllərində olduğu kimi , publisistik üslub daha çox ədəbi dil tənzimləyicisi rolu oynayır. "Milli dil"anlayışı şox vaxt əcnəbi dilə qarşı duran dil, , ana dili mənasında başa düşülür. Terminoloji mənada isə millətin dili kimi dərk olunur. Buradan meydana çıxan qənaət də məntiqidir:milli dil millətin formalaşması ilə paralel formalaşmalıdır. Buna görə də milli dilin yaranması üçün dilin quruluş elementlərinin sabitləşməsi kifayət deyildir; kifayət olsaydı, milli dil XVII əsrin ortalarından və xüsusən Vaqif, Vidadi əsrində yaranmış olardı. Çünki Azərbaycan ədəbi dilinin fonetik, qrammatik və leksik sabitləşməsi məhz bu dövrlə

bağlıdır. Milli dil özündən əvvəlki dövrlərin dil zənginliklərini ümumiləşdirməli idi. Bunun üçün əsas faktorlar – milli dilin ictimai-funksional atributları olmalı idi. Yeddi əsrə qədər bir müddətdə fəaliyyət göstərən bədii üslubun güclü paralelləri ortaya çıxır. Müəllifin ifadələri ilə desək:"Əkinçi"ni yaradan tarixi şərait publisist üslubu elan edir., "səhnə öz dinləyicilərinə əyanu surətdə ədəbi nitq aşılayır", siyasi tətil və mitinqlərdə müxtəlif rayonları təmsil edən fəhlələr marksist nitqlərə qulaq asır, intibahnamələr oxuyur, rus,erməni, gürcü və başqa xalqların nümayəndələri ilə ünsiyyət "azərbaycanlılarda ədəbi dil hissini gücləndirir, dil normasını kamilləşdirmək ibrəti aşılayır". Artıq bu dövrdə üslubların hamısı – bədii üslub, publisist üslub, rəsmi-epistolyar üslub, elmi üslub və s. meydanda idi. Yazılı və şifahi nitq bir-birinə yazınlaşır, qaynayıb-qarışır" (9).

Bu gün publisitika sahəsində ədəbi dilə kobud müdaxilələrin qarşısını almaq ağır bir işə çevrilib. Professor Nizami Cəfərov bu məsələ ilə bağlı belə açıqlama verir:"Azərbaycan Milli Elmlər Akademiyasında ayrıca bir komissiya yaradıldı və bu komissiya dərsliklərin dilindən başlamış reklam lövhələrinin dilinə qədər Azərbaycan dilinin bu günkü vəziyyətini, mənzərəsini təsəvvürə gətirməyə imkan vern müxtəlif məsələləri təhlil etdi. Ümumi nəticələr ondan ibarətdir ki, Azərbaycan dili bu gün kifayət qədər inkişaf edir, kifayət qədər beynəlxalq nüfuza malikdir. Amma bununla yanaşı, qloballaşan şərait bir sıra problemlər də ortaya çıxarıb. Xüsusən hər il Azərbaycan dilinə xeyli miqdarda sözlər daxil olur. Bu sözlərin müəyyən hissəsi Azərbaycan dilinin təbiətinə yaddır. Sözlərlə yanaşı müxtəlif qrammatik xüsusiyyətlər, müxtəlif intonasiya xüsusiyyətləri də dilimizə daxil olur ki, bunlar da dilimizin təbiətinə yad görünür. Nəzərə alsaq ki, dil daha çox KİV-lərdə - mətbuatda, televiziyada, radioda inkişaf edir, bu da dilə bir növ fövrilik gətirir. Yəni sözlər, ifadələr dilə çox sürətlə daxil olur. Bir var ki, bir elm adamı əsər yazır, hər sözün, hər ifadənin üzərində düşünə, seçə bilir. Yaxud yazıçı bir əsər yazır, orada nəzarət mexanizmi güclü olur. Bir də var ki, bir hadisə, bir əhvalat çox sürətlə baş verir, çox tezliklə də mətbuatda öz dil ifadəsini tapmalıdır. Belə hallarda da təsadüfilik çox olur. Yəni KİV-də buna nəzarət etmək kifayət qədər çətindir" (4).

**Dürdanə Nağıyeva,**
**Leyla Qocayeva**

**Müasir Azərbaycan dilində funksional üslublardan istifadə imkanları, publisistik üslub**

**Xülasə**

Milli ictimai təfəkkürün müxtəlif sahələrini əks etdirən funksional üslubların tarixi inkişaf tendensiyası dil vahidlərindən məqsədyönlü istifadə və həmin sahələrin tələbi ilə seçilən , sistemləşən, formalaşan spesifik dil vahidlərinin yeni, özünəməxsus cizgiləri ilə yadda qalacaq tərzdə funksionallaşması məsələsi ilə bağlı olur. Məsələn, bədii təfəkkürün tələbi ilə bədii üslub, elmi təfəkkürün tələbi ilə elmi üslub, publisistik üslubun tələbi ilə publisistik üslub və s. müəyyənləşir. Bu üslubların hər

birinin cəmiyyətdə özünəməxsus funksiyaları var, həmin funksiyalarına görə bir-birindən fərqlənirlər. Sözsüz ki, bədii, elmi, publisistik və s. təfəkkür sahələri , yaxud formaları arasında əlaqə olduğu kimi , bədii, elmi, publisistik və s. üslublar da biri digəri ilə bağlıdır. Məqalədə müasir Azərbaycan dilində funksional üslubların tarixi, yaranma tarixi, növləri haqqında məlumat verilir, onun ədəbi dilə təsiri, ədəbi dil normalarını tənzimləməsi qeyd olunur.Publisistik üslubun nümayəndələri, xüsusiyyətləri, dil cəhətləri müzakirə olunur. Müxtəlif mövqe və maraqları, emosiyaları əks etdirən bu üslubun dili ümumxalq dilinə yaxın olur.

**Дурдана Нагиева**
**Лейла Годжаева**

**Возможности использования функциональных стилей в современном азербайджанском языке, публицистический стиль**

**Резюме**

Историческая тенденция развития функциональных стилей, отражающих различные направления народного общественного мышления, связана с целенаправленным использованием языковых единиц и функционализацией конкретных языковых единиц, отобранных, систематизированных и сформированных по запросу этих направлений таким образом, чтобы они запоминались с новыми , уникальные черты. Например, художественный стиль с требованием художественного мышления, научный стиль с требованием научного мышления, публицистический стиль с требованием публицистического стиля и т. д. определен. Каждый из этих стилей имеет свои функции в обществе, и по этим функциям они отличаются друг от друга. Конечно, художественные, научные, публицистические и т.д. как существует связь между областями или формами мышления, художественного, научного, публицистического и т. д. стили также связаны друг с другом. В статье представлена информация об истории, истории и типах функциональных стилей в современном азербайджанском языке, их влиянии на литературный язык, отмечается регулирование норм литературного языка, обсуждаются представители, характеристики, языковые аспекты публицистического стиля. Язык этого стиля, отражающий разные позиции и интересы, эмоции, близок к универсальному языку.

**Durdana Nagieva**
**Leyla Gojayeva**

**Possibilities of using functional styles in modern Azerbaijani language, journalistic style**

**Summary**

The historical development trend of functional styles reflecting various areas of national public thinking is related to the purposeful use of language units and the functionalization of specific language units selected, systematized and formed by the demand of those areas in a way that will be remembered with new, unique features. For example, artistic style with the demand of artistic thinking, scientific style with the demand of scientific thinking, journalistic style with the demand of journalistic style, etc. is determined. Each of these styles has its own functions in society, and they differ from each other according to these functions. Of course, artistic, scientific, journalistic, etc. as there is a connection between fields or forms of thinking, artistic, scientific, journalistic, etc. styles are also related to each other. The article provides information about the history, history and types of functional styles in the modern Azerbaijani language, its influence on the literary language, regulation of literary language norms is noted. The representatives, characteristics, linguistic aspects of the journalistic style are discussed. The language of this style, which reflects different positions and interests, emotions, is close to the universal language.

**İstifadə edilmiş ədəbiyyat**

1.A.Axundov.Ümumi dilçilik. Bakı,"Şərq-Qərb", 2006, 280 səh.
2.Q.Məhərrəmli. Televiziya dili, "Elm" nəşriyyatı Bakı, 2004, 304 səh
3. Sabir Qaraqoyunlu (Əfəndiyev). Meyar özü qüsurludusa. Yenidən işlənmiş və latın qrafikalı əlifba ilə nəşr olunmuş ("Lider nəşriyyatı", Bakı,2004) "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nə bir nəzər. "Araz" qəzeti, 14 iyun, 2011 –ci il
4.N.Cəfərov, Yad qatın qoxusu.www/Lent.az.18.03.2013
5.Y.Paşazadə. Dilin sərhədləri toxunulmazdır. 525-ci qəzet, 21 noyabr, 2013-cü il
6. Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (18 iyun 2001-ci il)

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: f.ü.f.d., dosent P.Ə.Əzizova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**İLAHƏ İSMAYILOVA**
**Bakı Avrasiya Universitetinin**
ünvan: Nərimanov r-nu,Həsən Əliyev 135A
**ilahe.ismayilova.96@list.ru)**

# RƏNGLƏRİN SEMANTİZMİ VƏ BƏDİİ MƏTNLƏRDƏ TƏZAHÜRÜ

## Xülasə

Sözügedən məqalə rəng simvolizmi barədə məlumatları əks etdirmişdir. Bu məqalə rənglər dünyası, onların xarakteristikasından bəhs edir. Burada onun psixoloji aspektləri və qavramı barədə məlumatlar öz əksini tapmışdır.Məqalədə rəng qavramı ilə əlaqəli məlumatlar verilmişdir.Eyni zamanda ədəbiyyatda istifadə olunan rəng simvolizmi və müxtəlif mənaları da əks olunmuşdur.Burada həm də Rəsul Rza yaradıcılığında geniş şəkildə əks olunan rəngin mənalandırılması nəzərdən keçirilmişdir. Bununla yanaşı olaraq, Somerset Moem yaradıcılığında işlənən rəng simvolikası da təhlilə cəlb olunmuşdur.Sinesteziya və rəng terapiyasının xarakteristikası da məqalədə qeyd edilmişdir.Onu da qeyd edək ki, dünya mədəniyyətində rənglər müxtəlif mənada anlaşılır.Bu isə öz növbəsində fərqli dünyagörüş ilə izah olunur.Burada rəngin fəlsəfi və psixoloji yöndən izahı da qeyd olunmuşdur. Dünyanın müxtəlif yerlərində rənglərlə bağlı bayramlar mövcuddur.Sözügedən bayramlardan bir neçəsi barədə məqalədə qeyd edilmişdir.Orada işlənən rənglər simvolik yöndə nəzərdən keçirilir.Bildiyimiz kimi rənglərin hiss və emosiyalara təsiri danılmaz faktdır. Bu haqda mülahizələr də burada öz əksini tapmışdır.

**Açar sözlər:** rəng terapiyası, sinesteziya, simvolika, rəng assosiasiyası, qavrayış

## Summary

It is an undeniable fact that it is impossible to imagine the world without colors. Colors is with us in every moment of life. Colors show themselves both in real life and in the fields of art that reflect life and living. The world of colors of the material world is also reflected in the current article. Colors and their associative relationships, various forms of processing are given here.The symbolism of colors and their meanings, as well as their characteristics, have found their expression. The characteristics of synesthesia and chromotherapy are reflected in the article.The symbolism of the treatment is indicated by color. World literature is also rich in color symbolism. These color symbolism and meanings are also reflected in Azerbaijani literature. The world of colors used in the works of various literary representatives and their characteristics were included in the analysis.It should also be noted that colors are understood in different ways in world culture. This, in turn, is explained by different worldviews. Here, color is also explained from a philosophical and

psychological point of view. There are holidays related to colors in different parts of the world. Some of these holidays are mentioned in the article. Considerations about the influence of colors on feelings and emotions are also reflected in the article.
**Keys words:** color therapy, synesthesia, symbolism, color association, perception

**Аннотация**

Неоспоримый факт, что невозможно представить мир без цветов. Цвета с нами в каждый момент жизни. Цвета проявляют себя как в реальной жизни, так и в областях искусства, отражающих жизнь и жизнь. Мир красок материального мира также отражен в настоящей статье. Здесь даны цвета и их ассоциативные отношения, различные формы обработки.Символика цветов и их значения, а также их характеристики нашли свое выражение. В статье отражены особенности синестезии и хромотерапии.Символика лечения обозначена цветом. Мировая литература также богата цветовой символикой. Эти цветовые символы и значения нашли свое отражение и в азербайджанской литературе. В анализ включен мир красок, используемых в произведениях различных литературных представителей, и их характеристика.Цвета, используемые в литературе, формируют определенные представления о внутреннем мире героев.Следует также отметить, что в мировой культуре цвета по-разному понимаются.Это, в свою очередь, объясняется разными мировоззрениями.Здесь цвет также объясняется с философско-психологической точки зрения.Существуют праздники, связанные с цветами в разных части света.Некоторые из этих праздников упоминаются в статье.Также в статье отражены соображения о влиянии цветов на чувства и эмоции.
**Ключевые слова:** цветотерапия, синестезия, символизм, цветовая ассоциация, восприятие

**Giriş** Maddi aləmi rəngsiz təsəvvür etmək mümkün deyil. Bizi əhatə edən bu aləm müxtəlif rənglər harmoniyasından ibararətdir. Rənglərin real yaxud irreal assosasiya olduğunu rəng fəlsəfəsinə xüsusi baxış tərzi tələb edir. Rəng insanların uzun illərdir, maraqlandığı və araşdırdığı sirli mövzulardan biridir. Rəng kiminə görə sıradan bir məna ifadə edərkən, kimini də başqa dünyalara sürükləyib sövq edir. Onun insanlar üzərindəki təsiri kəşf edildikcə daha aktiv və ifadəli şəkildə insanlıq üçün istifadə olunmaqdadır.

**Rəng vizuallığın ifadə forması kimi** Vizual dünyamızı tipik olaraq, zəngin rənglər və rəngli formalar şəklində qavrayırıq. Stanford universitetinin araşdırmasına görə, rənglər, səslər, istilik, soyuq- yəni cisimlərdəki bu keyfiyyətlər əslində zehində olan qavrayışlardır.

"İnsanlar bütövlükdə cisimlərin bizim onları yaşadığımız kimi rəngli olduqlarına görə rəngli göründüyünə inanırlar. Göy mavi olduğu üçün mavi görünür, ot yaşıl olduğu üçün yaşıl görünür, qırmızı olduğu üçün qan qırmızı görünür. Nə qədər

təəccüblü görünsə də, bu inanclar kökündən səhvdir. Nə cisimlər, nə də işıqlar əslində bizim onları yaşadığımız kimi heç bir şeydə "rəngli" deyil. Əksinə, rəng obyektlərə və işıqlara baxdığımız zaman vizual təcrübələrimizin psixoloji xüsusiyyətidir, bu obyektlərin və ya işıqların fiziki xüsusiyyəti deyil. Gördüyümüz rənglər, cisimlərin və işıqların onları rəngli olaraq görməmizə səbəb olan fiziki xüsusiyyətlərinə söykənir, şübhəsiz ki, bu fiziki xüsusiyyətlər bizim qəbul etdiyimiz rənglərdən əhəmiyyətli cəhətlərdən fərqlidir" (6)

Çeşidli rənglərin adama və onun yaşamına olan təsiri üzərində araşdırmalar aparılmışdır. Edilən araşdırmalara görə rənglər və insan davranışları arasında çox sıx münasibətlərin olduğu ortaya çıxmışdır. Sevdiyimiz bir çox rəngin içində şəxsimizlə bağlı bilgilərin olduğu anlaşılmışdır. Rəng seçimimizi yaşam şərtlərimiz,xarakterimiz,şüurlu yaşantılarımızdan doğan ehtiyac duyduğumuz enerji müəyyənləşdirir. Seçilən rənglər təhtəlşüurun istəkləri,gizli bacarıqları ortaya çıxarmaqda və beləliklə təsirli,inkişafa yönəlik bir şəxs aşkar etməkdədir. Çox vaxt insanlar rənglərin və onların yaratdığı duyğular arasında bir əlaqə qura bilmir və bu barədə heç düşünmürlər. Lakin bəzi rənglər hər kəsin daxilində bənzər reaksiyalar və emosiyalara yol açır. Bu isə duyğusal ya da kultur dəyər zəminində anlaşıla bilər.

Qeyd etdiyimiz kimi rənglər gündəlik həyatımızın ayrılmaz hissəsidir və onları hər bir yanda aydın görürük. Məlum olduğu kimi onların bizim emosiyalarımıza da güclü şəkildə təsiri var. Bəzi rənglər müxtəlif duyğuları ifadəetmə gücünə sahibdir. Məsələn, qırmızı rəng həyəcanverici xüsusiyyətə sahibdirsə, digər tərəfdən aqressiv və hirsli emosiyalar da yarada bilir. Bildiyimiz kimi rənglər simvolizmlə çox zəngindir. Rəng simvolikası isə hər yerdə mövcuddur. Xüsusən də onu vurğulamaq gərəkdir ki, rəng konvensiyaları bir cəmiyyətdən digərinə görə fərqlənir. Məsələn, qara bir çox ölkələrdə matəm simvolu kimi anlaşılırsa, başqa bir ölkədə isə xoş günləri simvollaşdırır. Daha dəqiq desək, qərb ənənələrində ölümün simvolu qara rəngdirsə, Çində onun simvolu ağ rəng hesab olunur.Lakin onu da əlavə edək ki, bir çox mədəniyyətlərdə ağ rəng saflıq,sadəlik və sülh rəmzi kimi anlaşılır. Qeyd olunduğu kimi rənglər qavrayışla əlaqələndirilir. Bu isə o deməkdir ki, təkcə xarici dünyamız deyil, eyni zamanda daxili dünyamız da rənglərdən ibarətdir. Baş verən hansısa bir hadisədən dolayı keçirdiyimiz hisslər, düşüncələr də rənglərlə assosiasiya olunmuşdur.

"Belə nəticəyə gəlmək olar ki, fəlsəfi və psixoloji cəhətdən insanın rəng çalarlarını fərqləndirərək özünəuyğun bir şəkildə qavraması, onun daxili aləmi ilə bilavasitə əlaqədardır.O bir tərəfdən şəxsiyyətin xarakterini,digər tərəfdən isə yaşadığı mühit və həyat tərzindən asılı olaraq keçirdiyi hissləri müəyyən edir" (5)

Rənglərdən danışarkən burada xüsusi anlayışlar var ki, onlar barədə bir sıra qeydlərə nəzər yetirmək lazımdır. Öncə sinesteziya anlayışına diqqət edək.Belə ki, sinesteziya sözünün mənası birlikdə hiss etmək anlamına gəlir.Bu o deməkdir ki, bir neçə hislərin eyni anda əlaqələnə bilər.Məsələn, hansısa bir dadın  və ya səsin rəng ilə əlaqlənməsi və s. sinesteziyaya nümunə ola bilər. Bu məfhum təkcə bununla

məhdudlaşmır.Bir çox sahələrə aid edib onu əlaqələndirmək mümkündür. Elə buradan yola çıxaraq onu qeyd etmək olar ki hansısa bir əsəri oxuyarkən baş verən hadisələr bizə müxtəlif rəngləri xatırlada bilər.Bir əsər qara rəng olaraq təxəyyülümüzdə canlana bilirsə, xoş hadisələrlə dolu bir əsər sarı və digər bir rəng kimi təxəyyüldə özünü göstərə bilər.Sinesteziyanı nə qədər insanın hiss etməsinə dair dəqiq məlumat yoxdur, çünki bu barədə az tədqiqat aparılmışdır.

Xromoterapiya isə rəng ilə müalicə deməkdir. Xromoterapiya və ya rəng terapiyasının həm beyin, həm də bədən üçün faydaları var. Bədənin enerjisini tarazlaşdırır, stressi azaltmağa kömək edir.Əhval-ruhiyyənin və yuxu rejiminin yaxşılaşmasında da faydasını qeyd etmək lazımdır. Lakin hər bir rəng müsbət təsir göstərmir. Qırmızı və qara rənglərin müxtəlif şəraitlərdə mənfi təsirləri də görünməkdədir. Burada xüsusi olaraq onu qeyd edək ki, mavi rəng autizm xəstəliyi olan insanlara müsbət olaraq qarşılanır və onlara sakitləşdirici təsir bağışlayır. 2 Aprel autizm günündə "mavi rəngə boyan" şüarı ilə bir çox müəssisələr bunu gerçəkləşdirir.

**Rəng assosiasiyası** Dünya mədəniyyətində rənglər özünü başqa hansı formada təzahür etdirir? Əvvəlcə Holi bayramını qeyd edək.Belə ki, Hindistan milli mədəniyyətinin əsas parçası olan Holi bayramının tarixi qədimdir. Dünyanın ən rəngarəng və parlaq bayramlardan biridir.Bu bayram baharın və yeni ilin başlamasının göstəricisidir.Bayram öncəsi binalar müxtəlif rənglərə boyadılır.İnsanlar əlavə olaraq rəngbərəng boyalı tozlar alıb ,bir birinə qarşı onlardan istifadə edirlər. Halloween kimi dünyada məşhur olan Müqəddəslər gününün əsas rəngləri qara və narıncıdır.Bu rəng kombinasiyasının tarixi barədə isə dəqiq məlumat yoxdur. Ruhların yerə qayıtması günü kimi qarşılanan bu bayram 31 Oktyabra təsadüf edir. Milad bayramı isə qırmızı və yaşıl rənglərlə xarakterizə olunur. Qırmızı rəng sevgi və cəsarəti, yaşıl rəng isə uğur, pul və sağlamlığı simvolizə edir.

**Ədəbiyyatda rəng simvolizmi** Hisslər, duyğular rənglərlə assosiasiya olduğu fikrindən yola çıxaraq onu dəqiq olaraq təyin edə bilirik ki, ədəbiyyat dünyası tamamilə rənglərlə əhatə olunmuşdur. Bunu şifahi xalq ədəbiyyatı nümunələrindən tutmuş yazılı ədəbi nümunələrə qədər aid etmək olar. Türk eposlarında isə əsasən ağ və qara , əlavə olaraq da digər rənglər- boz, sarı,göy və s. işlənir.

XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus dəst-xətti olan və novatorluğu ilə seçilən şair Rəsul Rza yaradıcılığında rənglərin mənalandırılması xüsusi diqqət çəkir:

"...Rənglər könlümüzdən keçir isti,sərin küləklər kimi,
nəğmələr, sözlər, səslər qəlbimizə dolur
müxtəlif rənglər kimi
Rənglər xatirələr oyadır, duyğular oyadır.
Gördüyümüzdən artıq görmək istəməsək,
hər rəng adicə boyadır.
Rənglərin də musiqi kimi ahəngi var

Ağrının, sevincin, ümidin də rəngi var.
Düşündükcə açılır, əlvan səhifələri rənglərin.
Canlanır gözümüzdə rəngi, ömrün, mübarizənin,
qəlbin,nifrətin, gecənin,şəhərin və insan taleyinin." (4, s.227)

Bundan başqa bir neçə ədəbi nümayəndənin yaradıcılığına nəzər yetirsək, bir sıra fərqli nüanslarla qarşılaşmış olacağıq.Məsələn, 19-cu əsr Amerika ədəbiyyatının şair, yazıçı və ədəbi tənqidçisi Edqar Allan Po eyni zamanda romantik hərəkatın öncüllərindən olmuşdur.O, əsərlərində müntəzəm olaraq qara və qırmızı rənglərdən istifadə edirdi. Qırmızı terror əlaməti hesab olunurdusa, qara isə ölümlə əlaqələndirilirdi. 20-ci əsr Amerika yazıçısı Skott Fitsceraldın "Möhtəşəm Getsbi" əsərindəki ən məşhur rənglərdən biri yaşıldır. Müəllif yaşıl rəngdən acgözlük və qısqanclığı ifadə etmək üçün istifadə edir, məsələn, Getsbinin pula aludə olması və evli qadına həsrət qalması yaşıl rəngin fonunda simvollaşdırılmışdır. Bəzən Getsbinin həsrətini və tənhalığını təmsil etmək üçün mavi rəngdən də istifadə olunur. Deyzi təsvir olunarkən isə tez-tez ağ rəngdən istifadə edilir. Bu da səhnədən asılı olaraq onun saflığı və yaxud avamlığı ilə əlaqələndirilə bilər.

İngiltərənin məşhur ədəbi nümayəndələrindən olan Somerset Moem yaradıcılığında rəng simvolikası özünü hansı formada göstərir? Nasirin " Ay və qara qəpik" əsərinə nəzər yetirsək, sanki rənglər aləmi ilə baş başa qalacağıq. Əsərin baş qəhrəmanı olan Çarlz Strikləndin daxili dünyasına hakim kəsilən yaratma istəyi onu öz ailəsindən, övladlarından və dostlarından uzaqlaşmağa təhrik edir.Strikland özünü bütünlüklə sənətə həsr edir.Bilirik ki, o XIX əsr fransız rəssamı Pol Qogenin prototipidir.Pol Qogenin məqsədi əsərlərində işıqsızlıq, kölgəsizlik, cizgilər, təbiət qarşısında olan azadlıq hislerini hakim mövqedə qərarlaşdırmaq, ruh halı və duyğuları ifadə etmək idi.Sözügedən xüsusiyyətləri Strikləndde də eyniylə müşahidə edirik.Moem qələminin gücü sayəsində Strikland sənətində xəyali olaraq duyduqlarımızı Pol Qogenin rəsmlərində vizual olaraq görüb hiss edə bilirik.Strikləndin rəsmləri təsvir olunarkən:

"Rənglər elə qeyri-adi seçilmişdi ki, onların oyatdığı hissləri sözlə ifadə etmək mümkün deyil. Tünd mavi, tutqun boyalar lazuritdən hazırlanmış zərif oyma piyalənin rəng çalarlarını xatırladır, lakin o rənglərin zərif parıltısında min bir həyəcan duyulurdu. Çiy ət kimi qıpqırmızı, qorxunc boyalar şəhvani bir ehtirasla alışıb yanır, nədənsə qırmızımtıl, parlaq boyalar eynilə giləmeyvə rəngini andırırdı. İstər-istəməz İngiltərədə milad günü, qar, şənlik və uşaqların sevinc dolu hay-küyü yada düşürdü; sonra rənglər hansısa sehrin təsirindən əriyib muma dönür, göyərçinin sinəsindəki narın tüklərdən də incə olurdu. O rənglərlə baş-başa vermiş tünd sarı boyalar qeyritəbii bir şövqlə yaşıla çalan rənglərlə qol-boyun olub bahar kimi təravətli, dağ çeşməsinin köpüklənən suyu təki şəffaf görünürdü." (3, s.266)

Ümumilikdə Moem yaradıcılığında xüsusi nəzərə çarpan ağ,qara və qırmızı rəngləridir ki, bunlar onun əksər əsərlərində hakim mövqedə qərarlaşıblar." Culiyanın Çarlza lap ana kimi yazığı gəldi.Soyunmağa başlayıb ürəyində öz-özüylə

danışdı: Nə edəcəyimi bildim.Sabah ona ağ zanbaqlardan bağlanan böyük bir dəstə göndərəcəyəm" (2, s.204). Ağ rənglə əlaqəli təsvirlər digər əsərlərində də müşahidə olunur. "Cənab qubernator balacaboy, orta həddən xeyli balaca bir adam idi,balaca ,kifir sifətində oturuşan ağzı-burnu, təxminən neqroidlər kimi iriydi, bundan başqa gur ağ saçı,çatma ağ qaşı və lopa bığı var idi" (1,s.455).

Bəzi əsərlərində isə üstünlük tamamən bir rəngə verilmişdir. " Hansı yalnız indi qıza necə lazımdır nəzər saldı.Deməzdin ki, gözəllər gözəlidir, ifadəli qara gözləri,düz burnu vardı" (1,s.103). Nümunlərdən də aydın olur ki, ümumi şəraiti ,obrazların xarakterlərini, emosiyalarını və s. kimi xüsusiyyətləri ifadə etmək üçün rənglərdən istifadə olunmuşdur. Bu rənglərin dəqiq olaraq ədəbiyyatda hansı mənalar daşıdığını aydınlaşdıraq.Bildiyimiz kimi ağ rəng digər bütün rəngləri özündə ehtiva edir. Ağ eyni zamanda qaranın əksidir, buna görə də yaxşılıq, saflıq və günahsızlıq əlamətidir. Ağ soyuqluğu və ya duyğuların çatışmazlığını da təmsil edə bilər. Hekayənin müxtəlif hissələrində ağ və qara rənglərdən istifadə edilməsi, xarakterin yaxşıdan pisə və ya pisdən yaxşıya olan dəyişimini nümayiş etdirə bilər. Qeyd olunduğu kimi bu şərqi Asiya mədəniyyətində həm də matəm əlaməti kimi anlaşılır.Qara rəng isə ən çox ölümü, kədəri və pisliyi çatdırmaq üçün istifadə olunur. Qara əşyaları xarakterlə əlaqələndirmək onların başına pis bir şey gələcəyini xəbər verə bilər. Daha müsbət bir qeyddə qara rəng incəlik və səlahiyyətlə də əlaqəli ola bilər. Qara, qaranlıq mənalarına görə şeirdə işləklik qazanmışdır.Qırmızı rəng sevgi, şəhvət, qəzəb və ya zorakılıq kimi ən güclü insan duyğularını çatdırmaq üçün müntəzəm olaraq istifadə olunur. Çox vaxt xarakterin pis olduğunu xəbər verə bilər və yaxud gələcəkdə qan töküləcəyinə işarə edə bilər. Cəmiyyətimizdə müxtəlif mədəniyyətlər öz mental dəyərlərindən çıxış edirlər. Təbiidir ki, hər bir mədəniyyət rəngləri də spesifik şəkildə mənalandırır. Bu baxımdan, rəng yönümlü təhlillər aparılarkən yazıçının və ya şairin hansı mədəniyyətin nümayəndəsi olduğu nəzərə alınmalıdır. Qeyd edək ki, ədəbiyyatda qələm sahibləri daha dərin bir məna ifadə etmək üçün rənglərdən istifadə edir. Oxucunun diqqətini simvolik obyektə çəkmək, obraz haqqında nə isə danışmaq və ya mövzunu vurğulamaq üçün müxtəlif rənglərdən istifadə edilə bilər. Bəzən müəyyən yazıçılar hətta əhval-ruhiyyəni çatdırmaq və ya əsərlərinin mövzularını vurğulamaq üçün rəng palitrasından istifadə edə bilərlər; məsələn, daha açıq rənglər xəyalpərəstliyi, hadisələrin solğunluğunu, tünd rənglər isə sirli vəziyyəti və ya xəbəri, eləcə də qəzəb, aqressiya və dinamikanı simvolizə edə bilər. Çox vaxt yazıçının bədii nümunədə rəngdən istifadə etməsi qəsdən olur. Bəzən isə nəyisə vurğulamaq gərəkdiyindən deyil, sadəcə təhtəlşüurun təlqin etdiyini qələmə alır.Sözsüz ki, həmin rəngləri təhlil edib, yazıçının rənglə bağlı düşüncələrini və ondan doğan mənalardan fikirlərini aydınlaşdırmaq mümkündür.

Nəticə Son olaraq qeyd edək ki, məqalədə rənglər və onun assosiativ əlaqələri verilmişdir.Dünya ədəbiyyatında işlənən rəng simvolizmi və onların mənalarının xarakterik cəhətləri qeyd edilmişdir. Rəng terapiyasının xüsusiyyətləri təhlil olunmuşdur. Dünya ədəbiyyatı nümayəndələrinin əsərlərində işlənən rəng dünyası,

onların xarakterik cəhətləri öz ifadəsini tapmışdır. Xüsusilə Somerset Moem yaradıcılığında işlənən rəng simvolizmi təhlil olunmuşdur.

**Ədəbiyyat siyahısı**

1.İngilis ədəbiyyatı antologiyası.II cild.Bakı: Şərq-Qərb nəşriyyatı,2007,320s.
2.Uilyam Somerset Moem.Teatr.Bakı: Qanun nəşriyyatı, 2013, 248 s.
3. Moem, Somerset. Ay və qara qəpik.Bakı: Qanun nəşriyyatı, 2015,274 s.
4. Rəsul Rza, Seçilmiş əsərləri.5 cilddə III cild.Bakı, "Öndər nəşriyyatı" , 2005, 256 s.
5. İbrahim Tahir Qarabağinin lirikasında rəng çalarları https://www.academia.edu
6.https://plato.stanford.edu/entries/color/

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Fil.ü.e.d., prof.Fərəh Cəlil**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**АХУНДОВА КЕНУЛЬ БЕХБУД ГЫЗЫ,**
**доктор философии по филологическим наукам,**
**доцент кафедры современного русского языка**
**Бакинского славянского университета.**
**cakonda2004@gmail.com**

# СЕМАНТИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ СЛОВАМИ-НАЗВАНИЯМИ ОДЕЖДЫ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ В СРАВНЕНИИ С РУССКИМ ЯЗЫКОМ

**Ключевые слова:** названия одежды, семантические отношения, метонимия, метафоризация, фразеологизация.
**Açar sözlər:** geyim adları, semantik əlaqələr, metonimiya, məcazlaşma, frazeologizmləşmə.
**Key words:** clothing names, semantic relations, metonymy, metaphorization, phraseologization.

Как известно, в области сравнительного изучения русского и азербайджанского языков проделана значительная работа. Написан ряд монографий, статей, учебных пособий. Например: монография А.Махмудова, А. Гулиева, Р. Кербалаева «Сравнительная типология русского и азербайджанского языка» (Б., 1982), докторская диссертация А.М. Мамедли «Сопоставительный анализ русской и азербайджанской фразеологии» (Б., 1996); Т.М. Мамедовой «Сопоставительный анализ русской и азербайджанской компаративной фразеологии» (Б., 1998), Н.Р. Мукимовой «Межъязыковая лексическая эквивалентность (контрастивно-типологическое исследование на материале азербайджанского и русского языков)» (Б., 1999); словарь И.Г. Гамидова [4] и др.

В азербайджанском языке названия одежды занимают важное место в лексической системе языка. Систематизация и лингвистическое описание этих слов позволяет определить их роль в общей лексической системе языка.

Самым верным методом исследования лексической системы языка является изучение по тематическим группам и семантическим отношениям.

Известно, что в некоторых случаях вместо названия одежды, в процессе ***метонимизации***, используется название ткани, из которого сделана данная одежда. Например: (filankəs) *al da geysə yaraşır, şal da*. Под словом *al* подразумеваются изделия из *al ipək,* а *şal* - это изделия из шерстяной ткани [5, 104].

В конце XIX - начале XX века некоторые ткани из хлопка назывались по месту своего производства (страна, город) или по названию фабрики: *«Firəng çiti», «rus çiti», «Tağıyev ağı», «Proxorov ağı»* и т.д. Подобным образом и

шелковые платки - *kələğayı* именовались по месту изготовления: *Gəncə kəlağayısı, Şamaxı kələğayısı, или же Basqal, Heratı kələğayısı, Hələbi kələğayısı.*

На территории Азербайджана употребляется большое количество названий этнонимов, топонимов и других ономастических единиц с компонентом-названием одежды: *Qarapapaq, Şişpapaqlar* (Ağdam rayonu)*, Ağ köynək, Kəmərli, Qaradolaq, Ağ şalvarlılar, Qaraşalvarlılar, Qarabörklü, Kəpənəkçi, Alaqurşaqlı* [5, 104; 3, 86]. Многие из этих названий одежды не подверглись никаким значительным фонетическим изменениям: *Bozpapaqlar* (Ağdam rayonu); *Papaxçılar* (Tovuz rayonu); *Pirqaraçıxa* (Ağsu rayonu); *Qarabörk* (Ucar rayonu); *Qaradonlu* (İmişli rayonu) [3, 86]. Этот процесс тоже можно охарактеризовать как ***метонимизация***.

В языке может происходить и обратный процесс, то есть ***метонимический*** перенос топонимов, этнонимов, антропонимов на названия одежды. Некоторые примеры мы уже указали в связи с некоторыми названиями женской и мужской одежды. Например: *Şamaxı kələğayısı*, *Hələbi kələğayısı* (по названию города, где производились эти платки). *Xorasan kürdü*, где слово *kürdü* этимологически восходит к этнониму *kürd* [3, 86]. В указанных сложных наименованиях одежды первый компонент выполняет атрибутивную роль: *Bağdadi başmaq*, *Ərdəbil kürkü, Əcəmi çarıq, Xorasan kürkü, Şirvanı çarıq, Buxara papaq.*

Подобный процесс отражен и в русском языке в заимствованных названиях одежды: *макинтош* (по имени химика Ч. Макинтоша); *кардиган* (по имени графа Кардигана); *панама* (по названию страны в Центральной Америке) и т.д.

В некоторых русских фамилиях тюркского происхождения за основу были взяты названия одежды: *Башмаков, Епанча, Епанчин, Ерлыков, Каблуков, Колпаков, Чарыков, Колчак, Кончак, Куршаков, Чулков, Шарапов* [6]. На основе названий отдельных металлов и драгоценных камней были созданы русские имена и фамилии тюркского происхождения: *Алмазов, Алтынбай, Болат, Булат, Булатов, Гантимуров, Джанбулатов, Зенбулатов, Камбулат, Кантемиров, Кизилбай, Пулат, Темирязева/Темирязев, Тюменцев* и др. [6, 264-276].

Некоторые названия одежды известны своими *метафорическими* обозначениями: *«Gendədur», «alışdım- yandım», «Qonşu bağrı çatdasın», «Küçə mənə dar gəlir», «Gecə- gündüz», «hacı bəri bax»// Hacı mənə bax»* [5, 105].

Слова, относящиеся к тематической группе «одежда», употребляются и во многих ***фразеологизмах, пословицах и поговорках***.

Например, со словом *başmaq*: *başmaqlari da razı olmaq, başmaqlarını cütləmək, başmaqlarını cütləyib qabağına qoymaq* (прогнать, требование уйти), *iki ayağını bir başmağa dirəmək/ qoymaq, soxmaq* (упорствовать, упрямиться, стоять на своем); *başmaq seyrinə çıxmaq*.

Papaq: *papağı boş qalmaq; papaq mənə haram olsun.* Слово «*papaq*» в азербайджанском языке выражает также символическое значение, обозначает такие понятия, как «мужество», «честь», «достоинство». Слово «*papaq*» используется во многих пословицах и поговорках, которые выражают, в основном, положительные понятия: «*Papaq başda yırtılar, başmaq ayaqda», «Papaq isti, soyuq üçün deyil, namus üçündür», «Papaq altda oğlanlar yatır», «Papağı günorta yerindədir»(* yəni kefin kökdür), *«Doğru danışanın papağı yırtıq olar», «Qızı otaqlıya yox, papaqlıya ver», «Papağını hərləsən, il gəlib keçər», «Papaq elə, işimizi bilək», «Papağını qabağına qoyub fikirləşmək».* Последнее выражение используется в значении «прийти к окончательному решению; долго раздумывать». Поскольку слово «*papaq*» в азербайджанском языке выражает такие понятия, как «мужество», «честь», «достоинство», то и от принятого решения будет зависеть честь и достоинство обладателя этой папахи.

Известно, что самым распространенным видом одежды у тюркских народов, в том числе и у азербайджанцев, является «*don*». Поэтому данный этнографизм-термин приобрел множество различных переносных значений: *don biçmək, don geydirmək /geyindirmək/, dona girmək* или же *dondan-dona girmək (düşmək)-* попадать в разные ситуации, положения [n.mirzəy, 598]; *dona salmaq, don geydirmək, donuna girmək, donunu dəyişmək*. Первые два фразеологизма могут употребляться как в прямом, так и в переносном значении. «*Don biçmək»* – кроить одежду (в прямом значении); «*don biçmək»*-устыдить, поругать (переносное значение) [n.mirzəy, 598].

Düymə: *Dəvəcə boyun olunca, düyməcə ağlın olsun*.

Yaxa: *yaxa açmaq, yaxa qurtara bilməmək, yaxasını ələ vermək, yaxasını qurtarmaq, yaxası ələ keçmək, yaxasından yapışmaq, yaxasını buraxmaq, yaxasını qırağa çəkmək*.

Kəmər: *Kəmər yeri, kəmər bağlamaq* (перен. «быть готовым к приказаниям»; быть в полной боевой готовности), *kəmər kimi* – düz və uzun; *kəməri altı boş olmaq* (проголодаться, быть голодным); *kəmərin altını bərkitmək* (шутливо, досыта наесться, насытиться) [1, IIIс., 45].

Köynək: *köynək- köynək /bir köynək/ ət tökmək* (устыдиться, сильно сожалеть, разочароваться, «от стыда провалиться под землю»); *köynəyinin yaxasından keçirmək* (etnoqra.- övladlığa götürmək əlaməti olaraq körpə uşağı köynəyinin yaxasından keçirməkdən ibarət köhnədən qalma adət) [1, III c., s.102].

Kürk: *kürkünə birə düşmək* və s.

К сожалению, некоторые фразеологизмы не нашли отражения в толковых словарях: *Şeytana papış tikmək; bundan Fatıya tuman olmaz* və s.

Таким образом, в результате *метафоризации* названий одежды возникли устойчивые словосочетания, которые обогатили лексическую систему азербайджанского языка.

**Источники появления фразеологизмов с компонентом-наименованием одежды**.

Отмечаются следующие способы образования:

1) ФЕ из УНТ: *тришкин кафтан*; из художественной литературы: *и в воздух чепчики бросали*

2) ФЕ как результат калькирования: blue stocking (анг.) – *синий чулок*;

3) ФЕ из анекдотов: *дело в шляпе* [7, 120];

4) ФЕ, образованные на базе пословиц и поговорок сложной структуры или крылатых фраз: *когда у Ивашки белая рубашка, тогда у Ивашки и праздник*; *Весь в долгах как в шелках; И в воздух чепчики бросали;*

5) ФЕ из жаргонной речи: *шнурки в стакане* [9, 579].

6) ФЕ, созданные на основе *метафоризации и метонимизации* свободных сочетаний или их отдельных компонентов. «Метонимические переносы образуются в результате наименования совокупности лиц по характерной для них одежде, головному убору: *белые воротнички* (о лицах наемного труда, занимающихся умственной работой), *синие воротнички* (о лицах наемного труда, занимающихся физической работой), *черные береты* (бойцы ОМОН), *краповые береты* (спецназ), *голубые береты* (солдаты ООН)» [9, 579]. Этот ряд можно продолжить: *белые халаты; ağ xalatlılar* (медработники); *göy qurşaqlılar* (духовенство).

«В процессе метафоризации (и метонимизации – А.) происходит семантическое движение внутри лексико-семантических разрядов метафоризуемых существительных, при котором одушевленные существительные становятся неодушевленными и наоборот. Например: *оборотни в погонах»* [10, 181], *синий чулок*.

«Отражая постоянное взаимодействие объектов или категорий, понятий, метонимия становится регулярной, создавая семантические модели многозначных слов и словообразовательных типов, часто совмещающие принципиально разные типы значения: признаковые, событийные и предметные (абстрактные и конкретные)» [8, 62].

В процессе метафоризации могут возникнуть новые **семантико-стилистические неологизмы.**

Например, синонимический ряд как художественный прием в произведении может пополняться за счет слов с новыми значениями и экспрессивными функциями. Эти новые синонимы выступают как *семантико-стилистические синонимы* и привлекают к себе внимание своей оригинальностью, смысловыми оттенками, тем самым эстетически воздействуют на читателя. Для подтверждения приведем отрывок из произведения «Шамо» Сулеймана Рагимова:

Sultan əllərini oynadırdı: - Bu cərimə indiyə kimi hansı *patavalının* ayaqlarına buxov vurub, qabağını da hasar kimi alıb, özünün də qolundan yapışıb, hayqırıb ki, olmaz!

- Siz, *motalpapağın* qabağındanmı? – şişman zabit Şamonun arxasında dayanan bir dəstə *şələpapaq* adamı qar işığında gözdən keçirtdi...;

- Siz, *şələpapaq*, bu gününüzə ağlayın ki, sabah güllə qabağında dayanacaqsınız!

Как видно из примеров, во всех трех отрывках писатель вводит синонимы–образы в речь представителей эксплуататорского класса для выражения иронии и сарказма к крестьянам, представителям угнетенного класса. Эти синонимы-образы возникают в результате метафоризации. Писатель, взяв за основу внешний облик крестьян, употребляет в переносном смысле названия их одежды, переносит это наименование на весь низший общественный класс. Тем самым выражает свою мысль в эмоционально-экспрессивной и иронической форме. “Поскольку эти синонимы-образы употреблены только в этом произведении, т.е. в индивидуальном стиле писателя, то они считаются семантико-стилистическими неологизмами” [2, 74].

В следующем отрывке использованы новые синонимы-образы:

- Bizə indi dürlü-düyünlü gərəkdir, Ağaxan, dürlü-düyünlü! – deyə, Gəray ağa həmdərdinin paltosunu tutub dartışdırdı. – Yoxsa, bu *daqqapapaqlılardan, boğazı bantlılardan* millət dərdinə ağlayan olmaz!

Эти новые синонимы-неологизмы - *daqqapapaqlılar, boğazı bantlılar* - отражают ироническое отношение к представителям буржуазного класса.

Подобный процесс метафоризации в словах синонимического ряда можно наблюдать и в произведении Расула Рзы «Кербала». Опять же, чтобы выразить иронию и сарказм, писатель использует синонимы-образы:

Ağlayır sonsuz gəlinlər,
Əli uşaqlılar.
Ağlamayan da var:
Qırmızı sifət,
Qara təsbeh,
*Göy qurşaqlılar*.

Ясно, что *göy qurşaqlılar* – это семантико-стилистические неологизмы.

Поэт, взяв за основу внешний облик духовенства и атрибуты их одежды, метафоризирует это название одежды и, подобным образом, выражает сарказм к духовному сословию.

Следует также отметить, что в образовании вышеприведенных семантико-стилистических неологизмов - *daqqapapaqlılar, boğazı bantlılar, göy qurşaqlılar* - участвуют и аффиксы *–lar/lər*. По нормам литературного языка эти аффиксы выражают, в основном, множественное число, в художественном же стиле они приобретают еще одну новую функцию – присоединяясь к словам,

выражающие признак и качество, эти аффиксы выступают как словообразовательное средство.

Применительно к русскому языку можно выделять **семантико-грамматические разряды ФЕ** с компонентом-наименованием одежды:

1) субстантивные ФЕ: *синий чулок, тришкин кафтан; сарафанное радио* (т.е. народная молва, цыганская почта) и т.д. В русском языке эта группа многочисленна.

2) предикативные ФЕ: *Весь в долгах как в шелках; papağı boş qalmaq; papaq mənə haram olsun;*

3) вербальные (глагольные) ФЕ: *вышли из шинели*; *сесть в калошу; и в воздух чепчики бросали; don biçmək, başmaq seyrinə çıxmaq, yaxasını buraxmamaq* и т.д. Эта группа многочисленная в обоих языках.

4) адвербиальные (наречные) ФЕ: *спустя рукава; засучив рукава; дело в шляпе; köynək-köynək/bir köynək/ət tökmək; kəmər yeri; dəvəcə boyun olunca, düymәcə ağlın olsun;*

5) адъективные: *сапожник без сапога; kəmər kimi – düz və uzun*.

**Список использованной литературы**

1. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, I c., 1966, 595s.; IIc., 1980, 576s.; IIIc., 1983, 555s.; IV c., 1987, 541s. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı.

2. Əfəndiyeva T.Ə. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri, B., Elm, 2001, 183s.

3. Haciyeva A. Müxtəlifsistemli dillərdə geyim adları haqqında. S. 86-87//Mədəniyyətlərarası dialoq: linqvistik, pedaqoji və ədəbi aspektlər. Beynəlxalq elmi konfransın materialları (25-27 noyabr 2010-cu il). B., ADU, 2010.

4. Həmidov İ.H. Azərbaycanca-rusca atalar sözləri lüğəti. B., OKA Ofset, 2004, 587s.

5. Məmmədov İ. O. Azərbaycan dilinin etnoqrafik leksikası. B., 2008, 292s.

6. Баскаков Н.А. Русские фамилии тюркского происхождения. М., Наука, 1979, 280с.

7. Гамидова Л.И. Фразеологические единицы, образованные на базе пословиц и поговорок сложной структуры. С.120-122//Tağıyev oxuları, B., Kitab aləmi, 2004, 686s.

8. Гинзбург Е.Л. Конструкции полисемии в русском языке. Таксономия и метонимия. М., Наука, 1985, 220с.

9. Джафарова Л.А. Источники фразеологических новообразований современного русского языка. С. 578-579// Tağıyev oxuları, B., Kitab aləmi, 2004, 686s.

10. Мамедова Т.М. Процессы метафоризации в языке современной прессы с. 181-184// Tağıyev oxuları, B., Kitab aləmi, 2004, 686s.

**Axundova Könül Behbud qızı**

**Sözlər arasında semantik əlaqə - rus dili ilə müqayisədə Azərbaycan dilində geyim adları**

**Xülasə**

Məqalədə Azərbaycan dilinin geyim adları təhlil olunur. Məqalədə qısa şəkildə geyim bildirən sözlər arasında semantik münasibətlər açıqlanılır: metonimik, metaforik proseslər. Tərkibində geyim adları olan frazeologizmlərin təsnifatı verilir.

Məlumdur ki, bəzi hallarda geyim adı əvəzinə metonimləşmə prosesində bu paltarın hazırlandığı parçanın adı istifadə olunur. Azərbaycan ərazisində çox sayda etnonimlərin, toponimlərin və digər onomastik vahidlərin tərkib hissəsində geyim adından istifadə olunur. Dildə tərs bir proses də baş verə bilər, yəni toponimlərin, etnonimlərin, antroponimlərin geyim adlarına metonimik köçürülməsi. Türk mənşəli bəzi rus soyadlarında geyim adları əsas götürülmüşdür. Bəzi metalların və qiymətli daşların adları əsasında türk mənşəli rus adları və soyadları yaradılmışdır.

"Geyim" tematik qrupuna aid sözlər bir çox frazeoloji vahidlərdə, atalar sözləri və kəlamlarda istifadə olunur. Beləliklə, geyim adlarının metaforlaşması nəticəsində Azərbaycan dilinin leksik sistemini zənginləşdirən sabit ifadələr yaranmışdır.

**Ахундова Кенуль Бехбуд гызы**

**Семантические отношения между словами-названиями одежды в азербайджанском языке в сравнении с русским языком**

**Резюме**

В статье анализируются названия одежды в азербайджанском языке. В статье кратко раскрываются смысловые отношения между словами, обозначающими одежду: метонимические, метафорические процессы. Дана классификация фразеологизмов, содержащих названия одежды.

Известно, что в некоторых случаях вместо названия одежды, в процессе метонимизации, используется название ткани, из которого сделана данная одежда. На территории Азербайджана употребляется большое количество названий этнонимов, топонимов и других ономастических единиц с компонентом-названием одежды. В языке может происходить и обратный процесс, то есть метонимический перенос топонимов, этнонимов, антропонимов на названия одежды. В некоторых русских фамилиях тюркского происхождения за основу были взяты названия одежды. На основе названий отдельных металлов и драгоценных камней были созданы русские имена и фамилии тюркского происхождения.

Слова, относящиеся к тематической группе «одежда», употребляются и во многих фразеологизмах, пословицах и поговорках. Таким образом, в результате метафоризации названий одежды возникли устойчивые словосочетания, которые обогатили лексическую систему азербайджанского языка.

**Akhundova Kenul Behbud gyzy**

**Semantic relations between the words-names of clothes in the Azerbaijani language in comparison with the Russian language**

**Summary**

The names of clothes in the Azerbaijani language are analyzed in the article. The article briefly reveals the semantic relationships between words denoting clothing: metonymic, metaphorical processes. A classification of phraseologisms containing clothing names is given.

It is known that in some cases, instead of the name of the clothing, in the process of metonymization, the name of the fabric from which this clothing is made is used. On the territory of Azerbaijan, a large number of names of ethnonyms, toponyms and other onomastic units with a component-the name of clothing are used. The reverse process can also occur in the language, that is, the metonymic transfer of toponyms, ethnonyms, anthroponyms to the names of clothes. In some Russian surnames of Turkic origin, the names of clothes were taken as a basis. Based on the names of individual metals and precious stones, Russian names and surnames of Turkic origin were created.

Words related to the thematic group "clothes" are also used in many phraseological units, proverbs and sayings. Thus, as a result of the metaphorization of clothing names, stable phrases have emerged that have enriched the lexical system of the Azerbaijani language.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: dosent R.Ə.Məmmədova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**ƏLİYEVA GÜLŞƏN ŞAMXAL QIZI**
*gulshanaliyeva10@yahoo.com*
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

# İNGİLİS DİLİNDƏ NEFT VƏ QAZ SƏNAYESİ TERMİNOLOGİYASINDA ALINMA SÖZLƏR

4. Gruman B (2014). Impact of English language teaching on the communication skills of rural students. International Journal on English Language and Literature , 3(2), p.45-52.
5. Harry E. (2012). A global study of primaly English teachers' qualifications, training and career development. ELT Research Papers, p.17-22.
6. Ministry of Education (2016) National Strategy for the Development of Education in the Republic of Azerbaijan. p.9-10.
7. NEPC policy lab report (2015) Teaching profession – policies & challenges. Baku, p.7-9.
8. Current issues of teaching foreign language (2017) The book of abstracts of Republican scientific-practical conference. Baku, p.24.
9. Azerbaijan Population 2023 // https://worldpopulationreview. com/countries/ azerbaijan-population
10. National Qualification Framework Azerbaijan // https://www.etf.europa.eu/sites/default/files/document/Azerbaijan.pdf

**ГУЛЬШАН ПАШАЕВА**

# ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ ГРАММАТИКИ В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНА: СРАВНИТЕЛЬНОЕ ИССЛЕДОВАНИЕ ГОРОДСКИХ И СЕЛЬСКИХ ШКОЛ

## РЕЗЮМЕ

Возможность поддерживать международные, коммерческие и культурные отношения в глобализирующемся мире требует обучения людей владению английским языком. Однако очень сложно говорить о том, что уровень английского образования одинаков в городах многих стран мира, преподавание английского языка в Азербайджане занимает важное место в учебных программах. Преподавание английского языка является чувствительным вопросом в нашей стране, и в течение многих лет проводились исследования по повышению эффективности и результативности как в школах, так и в сельских школах. Эта ситуация превратилась в проблему, которую необходимо устранять и решать. В сельских школах преподавание английского языка представляет ряд проблем как для учащихся, так и для учителей.

В данном исследовании были исследованы основные причины, препятствующие эффективному преподаванию английского языка в сельских школах по сравнению с городскими школами, и определены необходимые шаги для устранения таких причин и трудностей.

В этом исследовании было выявлено несколько факторов, способствующих неравенству в обучении английскому языку между городскими и сельскими школами в Азербайджане. Эти факторы включают нехватку квалифицированных и опытных учителей английского языка в сельской местности, нехватку учебных ресурсов и материалов, неадекватную инфраструктуру и доступ к технологиям, а также культурные и социально-экономические различия, которые могут повлиять на мотивацию и вовлеченность учащихся в изучение английского языка.

Для решения этих проблем и обеспечения равного доступа к качественному обучению английскому языку в исследовании рекомендуются следующие шаги:

- Разработать целевые программы подготовки учителей, направленные на улучшение навыков и компетенций сельских учителей английского языка, а также создание стимулов для квалифицированных учителей для работы в сельской местности.

- Повысить доступность учебных ресурсов и материалов, включая учебники, дополнительные материалы и цифровые ресурсы, к которым сельские школы могут легко получить доступ.

- Улучшить инфраструктуру и доступ к технологиям в сельских школах для содействия современным и эффективным методам обучения английскому языку, таким как платформы онлайн-обучения и мультимедийные ресурсы.

- Поощрять сотрудничество и партнерство между городскими и сельскими школами для обмена ресурсами, знаниями и передовым опытом в области обучения английскому языку.

- Внедрять индивидуальные мотивационные программы и внеклассные мероприятия, учитывающие особые потребности, интересы и культурные особенности сельских учащихся, чтобы создать благоприятную учебную среду и способствовать вовлечению в изучение английского языка.

Ожидается, что путем решения этих вопросов и реализации предложенных шагов качество и эффективность преподавания английского языка в сельских школах могут быть значительно улучшены, что в конечном итоге позволит сократить разрыв между городским и сельским образованием в Азербайджане. Это, в свою очередь, будет способствовать развитию людей, которые лучше подготовлены к участию в международных, коммерческих и культурных отношениях во все более глобализированном мире.

**Ключевые слова:** образование, сельские школы, городские школы, обучение английскому языку, проблемы, решения.

**GÜLŞƏN PAŞAYEVA**

## AZƏRBAYCAN KONTEKSINDƏ QRAMMATİKANIN TƏDRİSİNDƏKİ ÇƏTİNLİKLƏR: ŞƏHƏR VƏ KƏND MƏKTƏBLƏRİNİN MÜQAYİSƏLİ TƏDQİQİ

### XÜLASƏ

Qloballaşan dünyada beynəlxalq, ticarət və mədəni əlaqələri həyata keçirə bilmək ingilis dilini bilən fərdlərin yetişdirilməsini zəruri edir. Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da ingilis dilinin tədrisi təhsil kurikulumlarında mühüm yer tutur. Ölkəmizdə ingilis dilinin tədrisi həssas bir məsələdir və səmərəliliyi və effektivliyi artırmaq üçün illərdir bu istiqamətdə araşdırmalar aparılır. Ancaq şəhər və kənd məktəblərində ingilis dilinin tədrisi səviyyəsinin eyni olduğundan bəhs etmək olduqca çətindir. Bu vəziyyət aradan qaldırılmalı və həll edilməli olan bir problemə çevrilmişdir. Kənd məktəblərində ingilis dilinin tədrisi həm şagirdlər, həm də müəllimlər üçün bir sıra çətinliklər yaradır.

Bu məqalədə kənd məktəblərində ingilis dilinin şəhər məktəblərinə nisbətən səmərəli tədrisinə mane olan əsas səbəblər araşdırılmış və bu kimi səbəb və çətinliklərin aradan qaldırılması üçün zəruri addımlar müəyyən edilmişdir.

Bu araşdırmada Azərbaycanda şəhər və kənd məktəbləri arasında ingilis dili təhsilində bərabərsizliyə səbəb olan bir neçə amil müəyyən edilmişdir. Bu amillərə kənd yerlərində ixtisaslı və təcrübəli ingilis dili müəllimlərinin çatışmazlığı, kifayət qədər tədris resursları və materiallarının olmaması, qeyri-adekvat infrastruktur və texnologiyaya çıxış, həmçinin tələbələrin ingilis dilini öyrənməkdə motivasiyası və fəallığına təsir göstərə biləcək mədəni və sosial-iqtisadi fərqlər daxildir.

Bu problemləri həll etmək və keyfiyyətli ingilis dili təhsilinə bərabər çıxışı təşviq etmək üçün tədqiqat aşağıdakı addımları tövsiyə edir:

- Kənd yerlərində ingilis dili müəllimlərinin bacarıq və səriştələrinin təkmilləşdirilməsinə, eləcə də kənd yerlərində işləmək üçün ixtisaslı müəllimlərin stimullaşdırılmasına diqqət yetirən məqsədyönlü müəllim hazırlığı proqramlarının hazırlanması.
- Kənd məktəblərinin asanlıqla əldə edə biləcəyi dərsliklər, əlavə materiallar və rəqəmsal resurslar da daxil olmaqla tədris resursları və materiallarının əlçatanlığını artırmaq.
- Onlayn öyrənmə platformaları və multimedia resursları kimi müasir və effektiv ingilis dilinin tədrisi metodlarını asanlaşdırmaq üçün kənd məktəblərində infrastruktur və texnologiyaya çıxışın yaxşılaşdırılması.
- İngilis dili təhsilində resursları, bilikləri və ən yaxşı təcrübələri bölüşmək üçün şəhər və kənd məktəbləri arasında əməkdaşlığı və tərəfdaşlığı təşviq edin.
- Müsbət öyrənmə mühitini inkişaf etdirmək və ingilis dilinin öyrənilməsi ilə məşğul olmağı təşviq etmək üçün kənd şagirdlərinin xüsusi ehtiyaclarına, maraqlarına və mədəni mənşəyinə cavab verən xüsusi motivasiya proqramları və məktəbdənkənar fəaliyyətləri həyata keçirin.

Bu problemlərin həlli və təklif olunan addımların həyata keçirilməsi ilə kənd məktəblərində ingilis dilinin tədrisinin keyfiyyətinin və effektivliyinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılacağı və nəticədə Azərbaycanda şəhər və kənd təhsili arasındakı uçurumu aradan qaldıracağı gözlənilir. Bu, öz növbəsində, getdikcə qloballaşan dünyada beynəlxalq, kommersiya və mədəni əlaqələrdə iştirak etmək üçün daha yaxşı təchiz edilmiş şəxslərin inkişafına töhfə verəcəkdir.

**Açar sözlər:** təhsil, kənd məktəbləri, şəhər məktəbləri, ingilis dilinin tədrisi, çətinliklər, həll yolları.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Davoud Kuhi**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**BƏŞİROVA GÜLBANU**
*ADU*
*Rəşid Behbudov küç. 134*

# İNGİLİS DİLİNDƏ MİLLİ ÇALARLIQLI METAPHORLARIN TƏRCÜMƏSİ YOLLARI

**Abstrakt**

Dilin onu danışan xalqın mədəniyyəti ilə vəhdətdə yaranıb inkişaf etməsi, ictimai fon biliklərinin dildə əks olunması, cəmiyyətdə baş verən bütün hadisələrin dildə əksi, dil ilə cəmiyyətin bütün qarşılıqlı əlaqələri dilçilərin diqqət mərkəzində olmuşdur.

Hər bir xalqın özünəməxsus tarixi inkişafının nəticəsi olaraq onların dillərinin lüğət tərkibində meydana çıxan fərqli cəhətlər dilçiliyin ən aktual problemlərindən biri olub, fərqli dilçilik sahələrinin yaranmasına səbəb olmuşdur. Milli fonun təsiri altında dildə yaranmış leksik təbəqə başqa dillərdə semantik ekvivalenti olmayan sözlərin meydana çıxmasını şərtləndirir və xarici dilin öyrənilməsində, eləcə də xarici dildən tərcümə zamanı müəyyən problemlər yaradır. Bununla əlaqədar olaraq tədqiqatçılar başqa dillərdə semantik ekvivalenti olmayan sözləri dil realiləri kimi qəbul edirlər.

Bu dilçilik problemin istər xarici, istərsə də Azərbaycan dilçiliyində geniş işlənməsinə baxmayaraq mövzu hələ də öz aktuallığını qorumaqdadır, çünki ingilisdillilərlə ünsiyyət prosesində milli, mədəni çalarlıqlı leksik təbəqəyə, xüsusilə də idiomatik ifadələrə tez-tez rast gəlinir, bu isə həmin mövzunun ayrı-ayrı dillərin ehtiyacına uyğun şəkildə araşdırılmasını zəruri edir.

**Açar sözlər:** milli çalarlıqlı, semantik ekvivalent, üslubi-emosional

Dil realilərinin araşdırılmasında xüsusi rola malik olan S.Vlaxov və S.Florin onları belə xarakterizə etmişlər: «Realilər bir xalqın həyatına (məişətinə, mədəniyyətinə, sosial və tarixi inkişafına) aid olan, başqa xalqlar üçün anlaşıqlı olmayan əşya və anlayışları bildirən söz və ifadələrdir. Bi ifadələr milli və tarixi kolorit daşıyıcıları olduğundan, onların digər dillərdə tam ekvivalentlərinə rast gəlinmir və bu səbəbdən də onların tərcüməsi xüsusi yanaşma tələb edir (2, s.55).

Bunu belə başa düşmək olur ki, hər hansı bir dildəki milli çalarlıqlı sözün başqa bir dildə leksik qarşılığı olmadığından, onun tərcüməsi ya təsviri üsulla, ya da onun semantik ekvivalentini doğma dildə axtarıb tapmaqla mümkündür. Misal üçün, ingilislərin adət-ənənəsi ilə bağlı olan **Gretna Green Marriage** ifadəsini doğma dilimizə ya təsviri yolla («tələsik nigah»), orijinalın emosional çalarlığını saxlamağa ehtiyac olduqda isə Azərbaycan dilində bu çalarlığı özündə birləşdirən «atüstü evlilik», «tezbazar evlənmə», «qaçaraq nigah») kimi ifadələrdən istifadə etməklə

tərcümə etmək olur.

Qeyd etmək lazımdır ki, milli çalarlıqlı sözlərin başqa dillərə tərcüməsi öz aktuallığı və praktik əhəmiyyəti ilə bir çox tədqiqatçıların araşdırma obyekti olmuşdur. Məsələn, R.Yakobsonun o fikri diqqətəlayiqdir ki, biz orijinala o zaman bədii şəkildə yaxın oluruq ki, zahirən uyğun gələn formanı deyil, orijinala funksional baxımdan uyğun gələn formanı seçirik (3, s.415-416).

Bu nöqteyi-nəzərdən Z.Klemenseviçin fikri də diqqəti çəkir. Onun fikrincə, tərcümə orijinal elementlərin mexaniki toplusu deyil, bir sistem kimi, üzvi cəhətdən tam kimi qəbul edilməlidir. Tərcümənin vəzifəsi orijinalın element və strukturunu yaratmaq deyil, doğma dildə onun funksiyasını yaratmaq, tərcümə olunan dilin materialının funksional əvəzləyicisini tapmaqdır (3, s.416).

Milli mədəni realilərin tərcüməsi zamanı bir çox amillər toplusuna əsaslanmaq lazım gəlir. Belə ki, tərcüməçi tərcüməyə dair ümumi nəzəri müddəalara əsaslanmaqla bərabər, həm də özünəməxsus anlama qabiliyyətinə, kontekstual şəraiti dəyərləndirmə bacarığına və hər bir halda daha uyğun tərcümə vasitəsini seçmə bacarığına malik olmalıdır.

Tərcüməçinin vəzifəsi başqa bir dildə orijinalın elementlərini və strukturunu yaratmaq deyil, doğma dildə orijinalın funksiyasına uyğun elə bir struktur yaratmaqdır ki, imkan daxilində tərcümə olunan dilin materialının funksional əvəzləyicisi olsun. Orijinal dildəki bir çox söz və ifadələrin çox sayda emosionallıq dərəcələri olur ki, onların başqa bir dilə tərcüməsi müəyyən təcrübə tələb edir. Məsələn, ingilis dilində **it is so funny it'll cause your sides to ache** ifadəsinin hərfi tərcüməsi dogma dil daşıyıcıları üçün düzgün kommunikativ informasiya daşımır: «o elə gülməlidir ki, böyürlərinin ağrımasına səbəb olur».

Orijinalın üslubi baxımdan daha anlaşıqlı tərcüməsini yaratmaq üçün həmin cümlənin Azərbaycan dili daşıyıcılarının psixoloji təcrübəsinə əsaslanan formal tərcüməsinə nail olmalıyıq: «o elə gülməlidir ki, gülməkdən az qalır ürəyin dayansın». Bu halda ingilis dilindəki orijinal ifadədə əks olunan emosionallıq və ekspessivliyin doğma dildə semantik baxımdan daha anlaşıqlı qarşılığı əldə olunur.

Orijinal dildə başqa dil daşıyıcıları üçün anlaşılmaz olan ifadə yalnız psixologiya və mentalitetlə deyil, həm də çox sayda faktorlarla bağlıdır. Bunların arasında tarixi hadisələr, adət-ənənələr, həyat tərzi və məişət və digər amillər xüsusi yer tutur.

Milli semantikalı sözlər olan realilər, denotativ və yaxud konnotativ xarakterli olmasından asılı olmayaraq, hər hansı bir xalqın nümayəndələri üçün anlaşıqlı olur. Bu onunla bağlıdır ki, həmin dil realilərinin semantikasında məhz onu danışan xalqın fon bilikləri və dünyagörüşü öz əksini tapır.

Denotativ realilər konkret bir xalqın mədəniyyətinə, həyat tərzinə, yaşadıqları mühitə aid olan obyekt və məfhumları bildirir. Misal üçün, **bacon and eggs,** spesifik ingilis yeməyini, **sundowner** Avstraliya ingiliscəsində gündəlik işinə görə əmək haqqı və yeməklə təmin olunan muzdlu işçini, **health stamp** Yeni Zelandiya

ingiliscəsində əldə olunan gəliri yoxsul, imkansız uşaqların müalicəsi üçün xərcələnmək məqsədilə satışa çıxarılan markanı («sağlamlıq markası») bildirir.

Denotativ realilərin başqa dillərdə sözlə tərcüməsi olmadığından onlar başqa dillərə yalnız təsviri yolla tərcümə oluna bilir. Misal üçün, başqa xalqlar üçün anlaşıqsız olan **heaalth stamp** digər dilə «sağlamlıq markası» kimi deyil, «əldə olunan gəliri yoxsul uşaqların müalicəsinə sərf olunan marka» kimi, yəni izah yolu ilə təqdim oluna bilir.

Konnotativ realilər isə lüğəvi mənaya malik olan sölərdən fərqli olaraq, məcazi, metaforik səciyyə daşıyır və başqa dillərdə onların semantik, metaforik ekvivalenti fərqli leksik vahidlərdə öz əksini tapır. Metaforik reali isə (**to bring home the bacon** («ailəsini dolandırmaq, ərzaqla təmin edə bilmək») doğma dildə tam metaforik ekvivalentə malikdir: «Evinə çörək apara bilmək», yəni «ailəsini dolandıra bilmək».

Göründüyü kimi, **to take home the bacon** və **evinə çörək aparmaq** arasındakı leksik fərqə baxmayaraq, nəticə etibarilə hər iki dildəki ifadə eyni metaforik, emosional mənaya malikdir.

İngilis metaforik realilərinin başqa dillərdə fərqli leksik, struktural vahidlərdə öz ifadəsini tapa bilməsi əslində bütün frazeologizmlər üçün xarakterikdir.

Göründüyü kimi, başqa dillər kimi, ingilis dili də mədəniyyət, həyat tərzi, bir sözlə, bu dili danışan xalqın bütün maddi və mənəvi dünyasının təsiri altında meydana çıxır və ingilisdillilərlə ünsiyyət zamanı meydana çıxan əsas anlaşılmazlıqların kökündə də məhz dilxarici amillərin təsiri altında yaranmış semantik sahə dayanmaqdadır.

İngilis dilinin lüğət tərkibinin öyrənilməsində və ingilis dilindən doğma dilə tərcümə prosesində ortaya çıxan bu tipli çətinliklər əksər hallarda bu semantika sahənin digər dil və mədəniyyət daşıyıcılarına tanış olmamasından irəli gəlir. Hər bir dilinin qrammatik quruluşunun fövqündə dayanan və onu tam anlamağı çətinləşdirən faktor milli mədəniyyət, milli ictimai haqqında informasiya daşıyan semantik sahədir. Həmin semantik sahə ingilis xalqının əsrlər boyu formalaşmış həyat tərzini, mənəvi aləmini əks etdirir və bu səbəbdən də ingilisdillilərlə ünsiyyətdə olanların bu semantik sahə ilə tanış olması olduqca zəruridir. Bu baxımdan xarici dil öyrənməyən bir aspekti həmin dilin qramatikasıdırsa, digəri milli etnoqrafik fon ilə bağlı olan semantik sahədir.

Bu semantik sahə müxtəlif adlar altında tanınan, əslində isə eyni sahələri araşdıran fərqli dilçilik sahələri müstəvisində tədqiq olunur. Bu semantik sahə yalnız konkret əşyalardan deyil, milli adət-ənənələrdən, cəmiyyətin sosial gerçəklikləri, konkret tarixi hadisələr əsasında mücərrədləşir və dilin frazeologiyasının bir hissəsinə çevrilir. Milli, mədəni gerçəkliklərlə əlaqədar olaraq yaranmış bu tipli metaforik ifadələrin mənimsənilməsi və ünsiyyət prosesində istifadəsi isə müəyyən çətinliklər doğurur.

Sözün metaforik mənasını təyin etmək ona görə çətindir ki, bu, sözün lüğəvi

mənasından uzaqlaşmış əlavə üslubi assosiasiyaya malikdir.

Dil ilə mədəniyyətin ayrılmaz əlaqəsi slenqlərin, jarqonların, evfemizlərin, digər metaforik dil vahidlərinin semantikasında da öz əksini tapır. Misal üçün, Amerika ingiliscəsindəki **baby kisser** (hərfən, «uşaq öpən») slenqi ölkənin siyasi həyatı ilə bağlı gerçəkliyi əks etdirir və onun semantikasında seçki ərəfəsində seçicilərin hörmətini və səsini qazanmaq üçün görüş və toplantılarda uşaqları öpən siyasi xadim əks olunur: **Nixon was a baby kisser when he ran for vice president with Eisenhower** (1, s.20). «Nikson Eyzenhauerin ofisində vitse prezident postunu tutmaq uğrunda kampaniya zamanı uşaqları öpərdi».

Bu slenqin üslubi məzmunu məhz Amerika cəmiyyətinin milli gerçəkliyi haqqında informasiya daşıyır.

Ümumiyətlə, ingilis dilinin frazeologiyası ingilis xalqının milli mədəniyyəti və mənəvi aləmi haqqında zəngin informasiya mənbəyidir. Bu metaforik ifadələr yalnız dilin zənginləşməsinə deyil, həm də onu danışan xalqın uzaq keçmişinə nüfuz etməyə imkan verir. İngilis dilinin ayrı-ayrı variantlarının metaforik ifadələri ölkələrin coğrafi, tarixi, sosial, mədəni siyasi və digər amilləri fonunda meydana çıxıb, bu dildə danışan xalqın həyat tərzini, məişətini, adət-ənənələrini, dini-mifoloji dünya görüşünü, inanclarını, sosial əlamətlərini əks etdirir. Digər dillər kimi, ingilis dilində də xalqın ruhi, psixoloji, etik, estetik aləmi öz əks olunur. Misal üçün. Amerika ingiliscəsində uşaq oyununun adın bildirən **musical chairs** Amerikanın biznes həyatını əks etdirən məcazi məna əldə edərək, təşkilat daxilində işçilərin yerini vaxtaşırı dəyişməklə, yeni işə həvəslə, maraqla başlamağa imkan yaratmaq mənasınıifadə edir:

**The boss regularly played musical chairs with department heads to keep them fresh on the job** (1, s.240) «Şef şöbə müdirlərinin vəzifələrini onların arasında vaxtaşırı dəyişməklə, onların yeni işə maraqlarını artırmağa çalışırdı».

İngilis frazeoloji vahidlərinin bir qrupu ingilislərin digər xalqlarla tarixən formalaşmış əlaqələri, onların xarakterik xüsusiyyətləri haqqında ingilislərin təsəvvür, qənaət və düşüncə tərzini əks etdirir. İngilislərlə kontaktda olmuş fransız, holland və digər xalqların milli xüsusiyyətləri haqqında obyektiv və yaxud subyektiv düşüncə tərzi bir çox ifadələrdə əksini tapır. Misal üçün, ingilis dilində işlənən **French leave** (hərfən, «fransızsayağı çıxıb getmə») kiminsə xudahafizləşmədən çıxıb getməsini» ifadə edir. İngilis xalqının digər xalqlarla tarixi-mədəni münasibətdərindən qaynaqlanan bu tipli ifadələr dil və mədəniyyətin qarşılıqlı əlaqəsindən qaynaqlanır.

Digər dillərdə olduğu kimi, ingilis dilində də insanın çətin situasiyalarda düşdüyü ruhi durum və rəftarı ilə bağlı ifadələr də dildə geniş yer tutur. Qədim ingilis ənənəsindən qaynaqlanan **in the cart** («çətin vəziyyətdə olmaq») slenqi keçmişdə edam olunmaq üçün arabaya mindirilən və camaatın gözləri qarşısında şəhərin küçələrində gəzdirilən dustağın ağır vəziyyəti ilə əlaqədar olaraq yaranmışdır (1, s.189).

Dildə əks olunan mədəni gerçəklik bir çox sahələri – iqtisadiyyat, siyasət, adət və ənənələr, din və s. sahələri əhatə edir. Dilin leksikasında sosial, mədəni amillərin təsiri o qədər genişdir ki, bəzən hətta ingilis dilinin iki fərqli variantında eyni idiomun fərqli gerçəkliyi ifadə etdiyinin şahidi oluruq.

Araşdırma göstərir ki, ingilis milli-mədəni çalarlıqlı metaforlarının doğma dildə şərhi bu leksik təbəqə ilə dərin tanışlıq tələb edir və eyni zamanda onların şərhində semantik ekvivalent ola biləcək doğma dilin metaforları haqqında dərin məlumat tələb edir. Əks halda ingilis milli mədəniyyəti, həyat tərzi ilə bağlı metaforlarının doğma dilə düzgün tərcüməsi mümkün deyildir.

Məqalənin aktuallığı onunla bağlıdır ki, doğma dilin idiomatic ifadələri ilə dərin tanışlıq ingilis dilindəki metaforik ifadələrin semantic funksional qarşılıqlarını müəyyən etməyə imkan verir. Çünki eyni semantic-funksional metaforik çalarlığa malik ifadələr struktur fərqlərinə baxmayaraq bütün dillərdə mövcuddur.

## Ədəbiyyat

1. Makkai A.A. Dictionary of American Idiomas, Barrons, 2004.

2. Влахов С., Флорин С. Непереводимое в переводе. М., Междунардные отношения, 1986.

3. Левый И. Состояние теоретической мысли в области перевода /Мастерство перевода. М., Советский писатель, 1970.

**Bashirova Gulbanu**

## The ways of translation of English culturally coloured metaphors

## Summary

Although translation of culturally coloured metaphors was on the focus of many linguists the problem still keeps its actuality. Translater must be based on a number of factors in order to make a proper translation of metaphors.

According to generally accepted opinion, the translater should not create structurally the analogical elements of the original, but must create semantical equivalent of the original no mater in what structural form the translation is. As we have observed, structurally different metaphors in the English and native languages may have the same metaphorical meaning and emotion.

However, having a best knowledge in the field of native metaphors is also needed, without what original metaphors can hardly be translated. Otherwise the translater has to use a descriptive method of translation which is does not keep emotional, stylistic colour of the original.

**Key words:** national colour, semantic equivalent, stylistic, emotional

**Баширова Гюлбану**

**Способы перевода культурно окращенных метафоров английского языка**

**Резюме**

На перевод социо-культурных метафор обратил внимание многие языковеды, хотя вопрос еще не исчерпал актуальность. Переводчик должен основаться на некторых факторов для проведения правильный перевод культурно окращенных метафор. По общепринятым мнениям, переводчику приходиться создавать не аналогичные структуры оригинала, а он должен обнаружить семантическую эквиваленту оригинала независимо от его структурной формы. Как мы обнаруживаем, структурно отличающиеся метафоры в английском и родном языках могут иметь идентичную метафорическую значению одно и то же емоцию.

Однако наличие глубокого знания в области родной фразеологии объязательно, так как без этого оригиналыные метафоры не поддаются переводу с эмоциональными, стилистическими значениями.

**Ключевые слова:** национальный колорит, семантический эквивалент стилистический, эмоциональный

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: professor Çingiz Qaraşarlı tərəfindən çapa tövsiyə olunmuşdur**

**SEVİNC HƏBİB QIZI FƏTƏLİYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Bakı Slavyan Universiteti**
***33 Süleyman Rüstəm küçəsi, Bakı***
***<sevinjfataliyeva@gmail.com>***

# "BEOVULF" VƏ "NIBELUNQLAR NƏĞMƏSI"EPOSLARINDA LEKSİK TƏKRARLAR

**Xülasə:**

Qədim abidələrdə leksik təkrarlar nə qədər oxşar xüsusiyyətlərə malik olsalar da, məzmunca müəyyən fərqlərə malikdir. Bu fərq abidələr yazıldığı dövrdə dildaşıyıcılarının şüurunda olan leksik təkrar modelinin mövcudluğu ilə bağlıdır. Həmin modelə əsasən, qədim german eposlarında digər təkrar növləri kimi leksik təkrarlar heca, qafiyə sisteminə qədərki poetik texniki vasitə rolunu oynayır. Şeirdə qafiyə sisteminin formalaşması leksik təkrarların arxetip funksiyası öz yerini mətn praqmatikasına verir; onların funksional tərəfi güclənir. Onu da qeyd etmək olar ki, qədim abidələrdə leksik təkrarların praqmatik səciyyəsini inkar etmək olmaz. Bütün hallarda leksik təkrarlar müəllif intensiyasına xidmət eddiyindən praqmatikanın linqvistik mənzərəsində təkrarlar mühüm yer tutur. Təkrarlar, adətən, cümlənin əvvəlində və ya sonunda, eləcə də ortasında gəlməklə nitqə xüsusi bir ritm, ahəng veri. Ancaq həm anaforik( öndə gələn), həm kataforik (sonda gələn) təkrarların intensivliyi müəllifin fərdi keyfiyyətlərindən, yəni onun intellektual səviyyəsindən, estetik düşüncə tərzindən , bədi yaradıcılıq üslubundan asılıdır.

Məqalədə "Beovulf" və "Nibelunqlar nəğməsi"eposlarinda leksik təkrarlardan bəhs edilir. Məqalənin yazılmasında müxtəlif elmi mənbələrdən istifadə edilmişdir.

**Açar sözlər:** epos, qədim, leksik, təkrar, arxetip.

**Севиндж Хабиб кызы Фаталиева**

# ЛЕКСИЧЕСКИЕ ПОВТОРЫ В ЭПОСАХ «БЕОВУЛЬФ» И «ПЕСНЯ О НИБЕЛУНГАХ»

**Резюме:**

Хотя лексические повторы в древних памятниках имеют сходные черты, они имеют определенные различия в содержании. Это различие связано с наличием в сознании говорящих образца лексического повторения в то время, когда были написаны памятники. Согласно этой модели, лексические повторы, как и другие виды повторов в древнегерманских эпосах, играют роль поэтического приема вплоть до системы слогов и рифм. Формирование

системы рифмовки в стихотворении, архетипическая функция лексических повторов уступает место текстовой прагматике; их функциональная сторона усилена. Также можно отметить, что нельзя отрицать прагматический характер лексических повторов в древних памятниках. Поскольку лексические повторы во всех случаях служат авторскому замыслу, повторы занимают важное место в языковой картине прагматики. Повторы, обычно в начале или конце предложения, а также в его середине, придают речи особый ритм и стройность. Однако интенсивность как анафорических (ведущих), так и катафорических (идущих в конце) повторов зависит от индивидуальных качеств автора, т. е. его интеллектуального уровня, эстетического образа мышления, художественно-творческого стиля.

В статье говорится о лексических повторах в эпосах «Беовульф» и «Песнь о Нибелунгах». При написании статьи использовались различные научные источники.

**Ключевые слова**: эпос, древний, лексический, повтор, архетип.

**Sevinj Habib gizi Fataliyeva**

## LEXICAL REPETITIONS IN THE EPICS "BEOWULF" AND "THE SONG OF THE NIBELUNGS"

**Summary:**

Although lexical repetitions in ancient monuments have similar features, they have certain differences in content. This difference is related to the presence of the lexical repetition pattern in the mind of the speakers at the time when the monuments were written. According to that model, lexical repetitions, like other types of repetitions in ancient Germanic epics, play the role of a poetic technique up to the system of syllables and rhymes. The formation of the rhyming system in the poem, the archetypal function of lexical repetitions gives way to textual pragmatics; their functional side is strengthened. It can also be noted that the pragmatic character of lexical repetitions in ancient monuments cannot be denied. Since lexical repetitions in all cases serve the author's intention, repetitions occupy an important place in the linguistic picture of pragmatics. Repetitions, usually at the beginning or end of a sentence, as well as in the middle, give speech a special rhythm and harmony. However, the intensity of both anaphoric (leading) and cataphoric (coming at the end) repetitions depends on the individual qualities of the author, i.e. his intellectual level, aesthetic way of thinking, artistic creative style.

The article talks about lexical repetitions in the epics "Beowulf" and "Song of the Nibelungs". Various scientific sources were used in writing the article.

**Key words:** epic, ancient, lexical, repetition, archetype.

Leksik təkrarlar həm fonetik, həm də qrammatik təkrarlardan mətn praqmatikası nöqteyi-nəzərindən fərqlənmir, onların mətndəki prqamatik funksiyasl birdir.Lakin leksik təkrarların özünəməxsus quruluş xüsusiyyətləri vardır.Leksik təkrarlar adı altında bir mürəkkəb sintaktik bütöv çərçivəsində həm sözlərin və söz birləşmələrinin təkrarını nəzərdə tutur. Bununla əlaqədar akad. K.M.Abdullayev yazır:" Mətndə özünü göstərən təkrarlar spesifik bir sistem yaradırlar. Belə ki, burada təkrarların ən müxtəlif strtuktur növlərinə rast gəlmək mümkündür və özünün struktur mürəkkəbliyindən və ya sadəliyindən asılı olmayaraq təkrar prinsip etibarilə mətn bütövlüyünə xidmət edən çox möhkəm sementvari bir üsul kimi üzə **çıxır (1,172).**

Təkrarların mətnyaratma funksiyasından bəhs edən A.Y.Məmmədov onları belə səciyyələndirir:" , "... deməli, frazafövqü vahidlərin (yəni MSB) komponentləri arasında əlaqə yaradan üsullardan ən mühümü təkrarlardır ki, onlar da leksik və qrammatik (morfoloji-eyni formanın təkrarı; və sintaktik-eyni strukturların təkrarı) növlərə ayırırlar. İri həcmli frazafövqü vahid (MSB) daxilində bir neçə sözün təkrarı yalnız bir-birinin ardınca gələn cümlələri deyil, hətta bir-birindən yetəri qədər uzaq məsafədə yerləşən cümlələri də bir-birinə bağlaya bilər"(7:26-27).

Təkrarların çoxşaxəli bir fenomen olmasından bəhs edərkən. K.Balıyeva və G.Rzayeva leksik təkrarları belə səciyyələndirir: "Təkrar çoxşaxəli mövzudur. Onun haqqında danışarkən, çox məsələlərlə, məsələn, məna təkrarı, istər qrammatik cəhətdən (əlavələr), istərsə də leksik cəhətdən (qoşa sözlər) mənanın təkrar olunması, eyni zamanda, geniş mənada sinonimiya məsələsinə də toxunmaq olar. Əgər bir halda ümumiləşmiş təkrar sözlər işlənirsə, digər halda, onların daha geniş forması işlənir. (**5,146).**

Leksik təkrarlar eyni vaxtda mətndə həm folklor kaloriti yaradır, həm də ona ritmiklik gətirərək onun seqmentlərini vahid harmoniyada birləşdirir. Bu xüsusiyyət qədim abidələrdə müasir dövrlə müqayisədə bəzi fərqlərlə özünü göstərir.Müasir ingilis dilində leksik təkrarların funksiyasını belə ümumiləşdirmək olar:

1.Leksik təkrarlar hadisəyə və ya fakta aydınlıq gətirir;

2. Leksik təkrarlar qradiativ xüsusiyyətlərə malik olur;

3. Leksik təkrarlar üslubi səciyyə daşıyır;

4.Bədii mətnlərdə leksik təkrarlar monotonluğu aradan qaldırır;

5.Leksik təkrarlar emosiyanın, hissin ahəngdar ifadəsinəxidmət edir..

Lakin qədim german abidələrində digər təkrar növləri kimi leksik təkrarlar qafiyə sistemi yaranana qədər mətndə sözlərin həmahəngləşməsinə , onların bir harmoniyaya daxil olmasına şərait yaradan vasitə kimi fəal olmuşdur.Yəni qədim abidələrdə həm fonetik, həm də leksik təkrarlar mətndə qafiyə və hecalanma sisteminin funksiyasını yerinə yetirmişdir.Deməli onların da bir fəaliyyət modeli olmuşdur. Qeyd olunan abidələrdə həmin sistemin epizodları müşahidə olunur. Bu istiqamətdə tədqiqat aparan araşdırmaçıların fikrincə ,bu eposlarda həmin sistemin dağılması və yerini heca sisteminə verməsi hadisəsi müşahidə olunur.Qədim

abidələrdə leksik təkrarların bu funksiyası ilə yanaşı, onların mətnqurucu funksiyasından da bəhs etmək olar;onlar folklor və qədim mətnlərin təşkilində mühüm rol oynayanvasitələrdəndir.Həmin mətnlərdə onların funksiyası fikrin dəqiqləşdirilməsindən,emosional səslənməni təmin etməkdən, mətnin estetik təsir gücünü mətn semantikasına müvafiq olaraq artırmaqdan, mətndə musiqiqilik və harmoniya yaratmaqdan ibarətdir. Qədim yazılı mətnlərdə, o cümlədən qədim german eposlarında mövcud olan təkrarları tədqiq edənlər ona müxtəlif cəhətdən yanaşırlar. Məsələn, bir qism tədqiqatçılar leksik təkrarlar üslubi vasitə kimi, bir qismi isə mətndə bütövlük yaradan vasitə kimi qəbul edirlər. Eləcə də son dövrlərdə mətn dilçiliyinin formalaşması ilə bağlı leksik təkrarların daha yeni bir funksiyası – mətnqurucu funksiyası müəyyənləşdirilmişdir.Şübhəsiz ki, qeyd olunan fenomen tarixin müəyyən dönəmlərində xalqların folklor düşüncəsindən, epos yaratma ənənəsindən asılı olaraq leksik təkrarlardan müxtəlif cür istifadə etmişlər. Folklor mətnlərində təkrarlar ümumimilli və universal xüsusiyyətlərlərə malikdir **(3).**

Dünya xalqlarının qədim abidələrində təkrarlar universal əlamətləri ilə səciyyələnir;buraya leksik təkrarların mətnin təşkilindəki rolu, estetik və praqmatik funksionallıq,musiqililik və onların linqvopoetik funksiyası qeyd olunan universallığa aiddir. Genezis cəhətdən tarixin lap qədim dövrlərinə, hətta ibtidai icma dövrünə gedib çıxan təkrarların universallığı epos dilində dildaşıyıcısının estetik və melodiklik duyumu,dünyanı harmonik əlaqələr sistemində dərk etmək modeli ilə bağlıdır.Qədim eposlarda leksik təkrarların anaforik, kataforik , distant və qarışıq tipləri bütün mövqelərdə mətnin struktur-semantik bütövlüyünü yaratdığı kimi,şeirdə qafiyələnmə sitemi yaranana qədər ritmyaradıcı, lirik harmoniyanı yaradan linqvopoetik vasitə kimi mövcud olmuşdur. E.M.Meletenski qədim dövr abidələrindəki bu xüsusiyyətləri sözün maqik qüvvəsi ilə bağlı olduğunu qeyd edir **(6).**

Poetik dil kontekstində folklor dilinin formalaşması, eləcə də qədim abidələrin yazıldığı dövrlərdə dil vasitələrinin linqvopoetik vasitəyə çevrilməsi həmin insanların təxəyyülündə baş verən güclü dəyişikliklə bağlıdır. Akad.K.M.Abdullayev qeyd olunan qlobal inkişafdan danışarkən yazır:“Onun (insanın) təfəkkürü də bədəninin formalaşması ilə bir yerdə, həmahəng şəkildə inkişaf edir. Onların inkişafı biri digərini şərtləndirir. Dilin inkişafı isə bunlardan bir qədər ləng gedir. Dil sanki bunları müşayiət edir. Belə deyə bilərik ki, dil imkanlarının inkişafı təfəkkürün inkişafından geri qalır, onunla ayaqlaşa bilmir. Təfəkkür yeni anlayışlar ortaya qoyduqca, eyni zamanda onlar üçün yeni formalar icad etməyi də dildən "tələb" edir. Dil bu funksiyanı bütövlükdə yerinə yetirə bilmir və gülməli səslənsə də, özünü "xəstəliyə vurur". Özündəki köhnə formaları yeni anlayışların ifadəsi üçün istifadəyə buraxır. Bu barədə bir qədər yuxarıda danışmışdıq. Ancaq elə də olur ki, dil çıxış pozisiyasında (yəni, ilk yaradılan) ifadənin əsas elementini saxlamaqla onun ancaq ikinci elementini dəyişir. Belə olarkən, ifadə sanki “yenilənir”. Haman anlayışı dil artıq yeni qiyafədə ortaya çıxarır. Məsələn, "İtaət

etmək" ifadəsi ilə yanaşı,"itaət göstərmək", “itaətdə durmaq” kimi yeni formalar meydana çıxır. Bu sonuncular artıq təfəkkürdə müəyyən mifoloji proseslərin getməsindən xəbər verir. "İtaət"i göstərirlərsə, “itaətdə” dururlarsa, deməli, onu personələşdirirlər, onu görə bilirlər, kimsə onu kiməsə sözün müstəqim mənasında göstərə bilir, onu hərəkətə gətirə bilirlər”( 2).

Bu, elə prosesdir ki, təkcə dildə mövcud olan leksik vahidlərin semantik strukturunun zənginləşməsi ilə məhdudlaşmır, leksik vahidlərin müxtəlif linqvopoetik funksiyası ilə də bağlıdır. Qədim abidələrdə leksik vahidlərin təkrarının qafiyələnmə funksiyasını da yerinə yetirməsi həmin abidələrdə müşahidə olunan arxetip funksiyalardan biridir. Bu elə bir hadisədir ki, qədim abidələrin yazıldığı dövrdə dil vahidinin həm horizontal, həm də üfqi funksiyanıyerinə yetirirdi..Buraya qeyd olunan leksik vahidlərin çoxmənalılığı və qafiyə siteminə qədərki harmonik sistem yaratma funksiyasını aid etmək olar. Məsələn:

705.þâþät horn-reced healdanscoldon,
eallebûtonânum. Þät wäsyldumcûð,
þäthie ne môste, þâmetodnolde,
sesyn-scaða under sceadubregdan;
ac he wäccende wrâðum on andan (8).
810.Þâþät onfunde se þefelaæror
†
môdesmyrðe manna cynne
fyrenege fremede (he wäs fâgwið god)
þät him se lîc-homa læstannolde,
achine se môdega mægHygelâces

Þâwäs on morgen mînegefræge
ymbþâ gif-healle gûð-rincmonig (8).

Bu mətn parçasında tez-tez işlənən “pa” elementi həm “sonra”, həm də “onda” mənasını daşıyır. Bəzi tədqiqatlarda pa-nın mətndə tez-tez təkrarı “primitive üslub göstəricisi” kimi nəzərdən keçirilir .Yuxarıda verilən misallarda “þâþät”, “Þät”,” Þâ” zərfləri anaforik və qarışıq təkrarlar olmaqla qafiyə sisteminə qədərki harmoniya, ritmyaratma funksiyasını təmsil edir.Leksik təkrarların harmoniyası poetik parçanı təkcə musiqililəşdirmir,həm də onlara harmonik cazibə xüsusiyyəti verir. Bunun nəticəsində yanaşı və ya distant yerləşən leksik təkrarlar digər komponentləri də özünə cəlb edərək mərkəzəqaçma qüvvəsini yaradır.Beləliklə , qədim german eposlarında leksik təkrarlar ritm, harmonik bütövlük yaratmış olur. Bu xüsusiyyət “Nibelunqlar nəğməsi”ndə də nisbətən mühafizə olunmuşdur:

**904.** Des andern morgens / mit tvsent siner [332b]
Man reit der herre Sifrit / vil vroelichen dan
er wand er solde rechen / der siner vrivnde leit
Hagen im reit so nahen / daz er geschowete div chleit (9).

905.Als er gesach daz pilde / do schiet er tovgen dan
di sageten ander mære / zwene siner man
mit vride solde beliben / daz Gvntheres lant
vnd si hete Livdger / zv dem chvenige gesant (9).

"Nibelunqlar"da leksik təkrarların poetik harmioniya yaratma funksiyası arxetipə müvafiq olaraq zəif də olsa,mühafizə olunmuşdur. Eposda işarə və zaman məzmunlu leksik təkrarlar digər leksik vahidlərdən daha canlıdır, yəni fəaldır, onların işlənmə tezliyi daha yüksəkdir. Yuxarıdakı misallarda "er"(o) bu cəhətdən səciyyəvidir.Bu misal həmin leksik təkrarın o dövrünə aiddir ki, artıq bu eposda da qafiyə sistemi möhkəmlənir, leksik təkrarların ritm, harmoniya yaratma funksiyası ilə yanaşı ,onların üslubi yükü də formalaşır. Bu məqamlar Akad.K.M.Abdullayevin yuxarıda verilən fikrinin məntiqi və faktik təsdiqidir. Başqa bir misal:

/ vil liebiv vrowe min
do wand ovch des div vrowe / ez sol im vrvme sin
do was da mit verraten / der Criemhilde man
vrlovp nam do Hagene / do gie er vroeliche dan. (9).
300. Dô gie si zuo dem münster, ir volgete manec wîp.
dô was ouch sô gezieret der küneginne lîp
daz dâ hôher wünsche vil maneger wart verlorn.
si was dâ ze ougenweide vil manegem réckén erkorn.(9 ).

"Do"; Dô (etmək) lekseminin misraların əvvəlində və ortasında gəlməsi və leksik vahidlərin arxetipdəki modellərinin bəzilərinin qorunub saxlanılması bu nümunədə daha aydın hiss olunur.Digər bir fakt da müasir alman dilində köməkçi feil kimi işlənən dil vahidlərinin "Nibelunqlar " dövründə müstəqil soz variantının fəallığı özünü göstərir. Hər dəfə sətirin əvvəlində gələn "do" xüsusi ritmik , harmonik mühit yaradır.Bu variant qədim dastan dilində arxetip variantın qorunub saxlanması əlaməti kimi qəbul oluna bilər. Bunu "sie"(o) lekseminin timsalında müşahidə edirik:

„Es wuchs im Burgund**en**l**an**d ein junges Edelfräulein her**an,**
so schön wie keine andere auf der Welt,
Kriemhild hieß si**e**. später wurd**esie** ein**e** schön**e** Frau.
Ihretweg**en** muss**ten** viele Ritter ihr Leb**en** verlier**en"(9).**

„Sie beschützten drei edle und mächtige Könige:
Gunther und Gernot, hoch angesehene Recken,
und der junge Giselher, ein ausgezeichneter Ritter (9).
Kriemhild war ihre Schwester; die
Fürsten hattensie in ihrem fürsorglichen Schutz. (9).

Bu nümunədə də „sie“ lekseminin eposda həm anaforik, həm katoforik, həm də qarışıq mövqelərdə işlənilməsi arxetip sitemin dağılması ilə bağlıdır. Bu səbəbdəndir ki,„Nibelunqlar nəğməsi“ndə leksik təkrarların harmoniyası “ kifayət qədər zəifləyir..Bəzən zərflərin təkrarı ikinci misrada anaforik tərzdəmüşahidə olunur:.

285. Er dâhte in sînem muote: "wie kunde daz ergân
daz ich dich minnen solde? daz ist ein tumber wân.
sol aber ich dich vremeden, sô wære ich sanfter tôt."
er wart von den gedanken vil dicke bleich unde rôt.(9).

Verilmiş misalda “daz”( o vaxtlar; onda) yerləşmə mövqeyinə görəbirinci halda misranın ortasında yerləşir, o biri misralarda isə anaforik olaraq təkrarlanır. Bu təkrar modeli arxitep leksik təkrar modelinə uyğun gəlir. Məsələ burasındadır ki, allitrativ təkrarlar modeli ilə leksik təkrar modeli arasında bir oxşarlıq müşahidə olunur. Buradan belə bir məntiqi nəticə alınır ki, qədim german eposlarının ilkin variantında ümumi təkrar modeli olmuşdur. Və ya ehtimal etmək olar ki,qədim german eposlarında model səciyyəli təkrarların üstünlüyü müşahidə olunmuşdur və “Nibelunqlar”ın yarandığı ilkin dövrlərdə artıq bu sistem tədricən zəifləməyə başlayır.Onun nəticəsidir ki, bu dövrə aid eposlarda ikili xsusiyyət- həm leksik təkrarların model xüsusiyyətləri və onun dağılması xüsusiyyətləri müşahidə olunur.“İsh”(mən) əvəzliyinin eposda model vəziyyətində təkrarı buna nümunə ola bilər:

285… sol aber ich dich vremeden, sô wære ich sanfter tôt."
er wart von den gedanken vil dicke bleich unde rôt. (9).

304 "Ich sul in immer dienen", alsô sprach der degen, (mən).
"und enwil mîn houbet nimmer ê gelegen,
ich enwérbe nâch ir willen, sol ich mîn leben hân.
daz ist nâch iuwern hulden, mîn frou Kriemhilt, getân."(9).

Birinci misalda “ish”leksemi misraların ortasında gəlir, sonrakı misalda isə hər misranın əvvəlində (anaforik) gəlməklə arxitepdə mövcud olmuş standart quruluş sxemini özündə nümayiş etdirir. Eposda anaforik leksik təkrarın feillər üzrə müşahidə oluna bilinməsi tam qanunauyğun haldır. Çünki bu xüsusiyyət german dillərinin cümlədə üzvlərin sıralanması-cümlədə söz sırası qanunauyğunluğu ilə bağlıdır:

[18]Kriemhilt in ir muote sich minne gar bewac.

sît lebte diu vil guote vil manegen lieben tac,
daz sine wesse niemen den minnen wolde ir lîp.
sît wart si mit êren eins vil küenen recken wîp.(9).

"Sît"(oturmaq) feilinin təkrarı eyni vaxtda iki əlamətin daşıyıcısıdır; birinci halda feil mövqeyinin nümayişidir, ikincisi isə anaforikliyidir.Qeyd olunan əlamət feillərin təkrarını dugər təkrar növlərindən fərqləndirir.Bu misalda da leksik təkrar sabit təkrarlanma quruluşuna malikdir.

Qədim eposlardan biri olaraq "Nibelunqlar nəğməsi"ndə "Beovulf"da gedən prosesin davamını görmək olar.

Zaman, məkan məzmunlu leksemlərin təkrarı yuxarıda qeyd etdiyimiz kimi, həm müstəqil mənalı, həm də qrammatik funksiyalı dil vahidi kimi özünü göstərir. Bu da bir sıra qrammatikləşən dil vahidləri üçün qanunauyğun haldır. Qədim german eposlarının yazıldığı vaxt bu dil daha çox sintetik dil idi; sintetizmin bir əlaməti də onun çoxlu sayda şəkilçi morfemlərə malik olması və morfoloji kateqoriyaların şəkilçilər və qrammatikləşmiş dil vahidləri ilə verilməsi ilə bağlıdır. Epos dövründə məna ümumiləşməsinə məruz qalmış qrammatikləşmiş leksemlərin mövcudluğu bu mənada adi haldır.

2470."gum-dreámofgeaf, godesleóhtgeceás;
"eaferumlæfde, swâdêðeádig mon,
"lond and leód-byrig, þâ he of lîfegewât.
"Þâwässynn and sacu Sweona and Geáta,
†
"oferwîdwäter wrôhtgemæne, (8).

"Beovulf" eposunda " þâ"(sonra,o vaxt) məna ümumiləşməsinə məruz qalmış leksik vahid olaraq mətnin komponentlərini bağlayır. Bu, onun qrammatik funksiyası ilə bağlıdır. Çünki bir çox misallarda bu leksemlər qrammatikləşmişdir. (bağlayıcılaşmış zərf olaraq fəaliyyət göstərir).Verilmiş misalda " Þâ" bağlayıcılaşmış zərf kimi çıxış edir.Digər zərf" Þær"(orada) leksik təkrar olaraq " þâ"nın ("sonra) funksiyasına uyğun fəaliyyət göstərir:

775.innan and ûtan îren-bendum
searo-þoncumbesmiðod. Þærframsylleâbeág
medu-bencmonig mînegefræge,
goldegeregnad, þærþâgramanwunnon;
þäs ne wêndonær witan Scyldinga,(8).

Zərflərin təkrarı eposlarda həm sadə, həm də birləşmə halında mövcuddur; bu konstruksiyalarda onların qrammatikləşmiş funksiyası daha da intensivləşir.Onların digər bir cəhəti də ondan ibarətdir ki,anaforik olaraq təkrarlıq harmoniyası , ritmlilik arxetip funksiyaya müvafiq olaraq daha canlıdır.Bunu onların yerləşmə mövqeyi də təsdiqləyir.

“Beovulf”da əvəzliklərin təkrarı çox aktivdir.Onlar gah ayrıca, gah da birləşmə vəziyyətində təkrar olunur. Qeyd olunanleksemin birləşmə halında verilməsi harmonikəmsalın artmasına , ritmin , musiqililiyin güclənməsinə xidmət edir.

**890**.frêcnedæde; ne wäs him Fitela mid.
Hwäðre him gesælde, þätþätswurdþurhwôd
wrätlîcnewyrm, þät hit on wealleätstôd,
dryhtlîcîren; dracamorðreswealt.
†
Häfdeaglæca elnegegongen,( 8).

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT:

1.Abdullayev K.M.. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı Mütərcim 2012, 672 s.

2. Abdullayev K.M .Mifolinqvistikaya giriş. Bakı 2015.

3.Васильева, Юлия Витальевна .Повтор как принцип организации фольклорного текста: Лексико-синтаксический повтор в произведениях русского и англо-шотландского фольклора. https://www.dissercat.com › p....

4.Кухаренко В. А. Виды повторов и их стилистическое использование в произведениях Диккенса, канд. дисс., М., 1955. *261*.с

5. Kifayət Balay qızı Hacıyeva, Gülnarə Namiq qızı Rzayeva . Mürəkkəb sintaktik bütövdə leksik təkrarlar. 146 s. Bakı Mütərcim.2012.

6. Мелетинский Е.М.: Эдда и ранние формы эпоса. Повторы : http://svr-lit.ru › svr-lit › meletinskij-edda › povtory.

7. Məmmədov A. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi Bakı, 2001. s. 26-27.

8.Title: Beowulf Author: Unknown Editor: James A. Harrison Robert Sharp Release Date: October 12, 2003 [eBook #9700] [Most recently updated: April 11, 2021

9.Nibelunqlar:nəğməsi:www.hsaugsburg.de/~harsch/germanica/Chronologie/12Jh/Nibelungen/nib_b_00.html

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: professor. Azad Məmmədov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**İRADƏ TAHİROVA**
**NAİZƏ SALMANOVA**
**LALƏ MƏMMƏDOVA**
Heydər Əliyev adına Hərbi İnstitut.
Polad Həşimov küçəsi,18
missmelodiya62@mail.ru

# AUDIO-DİL METODU VƏ ONUN TƏTBİQİ YOLLARI

**Açar sözlər**: metod, dilçilik, bacarıq, təlim, struktur, vizual, aspekt, konstitusiya, effektiv, autentik, qavrama

**Key words:** method**,** Linguistics, skill, teaching, structure, visual, aspect, construction, effective, authentic, perception

**Ключавые слова :** метод, лингвистика,
способность, обучение, структура, визуально, аспект, конструкция, эффективно, аутентичный, восприятия.

**Xülasə**

**Audio-dil metodunun** başlanğıcı XX əsrin ortalarına təsadüf edir. Audio-dil metodu –ADM (*Audiolingual Method – ALM*) İkinci Dünya müharibəsi dövründə cəbhə xəttlərinə göndərilən döyüşçülərə ünsiyyət üçün (çörək almaq, məhbusları soruşmaq, əmr vermək, qızlarla görüşmək və s.) əsas lazımlı terminləri və ifadələri öyrətmək məqsədi ilə meydana gəlmişdir. Bu üsulun ilk nümayəndələri struktur dilçilər *Charles K. Fries* və *Robert Lado* olmuşdur. İngilis dilinin strukturunu, davranış və psixologiyasının əsas konsepsiyalarını nəzərə alaraq və struktur dilçi *B. F. Skinner*in nəzəriyyəsinə söykənərək bu dilçilər dinləmə və danışmağa üstünlük verən bir metod hazırlamışlar. Oxu və yazı isə arxa plana keçmişdir.

Bu metod dilçilikdə inqilab yaratmasına baxmayaraq, onun yaradıcıları kifayət qədər təcrübəli müəllimlər hazırlaya bilməmişdilər. Ona görə də bu metodun sinifdə tətbiqi bir sıra kəskin tənqidlərə məruz qaldı. "Audio-dil metodunun hazırlandığı və istifadə edildiyi dövrdə dilçilik elmi özünün körpəlik dövrünü yaşayırdı. Dilçilər bir-birinə bənzəyən müxtəlif məktəblər yaratmışdı. Lakin, zaman keçdikcə ADM daha da təkmilləşərək öz təsdiqini tapdı və aparıcı metodlardan biri oldu.Audio-dil metodu xarici dilin öyrənilməsində ən effektliv metodlardan biridir."[1,35] Bu metod tələbələrin dinləmə bacarıqlarını inkişaf etdirir. Audio-dil metodu danışma qabiliyyətini artırır. Audio-dil metodu tələbənin diqqətini dilin yeni formalarına, yəni lüğət, qrammatika və qarşılıqlı təsir strukturlarına cəlb etməyə kömək edir. Bu metod dili anlayaraq mənisəmək və digər dil bacarıqlarını inkişaf etdirmək üçün yol açır.

**Xarici dilin öyrənilməsində Audio-dil metodunun rolu**

ADM xarici dili qulaq asma yolu ilə öyrənmək üçün tanınmış elmi metoddur. ADM dinləmə dərslərində geniş istifadə olunan populyar metoddur. Dinləmə bacarıqlarının inkişaf etməsində ADM əhəmiyyətli dərəcədə rol oynayır. Xarici dilin öyrənilməsində ADM-i əhəmiyyətini dəstəkləyən üç əsas səbəb var:

**1.** Birincisi, yeni dil öyrənən ilkin mərhələdə bir körpənin ana dilini öyrənməyə başladığı prosessi keçir. O danışacağı dili əvvəl eşidir. Eşitmə yeni dili mənimsəmək üçün təbii bir prosess olub cox əhəmiyyətlidir. Linqvist Andervudun (1989) sözlərinə görə, uşaq danışma, yazma və oxu bacarıqlarını inkişaf etdirməzdən əvvəl dinləyərək çox sayda şifahi məlumat alır. Digər bacarıqlar; danışma, oxu, yazı sonralar inkişaf edir.

**2.** İkincisi, dinləmək danışma qabiliyyətini artırır. Danışıq dili qarşılıqlı əlaqə tələb edir. Eşitmə öyrənməyə mane olmur, əksinə, tələbələrin duyduqları dili anlaya bilməsi üçün stimul yaradır. Buna görə də yaxşı danışa bilmək üçün təlimin başlanğıc mərhələsində dinləmə bacarıqlarını inkişaf etdirmək lazımdır.

**3.** Sonda dinləmə məşğələləri tələbənin diqqətini dilin yeni formalarına, yəni lüğət, qrammatika və qarşılıqlı təsir strukturlarına cəlb etməyə kömək edir. Beləliklə, dinləyərək anlama dili mənisəmək və digər dil bacarıqlarının inkişaf etdirmək üçün doğru şərait yaradır.[2, 56-57]"

**Audio dil metodunun əsas xüsusiyyətləri**

- Yeni material dialoq şəklində təqdim olunur.
- ADM "Dil öyrənmək vərdişin formalaşmasıdır" prinsipini əsas tutaraq, bir çox ifadələri mimika və ya əzbərləmə yolu ilə yadda saxlamağı dəstəkləyir.
- Struktur ardıcıl və bir-bir öyrədilir.
- Struktur təsvirləri təkrar çalışmalarla öyrədilir.
- Qrammatika az şərh olunur və ya heç olunmur; qrammatika induktiv tədris olunur.
- Bacarıqlar ardıcıllıqla sıralanır: dinləmə, danışma, oxu və yazı.
- Lüğət olduqca məhduddur və kontekstdə öyrənilir.
- Öyrənmə punktları L1 və L2 arasındakı qarşılıqlı təhlil ilə müəyyən edilir.
- Dil laboratoriyaları, yazı lentləri və visual (görüntülü/əyani) vasitələrdən bolluca istifadə olunur.
- Kursun başlanğıcında ilkin oxunuşa cox vaxt verilir.
- Tələffüzün olduğu kimi səslənməsi böyük əhəmiyyət kəsb edir.
- Müəllim tərəfindən ana dilindən istifadə etməyə icazə verilir, lakin şagirdlərə tövsiyyə olunmur.
- Uğur əldə retmək, şagirdin səhv etməməsinin qarşısını almaq üçün cox diqqətli olmaq lazımdır. Tələbələrin səhvsiz cavab verməsi üçün böyük səy göstərilməlidir.
- Dilin hədəfinə çatmağa yönəlmiş bir tendensiya var.

**Audio dil metodunun texnikası**

● ***Dialoqun əzbərlənməsi. (Dialog Memorization)*** —

Tələbə mimika və ya "role-play"lə (rol oynamaqla) dialoqu əzbərləyir.

● ***Tərsinə qurmaq çalışması. (Backward Build-up)***

Müəllim cümləni bir neçə hissəyə bölür, tələbələr hər hissəsini sondan başlayaraq təkrarlayırlar, hər bir hissəni ardıcıllıqla sırayalaraq cümləni genişləndirirlər.

● ***Təkrarlama çalışması. (Repetition Drill)***

Tələbələr müəllimin modelini mümkün qədər tez və dəqiq şəkildə təkrarlayarlar.

● ***Zəncirvari çalışma. (Chain Drill)***

Şagirdlər dairəvi şəkildə zəncirvari bir-birlərindən soruşur və cavab verirlər.

● ***Bir boşluğun doldurulması. (Single Slot Substitution Drill)***

Müəllim, dialoqdakı cümlələrdən bir sözün və ya ifadənin yerini boş qoyur və açar sözü düzgün yerinə qoymaqla tələbələr cümləni tamamlayır.

● ***Bir neçə boşluğun doldurulması.*** **(*Multiple-slot Substitution Drill*)**

Tək boşluqlu çalışma kimidir, sadəcə burada bir neçə açar sözləri yerinə düzgün qoymaq lazımdır.

● ***"Çevirmə çalışması. (Transformation Drill)*** Müəllim bir cümlə verir. Tələbələr cümləni inkara, suala çevirir və ya tərsinə inkarı təsiqə və s. çevirir." [3, 43]

● ***Sual-cavab. (Question – and answer Drill)***

Tələbələr bir-birilə tez sual-cavab etməlidirlər.

● ***Cüt sözdən istifadə (Use of Minimal Pairs)*** Müəllim bir səslə fərqlənən cüt oxşar söz seçir. Tələbələr bu sözləri tələffüz edərək bir-birindən fərqləndirməlidirlər.

● ***Dialoqu tamamlayın. (Complete the dialog)*** Seçilən sözlər dialoqdakı cümlədən silinir - tələbələr bu sözləri tapıb yerinə qoymalıdırlar.

● ***Qrammatik oyunlar. (Grammar Games)*** Mətndəki qrammatikaya aid müxtəlif oyunlar qurulur və qrammatika praktik istifadə olunaraq təkrarlanır.

**Audio dil metodunun tətbiqi yolları**

'Dilin quruluşuna əsaslanan Audio-dil metodu üsulu təbii olaraq səsləri danışmaq üçün vacib baza hesab edir. Səslər olmasa danışmaq mümkün deyil. Bütün sözlər səslər əsnasında tələffüz olunur. Dünya dillərində 20-dən 100-ə qədər səs var. Sayın əhəmiyyəti yoxdur'[4,98]. Əsas onların mahiyyətini bilməlisiniz. Onlar necə yaranmışdır və necə işləyirlər, bu səslər birlikdə necə tələffüz olunurlar. Praktik tələffüzün düzgün olmasına diqqət cox vacibdir. Bunları bilmək mühümdir. Gəlin baxaq biz onları necə başa düşürük və tədrisdə necə tətbiq edirik.

● **'Səs sisteminin aydınlaşdırılması (Identifying the sound system)** Hədəf dilində danışmaq üçün bütün mövcud səslərin tam siyahısına ehtiyacınız yoxdur. Şagirdlərinizə kömək üçün ilk növbədə səsləri tələffüz etmək kifayətdir və sonra əsas səslərin izahını vermək olar. Bu səslərin mürəkkəb və ana dilində olmayan qrafik

görüntülərinin transkripsiyasını (oxunuşunu) verməkdən çəkinin. Bunun əvəzinə tələbələrin öz dilində istifadə etdiyi ekvivalent simvollardan istifadə edin. Məsələn, erkən mərhələdə ingilis dilində "th" hərf birləşməsinin çətin tələffüz olunan / θ /, / ð / səslərini Azərbaycan dilindəki “s”, "z" səsləri kimi transkripsiyada göstərmək olar.’[5,87]

● **Yanıltmaclardan istifadə (Using tongue-twisters**) Tələffüzü yaxşılaşdırmaq və gücləndirmək üçün yanıltmaclardan istifadə səmərəli nəticə verir. Tək səslərlə işləməkdən cümlələrə keçmək daha maraqlıdır. Yanıltmaclarla işləmək isə əyləncəlidir. Məsələn, bu səpkidə *It rains little, but as little as it rains, it rains enough.* (Yağış az yağır, az yağsa da kifayət qədərdir). Burada “l” və “r” səsləri məşq olunur.

● **Struktur üzrə praktik çalışmaların işlənməsi** ( **Structural Drilling Exercises**) Praktik çalışmalardan struktur nümunələrini öyrətmək üçün istifadə olunur: Bir sıra fənlərdə olduğu kimi, əsas konstruksiyalar üzrə təkrarlanan təcrübə sonradan improvizə iş üçün vərdiş və çeviklik yaradır. Audio-dil metodunda bu özünü cümlə struktur çalışmalarında göstərir. İşin məğzi:

İntonasiyaya diqqət etməklə bir sıra ifadələr əzbərlənir.
Grammatika şərhləri minimuma endirilir.
Lüğət kontekstdə öyrədilir
Audiovizual vasitələrdən istifadə olunur
Tələffüzə diqqət yetirilir.
Düzgün cavablar dərhal möhkəmləndirilir.

Struktur çalışmaları bir cox cəhətdən faydadlıdır:

a) Gələcəkdə cümlə deyimləri üçün səs apparatını gücləndirir
b) Strukturun manipulyasiyasında güclü vərdişlər yaradır
c) Gündəlik söhbətlər zamanı avtomatik cavablar bazası hazırlayır.

Bəs bu praktik çalışmaları necə əldə etmək, onları harada tapmaq olar? Ən birincisi öz sinif dərsliyinizdə. Əgər orada müvafiq çalışma olmasa onu özünüz də hər hansı bir dialoqdakı və ya tapşırıqlardakı cümlələrdən istifadə edərək düzəldə bilərsiniz.

Aadətən cümlə strukturlarında verilmiş sözün cümlədə düzgün yerinə məntiqlə qoyulması və sohrakı cümlələrdə onun digər bir sözlə əvəz olunmasıdır. Məsələn:

Teacher: I’d like a cup of coffee. *Tea*.
Students: I’d like a cup of *tea*.
Teacher: I’d like a cup of tea. *Milk*.
Students: I’d like a cup of *milk*.

Sonralar bu əvəzləməni genişləndirmək olar. Bu yolla müəllim hər bir səsi təkrar edərək diqqəti səsin düzgün tələffüzünə yönəldir. Bu artikulyasıyası problemli olan tələbələr üçün cox faydalıdır. Təkrarlama, dilin dinləmə aspektini gücləndirir və tələbələr tələffüz etdikləri cümlələri dərhal tanıya bilirlər. Belə məşq çalışmaları həm *warm-up* zamanı həm də konstruksiya və ya lüğətin təqdimatı zamanı müntəzəm

olaraq işlənməlidir. Lakin unutmayın ki, belə çalışmalara vaxt məhdudiyyəti qoymaq lazımdır; dərsin ancaq 10-15 faizini buna ayırmaq olar.

**● Dialoqla məşq (Dialogue Practice)**

Təbii ki, dilin konstruksiyasında səsdən, cümlədən sonrakı addım dialoqdur: iki və ya daha çox insan arasındakı məlumat mübadiləsi. Struktur linqvistlər bu söhbətlərin coxunun əvvəllər öyrənilən və tətbiq edilən strukturların bünövrəsi üzərində olduğunu tapdılar. Gündəlik dialoqlar yəqin ki, orijinal audio-linqual metodun sayəsində ən cox yadda qalanlarıdır. Müasir dil mətnlərinin çoxu dialoq materialları və tapşırıqlardan ibarətdir. Bəs hansı cür dialoqlardan istifadə etmək lazımdır? Dialoqlar müxtəlif qruplara bölünür. Lakin mən iki misalla kifayətlənəcəyəm:

***"Standard gündəlik dialoqlar*** – biz onları gündəlik həyatımızda hər gün dəfələrlə təkrar edirik. Bunlar salamlaşma, vidalaşma, hal-əhval tutma, üzr, xahiş və bazarlıq dialoqlarıdır"[6,27]. Standard gündəlik dialoqlar asanlıqla əvvəlki cümlədən inkişaf edərək davam edir. Bu dialoqlar qısa və yatımlı olmalıdır. Hər bir tələbə 3-5 cümlə işlətməlidir. Məsələn:

S1: Good morning.
S2: Hello.
S1: How much are the tomatoes?
S2: 3.50 azn a kilo.
S1: Oh! That's cheap! I'll take three kilos.
S2: Good. That will be 11.50 azn.
S1: Here you are.
S2: And here's your change. Thank you.
S1: Thank you! Goodbye.
S2: Goodbye.

Bu tip dialoq - tapşırıqları "vağzalda", "poçtda" və s. mövzularla da işləmək olar. Bu diloqların oynanılması (*role-play*) daha məqsədəuyğundur.

**İmprovizə *olunan dialoqlar***. (*Improvisational dialogue*) practice. İmprovizə olunan dialoqlar *mürəkkəb* dialoqlardır. İki şəxsin söhbətinə qatılan olduqda bu dialoqlar debata, diskussiyaya çevrilir. Bu cür dialoqlar dili işlətməkdə tələbələrə daha cox sərbəstlik verir. Belə dialoqların role play-i də mürəkkəb olur.

**Audio dil metodu hansı materiallarla işləyir**

ESL dərslərində dinləmə qabiliyyətlərini inkişaf etdirmək üçün ingilis dilində istifadə olunan effektiv material tədris metodunun vacib aspektidir.

***"Autentik materiallar*** (*Authentic materials*). İkinci bir dil (ESL) kimi ingilis dilində dinləyərək qavrama qabiliyyətini öyrənmək üçün autentik (original/real) materiallardan istifadəyə dair araşdırmalar aparılmışdır. Həmçinin, sinif müşahidəsi və tələbələrlə müsahibələr təhlil edilmişdir. Nəticədə bəlli olmuşdur ki, autentik materiallarla işlədikdən sonra, tələbələrin dinləmə qabiliyyətləri daha yüksək

səviyyəyə çatır. ESL dərslərində autentik materialların istifadəsi ESL tələbəsinin dil öyrənmək motivasiyasını artırır. *"[7, 38-39]*

***Video materiallar.*** Texnologiya tədris metodlarında getdikcə əhəmiyyətli rol oynayır. Tələbələrin dinləyərək qavrama qabiliyyıtini yaxşılaşdırmaq üçün müəllimlər ESL dərslərində müxtəlif *video materiallardan* istifadə edır**.** Bu materiallar xüsusilə ali məktəb tələbələrinin dinləmə yolu ilə qavrama bacarıqlarının inkişafında vacibdir. İki qrup arasında apardığım araşdırmalar zamanı buna bir daha əmin oldum. 7 həftə ərzində onlar audio-dil metodu ilə keçirilən dərslərdə 20 dəfə audio teypskriptlərə qulaq asmış, autentik video materialları izləmişlər. Eksperimental qrupun tələbələri yüksək nəticələr əldə etmişlər. (Cədvəl 1)

| | **Skills** (bacarıqlar) | **I qrup (eksperimental)** | **I I qrup** |
|---|---|---|---|
| 1 | Listening (dinləmə) | 99% | 70% |
| 2 | Reading (oxu) | 92% | 84% |
| 3 | Speaking (danışma) | 96% | 80% |
| 4 | Writing (yazı) | 89% | 83% |

Cədvəl 1

Eksperimental qrupun tələbələri bu materiallarla öyrənməni yüksək dəyərləndirmişlər. Belə ki, sorğunun cavablarına əsasən audio materiallara üstünlük verənlərin yəni, ADM-lə keçirilən dərslərə maraq göstərənlərin sayı 99% olmuşdur. [8,33]

| **Say** | **Qiymətləndirmə** | **Faizl** | **Nəticə** |
|---|---|---|---|
| 1 | Mən dərsliyə deyil audio materiallara üstünlük verirəm. | 96% | Cox yaxşı |
| 2 | Audio materiallar məni sinfdən xaric dinləmələrə və dil öyrənməyə həvəsləndirir. | 84% | Yaxşı |
| 3 | Dərslikdəki sadə audio dinləmələr məni qane etmir. | 80% | Yaxşı |
| 4 | Əvvəlki audio dərslərdə öyrəndiyim açar sözlər sonralar köməyimə çatır. | 78% | Yaxşı |
| 5 | Video materiallardakı başlıq və titrlər dili öyrənməyimə yardım edir. | 92% | Yaxşı |
| 6 | Autentik video materiallar sadələrdən daha maraqlıdır. | 95% | Yaxşı |
| 7 | Audio və video materiallar dildən real həyatda necə istifadə etməyi öyrədir. | 89% | Yaxşı |
| 8 | Audio və video materiallar eşidərək qavrama qabiliyyətimi və danışma bacarığımı arrtırır. | 96% | Yaxşı |

| | | | |
|---|---|---|---|
| 9 | Audio və video materiallar original kontekstdə qrammatik qaydalarla tanışlığıma təkan verir və lüğət ehtiyatımı artırır. | 88% | Yaxşı |
| 10 | Audio dərslərdə müəllim video materiallardan istifadə etdikdə dil öyrənməyə marağım və həvəsim olur. | 99% | Cox yaxşı |

Cədvəl 2

Nəticə göstərdi ki, video materiallarla öyrənən qrupun tələbələrinin dinləmə üsulu ilə qavrama bacarıqları digər qrup tələbələrinə nisbətdə artmış və dərsi yaxşı mənimsəmişlər. Tələbələr dilin video materiallarla öyrədilməsində daha maraqlıdırlar. Bu onları stimullaşdırır və motivasiyalarını artırır.İngilis dilinin eşitmə üsulu ilə qəbul edilməsi ən vacib bacarıqlardan biridir, çünki ünsiyyət iki tərəfli olmalıdır və bunun üçün həmsöhbətini mütləq başa düşmək lazımdır. Müəllim bu bacarıqların inkişafına kömək etməlidir. Şübhəsiz dialoq və mətnlər, audio materialları olan bir diskdən. radio proqramladan və filmlərdən, video materiallardan hər dərsdə istifadə etmək kifayət deyil. Bu bacarığı kifayət qədər yüksək səviyyədə inkişaf etdirmək üçün, kənar vaxtlarda da tələbələrin bu cür materiallara qulaq asması lazımdır. Audio dil metodu ingilis dilinin tədrisi metodikasında kommunikativ bacarıqlara hədəflənmiş mühüm addımdır..

Eşitmə nadir hallarda öyrədilən dil öyrənmə qabiliyyətidir. Məktəbdə şagirdlər əsasən danışma, oxumaq və yazmağı öyrənir, lakin ümumiyyətlə, dinləməyə fikir verilmir. Ona görə də bu yük ali məktəb müəllim və tələbələrinin üzərinə düşür. ADM metodundan ustalıqla istifadə edən müəllim, çox bacarıqlı tələbə yetişdirə bilər.

**I.Tahirova, N.Salmanova,L.Mammadova**

## AUDIO-LANGUAGE METHOD AND WAYS OF ITS APPLICATION

**SUMMARY**

The article deals with audio-lingual method and its implement in the class using audio- video materials. The article gives full description of ALM including its 1) history 2) specific features 3) typical techniques 4) ways of appliance 5) type of activities and materials used. The author points out the importance of ALM in teaching English. The article also maintains the author's study of using video materials. The author states that the use of video material is widely employed as an instrument to practice listening skill in English language learning.[9,44] For these reasons, the aim of this study was to gain an understanding of the effects of using video materials in the development of listening skills in an ESL classroom. The purposes of this study were 1) to develop the listening skills of the students studying

English through using audio and video materials and to evaluate students' attitudes towards using audio-video materials in teaching listening skills. The sample of the student population for this study were first-year students in the second semester of the academic year 2017. Two groups were selected by simple random sampling. The study was conducted over 20 teaching periods. The instruments used in this study were 1) lesson plans 2) English comprehension tests and 3) a questionnaire of the students' attitude. The result indicated that 1) the students' English listening comprehension ability increased significantly after learning with audio-video materials using audio-lingual method and students had positive attitudes towards using videos in teaching listening skills.

**И.Тахирова, Н.Салманова,Л.Мамедова**

## АУДИОЯЗЫКОВЫЙ МЕТОД И СПОСОБЫ ЕГО ПРИМЕНЕНИЯ

**РЕЗЮМЕ**

В статье рассматривается аудио-язычный метод и его реализация в классе с использованием аудио-видео материалов. В статье дается полное описание ALM (аудио-языковой метод), включая его 1) историю 2) специфические особенности 3) типичные методы 4) способы применения 5) тип используемых видов деятельности и материалов. Автор указывает на важность ALM в преподавании английского языка.[10,88] В статье также содержится авторское исследование использования видеоматериалов. Автор утверждает, что использование видеоматериалов широко используется в качестве инструмента для обучения навыкам слушания в изучении английского языка. По этим причинам цель этого исследования заключалась в том, чтобы получить представление о влиянии использования видеоматериалов на развитие навыков слушания в классе ESL. Целями этого исследования были: 1) развивать навыки слушания студентов, изучающих английский язык с использованием аудио- и видеоматериалов и оценивать отношение студентов к использованию аудио-видеоматериалов при обучении навыкам слушания. Участники этого исследования были студенты первого курса во втором семестре учебного года 2017. Две группы были выбраны с помощью простой случайной выборки. Исследование проводилось в течение 20 учебных периодов. Инструменты, используемые в этом исследовании, были: 1) планы уроков; 2) тесты на английском языке и 3) вопросник об отношении студентов. Результат показал, что 1) способность слушателей по изучению английского языка значительно увеличилась после обучения аудио-видеоматериалами с использованием аудио-языкового метода, и у студентов было положительное отношение к использованию видео в обучении навыкам прослушивания.

## ƏDƏBİYYAT

1.Anderson, D. R., Alwitt, L. F., Lorch, E. P., & Levin, S. R. (1979). Watching children watch television. New York: Plenum.

2.Krashen, S. (1989). Language acquisition and language education. London: Prentice Hall

Revel Arroway

3 .Fresh Ways to Use the Audio-lingual Method in Your Class Modern Language Journal, 78, 190-198.

4.Underwood, M. (1989): Teaching Listening. London: Longman.

Najmaddinova, S. H. (2011) Second language Teaching Methods; Principles and Procedures. Azərbaycan Respublikası TƏHSİL MƏRKƏZİ Borçalı Nəşriyyatı

5.Habibi, P., Jahandar, S. (2013). Teaching phonetic symbols on Iranian EFL learner's listening comprehension. Indian Journal of Fundamental Life Sciences

6.Buck, G. (2001). Assessing listening. Cambridge: CUP. Central Bureau of Statistics. Thanajaro, M. (2000). Using authentic materials to develop listening comprehension in the English as a Second Language Classroom. Virginia State University.

7.Nunan, D. (1998). Language teaching methodology. Kuala Lumpur: Pearson Education.

8..Guariento, W., & Morley, J. (2001). Text and task authenticity in the EFL classroom.. http://dx.doi.org/10.1093/elt/55.4.347

9.Nunan, D. (2003). Listening in a second language. The English Centre, University of Hong Kong. Retrieved September 22, 2013,

10.Maneekul, J. (2002). Use of authentic material and tasks to enhance English Listening Skill for undergraduate students Chiang Mai University.

11.Meskill, C. (1996). Listening skills development through multimedia. Journal of Educational

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: f.f.d, dosent Əsədova M**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**SÜLEYMANOVA GÖYÇƏK EYNUR QIZI**
**Bakı Dövlət Universiteti Azərbaycan dilçiliyi kafedrasının magistrantı**
**E-mail: goycek.suleymanova.2000@gmail.com**

# FEİLİ SİFƏTİN MORFOLOJİ XÜSUSIYYƏTLƏRİ

Feillər qeyri-predikativ feil formalarına məxsus şəkilçiləri qəbul etdikdən sonra başqa nitq hissələrinə yaxınlaşır və bir sıra xüsusiyyətlərindən məhrum olur. Qeyri-predikativ feil formalarından biri olan feili sifət feilin hibrid forması olaraq həm feilin, həm də sifətin xüsusiyyətlərini daşıyır. Feili sifət də sifət kimi əşyanın əlamətini bildirir, lakin bu əlamət hərəkətlə bağlıdır. Feili sifət hər iki nitq hissəsinin xüsusiyyətlərini daşısa da, feilə məxsus xüsusiyyətlər, hərəkət məzmunu daha ön plandadır. Feili sifət atributivləşmiş feildir, ona feilin atributiv-adyektiv forması da deyilir.

Feili sifətlərlə predikativ feillərin ortaq xüsusiyyətləri bunlardır: 1) iş, hərəkət, hal-vəziyyət bildirir. Əsasən, bu xüsusiyyət feili sifətin feil bəhsində öyrənilməsinə təkan verir. 2) təsirli və təsirsiz olur: kitabı (nəyi?) oxuduğum zaman; məktəbə (haraya?) gedən uşaq və s. 3) təsdiq və inkarda olur: baxdığım (baxmadığım) film. 4) növ kateqoriyasının şəkilçilərini qəbul edə bilir: yazılmış (məchul) məktub; açılan (qayıdış) səhər və s. 5) ətrafına söz toplaya bilir. Bu zaman feili sifət tərkibləri əmələ gəlir: *Kərbəlayının plov yeməkdən böyüyən* ağzı elə geniş açılmışdı ki (2, s, 37). 6) zərflərlə bağlı olur: Mən də yuxudan *indicə oyanmış* kimi, gözümü ovuşdura-ovuşdura qalxım (2, s, 40). Feili sifətlərlə sifətlərin ortaq xüsusiyyətləri bunlardır: 1) aid olduğu sözdən əvvəl gələrək əlamət, keyfiyyət bildirir və sifətin suallarına (necə?, nə cür?, hansı?) cavab verir. Fərq burasındadır ki, sifətlər əşyanın daimi əlamətini, feili sifətlər isə müvəqqəti əlamətini bildirir (5, s, 184). 2) sintantik vəzifəsinə görə təyin vəzifəsində çıxış edir. 3) substantivləşə bilir və bunun nəticəsində cümlədə mübtəda, tamamlıq, bəzən də zərflik vəzifəsində çıxış edir.

Feili-sifətlər uzun müddət bir qrup kimi fərqləndirilməmiş gah feillərin, gah da feildən əmələ gələn düzəltmə sifət kimi sifətlərin daxilində öyrənilmişdir, bu da feili-sifətlərin ikili xüsusiyyətindən irəli gəlir. Feili sifət zaman kateqoriyasının şəkilçilərini qəbul etməsə də, qəbul etdiyi xüsusi şəkilçilər vasitəsilə zaman anlayışı ifadə edir. Feili sifət şəkilçiləri aşağıdakılardır:

1. *-an (-ən)* şəkilçili feili sifətlər indiki zaman məzmunu ifadə edir. Bu şəkilçi yeganə omonimi olmayan feili sifət şəkilçisidir. Feilin bütün məna növlərinə artırıla bilir: İmran kişnəyə-kişnəyə *qaçan* (məlum) atı görəndə təəccübləndi (7, s, 211). Aram-aram *vurulan* (məchul) zəng səsi onu fikirdən ayırdı (7, s, 13). Onlar yenicə *açılan* (qayıdış) güllərdən daha təravətli olurdular (7, s, 14). İçəridə oynayıb-*gülüşən* (qarşılıq) uşaqlarına acıqlandı (7, s, 41). Görünür, nə vaxtsa bu binanı *tikdirən* (icbar) "Şəkər kişi" heç nəyi nəzərə almamışdı (7, s, 357). *-an*[2] şəkilçili feili sifətlər zaman

zərfləri (sabah, dünən və s.) ilə birlikdə bəzən keçmişə və gələcəyə aid olaraq ümumi zaman da bildirir: Dünən kənddən *gələn* (gəlmiş) bir gənc haqqında, onun taleyi haqqında söhbət gedir (2, s, 202). Sabah *gələn* (gələcək) qonaqları yaxşı qarşılayarsınız (2, s, 74).

*-an*$^2$ şəkilçili feili sifətlərin ətrafına söz toplayaraq tərkib əmələ gətirmək xüsusiyyəti də vardır. Əsas sintaktik vəzifəsi təyin olsa da, substantivləşərək mübtəda, tamamlıq, xəbər və zərflik ola bilir. Mənə elə gəldi ki, ayağa qalxıb *görüşənlər* (mübtəda) daha mötəbər adama oxşayırlar (2, s, 31). Həmin il Moskva məktəblərində respublikalardan *gələnlərə* (tamamlıq) çox yer ayrılmışdı (2, s, 131). O, çox *danışandır* (xəbər) (2, s, 58). *-an*$^2$ şəkilçili feili sifətlər *kimi, qədər* qoşmaları ilə işlənərək cümlədə zərflik vəzifəsində də çıxış edə bilir: Bakıya *çatan kimi* hamama qaçdım (2, s, 27). Nadirə məktəbi *qurtarana qədər* təqaüd kəsilir, danışmışıq (2, s, 162). Bu qoşmalarla birlikdə feili sifətlər zaman və tərz mənaları ifadə edir. *-an*$^2$ şəkilçili feili sifətlər şəxs şəkilçisi qəbul etmir, lakin şəxs əvəzlikləri ilə birlikdə bu məzmunu ifadə edə bilir: Mən yazan, sən baxan və s. Bu mövqedə *-an*$^2$ şəkilçisi mənsubiyyət kateqoriyasında işlənə bilən *-dıq*$^4$ şəkilçisi ilə əvəz oluna bilər: mən yazdığım, sən baxdığın və s.

*-anda*$^2$ və *-andan*$^2$ feili bağlama şəkilçilərinin mənşəyinin *-an*$^2$ feili sifət və hal şəkilçilərinin birləşməsindən yarandığı haqqında fikirlər irəli sürülsə də, bu şəkilçilər fərqli məzmunlar ifadə edir: Evə *gələndən* səbəb soruşmazlar (2, s, 192). Ramiz oxumağa *gələndən* üç dəfə otağını dəyişmişdi. (2, s, 133). I nümunədə *gələndən* sözü feili sifətdir, -an$^2$ və -dan$^2$ şəkilçisinin birləşməsindən ibarətdir, əslində çıxışlıq hallı isim ixtisar olunmuşdur (gələn adamdan). II nümunədəki *gələndən* sözü isə feili bağlamadır və zaman məzmunu ifadə edir.

2. *-ar (-ər)* şəkilçili feili sifətlər, əsasən, indiki zaman məzmunu ifadə edir. Məlum növdə olan feillərə artırılır: Sahildə dayanıb üfüqdəki dağlara, *axar* sulara baxdığımızı (7, s, 202). Bu şəkilçinin inkar forması olan *-maz (-məz)* daha çox işləkdir və imkanları genişdir. İmkanlarının genişliyi özünü təsdiq formadan fərqli olaraq, müxtəlif məna növlərində işlənə bilməsində göstərir: Özünüz də qiymətli nəyiniz varsa, *əlçatmaz*, *gözgörməz* (məlum) yerlərdə gizlədin (7, s, 344). Kosaoğlu *çıxılmaz* (məchul) vəziyyətə düşsə də, özünü sındırmadı (7, s, 122). Bu şəkilçinin inkar forması olan *-maz*$^2$ şəkilçili feili sifətlər substantivləşə, tərkib yarada və cümlədə mübtəda, tamamlıq, xəbər vəzifəsində çıxış edə bilir: Bu *qanmazı* (tamamlıq) hardan gətiriblər bura (2, s, 182). Şamxal tərsdir, tüpürdüyünü yalayan deyil, dediyindən *dönməzdir* (xəbər) (8, s, 391).

Bu şəkilçinin leksik imkanları da genişdir. *-ar*$^2$ şəkilçisi qeyri-qəti gəkəcək zaman şəkilçisi ilə omonimlik təşkil edir. *-ar*$^2$ şəkilçisinin inkar forması olan *-maz*$^2$ şəkilçisi də eyni qayda üzrə qeyri-qəti gələcək zamanın inkar forması ilə omonimlik təşkil edir. Qeyri-qəti gələcək zaman şəkilçisi kimi fikir bitkinliyi, nəticə, hökm bildirdiyinə görə bu şəkilçiləri fərqləndirmək elə də çətin deyil. Bu iki şəkilçi eyni sözün tərkibində feili bağlama şəkilçisi kimi özünü göstərir: Kişi gözünü *yumar-*

*yummaz* qulağına gələn bir səs onu diksindirib yerindən qaldırardı (7, s, 276). Sinonimlik imkanlarından danışsaq bəzi situasiyalarda -an şəkilçisi ilə bir-birini əvəz edə bilir: Həvəslə, eşqlə, *gülər* (gülən) üz, şirin dillə gəlmiş, rəsmi, soyuq xudahafizlə getmişdilər (2, s, 369).

3. *-mış (-miş, -muş, -müş)* şəkilçili feili bağlamalar keçmiş zaman məzmunu ifadə edir. Bütün məna növlərində olan feillərə artırıla bilir: Sən *oxumuş* (məlum) adamsan (2, s, 252). Vərəqədə *yazılmış* (məchul) bir cavabın üstünə barmaq basdı (2, s, 199). *Döyüşmüş* (qarşılıq) sərkərdələr yaralandı (8, s, 77). Ağ buludlara *bürünmüş* (qayıdış) Göyəzən dağının zirvəsinə və Avey tərəflərə baxdı (7, s, 359). İşlərini başqasına *gördürtmüş* (icbar) birindən necə acıq çıxa bilərdi (7, s, 17). *-mış*[4] şəkilçili feili sifətlər də ətrafına söz toplayıb tərkib əmələ gətirərək cümlədə mübtəda, tamamlıq, xəbər və zərflik vəzifəsində çıxış edir. Diri ikən *ölmüşlər* (mübtəda) (4, s, 226). Sən Kosaoğlunun kəndçi olmasına baxma, çox *oxumuşları* (tamamlıq) yorub yolda qoyar (7, s, 83). O, uşaqlar arasında ən *oxumuşudur* (xəbər). *-mış*[4] şəkilçili feili sifətlər qoşma ilə işlənərək zərflik də olur: Boğazı *tikilmiş* kimi səsi çıxmadı, dili dönmədi (2, s, 308).

Nəqli keçmiş zaman, *imiş* hissəciyinin ixtisarı, feildən isim düzəldən sifət şəkilçiləri ilə omonimlik təşkil edir. *-mış*[4] şəkilçili feili sifətlərin inkarda işlənən forması ilə *ma+mış* formalı feili bağlamalar formaca oxşarlıq təşkil etsə də, onları bir-birindən fərqləndirən bir sıra cəhətlər vardır. O, geri qayıdıb yerində *oturmamış* (feili bağlama) Kazım özünü içəri saldı (7, s,158). *Çağırılmamış* (feili sifət) qonaq.

4. *-dıq (-dik, -duq, -dük)* şəkilçili feili sifətlər də keçmiş zaman məzmunu yaradır. Bu şəkilçili feili sifətlər, həmçinin, mənsubiyyət kateqoriyasının bütün şəxslər üzrə şəkilçisini qəbul edir. Təklikdə isə heç bir məna ifadə etmir. Feilin bütün məna növlərində işlənə bilir: *Saydığım* (məlum) yerlərdən azad olunmasanız, sabah işə buraxılmayacaqsınız (2, s, 66). Mənim *döyüşdüyüm* (qarşılıq) adam mənə qəhmər çıxır (8, s,17). *Bəzəndiyimiz* (qayıdış) otaq çox gözəl idi. *Yazdırtdığım* (icbar) məktub.

Bu şəkilçi ilə düzələn feili sifətlər substantivləşərək cümlədə mübtəda, tamamlıq, xəbər, zərflik vəzifəsində işlənə bilir. Verdiyevin *dedikləri* (mübtəda) Vəzirbəylini qəzəbləndirdi (2, s, 358). Nə olar ki, *aldıqlarınızı* (tamamlıq) açmamış evə gətirəsiniz (2, s, 115). Bu güllər onun *gətirdiyidir* (7, s, 88). Qoşmalarla işlənərək tərz, zaman, səbəb zərfliyi ola bilir: Başqalarına *baxdığım* kimi baxa bilmirəm (2, s, 152). *An, vaxt, zaman* sözləri ilə birləşərək zaman zərfliyi vəzifəsində işlənir. Təbiət seyrinə *daldığım* vaxtda da məni tərk etmir (2, s, 152). Bu məqamda zaman bildirən *-dıqda*[4] feili bağlama şəkilçisi ilə əvəz oluna bilir: Təbiət seyrinə *daldıqda* da məni tərk etmir.

5. *-acaq (-əcək)* şəkilçili feili sifətlər gələcək zaman məzmunu ifadə edir. Feilin bütün məna növlərinə artırıla bilir: *Savaşacaq* (məlum) adam belə davranmaz. Gəldiyevə Bayılda fəhlə uşaqlarına *tikiləcək* (məchul) bağçanın layihəsini verdilər (2, s, 311). Artıq sənin üçün *döyünəcək* (qayıdış) ürəyim yoxdur. Ətrafında *deyişəcək*

(qarşılıq) kimsə qalmadı. Yazısını *yazdıracaq* (icbar) adam tapmadı. *-acaq*[2] şəkilçisi də *-dıq*[4] şəkilçisi kimi mənsubiyyətə görə dəyişə bilir: *Gedəcəyi* yeri əvvəlcədən planlamışdı. Digər feili sifət şəkilçiləri kimi substantivləşə və cümlədə mübtəda, tamamlıq, xəbər vəzifəndə çıxış edə bilir: Məclisə *çağırılacaqlar* (mübtəda) artıq gəlmişdi. Sabah *yazılacaqlara* (tamamlıq) da nəzər yetirdim. Kənara qoyduqlarım *atılacaqlardır* (xəbər).

Qeyri-qəti gələcək zaman, feildən düzələn isim şəkilçiləri ilə omonimlik təşkil edir. Bu şəkilçini -caq feili bağlama şəkilçisi ilə qarışdırmamaq lazımdır. Zeynəbi *görcək* sərdiyi paltarı tez yığışdırıb gizlətmək istədi (7, s, 207). *Görcək* feili bağlaması zaman məzmunu ifadə edir (görən zaman). Bəzi məqamlarda gələcək zaman məzmunu ifadə edən *-asɪ*[2]*, -malɪ*[2] şəkilçiləri ilə bir-birini əvəz edə bilir: görüləcək (görüləsi, görülməli) iş.

6. *-malɪ (-məli)* şəkilçili feili sifətlər gələcək zaman məzmunu ifadə edir. Feilin bütün məna növlərində işlənə bilir. Substantivləşərək mübtəda, tamamlıq, xəbər ola bilir. Leksik imkanlarından bəhs etsək, feilin vacib şəkli ilə omonimliyini qeyd edə bilərik: Bunlar *inanmalı* zənlər deyil (2, s, 88). Bu firon uşaqlar indi kağız kimi *qatlanmalı* (2, s, 179). 2-ci nümunədə feilin vacib şəkilçisi kimi işlənmişdir və bu məqamda *olmaq* feilini müxtəlif zamanlarda vacib şəkildən sonra işlətmək olur və şəxsə görə dəyişə bilir (qatlanmalı oldu, qatlanmalıdır). Feili sifət şəkilçisində isə bu hal mümkün olmur.

7. *-asɪ (-əsi)* şəkilçili feili sifətlər də gələcək zaman məzmunu ifadə edir. Feilin bütün məna növlərində işlənə bilir. Substantivləşərək mübtəda, tamamlıq, xəbər ola bilir. Leksik imkanlarından bəhs etsək, feilin lazım şəkli ilə omonimliyini qeyd edə bilərik: *Görüləsi* işlər çoxaldı. Bugün evə tez *gedəsidir*. Feilin lazım şəkli kimi çox zaman şəxs sonluğu ilə işlədilir.

**ƏDƏBİYYAT:**

1. Azərbaycan dilinin qrammatikası. Bakı: Azərb. SSRİ EA-nın nəşri, 1960, 334 s.
2. Cəlal M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
3. Haqverdiyev Ə. Seçilmiş əsərləri. I cild. Bakı: Lider nəşriyyat, 2005, 504 s.
4. Haqverdiyev Ə. Seçilmiş əsərləri. II cild. Bakı: Lider nəşriyyat, 2005, 408 s.
5. Hüseynzadə M. Müasir Azərbaycan dili, Bakı: Şərq-Qərb, 2007, 280 s.
6. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya, Bakı: Nurlan, 2010, 400 s.
7. Şıxlı İ. Seçilmiş əsərləri. I cild. Bakı: Şərq-Qərb, 2005, 408 s.
8. Şıxlı İ. Seçilmiş əsərləri. II cild. Bakı: Şərq-Qərb, 2005, 400 s.
9. Zeynalov F. Türk dillərinin müqayisəli qrammatikası, Bakı: MBM, 2008, 354 s.

**Süleymanova Göyçək**

## Feili sifətin morfoloji xüsusiyyətləri

**Xülasə**

Qeyri-predikativ feil formalarından biri də feili sifətdir. Feili sifətlər feilin hibrid forması olaraq feilin və sifətin xüsusiyyətlərini daşıyır. Feili sifət feildir, hərəkət məzmunu ifadə edir, təsdiq və inkarda işlədilir, təsirli və təsirsiz olur, müxtəlif qrammatik məna növlərində işlədilir, ətrafına söz toplaya bilir. Lakin şəxsə, zamana, şəklə görə dəyişə bilmək kimi bəzi feil xüsususiyyətlərindən məhrumdur. Feili sifətlər sifət kimi aid olduğu isimdən əvvəl gələrək onu izah edir, əşyanın əlamətini bildirir. Sifətin suallarına cavab verir və cümlədə təyin vəzifəsində çıxış edir. Feili sifətlərin substantivləşə bilməsi, bunun nəticəsində də, cümlədə mübtəda, tamamlıq, xəbər ola bilməsi sifətlərlə ortaq cəhətlərindəndir. Bəzi feili sifətlər qoşmalarla işlənərək cümlədə zaman, tərz zərfliyi vəzifəsində də çıxış edə bilir. Feili sifət zaman kateqoriyasının şəkilçilərini qəbul etməsə də, xüsusi şəkilçilər vasitəsilə zaman anlayışı ifadə edir. Feili sifətlərin morfoloji xüsusiyyətləri olduqca genişdir. “-an$^{2}$”, “-ar$^{2}$”, “-mış$^{4}$”, “-dıq$^{4}$”, “-acaq$^{2}$”, “-ası$^{2}$”, “-malı$^{2}$” şəkilçilərini qəbul edərək feili sifətlər fərqli məzmunlar qazanır. “-an$^{2}$”, “-ar$^{2}$” şəkilçiləri indiki zaman, “-mış$^{4}$”, “-dıq$^{4}$” şəkilçiləri keçmiş zaman, “-acaq$^{2}$”, “-ası$^{2}$”, “-malı$^{2}$” şəkilçiləri isə gələcək zaman məzmunu ifadə edir. Bəzi şəkilçilərin leksik imkanları da genişdir, yəni həm öz aralarında sinonimlik təşkil edərək bir-birini əvəz edə bilir, həm də feilin digər kateqoriyalarının və müxtəlif nitq hissələrinin şəkilçiləri ilə omonim olur. Bəzi feili sifət şəkilçiləri feili bağlama şəkilçiləri ilə formaca oxşarlıq təşkil etsə də, onlar fərqli məzmunlar ifadə edir. Hər iki nitq hissəsinin xüsusiyyətlərini daşımasına baxmayaraq, feili sifətlərdə feilə məxsus xüsusiyyətlər daha qabarıqdır. Feili sifət əşyanın əlamətini bildirsə də, bu əlamət hərəkətlə bağlıdır.

**Açar sözlər: feil, feili sifət, şəkilçi, zaman, substantivləşmə**

**Suleymanova Goychek**

## Morphological features of participle

**Summary**

One of the non-predicative forms of the verb is the participle. Participle as a hybrid form of the verb has the features of a verb and an adjective. Participle is a verb, expresses the content of the action, used in affirmation and negation, transitive and intransitive, used in different types of grammatical meaning, can gather words around. But is deprived some features of the verb such as being able to change according to person, tense, mood. Participle come before noun to which it belongs as an adjective and explain it, indicates the sign of the thing. Answers the questions of the adjective and and in the sentence it acts as a defining. That the participle can be substantivized, as a result of It is one of the features in common with the adjective that it can contain subject, predicate and object in the sentence. Some participles are

used with conjunctions, in the sentence act as time and manner adverbs. Although the participle does not accept tense category suffixes, expresses the concept of time through special suffixes. Morphological features of participle are quite wide. “-an$^{2}$”, “-ar$^{2}$”, “-mış$^{4}$”, “-dıq$^{4}$”, “-acaq$^{2}$”, “-asɪ$^{2}$”, “-malɪ$^{2}$” by accepting suffixes, participle acquire different contents. The suffixies “-an$^{2}$”, “-ar$^{2}$” indicate the present tense, “-mış$^{4}$”, “-dıq$^{4}$” suffixes indicate the past tense, and “-acaq$^{2}$”, “-asɪ$^{2}$”, “-malɪ$^{2}$” suffixes indicate the future tense. The lexical possibilities of some suffixes are also wide, i.e they can replace each other by forming synonyms among themselves, also becomes homonymous with suffixes of other categories of verbs and different parts of speech. Although some participle suffixes are similar to adverbial participle suffixes, they express different contents. Despite having the features of both parts of speech, the features of the verb are more noticeable in the participles. Although the participle indicates the sign of the object, this sign is related to the action.

**Key words: verb, participle, suffix, tense, substantivization**

**Сулейманова Гойчек**

**Морфологические особенности причастие**

**Резюме**

Одной из непредикативных форм глагола является причастие. Причастие как гибридная форма глагола имеет особенности глагола и прилагательного. Причастие это глагол, выражает содержание действия, употребляется в утверждении и отрицании, переходном и непереходном, употребляется в разных видах грамматического значения, может собирать вокруг себя слова. Но лишен некоторых особенности глагола, таких как способность изменяться в зависимости от лица, времени, наклонения. Причастие стоит перед существительным, к которому оно относится, как прилагательное и поясняет его, указывает на признак вещи. Отвечает на вопросы о прилагательном и и в предложении выступает в качестве определяющего. То, что причастие может быть субстантивировано, в результате оно является одним из общих признаков с прилагательным, заключающимся в том, что оно может содержать в предложении подлежащее, сказуемое и дополнение. Некоторые причастия употребляются с союзами, в предложении выступают как наречия времени и образа действия. Хотя причастие не принимает суффиксов категории времени, оно выражает понятие времени через специальные суффиксы. Морфологические особенности причастия достаточно широки. “-an$^{2}$”, “-ar$^{2}$”, “-mış$^{4}$”, “-dıq$^{4}$”, “-acaq$^{2}$”, “-asɪ$^{2}$”, “-malɪ$^{2}$” принимая суффиксы, причастия приобретают разное содержание. Суффиксы «-an$^{2}$», «ar$^{2}$» указывают на настоящее время, суффиксы «-mış$^{4}$», «-dıq$^{4}$» указывают на прошедшее время, а суффиксы «-acaq$^{2}$», «-asɪ$^{2}$», «-malɪ$^{2}$» указывают на будущее время. Лексические возможности некоторых суффиксов также широки, т.е. они могут замещать друг друга, образуя собой между синонимы, омонимизироваться также с

суффиксами других категорий глаголов и разных частей речи. Хотя некоторые суффиксы причастия похожи на суффиксы причастия наречия, они выражают различное содержание. Несмотря на наличие признаков обеих частей речи, в причастиях более заметны черты глагола. Хотя причастие указывает на признак объекта, этот признак связан с действием.

**Ключевые слова: глагол, причастие, суффикс, время, субстантивация**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya elmləri namizədi, dosent İsmayıl Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur**

**YUSİFOVA ARİFƏ TAPDIQ QIZI**
**Azərbaycan Tibb Universiteti**
**“Azərbaycan dili” kafedrası b\m**
**S.Vurğun küç.157.**
**arifayusifova@gmail.ru**

# AZƏRBAYCAN DİLİ LEKSİKOLOGİYASININ MAHİYYƏTİ ONUN TƏDRİSİ METODİKASI VƏ ÜSUBİ ƏLAMƏTLƏRİ

**Xülasə**

Leksikologiyada sözlərin mahiyyəti, onların formaca və məzmunca əmələ gətirdiyi qruplar, sözlərin mənşəyi və işlənmə dairəsi öyrənilir.Dilimizdəki sözlərin çoxunun həm leksik həm də qrammatik mənası vardır.Sözün birbaşa ifadə etdiyi mənaya onun leksik mənası deyilir.Başqa sözlə dəsək, sözün leksik mənası onun məzmununu bildirməsi, hər hansı bir anlayışı ifadə etməsidir. Məsələn: "qələm" sözünün leksik mənası "yazı alətidir". Sözün leksik mənasini bir neçə yolla izah etmək olar:

1.Verilən sözə yaxın mənalı söz seçməklə. Məsələn: azadlıq -müstəqillik - sərbəstlik.

2. Əşyanın, hərəkətin əlamətlərini izah etməklə. Məsələn: dəmirçi - metaldan müxtəlif alətlər hazırlayan pesə sahibi.

3. Sözün hissələrinin mənasını açmaqla. Məsələn: mürəkkəbqabı- içində yazı üçün mürəkkəb saxlanılan qab.

Sözün leksik mənası ilə yanası, onun qrammatik mənası da olur. Sözün qrammatik mənası onun hər hansı bir əşyanın adını, əlamətini, miqdarını və s. bildirməsidir.Məsələn: "qələm" sözü əşyanın adını, "qırmızı" əlamətini, "bir" isə miqdarını bildirir. Buna görə də bu sözlərdən birincisi isim, ikincisi sifət, üçüncüsü isə saydır. Deməli, sözün qrammatik mənası onun hansı nitq hissəsi olması deməkdir.

***Açar sözlər:azərbaycan dili,leksikologiya,frazeologiya,inkişaf,termin***

*1.Sözün həqiqi və məcazi mənası*

***Н.А.Поменко: Время в языке.Пятигорск 1966****.Müəllif öz əsərində yazır:”Dilimizdəki sözlərin bır çoxu həm həqiqi, həm də məcazi mənada işlədilir. Sözün ilkin, əsas mənası onun həqiqi mənasıdır. Məsələn: "dəmir qapı", "daş divar", "yıımşaq çörək" və s. söz birləşmələrindəki birinci tərəflər həqiqi mənada işlənmişdir. Sözün sonradan qazandığı törəmə mənası isə onıın məcazi mənası adlanır. Məcazi məna çox vaxt bənzətmə vasitəsilə və ya insanlara məxsus hərəkətlərin cansız əşyalara aid edilməsi yolu ilə yaranır. Məsələn: "dəmir iradə", "daş ürək", "yıımşaq söz" və s. söz birləşmələrindəki birinci tərəflər -"dəmir", "daş" və “yumşaq" sözləri bənzətmə yolu ilə yaranmışdır. "Külək yatdı", "Təbiət gülür", "Təbiət oyanır", "Günəş gizləndi" və s. cümlələrindəki xəbərlər isə insana aid*

*hərəkətin cansız əşya üzərinə köçürülməsi yolu ilə ortaya çıxmış məcazi mənalı sözlərdir.**(1.c.24)***

*2.Təkmənalı və çoxmənalı sözlər*

*Yalnız bir leksik mənası olan sözlərə təkmənalı sözlər deyilir.*

*Məsələn: dənizçi, səkkiz, yaraşıqlı, yadırğamaq, sığırçın və s. kimi sözlər bir leksikmənada işlənən təkmənalısözlərdir.*

*Bir neçə yaxın mənada işlənən sözlərə isə çoxmənalı sözlər deyilir. Çoxmənalı sözlər əsas məna ilə bağlı əlavə mənalar da bildirir. Məsələn: "ayaq", "ağız", "boğaz", "almaq", "çəkmək" və s. sözləri eyni leksik məna ilə bağlı bir neçə yaxın mənalarda işlənir:*

*Ayaq - uşağın ayağı, masanın ayağı, kəndin ayağı və s.*
*Ağız - quşun ağzı, qazanın agzı, baltanın ağzı və s.*
*Boğaz - uşağin boğazı, bardağın boğazı, çəkmənin boğazı və s.*
*Almaq - kitabı almaq, tərbiyə almaq, xəbər almaq və s.*
*Çəkmək - ipi çəkmək, yol çəkmək, sıxıntı çəkmək və s.*
*Tutmaq - topu tutmaq, üz tutmaq, fikri tutmaq və s.*
*Acı - acı dərman, acı xatirə, acı söz və s.*
*Ağır - ağır yük, ağır itkı, ağır cəza, ağır xasiyyət və s.*

*Çoxmənalı sözlərdə sözün mənalarından biri əsas, qalanları isə məcazi mənada işlədilir. Məsələn: "adamın gözü" birləşməsındəki "göz" sözü həqiqimənada, "bulağın gözü" bırləşməsində isə bu söz məcazi mənada işlənmişdir. Yuxarıdakı nümunələrdə də sözlərin bırinci mənalari uşağın ayağı, quşun ağlı və s.**) həqıqı mənada, sonrakı mənalari ısə məcazi mənada** işlənmişdir.*

*Çoxmənalı sözlər daha çox isim, sifət və fellərdənibarət olur. Çoxmənalılığı təşkil edən sözlər eyni bir nitq hissəsinə aid olur. Məsələn: uşağın dişi - darağın dişi - hər ikisi isimdir; şirin meyvə - şirin söhbət - hər ikisi sifətdir.*

*Çoxmənalı sözlərdə əsas məna ilə bağlılıq zəruri şərtdir.Bu bağlılıq olmadıqda həmın sözlər çoxmənalılıq yox, omonimlik xüsusiyyətini daşıyır.*

***3.Antonimlər***

***Bir-birinə zidd, əks olan mənaları bildirən sözlərə antonimlər deyilir.****Məsəslən: yer – göy, sülh – müharibə, igid – qorxaq, gülmək – ağlamaq,oturmaq – qalxmaq, gecə – gündüz. Antonimləri təşkil edən sözlər də eyni bir nitq hissəsinə aid olur.*

*-lı, -sız, -bi, li antonim şəkilçiləri ilə yaranan sözlər leksik antonim deyil.*

*Məsələn: güclü sözünün antonimi gücsüz yox, zəif sözü sayılır.*

*4.Sinonimlər*

***А.Алекперов:Фонематическая система современного Азербайджанского языка** Изд.»Елм».Баку.1971.Ələkgərova öz məqaləsində yazır:”Yazılışı və deyilişi müxtəlif olan, lakin eyni və ya yaxın mənalırı bildirən sözlərə sinonimlər deyilir. Məsələn: ürək – könül – qəlb, böyük – iri – yekə, odlamaq – alıçdırmaq –*

*yandırmaq və s. Sinonimlər yaxın mənaları bildirsələr də, onların işlənməsində incə məna fərqləri vardır. Məsələn: qalın və sıx sinonimlərini meşə isminə qoşmaqla işlətmək mümkün olduğu halda (qalın meşə, sıx meşə), bu sözlərdən yalnız birincisini kitab isminə aid etmək olar: qalın kitab.Sinonimləri təşkil edən sözlər eyni nitq hissəsinə aid olur**.(2.c.132(***

*-bi, -siz, -la, sinonim şəkilçiləri ilə yaranan sözlər də sinonim deyil. Məsələn: bivəfa – vəfasız; laməkan – məkansız.*

*Bədii ədəbiyyatda hər hansı bir deyimin təsir gücünü, bədiiliyini artırmaq üçün sinonim sözlərdən istifadə olunur.Sinonimlər dilin zənginliyini və ifadə qüdrətini göstərən əlamətlərdən biri sayılır.*

*4.Omonimlər.Deyilişi və yazılışı eyni olan, leksik mənası isə tamamilə fərqlənən sözlərə omonimlər deyilir.*

*Omonimlər bir-biri ilə mənaca heç bir əlaqəsi olmayan sözlərdən ibarət olur. Məsələn:Bağ -meyvə ağacları əkilmiş sahə.Bağ – bir şeyi bağlamaq üçün ip.Şam – yandırmaq üçün cisimŞam – ağac adı Şam – axşam yeməyi Fokus– linzanın fokusu Fokus – sirkdə göstərilən nömrə.Bu nümunələrdəki bağ, şam və fokus sözlərinin deyilişi eyni olsa da, onların ayrı-ayrı anlayışları var. Deməli, həmin sözlər omonimlərdir.*

*Dilimizdə ən çox işlənən omonimlər bunlardır: al, alışmaq, an, aş, aşıq, at, ay, az, ağrı, bağ, bal, bar, bel, biz, bez, bənd, boya, bulamaq, çat, çap, çay, çaxmaq, çən, dad, dağ, dan, dar, daş, din, don, dolu, divan, düz, en, əqrəb, əsər, göy, gül, hava, iç, inci, incitmək, it, keçinmək, kök, köç, kürək, qala, qat, qaş, qaz, qır, qız, qurd, qan, qol, qovaq, qoyun, ləpə, mürəkkəb, nəticə, rəng, ov, oxu, oxşamaq, saç, sal, şam, şor, tala, tək, top, tut, uçmaq, üz, var, yağ, yal, yan, yaş, yad, yay, yar, yara, yaz, yol və s.Omonimiyi təşkil edən sözlər həm eyni bir nitq hissəsinə, həm*
*də ayrı-ayrı nitq hissələrinə aid ola bilər. Bağ və şam omonimlərinin hər ikisi isimdir. Aşağıdakı omonimlər də eyni bir nitq hissəsinə aiddir:Ay – yerin peyki.Ay – 30 gün.*

*Bal – qatı şirin maddə.Bal – zəlzələnin, küləyin gücünü bildirən ölçü vahidi.Bal – rəqs gecəsi, şənlik,Əqrəb – saatın mili;Əqrəb – zəhərli həşarat;Uçmaq – qanadlanmaq,Uçmaq – dağılmaq.*

*Oxşamaq – bənzəmək,Oxşamaq – əzizləmək Alışmaq – öyrənmək, adət etmək.Alışmaq –yanmaq*

*.Dilimizdə ayrı-ayrı nitq hissələrinə aid sözlərdən təşkil olunan omonimlər daha çoxdur.*

*İsim və sifət kimi işlənən omonimlər:Yaş -insan ömrünün müəyyən dövrü.Yaş – nəm, islanmış*

*Kök – tərəvəz,Kök – dolu, yoğun, şişman.Mürəkkəb – yazı üçün maye,Mürəkkəb – çətin*

*Omonimlərin bir çoxu isim və feil kimi işlənə bilir:Gül ətri (isim) –*
*Ağlama, gül (feil).*

*Omonimlər quruluşca düzəltmə də olur. Məsələn: oynaq (bədəndə sümük) ismi ilə oynaqhava birləşməsindəki oynaq sifəti düzəltmə omonimdir.Səslənməsinə görə bir-birinə oxşar olan ahəng – əhəng, atlaz – atlas, əsr – əsir, serviz – servis, sənəd – sənət və s. kimi sözlər omonim deyil, çünki yazılışları fərqlidir. Tırkibindəki bir hərfə görə fərqlənən belə sözlər paronim adlanır.Yazılışları eyni olan, lakin vurğunun yerinə görə fərqlənən sözlər də omonim deyil. Vəsələn: alma (isim) – alma (feil), əkin (isim) – əkin (feil), dimdik (isim) – dimdik (sifət) və s.*

*Bu gür sözlərin yazılışları eyni olsa da, tələffüzləri bir-birindən fərqlənir. Belə sözlər omoqraf adlanır.Qrammatik şəkilçilərin köməyilə aralarında bu cür oxşarlıq yaradan sözlər omoform adlanır.*

*Mehriban (şəxs adı_ – mehriban, çiçək – Çiçək (şəxs adı), yaqut – Yaqut (şəxs adı) kimi tərəflərindən biri xüsusi isim olan sözlər omonimlik yaratmır. Belə ki, bu vaxt məna-məfhum fərqi meyadana çıxmır, anlayış dəyiəmir. Bundan başqa, nərə, əyan, bəzən tipli sözlər də omonim sayılmır. Çünki nərə (qışqırtı), əyan (dövlət məmuru), bəzən (hərdən)sözlərində birinci hecadakı sait uzun tələffüz olunur. Eyni çür yazılan nərə (balıq), əyan (aşkar), bəzən (bəzənmək) sözlərində isə heç bir sait uzanmır. Omonimin tərifindən çıxış edərək, bu sözlərin yazılışı eyni olsa da, tələffüzünüm fərqi olması onların omonim olmadığını söyləməyə əsas verir.*

*Dilimizdəki bəzi sözlər həm çoxmənalılıq, həm də omonimik xüsusiyyətinə malikdir. Məsələn: kök sözü insanın kökü, ağacın kökü, sözün kökü birləşmələrində çoxmənalıdır. Kök oğlan və şirəli kök birləşmələrindəki kök sözü isə omonimdir. Boğaz, yar, qaş, qol, yol, daş, duz, dolu, dil, yay, üz, tut, bel sözləri də həmçoxmənalılıq, həm də omonimlik keyfiyyətinə malikdir.*

*5.Frazeoloji birləşmələr*

*Dildə iki cür söz birləşməsi mövcuddur: sərbəst söz birləşməsi və sabit söz birləşməsi.Sabit söz birləşmələrinə frazeoloji birləşmələr deyilir. Bütövlükdə bir leksik mənanı bildirən söz birləşmələrinə frazeoloji birləşmələr deyilir.*

*Frazeoloji birləşmələr tərkibcə dəyişməyən və məcazi mənada işlənən sabit söz birləşmələridir. Məsələn: qulaq asmaq (dinləmək), başa düşmək (anlamaq), ürəyinə xal düşmək ( şübhələnmək), başa çatdırmaq (qurtarmaq), əldən düşmək (yorulmaq) və s. söz birləşmələri frazeoloji söz birləşmələridir. Belə birləşmələrin tərkib hissələri olan sözlər özhəqiqi mənasından uzaqlaşır və bütövlükdə cümlənin bir üzvü olur. Məsələn: Şagirdlər diqqətlə müəllimə qulaq asırdılar cümləsindəki frazeoloji birləşmə nə edirlər? sualına cavab verir, deməli, cümlənin xəbəridir.Frazeoloji birləşmələr dildə hazır şəkildə olur. Onların çoxunu bir sözlə əvəz etmək olar. Məsələn: ürəyinə xal düşmək – şübhələnmək, qulaq asmaq – dinləmək, ağzına su alıb oturmaq – susmaq və s.Frazeoloji birləşmələr əsas və asılı tərəf olunur. Frazeoloji birləşmələr omonimlik, sinonimlik və antonimlik xüsusiyyətlərinə malik olur.*

*Frazeoloji omonimliyə aid nümunələr: can vermək, üz vermək, ürəyi yanmaq, işə*

*düşmək, başa vurmaq və s. Məsələn: Elə bil yağış susuz torpaqlara can verdi. – Döyüşçü yaralanaraq meydanda can verdi; Susuzluqdan ürəyi yanır. – Ananın qocaya ürəyi yanır; Əvvəllər də bədbəxt hadisələr üz verirmiş. – Üz verirsən, astar istəyir.Frazeoloji sinonimlik dedikdə eyni və ya yaxın mənaları bildirən frazeoloji birləşmələr nəzərdə tutulur. Məsələn: qulaq asmaq – qulaq vermək, qılığına girmək – qəlbinə yol tapmaq və s.*

*Frazeoloji antonimlik dedikdə mənaca bir-birinə əks olan frazeoloji birləşmələr nəzərdə tutulur. Məsələn: xoşu gəlmək – zəhləsi getmək, ağzına su alib oturmaq – dilotu yemək və s. Frazeoloji birləşmələr omonimlik, sinonimlik və antonimlik xüsusiyyəti daşıyarkən hər iki tərəf mütləq Frazeoloji birləşmə olmalıdır.Frazeoloji birləşmələrdə əsas və asılı tərəf olmadığı üçün onlara bir tərəfdən digər tərəfə sual vermək olmur. Frazeoloji birləşmələr nitqə xüsusi ifadəlilik, canlılıq gətirir. Onlar daha çox bədii üslubda və məişət üslubunda işlənir*

***5.Alınma sözlər.***

***C.R.Cəfərov:Azərbaycan dilinin terminoloji sistemində Qərbi Avropa mənşəli sözlərin işlənməsinə dair".Barı."Nurlan"nəşriyyatı.2014****.*

*Dilimizdəki sözlər mənşəyinə görə iki qrupa bölünür: əsl Azərbaycan sözləri, alınma sözlər. Dilimizin lüğət tərkibindəki sözlərin böyük əksəriyyəti (xüsusilə say, əvəzlik və feillərin, demək olar ki, hamısı) milli mənşəli sözlərdir. Başqa xalqlarla müəyyən əlaqələr nəticəsində dilimizə çoxlu alınma sözlər də keçmişdir. Alınma sözlər iki qrupa bölünür:*

*1.Ərəb və fars dillərindən alınma sözlər.*

*2. Avropa dillərindən alınma sözlər****.(3.s.166)***

*Ərəb və fars dillərindən alınma sözlərin çoxu fəal ümumişlək sözlərdir və onları əsl Azərbaycan sözlərindən fərqləndirmək çətindir. Məsələn: kitab, alim, dünya, məktəb, tələbə, şagird və s.*

*Alınma sözləri müəyyən etmək üçün əsl Azərbaycan sözləri üçün səciyyəvi olmayanxüsusiyyətləri bilmək zəruridir:*

*1. Sözdə iki saitin yanaşı işlənməsi.*

*Məsələn: ailə, zəif, səadət, müəllim, sual, maaş, bədii, mətbəə və s.*

*2. Sözdə uzun tələffüz olunan saitin işlənməsi.*

*Məsələn: aləm, məna, elan, xüsusi, səliqə və s.*

*Avropa mənşəli sözlərdə uzun tələffüz olunan sait olmur.*

*3. sözün r samiti ilə başlanması.*

*Məsələn: rezin, rayon, rəssam, rəf, rəndə və s.*

*4. Sözdə j samitinin işlənməsi (istər sözün əvvəlində, sonunda, istərsə də ortasında). Məsələn: janr, müjdə, əjdaha, qaraj, jurnal, montaj və s. Qiji, qijilti kimi sözlər istisnadır.*

*5. Qoşa yy samitli sözlərin hamısı.*

*6. Tərkibində q samitinin kar qarşılığı k səsi olan sözlərin çoxu – kolxoz, klub, tank, xalq, şəfəq, əxlaq və s.*

*Ərəb və fars dillərindən alınma sözlər isə la-, na-, bi-, ba- ön şəkilçiləri ilə birlikdə dilimizə daxil olmuşdur.*

*Məsələn: laməkan, laqeyd, naşükür, naməlum və s.*

*Nadinc və nakişi sözləri istisna hal olaraq milli mənşəlidir.Məktəb, təhsil, din və ilahiyyatla bağlı sözlərin çoxu da ərəb və fars dillərindən alınma sözlərdir.*

*Məsələn: məktəb, məktub, kitab, katib, dərs, tədris, mədrəsə, sinif, elm, Allah, rəbb, islam, peyğəmbər, məscid, müsəlman, inam, namaz, səcdə, ilahi, oruc, həcc, molla, axirət, cənnət, şeytan, Əkbər, Zəhra, Ömər, Cəfər, Həsən, Əli, Fatma və s.*

*Sözün əvvəlində iki samitin yanaşı gəlməsi də əsl Azərbaycan sözləri üçün səciyyəvi xüsusiyyət deyil. Məsələn: plan, prospekt, şkaf, tramplin və s.*

*Belə sözlər, əsasən, Avropa mənşəli alınma sözlərdir.*

*Dilimizdə fars dilindən keçən sözlərin əksəriyyəti poetik ifadələr və sözlərdir.*

*Məsələn: gül, bülbül, bahar, payız, dilbər və s.*

*Rus dilindən keçmiş sözlər: samovar, paraxod, zavod, vedrə və s.*

*Latın dilindən keçən sözlər: direktor, respublika, konstitusiya və s.*

*Alman dilindən keçən sözlər: veksel, kurort, qalstuk, şayba və s.*

*İngilis dilindən keçən sözlər: klub, mitinq, trolleybus, keks, futbol, rels, basketbol və s.*

**Ədəbiyyat:**

1.Н.А.Поменко: Время в языке. Пятигорск 1966.стр:24.
2.А.А.Алекперов:Фонематическая система современного Азербайджанского Языка.Изд.»Елм».Баку.1971.с.132
3.C.R.Cəfərov:Azərbaycan dilinin terminoloji sistemində Qərbi Avropa mənşəli Sözlərin işlənməsinə dair".Barı."Nurlan"nəşriyyatı.2014.

**A.Yusifova**

**CONTENT OF LEXICOLOGY OF THE AZERBAIJAN LANGUAGE, METHOD OF ITS TEACHING AND SYMBOLS**

Summary

In lexicology, the essence of words, the groups formed by them in terms of form and content, the origin of words and the scope of processing are studied,indicates its content. , is to express any concept. For example: the lexical meaning of the word "pen" is "writing instrument". The lexical meaning of the word can be explained in several ways:

1. By choosing a word with meaning close to the given word. For example: freedom - independence - freedom.

2. By explaining the signs of the object and movement. For example: a blacksmith - a craftsman who makes various tools from metal.

3. By revealing the meaning of the parts of the word. For example: an inkwell - a container in which ink is kept for writing. In addition to the lexical meaning of the word, it also has a grammatical meaning. The grammatical meaning of the word **is its** name, sign, quantity, etc. of any thing. For example: the word "pen" means the name of the object, "red" means the sign, and "one" means the quantity. Therefore, the first of these words is a noun, the second is an adjective, and the third is a number. So, the grammatical meaning of a word means what part of speech it is.

**Keywords: Azerbaijani language, lexicology, phraseology, development, term**

**А.Юсифова**

## СУТЬ ЛЕКСИКОЛОГИИ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА, МЕТОДИКА ЕЕ ПРЕПОДАВАНИЯ И СИМВОЛИКА

**Резюме**

В лексикологии изучается сущность слов, образованные ими группы по форме и содержанию, происхождение слов и объем обработки, указывается его содержание. , чтобы выразить любое понятие. Например: лексическое значение слова «ручка» — «пишущий инструмент». Лексическое значение слова можно объяснить несколькими способами:

1. Подбором слова, близкого по значению данному слову. Например: свобода - независимость - свобода.
2. По объяснению признаков предмета и движения. Например: кузнец - мастер, делающий из металла различные инструменты.
3. Раскрывая значение частей слова. Например: чернильница - емкость, в которой хранятся чернила для письма.

Помимо лексического значения слова, оно имеет и грамматическое значение. Грамматическим значением слова является его название, признак, количество и т. д. какой-либо вещи. Например: слово «ручка» означает название предмета, «красный» — знак, а «один» — количество. Следовательно, первое из этих слов — существительное, второе — прилагательное, а третье — число. Итак, грамматическое значение слова означает, какой частью речи оно является.

**Ключевые слова: азербайджанский язык, лексикология, фразеология, развитие, термин**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur**

**MƏMMƏDOVA ZENFİRA ƏLƏKBƏR QIZI**
**Azərbaycan Tibb Unversiteti**
**”Xarici dillər” kafedrası**
**S.Vurğun küç.167**
**zenfiramamadova@mail.ru**

# İNGİLİS DİLİNDƏ İSMİN HAL KATEQORİYASININ FUNKSIONAL VƏ SİNTAKTİK TƏSNİFATI

## XÜLASƏ

İsmin hal kateqoriyası müasir ingilis dilində ciddi mübahisə doğuran məsələlərdən biridir. İsmin hal kateqoriyasından bəhs edərkən iki ciddi linqvistik problemlə üzləşirik:

1) Müasir ingilis dilində ismin hal kateqoriyası mövcuddurmu?
2) Əgər müasir ingilis diində ismin hal kateqoriyası mövcuddursa, ondamüasir ingilis dilində ismin neçə halı var? Müasir ingilis dilində ismin hal kateqoriyası iki mənada işlənir.

1) Semantik və ya məntiqi
2) Sintaktik (funksional

**Ç.Filmor:”İngilis dilində ismin hal kateqoriyasının sem.-sintaktik təsnifatı”M.1960.s**.:

Semantik hal kateqoriyası konsepsiyası 1960-cı illərdə **Ç. Filmor** tərəfindən işlənib hazırlanmışdır. Belə ki, Ç.Filmor ismin hal kateqoriyasının semantik-sintaktik təsnifatını vermişdir. Onun təsnifatına görə, müasir ingilis dilində ismin 6 halı var. Bunlar aşağıdakılardır:

1) Agentive case. John opened the door.
2) İnstrumental case. The key opened the door.
3) Dative case. John believed that he would win.
4) Facititive case. The key was damaged.
5) Locative case. Chicago is windy.
6) Objective case. John stole the books.**(1.s.45-490**

**Açar sözlər: söz sırası,ismin hal kateqoriyası, termin,inkişaf.təsnifat.**

İsmin hal kateqoriyasının sintaktik və ya funksional baxımdan təsnifatı dedikdə elementlər arasında qrammatik mənanın olması nəzərdə tutulur. Məs. “ oğlanın adı” birləşməsi iki cür verilə bilər: “The boy’s name” və “the name of the boy”. I halda ismin yiyəlik halı sintetik yolla, yəni “s” vasitəsilə, II halda isə analitik yolla, yəni “of” sözü ilə ifadə edilir.Qeyd etmək lazımdır ki, müasir ingilis dilində ismin hal kateqoriyasını nəzərdən keçirərkən irəli sürülmüş nəzəriyyələri şərti olaraq 4 əsas qrupa bölmək olar.

I.Birinci nəzəriyyə müasir ingilis dilində ismin hal kateqoriyasının onun cümlədəki funksiyasına ( cümlədəki yerinə) görə təyin edilməsinə əsaslanır.

Bildiyimiz kimi, ingilis dili flektiv dildir, yəni bu dil şəkilçi ilə zəngin deyil, çox vaxt sözlərin cümlədəki funksiyası onların cümlədə yerinə görə təyin edilir.

Məs.Jane gave Tom the book; S------V----İnd.obj.---d.obj.

Verilmiş misaldan göründüyü kimi, bu cümlədə 3 isim var. Bu isimlərin hər biri şəkilçisiz işlənməsinə baxmayaraq üç müxtəlif funksiyada işlənmişdir, yəni onların cümlədəki funksiyaları onların cümlədəki yerinə görə təyin edilir.

**Nesfield J.C.English Grammar Past and Present L.-1931**..**C.Nesfild**, M.Doyçbeyn, M.Brayant kimi dilçilər tərəfindən irəli sürülən və klassik latın qrammatikasına əsaslanan bu təsnifata görə müasir ingilis dilində ismin beş halı müəyyənləşdirilir: Nominative, genitive, dative, accusative və vocative**.(2-s.110-112)** Cümlənin mübtədası nominative (adlıq hal), vasitəli tamamlıq dative (yönlük hal), vasitəsiz tamamlıq accusative (təsirlik hal), xitab vocative halda istənilən isimlə ifadə olunur.

Yiyəlik halda olan isimlər isə, adətən təyin və bəzi hallarda xəbərin adlıq hissəsi (predicative) funksiyasında olur. Məs.

Xitab----------Mübtəda----------Xəbər----------Vas-li tam-ləq---------Vas-siz-q
Mary----------John----------has given--------Tom's brother---------all his money.
Vocative----------Nominative----------genitive/ dative----------

Bu təsnifatda ismin hal kateqoriyasının işlənmə sistemi aşağıdakı kimidir.

1) The Nominative case (subject to a verb). Rain falls.
2) The Genitive case. Jane's books are on the table.
3) The Dative case. (indirect object to a verb). İ gave John a penny.
4) The Accusative case. The man killed a rat. The Earth is moistened by rain.
5) The Vocative case. (address) Are you coming, my friend?

Beləliklə, bu təsnifata diqqətlə fikir versək görərik ki, morfoloji əlamətlər qarışıb.

II. İkinci nəzəriyyə sözönlü hallar və ya analitik hal kateqoriyası nəzəriyyəsidir. Bu birinci nəzəriyyənin məntiqi davamı olub, klassik latın qrammatikasına əsaslanır.

**Sweet H. New English Grammar, Logical and Historical part I, Oxford-1904.**Qeyd etmək lazımdır ki, ismin analitik hal kateqoriyasına malik olması mübahisə doğuran məsələlərdən biridir. Bu da öz növbəsində hal mənası bildirən sözönülərin leksik mənaya malik olub-olmaması ilə sıx bağlıdır**. (3.s.41-44)**

**Khaimovich B.S., Rogovskaya B.I. A course English Grammar M.-1967**.Bu sahədə də dilçilər arasında fikir ayrılığı var: bəzi dilçilər **H.Suit, O.P.Sunik**belə hesab edirlər ki, sözönləri leksik mənaya malik deyil digər dilçilər **(V.N.Yartseva**, -**B.S.Xaymoviç, B.İ.Roqovskaya 4-s.136-138)** belə hesab edirlər ki, sözönləri leksik mənaya malikdir. Məsələyə I qrup dilçilərin dedikləri kimi yanaşsaq, yəni belə hesab etsək ki, sözönülər leksik mənaya malik deyil, o zaman müasir ingilis dilində ismin analitik hal formasına malik olduğunu qəbul edə bilərik.

**C.Körn:"Müasir İngilis dilində ismin hal kateqoriyasına dair"M.1978**Lakin II qrup dilçilərin fikri ilə razılaşsaq, yəni belə hesab etsək ki, sözönülər leksik mənaya malikdir, o zaman müasir ingilis dilində ismin analitik hal formasına malik olduğunu

demək olmaz. Analitik hal nəzəriyyəsini irəli sürənlərdən biri C.Körm sözönü ilə birlikdə işlənən ismi- ismin analitik halı hesab edir. Onun fikrincə, "və" for" + isim yönlük halı, "of+isim" yiyəlik halı, " with+isim" instrumental halı göstərir. **C.Körmə** görə müasir ingilis dilində ismin 4 halı var**:(5.-s.58-52)**

1) The common case (ismin adlıq halı, şəkilçisiz)
2) The genetive case (of+noun)
3) The dative case (to+noun)
4) The instrumental case (with+noun)

**Ilyish B. The Structure of Modern English M.-1974.**Qeyd etmək lazımdır ki, bu nəzəriyyə bir sıra dilçilər tərəfindən qeyri məqbul hesab edilir. Belə ki, **B.A.İlyiş** qeyd edir ki, əgər bu nəzəriyəyə inansaq, onda bütün sözönülər ilə işlənən isimləri ismin analitik halı hesab etmək lazım gələr ki, bu da qeyri-mümkündür**. (6-s.88-96).**

**Oruc Türksevər (Musayev), İngilis dilinin qrammatikası, B.-2007**.səh:134-139Üçüncü nəzəriyyə məhdud hal nəzəriyyəsi adlanır. Bu nəzəriyyə H.Suit, O.Yespersen, A.İ.Smirnitski, L.S. Barxudarov, **O.İ. Musayev** və başqaları tərəfindən qəbul edilmişdir. Bu nəzəriyyə ismin iki qrammatik halı: adlıq hal (the common case) və yiyəlik halın (the genetive case) oppozisiyasına əsaslanıb. Oppozisiyanın güclü tərəfi ismin yiyəlik halıdır, çünki onun "s" kimi morfoloji əlaməti var. Oppozisiyanın zəif tərəfi ismin adlıq halıdır, çünki onun heç bir morfoloji əlaməti yoxdur.( **7-s.134-139)**

Qeyd etmək lazımdır ki, ismin hal kateqoriyasının sintaktik əlaqələrin göstəricisi olmaq konsepsiyası prespektiv, qeyri-struktur, struktur-deskriptiv dilçilər tərəfindən də qəbul edilmişdir.

H.Suitin (1925) fikrincə, hal kateqoriyası sintaktik və ya morfoloji yolla gerçəkləşən bir əlaqədir. O, ismin dəyişən və dəyişməyən hallarını müəyyən edir. Dəyişməyən hal flektiv dillərin nominative (adlıq hal), accusative (təsirlik hal) və dative (yönlük hal) hallarına uyğun gəlir. Dəyişən hal isə gentive (yiyəlik hal) haldır.

O.Yespersen ismin adlıq (the common case) və yiyəlik (the genetive case) hallarını fərqləndirmişdir. Bəzi dilçilər: R.V.Pens (1947), H.Vaythol (1965), H.Şou (1952) müasir ingilis dilində ismin 3 halının mövcud olduğunu qeyd edirlər: nominative, genitive (posessive) və accusative (objective). Onların fikrincə, əvəzliyin 3 hal forması (İ, me, my) olduğu kimi, ismin də 3 hal forması var. Bir çox struktur dilçilərdən fərqli olaraq, H.Vaythol məhdud hal kateqoriyası nəzəriyyəsi ilə razılaşır.Bildiyimiz kimi, hal kateqoriyası bir ismin digər ismə olan münasibətini bildirir. Məlum olduğu kimi, təkdə olan isimlərin yiyəlik halı "s", cəmdə olan isimlərin yiyəlik halı isə "" (apostrof) işarəsinin sözün sonuna əlavə edilməsi vasitəsi ilə düzəlir.

Qeyd etmək lazımdır ki, yalnız canlıları bildirən isimlərin və məhdud sayda olan cansız əşyanı bildirən isimlərin yiyəlik halı bu qayda ilə düzəlir. Bundan əlavə, ismin yiyəlik halı yalnız təyin və bəzən predikativ (xəbərin adlıq hissəsi)

funksiyasında çıxış edir. Yuxarıda adları qeyd olunmuş dilçilər tərəfindən irəli sürülmüş bu nəzəriyyənin məhdud hal kateqoriyası adlandırılması da məhz bununla əlaqədardır.

IV Dördüncü nəzəriyyəyə əsasən, müasir ingilis dilində ismin hal kateqoriyası yoxdur. Bu nəzəriyyənin tərəfdarlarından Q.N.Vorontsova, A.M.Muxin və başqalarını göstərmək olar. Onlar müasir ingilis dilində ismin hal kateqoriyasının olmaması fikrini belə əsaslandırırdılar.

1.“s” təkcə bir sözə deyil, söz birləşmələrinə də əlavə edilə bilər, məs:**his daughter Mary’s arrival.**

2. “s” təkcə isimlərin deyil, başqa nitq hissələrinin də sonuna əlavə edilə bilər. **Məs. somebody else’s car.**

3. Müasir ingilis dilində yiyəlik halın digər ifadə vasitəsi də var. Bu “of+noun” birləşməsidir. **Məs. the daughter of this man.**

4. Cəmdə olan əksər isimlərin yiyəlik halı sözün sonuna yalnız “’” (apostrof) əlavə edilməsilə düzəlir. Bu da şifahi nitqdə isimlərin tək cəm formalarının fərqləndirilməsində çətinlik törədir.

Bu nəzəriyyənin tərəfdarlarının fikrincə, “s” artıq şəkilçi olmaq funksiyasını itirmişdir. Buna görə də “isim+s” artıq ismin morfoloji forması deyil, o, sintaktik konstruksiyadır və müasir ingilis dilində ismin hal kateqoriyası mövcud deyil. Lakin onların bu fikirləri bir sıra dilçilər tərəfindən belə aydınlaşdırılmışdır.

1.“s”-in söz birləşmələrinə əlavə edilməsi hallarına müasir ingilis dilində çox rast gəlinmir. Bu 4%-90% nisbətindədir. Bundan əlavə, “s”-in söz birləşmələrinə əlavə edilməsi çox vaxt üslub xatirinə edilir.

2.Mənsubiyyət bildirən “s” adi hissəcikdən (postposition) fərqlənir. Məs. to give up, to put off və s. sözlərindəki “up, off” felə əlavə edilərək onun mənasını dəyişir, həmişə vurğulu olur. Lüğətdə onların ifadə etdikləri məna öz əksini tapır. Lakin “s” qrammatik forma olduğu üçün lüğətdə onun isimlə işlənməsi, mənası göstərilmir. O, adi “s” suffiksi kimi üç tələffüz edilə bilir.

1. sait və cingiltili samitlərdən sonra **----------[z]---boy’s, dog’s**
2. kar samitlərdən sonra **----------[s]---host’s, bishop’s**
3. fışılılı samitlərdən sonra----------[**iz]---boss’s, hostess’s**

Yuxarıda qeyd olunanları nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, “s” hissəcik (postposition) ilə morfem arasında bir yer tutur. “of” və “s”-in paralel işlənməsinə gəldikdə isə, aydındır ki “s” yalnız canlıları və bir qisim cansız isimləri bildirən sözlərlə işlənir. “of” isə əsasən cansız əşyalarla işlənri. Müasir ingilis dilində ismin hal kateqoriyasından bəhs edərkən prof. Musayev qeyd edir ki, “s” şəkilçisi tarixən hal şəkilçisi olmuş, dilin sonrakı inkişafı prosesində onun işlənmə miqyası qismən daralmışdır. Müasir ingilis dilçilərindən olan Ç.Barberin dediyinə və dil faktlarının sübut etdiyinə görə “s” şəkilçisinin işlənmə miqyası müasir ingilis dilində yenidən genişlənməyə başlamışdır. Bu isə o deməkdir ki, “s” şəkilçisi ilə düzələn ismin hal forması onun paradiqmasında daha möhkəm qərarlaşmaq üzrədir. Bu da öz

növbəsində bizdə belə bir inam yaradır ki, “s” şəkilçisi diaxron planda hal formantı olmuş və müasir dildə də hal formantıdır, hal şəkilçisidir.

Mənsubiyyət bildirən yiyəlik halın aşağıdakı semantik mənaları var.

1. Mənsubiyyət məs. **Tom’s toy**
2. Tamın hissəyə olan münasibəti **məs: Tom’s hand**
3. Hərəkətin icrasını bildirmək məs. **Tom’s actions (Tom has acted)**
4. Hərəkətin obyektini bildirmək məs. **The hostage’s release**
5. Keyfiyyət bildirmək məs. **The girl’s voice**
6. Zaman və məkan bildirmək məs. **Yesterday’s talks**
7. Kəmiyyət bildirmək **məs. a 3 miles’ distance**

Əksər hallarda yiyəlik halda olan isimləri mənsubiyyət və keyfiyyət bildirmələrinə görə 2 böyük qrupa bölürlər. Birinci halda yiyəlik halda olan ismin qarşısındakı artikli və təyinlər həmin ismə aid olur. Məs. **The young man’s son**. İkinci halda isə yiyəlik halda olan ismin qarşısındakı artikl və təyin ikinci ismə aid olur. Məs**. A pleasant 5 minutes’ walk**.

Qeyd etmək lazımdır ki, son vaxtlar “s” və “” (apostrof işarəsi) mənsubiyyətdən çox başqa mənalarda işləndiyinə görə onu “possessive case” deyil, “genitive case” adlandırmaq daha düzgün olardı.Əvəzliklərə gəldikdə isə, ənənəvi olaraq əvəzliklərin 4halı var-Nominative- I, we;Objective-me, us;Genitive-my, our; Absolute genitive-mine, ours

Bir çox dilçilərin fikrincə, onlar əvəzliklərin hal forması hesab edilə bilməz. Buna səbəb kimi əvəzliklərin eyni paradiqmaya malik olmamaları, başqa sözlə əvəzliklərin köklərinin ayrı-ayrı sözlərdən ibarət olması göstərilir.Məs. I, me, my, mine; we, us, our, ours;he, him, his, his

Nəticədə qeyd etmək lazımdır ki, müasir ingilis dilində ismin hal kateqoriyası problemi bu gün də mübahisəli bir problem olaraq qalmaqdadır.

## ƏDƏBİYYAT:

1.Ç.Filmor:”İngilis dilində ismin hal kateqoriyasının sem.-sintaktik təsnifatı”M.1960.s.:45-49.
2. Nesfield J.C.English Grammar Past and Present L.-1931.page:110-112.
3.Sweet H. New English Grammar, Logical and Historical part I, Oxford-1904.page.41-44.
4. Khaimovich B.S., Rogovskaya B.I. A course English Grammar M.-1967.page:136-138.
5.C.Körn:”Müasir İngilis dilində ismin hal kateqoriyasına dair”M.1978.s.58-62.
6.Ilyish B. The Structure of Modern English M.-1974.page:88-96.
7..Oruc Türksevər (Musayev), İngilis dilinin qrammatikası, B.-2007.səh:134-139

**Z.Mammadova**

## ABOUT SOME LINGUISTIC TEORETIC PROBLEMS OF THE NAME CATEGORY IN ENGLISH

**Summary**

This article has been dedicated to the category of case of nouns in Modern English.It is known that the category of case in Modern English represents seriouslinguistic problem. The linguists' opinion differ, firstly, on the occasion of existanse of the category of case in Modern English, how many case forms there are in Modern English. All 4 theories suggested by different
scholar at different times and concerning the category of case in Modern English have been analysed
in this article.It should be noted that the fact that the name has an analytical case category is one of the **controversial issues.**

This, in turn, is closely related to whether lexical words have lexical meaning. There is a difference of opinion among linguists in this area as well: some linguists H.Suit, OPSunik- believe that words do not have lexical meaning, other linguists (VNYartseva, -BSKhaymovich, B.I. .Rogovskaya believe that words have a lexical meaning.

If we approach the issue as group I linguists say, that is, if we consider that words do not have a lexical meaning, then we can accept that the noun has an analytical case in modern English. However, if we agree with the opinion of group II linguists, that is, if we consider that words have a lexical meaning, then it cannot be said that the noun has an analytical case in modern English.

**Key words: word order, noun case category, term, development. classification.**

**З.Маммадова**

## О НЕКОТОРЫХ ТЕОРЕТИЧЕСКИХ ЛИНГВИСТИЧЕСКИХ ПРОБЛЕМАХ КАТЕГОРИИ ПАДЕЖЕЙ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

**РЕЗЮМЕ**

Данная статья посвящена категории падежа существительных в современном английском языке. Известно, что категория падежа в современном английском языке представляет собой серьезную лингвистическую проблему.

Мнения лингвистов расходятся, во-первых, по поводу существования категории падежа в современном английском языке, сколько падежных форм в современном английском языке. Все 4 теории, предложенные разными
исследователем в разное время и относительно категории падежа в современном английском языке.

В данной статье. Следует отметить, что наличие в названии падежно-аналитической категории является одним из спорных вопросов. Это, в свою очередь, тесно связано с тем, имеют ли лексические слова лексическое

значение. Среди лингвистов и в этой области существуют расхождения во мнениях: одни лингвисты Х.Сюит, О.П.Суник- считают, что слова не имеют лексического значения, другие лингвисты (В.Н.Арцева, -Б.С.Хаймович, Б.И.Роговская считают, что слова имеют лексическое значение. Если подойти к вопросу так, как говорят лингвисты группы I, то есть если учесть, что слова не имеют лексического значения, то можно принять, что существительное имеет аналитический падеж в современном английском языке.Однако, если согласиться с мнением лингвистов группы II, то есть если учесть, что слова имеют лексическое значение, то нельзя сказать, что существительное имеет аналитический падеж в современном английском языке.

**Ключевые слова: порядок слов, падежная категория существительного, термин, развитие, классификация.**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya elmləri doktoru,dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur**

**BAĞIROVA SEVİNC AĞADİN QIZI**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Filologiya üzrə fəlsəfə doktoru,b\m**
**H.Əliyev 92.**
**sevincbagirova@mail.ru**

# İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ TERMİNOLOJİ ABBREVİASİYA VƏ ONUN SÖZ YARADICILIĞINDA ƏHƏMİYYƏTİ HAQQINDA

**Xülasə**

*Abreviasiyanın şüurlu söz yaradıcılığı üsulu kimi dilin terminolgiya qatının zənginləşdirilməsində rolu böyükdür. Lakin konvensial və yüksək informativlik tələb edən kimi terminologiya üzərində daim filoloji və professional nəzarətin aparılması vacib məsələdir. Belə ki, bu ən mütəhərrik və ən dəyişkən leksik tərkibə malik leksik-semantik lay elmin və texnikanın, iqtisadiyyatın və siyasi şəraitin dəyişməsi ilə paralel surətdə daim yeniləşir, çox vaxt köhnəlmiş elmi və fəlsəfi görüşlərə aid terminoloji vahidlər dildən sıxışdırılır, arxaizmə çevrilir.*

*Terminoloji sistemin tələbləri içərisində diqqəti cəlb edən əsas problemlərdən biri də dildə artıq, lazımsız əhəmiyyət kəsb edən sözcülüyün, ifrat işarəliliyin aradan qaldırılması və beləliklə, az sözlə çox informasiya ifadə edilməsi, terminlərin fonetik və ya qrammatik strukturunun qısa verilməsi ilə bağlıdır. Bütün bunlar dilin terminologiya sistemində abreviasiya üsulu ilə soz yaradıcılığını ön plana çəkir.*

*Elmi üslubda eyni (əsas terminoloji) söz və ifadələrin dəfələrlə geniş formada bir mətndə təkrarlanması informativlik baxımından arzuedilməz sayılır. Bu, bir tərəfdən, elmi əsərin dilini ağırlaşdırır, onu oxuyanı yorur, fikrini dağıdır, ikinci tərəfdən, adətən, məsələn, tezislərdə və bu qəbildən az yer ayrılmış elmi-tematik məcmuələrdə artıq yer tutulmasına səbəb olur, müəllif fikrini hərtərəfli ifadə etməyə mane olur.*

***Zinder L.R. Obhaə fonetika. M.: 1979.c.156 kitabında yazır**:" Məhz buna görə də elmi əsərlərdə abreviasiyanın müxtəlif növlərindən istifadə etməklə çox işlənən terminləri abreviatur formasında təqdim etmək aktuallıq kəsb edir.Dil maneəsinin aradan qaldırılması üsullarından biri milli və beynəlxalq səviyyələrdə geniş inkişaf etdirilmiş elmi-texniki terminlərin standartlaşdırılmasıdır**.(1.c.156).*

*Standartlaşdırılaraq tövsiyə olunan terminlər massivi yüz minlərlə ölçülür. Standartlaşdırılmış terminlərdən praktiki və elmi yaradıcılıqda istifadənin, lazımlı termin və xarici dillərdə onun ekvivalentlərinin tez axtarılıb tapılmasının mümkünlüyünün zəruri şərtlərindən biri həmin terminlərin EHM-də verilənlər bankı şəklində saxlanılması və işlənməsidir. Bu bankların hər biri özündə bir neçə mindən milyonlara qədər terminoloji vahid saxlayır. Terminoloji verilənlər*

*bankının əsas məqsədi istifadəçiləri keyfiyyətli lüğət informasiyaları ilə təmin etməkdir.*

***Açar sözlər:abbreviatura,terminologiya,söz yaradıcılığı,inkişaf,söz.***

*XX əsrin 90-cı illərinin II yarısından başlayaraq Azərbaycan dilində mətnlərin emalı və MT sahəsində kompüter sistemlərinin yaradılması istiqamətində praktiki işlərin yerinə yetirilməsi geniş vüsət almışdır. Xüsusilə də 1994-cü ildə bağlanmış «Əsrin müqaviləsi» adlanan neft kontraktları bu sahədə görülən işlərə təkan vermişdir.*

*Bu yeniliklərlə yaranan külli miqdarda abreviaturların dildə fəaliyyət göstərməsinə ehtiyac duyuldu. AMEA-nın (Azərbaycan Milli Elmlər Akademiyasının) Kibernetika, Dilçilik və İnformasiya Texnologiyaları institutlarında aparılmış elmi-tədqiqat işlərindən bəhrələnən bir çox təşkilat və fərdlər Azərbaycan dili mətnlərinin avtomatik emalı sistemlərinin yaradılmasıda uğurlu addımlar atdılar. Müasir tələblərə cavab verən kompüter lüğətləri və buradakı yeni yaranan abreviaturların mətndəki düzgünlüyünü yoxlayan sistemlər yaradıldı və lüğətlər hazırlandı. Bu da informasiya-kommunikasiya sahəsində, xarici dillərin öyrənilmə, mətnin xarici dildən ana dilinə və əksinə tərcüməsində ən yüksək nəticələr əldə edilməsinə təkan verəcək və informasiyanı tezləşdirəcəkdir.*

***Fəxrəddin Yadigar. "Fonetika və Fonologiya məsələləri". B: Maarif, 1993****.O bu" əsərində qeyd edir:"Elmi əsərlərdə işlənən abreviaturları mahiyyətinə görə bir neçə yerə bölmək olar:Elmi əsərlərdə situativ-üslubi ixtisarlardan istifadə edilir. Bunun əsas məqsədi təkrarçılığın aradan qaldırılması və əsərin dilinin yüngülləşdirilməsi, fikrin tez və asan başa düşülməsi, informasiyanın yığcam şəkildə çatdırılması ilə əlaqədardır.*

*Məsələn, elmi-texniki terminologiya, ictimai-siyasi terminologiya və qeyri-üzvi kimya terminologiyası anlayışlarını bu sahələrin terminologiyasına aid tədqiqat əsərlərində dəfələrlə işlətmək lazım gəlir ki, bu cür terminişlətmə də müəllifin işini ağırlaşdırır və bəzən abreviaturlar fərqli mənalara, söz birləşmələrinə mənsub olsalar da, eyni ixtisarlarla işlətmək olur ki, bu da abreviaturun başa düşülməsinə əngəl törədir****.(2.s.92****)*

*Odur ki, onların mətndaxili (müvafiq olaraq (ETT), qeyd edək ki, bu inisial başqa yerdə «elmi-texniki tərəqqi» kimi də başa düşülə bilər), İST və QÜKT kimi situativ-üslubi ixtisarlar şəklində işlədilməsi əhəmiyyət kəsb edir. Nümunə üçün qeyd edək ki, belə abreviasiyadan rusdilli elmi-tədqiqat əsərlərində daha geniş istifadə olunduğunu müşahidə edirik. Misal üçün, V.İ.Akimova, O.A.Albul, A.C.Belaya, A.A.Buryaçok, L.P.Vasilyeva, K.P.Suslova, L.V.Saxarova, A.D.Xeyutin kimi tədqiqatçıların dissertasiya işlərində* «Obhestvenno-politiçeskaə terminoloqiə» *və* «Obhestvenno-politiçeska leksika» *söz birləşmələri geniş şəkildə OPT, OPT kimi terminologiya və OPL formalarında ixtisarla işlədilmişdir. Q.A.Panovun dissertasiyasının isə hətta adında da abreviatur işlədilmişdir.*

*Azərbaycan dilində isə alimlərimiz öz əsərlərinin dillərində abreviasiyanın bu növündən çox nadir hallarda faydalanırlar ki, bu da əsərdə informativ tutumu daraldır, akademiklik səviyyəsini aşağı salır.*

*Rus dilində OPT, OPT terminologiya, OPL, Azərbaycan dilində misal gətirdiyimiz ETT, İST, QÜKT mətndaxili abreviaturları çox işlədildikcə, elmi terminologiyaya və deməli, dilin leksik tərkibinə daxil ola bilir.*

*İngilis dilində IEE* – Institution Electrical Engineers; *IF* – intermediate frequency; *IFC* – International Finance Corporation; *I. Gas E.* – Institution of Gas Engineers; *ILO* – International Labour Organization; *C.-in-C* – Commander-in Chef; *CIE* – Companion (of the Order) of the Indian Empire;*Chr,*Chronicles,*(OT)*; *Ch. M.* – Master of Surgery – [f. L Chirurgical Magister]; *BVM* – Blessed Virgin Mary; *BWI* – British West Indies; *ARC* – Agricultural Research Council; *AR* – Arkansas; *ARA* – Associate of the Royal Academy; *ALS* – autograph lett signed; *AM* – amplitude modulation; * Master of Arts [f. L Artium Magister]; Member of the Order of Australia; in the year of the world [f. L anno mundi]; a. m. before noon [f. L ante meridiem]; *AMA* – American Medical Association, Australian Medical Association; *BOD* – biochemical oxygen demand; *ROTC* – Reserve Officers Training Corps; *SO* – Stationary Office; *So** – South; *OWLS* – Oxford Word & Language Service.

*1.İngilis dilindəki abreviaturların istifadə edilməsi yolları çox geniş vüsət tapmışdır və onların işlədilməsi funksional-üslubi xarakter daşıyır.*

*2.İbtidai dövrlərdən tanış olan mətnyaradan ixtisarlar da müasir elmi əsərlərdə işlədilir. Texniki elmlərə aid tədqiqat işlərində bu ixtisarların müxtəlif variantlarına rast gəlirik. Burada işlədilən ixtisarlar qrafik xarakter daşıyır və elmi əsərlərə əlavə edilmiş şəkillərin yanında, cədvəllərin içərisində və yanında, çıxarışlarda və s. yerlərdə müəyyən bir adı, fikri qısaca çatdırmaq üçün və çox böyük yer sərf etməmək xatirinə tətbiq olunur.*

*3.Elmi əsərlər və ümumiyyətlə dil üçün daha əhəmiyyətli sayılan abreviaturlar isə terminologiyanın özü ilə bağlıdır.*

*Təəssüflə müşahidə edirik ki, başqa dillərin elmi terminologiyasında geniş işlədilən abreviasiya priyomlarından Azərbaycan dili terminoloji laylarında çox cüzi bir hissə və əsasən, misallar formasında istifadə olunur.*

*İndiyədək ana dilimizdə kalka yolu ilə, yaxud tərcümə nəticəsində yaradılmış abreviatur-terminləri iki qrupa bölmək olar: qrafik abreviaturlar və leksik abreviaturlar. Lakin qrafik abreviaturlar terminologiyamızda əksəriyyət təşkil edir. Bunlarla yanaşı, klassik dillər əsasında formalaşmış kimya, fizika, riyaziyyat və digər texniki elmlərə aid abreviatur-terminlər qrupu da Azərbaycan dilində özünə mövqe qazanmışdır.*

*Əgər Azərbaycan əlifbası ilə yazılmış abreviatur-terminlərimizi ana dilimizin vahidləri cərgəsinə daxil etmək adi haldırsa, orijinalda olduğu kimi işlədilən beynəlxalq terminlərin bu kateqoriyaya şamil edilməsi qeyri-mümkündür.*

*Beləliklə, dilimizin terminoloji sistemində rast gəlinən məhdud sayda abreviaturları aşağıdakı kimi üzə çıxara bilərik:*

1. **Qrafik abreviaturlar**

*Abreviasiya mexanizminin artıq şərh etdiyimiz ən müxtəlif cəhətləri Azərbaycan dilinin qrafik abreviatur-terminləri dəstində özünü göstərir. Müqayisə üçün aşağıdakı misalları göstərmək olar:* kiloqram – kq, qram – q, kilometr – km, metr – m, santimetr – sm, desimetr – dm, hektar – he, sentner – s., kvadrat – kv. *kimi abreviaturlar milli terminologiyamızın vahidləri sayıla biləcək qrafik FİƏ // F.İ.Ə. // f.i.ə.* – faydalı iş əmsalı, *e. əv. // e. ə.* – eramızdan əvvəl, *man.* – manat, *qəp.* – qəpik *abreviaturları ilə eyni hüquqlara malikdir: onlardan hər biri abreviatur formasında yazılır, lakin bütöv şəkildə oxunur.*

**2. Leksik abreviaturlar**

*Terminologiyamızda və ümumiyyətlə hər cür situativ-üslubi məqamlarda işlədilən vahidlər içərisində leksik abreviasiyanın inisial növündən daha çox istifadə olunur. Belə inisial-terminlərdən şifahi nitqə keçənlər həm də dilin tamhüquqlu sözləri səviyyəsinə qalxır.*

*Misal üçün, biologiyada DNT və RNT terminləri xüsusi turşuların tam və geniş adlarını demək olar ki, sıxışdırıb aradan çıxarmışdır və özləri terminoloji ad kimi şifahi nitqdə də işləkdir. Azərbaycan dilindəki «ATS», «BDU», «MDB», «BBS», «MSK» sözlərində maksimum ton tezliyi sonuncu hecada qeydə alınır. İngilis dilindəki* «infinitive» *və* «abstract» *sözlərində bu 264-184 hs və 274-190 hs müstəqil vurğulu ixtisarlarda maksimum ton tezliyi ikinci hecada qeydə alınmışdır.*

3. **Beynəlxalq formalı abreviaturlar**

*Tibbdə, riyaziyyatda, musiqişünaslıqda, kimyada daha çox yayılmış* limit – *lim,* sinus – *sin,* kosinus – *cos,* kotangens – *ctg və s. kimi terminlərin, həmçinin leksik abreviaturların digər növləri də elmin müxtəlif sahələrinə aid ədəbiyyatda işlədilir ki, bunların əksəriyyəti əslində rus və Avropa dillərinin məhsuludur.*

*Digər tərəfdən, onların tərkib hissələrinin Azərbaycan dili terminoloji sistemində işlənildiyini nəzərə alaraq, məlum prinsiplərə əsasən şərti olaraq Azərbaycan dilinin abreviaturları cərgəsində öyrənilməsi düzgündür. Həm də bu müvafiq abreviasiya priyomlarının alim və mütəxəssislərimiz tərəfindən praktiki qavranılması, tətbiq edilməsi gələcəkdə milli əsaslı terminlərimizin yaradılması perspektivlərinin açılması üçün vacibdir.*

***S.Bagirova On the problems of terminological abbreviation in the modern linguistic system.B.1987.məqaləsində müəllif yazır:****”Цмумиййятля, лексик-абревиатур терминляр йаратмаг цчцн дцнйа елминин дилиндя истифадя олунан сцни терминйаратма методларындан файдаланмаг цчцн алимляримиз даща гятиййятли ишлямялидирляр.*

*Məlumdur ki, rus dilində və Avropa dillərində hazırda klassik dillərdən qalmış çoxlu sayda morfem (abreviatur) variantlarından istifadə olunur. Yunan və latın dillərindən götürülmüş* mikro-, makro-, bero-, bio-, geo-, kosmo-, astro-, avia-, aero-, avto-, *həmçinin* -navt, -loq, -logiya *kimi çoxlu sayda morfemlər və ya*

*morfem qalıqları süni quraşdırma yolu ilə orijinal terminoloji neologizmlərin yaradılması üçün hər an əcnəbi alimlər tərəfindən istifadə olunur. N.V.Yuşmanov göstərir ki, rus dilində belə hazır abreviatur parçalarının sayı 1100-ə çatır. İngilis dilində isə onlardan 1150-si qeydiyyata alınmışdır.(**3.p.141)***

*Azərbaycan dilində rus dilindən kalka yolu ilə termin yaradıcılığında bu morfemlərin işlədilməsi müşahidə edilmişdir.*

*Məsələn,* aerofotoşəkil, aviadəstə, avtotəkər, mikrosahə, makrodünya, geosiyasət *kimi azsaylı terminlər kalka üsulu ilə yaradılmışdır.* «Mikrobakteriya» *sözündən formalaşmış* mikrob *abreviatur-termini, həmçinin* biotexnika, biomexanika, kosmonavt, kosmodrom *kimi klassik əsaslı (abreviasiya məhsulu əsasında) yaradılmış beynəlxalq terminlər dilimizə hazır şəkildə daxil olmuşdur.*

*Təcrübə göstərir ki, bu hazır morfem və morfem qalıqlarının prefiks və affiks formasında bir-biri ilə birləşdirilməsi nəticəsində asanlıqla beynəlxalq aləmdə etiraf edilə biləcək terminlər qurmaq mümkündür. Eyni zamanda bu morfemlər hər bir dilin öz sözləri ilə də birləşdirilə bilər.*

*Hazırda bir sıra dillər arasında türk dillərində bu beynəlxalq vahidlərin mövcud olub-olmaması haqqında mübahisəli fikirlər hökm sürür. Alimlərdən bir qismi bu dillərdə rus dilinin təsiri **altında** haqqında danışdığımız beynəlxalq morfemlər fondunun türk dillərində də formalaşdığını göstərirlər.*

**İstifadə olunmuş ədəbiyyat:**

*1.Zinder L.R. Obhaə fonetika. M.: d 1979.c.156*

*2.Fəxrəddin Yadigar. Fonetika və Fonologiya məsələləri. B: Maarif, 1993.s.92.*

*3.S.Bagirova On the problems of terminological abbreviation in the modern linguistic system.B/1987.p.141.*

4. V.V.Akulenko çıxış edir: «Qreko-Latinskie suffiksı (prefiksı, infiksı, affiksı M.1978.C.132.

***S.Bagirova***

**ABOUT THE TERMINOLOGICAL ABBREVIATION IN ENGLISH AND AZERBAIJAN LANGUAGES AND ITS SIGNIFICANCE IN WORD CREATION**

**Summary**

*The role of abbreviations in the development of the terminological layer of language as a method of conscious word formation is great. However, it is*

*important to maintain constant philological and professional oversight of terminology, as it requires conventionality and high information. Thus, lexical-semantic clay, which has a modern and variable lexical structure, is constantly evolving in parallel with the changes in science and technology, economics and political conditions, and is often very old.*

In our terminology and in general, the initial type of lexical abbreviation is used more often in the units used in all situational-stylistic terms. From such initial-terms,

the healing speech can also rise to the level of the full words of the language. For example, in biology, the terms DNA and RNA refer to the full and broad names of special acids, which are condensed and omitted, and their faces are also used in oral speech as terminological names. In the words "ATC", "БДУ", "МДБ", "ББС", "МСК" in the Azerbaijani language, the maximum tone frequency is recorded in the upper and lower part. In "infinitive" and "abstract" sentences in the English language, the maximum tone frequency in these 264-184 and 274-190 independent accented contractions was recorded in the second cheek.

The various aspects of the abbreviation mechanism, which we have already explained, are manifested in the set of graphic abbreviations-terms of the Azerbaijani language. For comparison, we will give the following examples: kilogram - kg, gram - g, kilometer - km, meter - m, centimeter - cm, decimeter - dm, shektar - še, centner - s., square - sq. such as abbreviations, the graph that can distinguish the differences of our national terminology ФИЯ // Ф.И.Я. // ф.и.я. - useful work yamsaly, e. come on // e. я. - before our era, man. - manat, гяп. - has the same rights as phonetic abbreviations: each of them is written in the form of an abbreviation, but read as a whole.

**Key words: abbreviation, terminology, word creation, development, vocabulary.**

**С.Багирова**

## О ТЕРМИНОЛОГИЧЕСКОЙ СОКРАЩЕНИИ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ И ЕГО ЗНАЧЕНИИ В СЛОВООБРАЗОВАНИИ

**Резюме**:

Велика роль аббревиатур в развитии терминологического пласта языка как способа сознательного словообразования. Тем не менее, это важно поддерживать постоянный филологический и профессиональный контроль за терминологией, так как она требует условности и высокой информативности. Таким образом, лексико-семантическая глина, имеющая современную и вариативную лексическую структуру, постоянно развивается параллельно с изменениями в науке и технике, экономике и политической конъюнктуре, и зачастую очень старая.

В нашей терминологии и вообще исходный тип лексической аббревиатуры употребляется чаще в единицах, употребляемых во всех ситуативно-стилистических терминах. От таких исходных терминов целительная речь может подняться и до уровня полных слов языка.

Например, в биологии термины ДНК и РНК относятся к полным и широким названиям особых кислот, которые сокращаются и опускаются, а их лица употребляются и в устной речи как терминологические названия. В словах «АТС», «БДУ», «МДБ», «ББС», «МСК» на азербайджанском языке максимальная частота тона записывается в верхней и нижней части. В «инфинитивных» и «абстрактных» предложениях английского языка максимальная частота тона в этих 264-184 и 274-190 самостоятельных ударных сокращениях регистрировалась во второй щеке.

Различные аспекты механизма аббревиатуры, которые мы уже разъяснили, проявляются в наборе графических аббревиатур-терминов азербайджанского языка. Для сравнения приведем следующие примеры: килограмм - кг, грамм - г, километр - км, метр - м, сантиметр - см, дециметр - дм, шектар - ше, центнер - с., квадрат - кв. такие как аббревиатуры, графы, которые позволяют различать отличия нашей национальной терминологии ФИЯ // Ф.И.Я. // ф.и.я. - полезная работа ямсалы, е. давай // е. я. - до нашей эры, человек. - манат, гяп. - имеет те же права, что и фонетические сокращения: каждое из них пишется в виде сокращения, но читается как единое целое.

**Ключевые слова: аббревиатура, терминология, словотворчество, развитие, слово.**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru.dosent Rəfiq Cəfərov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**SEVİL NƏCƏFOVA**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Azadlıq, 20**
**sevilnecefova99@gmail.com**

# MÜASIR AZƏRBAYCAN DILINDƏ ALINMALARIN IŞLƏNMƏSI

*Açar sözlər: ana dili, alınma söz, dillərarası əlaqə , rus dili , **LEKSIKA***

*Ключевые слова: родной язык, иноязычные слова, межязыковые, русский язык , **LEKSIKA**,*

*Key words: mother tongue, adopted word, russian language, language system, **LEXICA***

**Xülasə**

Bu məqalə müasir Azərbaycan dilində alınmaların işlənməsi haqqındadır.

Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Türk dillərindən biri kimi müasir Azərbaycan dili özünəməxsus xüsusiyyətləri ilə fərqlənən, fonetik və qrammatik quruluşu olan bir dildir. Yeni dövr Azərbaycan ədəbi dilinin üçüncü, yəni müasir mərhələsində dil həyatının mühüm hadisələrindən biri Azərbaycan ədəbi dilinin dövlət dili statusu almasıdır. Ulu öndərin "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi sox sevir və bu dildə danışmağımla fəxr edirəm" müdrik kəlamı ana dilimizə olan məhəbbət və hər bir soydaşımız üçün örnəkdir. Məlum olduğu kimi tarixən dünya xalqları bir-biri ilə qarşılıqlı əlaqədə olmuş, bu gün də dünya dövlətləri arasında sosial-iqtisadi, siyasi, mədəni və s əlaqələr gün-gündən artmaqda və inkişaf etməkdədir.Şübhəsiz ki, bu əlaqələr dildən də yan keçmir. Müasir Azərbaycan dilinin lüğət tərkibi olduqca zəngindir. Dilimizdə əsl türk sözləri ilə yanaşı, həm formaca, həm də məzmunca türkləşmiş ərəb və fars mənşəli sözlər işlənir. Alınma sözləri məqsədinə görə iki qrupa bölmək olar: 1) məcburi alınmalar;2) zəruri alınmalar.

Alınma sözlər, ilk növbədə, lüğət tərkibini zənginləşdirməklə xalqların, mədəniyyətlərin bir-birinə inteqrasiyasını təmin edir. Alınma sözlərin dilə təsirinə gəlincə onu qeyd etmək lazımdır ki, əgər alınmalar zərurət nəticəsində dilə gəlirsə, o zaman müsbət təsir edir, lüğət tərkibinin zənginləşməsinə xidmət edir. Əgər alınmalar məcburi yolla dilə gətirilirsə, bu zaman onlar dildə dağıdıcı funksiya daşıyır. Məhz bunun nəricəsində dilə bir çox alınma sözlərdaxil olur və kimlik qazanır. Heç bir dil alınma sözlərdən təcrid olunmayıb və oluna da bilməz. Azərbaycan dilindəki alınma sözlər əsl Azərbaycan sözləri üçün səciyyəvi olmayan aşağıdakı xüsusiyyətlərə malikdir:

Sözdə iki saitin yanaşı işlənməsi,Sözdə uzun tələffüz olunan saitin işlənməsi (Avropa mənşəli sözlərdə uzun tələffüz olunan sait olmur),Sözün "r" samiti ilə başlanması,

Sözdə j samitinin işlənməsi (istər sözün əvvəlində, sonunda, istərsə də ortasında,.

Vurğusu son hecaya düşməyən sözlərin çoxu,Sözdə ahəng qanununun pozulması

Bundan başqa dildə alınma sözlərin mövcudluğu onun inkişafını ləngitmir, əksinə dili inkişaf etdirir, lüğət fondunu zənginləşdirir. Alınma sözün milliləşməsinə dilin daxili imkanı çatmırsa, deməli həmin alınmanın işlənməsi labüddür.Alınma sözlər o halda dilə zərbə vurub, onun inkişafını ləngidə bilər ki, onlardan yerli-yersiz istifadə olunsun və ya dildə qarşılığı olduğu halda alınma sözlərə üstünlük verilsin.

**НАДЖАФОВА СЕВИЛЬ**

**Использование заимствованных слов в современном Азербайджанском языке**

В данной статье рассматривается применение заимствованных слов в современном азербайджанском языке.

Именно язык каждого народа поддерживает и развивает национальные и нравственные ценности. Как один из тюркских языков, современный азербайджанский язык представляет собой язык с уникальными особенностями, фонетической и грамматической структурой . Великий лидер сказал: «Наш язык очень богат и гармоничен, он имеет глубокие исторические корни. Лично я очень люблю свой родной язык и горжусь тем, что говорю на нем" мудрое изречение - это любовь к родному языку и пример для каждого соотечественника.

Кроме того, наличие в языке заимствованных слов не тормозит его развитие, наоборот, развивает язык и обогащает словарный запас. Словарный запас современного азербайджанского языка достаточно богат. Помимо настоящих тюркских слов, в нашем языке используются слова арабского и персидского происхождения, тюркизированные как по форме, так и по содержанию.

Заимствованные слова, в зависимости от их назначения, можно разделить на две группы:

1) принудительные слова;

2) необходимые слова.

Заимствованные слова, прежде всего, обеспечивают интеграцию народов и культур, обогащая словарный запас. Относительно влияния заимствований на язык следует отметить, что если заимствованные слова вливаются в результате необходимости, то они оказывают положительное влияние и служат для обогащения словарного запаса. Если заимствования принудительно внедряются в речь, то они несут в языке деструктивную функцию.

Если внутренних возможностей языка недостаточно для огосударствления заимствования, то необходимо обработать это заимствование.Заимствования могут воздействовать на язык и замедлять его развитие, так что они используются не к месту, или предпочтение отдается заимствованиям если есть эквивалент в языке.

Заимствованные слова в азербайджанском языке имеют следующие особенности, не характерные для настоящих азербайджанских слов:

Одновременное употребление двух гласных в слове,

Обработка долго произносимой гласной в слове (слова европейского происхождения не имеют долго произносимой гласной), Слова, начинающиеся на согласную,Употребление согласного в слове (либо в начале, либо в конце, либо в середине слова),Большинство слов без ударения на последний слоq,Нарушение так называемого закона гармонии.

Как известно, исторически народы мира взаимодействовали друг с другом, и сегодня с каждым днем возрастают и развиваются социально-экономические, политические, культурные и др. отношения между странами мира. обходить язык. Именно в ходе этого процесса многие заимствованные слова входят в язык и обретают идентичность. Ни один язык не может быть изолирован от заимствований.

**SEVIL NAJAFOVA**

**Use of borrowed words in modern Azerbaijani language**

**Summary**

This article is about the application of borrowings in modern Azerbaijani language.

It is the language of every nation that keeps alive and develops the national and moral values.

As one of the Turkic languages, the modern Azerbaijani language is a language with unique features, phonetic and grammatical structure. The great leader said, "Our language is very rich and harmonious, it has deep historical roots. Personally, I love my mother tongue very much and I am proud to speak it" wise saying is a love for our mother tongue and an example for every compatriot.

As it is known, historically the peoples of the world have interacted with each other, and today socio-economic, political, cultural, etc. relations between the countries of the world are increasing and developing day by day. The vocabulary of the modern Azerbaijani language is quite rich. In addition to real Turkish words, our language uses words of Arabic and Persian origin that have been Turkified in both form and content.Undoubtedly, these relations do not bypass language.

Borrowed words, depending on their purpose, can be divided into two groups:

1) forced words;

2) the necessary words.

Borrowed words, foremost, ensure the integration of peoples and cultures, enriching the vocabulary. Regarding the influence of borrowings on the language, it should be noted that, if the borrowings are accepted as a result of necessity, then they have a positive effect and serve to enrich the vocabulary. If borrowings are forced into speech, then they carry a destructive function in the language.

It is during this process that many borrowed words enter the language and acquire identity. No language is and cannot be isolated from loanwords. Borrowed words in the Azerbaijani language have the following features that are not typical for real Azerbaijani words:

1. The simultaneous use of two vowels in a word
2. The processing of a long pronounced vowel in a word (words of European origin do not have a long pronounced vowel Words starting with the consonant .The use of the consonant j in the word (either at the beginning, end, or middle of the word) , etc. Words like *kijı* and *kığıltı are exceptions.*
3. Most of the words without stress on the last syllable

etc. *Say* , *say* , *yesterday* , *how* , *but* , *only* , *as if* the words are an exception.

4. Violation of the so-called law of harmony

In addition, the presence of borrowed words in the language does not slow down its development, on the contrary, it develops the language and enriches the vocabulary. If the internal ability of the language is not enough for the nationalization of a loanword, then it is necessary to process that loanword. Loanwords can affect the language and slow down its development, so that they are used out of place, or loanwords are preferred if there is an equivalent in the language.

Dil mədəniyyətin inkişafında aparıcı amillərdən biridir. Hər bir dilin lüğət tərkibi tarixi inkişaf prosesində müxtəlif dillərin təsiri altında alınma sözlərlə zənginləşmişdir. Alınma sözlərdən istifadə nitq mədəniyyətinin keyfiyyətinə bu və ya digər dərəcədə təsir etmişdir. Bunun əsas səbəbi daha çox dillərin bir – biri ilə geniş əlaqələri olmuşdur. Bu gün isə dünya elə bir surətlə inkişaf edir ki, istər elm ,istərsə də həyatın bir çox, sahələrində yeni sözlər yaranır. Beynəlxalq əlaqələr də dillər arasında qarşılıqlı əlaqələrin yaranmasında və zənginləşməsində öz əksini tapır. Hazırda Qərbə inteqrasiya, elm və texnikada baş verən inkişaf, yeniliklər dilimizə bir çox alınmaların keçməsi ilə nəticələnir . Ümumiyyətlə ,dünyada elə bir dil tapılmaz ki, onun lüğət tərkibində alınma söz olmasın. Lakin cəmiyyət inkişaf etdikcə yeni yaranan anlayışların ifadə olunmasında milli dilin terminləri kifayət etmədiyindən başqa dillərdən də terminlərin alınmasına ehtiyac duyulur.Başqa dillərdə olduğu kimi,Azərbaycan dili də bu kimi sözlərə ehtiyac duyur. Dilimizin istər aktiv və istərsə də passiv lüğət fondunda kifayət qədər alınma sözlər vardır ki, hətta onlar öz milli sözlərimizdən sayca çoxluq təşkil edir.Yeri gəlmişkən, lüğət fondunda söz axını hələ də davam etməkdədir. Alınma sözlər isə dilin doğma faktorları kimi lüğət fondunda özünəməxsus səciyyə daşıyır. Alınma proqressiv bir

proses olub, dilxarici və dildaxili amillərin təsiri ilə meydana çıxır və dilin lüğət tərkibinin zənginləşməsində böyük rol oynayır.

Lakin başqa dillərdən keçən sözlər keçdiyi dilin daxili inkişaf qanunlarına tabe olaraq işlədilir və bunun nəticəsində də çox zaman həmin sözlərin hətta alınma söz olub -olmadığını müəyyənləşdirmək çətin olur. Ümumiyyətlə ədəbi dilə gətirilən yeni sözlər zaman-zaman dildə işləklik qazanaraq öz mövqeyini qoruyur. Vaxtilə Azərbaycan dilində "translyasiya," "plyaj", "multik" və s.sözləri işlənirdi, sonradan həmin sözlərin yerini "canlı yayım", "çimərlik", "cizgi filmi" sözləri tutdu və bu gün onlar fəal işlənir. Son illərdə dilimizə daxil olan sözlərdən biri də "şou" sözüdür, halbuki dilimizdə onun qarşılığı olan "əyləncə" sözü var".

Alınma terminlərin fonetik mənimsənilməsi haqqında xüsusi qeyd edərək A.Axundov yazir: "...rus dilindən və rus dili vasitəsilə Avropa dillərindən dilimizə keçən sözlərdə də dəyişikliklər mövcuddur. Həmin dillərdən keçən sözlərin böyük bir qismi Azərbaycan dilinin ahəng qanununa uyğunlaşmış və fonetik cəhətdən onları bəzən Azərbaycan sözlərindən fərqləndirmək mümkün deyil"( 1. 15.)

Azərbaycan dilində alınma sözlərin xarakterini təyin etmək üçün dilin tarixi mənzərəsinə nəzər salsaq, hələ VII əsrdən başlayaraq ərəb, fars və rus işğalçılarının xalqımızı, onun dilini məhv etmək niyyətində olduğunu görərik.Lakin xalqımız bu çətin sınaqlardan şərəflə çıxaraq öz doğma Azərbaycan dilini qoruyub saxlamış və zənginləşdirmişdir.Hələ XI-XII əsr türklərinin dilindəki ərəb-fars alınmaları dini səciyyəli sözlər olub və Quran tərcümələri ilə əlaqədar olaraq, XII əsrdə dilimizə keçməyə başlamışdır.Lakin XIX yüzilliyin ortalarından başlayaraq isə rus, Avropa sözlərinin Azərbaycan ədəbi dilinə geniş axını başlamışdır. Məhz ona görə bu gün də ərəb-fars, türk- Osmanlı və rus-Avropa mənşəli sözlər dilimizdə çoxluq təşkil edir. Hətta dilin lüğət tərkibində alınma sözlərin miqyası sonrakı dövrlərə nisbətən xeyli çox olmuş və məhəlli səciyyə daşıyan dialektlər belə, çoxlu sayda "rusizm"lə "zənginləşmişdir. A.Qurbanov alınma sözlərə belə tərif verir: «Bu və ya digər dilin başqa dildən aldığı sözə alınma söz deyilir... Sözlər bir dildən başqasına müxtəlif şərait və zamanlarda, müxtəlif səbəblərdən və bir sıra yollarla keçir» (2.84, )

Bu gün Azərbaycan ədəbi dilinin lüğət tərkibində elə alınma sözlər var ki, onların türkcə (azərbaycanca) qarşılığı bizə məlum deyil. Hətta həmin sözlər dilimizə keçməzdən əvvəl onları əvəz edən milli sözlərin olmasını təsəvvür etmək belə çətindir. Lakin bu, o demək deyil ki, həmin qarşılıq sözlər tarixən də olmayıb. Məsələn , bu nümunələrdə : müəllim – ustad; qəm - kədər, ələm- qüssə- dərd , bəxtəvər- xoşbəxt , xahiş – rica-müraciət kimi alınma sözlərin əvəzinə hansı türk mənşəli sözlərdən istifadə olunub.

Bəllidir ki, söz alınmasının ilk səbəbi müəyyən anlayışları ifadə etmək üçün dildə lazımi sözün yoxluğundan doğur. Alınma sözlərin vasitəsilə isə dil zənginləşir, onun ifadəlilik imkanları daha genişlənir . Azərbaycan dilində alınma sözlər mənşəyinə görə Avropa və ərəb fars dillərindən alınma sözlər olmaqla 2 yerə bölünür. Azərbaycan dilinə daxil olan Avropa mənşəli alınma sözlərin əsas hissəsi

müasir informasiya texnologiyalardan,xüsusən də kompüter və internetdən istifadə üzündən mənimsənilmişdir. Terminoloji səciyyə daşıyan sözlər, əsasən, elmi üslubda geniş şəkildə işlənir. Bu terminlərdən bəziləri bir çox dünya dillərində işlənərək beynəlmiləl terminlər səviyyəsinə qalxmışdır. Beynəlmiləl sözlər dilimizə bir çox hallarda hər hansı anlayışı ifadə etmək üçün dilin daxili imkanları kifayət etmədikdə və alınmalar dilə daxil olur. Alınmaların mənimsənilməsi mürəkkəb prosesdir. "Alınma terminlərin fonetik mənimsənilməsi çoxşaxəli və olduqca mürəkkəb hadisədir. Alınma terminlərdə vurğunun yeri və xarakteri, saitlərin uzunluğu, qısalığı, samitlərin yumşaqlığı, qalınlığı dəyişir, heca bölgüsünün sərhədi pozulur və s. –bir sözlə, alınmalar dilimizin nitq normalarına tabe olur (3.67,s.250-51]. Yeni sözlərin, terminlərin işləklik qazanmasında, cəmiyyətə çatdırılmasında mətbuatın rolu danılmazdır. Müasir mətbuatda terminlərin bir çoxu Avropa dillərində olduğu kimi işlənir, bir qismi isə dilimizə tərcümə edilir.Terminlərin əsas xüsusiyyətləri :

a)hər bir dilin elmi üslubunda beynəlmiləl terminlər milli terminləri sıxışdırır;

b)elmi üslub get-gedə daha çox formullara, şərti işarələrə,

v) müxtəlif xalqlardan olan mütəxəssislərin hamısı üçün anlaşıqlı digər vasitələrə meyil edir;

müxtəlif araşdırmaların nəticələrinin daha çox elan edildiyi dillər (məsələn, ingilis, alman, fransız, rus və s.) müəyyənləşir.

Müasir dövrdə nəşr olunan qəzet və jurnallarda daha çox Avropa mənşəli terminlər işlənsə də, türk mənşəli terminlərin işlədilməsinə də meyl güclənmişdir. Hətta bir çox alınma terminlərin milli dildə qarşılığı yaranmış və işləklik qazanmışdır. S.Sadıqova yazır: "Bu dövrdə yaranmış texniki anlayışları bildirən tıxac, sıxac, bağlanc, süzgəc, üzlük, yorğunluq, kövrəklik, çəkisizlik kimi terminlər dildə işləklik qazanmışdır" (4.,s.5) Belə ki, riyaziyyatda işlənən — loqarifm, —tezis, —radius, —aksioma, —teorem və s. terminlər məhz beynəlmiləl səciyyə daşıyır. Bununla belə, elmi üslub əcnəbi terminologiyası ilə seçilsə də, burada süni əvəzlənməyə, dəyişməyə yol vermək olmaz. Milli dilimizin daxili imkanları hesabına yaranan terminləri kor-koranə elmilik naminə alınma terminlərlə əvəz etmək doğru olmazdı. Məsələn: dilçiliyimizdə səsartımı, səsdüşümü, səsfərqlənməsi kimi terminlər işlənilərsə, eyni fonetik hadisələri müxtəlif elmi ədəbiyyatlarda —eliziya, —proteza, —diferensiasiya şəklində ifadə etməyə ehtiyac qalmır. Müxtəlif sahələr üzrə *monitor, kartriç kikboks, skeytbol, şou-biznes, makler, market, vauçer, diler, broker, eksçenc top-şou, mesaj, imic, fitnes-klub, xit, prezentasiya, ,monitor, şoumen, feysbuuk, brifinq, debat, bankomat* kimi sözlər dilimizdə fəal sözlər kimi işlədilməkdədir. Azərbaycan dilinin söz bazasına diqqət etdikdə bu siyahıya istənilən qədər söz əlavə etmək olar. Türk dilindən alınan terminlər dilimizdə vaxtilə işlənmiş terminlərlə uzun müddət dublet (ikili) şəkildə işlənsə də işləklik qazanır, digər terminlər dilin passiv fonduna daxil olur.

Son vaxtlar Türkiyə türkcəsinin təsiri ilə türk mənşəli sözlər dilimizdə eşidilməkdədir. Onu da qeyd edək ki, türk dilindən keçən alınan sözlərin dilimizdə variantlılığı mövcuddur. Məsələn, öndər-lider, başcı - öndə gedən, önəmli - əhəmiyyətli, özəl-xüsusi, elçilik -səfirlik, dəstək (müdafiə), acıqlama (izah etmə, şərh etmə), anlaşma (müqavilə), amac (məqsəd), anayasa (konstitutsiya), basqı (təzyiq), baxım (nöqeyi-nəzər), yasa (qanun), «sorun» (problem v' s. İ.Mirtalıblı yazır: «Cəmiyyətdə gedən dəyişikliklər, sosial-iqtisadi vəziyyət, siyasi proseslər cəmiyyət üzvlərini ətrafda gedən prosesləri qavramağa məcbur edir. İctimai-siyasi terminlərlə kütləvi əlaqə də bu səbəbdən baş verir. Digər sahə terminlərindən fərqli olaraq ictimai-siyasi terminlər daha çox kütləviliyə meyllidir. Burada obyektiv və subyektiv amillər sosiolinqvistik amillərlə birgə çıxış edir (5,75)

Bu gün Azərbaycan Müasir dövrdə qloballaşma şəraitində dil əlaqələrinin inkişafı ilə bağlı alınma terminlərin müxtəlif dillərə keçməsi dillərin qarşılıqlı zənginləşmə prosesini sürətləndirmişdir. Aydın məsələdir ki, dilin lüğət tərkibində mövcud olan alınmaların hamısını dəyişmək, öz sözlərimizlə əvəzləmək mümkün deyil. Əgər süni şəkildə, kor-koranə yeni sözlər yaradılarasa, bu da doğru olmaz, çünki bu üsul da özünü lazımı səviyyədə doğrulda bilməyəcək. Bu prosses yalnız təbii yollarla aparıldığı təqdirdə uğurlu nəticələr əldə etmək mümkün olar .Yeri gəlmişkən sözlərin dilimizin daxili imkanları hesabına qarşılıqlarının yararlanması hesabına yeni sözlər və terminlərin heç bir zəruri ehtiyac olmadan mətbuatda əcnəbi sözlərdən istifadə olunur. Bu zaman mətbuatın dilində *Eurovision, Embawood, Star city, Michael, Human Rights Watch, Gabriel Garcia Marquez, Facebook, The New York Times, Volkswagen.*

Müasir dövrdə qloballaşma şəraitində dil əlaqələrinin inkişafı ilə bağlı alınma terminlərin müxtəlif dillərə keçməsi dillərin qarşılıqlı zənginləşmə prosesini sürətləndirmişdir. Aydın məsələdir ki, dilin lüğət tərkibində mövcud olan alınmaların hamısını dəyişmək, öz sözlərimizlə əvəzləmək mümkün deyil. Əgər süni şəkildə, kor-koranə yeni sözlər yaradılarasa, bu da doğru olmaz, çünki bu üsul da özünü lazımı səviyyədə doğrulda bilməyəcək. Bu prosses yalnız təbii yollarla aparıldığı təqdirdə uğurlu nəticələr əldə etmək mümkün olar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmişə olduğu kimi, Azərbaycan dilinin və dilçiliyinin inkişafına böyük diqqət edir. Belə ki, 2012-ci ildə Prezidentin qayğısı sayəsində Dilçilik İnstitutunda aparılan araşdırmalar üçün dövlət büdcəsindən maliyyə vəsaiti ayrılmışdır. 2013-cü ildə isə Azərbaycan dilinin və dilçilik elminin qloballaşma dövründə inkişafı məqsədilə Dövlət Proqramı qəbul edilmişdir.

**Ədəbiyyat** siyahısı:

1.Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, Maarif, 1984,

2. . Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. Bakı, Maarif, 1985, 409 s

3. Məhsəti Ə.X. Azərbaycan kənd təsərrüfatı terminologiyasının semantik-struktur xüsusiyyətləri (monoqrafiya). Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1998,139 s

4. S.SadıqovaS.A.Sadıqova. Azərbaycan dilinin terminologiyası. Bakı, Elm, 2011, səh 193

5. İlhamə Mirtalıblı. Azərbaycan dilinin ictimai-siyasi terminologiyası. B., 2003

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Qasımova Yeganə Nəriman q. tərəfindən çapa tövsiyə olunmuşdur**

**MƏMMƏDOV HÜMBƏT MƏMMƏD OĞLU**
**ADPU-nun Müasir Azərbaycan dili**
**kafedrasının doktorantı**
**humbatm@mail.ru**

# QARABAĞ ŞİVƏLƏRİNİN ETNOQRAFİK LEKSİKASI

(*yemək adları* )

**Açar sözlər:** Etnoqrafik leksika, yemək adları, “aş”, “yaxnı”, “qara qavırma”, ət, bitki və meyvə-tərəvəz tərkibli yemək adları.

**Ключевые слова:** Этнографическая лексика, названия блюд, «ащ», “яхны”, “кара кавурма” названия продуктов, содержащих мясо, растения, фрукты и овощи.

**Key words:** Ethnographic lexicon, food names, "ash", "yakhnı", "kara kavırma", names of food containing meat, plants and fruits and vegetables.

Təsərrüfat həyatı ilə əlaqədar olaraq, Qarabağ bölgəsi ətli yeməklərlə zəngindir. Bunu regionun etnoqrafik məlumatları da təsdiq edir.

**Ət ilə hazırlanan yeməklər.** Nümunələrə diqqət yetirdikdə görürük ki, bu adların semantikasında hərəkət - feil əsasdır. Qovurma / qavırma, qızartma, pörtdətmə, çığırtma, basdırma və s. bundan əlavə, Qarabağ yeməklərinə nəzər saldıqda, digər türkdilli xalqlarla üst-üstə düşən və qədim türk tarixini əks etdirən bədii nümunələrdə də adı keçən yemək adlarının Qarabağ şivələrində izləri indi də yaşamaqdadır.

*Qovurma - Qarabağ bölgəsində qovurma gündəlik yeyilmək və uzun müddət saxlamaq üçün bişirilir. Qara qovurma // qavırma* (Xocavənd, Füzuli rayonları) [7,s.117] öz yağında qovrulan ət küplərə yığılaraq, üzərinə öz yağından əlavə edib saxlanılır. *Alçalı qovurma ( Cəbrayıl); səbzi qovurma (Xocavənd, Ağcabədi). Qovurma hazırlayarkən Qarabağı əhatə edən rayonların bəzilərində qovurmalıq ət qaynadılmamış halda duzlanıb yağda qovurulur* (əks.ş). *Qaynadıldıqda qaynadılmış ətin suyu müxtəlif adlarla adlandırılır. Cəbrayıl rayonunda “işgənə”, “təngav”* [9,s.369];[2,s.559] leksik vahidləri ilə adlandırılır. “Təngav” həmin suya çörək doğranaraq, ayrıca yemək kimi də yeyilən yeməyin adı kimi də adlanır. Qədim yemək növü kimi hazırlanmasında əsas ərzaq lobya paxlası götürülür. Yeməyin arealına Ordubad və qərbi Azərbaycan şivələrində “sulu yemək” (yağ, soğan, su və kartof ilə hazırlanır) mənasında qeyd edilir.

“Kitabi-Dədə Qorqud” da: “*qara qavurma edib, qırq bəy qızına ilətin; hər kim yedi ol degil, hər kim yemədi ol Qazan xatunıdır”,* - nümunəyə rast gəlirik. *Qovurma arxaik xörək adının ən qədim şəkli “kaqurmaq” feilidir. Bu feili kaqurur, kavurdak formalarında da işlətmişlər* [16,s.32].

*Yaxnı // yəxni* - ətin suda qaynadılması və noxud, lobya bişənə yaxın yuxa (lavaş) doğrayaraq bişirilən yemək növüdür (Laçın, Qubadlı, Kəlbəcər). Bu yeməyə

"KDQ"-da da rast gəlirik: "kəsə-kəsə yeməyə yəxni yaxşı"; "oğlu olanları ağ çadıra, qızı olanları qızıl, oğlu-qızı olmayanı qara çadıra qondurın, altına qara keçə döşəyin, *qara qoyun yəxnisindən önünə gətirün*, yesə yesün, yeməzsə tursun getsün" [14,s. 35]. İ.Bayramovun tədqiqatında qeyd edilir ki, Qərbi Azərbaycanın Zəngibasar şivəsində işlənən "yaxınkeş" sözü – ət qızartmaq üçün qabdır. Sözün birinci hissəsi olan *yaxın* sözü qədim türk dilində "ətdən hazırlanan yemək" mənasında işlənən "yəxni" sözünün səs yerdəyişməsidir [5,s.66].

*Qəvli/qəbili* (Cəbrayıl, Zəngilan) - əti duzlayıb qovurur və bişəndə üzərinə noxud, su, soğan, ərik qurusu əlavə edib bişirilir.

*Döşəmə* – əti döşəyib, arasına içliklərin əlavəsi ilə hazırlanmasından yaranmışdır. Adın döşəmə olması döşə feilinə + $maq^2$ məsdər şəklindən –k səsinin atılması ilə yaranmışdır ki, bu forma ilə yaranan yemək adları geniş yayılmışdır. Məsələn, qovurma, bozartma, qızartma və bu kimi yemək adlarını analogiya gətirə bilərik.

*Bağırbeyin* – unudulmaqda olan Qarabağın köçəri həyat tərzi sürən elatlarının ən sevimli və tutumlu (yüksək kolorili) yeməklərindən biri olmuşdur. Qarabağın demək olar ki, bütün şivələrində tanınır. Bu yemək yayı Qarabağ dağlarında, qışı aranda- qışlaqda keçirən maldar elatlar arasında yayılıb. Qaraciyər, quyruq və quzu beyinindən hazırlanan "bağırbeyin" xörək adının birinci komponentində işlənən bağır sözünün dialekt və şivələrimizdə iki mənası var. 1) qara ciyər 2) ürək, qəlb *Ağcabədi şivəsində işlənən bağır-öfkə/ ofgə, öykə, qara ciyər və ağ ciyər – içalat anlamında - "bü:n bağır - öyfə almışam bişiməyə* [3,s.35];[10,s.27]. Bağır sözü M.Kaşğarinin lüğətində, "Əsrarnamədə" və başqa abidələrdə "köks, sinə, ciyər" anlamına gəlir. Bəzi şivələrdə hətta "öd" mənasında da qeydə alınmışdır [15,s.15]. "Müxtəlif türk dillərində fonetik fərqlərlə, hətta Şumer dilində *-ba* formasında "bağır qara ciyər" mənasında işlənmişdir" [12,s.34]. Özbək dilində ürək və döş mənasında *bağır* sözü işlənir. Qarabağ şivələrindən Füzuli şivəsində qara bağır – qara ciyər, ağ bağır – ağ ciyər sözləri ilə fərqləndirilir. *"Ağ bağır adamı ajdırır, qarabağır qanı artırır"* ( Füz.). Nümunələrdən görünür ki, heyvanın ciyərindən qida kimi istifadə məqamları qeyd edilir.

Qarabağ etnoqrafik bölgəsində bu gün də geniş istifadə edilən ət yeməklərindən bozartma, bozbaş kimi yeməkləri də qeyd etmək olar. Hər iki yemək adı bozartmaq feili ilə bağlıdır. Ət suda bişərkən bozardığı, rəngini dəyişdiyi üçün həmin xörəyin adı belə adlandırılmışdır. *Bozbaş xörəyi ət, noxud, kartof ilə bişirilən sulu xörək, piti* [2,s.299] mənasında işlənir. Ağcabədi rayonunun Əfşar, Hüsülü; Beyləqan rayonunun Kəbirli kəndlərində bozartmadan əlavə bu yeməyə, sıpasidiyi / spasüddüyü də deyilir [1,s.143]. *Bozartma yağlı ətdən bişirilmiş sulu qovurma; bozqovurma, çoban qovurması – ala-çiy bişirmək, yüngülvari qovurmaq, əti bozartmaq* mənaları qeyd edilir[4,s.299]. Xocavənd rayonunda çoban bozartmasının "dəriiçi" deyilən növü də var ki, bişirilmə üsuluna görə belə adlandırılır. Yuxarıda qeyd olunduğu kimi, bozartmanın spasidiyi//spasüddüyü adlandırılmasını daha dəqiq

ifadə etsək, Beyləqan rayonunun Kəbirli kəndinə ekspedisiya zamanı topladığımız dialektoloji materiallarda bozartmanın hər növünü deyil, yalnız közdə bişirilən "dəriiçi" növünü belə adlandırıldığı qeydə alınmışdır.

"Qəlya" – Şuşa rayonunda quzu ətindən, Laçın rayonunda isə xoruz (toyuq) ətindən bişirilir.

"Şalampur – Ağcabədi və Xocavənddə ət, meyvə quruları və tərəvəzlər əlavə edilməklə bişirildiyi halda Bərdədə yalnız soğan və ət əlavə olunaraq bişirilir" [7,s.133-134].

*Basdırma* – soğan, istiot və digər dadlandırıcı bitkilərdə saxlanan ətdən hazırlanan yemək nəzərdə tutulur. Basdırma zamanı ət ona qatılan tərəvəz və ədviyyatlarla tama gəlir və yumşalır. Bu üsulla "dana basdırması" adlanan kabab növü var ki, İribuynuzlu heyvanın ətinin yumşaldılması və tamlandırılması məqsədilə müxtəlif ədviyyatlar və qurudulmuş kəklikotu, nanə və s. basdırılması üsulu ilə hazırlanır. Basdırma sözünə V.V. Radlovun lüğətində də rast gəlirik (*pasdırma // basdırma formasında*) [18,IVc,s.1192]. "Kabab ərəb dilindən alınma sözdür, ət şişə keçirilərək (çəkilərək , taxılaraq) odda bişirilir. Basdırma kabab birləşməsinin ikinci hissəsi olan kabab sözü ilə əlaqəli Azərbaycan dilində çoxlu sayda yemək adları yaranmışdır: xankababı, tikəkabab, lüləkabab, tavakabab, badımcan kababı, təndir kababı, cücə kababı, toyuq kababı, pomidor kababı, kartof kababı və s." [11,s.173].

*Lüləkabab* sözünün etimologiyasını açmaq üçün birinci hissədəki lülə sözünə diqqət yetirək. Bu forma odlu silahların gülləyə, mərmiyə istiqamət verən boruşəkilli hissəsi – topun lüləsi, tüfəngin lüləsi; qolda-qıçda boru şəklində içiboş sümük də lülə sümüyü adlanır. Lüləkabab qiymə və döymə ətdən hazırlanan kabab növüdür. *Qiymə: qiymələmək, doğramaq, əzmək feillərindən yaranmışdır. Bayram Əhmədov sözün "Azərbaycan dilinin izahlı lüğəti"ndə bir neçə mənası ilə yanaşı, kəsmək mənasının da olduğunu qeyd edir*.

Şiş olmadıqda əti közün üstünə qoymaqla da kabab bişirirlər *ki, buna da ətin "curum çəkilməsi" deyilir* [13,s.105-106]. Sümüklü əti közdə bişirərkən üstündəki əti nazik curumlayırlar ki, yaxşı bişsin. Quş ətindən kabab da (qaz kababı, hinduşka kababı), əksər şivələrdə yayılmışdır.

Xalqımıza xas olan tarixi yeməklərdən biri də dolmadır. söz milli Azərbaycan sözündən – doldurmaq feilindən yaranmışdır. Yəni bükülmüş yarpaq ət qiyməsi ilə doldurulur, hazırlandığı bitkiyə görə dolmanın müxtəlif növləri yaranmışdır [1,s.446]. Yeməyin arealına digər şivələrdə "sarıma" şəklində rast gəlirik ki, bu da dolamaq /dolama sözün sinonimi kimi işlənir.

*Canınaçəkmə* - qoyun əti noxudla birlikdə qaynadılır, bişdikdən sonra içərisinə yumru düyü tökülür. Suyu çəkilib, yağa düşənə qədər bişirilir, bişənə yaxın mövsümü olarsa zoğal, olmayanda zoğal axtası atırlar.Yeməyin adı mayenin düyü vasitəsilə qurudulması hesabına olduğna görə prosesin adı ilə adlandırılmışdır. Şuşa şivəsində bu yeməyin adı *hoppaca* adlanır ( Laç., Cəb., Füz.).

Qarabağın ən məşhur yemək növlərindən biri də müxtəlif cür hazırlanan plovlardır. Plov//aş sinonimliyi region üçün xarakterikdir. Əvvəlcə aş sözünün mənaca daralıb aşın bir növü plova bərabər tutulması haqqında olan fikirlərə diqqət edək: Y.Q. Məmmədov mənaca əhatəsi daralan sözlər sırasında "aş" sözünü də qeyd edərək bildirir ki, *aş* ümumi yemək adını bildirmiş, indi isə xörəyin bir növü – plov anlamında mənası daralmışdır [17,s.71-72]. Aş sözünün yeməyi // xörəyi əvəz etməsinin izləri müasir şivələrimizdə yaşamaqdadır. Qarabağ şivələrində qatıq aşı, ayran aşı. Südlü aş sözləri aşın ümumi yemək - xörək anlamına misal ola bilər.
Bu xörəklərin də tərkibində düyüdən istifadə olunması plova işarə kimi anlaşılmamalıdır. Bəzi şivələrdə dovğaya ayran aşı deyilməsi Qarabağda ayran aşı, qatıq aşı ilə dovğa ayrı-ayrı xörəklərin adlarıdır. Aş sözünün yemək, xörək mənası Azərbaycan ədəbi dili tarixi nümunələrində müşahidə edilir: Yapağlu qocayı dəpəgözə verün, aşın bişürsün – dedi; ayğur atum boğazdayıb, aşum vergil (KDQ); ...pişirmüşdi dürlü aşlar; xəstə olalı könül eşqündən, ey can parəsi, içərəm ğəm mətbəxindən dürlü-dürlü aşlər. ( Nəsimi) [8,s.213]. Aşpaz sözü də mənası daralmış "aş" və fars dilində "pəz" /paz – ahəngə görə fonetik dəyişikliyə uğrayıb ( bişirmək anlamında olan "poxtən" feilinin köküdür).

Mənbələrdə Qarabağ plovlarını rayonlar üzrə qruplaşdırmışlar: Plov ( Cəbrayıl , Xocavənd); boranılı aş / boranı aşı ( Qubadlı, Xocavənd, Zəngilan); boyanalı aş (Şuşa, Ağdam, Bərdə); çolpalı plov/ çolpaplov (Şuşa, Ağdam, Xocavənd); döşəmə plov/ döşəməli plov (Qubadlı, Ağdam); Əvəlikli aş,(Şuşa, Qubadlı); lobyalı aş/ lobyalı plov(Ağdam, Laçın, Şuşa) Qaralı aş/ qaralı plov (Ağdam, Qubadlı, Şuşa); Ərişdəli plov (Qubadlı); Gilənarlı plov (Zəngilan); Göyərtili/ pencərli aş (Zəngilan); Maşlı plov, noxudlu plov (Qubadlı); Şeşdrəngli aş, (Şuşa); südlü plov, Şirin plov (Xocalı)" [7]. Şeşdrəngli/ şeşrəngli (Laçın, Şuşa) plov tarixi qədim olan yeməklərimizdən biridir. "Şeş"in fars dilində 6 demək olduğunu nəzərə alıb, plovun muxtəlif rəngli ədviyyatlarla boyanaraq həmin plov növü ərsəyə gətirilmişdir. Azərbaycanda xüsusilə də Qarabağda plova - aşa olan atributiv münasibəti *Füzuli şivəsində rast gəldiyimiz etnoqrafik leksik vahid olan "erməni aşı" ifadəsi və həmin aşın hazırlanmasında istifadə olunan məhsulların-çərəzlərin kasadlığı, kasıblığı və hazırlanma üsulunun plova bərabər olmaması üçün bu cür adlandırıldığının şahidi oluruq* ( Füzuli r.).

**Bitki, meyvə-tərəvəz və yumurtadan hazırlanan yeməklər:**

Bitki tərkibli unudulmuş yemək növlərindən bir neçəsinə diqqət yetirdikdə məlum olur ki, həmin yemək növləri daha çox qida çatışmazlığı ilə bağlı tarixin bəzi dönəmində istifadə edilmiş yemək növləridir. Məsələn, Zəngilan şivəsində rast gəldiyimiz "nögüt" - buğda qaynadıldıqdan sonra ona küncüt və s. qatılıb yeyilən quru xörək növüdür. Şilənin bir növü olan qara şilə isə buğdanın parçalanmış hissələrindən (yarma) qovrulmuş soğanla bişirilən yemək növü olduğu göstərilir [6,s.277-278]. *Qaysava / Qəysəvə // Qəsəvə* (Füzuli, Tərtər, Şuşa, Laçın) Ərik, xurma və kişmiş qurusunun yağda qızardılması ilə hazırlanır.

*Hədik / hədix*` Azərbaycanın əksər bölgələri kimi, Qarabağın da demək olar ki, bütün bölgəsini əhatə edən bitki tərkibli yemək növüdür. Hədik Qarabağda adətən ritual və mərasim yeməyi kimi bişirilir. Dini mərasimlərlə bağlı olaraq, aşura günü bişirilib ehsan edilir. Elə bu səbəbdən bu yemək bəzi bölgələrdə "aşura" da adlannır. Dialektoloji ekspedisiya zamanı topladığımız materiallar içərisində Füzuli rayonunda yenicə diş çıxarmağa başlayan uşağın dişinin rahat çıxması (yarması) üçün "diş hədiyi" ***asılır*** (bişirilir). Qazan asmaq qədim leksik qatı əks etdirdiyi üçün bu yeməyin adında da qalmışdır.

*Balba* – (Xocavənd, Şuşa, Ağdam) Bu yemək hazırlanma üsuluna və tərkibinə görə fərqlənir; Şuşa rayonunda balba ət suyunda bişirildiyi halda, digər rayonlarda isə içərisinə vurulan göyərti çeşidlərinə görə də fərqlənir. Balba sözünün qarşılığı kimi Füzuli, Cəbrayıl rayonlarında göyərti buğlaması/ göy buğlaması və sadəcə buğlama adı ilə qeyd olunur.

*Limpar qovurması* – Bulaqların başında bitən limpar bitkisinin qovurması həm ləzzətli, həm də müalicəvi əhəmiyyəti ilə seçilir.

Qarabağ şivələrində, eləcə də Azərbaycanın digər dialekt və şivələrində işlənən söz birləşməsi şəklində olan və ikinci tərəfi "çığırtma" sözü ilə ifadə olunan yemək adlarının əksəriyyəti yumurtanın əlavəsi ilə hazırlanan yeməklərdir.

Zəngilan rayonunda (Bartaz k.) "numuru" tamlığı dağılmayan – çalınmayan halda yağda bişirilən yumurtaya deyilir" [6,s.278].

Qarabağın təbii-coğrafi iqlim şəraiti və dağ və aran relyefli olması burada yeməli yabanı bitkilərin zənginliyini təmin edir ki, bu bitkilərdən də müxtəlif növ mövsümü yeməklər hazırlanır. Qarabağ ərazisində yeməli yabanı bitkilərin bolluğu bu etnoqrafik bölgənin tez hazırlanan sacüstü yeməklərinin – kətələrin (qutab H.M) müxtəlif növlərinin yaranmasına və adlandırılmasına imkan yaradır. Məsələn:

– Göy kətəsi (Şuşa), Çiriş kətəsi (Qubadlı), Qırxbuğum kətəsi (Kəlbəcər, Qubadlı) və s. kətə növləri var.

Sonda qeyd etmək istəyirik ki, Qarabağ bölgəsi etnoqrafik leksikanın bütün növlərinin zəngin olduğu və dilimizin qədim leksik qatını qoruyub saxlayan tarixi Azərbaycan ərazisi.

## ƏDƏBIYYAT SIYAHISI

**1.** Allahverdiyev E. Qarabağ dialektinin Əfşar şivəsi:/ fil. elm. namzədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya/ – Bakı, 1995. – 217 s.

**2.** Azərbaycan etnoqrafiyası [üç cilddə]. –Bakı: Şərq Qərb, –2007. – 544 s.

**3.** Azərbaycan dilinin dialektoloji lüğəti [A-Z]. – Bakı: – Şərq-Qərb, – 2007. –568

**4.** Azərbaycan dilinin izahlı lüğəti [dörd cilddə]. – Bakı: – Şərq-Qərb, c.3. –2006. – 672 s.

**5.** Bayramov İ. Qərbi Azərbaycan şivələrində qədim sözlər.(Azərbaycan məktəbi). /İ.Bayramov.– № 1, –2015. – 64-68 s.

**6.** Behbudov S. Azərbaycan dilinin Zəngilan şivəsi. /Fil elm.nam dis./ – Bakı: –1966. – 407 s.

**7.** Əmiraslanov T. Qarabağ mətbəxi. /T.Əmiraslanov, A.Əmiraslanova. – Bakı: – Nurlar, –2012. –215 s.
**8.** Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası [Dialekt sisteminin təşəkkülü və inkişafı]. –Bakı: –Elm və təhsil, –2016. – 347 s.
**9.** Hacıyev T.İ. Ədəbi dil tarixi [Təşəkkül dövrü]./ T.İ.Hacıyev. – Bakı: – ADU, – 1976. – 152 s.
**10.** Hüseynova M. Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğəti. /M.Hüseynova. – Bakı: – 2018. – 195 s.
**11.** Hüseynova M. Ümumtürk dillərinin dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi məsələləri. /M.Hüseynova. – Bakı: – 2019. – 188 s.
**12.** Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. /B.Xəlilov. –Bakı: – Nurlan, – 2008. – 442 s.
**13.** Xəlilov X.D. Qarabağın Elat dünyası. / X.D.Xəlilov. – Bakı: – Azərbaycan Dövlət Nəşriyyatı, – 1992. – 119 s.
**14.** "Kitabi-Dədə Qorqud". Əla lisani-taifei-oğuzan. /Tərtib edən, çapa hazırlayan, ön söz və lüğətin müəllifi: S.Əlizadə. –Bakı: –1999. –704 s.
**15.** Məmmədova Q. Nəsiminin dili və Azərbaycan şivələri. / Q.Məmmədova. –Bakı: –Nurlan, –2004. –156 s.
**16.** Məmmədov S. Azərbaycan dilində kulinariya terminologiyası. /S.Məmmədova. – Bakı. –Nurlar, –2004. –120 s.
**17.** Məmmədov Y. Azərbaycan dilində sözlərin leksik-semantik inkişafı. –Bakı: – APİ. –1987. –84 s.
**18.** Радлов В.В. Опыт словаря тюркских наречий. –Санкт-Петербург: Т.1-4. – АКАД, НАУК, –1893. –970 с.

## XÜLASƏ

Məqalənin girişində Qarabağ bölgəsinin yemək adlarının da daxil olduğu zəngin etnoqrafik məlumatlar haqqında məlumat verilmişdir. Əsasən, ət , bitki, meyvə-tərəvəz və yumurta tərkibli yeməklər tədqiqata cəlb edilmişdir.

Qarabağda məşhur yeməklərdən: qovurma, yəxni, bağırbeyin, bozartma, balba və s. adları çəkilmişdir ki, həmin yeməklər "KDQ" da, M.Kaşğarinin Lüğətində və digər müasir türkdilli xalqlarda arealları bu gün də yaşamaqdadır. Qarabağda heyvandarlıq təsərrüfatının inkişafı regionun yeməklərinə də təsir etmişdir.

Məqalədə hərəkətlə - feillə bağlı yemək adlarının üstünlük təşkil etməsinə toxunulmuşdur. Məs.,doldurmaq və dolamaq, sarımaq feilləri ilə bağlı yaranan "dolma" yemək adının izahını misal gətirmək olar. Yemək adlarının tərkib hissələri aydınlaşdırılmış, adların ilkin kökləri, etimologiyası şərh edilmişdir. Daha bir maraqlı məlumat da plov adlarının çoxçeşidliliyi ilə bağlıdır.

Məqalədə Qarabağ ədəbi mühitinə aid olan nümunələrdə adı keçən yemək adları göstərilmişdir. Bəzi bitki tərkibli yeyəcəklərə isə qida qıtlığı ilə əlaqədar

olaraq, kasıb təbəqənin üstünlük verdiyi “nögüt” və “qara şilə” yeməkləri aid edilmiş, ritual və mərasim yeməklərinə “hədik”- “aşura” misal göstərilmişdir.

Qarabağda qədim türk leksik qatını əks etdirən etnoqrafik leksikanın digər növləri kimi, yemək adlarının da toplanması və tədqiqi elmi əhəmiyyəti ilə yanaşı, siyasi mahiyyət də daşıyır.

**Mammadov Humbat**

**SUMMARY**

**ETHNOGRAPHIC VOCABULARY OF KARABAKH DIALECTS**

**(food names)**

In the introduction of the article, there is information about the rich ethnographic information, including the names of the dishes of the Karabakh region. Mainly, dishes containing meat, plants, fruits and vegetables and eggs were included in the study.

Among the popular dishes in Karabakh are: kovurma, yakhne, bagirbein, bozartma, balba, etc. whose names have been mentioned, those dishes are still alive today in "KDQ", in the Dictionary of M. Kashgari and other modern Turkic-speaking peoples. The development of animal husbandry in Karabakh also affected the cuisine of the region.

The article deals with the predominance of food names related to action - verb. For example, we can give an example of the explanation of the name of the food "dolma", which was formed in connection with the verbs "to fill" and "to wrap". The components of food names were clarified, the initial roots and etymology of the names were explained. Another interesting piece of information is related to the variety of pilaf names.

In the article, the names of food mentioned in the examples related to the literary environment of Karabakh are shown. Due to the scarcity of food, some plant-based foods include "nogut" and "gara shila" foods preferred by the poor, and examples of ritual and ceremonial foods include "hadik" and "ashura".

Like other types of ethnographic lexicon reflecting the ancient Turkish lexical layer in Karabakh, the collection and study of food names has a political significance as well as scientific significance.

**Мамедов Гумбат**

**РЕЗЮМЕ**

**ЭТНОГРАФИЧЕСКАЯ ЛЕКСИКА КАРАБАХСКИХ ДИАЛЕКТОВ**

**(названия блюд)**

Во введении статьи имеется информация о богатой этнографической информации, в том числе названия блюд карабахского региона. В исследование были включены в основном блюда, содержащие мясо, растения, фрукты и овощи и яйца.

Среди популярных блюд в Карабахе: ковурма, яхне, багырбейн, бозартма, балба и др. названия которых были упомянуты, те блюда и сегодня

живы в «КДК», в Словаре М. Кашгари и других современных тюркоязычных народов. Развитие животноводства в Карабахе повлияло и на кухню региона.

В статье речь идет о преобладании названий продуктов, связанных с действием - глаголом. Например, можно привести пример объяснения названия блюда «долма», которое образовалось в связи с глаголами «наполнить» и «завернуть». Уточнены компоненты названий продуктов питания, объяснены начальные корни и этимология названий. Еще одна интересная информация связана с разнообразием названий плова.

В статье показаны названия блюд, упоминаемые в примерах, относящихся к литературной среде Карабаха. Из-за нехватки пищи некоторые растительные продукты включают продукты «ногут» и «гара шила», которые предпочитают бедняки, а примеры ритуальных и церемониальных продуктов включают «хадик» и «ашура».

Как и другие виды этнографической лексики, отражающие древнетюркский лексический пласт Карабаха, сбор и изучение названий блюд имеет как политическое, так и научное значение.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: İbrahim Bayramov filologiya elmləri doktoru, professor tərəfindən çapa tövsiyə olunmuşdur**

**АХМЕДОВА ЭЛЬМИРА,**
**ИСАЕВА СЕВИНДЖ**
Высший Военный Институт им.Гейдара Алиева
ул. Полад Гашимов 18 missmelodiya62@mail.ru

# БЕЗЭКВИВАЛЕНТНАЯ ЛЕКСИКА РУССКОГО ЯЗЫКА (БЭЛ)

**Резюме**

**Ключевые слова: лексика слово специфика игра текст задание следующий этап**

К разряду безэквивалентной лексики прежде всего относятся слова, обозначающие специфические предметы и явления в жизни данного культурно-языкового сообщества реалии и историзмы.

Термин «эквивалентность», согласно Виноградову В. С., обозначает «сохранение относительного равенства содержательной, смысловой, семантической, стилистической и функционально - коммуникативной информации, содержащейся в оригинале и переводе. Более того, эквивалентность оригинала и перевода – это, прежде всего, общность понимания содержащейся в тексте информации, включая и ту, которая воздействует не только на разум, но и на чувства реципиента и которая не только эксплицитно выражена в тексте, но и имплицитно отнесена к подтексту» (1,17)

Понятие «безэквивалентная лексика» широко освещалось многими лингвистами

«Безэквивалентная лексика – это слова, которые нельзя семантизировать с помощью перевода (они не имеют устойчивых соответствий в других языках, не имеют смысловых соответствий в системе содержания, свойственных другому языку), то есть «слова, план содержания которых невозможно сопоставить с какими-либо иноязычными лексическими понятиями» .(2, 56)

Следует упомянуть, что безэквивалентная лексика включает в себя языковые реалии и семантические лакуны. Основными способами перевода безэквивалентной лексики являются:

Транслитерация/транскрибирование.

Транслитерация – это лингвистическая передача текста, написанного с помощью одного алфавита, средствами другого алфавита .

Транскрибирование – это передача текста способом, стремящимся к наиболее точной передаче произношения при помощи алфавита ПЯ.

Изучение безэквивалентных языковых единиц на занятиях по русскому языку как иностранному соответствует современным стандартам образования, рекомендующим вырабатывать не только лингвистическую, коммуникативную компетенции, но и культурологическую компетенцию. Поэтому обучение

русскому языку как иностранному должно проходить в русле лингвокультурологической концепции.

Безэквивалентные слова того или иного языка являются носителями и хранителями знаний культуры, поэтому изучение безэквивалентной лексики на занятиях по русскому языку как иностранному - процесс одновременно сложный и значимый, поскольку иностранные слушатели узнают не только лексическое значение нового слова, но и получают неизвестную им культурологическую информацию.

Безэквивалентная лексика, или безэквивалентные языковые единицы - предмет исследования такого научного направления, как лингвострановедение. Лингвострановедение, в свою очередь, является составной частью лингвокультурологии, поэтому они являются и ее предметом изучения.

С точки зрения ученых безэквивалентная лексика - это слова, которые нельзя семантизировать с помощью перевода (они не имеют устойчивых соответствий в других языках, не имеют смысловых соответствий в системе содержания, свойственных другому языку), то есть «слова, план содержания которых невозможно сопоставить с какими-либо иноязычными лексическими понятиями» (3, 75) Поэтому понятие «безэквивалентная лексика» включает в себя не только отсутствие эквивалента, но и причину такого отсутствия - «отражение словом специфической материальной и духовной культуры» (Там же, с. 78].Безэквивалентная лексика относится к языковым единицам с национально-культурологическим значением, создающим национальный колорит текста. Это слова, обозначающие реалии той или иной национальной культуры. Реалии - предметы или явления материальной культуры, характерные для жизни (быта, культуры, социального и исторического развития) одного народа и чуждые другому.

Изучение безэквивалентной лексики современного русского языка выполняет несколько функций:

- расширяет лексический запас обучающихся;
- дает знания о культуре и культурных артефактах страны изучаемого языка;
- предотвращает возникновение и развитие так называемого «культурного шока»;
- воспитывает толерантность;
- дает опыт положительного эмоционально-чувственного отношения к фактам чужой культуры;
- вырабатывает коммуникативную и культурологическую компетенции;
- облегчает процесс аккультурации;
- позволяет студентам-иностранцам стать активными участниками процесса межкультурной коммуникации.

Безэквивалентные языковые единицы можно разделить на несколько подгрупп:

- имена собственные: Конёк-Горбунок, Сивка-Бурка, Иванушка-дурачок, Жар-птица, Джыртдан (азерб.), Гырат(азерб.), Короглы (азерб.), Симург гушу (азерб.);
- одежда, обувь, украшения: кафтан, лапти, калоши, арахчын (азерб.), чалма (азерб.);
- строения и предметы традиционного (народного) быта: изба, хата, терем, ухват, кочерга, лавка, сундук, баня, сани, коромысло, самовар, кузе (азерб.), нимче(азерб),
- традиции, праздники, обряды: Масленица, Пасха, Рождество, Новруз байрам (азерб.), Курбан (азерб.);
- музыкальные инструменты: гусли, гармонь, балалайка, тар (азерб.), гавал (азерб.);
- мифологические и сказочные существа: чудо-юдо, колобок, домовой, чёрт, леший, русалка, водяной, див, (азерб.), шайтан (азерб);
- еда и напитки: щи, каша, борщ, квас, кумыс (баш.), айран (азерб.), довга (азерб.), катык (азерб.), плов (азерб.), шакарбура (азерб.);
- слова из фольклора: петрушка, скоморох, ряженые, колядки; баяты (азерб,), дастан(азерб)
- религиозные термины и понятия: икона, крест, таинство, успение, соборование, молла (азерб), мечеть (азерб.), никах (азерб);
- народные игры, игрушки: матрёшка, лапта, горелки, хоровод, Коса-коса(азерб), Году-году( азерб)

В процессе обучения безэквивалентной лексике есть несколько особенностей. Во-первых, отсутствует такой этап, как перевод слова на родной язык студентов-иностранцев. Это связано с тем, что безэквивалентные слова не имеют устойчивых соответствий в других языках. Во-вторых, невозможно провести работу по подбору синонимов, так как они отсутствуют по той же причине.

Знакомство с новым словом, эквивалента которого нет в родном языке иностранных слушателей, должно начаться с развернутого объяснения его лексического значения в русском языке. Это должен быть небольшой интересный рассказ. Рассмотрим данный подход на примере безэквивалентных слов из лексико-семантической группы «Народные игры, игрушки».

Матрёшка - это русская деревянная игрушка в виде расписной куклы. Внутрь матрёшки вкладывают несколько меньших матрёшек, располагая их по росту. Название «матрёшка» произошло от уменьшительно-ласкательной формы русского женского имени Матрёна, которое было широко распространено в прошлом в крестьянской среде. Каждая матрёшка представляет собой изображение девочки или женщины в русской

национальной одежде: в сарафане, с платочком на голове. Её одежду украшают яркие цветы, в руках она держит корзинку, или птицу, или букет цветов. Все куклы, которые составляют одну игрушку, похожи, но отличаются друг от друга какой-нибудь деталью. Одна игрушка обычно состоит из 3-4 кукол; хоровод -русская народная игра (в которой обычно принимала участие молодёжь), похожая на сложное действо, состоящее из движения (танца), песни, музыки и умения представить ту или иную работу. Кроме того, каждый участник должен был знать последовательность пения и танцевальных движений в хороводе. Слово «хоровод» - исконно русское слово, образованное с помощью сложения слов «хор» - групповой танец с пением и «водить»; лапта - русская народная командная игра с мячом и битой. Игроки одной команды выбивают битой мяч как можно дальше и во время его полёта бегут через поле игры и обратно, игроки другой команды стараются поймать мяч и попасть им в одного из соперников; горелки - русская народная игра, в которой тот, кто «горит» (он находится впереди), ловит других участников, убегающих от него поочерёдно парами. Эта игра получила свое название по песне: «Гори, гори ясно, чтобы не погасло... Раз, два, не воронь, беги как огонь», которая ее сопровождает.Толкование лексического значения нового слова обязательно должно сопровождаться визуализацией. Это может быть мультимедийная презентация или просто показ заранее приготовленных картинок с изучаемыми предметами. Возможна демонстрация самих предметов. Интересен и познавателен будет показ учебного или документального фильма об изготовлении матрёшек, лаптей, о приготовлении борща, кумыса, о мифологических существах: русалках, водяных, леших, вурдалаках и пр. Продуктивным представляется просмотр отрывка из художественного фильма или мультфильма, например, о Коньке-Горбунке, об Иванушке-дурачке, о домовом и т.д.

Лексическое значение рассматриваемого слова в более краткой форме должно быть записано в словарь для новых слов. Также с обучающимися необходимо проговорить каждое слово и предложить им самостоятельно составить предложения, в которых были бы изучаемые безэквивалентные слова русского языка.

Следующий этап - это упражнения, направленные на подготовку обучающихся к использованию безэквивалентных слов в речевой деятельности. В качестве одной из форм речевой активности можно предложить ролевую игру, например, «В сувенирной лавке» (диалог с продавцом), где один студент-иностранец будет играть роль продавца, а другой - покупателя; «В ресторане национальной кухни», где один обучающийся будет играть роль посетителя, а другой - официанта и т.д. Обучающиеся должны уметь реализовывать свои коммуникативные намерения и ориентироваться в повседневных типичных ситуациях.

На этапе контроля качества усвоения новой лексики целесообразно использовать словарные диктанты. Таким образом, безэквивалентные слова - исконная лексика, обладающая ярким национальным своеобразием. Это слова, называющие объекты, характерные для культуры, быта одного народа и чуждые другому. Поэтому невозможно осуществить эквивалентный перевод этих лексических единиц на другой язык.

Работа с безэквивалентными языковыми единицами русского языка расширяет лексический запас обучающихся, вырабатывает лингвистическую, коммуникативную и культурологическую компетенции, дает знания о культуре и культурных артефактах страны изучаемого языка, воспитывает толерантность, облегчает процесс аккультурации, позволяет студентам-иностранцам стать активными участниками процесса межкультурной коммуникации.(4, 96-97)

Развернутое объяснение лексического значения слова в русском языке возможно: в виде небольшого интересного рассказа, сопровождающегося визуализацией в форме мультимедийной презентации, показа картинок с изучаемыми предметами, демонстрации самих предметов (например, самовара, матрешки, лаптей) или в форме показа художественного, документального или мультипликационного фильма или отрывка фильма; продолжение работы по изучению слов проходит в форме в записи лексического значения слова в словарь для новых слов; в выполнении упражнений; самостоятельном составлении предложений с безэквивалентными словами; в форме игры или ролевых коммуникативных игр и разыгрывании речевых ситуаций; в виде чтения и перевода аутентичных текстов (сказок, рассказов), содержащих безэквивалентную лексику - все это важные этапы работы над новыми словами.(5, 79)

По мнению учёных, это «обозначения специфических для той или иной культуры явлений (гармошка, матрёшка, лапти, самовар), которые являются продуктом кумулятивной (накопительной, закрепляющей опыт носителей языка) функции языка и могут рассматриваться как вместилища фоновых знаний, то есть знаний, имеющихся в сознании говорящих»(6, 43)

Лексическое значение рассматриваемого слова в более краткой форме должно быть записано в словарь для новых слов. Также с обучающимися необходимо проговорить каждое слово и предложить им самостоятельно составить предложения, в которых были бы изучаемые безэквивалентные слова русского языка.(7, 32)

**Xülasə**

**E.Əhmədova,S.İsayeva" Ekvivalenti olmayan leksika"**

Realiyalar – dilin xüsusiyyətlərini bildirən sözlərdir. Bu dil vahidləri əsərə emosional üslub verir və dilə xas olan milli xüsusiyyətlərini göstərir. Bu da tərcüməçiləri müəyyən bir çətinliklərlə qarşılaşdırır. Realiyalar əsasən nəsrdə

müşaiyət olunur və nəsrdə bu vahidlərin tərcüməsi problem yaratmır. Realiyaların tərcüməsi göstərir ki, onlar tərcümədə mütləq öz əksini tapmalıdırlar, əks halda tərcümə olunmuş əsər öz milli xüsusiyyətini itirir və tərcümə orijinalı düz və lazım olan formada əks elətdirmir. Bu da yalnış təsvirin yaranmasına yol verir.belə bir fikir mövcuddur ki,, realiyaların tərcüməsində istinad üslubuna üstünlük verilsin: bu üsulu istifadə etməklə tərcüməçilər millətə xas olan orijinalın spesifik sözlərini, ifadələrini başqadilli oxuculara çatdırmağa malikdirlər.

Orijinalı tərcümə edərkən bəzən elə sözlər ortaya çıxa bilər ki, onların Tərcümə dilində ekvivalenti olmasın. Belə sözlərə Eksivalentsiz Leksika deyilir. Bu, elə sabit söz birləşmələridir ki, onlara TD-də nə tam, nə də qismən uyğun olan söz tapmaq olmur. Bura aşağıdakı sözlər qrupu daxildir:

Xüsusi adlar, Coğrafi adlar, idarə, təşkilat, qəzetlərin adları

Realiyalar Yəni, bir dilin daşıyıcılarının, xalqın hər hansı bir əşyanı, məhfumu, vəziyyəti

adlandırdıqları sözlərin digər xalqın dilində olmaması. Bura milli xörəklərin (qəlyə; piti; dovğa), milli geyimlərin (sari), musiqi alətlərinin (saz, tar), milli rəqslərin adları (innabı, vağzalı), həmçinin Şifahi xalq ədbiyyatının nümunələri (holavar, bayatı), musiqi janrları (muğam, meyxana) aid ola bilər. Belə sözlər bir dilə mənsub olur, digər dilə müəyyən üsullarla verilir.

**Açar sözlər leksika söz spesefik xüsusuiyyət oyun mətn tapşırıq növbəti mərhələ**

## RESUME

### E.Ahmadova,S.Isayeva" Non-equivalent vocabulary"

The article defines some thoughts according to the notion of non-equivalence vocabulary. The history of every language gives evidence of constant changes of vocabulary according to rapid modifications of the life of society with the development of production, culture, science. Distinction between languages provided by cultural difference is noticeable in vocabulary and phraseology because the nominative means of language linked directly with extra linguistic reality. There are some words in any language which have no one-word translation in other languages. This is so-called non-equivalent lexis particularly denotation specific notions of local culture. In the language vocabulary of any nation there are some words with specific national-cultural meaning, which reflect referents inherent to only one particular nation and absent in nation-speaker of comparing language. For example: name of meals of national cuisine/national clothes &so on. They reflect typical reality of certain country, certain nation and certain culture and do not have conformity in the consistently of other languages accordingly, their lexical notions have national-cultural specifics. We can conclude that semantics of words with national-cultural specifics are peculiar "mirror" of national culture and reflect Features and trends of

the language system development. National – cultural component of non-equivalent vocabulary being semantic heterogeneous micro component find its expression in semantic structure of a word by obligatory sem “locality”, “ethnic accessory” and optional sem “historical relatedness”, “social-political activities”, “socio-cultural information”, “confessional accessory”.

**Key words vocabulary, word, specifics game text task next level**

**Ədəbiyyat**

1.Верещагин Е.М., Костомаров В.Н. Язык и культура: Лингвострановедение в преподавании русского языка как иностранного. - М., 1983.

2. Верещагин Е. М., Костомаров В. Г. Лингвострановедческая теория слова. М.: Русский язык, 1980. 320

3. Виноградов В. С. Введение в переводоведение (общие и лексические вопросы). —

М.: Издательство института общего среднего образования РАО, 2001.

4.Крапивник Л. Ф. Теория и практика преподавания русского языка как иностранного: уч 2012.

5.Маслова В. А. Лингвокультурология. М.: Изд. центр «Академия», 2001. 208 с.

6. Муллагалиева Л. К. Реалии русской культуры: Лингвокультурологический словарь. Уфа: Китап, 2001.

7. Комлев Н.Г. Словарь иностранных слов.- М. 2021

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Filologiya elmləri doktoru,dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur**

**TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ**
**Azərbaycan Tibb Universiteti**
**Azərbaycan dili kafedrasının müəllimi**
**alizadetamara@yahoo.com**

# XƏLİL RZA ULUTÜRK ŞEİRLƏRİNİN DİLİ

**Xülasə**

Xəlil Rza Ulutürk XX yüzil Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir. O, ömrünün böyük hissəsini Azərbaycanın Sovetlər Birliyinə daxil olduğu dövrdə yaşamağına baxmayaraq daim dövlətimizin, millətimizin azadlığı və suverenliyi uğrunda ciddi mübarizə aparmış, heç bir siyasi konyukturaya tabe olmamış, hər zaman ürəyinin sözünü qələmilə kəskin bir şəkildə ifadə edə bilmişdir. O, xaraktercə güclü şəxsiyyət olmuş, dövlətin azadlığı, milli şüurun oyanması, ana dilinin saflığı, qorunması, sadə insanların əzilməməsi, hər zaman, hər yerdə haqqın və ədalətin bərpası uğrunda mübarizə aparmış, bu mübarizənin ön cəbhəsində dayanmışdır.

Xəlil Rza şeirlərinin dili safdır, sadədir, səmimidir, ruha yaxındır, bütün bunlarla yanaşı, həm də mükəmməldir. O, Azərbaycan dilinin leksikasını gözəl bilmiş, ana dili mövzusuna həmişə həssas yanaşmış, ana dilini bilməyənləri sərt şəkildə tənqid etmişdir. Xəlil Rza öz şeirlərində Azərbaycan dilini – Azərbaycan türkcəsini yüksək səviyyədə ifadə etmişdir. O, doğma dilə hədsiz bağlı olmuş, daim dilin saflığı uğrunda mübarizə aparmışdır.

Onun bütün şeirlərində Azərbaycan dilinin zəngin leksikası elə mükəmməl ifadə olunmuşdur ki, bu şeirlər daim seviləcək, hər zaman geniş oxucu kütləsinin diqqət mərkəzində olacaqdır.

**Açar sözlər: Xəlil Rza, Azərbaycan ədəbiyyatı, ana dili, bədii təsvir vasitələri, leksika, sintaksis.**

Xəlil Rza Ulutürk XX yüzil Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir. O, ömrünün böyük hissəsini Azərbaycanın Sovetlər Birliyinə daxil olduğu dövrdə yaşamağına baxmayaraq daim dövlətimizin, millətimizin azadlığı və suverenliyi uğrunda ciddi mübarizə aparmış, heç bir siyasi konyukturaya tabe olmamış, hər zaman ürəyinin sözünü qələmilə kəskin bir şəkildə ifadə edə bilmişdir. O, xaraktercə güclü şəxsiyyət olmuş, dövlətin azadlığı, milli şüurun oyanması, ana dilinin saflığı, qorunması, sadə insanların əzilməməsi, hər zaman, hər yerdə haqqın və ədalətin bərpası uğrunda mübarizə aparmış, bu mübarizənin ön cəbhəsində dayanmışdır. "O, Azərbaycan ədəbiyyatı tarixinə azadlıq carçısı kimi daxil olub... Yaradıcılığı boyu əsərlərində Vətən məhəbbəti, torpaq sevgisi, sülh, əmin-amanlıq, azadlıq kimi dəyərlər tərənnüm olunmuşdur. Azərbaycanı sevən, onun müstəqil dövlət olması arzusu ilə yaşayan və çarpışan Xəlil

Rza Ulutürkün bütün zəncirləri yox etmək, zülmün qarşısına sədd çəkmək istəyi onu azadlıq şairinə çevirdi" (az.m.wikipedia.org).

**Xəlil Rza şeirlərinin xəlqiliyi.** Xəlil Rza şeirlərinin dili safdır, sadədir, səmimidir, ruha yaxındır, bütün bunlarla yanaşı, həm də mükəmməldir. O, Azərbaycan dilinin leksikasını gözəl bilmiş, ana dili mövzusuna həmişə həssas yanaşmış, ana dilini bilməyənləri sərt şəkildə tənqid etmişdir. Xəlil Rza öz şeirlərində Azərbaycan dilini – Azərbaycan türkcəsini yüksək səviyyədə ifadə etmişdir. O, doğma dilə hədsiz bağlı olmuş, daim dilin saflığı uğrunda mübarizə aparmışdır. "Azərbaycan Türkcəsi" adlı şeiri bu mənada fikrimizi təsdiqləyir.

*Yer də zülmətə dönsə, göy də zülmətə dönsə,*
*Sənsən mənim ömrümün söndürülməz ülkəri,*
*Ağ qanadlı gündüzü,*
*Çil-çıraqban gecəsi,*
*Azərbaycan Türkcəsi!*
*Yalnız sənin uğrunda atıldım yanar oda,*
*Məni anamdan əvvəl sən doğmusan dünyada! (Xəlil Rza, 1992: s.372)*

Ana dilini zülmət qaranlıqda öz ömrünün "sönməz ülkəri"nə bənzədən şair, doğma dili həm də "ağ qanadlı gündüzə", "çil-çıraqban gecəyə" bənzədir. O, qeyd edir ki, ana dili uğrunda daim "yanar odlara" atılıb. Anasından əvvəl "ana dilindən doğulduğunu", "ana dilinin övladı" olduğunu göstərir. Bu, Xəlil Rza üslubudur. Ədəbiyyatşünaslıqda istifadə olunan üslub qavramı lüğətlərdə "izlənilən yol, mənimsənilən tərz" mənasındadır, üslub həm də insanın daxili duyğu, düşüncə və həyəcanlarını ifadə etmə forması və dildən yararlanma tərzidir. Bu mənada üslub, yazıçının və ya şairin dil materiallarından özünəməxsus istifadə etməklə qrammatika qaydalarını da özəlliklə incələyərək yararlanmasıdır. Bu sahə, ədibin, hansısa mövzuya uyğun məzmunda, qrammatika, bəlağət və ədəbi tənqidin qaydalarına uyğunlaşdıraraq sözlərdən özünəməxsus şəkildə istifadə tərzini formalaşdırmaqdır (İsmail Durmuş: s.383). Bu mənada Xəlil Rzanın üslubu özünəməxsusdur, şeirlərində daxili duyğuları, düşüncə və həyəcanları onun mənəvi dünyasının zənginliyindən xəbər verir.

**Şeirlərdə bədii təsvir və ifadə vasitələrindən istifadə.** Xəlil Rza şeirlərində ana dilinin leksikasından yüksək səviyyədə istifadə etmişdir. Şeirlərinin mövzu və məzmun cəhətdən oxunaqlı, xalqın ruhuna yaxın olmasının bir səbəbi də bu idi. Onun şeirlərində obrazlılıq yüksək səviyyədədir, burada şair, həmçinin bədii təsvir və ifadə vasitələrindən də geniş istifadə etmişdir. Şeirlərində rast gəlinən təşbehlər, bədii təyinlər diqqəti çəkir, bədii təkrirlərdən yerli yerində istifadə edilməsi şairin yaradıcılığına xüsusi özəllik qatır. "Təlqin" adlı şeirində təşbehin gözəl nümunələrini görmək mümkündür:

*Güldanımdan su içir körpə, düyməcə nərgiz,*
*Dəftər – qızıl dan yeri, qələm – şüadan təmiz.*

*... Masam – Babək qalası, köksüm – Xəzər dənizi.*
*Ağarır saçlarımda qasırğanın ağ izi* (Xəlil Rza, 1992: s.415-416).

Göründüyü kimi, müəllif şeir yazdığı dəftəri "qızıl dan yeri"nə bənzədir, "qələminin şüadan təmiz olduğunu" göstərir. Şairin "masası Babək qalası kimi möhkəm", "köksü Xəzər dənizi qədər coşğundur", saçlarında "qasırğaların ağ izi" vardır. Bu parçada təşbehin maraqlı örnəkləri ilə yanaşı, həmçinin parçanın birinci və sonuncu misralarında inversiya vardır. Başqa bir nümunədə – "İldırımdır qələmim" şeirində həm bədii təyin, həm də maraqlı təşbehlər vardır:

*Orda yaqut qayadan nurlu şəlaləm tökülür,*
*Sökülür ayna sular min yerdən.*
*Dərələrdən şığıyır ağ sürət.*
*... Sıxmışam, yumruğa dönmüş,*
*Hanı dərdim, ələmim?*
*İldırımdır qələmim!* (Xəlil Rza, 1992: s.286-287)

Bu parçada "yaqut qaya", "nurlu şəlalə", "ayna sular" ifadələri bədii təyin, epitetdir. "Dərələrdən şığıyır ağ sürət", "Sökülür ayna sular min yerdən" ifadələrində həm metafor, həm də inversiya vardır. "İldırımdır qələmim" ifadəsi isə təşbehdir.

*Günəş içərimdədir, yumruqlayır köksümü,*
*Dağılacaq bu zülmət, axı haçan, bəs haçan?*
*Varlığında, qanında Günəş hökmü, Göy hökmü*
*Barmaqlıq arxasında ümmanlarmı çalxanan?!* (Xəlil Rza, 1992: s.287)

"Pas qokulu damcılar" adlı şeirdən verdiyimiz bu parçada isə "Günəşin şairin köksünü yumruqlaması" insana aid olan yumruqlama hadisəsinin Günəşin – təbiət hadisəsinin üzərinə köçürülməsi, yəni metafor vardır. "Barmaqlıq arxasında ümmanlarmı çalxanan?" ifadəsində də metafor vardır. Başqa bir metafora isə "Bizim ellər yerindəmi" şeirində rast gəlinir:

*Şəhidlərin məzarına gül düzərəm bircə-bircə,*
*Ağ nərgizlər ağ şam olar, şöləsindən ürkər gecə.*
*Kameranın qulağı kar, gözü kordur, ürəyi dar.*
*Dünya boyda doğma diyar, əngin çöllər yerindəmi?* (Xəlil Rza,1992: s.218)

Ağ şama dönən nərgizlərin şöləsindən "gecənin ürkməsi"; həbsxana kamerasının "qulağının kar", "gözünün kor", "ürəyinin dar" olması metafordur. "Dünya boyda doğma diyar" ifadəsində mübaliğə vardır.

"Yuxu" adlı şeirdə "azad" sözünün təkrarlanmasında bədii təkrirlə yanaşı, metaforun da maraqlı örnəklərini müşahidə edirik. Şair insana məxsus azadlıq duyğusunun çəmənə, çölə, Vətənə, elə, qələmə, kağıza, ələ "azad" deməsi ilə maraqlı metafor yaratmışdır.

*Çəmən azad, çöl azad, Vətən azad, el azad,*
*Buxovları açılmış qələm, kağız, əl azad* (Xəlil Rza, 1992: s.215).

"Barmaqlığın pası qədər" adlı şeirində ürəyi daim azadlıq eşqilə alovlanan şair yenə maraqlı təkrirlərdən və metafordan istifadə etmişdir:

*Orda sellər, sular azad...*
*Dağlar azad, çöllər azad,*
*Burda mənim zəncirlərim*
*Azadlığa yalnız təzad...* (Xəlil Rza, 1992: s.319)

**Ritm və alliterasiya.** Şairin şeirlərindəki qafiyə mükəmməlliyi onların ruha yaxın olmasına səbəb olmuşdur. Şeirin ən önəmli xüsususiyyətlərindən biri onun ritmidir. Sözlərdəki samit səslərin təkrarı şeirin ritmini tənzimləyir, şeirdə alliterasiya əmələ gətirir. Alliterasiya şeirdəki eyni samitin təkrarlanmasıdır. Aşağıdakı parçada "ş" samitinin təkrarlanması maraqlı alliterasiya yaratmışdır:

*Yağış vurur içəri,*
*sərin nəfəsli yağış.*
*Şırıltılı,*
*şıdırğı,*
*şimşək həvəsli yağış.*
*Ağ yağış,*
*parlaq yağış!*
*şad yağış,*
*gürşad yağış!* (Xəlil Rza, 2005: s.70)

Şair həm heca vəznində, həm də sərbəst vəzndə yazdığı şeirlərində qafiyə quruluşuna ciddi önəm vermiş, həm məzmun baxımından, həm də texniki cəhətdən yüksək səviyyəli şeir nümunələri ortaya çıxarmışdır. "Barmaqlığın pası qədər" adlandırdığı şeirində "d" və "r" samitlərinin təkrarından yaranan maraqlı alliterasiya ilə yanaşı, həm də məzmun və ritm baxımından mükəmməl şeirlə qarşılaşırıq:

*Yağış çırpır... barmaqlıqdan damcı-damcı tökülür pas,*
*Dəmir millər dağ sinəmə dağlar çəkir çalın-çarpaz.*
*Yağış yağır... Moskvadan səsi gəlir qarğaların,*
*Qarıldayır necə bərkdən, qarğalar da burda harın* (Xəlil Rza,1992: s.318).

Şairin həbsxana həyatından bəhs edən bu şeirində orada yaşadığı ağır günlərin, çətin həyatın təsviri vardır. Bu şeirdə həm də onun üsyankar şair ruhunun tələtümü, sovet rejiminə qarşı kəskin etiraz səsi duyulur. Əslində bu cəsarətli və üsyankar etiraz forması onun bütün yaradıcılığının əsas xəttini təşkil etmişdir.

**Xəlil Rza şeirlərinin sintaksisi.** Xəlil Rza şeirlərinin sintaksisi haqqında danışarkən hər şeydən əvvəl onun şeirlərində tez-tez rast gəlinən nida cümlələri, ritorik suallar, əmr şəkilli cümlələr, zəngin mənalar ifadə edən geniş və müxtəsər cümlələr diqqəti çəkir. Şairin dilinin sintaksisi mükəmməl olduğundandır ki, yaşından və statusundan asılı olmayaraq hər bir oxucu üçün anlaşıqlıdır. Əksər şeirlərində şairin üsyankar, etirazçı səsini duymaq mümkündür. Azadlıq sevdalısı Xəlil Rza, çox zaman bunu kəskin şəkildə ifadə edir.

*"Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram.*
*Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!"* (Xəlil Rza, 1992: s. 421) – deyərək hayqırır, üsyan edir.

*"Vətən, sənin sipərinəm!", "Gəlir böyük Azərbaycan!", "Çıxaraq bahara Azərbaycanı!", "Mən yenə dönəcəyəm Azərbaycana", "Odlar məmləkətiyəm", "Məndən başlanır Vətən!"* və d. başlıqlarla adlandırdığı şeirləri şairin üsyankar vətənpərvər ruhundan süzülüb gələn şeirlərdir.

Elə şeirləri də var ki, oxuduqca Xəlil Rzanın son dərəcə lirik şair olduğunu, incə, həssas duyğuların, sevgi, qayğı, nəvaziş dolu fikir və ifadələrin müəllifi olduğunu görürük. Yaradıcılığının ilkin dövrlərində yazdığı lirik şeirləri, həbsxanadan ömür yoldaşı Firəngiz xanıma ünvanladığı şeirləri bu qəbildəndir. Firəngiz xanıma xitabla yazdığı "Güc alıram mən" şeiri yazdığı yüzlərlə lirik şeirlərdən biridir:

*Qoy məni uğrunda çəksinlər dara,*
*Bəxtim tapşırılsın qasırğalara.*
*Yer qara, göy qara, sən bir aypara,*
*Sənin hilalından güc alıram mən* (Xəlil Rza, 1992: s.47-48).

Bu kiçik parça Xəlil Rza sevgisinin böyüklüyündən, Firəngiz xanıma duyduğu sonsuz hörmət və ehtiramdan soraq verir.

**Nəticə.** Xəlil Rzanın istər lirik şeirləri olsun, istər vətənpərvərlik mövzulu və ya siyasi mübarizəyə həsr etdiyi şeirləri... Onun bütün şeirlərində Azərbaycan dilinin zəngin leksikası elə mükəmməl ifadə olunmuşdur ki, bu şeirlər daim seviləcək, hər zaman geniş oxucu kütləsinin diqqət mərkəzində olacaqdır. Ona görə ki, Xəlil Rza Ulutürk millidir, bəşəridir, həmişəyaşardır!

## ƏDƏBİYYAT

az.m.wikipedia.org

1. Xəlil Rza Ulutürk. Davam edir 37... Bakı. Gənclik, 1992
2. Xəlil Rza. *Seçilmiş əsərləri.* I cild. Bakı. Şərq-Qərb, 2005
3. İsmail Durmuş. Üslup. İslam Ansiklopedisi. İstanbul, 2012. Cilt: 42

**Alizadeh T.**

## THE LANGUAGE OF KHALIL RZA ULUTURK POEMS

### Summary

Khalil Rza Ulutürk is one of the most prominent representatives of Azerbaijani literature of the 20th century. Despite the fact that he lived most of his life during the period when Azerbaijan joined the Soviet Union, he constantly fought seriously for the freedom and sovereignty of our state and nation, did not submit to any political conjuncture, and was always able to express his heart's words sharply with his pen. He was a strong personality, he fought for the freedom of the state, the awakening of national consciousness, the purity and protection of the mother tongue, the non-oppression of ordinary people, the restoration of rights and justice at all times and everywhere, and he stood at the forefront of this struggle.

The language of Khalil Rza's poems is pure, simple, sincere, close to the soul, and besides all this, it is also perfect. He knew the lexicon of the Azerbaijani language very well, was always sensitive to the subject of his native language, and harshly criticized those who did not know his native language. Khalil Rza expressed the Azerbaijani language - Azerbaijani Turkish at a high level in his poems. He was extremely attached to his native language and constantly fought for the purity of the language. In all his poems, the rich lexicon of the Azerbaijani language is so perfectly expressed that these poems will always be loved and will always be in the center of attention of a wide readership.

**Key words: Khalil Reza, Azerbaijani literature, native language, means of artistic description, vocabulary, syntax.**

## ЯЗЫК ХАЛИЛА РЗА УЛУТУРКА СТИХИ

### Резюме

Халил Рза Улутюрк – один из виднейших представителей Азербайджанской литературы XX века. Несмотря на то, что большую часть своей жизни он прожил в период присоединения Азербайджана к Советскому Союзу, он постоянно серьезно боролся за свободу и суверенитет нашего государства и народа, не подчинялся никакой политической конъюнктуре, всегда мог выразить свою слова сердца резко пером. Он был сильной личностью, боролся за свободу государства, пробуждение национального самосознания, чистоту и защиту родного языка, неугнетение простых людей, восстановление прав и справедливости во все времена и везде, и он стоял в авангарде этой борьбы.

Язык стихов Халила Рзы чист, прост, искренен, близок душе и, кроме всего этого, еще и совершенен. Он очень хорошо знал лексику Азербайджанского языка, всегда трепетно относился к теме родного языка и жестко критиковал тех, кто не знал его родного языка. Халил Рза в своих стихах выразил Азербайджанский язык - Азербайджанский тюркский язык на высоком уровне. Он был чрезвычайно привязан к родному языку и постоянно боролся за чистоту языка.

Во всех его стихах настолько прекрасно выражена богатая лексика азербайджанского языка, что эти стихи навсегда останутся любимыми и всегда будут в центре внимания широкой читательской аудитории.

**Ключевые слова: Халил Рза, Азербайджанская литература, родной язык, средства художественного описания, лексика, синтаксис.**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur**

**GÜLƏR HƏSƏNOVA**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**ADU**
**Rəşid Behbudov 134**
**e-mail: gular.hasanova@mail.ru**

# ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MÜASİR YANAŞMALAR

## XÜLASƏ

Təlim-tərbiyə prosesinin əsasını təşkil edən və bir-biri ilə üzvü əlaqədə olan məqsəd, məzmun, forma, metod, üsul və vasitə kimi komponentlərin ümumi vəzifəsi fəal təlimin müvəffəqiyyətlə həyata keçirilməsini təmin etməkdir. Tələbəyönümlü tədrisdə isə müəllimin vəzifəsi dilöyrənənləri bu prosesə cəlb etməkdir. Müasir dünyamızın inkişaf dinamikasına aid olan bu məntiq təhsildə öz uğurlu nəticəsini göstərir. Hazırkı dövrün təhsili özünün koqnitiv xarakteri ilə insanın şəxsiyyət kimi formalaşmasında çox böyük rol oynayır. Müasir dövrümüzdə təhsili bilavasitə inkişafyönümlü bir proses kimi stimullaşdırmaq əsas vəzifəyə çevrilir. Şəxsiyyətin formalaşdırılması ən önəmli məqsəd kimi təhsilin mühüm dəyərləndirmə indikatoruna çevrilir.Əminliklə qeyd edə bilərik ki, müasir tələbə informasiya- kommunikasiya texnologiyalarının yeniliklərindən nəinki xəbərdar olmalıdır, eyni zamanda öz gündəlik həyatında və təhsilində onlardan geniş istifadə etməlidir. Dünya təcrübəsində ali təhsil müəssisələrinin qüdrəti onun malik olduğu müasir kitabxanalar, müxtəlif laboratoriyalar, yenilənmiş informasiya bazası və ən əsası, İKT- nin ən son yeniliklərinin tətbiqi ilə ölçülür. Son zamanlar ingilis dilinin tədrisi (ELT) metodologiyası çox sürətlə inkişaf edir, təhsilin müasir texnologiyalara olan tələbatı artır, təhsil modelləri, təhsil prosesi iştirakçılarının rolları tədricən dəyişir. Bu gün innovativ metodlarla mobil təhsil imkanı yaradan yeni vasitələr meydana çıxır. İnformasiya texnologiyasının (İT) nisbətən qısa, lakin inkişaf edən tarixi və kompüterin köməyi ilə dilöyrənmə (CALL-Computer Assisted Language Learning) indi özünün fəal dövrünü yaşayır. Onu da qeyd edək ki, İKT əsaslı bacarıqlar dilöyrənənlərdə sərbəst öyrənmə üçün əlverişlidir. Tədris zamanı müxtəlif tələbə qruplarının təşkili həssaslıqla həyata keçirilməlidir. Bu zaman tapşırığın təbiəti, dilöyrənənlərin bir-birlərinin işinə reaksiyası vacib sayılır. Başqa sözlə, bütün bunları düzgün təşkil edərək, neqativ reaksiyalardan fərqli olaraq, pozitiv öyrənmə situasiyaları yaratmalıyıq. Bu mənada dil əsas ünsiyyət vasitəsidir. Dil isə insanın cəmiyyətdəki fəaliyyətinin məhsulu olub onunla birgə inkişaf edir. İnsan sosial varlıq olaraq digərləri ilə cəmiyyətdə kommunikasiya yaradır. Bu zaman dil insan tərəfindən qavranılır, mənimsənilir. Məhz ünsiyyət bir proses kimi bizim əldə etdiyimiz biliklərin, təcrübənin ötürülməsini realizə edir. Belə ünsiyyət şifahi və ya yazılı formada nitq vasitəsilə təzahür edib insanın lüğət fondunu, yəni leksikonunu inkişaf etdirir, zənginləşdirir.

**Açar sözlər: sərişdə, motivasiya, dil, nitq modelləri, interferensiya**

İKT-nin auditoriyaya inteqrasiyası və xüsusən ingilis dilinin tədrisində istifadəsi tələbələrin təhsilində və gələcək peşə həyatlarında uğur qazanmalarına yardımçı olur, bacarıq və vərdişlərin inkişafına zəmin yaradır. Bununla da tələbələr aşağıdakı nəticələrə nail olurlar:

1.Kompüter vasitəsilə sinxron və qeyri-sinxron ünsiyyət qurmaq. Hipermətn (audio və video materiallar), tətbiqi proqramlar: elektron poçt, e-poçt ünvanları, videokonfrans, qlobal şəbəkə ilə tanış olmaq. 2.Şəbəkə etiketi (internetdə davranış qaydalarını öyrənmək). 3.İngilis dilinin tədrisində internetdən istifadə etməyin əsas səbəbləri ilə tanış olmaq. 4.İnternetlə təmin olunmuş auditoriyadan istifadə bacarıqlarına yiyələnmək və tətbiq etmək.5.Gələcək müəllimlərin peşəkar inkişafını təmin edən resuslardan: peşəkar jurnallardan, nəşrlərdən və virtual kitabxanalardan istifadə etmək. Peşəkar birlik və assosiasiyalarla tanış olmaq və onlardan faydalanmaq. 6. İnteraktiv (şəbəkədaxili) seminarlar və konfranslarda iştirak etmək. İngilis dilinin tədris edilməsinə dair internet səhifələri (saytları) ilə tanış olmaq. 7. Müəllimlər arasında əməkdaşlığı genişləndirmək. Kooperativ və əməkdaşlıq şəraitində işləmək. 8. Distant təhsil, CELTA, DELTA, TKT və s. kurslar ilə tanış olmaq və onlardan yararlanmaq. 8. Tələbə əməkdaşlığını gücləndirmək, müəllim və tələbə arasında qarşılıqlı fəaliyyəti həyata keçirmək. 9. Auditoriyadaxili fəaliyyət və layihələr təşkil etmək. 10. Müəllif hüququ və plagiat barədə müzakirələr aparmaq.11. İnternetə əsaslanan kurs hazırlamaq.

İnternetdən istifadə tədrisdə və təlimdə tələbənin uğurunu artırır, onun kamilliyini qiymətləndirir, pedaqoji və texnoloji innovasiyaları zəruriləşdirir.Yazı, oxu, eşitmə və nitq bacarıqlarının inkişaf etdirilməsində internetin rolu əvəzolunmazdır. Eyni zamanda, qeyd etdiyimiz kimi, İKT-nin auditoriyaya inteqrasiyası vacib şərtdir. Universitetlərdə innovativ layihələrin həyata keçirilməsi təhsilin keyfiyyətini yüksəldə, milli universitetlərin beynəlxalq təhsil məkanına inteqrasiyası prosesini sürətləndirə və ölkənin elm-təhsil imicini yüksəldə bilər. Bu mənada yeni, texnoloji, innovasiya cəmiyyətində, qlobal rəqabət şəraitində fəaliyyətə, inkişafa hazırlanmalıyıq.

Dilə praktik yiyələnmək üçün dilöyrərənlərə nitq nümunələrini dərindən mənimsətmək, öz bilik və bacarıqlarını maraqlarına uyğun nümayiş etdirmək vacibdir. Bu baxımdan xarici dillərin öyrənilməsi dilöyrənənlər qarşısında ciddi tələblər qoyur. Bu tələblər zəngin söz ehtiyatına, qrammatik qaydalara, düzgün oxu və dil qavrama bacarıqlarına sahib olmaqdır. O zaman tələbə sərbəst danışmaq imkanı əldə edə bilər ki, irəli sürülən tələblər tələbələri cüt və ya qrup halında interaktiv təlimlə danışıq prosesinin düzgün təşkilinə, müstəqil işləməyə təhrik edər. Müstəqil işləmə bacarığı onların motivasiyasına da yüksək təsir göstərir[1, s.136].

Beləliklə, motivasiyanın yaradılması zamanı interaktiv təlim metodundan istifadə tələbələri nəinki yeni biliklərlə zənginləşdirir, həmçinin onlarda düşünmə qabiliyyətini və müstəqil bilik əldə etmək, mənimsəmək bacarıqlarını formalaşdırır. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər dilöyrənənlər üçün xarici dilin praktik cəhətdən öyrədil-

məsinə şərait yaradır, onların kommunikativ bacarıqlarını formalaşdırır və idrak fəaliyyətini fəallaşdırır.

Bu gün nitq vərdişlərinin inkişaf etdirilməsi deyil, daha çox kommunikativ kompetensiyaya yiyələnmək zərurəti meydana çıxır. Bu mənada təlimdə motivasiyaedici çalışmaların da rolu olduqca böyükdür. Bütün bunlar tələbələrin ünsiyyət qurmağı öyrənməsi üçün təqdim edilməlidir: başqalarını dinləmək, başqaları ilə danışmaq, verilən kontekstdə mənanın müzakirəsi. Bu təlim üsulu keyfiyyətli bilik və bacarığa yiyələnməyə xidmət etməklə yanaşı, təhsilalanlarda təfəkkürün inkişafına şərait yaratmalıdır. İnteraktiv təlimdə bu cür təfəkkür- idraki proseslərin inkişafına müxtəlif qrupdaxili işlər, qruplarda müxtəlif fəaliyyət layihələrinin hazırlanması, problemlərin fərdi və qrup şəklində həlli vasitəsilə nail olunur. Bu üsul tələbələri müstəqil düşünməyə, qərarlar qəbul etməyə və tədqiqata istiqamətləndirir. Dərsin səmərəli təşkili yalnız o zaman mümkün olur ki, bütün təhsilalanlar fəaldırlar və onlar həqiqətən nəsə öyrənə bilirlər. Dərsdə passiv dilöyrənənlər olduqda interaktiv təlimin zəngin vasitələrindən olan intensiv sual- cavaba, rollu oyunlara, cütlüklərlə və ya qrup şəklində işlərə müraciət etməklə onları fəal iştiraka ruhlandırmaq lazımdır. Qeyd edək ki, fəal tədris üsulunda bir neçə yanaşmadan istifadə etmək olar. Məqsədə çatmaq üçün müəllim və tələbələr tərəfindən interaktiv üsullar seçilir, lazım olan vaxt müəyyənləşdirilərək elan edilir və start verilir. Bu üsuldan istifadə edilən zaman müəyyən metodlara üstünlük verilir. Onlardan mövzunun müxtəlif aspektlərdən müzakirəsi, intervyular, sual - cavab sessiyaları, problemlə bağlı tədris materiallarından istifadə, təsir göstərə biləcək effektiv suallar, oyunlar, qruplarla iş (böyük və ya kiçik qruplarda), debatlar, mövzudan asılı olaraq əyani vəsaitlərdən istifadə (əyani vəsaitlər müxtəlif ola bilər – xəritə, disk, fərdi çəkilən rəsmlər, cədvəllər, xronoloji cədvəl və s.), müxtəlif kompüter proqramlarından istifadə və s. ola bilər. Bu metodlardan mövzunun müzakirəsi zamanı, qarşıya qoyulan məqsədə çatmaq və nəticə əldə etmək üçün istifadə edilə bilər. Məqsədə çatmaq üçün bütün işlərə nəzarət edən, yol göstərən və iştirakçıları həvəsləndirən müəllim isə fasilitator rolunu oynamalıdır. Yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif yanaşmalardan biri də müxtəlif kompüter proqramlarından istifadədir. Müxtəlif kompüter proqramlarından istifadə fəal təlim üsulunu zənginləşdirən elementlərdən biridir. Elektron vasitələrdən istifadə etmək üçün ilk növbədə müəllimin kompüter bilikləri olmalı və o, onlardan istifadəni bacarmalıdır.

Proqramlar içərisində Power Pointə önəm verilir. Məhz bu proqram vasitəsi ilə müəllim mövzuya uyğun müəyyən slaydlar hazırlayaraq ,vizual görüntü yarada və əyani vəsait kimi ondan istifadə edə bilər. Tələbələr eşitdiklərini vizual gördükləri zaman mövzu daha aydın və maraqlı olur[2,s.58]. İnteraktiv təlim ənənəvi təlim metodlarından tamamilə fərqli yollarla həyata keçirilir. İnteraktiv təlimdə müəllimin rolu köməkçi və bələdçi, şagird və tələbənin rolu isə fəal tədqiqatçı və iştirakçı kimi dəyişir. İnteraktiv metodların istifadəsi zamanı müəllim tələbələrin səmərəli ünsiyyəti və qarşılıqlı əlaqəsi üçün bütün lazımi şəraiti yaradır. Əsas rol dilöyrənənlərə verilir. Təlim prosesinin psixoloji mühitini müsbətə doğru dəyişmək üçün tələbələrin problemin həllinə yönəldilmiş istənilən cəhdi və ya fikri yüksək qiymətləndirilərək, ciddi və hörmətlə qarşılanır. İnteraktiv təlimdən istifadə zamanı

dilöyrənənlərə hörmətlə yanaşmaq, onlara etibar etmək, onların cavablarını qiymətləndirmək həm özünə inam, həm də müəllimə hörmət və etibar hissini daha da artırır [3, s.45].

Kommunikativ səriştəliliyin vacibliyini vurğulayan bir çox metodist alimlərin də söylədiyi kimi, xarici dilin mənimsənilməsində kommunikativ səriştəliliyin əldə olunması təkcə qrammatik və fonetik qaydaları, eləcə də, leksik vahidləri tədris etmək deyil, həm də öyrənilən dil komponentlərindən real situativ mühitdə istifadə etməyi nəzərdə tutur. Bu isə xarici dil müəllimlərindən dildən kommunikativ situasiyalarda istifadə etmək bacarığı tələb edir. Misal üçün, kommunikativ səriştəsi olan şəxs alış-veriş etmək, istiqaməti soruşmaq, kimisə razılığa gətirmək və şəxsi hisslərinin ifadə etmək kimi işləri ingilis dilində necə yerinə yetirməyi yaxşı bilir. Kommunikativ dil tədrisi ingilis dilini dil daşıyıcıları tərəfindən istifadə edilən şəkildə dili mənimsəməyə imkan verir ki, nəticədə, xarici dili öyrənən tələbələr auditoriya mühitini real dünya mühitinə asanlıqla və uğurla inteqrasiya edə bilirlər. Bu cür həqiqi kommunikasiya tələbələrə kommunikativ səriştə əldə etməyə köməklik göstərir.

Bundan əlavə, aşağıdakı formatda olan dil çalışmaları danışıq imkanlarını çoxaldır, debat və müzakirələrin maraqlı gedişini dəstəkləyir. Məsələn:

Health. Reading 1. Diets of the world. Thinking about the topic. Skimming. The chinese diet. The Mediterranean diet. Comprehension Check. Vocabulary Study. Identifying Main Ideas and Supporting Details. Relating reading to personal Experience.

Reading 2. Thinking about what you know. Skimming. Comprehension Check. B. Vocabulary Study. C. Recognizing Cause and Effect. D. Relating Reading to Personal Experience.

Olimpic Sports. Before you read. a. vocabulary. b. vocabulary: New Context c. vocabulary review. d. Comprehension: Multiple Choice. Questions. d. Main Idea

Remarkable talents. Reading 1. The Memory Man. Thinking about what you know. Skimming. Comprehension Check. B. Vocabulary Study. C. Reading critically. D. Relating Reading to Personal Experience. Reading 2. Born to paint. Predicting. Skimming. Comprehension Check. Vocabulary Study. C. Making İnferences. D.Relating Reading to Personal Experience. Reading 3. Predicting. Skimming. Comprehension Check. Vocabulary Study. C. Recognizing Point of View. D. Relating Reading to Personal Experience.

Food. Lesson 1. The fish. a. vocabulary. b. vocabulary: New Context c. vocabulary review . d. d. Comprehension: True/ false / No information. Questions .d. Main Idea. Lesson 2. Foods from around the worlds. Before you read. a. vocabulary. b. vocabulary: New Context

c. Comprehension. d. Questions. e. Main Idea. Lesson 3. Chocolate. Before you read. a. vocabulary. b. vocabulary: New Context c. vocabulary review. d. Comprehension: True/ false / No information. Questions. d. Main Idea.

Tələbələrin kommunikativ bacarıqları onları mənalı, həyata keçirilə bilən, bədii əsərləri oxuma prosesinə cəlb etməklə inkişaf etdirilməlidir. Bədii əsərlərlə tanışlıq tələbələrdə məmnunluq, razılıq, əminlik hissi yaradır, niyyətlərinin kommunikativ həyata

keçirilməsi üçün öyrənilən xarici dildən düzgün və adekvat şəkildə istifadə etmək bacarıq və arzusunun inkişaf etdirilməsini əsas kimi irəli sürür. Burada üstünlük anlama, danışıq, fikir və ideya mübadiləsinə verildiyi halda qrammatik, struktur və leksik vahidlər bu məqsədə nail olmaq üçün öyrənilir. Kommunikativ kompetensiyanın inkişafını nəzərdə tutan amillərdən biri də qeyd etdiyimiz kimi, ədəbiyyat nümunələri ilə yaxından tanışlıqdır.

Məlum oldıığu kimi, ana dilində nitqin öyrədilməsi prosesində oxu və yazı əhəmiyyətli rola malikdir. Xarici dilin, o cümlədən də ixtisas dilinin tədrisi prosesində oxu həm də şifahi nitqin öyrədilməsi zaman tələbələrdə maraq və motivasiyanın yaradılmasında bir vasitə ola bilər. Belə ki, bu və ya digər bədii mətnlərdə olan informasiyanın müzakirə edilməsi danışıq vərdişlərinin inkişaf etdirilməsi üçün mühüm stimul yarada bilər. Bədii əsərlər fonunda müzakirə xarakterli çalışma və tapşırıqların sayı və keyfiyyəti tədrisin mərhələlərinə uyğun müəyyən edilməlidir. Beləliklə, müxtəlif kommunikativ tapşırıqları yerinə yetirmək üçün dilöyrənənlər kommunikativ fəaliyyət növlərinə cəlb edilməli və kommunikativ strategiyalardan istifadə etməlidirlər. Bu zaman istifadə edilən tapşırıq və çalışmalardan danışarkən, onların hansı fəaliyyət növlərinə cəlb edilməsinin məqsədəuyğun olduğunu müəyyənləşdirməklə səmərəli nəticələrin əldə edilməsini təmin etmək mümkündür. Bu mənada təhsilalanların ingilis dilinə mükəmməl yiyələnməsində sözügedən işlərin təşkili prosesini izləmək vacib sayılır. Bu zaman onlar əlavə məlumatlarla tanış olmaqla bərabər, öz bilik dünyalarını zənginləşdirilər. Kommunikativ öyrənməyə mane olan digər səbəb ondan ibarətdir ki, əksər hallarda xarici dili öyrənən tələbələr auditoriya qarşısında çıxış etməkdən utanır və ya səhv edəcəklərindən ehtiyatlanırlar. Dillər bir-birindən təkcə bu və ya digər qrammatik mənaları ifadə edib-etməməsinə görə fərqlənmirlər, bəlkə həm də daha çox necə ifadə etmələri ilə fərqlənirlər. Müxtəlif dillərdə qrammatik ifadə üsullarından istifadə etmə baxımından müxtəliflik, fərqlər olduğu kimi mühüm oxşarlıqlar da vardır ki, bunlar da qrammatik mənaların öz təbiəti, mahiyyəti ilə əlaqədardır. Dilin morfoloji qanunları çox mürəkkəb mahiyyətə malik olması ilə fərqlənir və dilin səs sistemindən fərqli olaraq, burada işarə edənlə işarə olunan arasında fərq mövcuddur. Morfologiyada əsas yeri sözün strukturunun təhlili tutur. Hər bir strukturu təhlil edərkən onun tərkib hissələrinin təsviri zəruridir. Morfoloji təhlildə sözün mənalı hissələrini fərqləndirmək və onları təsnif etmək lazım gəlir. Bu mənada ingilis dilini tədris edən müəllimlər öz dərslərini daha çox kommunikativ etmək üçün mütərəqqi metodlar axtarıb tapmalıdırlar. İngilis dilinin tədrisi metodikasını araşdıran tədqiqatçılar arasında kommunikativ fəaliyyətlərin yüksək motivasiya yaratmasına dair yekdil fikir mövcuddur. Bu fəaliyyət sinif-dərs sisteminin monotonluğunu aradan qaldırmaqla bərabər həm zövqverici, həm də stimillaşdırıcı xüsusuyyətə malikdir. Yuxarıda da qeyd etdiyimiz kimi, maraq və həvəs xarici dillərin mənimsənilməsinə müsbət təsir göstərir. Xarici dil müəllimləri tələbələrin rəngarəng qavrama və emosional ehtiyaclarını ödəyə bilən əlverişli metod və materiallar yaratmalıdırlar ki, bu da, meyillilik, münasibət, motivasiya və öyrənmə üslublarındakı mövcud fərqləri nəzərə almanın məntiqli yoludur.

Beləliklə, şifahi nitqin aşılanmasına kommunikativ yanaşma dilöyrənənlərə tədris edilən xarici dil sahəsində biliklərin hazır şəkildə təqdim edilməsi deyil, əldə edilmiş bilik və bacarıqların təbii kommunikativ fəaliyyət prosesində təkmilləşdirilməsini nəzərdə tutur.

## Ədəbiyyat

4. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, pp. 136-143
5. Bailey K.M. and D. Nunan (Eds.) Voices from the language classroom. Cambridge: Cambridge University Press, 1996, 451p.
6. Harmer J. English Language Teaching, 2005, pp. 45-46

Hasanova G.

**The modern approaches in English Language Teaching at high schools**

## Summary

Second language learners are usually observed developing a new language system that incorporates elements from the native language and elements from English they recently learned. Inter-language actually helps second language learners test hypotheses about how language works and develop their own set of rules for using language.

However, there is a difference between written and spoken language. Written language is lexically richer than spoken language and it can, therefore, provide more learning opportunities than a spoken context. Consequently, a student who is an eager reader encounters more words than a student who reads less. In addition, regular reading is likely to lead to more efficient access of word meanings. A student who reads also outside school has many opportunities to acquire and improve vocabulary knowledge through inference from context. World knowledge comes from experience and from previously read texts. Skilful comprehenders use discourse knowledge to connect text elements in a consistent fashion and to connect the content to the messages of the writer. Discourse knowledge includes for instance, the structure of different genres, the main messages the author intends to convey, and the topic structure. Linguistic knowledge includes oral language capacities – production and comprehension – and the ability to reflect one's knowledge of language. Skilful reading requires knowledge of all linguistic levels – phonology, morphology, syntax, and higher level discourse structures. In addition, comprehension often involves integrating non-print information. Their goals are gaining knowledge, enjoying literature, locating specific information, and learning from text. Motivation consists of multiple aspects. The students with strong sense of competence are likely to engage. In addition, when children are inherently motivated to read, value reading highly, and are mastery-goal oriented, they are more likely to engage in reading. These strategies can reflect conscious awareness or become automatic with practice. The use of a meta-cognitive strategy is activated by the reader's assessment of his or her own cognitive state.

**Key words: competence, motivation, language, speech models, interference**

**Гасанова Г.**

## Современные подходы при преподавании английского языка на высших вузах

### Резюме

Для того, чтобы сделать процесс обучения речевой коммуникации на языке специальности более эффективным, преподаватель должен содействовать созданию обстановки, когда и обучающий, и обучаемые чувствуют себя достаточно комфортно, в том или ином академическом контексте, понимают цель речевого общения, и осведомлены о способах достижения этой цели с помощью использования ранее усвоенных лексических единиц, грамматических структур, интонационных моделей и речевых образцов. Знание потребностей студентов и целей, в которых они изучают тот или иной иностранный язык, позволяет специалистам в области преподавания иностранных языков, а также практикующим учителям языков разрабатывать наиболее эффективные методы их достижения.

Современная методика преподавания иностранных языков, основанная на коммуникативной модели обучения языку, предполагает обучение иноязычноречевой компетенции в определенном коммуникативном контексте путем сочетания основных компонентов языковой системы и при условии обеспечения коммуникативного контекста с помощью ситуаций и тем, и реализации и усвоения лингвистических единиц в функциональных целях.

Сегодня подавляющее большинство изучающих иностранные языки, вообще, и английский язык, в частности, преследуют цель овладения умением речевого общения на изучаемом языке. Именно поэтому внимание как ученых методистов, исследующих теоретические вопросы обучения иностранным языкам в системе высшего и среднего образования, так и практикующих учителей иностранного языка должно быть в первую очередь сфокусировано на проблеме обучения языку как средству речевой коммуникации. Совершенно естественно, что при выборе наиболее целесообразного метода или методов обучения коммуникации на иностранном языке предпочтение должно быть отдано коммуникативному подходу к обучению языкам.

**Ключевые слова: компетенция, мотивация, язык, речевые модели, интерференция.**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur**

**VALİDƏ ŞƏRƏF QIZI ABBASBƏYLİ**
AMEA Nəsimi adına Dilçilik
İnstitutununun doktorantı
Email: abbaslivalide97@gmail.com

# ONOMASTİK VAHİDLƏR VASİTƏSİLƏ YARANAN DÜZƏLTMƏ İSİMLƏR

**Xülasə**

Məqalədə onomastik vahidlərin müxtəlif məna növlərindən yaranan isimlərdən danışılır. Dilçilik elminin əsas sahələrindən biri də qrammatika şöbəsidir. Qrammatika şöbəsi morfologiya və sintaksis olmaqla iki yerə ayrılır. Morfologiyada sözün geniş şəkildə qrammatik mənaları öyrənilir. Həmçinin morfologiyada morfemlər, əsas və köməkçi nitq hissələri, həmin nitq hissələrinin dəyişmə formaları, onların oxşar və fərqli cəhətlərindən bəhs edilir. Əsas nitq hissələrindən biri olan isimlər lüğət tərkibində geniş mövqe tutur. İsimlər müxtəlif lüğəvi məna növlərinə, hal, mənsubiyyət kimi kateqoriyalara malik olur. Quruluşca sadə, düzəltmə və mürəkkəb olur və həm düzəltmə isimlər, həm də mürəkkəb isimlərin yaranmasında müxtəlif nitq hissələri aparıcı rol oynayır. İsimlərin yaranmasında isim, sifət, say, əvəzlik, feil, təqlidi sözlərin xüsusi rolu olmuşdur. Düzəltmə isimlərin yaranmasında müxtəlif nitq hissələri ilə yanaşı, onomastik vahidlər də əhəmiyyətli rol oynayır. Ta qədim dövrlərdən başlayaraq dilin lüğət tərkibində olan isimlərin əmələ gəlməsində onomastik vahidlər əhəmiyyətli rola malik olur. Onomastik vahidlər dedikdə, antroponimlər, etnonimlər, toponimlər, zoonimlər və s. nəzərdə tutulur. Şəxs adları, tayfa, xalq adları, yer adları, heyvan adlarından müxtəlif şəkilçilərin köməyi ilə fərqli məzmunlu isimlər yaranır. Bu şəkilçilərdən bəziləri söz köklərinə, bəziləri həm söz köklərinə, həm də digər bir şəkilçidən sonra artırılır. Bu şəkilçilər vasitəsilə onomastik vahidlərdən yaranan isimlər dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oyanır.

**Açar sözlər:** qrammatika, morfologiya, əsas nitq hissələri, düzətmə isimlər, onomastik vahidlər.

Hər bir dildə olduğu kimi müasir Azərbaycan dilinin də özünəməxsus fonetik sistemi, lüğət tərkibi, qrammatik quruluşu var. Dilimizin qrammatik quruluşu fonetik sistemə və lüğət tərkibinə nisbətən daha stabildir. Yunan alimi Əflatunun "Kratil" əsərində *qrammatika* sözü ilk dəfə işlənmişdir. Yunanca "qramma (hərf, yazı)" və "tike (elm)" sözlərindən götürülmüşdür və mənası "hərf haqqında elm" deməkdir. Şərq aləmində isə "qrammatika" termini oxumaq, yazmaq, savad mənasında işlənmişdir. Həmin dövrlərdə dilçiliyin bütün bölmələri mənasında işlədilirdi. Qrammatika elminin əsası qədim Yunanıstan və Hindistanda eramızdan təqribən 2500 il bundan qabaq qoyulmuşdur. Bu terminin geniş şərhini frakiyalı Dionisi vermişdir.

Professor B.Xəlilov "Müasir Azərbaycan dilinin morfologiyası" kitabının birinci hissəsində qrammatika haqqında yazırdı: "Qrammatika sözlərin dəyişməsi və onların cümlədə birləşməsi qaydalarının məcmusudur. Qrammatika bizə nitqimizi düzgün qurmaq, fikrimizi səlis və aydın ifadə edə bilmək, sözləri cümlədə necə dəyişdirmək və işlətmək, onları bir-biri ilə necə əlaqələndirmək, hansı ardıcıllıqla düzmək və s. qayda-qanunlarını öyrədir". (5. s.3-4)

Dilimizin qrammatik quruluşu çox qədim tarixə malikdir. O, zaman keçdikdə rəngarəng inkişaf yolu keçərək zənginləşmiş və səlisləşmişdir. Dilin qrammatik quruluşunun tədqiq tarixinə baxarkən görə bilərik ki, Azərbaycan dilinin qrammatik quruluşu uzun illər məktəb qrammatikasının daxilində öyrənilmişdir. Qrammatika sahəsində ilk geniş elmi araşdırma professor Mirzə Kazım bəyin adı ilə bağlıdır. Daha sonralar N.Nərimanovun, S.M.Qənizadənin kitabları nəşr olunmuşdur. 1950-60-cı illərdə qrammatikamızın tədqiqində Ə.Dəmirçizadə, M.Şirəliyev, M.Hüseynzadə, Ə.Abdullayev, Y.Seyidov və başqa alimlərin böyük rolu olmuşdur. Həmçinin dəyərli dərsliklər, monoqrafiyalar yazılmışdır.

Qrammatika termini iki mənada işlədilir:

- Dilin qrammatik quruluşu;
- Dilin qrammatik quruluşundan bəhs edən elm.

Q. Kazımov "Müasir Azərbaycan dili. Morfologiya" kitabında qrammatik quruluş barəsində yazır: "Dilin qrammatik quruluşu – cümlədə sözlərin dəyişməsi və birləşməsi qaydalarının məcmusudur. İkinci mənada qrammatika – cümlədə sözlərin dəyişməsi və birləşməsi qaydalarından bəhs edən elmin adıdır". (8. s.18)

Qrammatika bölməsi morfologiya və sintaksis şöbələrinə ayrılır. Hər iki şöbənin özünəməxsus cəhətləri vardır. Həm morfologiya, həm də sintaksis şöbəsində sözə müxtəlif məqamlardan yanaşılır. Morfologiyada söz qrupları, sözlərin dəyişməsi, sözlərin müxtəlif şəkillərə düşməsindən danışılır.

İlk olaraq morfologiyada sözün tərkibinə daxil olan mənalı vahidlərdən – morfemlərdən bəhs olunur. Dilçi alim M. Hüseynzadə "Müasir Azərbaycan dili. III hissə. Morfologiya" kitabında sözün tərkibi barəsində yazırdı: "Sözlər tərkibcə iki hissədən – kök və şəkilçidən ibarətdir. Başqa sözlə desək, müasir Azərbaycan dilində işlənən sözlərin quruluşu əsas və qeyri-əsas olaraq iki hissəyə bölünür. Sözün əsas hissəsi dilçilik elmində kök, qeyri-əsas hissəsi isə şəkilçi adlanır". (7. s.6) Kök və şəkilçinin arasında bir sıra fərqlər var. Kök sözlərin əsasını təşkil edir, ayrılıqda işlənə bilir, müstəliq leksik mənaya malik olur, fonetik tərkibcə sabit qalır, müxtəlif şəkilçilər qəbul edə bilir. Lakin şəkilçi kökün əksinə olaraq sözün əsasını təşkil etmir, ayrıca işlənmir, müstəqil mənası yoxdur, fonetik tərkibcə dəyişkən olur. Dilimizdə işlənən bütün sözlər eyni quruluşa malik deyildir. Müxtəlif sadə sözlərdən sözdüzəldici şəkilçilər vasitəsilə yeni sözlər yaranır. Bu səbəbdən də sözlər quruluşuna görə sadə, düzəltmə və mürəkkəb olmaqla üç qismə ayrılır.

Digər tərəfdən morfologiyada nitq hissələrindən bəhs olunur. Professor Q. Kazımov "Müasir Azərbaycan dili. Morfologiya" kitabında nitq hissələrinə belə bir tərif verir: "Leksik-qrammatik mənasına, morfoloji əlamətinə və sintaktik vəzifəsinə görə fərqlənən söz qruplarına nitq hissələri deyilir". (8. s.36) Nitq hissələrinin təsnifatı barəsində dilçilik ədəbiyyatlarında müxtəlif fikirlər olmuşdur. Yunan alimi Əflatunun qeydlərinə əsasən söyləmək olar ki, e.ə V əsrdə nitq hissələri adlar və feillər olmaqla iki yerə ayrılmışdır. Aristotel yunan dilində adlar, feillər və bağlamalar kimi üç nitq hissəsinin olduğunu qeyd edirdi. E.ə.III-II əsrlərdə 8 nitq hissəsinin adı çəkilirdi. Roma dilçiləri bu nitq hissələri sırasından Roma dilində artikl olmadığı üçün artiklları çıxarıb, nidalarla əvəz etmişdilər.

XIX əsrdən başlayaraq dillərin morfoloji quruluşları daha da dərindən öyrənilməyə başlanılmışdır. Bu dövlərdə nitq hissələri morfoloji prinsip və sintaktik prinsip üzrə təsnif edilirdi. Müasir dövrümüzdə nitq hissələri leksik-qrammatik mənasına görə, morfoloji əlamətinə görə, sintaktik vəzifəsinə görə qruplaşdırılır. Qeyd etdiyimiz bu prinsiplərin vəhdəti əsasında Azərbaycan dilində müxtəlif nitq hissələri formalaşmışdır. Q. Kazımov "Müasir Azərbaycan dili. Morfologiya" kitabında nitq hissələrinin təsnifatını aşağıdakı şəkildə vermişdir:

"Əşya adı bildirənlər – isimlər;

Əşyaya məxsus əlamət, keyfiyyət bildirənlər – sifətlər;

Əşyaya məxsus miqdar, sıra bildirənlər – saylar;

Əşyanın hərəkətini bildirənlər – feillər;

Hərəkətin əlamətini bildirənlər – zərflər". (8 s.39-40)

Qeyd etdiyimiz nitq hissələri ilə yanaşı özünəməxsus mənası, morfoloji əlaməti olmayan bir nitq hissəsi də əvəzlikdir.

Professor B.Xəlilov "Müasir Azərbaycan dilinin morfologiyası" kitabında nitq hissələrinin təsnifində 3 prinsipin əsas götürüldüyünü qeyd edirdi. Həmin prinsiplər bunlardır: leksik, morfoloji və sintaktik. Leksik prinsipdə sözün mənası, morfoloji prinsipdə sözlərin morfoloji formaları, sintaktik prinsipdə sözlərin cümlədə daşıdığı sintaktik vəzifələr başa düşülür" (5. s.139)

Ümumiyyətlə, dilçilikdə nitq hissələrinin bölgüsü barəsində müxtəlif təsnifatlar aparılmışdır. M.Şirəliyev, M.Hüseynzadə, S.Cəfərov, A.Qurbanov, A.Axundov və başqa alimlərimiz bu barədə fikirlər söyləmişdirlər. Məsələn, M.Hüseynzadə 1954-cü ildə çap olunmuş kitabında 10 nitq hissəsi, 1983-cü ildə nəşr olunmuş kitabında 12 nitq hissəsi olduğunu qeyd etmişdir. Professor S.Cəfərov nitq hissələrini 10 yerə bölmüşdür. Akademik A.Qurbanov nitq hissələrini əsas, köməkçi, qeyri-müəyyən nitq hissələri olmaqla 3 qrupa ayırmışdır. Professor B.Xəlilov nitq hissələrinin əsas, köməkçi və xüsusi nitq hissələri olmaqla 3 qrupa ayrıldığını qeyd edirdi.

Bunu da deyək ki, dilin lüğət tərkibində olan sözlərin böyük çoxluğu həm leksik, həm qrammatik mənaya malik olur, morfoloji cəhətdən dəyişir və sintaktik vəzifə daşıyır. Lakin bir qrup sözlər yalnız qrammatik mənaya malik olur. Bu səbəbdən sözlər *tammənalı* və *natamam mənalı sözlər* qrupuna ayrılır. Tammənalı

sözlərdən ibarət olan nitq hissələri əsas nitq hissələri, natamam mənalı sözlərdən ibarət olan nitq hissələri köməkçi nitq hissələri adlanır.

Tammənalı sözlərdən ibarət olan əsas nitq hissələrindən biri isimdir. Dilimizin lüğət tərkibində olan sözlərin böyük bir qismi isimlərdir. İsimlərin özünəməxsus bir neçə xüsusiyyəti vardır.

- Əşya adı bildirən, mücərrəd anlayışların adlarını bildirən, təbiət hadisələrini bildirən, insan və heyvanın bədən üzvlərini bildirən isimlər olmaqla bir-birindən fərqli leksik-semantik məna qruplarına ayrılır.
- İsimlər kəmiyyət baxımdan tək və cəm olur.
- İsimlər hal və mənsubiyyət kateqoriyasının birbaşa daşıyıcılardır.
- İsimlər həmçinin şəxs kateqoriyasının şəkilçiləri də qəbul edir.
- İsimlər mübtəda, xəbər, təyin, tamamlıq, zərflik kimi cümlə üzvləri vəzifəsində çıxış edir.

İsimlər leksik mənasına görə üç qismə ayrılır:

- Konkret və mücərrəd varlıqların adını bildirən isimlər;
- Ümumi və xüsusi isimlər;
- Tək və toplu isimlər.

Dilimizdə olan isimlər quruluşuna görə üç qrupa ayrılır: sadə, düzəltmə və mürəkkəb isimlər. Sadə isimlər bir kökdən ibarət olur və çox qədim tarixə malikdir. Düzəltmə isimlər sadə sözlərin şəklini dəyişməklə yaranan isimlərdir. Sadə isimlərə və müxtəlif nitq hissələrinə sözdüzəldici şəkilçilər artırmaqla düzəltmə isimlər yaranır. Bu tip isimlər morfoloji yolla əmələ gələn isimlər adlanır. Yeni yaranan isimlər onların yarandığı söz ilə arasında müəyyən məna əlaqəsi olmalıdır. Qeyd etdiyim kimi, müxtəlif şəkilçilər vasitəsilə düzəltmə isimlər əmələ gəlir. Bu şəkilçilər hansı nitq hissələrinə qoşulmasına görə iki yerlə ayrılır: a)adlardan (isim, sifət, say, əvəzlik və zərf); b)feillərdən. Mürəkkəb isimlər iki və daha artıq müstəqil sözün sintaktik yolla birləşməsindən yaranır.

Yuxarıda qeyd etdiyim kimi, düzəltmə isimlər müxtəlif nitq hissələrinə aid olan sadə sözlərdən, həmçinin xüsusi isimlərdən yaranır. Xüsusi isimləri antroponimlər, toponimlər, etnonimlər, zoonimlər kimi qruplara ayırmaq olar.

Antroponim sözü yunan sözü olub, anthropos (insan) və onoma (ad) sözlərinin birləşməsindən yaranmışdır. Antroponimlər dedikdə, şəxs adları, soyadları, təxəllüs və ləqəblər nəzərdə tutulur. Şəxs adlarını öyrənən xüsusi dilçilik bölməsi antroponimika adlanır. Antroponimlər isimlərin yaranmasında əhəmiyyətli rol oynayır. Antroponimlərdən yaranan isimlər aşağıdakı şəkilçilər vasitəsi ilə yaranır.

- **-lı, -li, -lu, -lü** şəkilçisi: Məhsuldar şəkilçilərdən biridir. Antroponimlərdən soyad, təxəllüs bildirən isimlər yaranır. "Həsən, Məmməd, Abbas" və s. antroponimlərdən "Həsənli, Məmmədli, Abbaslı" isimləri yaranır.
- **-i** şəkilçisi: Bu şəkilçi az məhsuldar şəkilçidir. "Babək" antroponimindən "babəkilər"(Babəkin tərəfdarları) ismi yaranmışdır.

- **-çı, -çi, -çu, -çü** şəkilçisi: İsim yaradan məhsuldar şəkilçidir. “Hitler” antroponimindən “hitlerçi”(Hitler tərəfdarları) isim yaranmışdır.
- **-çılıq, -çilik, -çuluq, -çülük** şəkilçisi: “Tolstoy” antroponimindən “tolstoyçuluq” ismi yaranmışdır.
- **-izm** şəkilçisi**:** Bu şəkilçi az məhsuldar şəkilçilərdən biridir. “Bonapart, Freyd, Makkart, Mark” kimi isimlərdən “bonapartizm, freydizm, makkartizm, markizm” isimləri yaranmışdır.
- **-ist** şəkilçisi: İşlənmə dairəsinə görə məhdud şəkilçidir. “Bonapart, Marks” kimi isimlərdən “bonapartist, marksist” isimləri yaranmışdır.

Onomastik vahidlərin digər bir növü olan etnonimlər yunan sözü olan “etnos” (xalq) və
“onoma” (ad) sözlərindən yaranıb və “xalq adı” mənasında işlənir. Etnonimlər həmçinin tayfa, xalq, millət adlarıdır. Etnonimlərdən yaranan isimlər aşağıdakı şəkilçilər vasitəsilə yaranır.

- **-şünas** şəkilçisi: Qeyri-məhsuldar isim düzəldən şəkilçidir. “Assur, ərəb” etnonimlərdən “assurişünas, ərəbşünas” sözləri yaranmışdır.
- **-çılıq, -çilik, -çuluq, -çülük** şəkilçisi: “İtalyan, fars” etnonimlərə artırılaraq “italyançılıq, farsçılıq” sözləri yaranmışdır.
- **-pərəst** şəkilçisi: “İngilis” etnoniminə artırılaraq “ingilispərəst” sözü yaranmışdır.
- **-lıq, -lik, -luq, -lük** şəkilçisi: Bu şəkilçi başqa şəkilçilərdən sonra artırılır və yeni mənalı isimlər yaranır. “Ərəbşünas, ingilispərəst” sözlərindən “ərəbşünaslıq, ingilispərəstlik” isimləri yaranır.

Onomastik vahidlərin növlərindən biri də toponimlərdir. Toponim sözünün mənası “yer adları” deməkdir. Toponimlər vasitəsilə yaranan isimlər dilimizin lüğət tərkibində kifayət qədər vardır. Toponimlərdən yaranan isimlərə aşağıdakı sözləri nümunə göstərə bilərik.

- **-lı, -li, -lu, -lü** şəkilçisi: Məhsuldar şəkilçi olub, “Azərbaycan, Bakı, Amerika, Avstraliya, Dağıstan, Əfqanıstan, Hindistan və s.” kimi toponimlərə artırılaraq “azərbaycanlı, bakılı, amerikalı, avstraliyalı, dağıstanlı, əfqanıstanlı, hindistanlı” kimi ümumi isimlər düzəldir. Həmçinin təxəllüs bildirən xüsusi isimlər də yaradır. Məsələn, “Göyçaylı, Şıxlı”.
- **-çılıq, -çilik, -çuluq, -çülük** şəkilçisi: “Azərbaycançılıq, italyançılıq” sözü “Azərbaycan, İtalya” toponimindən yaranmışdır.
- **-şünas** şəkilçisi: “Azərbaycanşünas, iranşünas” və s. kimi isimlər yaranır.
- **-lıq, -lik, -luq, -lük** şəkilçisi: “Azərbaycanşünaslıq, iranşünaslıq” və s. ümumi isimlər yaranır.

Onomastik vahidlərin digər biri növü olan zoonimlər də düzəltmə isimlərin yaranmasında fəal iştirak edir. Zoonim sözü “zoo” (heyvan) və “onim” sözlərindən yaranmışdır və “heyvan və quşların xüsusi və ümumi adı” mənasındadır. Zooloji

leksika heyvan, quş, balıq, həşərat, sürünənlərin və s. adını əhatə edir. Zoonimlərdən yaranan isimlərə aşağıdakıları nümunə göstərə bilərik.

- **-çı, -çi, -çu, -çü** şəkilçisi: İsim düzəldən məhsuldar şəkilçidir. "Buzov, camış, balıq, dəvə, inək, qoyun, quzu" zoonimlərinə artırılaraq "buzovçu (buzovotaran şəxs), camışçı (camışçılıqla məşğul olan şəxs), balıqçı (balıq tutan şəxs), dəvəçi (dəvə saxlamaqla məşğul olan şəxs), qoyunçu (qoyun saxlamaqla məşğul olan şəxs), quzuçu (quzu otaran balaca çoban)" isimləri yaranmışdır.
- **-baz** şəkilçisi: İşləkliyinə görə məhdud dairədə işlənir. "Bildirçin, xoruz, it, pişik" kimi zoonimlərdən "bildirçinbaz (əyləncə üçün bildirçin saxlayan şəxs), xoruzbaz (xoruzları döyüşdürmək üçün saxlayan şəxs), itbaz (it saxlamağı sevən şəxs), pişikbaz (çoxlu pişik saxlayan, həmçinin pişikləri sevən şəxs" isimləri yaranmışdır.
- **-lıq, -lik, -luq, -lük** şəkilçisi: "Buqələmun, buzov, canavar, ilan, ilbiz, kaftar, köpək, qırqovul, qurd, quzu, öküz, tülkü" kimi zoonimlərdən "buqələmunluq (ikiüzlülük, riyarkarlıq), buzovluq (iki mənada işlənir: a)buzovların saxlanıldığı yer; b)inəyin balalığı), canavarlıq (vəhşilik, qəddarlıq), ilanlıq (ilanaların çox olduğu yer), ilbizlik (iki mənada işlənir: a)ilbizlərin çox olduğu yer; b)gizlindən iş görmək kimi məcazi mənada) və s. kimi sözlər yaranır.
- **-cıq, -cik, -cuq, -cük** şəkilçisi: Kiçiltmə mənasında işlənir. "Dəvə, qurbağa, quzu" zoonimlərə bu şəkilçi artırılaraq "dəvəcik (həşərat), qurbağacıq (qurbağa balası), quzucuq (quzudan kiçik) isimləri yaranmışdır.

Məqalədə aparılan təhlillər bir daha göstərir ki, düzəltmə isimlərin yaranmasında digər nitq hissələri ilə yanaşı xüsusi isimlərin də əhəmiyyətli rolu vardır. Nəzərdən keçirilən dil materialları, nümunələr belə deməyə əsas verir ki, onomastik vahidlərin müxtəlif növlərindən – yəni antroponimlər, entonimlər, zoonimlər, toponimlərdən müxtəlif mənalı isimlər düzəltmək olur. Onomastik vahidlərdən yaranan isimlərdə bir neçə şəkilçidən xüsusi olaraq istifadə olunur. Antroponimlər, toponim, zoonim və etnonimlərdən yaranan isimlər dilimizin lüğət tərkibində xüsusi mövqe tutur. Antroponimlərdən daha çox soyad, təxəllüs, cərəyən adı bildirən isimlər, etnonimlərdən peşə, ənənə adı bildirən isimlər, toponimlərdən ümumi isimlər, təxəllüs bildirən isimlər, zoonimlərdən peşə və müxtəlif mənalı isimlər yaranmışdır. Ümumiyyətlə, bunu da qeyd etməliyəm ki, onomastik vahidlərdən yaranan isimlər geniş şəkildə araşdırmalıdır. Çünki bu cür sözlər dilimizin olduqca maraqlı faktlarıdır. Dilin lüğət tərkibinin zənginləşməsində əhəmiyyətli rol oynayır.

**ВАЛИДА АББАСБЕЙЛИ**

**ПРАВИЛЬНЫЕ СУЩЕСТВИТЕЛЬНЫЕ, ОБРАЗОВАННЫЕ ЧЕРЕЗ ОНОМАСТИЧЕСКИЕ ЕДИНИЦЫ**

**РЕЗЮМЕ**

В статье говорится о существительных, образованных от разных значений ономастических единиц. Одним из основных отделов языкознания является отдел грамматики. Кафедра грамматики делится на две части: морфологию и синтаксис. В морфологии широко изучаются грамматические значения слова. Морфемы, главные и вспомогательные части речи, формы изменения этих частей речи, их сходство и различие изучаются также в морфологии. Существительные, являющиеся одной из основных частей речи, занимают широкое положение в лексике. Существительные имеют разные типы лексического значения, такие категории, как падеж и принадлежность. Он бывает простым по структуре, составным и сложным, причем разные части речи играют ведущую роль в образовании как сложных существительных, так и сложных существительных. Существительные, прилагательные, числительные, местоимения, глаголы и подражательные слова играли особую роль в образовании имен существительных. Коррекция играет важную роль в образовании имен существительных в ономастических единицах наряду с различными частями речи. С древних времен ономастические единицы играли важную роль в создании существительных в лексике языка. Под ономастическими единицами понимаются антропонимы, этнонимы, топонимы, зоонимы и др. Это предназначено. С помощью различных суффиксов создаются существительные с разным содержанием от личных имен, племен, имен людей, топонимов, названий животных. Некоторые из этих суффиксов добавляются к корням слов, некоторые — к обоим корням слов и после другого суффикса. Благодаря этим суффиксам существительные, образованные от ономастических единиц, играют важную роль в обогащении словарного запаса языка.

**Ключевые слова:** грамматика, морфология, основные части речи, имена собственные, ономастические единицы.

**VALİDA ABBASBAYLİ**

**THE DERIVATIVE NOUNS FORMED THROUGH ONOMASTIC UNITS**

**SUMMARY**

The article talks about nouns formed from different meanings of onomastic units. One of the main departments of linguistics is the department of grammar. The grammar department is divided into two parts: morphology and syntax. In morphology, the grammatical meanings of the word are studied in a broad way. Morphemes, main and auxiliary parts of speech, change forms of these parts of

mədəni və s. cəhətdən əlaqədə olduğu qohum olmayan dillərintəsiri nəticəsində yaranır və dilin formalaşaraq inkişaf etməsində mühüm rol oynayır. Ingilis dilinin lüğət tərkibində də ifadə etdikləri anlayış və hadisələrin bir-birinə münasibətlərində asılı olaraq semantik cəhətdən yaxın və yaxın mənalı, eləcə də eyni formalı, lakin müxtəlif mənalı sözlər mövcuddur. Bu zaman sözlərinvurğularına tələffüz formalarına diqqət yetirmək lazımdır. Bəzən vurğular vasitəsilə sözlərin mənasını təyin etmək mümkündür. Müasir ingilis dili dünyada lekdik bazasına görə ən zəngin dillərdən biridir. İngilis dilinin söz tərkibini nəzərdən keçirərkən, bu məsələlərə diqqət yetirilməlidir. Müxtəlif növ sözlərin və söz yaradıcılığı üsullarının izahı, dildəki leksik təbəqənin (ədəbi və ümümişlək sözlər, neologizmlər, slənqlər və s.) ingilis dilinin daimi inkişaf fonunda təhlili, istənilən dilin lekdik tərkibini dərindən öyrənmək üçün ilk növbədə həmin dildə sözlərin necə yarandığını dəqiq bilmək və onların tərkib hissələrinə ayırmağı bacarmaq lazımdır. Bu ibgilis dilini ikinci dil kimi öyrənənlər üçün xüsusi əhəmiyyət kəsb edir. Alınma sözlərdəki vurğu sözlərdəki dəyişikliyi daha aydın şəkildə göstərir. Söz yaradıcılığı prinsiplərini tam ardıcılığı ilə və ətraflı bilən şəxs çətinlik çəkmədən ingilis dilində dinlədiyi və oxuduğu mətndəki sözlərin mənasını bilir. Ümumiyyətlə, ingilis dilində söz yaradıcılığı metodları aşağıdakı kimi təsnif olunur. Affiksasiya - ingilis dilinin söz yaradıcılığında ən geniş yayılmış və məhsuldar bir metoddur. Müxtəlif nitq hissələrinə prefiks və suffiks artırmaqla eyni və ya fərqli nitq hissələri alınır. Digər bir söz yaratma yaratma vasitəsi iki və ya daha artıq sözün birləşməsi ilə mürəkkəb sözlərin yaradılmasıdır (1 səh. 3-6). Söz yaratma ilə alınan sözlərdəki dəyişiklər daha çox diqqəti cəlb edir. Bu yolla alınan sözlərin, onların leksik vahidlərinin tərkibindəki sözlər öz əvvəlki mənalarını saxlaya bilər və bu birləşmə yeni məna ifadə edə bilər. Söz yaradıcılığında mühüm vasitələrdən biridə konversiyadır. Bu metoda əsasən sözlər heç bir forma və tələffüz dəyişikliyinə uğramadan işləndiyi mətndən asılı olaraq müxtəlif nitq hissəsi vəzifəsini daşıyır, feli və ya ismi əvəz edə bilər, sifət və ya fel ola bilər, məsələn, work (v) –işləmək, work (n, is) water (n, sn), to water (r) – sulamaq , emptybos – to empty – boşaltmaq. İngilis dilinin tələffüzündə bu sözlərdə vurğu və stress dolöun şəkildə göstərilmişdir. Söz yaradıcılığı üsullarından biri də səs və vurğunun dəyişməsi ilə yaranan söz birləşmələrdir. Onu da qeyd etmək lazımdır ki, bir çox alimlər dəqiq göstərmişlər. İngilis dilində latın, fransız, skandinaviya mənşəli sözlər əsasən ingiltərənin bu xalqlar tərəfindən işğal olunduğundan sonra daxil olmuşdur. Bu işğal ayrı-ayrı dövlətlərdə baş vermişdir. Hər bir dövrdə də işğalçı ölkədən İngiltərəyə çoxlu sayda insanlar gəlmiş və orada məskunlaşmışdılar. Bu yolla da ingilis dilinə çox saylı sözlər daxil olmuşdur. Hər bir sözün özünəməxsus tələffüzü və vurğusu vardır. Bunlar da dildə olan dəyişikliyi göstərir. Məlumdur ki, heç bir səs tərkibi başqa bir dilin səs tərkibinə bənzəmir. Çünki dünya dilləri içərisində heç olmazsa iki elə dil tapmaq mümkün deyil ki, onların fonoloji sistemləri, fonem distribusiyası qaydaları və informasiyası modelləri bir-birinə uğun gəlsin. Buna görə də başqa dilə məxsus sözün və ya ifadənin deyimində sözün alan

dilin öz tələffüz və informasiya qaydalarının təsiri altında baş verməsi olar. Alınma sözün dildə fonetik cəhətdən mənimsənilməsi həmin sözün qrafik cəhətdənformalaşması ilə sıx əlaqədardır. Çünki alınma sözün orfoepiyasında baş verən əsas dəyişikliklər özünü həmin sözün sözalan dildə qrafik ifadəsinin məskəni kimi təzahür etdirir. Alınma sözün qrafik xüsusiyyəti dedikdə həmin sözün sözalan dildə qrafik sisteminə həmin sözün müvafiq orfoqrafiyasına tabe olması nəzərdə tutulur. Alınma sözlərin yeni dildə qrafik ifadəsi onların tələffüz qaydaları, alınmış yollarını da müəyyənləşdirilməsi mühüm rol oynayır.

İngilis dilində olan mürəkkəb isimlər birinci komponentdə əsas, ikinci komponentdə vurğuya malikdir. İkinci komponent dərəcəli vurğu komponent müstəqil söz kimi işlənmədikdə zəifləyirdi. Ayrılan qoşma və zərfliyi olan nisbətən yeni düzəltmə fellərlə vurğu ondan əvvəl gələn həmi qoşma və zərflərin üzərinə düşürdü. İngilis dilindəgerman şəkilçiləri də (qədim ingilis dilində "ze", "fa", "bi". İngilis dilində bu şəkilçilərlə bağlı sözlər adətən vurğusuz olur (2 səh.4-8). İngilis dilində səslərin və vurğunun eseninin dəyişməsi yeni sözlərin yaranmasında müəyyən rol oynamışdır. İngilis dilinin söz yaradıcılığı tarixində məhz bu üsulların nə kimi rolu olduğu qeyd etmişik. Bu qrupa aid olan sözlər aşağıdakılar kimi qeyd edə bilərik.

Sing-song; heat-hot; blood-bleed, brood-brud. Bu tip sözlərdə zahirən sait səslərin dəyişməsi göstərilmişdir: 1) breathe – breath, choice – choose; live – life, bu tip sözlərdə isə həm sait, həm də samit səslərin dəyişilməsi müşahidə olunan ifadələri göstərə bilərik. Advise (v), advise (n), believe (v) – belief (m), house (s) (v) – house (z) (n), proove 9v), proof (n). Bu növ sözlərdə cingiltili samitlər, kar samitlərlə əvəz olunmasını qeyd edirik. Bu dəyişiklikləri əksinə də qeyd etmək olar. To permit [pə`mit] v, permit [pə`mit] n, to expert [ek`spənt] (v), export [`ekspə:t] (n). İngilis dilinin lüğət tərkibində də ifadə etdikləri anlayış və hadisələrin bir-birinə münasibətindən asılı olaraq, semantic cəhətdən yaxın və yaxın mənalı, eləcə də eyni formal, lakin müxtəlif məanlı sözlər mövcuddur. Bu sözlər ingilis dilində də öz əlamətlərinə leksik qruplara bölünmüşlər. Alınma sözlərdən bəhs edərkən, fransız mənşəli sözləri qeyd etmək olar. Bu sözlər artıq ingilis dili mühitində leksik valentlik və semantik dəyərini göstərmişdir. Bu sözlər artıq ingilis dilində həm fonetik, həm də leksik dəyişikliyə məruz qalaraq yeni sözlər əmələ gətirmişdir. İngilis dilinin lüğət tərkibində də ifadə etdikləri anlayış və hadisələrin bir-birinə münasibətləri qeyd olunmuşdur. Bu əlamətlərinə görə ingilis dilinin leksik sistemində müvafiq şəkildə semantic söz qrupları, məs. sinonim, antonym, omonim yaradılması və s. göstərilmişdir. Beginnen – commeneen work – labor, life – existence. Bəzi hallarda isə fransız sözləri ingilis dilində gündəlik işlənən sözləri sıxışdıraraq aradan çıxarmışdır. Belə ki, fransız sözü ingilis sözü "ea" (river) – çay sözünü; montague beorz mountain "dog" sözünü, poix fririp "sülh" sözünün sıxılmışdır. Aydın məsələdir ki, alınma sözlər bir dildən başqasına daxil olur və çox vaxt xarici görkəmini dəyişir. Roman, fransız, skandinav dillərindən tarixi hadisələrin iqtisadi-

ictimai münasibətlərin müxtəlif tərzli hərəkətlərin, əlaqələrin nəticəsi kimi qryd olunmuşdur. Alınma sözlər içərisində "curdi" (latın), lord (skandinaviya), goverment (fransız) və bu kimi sözlərin ingilis dilində işlənməsi daha geni yayılmışdır. Odur ki, hər hansı bir xarici dili öyrənərkən həmin dilin fonoloji sistemini, fonemlərin birləşmə qaydalarını, sözlərin sillialik (heca) və aksent-ritmik xüsusiyyətlərini öyrənib mənimsəmək zəruriyyəti mütləqdir. Bu, bir tərəfdən ingilis dilinin tədrisində daha səmərəli və uğurlu nəticələrin əldə edilməsinə, digət tərəfdən də dilin fonetik strukturu, o cümlədən sözün strukturunu və onun aspektləri ilə qarşıya çıxan bir sıra sualları cavab verməyə imkan yaradır (3 səh. 12-13). Ingilis dilində söz strukturunda vurğuların dərəcə baxımından paylanması əsasən ritmik semantik amilə şərtlənir. Aparılan ekspertlər əsasında nəticələr onu göstərir ki, sözün hecalarının sayı artdıqca onlara sərf olunan zaman kəsiyi də azalır. Ingilis dilinə latın, fransız və başqa dillərdən alınma sözlər daha çox əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, bu sözlərin söz düzətlmə ilə əlaqəsi olduğunu onların fonetik hadisə, fonetik dəyişikliklə bağlı olduğunu tarixi aspektdə açıqlamaq olar. Bunun üçün məşhur lüğətlərə müraciət etmək lazım gəlir. Məsələn "Present" ismi ingilis dilinə X əsrdə qədim fransız dilindən (present) "offering" "a gift" mənasında keçmişdir. Bu söz yazılı abidələrin dilində 1225ci ildən işlənməyə başlanmışdır. "to present" feili də XI əsrdə qədim fransız dilindən ingilis dilinə "to place before", "exhibit" formasında keçmişdir, qədim və orta əsrlər ingilis dilində bir kəsə hədiyyə vermək, hədiyyə etmək mənasında işlənmişdir. Oksford lüğətində "to present" felinin bu formada işlənməsinə rast gəlinir. Beləliklə, to present [pri`zent], present [prez(ə(nt] nümunəsində vurğunun dəyişməsi hesabına yeni sözlərin yaranmasını qeyd etmək olar. Digər söz "before" –də orta əsrlərin başlanğıcında yaranmış bir sözdür. Misallardan da aydın oldu ki, kar əsrlər tədricən felin yanında cingiltiləşmişdir və vaxt keçdikcə qrafik dəyişiklikər də baş vermişdir. Bu barədə ingilis tədqiqatçısı Butker qeyd edir ki, ingilis dilində belə qrafik dəyişikliklər və eləcə də səslərin karlaşması və cingilləşməsi halları tez-tez baş verir (4 səh.5-7). Alınma sözlərin hesabına zənginləşən ingilis dilinin lüğət tərkibi müxtəlif dövrlərdə müxtəlif sözdüzəldici vasitələrin köməyi ilə zənginləşmişdir. Lüğət tərkibinin inkişafı prosesində həmişə söz həmişə söz yaradıcılığı olmalıdı və bunun sayəsində də yeni sözlər yaranmışdır. Yeni yaranmış sözlərin özlərinə məxsus vurğu və tələffüzləri nəzərə alınmışdır. Məhz buna görə də müasir ingilis dilinin zənginləşməsində hər hansı bir məqalə qədim dövrdə əlaqələndirilməlidir, tarixi faktlarla qeyd olunmalıdır.

**Abıyeva V.G.**
**Safixanova A.H.**

**Formation of new words in English according stress and sounds**
**SUMMARY**

**Key words:** borrowed words, lexical layer, word building.

English is a stress – timed language. That means that stressed syllables apper at a roughly steady tempo where as nou – stressed syllables are shortened. In spoken language, grammatical words usually do not receive any stress. There is no wule, however about which syllable is atressed in a word. In the English language, there is one phenomenon concerning stress taht you can observe. This article deals with the word formation in English language. Different forms of word formation are listed in the article according to the information are listed here, there are different word formation methods in English such as affixation, compounding, by changing stress and sounds. Here main principles of each method are explained. The importance of given method in the word formation process of English is being spoken in the article. As it is evident from the article word building by replacing word stress and sound methods are focused were. Given subject is analysed on the ground of the historical development of English. It says in the article that at the result of replace ment of stress and sounds a part of speech can be used in the function of another part of speech. For example, a verb can become a noun or an an adjective may be used as a verb. Here the importance of these methods is compared with the role of the others in the word building process of English.

**Абыева В.**
**Сафиханова А.**

**Образование новых слов путем изменения ударения и звуков в английском языке**
**РЕЗЮМЕ**

**Ключевые слова:** лексическая база, ударение, лексический уровень, словообразование.

Стресс и ударение в английском языке играют важную роль. Какого-то единого слова правил, как в итальянском или французском, в английском нет. Ударение, как и в ударение есть общие механизмы, которые позволяют быстрее понять слов. Кстати, «ударение» по английскому будет “stress” , именно он возникает у людей при неправильном произношении слова. Ударение в английских словах внушают большую роль изучающим. Данная статья посвящена вопросам словообразования в английском языке. В статье описываются различные способы образования новых слов. Согласно информации данной здесь, существуют такие методы образования, как

аффиксация, словосложение, конверсия, сокращение слов, изменения ударения и чередование звуков. Рассказывается о значении каждого способа в словообразовательном процессе английского языка. Как видно из названия статьи особое внимание уделяется изучению словообразования путем изменения ударения и чередования звуков. Данная тема анализируется на фоне исторического развития английского языка. Как сказано в статье в результате изменения ударения или чередования звуков одна часть речи может употребляться в качестве другого. Например, глагол может стать существительным, прилагательное может превратится в глагол. Ведется сравнение роли данного метода с другим, в общем словообразовательном процессе английского языка.

## ƏDƏBİYYAT

1. O.Musayev “İngilis dilinin qrammatikası” Bakı, 2003.
2. Bready H. A Mddle English dictionary”, Oxford, 1958.
3. The Oxford dictionary, Oxford, 1993.
4. Арнольд И.В. «Лексикология современного английского языка». Москва, 2012.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: prof. Məmmədova Z.Ş.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**AYGÜN QƏDİMLİİ**
**ADU**
**E-mail:qedimliaygun@gmail.com**

# ƏRƏB ƏLİFBASININ AZƏRBAYCAN DİLİNDƏ DOĞURDUĞU ÇƏKİNLİKLƏR

**Açar sözlər: əlifba sistemi, dil strukturu, ərəb əlifbası, əlifba islahatı, qrafik sistem, fərqli cəhətlər**

**Ключевые слова: алфавитная система, структура языка, арабский алфавит, реформа алфавита, графическая система, различные аспекты**

**Key words: alphabetic system, language structure, arabic alphabet, alphabet reform, graphic system, different aspects**

Yazı bəşər mədəniyyətinin ən mühüm amili, onun dildən sonra ən böyük nailiyyətidir. Azərbaycan xalqı qədim və mədəni xalq olduğu üçün min ildən çox yazı tarixinə malikdir. Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsilə Qobustan və Cəmiqaya təsvirləri etnoqrafik şəkildə daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır. Tarixi faktlar sübut edir ki, Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir. Hər bir xalqın milli mədəniyyətinin tərkib hissələrindən birini həmin xalqın əlifbası, yazı sistemi təşkil edir. Əlifba xalqın mədəniyyət silahı, milli mənəvi sərvətidir. Mədəni və mükəmməl əlifba əsasında aparılan yazı sistemi xalqın maddi-mədəni nailiyyətlərinin yaranmasında, yaşamasında və inkişafında başlıca rol oynayır, xalqın dilinin, elmi əlaqələrinin və digər zəruri fəaliyyət sahələrinin tərəqqisinə xidmət edir. Azərbaycan xalqının əlifbası tarixin müxtəlif dövrlərində müəyyən səbəblərdən bir neçə dəfə dəyişdirilməyə məruz qalmışdır. Azərbaycanlılar ayrı-ayrı dövrlərdə qədim milli türk əlifbalarından (qədimdən VII əsrin II yarısına qədər); ərəb qrafikalı əlifbadan (VII əsrin II yarısından XX əsrin 1929-cu ilinə qədər); latın qrafikalı əlifbadan ( 1929-1940-cu illər); kiril qrafikalı əlifbadan ( 1940-1992-ci illər); yenidən latın qrafikalı əlifbadan (1992-ci ildən) istifadə etmişlər. [3, səh. 142]

Əlifba məsələsi hər bir dövrün mədəni inkişafı və tərəqqisi üçün zəruri sayılıb. Bununla belə, tarixdə Azərbaycanın mədəni inkişafına, tərəqqisinə, eləcə də ədəbi dilin inkişafına maneçilik törədən əlifbalar da olub. Məhz bu baxımdan haqlı olaraq, Azərbaycanın tərəqqipərvər ziyalıları dilimizin fonetik xüsusiyyətlərini əks etdirmək iqtidarında olmayan bu əlifbaların (əsasən ərəb əlifbası) islah edilməsi və ya digər daha mükəmməl yazı sistemi ilə əvəz olunması uğrunda illərlə və müntəzəm mübarizə aparmışlar. Tarixi sənədlərdən də məlum olduğu kimi bütün türk dünyasında, eləcə də Azərbaycanda bu işi başladan və əlifbanın dəyişdirilməsi ilə bağlı ilk təşəbbüs göstərən Mirzə Fətəli Axundov olmuşdur. Əlifbada dəyişiklik

etmək ideyası XIX əsrdə meydana çıxmışdır. Bu ideyanı irəli sürən böyük mütəfəkkir M.F.Axundov, ərəb əlifbasının Azərbaycan yazısı üçün yararsız olduğunu göstərərək demişdir: "Ərəblər bizim minillik səltənətimizi zavala uğratdılar; şan-şövkətimizi bada verdilər, vətənimizi xarabazara çevirdilər və bütün bunlara əlavə olaraq, bizim boynumuza elə bir əlifba da bağlamışlar ki, onun sayəsində hətta adi savad sahibi olmaq belə bizim üçün ən çətin işlərdən olmuşdur". [3, səh. 148]

Elmi ədəbiyyatda çox vaxt səhv olaraq run və ya runik yazı adlandırılan Göytürk, yaxud Orxon-Yenisey yazısının nə vaxt və harada yaranması haqqında indiyədək yalnız fərziyyələr irəli sürülmüşdür. Türkcənin türklər tərəfindən yazıldığı ilk əlifba Göytürk yazısıdır. Göytürklərdən sonra dövlət idarəçiliyini ələ keçirən uyğurların hakimiyyəti dövründə istifadə olunan türk yazıları türk tarixinin fərq baxımından ən rəngli əlifbalarıdır. Bu dövrdə mani, brahmi, tibet, süryani kimi yazı sistemləri ilə bir çox uyğur türkcəsi mətnləri qeyd edilmişdir.

VII əsrdə ərəb istilası Alban dövlətini, onun mədəniyyətini türkdilli tayfaların yaratmış olduğu bütün maddi-mədəni sərvətləri məhv etdiyindən indi əlimizdə o dövrlərə aid qədim türk dilində heç nə yoxdur. [1, səh. 18] Səlcuq və Səfəvi türkləri X əsrdən başlayaraq ərəb əlifbasını əsas tutmuş və ərəb-fars əlifbası vasitəsilə çoxlu əsərlər yaratmışlar. Türklərin ən geniş və uzun müddət istifadə etdikləri yazı sistemi, sözsüz ki, ərəb əlifbası olmuşdur. IX əsrdən türklərin həyatına daxil olan ərəb əlifbası bir qədər dəyişdirilərək XX əsrədək böyük bir mədəniyyətin yazısına çevrildi. Ərəb əlifbasını saxlamağa tərəfdar olanlar qeyd edirdilər ki, Azərbaycan yazısından ərəb əlifbası çıxarılsa, Azərbaycanda maarif işi on illərlə geri düşər və klassik Azərbaycan ədəbiyyatı tamamilə unudula bilər. Bəzi islahatçılar öz fikirlərini əsaslandırmaq üçün əlifbanı islam birliyi ilə bağlayır və göstərirdilər ki, əlifba dəyişərsə, islam birliyi dağıla bilər.

Azərbaycanda tarix boyunca istifadə olunan əlifba sistemləri dilin inkişafına da fərqli şəkillərdə təsir etmiş, alban-göytürk-ərəb-latın-kiril-latın əlifba keçidləri səs sistemində dəyişikliklərə səbəb olmuş, hətta bu yazı sistemlərində qələmə alınmış müxtəlif əsərlərin, maddi-mənəvi mədəniyyət nümunələrinin dəyişilmələr səbəbindən zamanla unudulmasına gətirib çıxarmışdır. Ulu babalarımız islam dinini qəbul etdikdən sonra dini inancla bağlı olmayan bütün yazılı abidələri məhv etmiş, ərəb dilinə daha çox meyl göstərmişdirlər. Türk-Azərbaycan dili yalnız məişətdə işlənmişdir. [ 1, səh. 18] İslam dininin qəbuluna qədər olan dövrün yazıları ilə yaradılan bu qiymətli xəzinənin böyük bir qismi məhv edilmiş, zaman keçdikcə həmin abidələrin qələmə alındığı yazı şəkilləri unudulmuş və ya ərəb qrafikasına keçilmişdir. İslamın yayıldığı dövrlərdən isə xalqımız ərəb əlifbasından istifadə yolu ilə min ildən artıq bir zaman ərzində tariximizin yeni mərhələsinədək zəngin mədəni irs yaratmışdır. Böyük Azərbaycan ədibləri, alimləri, mütəfəkkirləri islam mədəniyyətinin təşəkkül tapıb inkişaf etməsində mühüm rol oynayaraq bəşər sivilizasiyasını zənginləşdirmişdir.

XX əsrin əvvəllərində istər Azərbaycanda, istərsə də digər türkdilli bölgələrdə milli dirçəliş, milli oyanış dövrü olduğuna görə türk xalqlarının birliyi ideyası da aktuallaşdı. Türk xalqlarının birliyi ideyasında önəmli məsələlərdən biri də ortaq dil məsələsi idi. XX əsrin əvvəllərində ortaq türk dili və ortaq türk əlifbası ideyalarının təbliğ olunması ilk növbədə bu dövrdə türkçülük hərəkatının böyük vüsət alması ilə bağlı idi.

Tarix boyunca müxtəlif siyasi, ictimai, dini təsirlər nəticəsində türk xalqları müxtəlif əlifbalardan istifadə etmişlər ki, bu da zaman-zaman türklər arasında əlaqələrin zəifləməsinə, mədəni irsin inkişafındakı ardıcıllığın pozulmasına səbəb olmuşdur. M.F.Axundovla başlayan "əlifba islahı" hərəkatı XX əsrin əvvəllərində geniş vüsət almış, Azərbaycanda müxtəlif əlifba tərəfdarları olan ziyalılar arasında aparılan müzakirələrin nəticəsi olaraq bir əsrdə üç dəfə yeni əlifba sistemi tətbiq olunmuşdur. Bu dəyişikliklər xalqın çoxəsrlik mədəniyyət və yazı tarixində qopuqluqlar yaratmış və sonda latın əlifbasına keçidlə türk xalqları arasında əlaqələrin yenidən qurulması tələbini gündəliyə salmışdır.

Ərəb əlifbası Azərbaycan dilinə bütünlüklə uyğun olmasa da, keçmişdə bu əlifba vasitəsilə çox sayda dəyərli ədəbi və elmi əsərlər yaradılmışdır. Ərəb əlifbası mövcud əlifbalara nisbətən öz xüsusiyyət və quruluşuna görə, ümumiyyətlə, çox mürəkkəb və çətin əlifbadır. Azərbaycanlılardan qabaq ərəb əlifbasını farslar qəbul etmiş və onlar əlifbaya yeni dörd hərf (ç, j, p, g) artırmışlar. Azərbaycanlılar isə ərəb əlifbasını farsların əlavəsi ilə birlikdə götürmüşlər. [3, səh. 143] . Ərəb əlifbası zərgər dəqiqliyi tələb edən bir əlifbadır. Bu əlifba yazısı sağdan sola yazılır. Rəqəmlər isə soldan sağa yazılır. Ərəb əlifbasında nöqtənin əhəmiyyəti böyükdür. [5, səh. 11] Hərflərin yazılış qaydaları 4-cürdür. Çoxəsrlik yazı ənənələri olan Azərbaycan dilində ərəb əlifbası ilə zəngin ədəbiyyat nümunələri yaradılmışdır. Azərbaycan dilində əsəri bizə qədər gəlib çatan ilk sənətkarlardan biri XIII əsrdə yaşamış İzəddin Həsənoğlunun "Apardı könlümü" qəzəlidir. Azərbaycan dilinin inkişaf tarixində XVI əsr xüsusi bir mərhələ kimi qeyd edilir. Bu, hər şeydən iki nəfər qeyrətli Azərbaycan oğlunun fəaliyyətinin nəticəsi idi. Onlar, Şah İsmayıl Xətai və Məhəmməd Füzuli idi. [ 1, səh. 21] Onlar ana dilinə yuxarıdan baxan, onun şeir, sənət dili olmadığını iddia edən bəzi ərəb və farspərəstlərə qarşı çıxaraq Azərbaycan dilinin əsil şeiriyyət üçün yarandığını göstərdilər.

XX əsrin 20-ci illərinin sonuna kimi Azərbaycan dilinin yazısı ərəb qrafikasına əsaslanıb, yalnız 1929-cu ildə latın qrafikalı əlifbaya keçilib. Ərəb əlifbasının islah olunması sahəsində ilk təşəbbüs 19-cu əsrin 60-cı illərində M.F.Axundov tərəfindən irəli sürülüb və sonradan bu ideya bir çox Azərbaycan ziyalıları tərəfindən dəstəklənib. M.F. Axundov ömrünün 25-30 ilini yeni əlifba yaratmaq ideyasına həsr etmişdir. Köhnə ərəb əlifbasının türk dilinə yaramadığı həm birbaşa, həm də dolayı yolla deyənlər öz ideyasında ardıcıl olmadıqlarına görə yeni əlifba ideyasının atası M.F. Axundov hesab olunur. Bir çox ziyalı ərəb əlifbasını müxtəlif səbəblərdən qəbul etmir və onu yenisi ilə əvəz etməyi zəruri hesab edirdi.

Mirzə Fətəli Axundov "Soldan sağa yazılıb oxunan, sözlərin tərkibində bütün sait hərfləri samitlər sırasına daxil edilən və bütün nöqtələri atılmış əlifbadan başqa, heç bir xəttin hərflərini qəbul etmirəm və heç vaxt qəbul etməyəcəyəm", Türkiyədə təhsil alan ahıskalı maarifçi Ö.F. Nemanzadənin əsas qayələrindən biri də ana dili və latın əlifbası olub. Ədib bu barədə daha çox "Dilimiz və imlamız" adlı məqaləsində geniş məlumat verib. Mirzə Cəlilin dilə olan sevgi və mühafizəsindən danışmaq artıqdır. Naşiri və baş redaktoru olduğu "Molla Nəsrəddin" jurnalının da əsas qayələrindən biri ana dili olub. Dil və əlifba ilə əlaqəli bir sıra satirik məqalə və felyotonları ilə yanaşı, "Anamın kitabı "kimi şedevr dram əsərini də qələmə almışdır. Azərbaycan maarif tarixində əsas simalardan biri olan S.M.Qənizadənin diqqət etdiyi ən ümdə amillərdən biri də dil idi. Çoxsaylı lüğətləri ilk dəfə o, məktəblilər üçün hazırlayıb. İlk orta təshil məktəbinin yaradıcılarından biri də Sultan Məcid Qənizadədir. Xalqın savadlanması üçün ərəb - sillabi əlifbasının çətinlik törətdiyini və yeni əlifbaya keçmək zərurətini dərk edən ziyalılar arasında görkəmli alim Firidunbəy Köçərlinin də xüsusi yeri vardır. [ 1, səh. 174]

Lakin əlifba islahatı sahəsində ilk praktiki addımlar 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyi elan olunduqdan sonra atılıb. 1919-cu ildə milli hökumət yeni Azərbaycan əlifbasının layihəsini hazırlamaq məqsədilə xüsusi komissiya yaratdı. 1929-cu il yanvarın 1-dən bu əlifba tamamilə yazımızdan çıxarıldı.

Milli müstəqilliyin bəhrəsi olan yeni latın qrafikalı əlifbanın reallaşdırılması üçün ölkəmizdə xeyli nəzəri və əməli işlər görülmüşdür. Yeni əlifba layihəsinin hazırlanması dilçilərimizə həvalə olunmuşdur.

İlk dəfə olaraq yeni əlifbanın Azərbaycanda qəbul edilməsi başqa xalqlar üçün nümunə oldu. Keçmiş Sovetlər birliyində yaşayıb ərəb əlifbasından istifadə edən xalqlar, o cümlədən, tatarlar, qazaxlar, başqırdlar, türkmənlər, özbəklər və başqaları öz yeni əlifbalarını yaratdılar. Bu böyük hadisə Türkiyədə də latın əlifbasına keçmək ideyasını qüvvətləndirmiş və türklərin həmin sahədəki təşəbbüsünə müəyyən təsir göstərmişdi.

**Qədimli Aygün**

## Ərəb əlifbasının Azərbaycan dilində doğurduğu çəkinliklər

Türk yazı tarixi Orxon əlifbasıyla başlamışdır. Xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif əlifbalardan istifadə etmişdir. Azərbaycan yazısında ərəb əlifbasından istifadə olunarkən dilimizin fonetik xüsusiyyətləri nəzərə alınmamışdır. Bu əlifba eyni ilə yazımıza gətirilmişdir. Buna görə də Azərbaycan yazısında işlənən ərəb əlifbasında bir sıra nöqsanlar, çatışmazlıqlar meydana çıxmışdır. Bu əlifbada dilimizin səslərini əks etdirməyən səkkiz artıq hərf var idi. Dilimizdəki bütün saitlərə

aid bu əlifbada xüsusi işarə – hərf yox idi. Bir işarə ilə Azərbaycan dilinin bir samiti və bir neçə saiti bildirilirdi. Bəzi saitlər yazılmadığı üçün söz çox müxtəlif şəkildə oxunurdu. Hərflərdəki nöqtələr yazı işini ağırlaşdırırdı. Nöqtələrin miqdarı, yeri, qoyuluşu sözün mənasını dəyişirdi. Ərəb əlifbası təlim işini ağırlaşdırırdı. Bu əlifba bəzi sözlərin yazılış və oxunuşunda ciddi çətinlik törədirdi. Bu əlifba mətbəə, teleqraf işləri, çap və nəşriyyat üçün o qədər də yararlı deyildi. Bütün bu nöqsan cəhətləri ilə uzun dövr istifadə olunmuş ərəb əlifbası, doğrudan da, yazımızı ağırlaşdırırdı. O orfoqrafiyamızı dolaşdırırdı. Həmçinin əbəbi dilimizin, mədəniyyətimizin inkişafına, tərəqqi etməsinə mane olurdu. Buna görə də əlifbamızı asanlaşdırmaq, yazımızı ağır vəziyyətdən, çətinlikdən çıxarmaq məsələsi müxtəlif dövrlərdə görkəmli yazıçı və alimlərimizin nəzər-diqqətini həmişə özünə cəlb etmiş, onları düşündürmüşdür. [3, səh.143]

**Гадимли Айгун**

## Трудности, вызванные арабским алфавитом в азербайджанском языке

История тюркской письменности началась с орхонского алфавита. Наш народ в разные периоды использовал разные алфавиты. При использовании арабского алфавита в азербайджанской письменности следует учитывать фонетические особенности нашего языка. Этот алфавит был доведён до нашей письменности в том же году. Поэтому в арабском алфавите, используемом в азербайджанской графике, появился ряд дефектов и недостатков. В этом алфавите было восемь лишних букв, которые не отражали звуки нашего языка. В этом алфавите не было специальной знаковой буквы для всех гласных в нашем языке. Один согласный и несколько гласных азербайджанского языка обозначались одним знаком. Поскольку некоторые гласные не писались, слово читалось по-разному. Точки в буквах затрудняли письмо. Количество, расположение, расстановка точек меняли значение слова. Арабский алфавит затруднял обучение. Этот алфавит вызывал серьезные трудности при написании и чтении некоторых слов. Этот алфавит не очень пригодился для книгопечатания, телеграфной работы, типографского и издательского дела. Со всеми этими недостатками давно используемый арабский алфавит затруднял наше письмо. Он испортил нашу орфографию. Это также мешало развитию и прогрессу нашего литературного языка и культуры. Поэтому вопрос упрощения нашей азбуки, выведения нашей письменности из затруднительного положения и затруднения всегда в разное время привлекал внимание наших выдающихся писателей и ученых и заставлял их задуматься.

**Gadimli Aygun**

## The difficulties caused by the Arabic alphabet in the Azerbaijani language

The history of Turkish writing began with the Orkhon alphabet. Our people used different alphabets in different periods. When using the Arabic alphabet in Azerbaijani writing, the phonetic features of our language should be taken into account. This alphabet was brought to our writing in the same year. Therefore, a number of defects and shortcomings have appeared in the Arabic alphabet used in Azerbaijani script. İn this alphabet, there were eight extra letters that did not reflect the sounds of our language. There was no special sign letter in this alphabet for all the vowels in our language. One consonant and several vowels of the Azerbaijani language were indicated by one sign. Since some vowels were not written, the word was read in many different ways. Dots in letters made writing difficult. The amount, location, placement of dots changed the meaning of the word. The Arabic alphabet made learning difficult. This alphabet caused serious difficulties in writing and reading some words. This alphabet was not very useful for printing, telegraph work, printing and publishing. With all these shortcomings, the long-used Arabic alphabet made our writing difficult. He messed with our spelling. İt also hindered the development and progress of our literary language and culture. Therefore, the issue of simplifying our alphabet, removing our writing from a difficult situation and difficulty has always attracted the attention of our prominent writers and scientists at different times and made them think.

### Ədəbiyyat siyahısı

1.Adil Babayev “Azərbaycan dili və nitq mədəniyyəti” Bakı-2017
2.Adil Balıyev “ Azərbaycan dilinin tədrisi metodikası” Bakı- 2014
3.Afad Qurbanov “Müasir Azərbaycan ədəbi dili” Bakı- 2010
4.Almaz Məmmədova “Azərbaycan dilinin tədrisi tarixi” Bakı-2011
5.Cahan Ağamirov “Eski Azərbaycan yazısı (Ərəb əlifbalı Azərbaycan yazısı)” Baki-2016

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: dos. S.Mirzəyeva**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**ABBASLI ELMIR ELŞƏN**
Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi, Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının magistrantı
a.elmir2000@gmail.com

# YAPON DİLİNİN BEYNƏLMİLƏLLƏŞDİRİLMƏSİ VƏ TƏDRİSİNİN ƏLVERİŞLİ ÜSULLARI

## Giriş

Dil öyrənmək mədəniyyətlərarası ünsiyyətə və uzlaşmaya təşviq etmək üçün bir vasitə olaraq əsas vasitədir və təhsildə dil siyasəti getdikcə özünü daha çox göstərir. Bu məqalə yapon dilinin mədəniyyətlərarası əlaqələr ilə bağlı anlayışların qurulması yollarını araşdırır. O, xüsusilə millətçilik və yapon kimliyi ideologiyalarının mədəniyyətlərarası münasibətlərin mahiyyəti və məqsədinin başa düşülməsinə necə təsir etdiyini və yapon dilinin təhsil siyasətində diskursiv şəkildə necə inkişaf etdirildiyini araşdıracaq. Lakin yapon dilinin dərcədə öyrənilməsi hələ də tam olaraq beynəlxalq səciyyə daşımır. Yaponiya bir sıra dövlətlərlə elmi, mədəni, siyasi, iqtisadi, siyasi-iqtisadi və bir başqa məqsəd və üsullarla dil siyasətini uğurla davam ettirməkdədir. Yapon dili siyasəti unikal, homogen və monolit olan yapon kimliyinin xüsusi konseptuallaşdırılmasına millətçi bağlılığın inkişafına yönəlmiş mədəniyyətlərarası diskurs qurur. Bütün bunlar baş verərkən əlaqələrin qurulduöu dövlətlərin ali təhsil ocaqlarının akademik fəaliyyətlərində ümumi dilçiliyin, filologiyanın, yapon dilinin dilçiliyinin, yapon dilinin filologiyasının öyrənilməsi, araşdırılması və inkişaf etdirilməsi üçün əlverişli şərait yaranır. Bu məqalənin mərkəzində dayanan əsas məsələ isə yapon dili öyrənməyin əlverişli üsulları və bu zaman yaranan təhriflərdir.

**Əsas hissə**

**1.Yapon dilinin öyrənmək vəilkin bazanın qurulması üçün xüsusi əlverişli dərsliklər**

Yapon dilinin xarici dil kimi öyrənilməsi, hətta eyni zamanda ana dili yapon dili olan insanların da istifadə etməsi üçün ərsəyə gətirilmiş bir sıra uğurlu dərsliklər var. “Genki”「げんき」, “Minna no nihon go”「みんなの日本語」, “Japanese from Zero!”, “Living Language Japanese”, “Nihon go so-matome”「日本語総まとめ」kimi dərsliklər demək olar ki, Yaponiyada və yapon dili xarici dil kimi öyrənilən ölkələrdə istifadə olunur. Bu dərsliklər yapon dilinin tədrisinə böyük töhfə verən uğurlu dərsliklərdir. Məqalənin əsas məqsədlərindən biri də əlverişli dərsliklərin vasitəsilə yapon dilinin öyrənilməsinin əlverişli tərəflərini ortaya çıxarmaqdır. Bu dərsliklər standart yapon dilini öyrənmək üçün əla vasitələrdir, ancaq dialektlərin də yapon

dilində xüsusi yeri olduğunu nəzərə aldıqda bu dərsliklər kifayət etməyəcək hətta sizi səhv yönəldərək dolaşdıracaqdır.

**2. Yoşiko Matsumoto and Şiqeko Okamotonun yanaşması**

Dil tədrisinin sosiol-mədəni cəhətlərinə diqqət yetirilməsi, ən əsas problemli məsələlərdən biridir ki, linqvist və yaponşünaslar bu problemlərin tədqiqatını daimi olaraq davam etdirməkdədirlər. Görkəmli dilşünaslar Y.Matsumoto və Ş.Okamoto öz yanaşmalarını 3 yerə bölür: (1) Yapon ünsiyyət üslubları (2) nitqin səviyyələri: rəsmi və qeyri-rəsmi üslublar; və (3) "standart" Yapon dili və regional dialektlər. A.C.Lindikotun təhlili dil dərsliklərinin bu hadisələri sadələşdirməyə meylli olduğunu göstərir, real linqvistikanın hesabına xüsusi bir yapon növünün yaradılması sosiolinqvistik tədqiqatlarda tanınan müxtəliflik və yapon dili öyrənən əcnəbilər əsl həyatda yaponlarla danışarkən mütləq qarşılaşacaqlar. Baxmayaraq ki, dərsliklərin sadələşdirilməsinin məqsədi öyrənənlərin üzləşməli olduğu mürəkkəbliyi azaltmaq ola bilər ancaq linqvistik və mədəni normaların (yenidən) istehsalı ilə nəticələnə biləcəyini dərk etmək müəlliflərin niyyətindən asılı olmayaraq hegemon ideologiyalara əsaslana bilər.

**2.1 Əsas yapon dili və dialektlər**

Yapon sosial linqvistikasında çoxlu sayda regional dialektlərin mövcud olduğu məlum məsələdir. Lakin yapon dilinin əcnəbilərə tədrisində zəngin regional variasiyaya istinad etmədən tək müxtəliflik – "standart" yapon dili kimi təqdim olunur. Digər xarici dillərin tədrisində və səmərəli tədris üçün pedaqoji problemlərlə birgə əsaslandırıla bilər. Bu bölmədə dilin geniş dəyişkənliyini, sosial-siyasi fonunu göstərməklə yapon dilini variasiyalı bir dil kimi təqdim etməyin vacibliyini göstərmək istəyirəm. "Standart" yapon dili anlayışı və yerli yapon dilində danışanların "standart" yapon dili anlayışına da diqqət çəkmək lazımdır.

Yuxarıda da qeyd etdiyim kimi, geniş yayılmış regional dialektlər var və bu dialektlərin bəziləri biri-birlərindən bir qədər, bir qismi isə kəskin surətdə fərqlənir. Fonologiya, morfologiya və sintaksis baxımından "standart" yapon dilindən nəzərəçarpacaq dərəcədə fərqlənir. "Tərcümə" ilkin olaraq tələbələrin gündəlik həyat şəraitində istifadə etdikləri dil müxtəlifliyi haqqında məlumatlılığın artırılması üçün tədris materiallarının bir hissəsi kimi nəzərdə tutulmuşdu. "Standart" və regional növlərin qarşılıqlı tədrisi hər nə qədər tədrisin gedişatını çətinləşdirsə də, əcnəbilərin yapon dilini daha doğru öyrənməsilə nəticələnəkdir.

**3. Yapon dilinin öyrənilməsində müasir metodlar: manqa və animelər**

Əvvəlcə manqa və animenin nə olduğuna və nə üçün ərsəyə gətirilib inkişaf və davam etdirildiyinə baxaq.

Manqa「漫画, マンガ) və ya kommiku「コミック」 — Yaponiyada və ya yapon dilində istehsal olunan komikslərdir. Müasir manqaların stili XIX əsrin sonlarında ortaya çıxmışdır. Ancaq manqalar daha qədim və mürəkkəb tarixə malikdir

Yaponiyada "manqa" termini「kanci: ya - 漫画; hiraqana: まんが; katakana: マンガ) həm komiksləri, həm də karikaturaları bildirmək üçün işlədilir. Yaponiyadan xaricdə isə bu termindən Yaponiyada istehsal olunan komikslər üçün istifadə olunur.

Anime「アニメ- Animasiya」— yapon animasiyası. Anime cizgi filmləri qərbin cizgi film texnikası ilə yapon ənənələrini birləşdirib eksperimentlər edən yapon rejissorlarının təcrübəsi nəticəsində yaranmışdır. Başqa ölkələrin çəkdiyi animasiyalardan fərqli olaraq, anime bütün yaş qrupların üçün nəzərdə tutulur və buna görə dünyada məşhurluq qazanmışdır. O cümlədən, personajların və fonların cizgisində də müxtəlif tərzi var. Anime üçün əsas süjet mənbələri: manqa (yapon komiksləri), ranobe (roman növü) və kompüter oyunları. Bəzən klassik ədəbiyyat kimi başqa mənbələr istifadə edilir. Bəzən isə anime süjetı orijinal ola bilər (onda isə, artıq bu süjetın əsasında animenın kitab və manqa versiyaları yaradıla bilər). «Anime» sözün mənası kontekstdən aslı olaraq dəyişilə bilər.

Nəticə etibarilə manqa və animelərin ərsəyə gətirilməsinin əsas səbəbi yapon mədəniyyətinin dünyada tanıdılması və yapon dilinin öyrənilməsində maraq yaradılmasıdır.

Yapon dilinin məişət üslubunu öyrənmək üçün metodlardan biri də multimodal nümunələr "manqa" və "anime"-lərdir. Bu, hər nə qədər qeyri-akademik vasitə kimi görünsədə müşahidələr göstərir ki, manqa oxuyan və anime və ya yapon filmi izləyən yapon dili öyrənənlər slenqləri və məişət danışığına daha hakimdirlər. İndi kurikulum tərtibatçıları, material tərtibatçıları və sinif müəllimləri üçün standart seçimə çevrilib. Hətta ali təhsil müəssisələrində manqa və animelər əlavə dərs vəsaiti kimi də istifadə edilir.

Mən bu vasitəni "əyləncəli" tədris adlandırmaq istəyirəm. Nəzərə almaq lazımdır ki, yapon dili kimi mürəkkəb və zəngin bir dili öyrənmək, kifayət qədər yorucudur. Tədris prosesini əyləncəli və cəlbedici vəziyyətə gətirmək yapon dilini öyrənənlərə - xüsusilə tələbə və şagirdlərə daha çox xeyir edəcəkdir. Manqaların əsas xüsusiyyətlərindən biri də ənənəvi yazılı yalnız mətn deyil, eyni Amanda yazı mətni qədər əhəmiyyət kəsb edən şəkillərdir. Xarici dil tədrisində mətn və təsvirdən, məsələn, şəkillərdən, qeyri-səlis keçə lövhələrdən istifadə arasında rahat əlaqə var. İndi leksiko-qrammatikanı açıq şəkildə öyrətmək üçün daha mürəkkəb texnologiyadan da istifadə olunan təhsil müəssisələri vardır.

Yapon dili dərsliklərində və tək kurs materialları kimi "manqa"nın yayılması, sürətlə davam edir.

**4. Azərbaycanda yapon dilinin öyrənilməsində istifadə olunan vasitə və metodlar.**

Azərbaycanda əsasən yapon dilini yeni öyrənən tələbələrə əsasən "Minna no nihon go"「みんなの日本語」dərsliyindən istifadə olunur. Yapon dili xarici dil kimi öyrənilməklə dilin inkişafına şərait yaradır. Ancaq müqaisəli-tarixi diliçilik vasitəsilə öyrənilməsi əsasən ingilis dili, bir qədər də rus dili ilə qarşılıqlıdır. Əlbəttə başqa dillərlə də bu metodla tədris mövcuddur ancaq ən geniş və ətraflı əsərlər ingilis və

rus dillərindədir. Azərbaycanda da bu tədris genişləndirilməkdədir. Bunun başlıca göstəricilərindən biri müəyyən dərsliyin O.B.Cəlilbəyli və E.Məmmədova tərəfindən Azərbaycan dilinə tərcümə olunmasıdır. Azərbaycanda əsasən Altay dil ailəsi mövqeyinə əsaslanaraq tədris prosesləri həyata keçirilir.

Altay dil ailəsi konsepsiyasını qəbel edən linqvistlər vuröulayırlar ki, Altay dillərinin (yapon və Koreya dilləri daxil olmaqla) müqayisəli-tarixi araşdırılmasımüasir altayşünaslığın ən mühüm tədqiqat obyektlərindəndir. Bu tədqiqatınaktuallığı, hər şeydən əvvəl, onun müqayisəli və müqayisəli-tarixi metodları tətbiq etməklə dil faktlarınıvə onların bir-birilə qarşılıqlı əlaqəsini daha mükəmməl formada təhlilolunması ilə şərtlənir.Düşünürük ki, tədqiqata cəlb olunan dillərdəfeilin şəxssiz formalarınınyapondili feilinin lüğət forması iləmüqayisəli təhlili feil sistemində oxşar və fərqli xüsusiyyətlərin müəyyənləşdirilməsi üçün yeni dil faktlarının aşkarlanmasına imkan verəcəkdir.

Dilçilik ədəbiyyatında məsdər (infinitive)feillər və adlar arasında aralıq mövqe tutan polifunksional və polisemantik linqvistik kateqoriyadır. Məsdərin feilin şəxssiz formalarından biri kimi tədqiqi hələ də ümumi dilçiliyin, o cümlədən türkoloji dilçiliyin aktual problemlərindən biri kimi qalmaqdadır.Məsdəri feili kateqoriya kimi həm feilin şəxsli formalarından, həm də feili sifət və feili bağlama kimi şəxsiz formalardanəhəmiyyətli dərəcədə fərqləndirən xarakterik cəhətlərionun şəxsə, kəmiyyətə, zamanagörə dəyişməməsi, mənsubiyyət və çoxluq affikslərini qəbul etməməsidir.

## İstifadə olunmuş ədəbiyyat


1. **Məqalə: D.Y. Oshima –** Yapon dilində perspektivlik, loqoforiklik və zaman anlayışı 20 səh.
2. **Kitab: F.Minami –** Müasir yapon dilinin strukturu 95. səh
3. **Məqalə: P.Robinson – Aspekt Hipotezi 23 səh.**
4. **Məqalə: T.Oqihara –** Zaman kateqoriyasının əhatəsi və nəzəri təyinatı 1996, 84 səh.
5. **Kitab: Y.Şirai və A.Kurono –** Yapon dilində zaman aspekti və yapon dilinin ikinci dil kimi öyrənilməsi 60 səh.
6. **Məqalə: Y.Matsumoto and Ş.Okamoton –** Yapon dilinin əcnəbilər tərəfindən öyrənilməsinin əlverişli üsulları 2017 56 səh.


## Xülasə


Məqalə yapon dilini öyrənilməsini əlverişli yolların araşdırmaq və bu zaman yapon dilini strukturunu, orjinallığı pozmamaq üçün lazımi metod və vasitələri araşdırıb ortaya qoymaqdır. Yapon dili ilə Azərbaycan dilinin hər ikisinin iltisaqi, hətta bəzi linqvistlərin mövqeyincə hər ikisinin Altay dil ailəsinə mənsub olmasına baxmayaraq, aktual problemləri həddindən artıq fərqlidir. Yapon dilinin beynəlxalq

səviyyədə öyrənilməsi, ötən əsrdən başlamış, bugünkü gündə də genişləndirilməkdədir. Yapon dilinin əcnəbilər tərəfindən tədrisində real dünya ilə normativ dünya arasındakı uyğunsuzluqları necə düzgün həll etmək olar? Sosiolinqvistik tapıntılar yapon dili pedaqogikasına töhfə verə bilərmi, yoxsa bu tapıntılar tələbələrin sonradan öz kəşfləri üçün saxlanılmalıdır? BU kimi sualllara məqalədə cavab verməyə çalışdım. İnanıram ki, sosiolinqvistik tapıntılar öyrənmə mühitini zənginləşdirə bilər. Bu hər hansı digər dil üçün doğru olsa da, bu cür tapıntılar ətrafdakı ekzotizm və miflərə qarşı çıxmaq üçün yapon dilinin əcnəbilər tərəfindən öyrənilməsi prosesində xüsusilə aktualdır. O zaman soruşulmalı olan sual, xarici dil tədrisində daxiletmənin sadələşdirilməsi zərurəti fonunda linqvistik müxtəlifliyin nə dərəcədə tətbiq oluna biləcəyidir. Yapon dilinin əcnəbilər tərəfindən öyrənilməsi zamanı dili öyrənməyin asanlaşdırılması üçün aparılan təhriflər yalnız cümlələrdə baş vermir. Müşahidələr zamanı birdən çox arqumenti təsnif edir. Bu tip təhriflər zamanı başlıca diqqət yetirilməsi zaman ələlxüsus diqqət tələb edən məsələlərdən biri də əsasmənanın itməməsidir. Ümidvaram ki, zaman keçdikcə bu proseslər daha da inkişaf edəcəkdir.

**Açar sözlər:** dilçilik, dil öyrənməyin metodları, linqvistik araşdırmalar, yapon dilinin öyrənilməsi

## Summary

The article is to investigate the best ways to learn Japanese and to reveal the necessary methods and tools in order not to destroy the structure and originality of the Japanese language. The actual problems of the relationship between the Japanese language and the Azerbaijani language, even though both belong to the Altai language family according to some linguists, are extremely different. The study of the Japanese language at the international level began in the last century and is being expanded today. How to properly resolve the discrepancies between the real world and the normative world in the teaching of Japanese by foreigners? Can sociolinguistic findings contribute to Japanese language pedagogy, or should these findings be saved for students' later self-discovery? I tried to answer such questions in the article. I believe that sociolinguistic findings can enrich the learning environment. While this is true for any other language, such findings are particularly relevant in the process of learning Japanese by foreigners to counter the exoticism and myths surrounding it. The question to be asked then is to what extent linguistic diversity can be introduced in light of the need to simplify input in foreign language teaching. When learning Japanese by foreigners, distortions made to facilitate language learning do not only occur in sentences. Classifies multiple arguments during observations. One of the issues that require special attention during such distortions is not to lose the main meaning. I hope that these processes will develop further over time.

**Keywords:** linguistics, methods of learning language, linguistic research, study of Japanese language

**Резюме**

В статье исследуются лучшие способы изучения японского языка и раскрываются необходимые методы и инструменты, чтобы не разрушить структуру и самобытность японского языка. Фактические проблемы взаимоотношений между японским языком и азербайджанским языком, хотя оба они принадлежат к алтайской языковой семье, по мнению некоторых лингвистов, крайне различны. Изучение японского языка на международном уровне началось в прошлом веке и расширяется сегодня. Как правильно устранить несоответствия между реальным миром и нормативным миром в преподавании японского языка иностранцами? Могут ли социолингвистические открытия внести свой вклад в педагогику японского языка, или эти открытия следует сохранить для более позднего самопознания учащихся? На такие вопросы я постарался ответить в статье. Я считаю, что социолингвистические открытия могут обогатить среду обучения. Хотя это верно для любого другого языка, такие выводы особенно актуальны в процессе изучения японского языка иностранцами, чтобы противостоять экзотике и мифам, окружающим его. Тогда возникает вопрос, в какой степени языковое разнообразие может быть введено в свете необходимости упростить ввод данных при обучении иностранному языку. При изучении японского языка иностранцами искажения, сделанные для облегчения изучения языка, возникают не только в предложениях. Классифицирует несколько аргументов во время наблюдений. Один из вопросов, требующих особого внимания при подобных искажениях, — не потерять основной смысл. Надеюсь, что со временем эти процессы будут развиваться и дальше.

**Ключевые слова:** лингвистика, языковые проблемы, лингвитческие исследования, изучение японского языка

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: f.e.d. O.B.Cəlilbəyli**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**ƏLİYEVA SƏDAYƏ ZAHID QIZI**
**Azərbaycan Dillər Universiteti**
ilqaraliyev2001@mail.ru

# AUTENTİK MATERİALLARDAN İSTİFADƏNİN ÜSTÜNLÜYÜ

**Açar sözlər:** *orijinal materiallar, mədəniyyətlərarası sərişta, tənqidi düşünmə bacarıqları, real həyat nümunələri, tələbə ehtiyacları və maraqları*
**Key words:** *authentic materials, intercultural competence, critical thinking skills, real-life examples, student needs and interests*
**Ключевые слова:** *аутентичные материалы, межкультурная компетентность, навыки критического мышления, примеры из жизни, потребности и интересы учащихся*

Orijinal materiallardan istifadə həm dil müəllimləri, həm də öyrənənlər üçün güclü bir vasitədir. Həqiqi materiallar real həyatda dil istifadəsinə və mədəni normalara məruz qalmağı təmin etməklə, öyrənənlərə öyrəndikləri dil və mədəniyyət haqqında daha dərindən anlayışı inkişaf etdirməyə kömək edə bilər, həmçinin onların dil biliklərini, motivasiyasını və tənqidi düşünmə bacarıqlarını təkmilləşdirə bilər.

Dilin öyrənilməsi və tədrisində orijinal materiallardan istifadənin əsas üstünlüklərindən biri onların öyrənənlərə dil biliklərini təkmilləşdirməsinə kömək edə bilməsidir. Orijinal materiallar öyrənənlərə təbii lüğət, qrammatika, tələffüz və idiomatik ifadələr daxil olmaqla, real həyatda dil istifadəsinə imkan verir. Bu məruz qalma şagirdlərə dinləmə, danışma, oxuma və yazma bacarıqlarını süni və ya dərslik materiallarının edə bilməyəcəyi şəkildə inkişaf etdirməyə kömək edə bilər.

Məsələn, ingilis dilini ikinci dil kimi öyrənən tələbələr xəbər məqalələri, radio proqramları və ya televiziya şouları kimi orijinal materiallara məruz qalmaqdan faydalana bilərlər. Bu materiallar öyrənənlərə lüğət, qrammatika və anlama bacarıqlarını təkmilləşdirməklə yanaşı, onlara orijinal vurğu və dialektlərlə tanış olmağa kömək edə bilər.

Tədqiqatlar göstərdi ki, orijinal materiallardan istifadə dil biliyi nəticələrini əhəmiyyətli dərəcədə artıra bilər. Bir araşdırmada, məsələn, dil tədrisi zamanı orijinal materiallara məruz qalan şagirdlər dinləmə, danışma və yazma bacarıqları testlərində bu cür materiallara məruz qalmayanları üstələyiblər (1, s. 34).

Xülasə, orijinal materiallardan istifadə dilin öyrənilməsi və tədrisində dil biliyi nəticələrini yaxşılaşdırmaq üçün effektiv yol ola bilər. Tələbələrə real həyatda dil istifadəsini təmin etməklə, orijinal materiallar öyrənənlərə dil bacarıqlarını həm cəlbedici, həm də təsirli şəkildə inkişaf etdirməyə kömək edə bilər.

Dilin öyrənilməsi və tədrisində orijinal materiallardan istifadənin digər üstünlüyü ondan ibarətdir ki, onlar öyrənənlərə hədəf dil icmasının mədəniyyəti və

adət-ənənələrini daha dərindən dərk etməyə kömək edə bilər. Orijinal materiallar öyrənənlərə öyrəndikləri dildə danışan insanların gündəlik həyatına bir pəncərə təqdim edərək, onlara həmin cəmiyyətdə ünsiyyəti formalaşdıran mədəni normalar, dəyərlər və təcrübələr haqqında fikir əldə etməyə imkan verir.

Məsələn, ispan dilini öyrənən tələbələr ispandilli ölkələrdən ədəbiyyat, musiqi və filmlər kimi orijinal materiallarla tanış olmaqdan faydalana bilərlər. Bu materiallar öyrənənlərə həmin ölkələrin tarixi, adət-ənənələri və mədəni təcrübələri ilə tanış ola bilər, onlara ispandilli dünya haqqında daha incə bir anlayışı inkişaf etdirməyə kömək edə bilər.

Mədəniyyətlərarası səriştənin təkmilləşdirilməsi ilə yanaşı, orijinal materiallardan istifadə həm də öyrənənlərə empatiya və mədəniyyətlərarası ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər (2, s. 103). Orijinal materiallarla məşğul olmaqla, öyrənənlər müxtəlif mədəniyyət mənşəli insanların perspektivlərini və təcrübələrini daha yaxşı başa düşə bilərlər ki, bu da onlara mədəniyyətlərarası kontekstlərdə daha effektiv və hörmətlə ünsiyyət qurmağa kömək edə bilər.

Ümumiyyətlə, dilin öyrənilməsi və tədrisində orijinal materiallardan istifadə mədəni anlaşmanı artırmaq və mədəniyyətlərarası səriştəni təşviq etmək üçün effektiv yol ola bilər. Tələbələrə hədəf dil icmasının mədəni təcrübələri və perspektivləri ilə tanış olmaq imkanı verməklə, orijinal materiallar öyrənənlərə öyrəndikləri dil və bu dildə danışan insanlar üçün daha dərin qiymətləndirməyə kömək edə bilər.

Dil öyrənmə və öyrətmə zamanı orijinal materiallardan istifadənin digər üstünlüyü ondan ibarətdir ki, onlar öyrənənlərin motivasiyasını və fəallığını artıra bilər. Orijinal materiallar öyrənənlərə dildən istifadənin real həyat nümunələrini təqdim edir ki, bu da süni və ya dərslik materiallarından daha cəlbedici və maraqlı ola bilər. Onlar həmçinin öyrənənlərə öyrəndikləri dilin praktik tətbiqlərini görə bildikləri üçün öyrənmələri üzərində mülkiyyət hissi inkişaf etdirməyə imkan verir.

Languages have a property called creativity (Linhua, 2008) or productivity (Plag, 2003), because of which new words are coined and created in languages. The process of new words being coined and entering into a language can be called neologism in linguistics. In dictionaries, neologisms are often defined as new words or new senses or usages of existing words. Etymologically, the term neologism itself comes from Greek (neos, new and logos, word) and simply means a new word. Following this definition, "neologisms as sources of lexical enrichment are intrinsic parts of dynamic language use and development, both from a synchronic and diachronic perspective" (Kerremans, 2015). With regard to the definition of neologisms, Newmark (1988 ) claimed that neologisms are "newly coined lexical units or existing lexical units that acquire a new sense" New words are formed in different ways. Compounding, affixation, blending, coinages, borrowing, abbreviation, and acronyms are considered the main word formation processes. These word formation processes were used during the Covid-19 pandemic. Covid-19 gave the language new concepts and vocabulary for describing new situations and it became one of the interesting topics for researchers. This study also deals with new words created during Covid-19 and their formation process.

New Words in Covid-19 Discourse

As it is mentioned before, during Covid-19 people began to use new words to define new situations. Language reacts easily to new development and new changes that happen in the world. Covid texts also are rich with this type of new words. Some of them are created by compounding two words together, and some of them are created with combined parts of two lexemes rather than whole lexemes. During the pandemic, this kind of word-formation processes were also famous. After the pandemic, several collocations involving covid have been coined like covid pandemic, covid crisis, covid-19 deaths, pre-covid, post-covid. (Katermina and Yatchenko, 2020) The use of this type of combinations related with covid began to increase day by day. At the beginning of the pandemic it was difficult to understand the meaning of this type of combinations related with pandemic but then people began to understand many covid-related terms easily. They easily understand this type of words because they began to hear these words every day in daily language or media.

In the table below the list of new words were included that are used during Covid-19.

**Table 1. New Words used during Covid-19 discourse**

| |
|---|
| Telemedicine |
| Coronapocalypse |
| Coronaverse |
| Coronavax |
| Covaxin |
| Twindemic |
| Covideo |
| Coronababy |
| coronavirus-fighting |
| Homeference |
| Coronasomnia |
| Maskne |
| Morona |
| Moronavirus |
| Coronial |
| Coronacation |
| schoolcation |
| Coroneologism |
| Covidictionary |
| Covexit |
| Coronababies |
| Coronaddict |
| Quarantimes |
| Omicron |
| Covax |

The findings show that the root of many words used during the pandemic is Covid. It means that covid lexeme is very productively used during the new word formation process during Covid-19. We see many words in the table 1 beginning

with covid.lexeme. The new words like Coronacation, covideo, coronaddict are some of them. They are created with the combined part of two lexemes. Covideo= corona+ video. Covideo is the video games related with Covid-19. Pleople plays this type of videogames during pandemic in order to not to be bored during Pandemic because during some periods of pandemic governments did not let their people to leave their home. They had to stay their home and so this type of words created. Coronacation= corona+ vacation Sometimes people went to holiday or vacation during Covid-19. This type of vacation is called as Coronacation.

Covid-19 pandemic also brought new words related with covid vaccine. They are covax, covaxin, coronavax. This type of combination is the combination of two lexemes of the different words like corona + vaccine. In many articles during pandemic, instead of corona vaccine this type of blending was used. We see in Table 1, words like quaranteen, coronial. They are considered also new words that were created after covid-19. These words are related with young people. The generation born during the pandemic is called coronial, and This type of new words were created with blending two previously existing lexemes.

The pandemic of COVID-19 gave rise to a considerable number of compounds to language. Compounding is a kind of formation new word process. Coronababy, Coronavirus- fighting were created with combining two words together. When we look this type of words, we can easily understand the meaning of them. People don't need any effort to get their meaning.

In Covid-related articles we can also see abbreviations and acronyms. Abbreviation is the shortened form of words or phrases and read as full word. Acronyms use the first letter of each word. Acronyms can create new words also. The word nCOV, Covid-19 , instead of Coronavirus are also considered as abbreviation.

**Table 2. Abbreviations and acronyms used during Covid-19**

| | |
|---|---|
| WFH | Working from home |
| PPE | Personal protective equipment |
| Covid-19 | COVID-19 is the name of the disease that the novel coronavirus causes. |
| nCoV | It is the name of the coronavirus disease |
| ARI | Acute Respiratory Infection |
| CDC | Centres for Disease Control |
| PCR | Polymerase Chain Reaction |
| CFR | Case Fatality Rate |
| WHO | World Health Organization |

In the period of the pandemic, people began to work from home, many workplaces were closed. In many articles we saw the acronyms WFH instead of working from home. WHO acronym was also used during pandemic. We heard this word in many places during pandemic. After some time, people began to use WHO instead of World Health Organization in daily speech also.

Day by day the use of new words was increased. Now this type of words which is created during Covid-19 is called coroneologisms. Nowadays, people can understand better the meaning of these words rather than the beginning of the pandemic.

**Conclusion**

All natural languages can change and these changes are normally reflected in areas of language use. Major changes that happen in the society and especially social crises, disasters and wars are always reflected in the language. The pandemic of COVID-19, which has brought new tendencies to discourse. Researchers began to analyze Covid-related materials. This study shows that there are many new words created during the pandemic. New words are created as the result of new changes in the society. Covid-19 also gave new words to language. They are formed with the help of the different word-forming processes. Most of them are formed by blending process. s. The abbreviations and acronyms are also used which are related to the current situation of COVID-19. Now we can hear Covid-related new words in daily speaking.

**References**

1. Aitchison, J. 1994. Words in the Mind: An Introduction to the Mental Lexicon. 2nd ed. New York: Blackwel

2. Al-A'ssam S.A.A, Suker Z.H., A Contrastive Stylistics Analysis of Covid – 19 News in The Guardian and The Sun British Newspapers, January-March 2022 Vol 12, Issue 1; 462-488 DOI: http://doi.org/10.37648/ijrssh.v12i01.023

3. Beard, Adrian. (2004). Language Change. London: Routledge

4. Karachina O.E (2020) "Language of Pandemic: Linguistic and Cultural Aspects", Russian Linguistic Bulletin 2 (22), pp 45-48

5. Katermina, V., & Yachenko, E. (2020). Axiology of COVID-19 as a Linguistic Phenomenon in English Mass Media Discourse. Advances in Journalism and Communication, 8, 59-67.

6. Kerremans, D. (2015). A web of new words: A corpus-based study of the conventionalization process of the English neologisms. Frankfurt: Peter Lang GmbH

7. Newmark, P. (1988). A Textbook of Translation. London: Prentice.

8. Plag, I. (2003). Word-formation in English. Cambridge: Cambridge University Press

9. Sebastian Lobner. (2013). "Understanding Semantics " 2ND edition. Routledge.

10. Shabina, Rukhsana; Shawl, Rukhsana. (2018). "Semantic Shift in Cultural Lexicon of Kashmori". Language in India. 18 (3), 494-500.

11. Tariq, Tahir. (2018). "Neologism Formation in Pakistani TV Comedy Talk Show Khabarnaak". Language in India. 18 (6), 276-285.

12. Thorne, T. (2020). CORONASPEAK–the language of Covid-19 goes viral. Language and innovation. Retrieved from https://language-and-innovation.com/2020/04/15/coronaspeak-part-2-the-language-of-covid-19-goes-viral/

13. Yule, G. 2006. The Study of Language. 3rd ed. Cambridge: Cambridge University Press

**Язык пандемии: анализ новых слов во время Covid-19**

**Резюме**

Язык является наиболее важной частью повседневной жизни. Это влияет на многие вещи, которые происходят в повседневной жизни. Новые явления в мире и новые глобальные изменения приносят в язык новые выражения и формы. Новый корпнавирус, впервые обнаруженный в 2019 году, получил более широкое распространение в 2020 году. В 2020 году вирус был обнаружен во многих странах и стал глобальной пандемией. Это новое корнавирусное заболевание представляло собой респираторную инфекцию, вызывающую серьезную глобальную озабоченность в области общественного здравоохранения. Во время пандемии число подтвержденных случаев увеличивалось с каждым днем. Эта пандемия повлияла не только на наше здоровье, но и на наш язык. Пандемия COVID-19 также оказала большое влияние на повседневный язык. Люди стали использовать новые выражения и слова для определения возникшей новой ситуации и преодоления страха перед неизвестной болезнью. Целью этого исследования является анализ новых слов, связанных с Covid во время пандемии. В данном исследовании термин неологизм используется для обозначения новых слов. Неологосм означает новое словосочетание. В этом исследовании обсуждается, как образовались эти новые слова и формы их образования. Многие акронимы и аббревиатуры также использовались в статьях и СМИ во время COVID-19. Аббревиатуры и акронимы также считаются типом новых слов, используемых во время пандемии. Мы используем такую новую аббревиатуру, чтобы сэкономить время или место. Этот тип словообразования является полезным приемом, используемым при создании новых слов. Для достижения цели этого исследования были собраны данные из различных статей, газет и веб-сайтов.

**Ключевые слова: Covid-19, пандемия, новое слово, аббревиатура, аббревиатура.**

## Pandemiya Dili: Covid-19 Müddətində Yaranan Yeni Sözlərin Analizi

**Xülasə**

Dil gündəlik həyatın çox vacib bir hissəsidir. Dil hər sahədə ünsiyyət üçün istifadə olunur. Gündəlik həyatda baş verən bir çox şey dilə təsir edir. Dünyadakı yeni inkişaflar və yeni qlobal dəyişikliklər dilə yeni istifadə formalari getirir. Ilk dəfə 2019-cu ildə tapılan yeni Koronavirus, 2020-ci ildə daha genis yayildi. 2020-ci ildə virus bir çox ölkədə tapıldı və qlobal pandemiyaya çevrildi. Bu yeni koronavirus xəstəliyi qlobal ictimai sağlamlıq üçün əhəmiyyətli narahatlıq doğuran bir tənəffüs yoluxucu infeksiya idi. Pandemiya muddetinde hər gün təsdiqlənmiş halların sayı daha da artırdı .Bu pandemiya təkcə sağlamlığımıza deyil, dilə də təsir etdi. COVID-19 pandemiyası gündəlik dilə də çox böyük təsir göstərdi. İnsanlar yaranmış yeni vəziyyəti müəyyənləşdirmək və naməlum bir xəstəlik qorxusunu aradan qaldırmaq üçün yeni ifadələr və sözlərdən istifadə etməyə başladılar. Bu araşdırmanın məqsədi pandemiya zamanı Covid ilə əlaqəli yeni sözləri təhlil etməkdir. Bu araşdırmada neologizm termini yeni sözləri ifadə etmək üçün istifadə edilmişdir. Neologizm yeni söz birlesmesi deməkdir. Bu məqalədə Covid-19 ilə əlaqəli yeni sözlərin necə əmələ gəldiyindən, yaranma formalarindan bəhs edilir. Covid-19 zamanı məqalələrdə, mediada bir çox akronim və abbreviaturadan da istifadə olunmuşdur. Abreviatura ve akronimler həm də pandemiya zamanı istifadə olunan bir növ yeni sözlər də hesab olunur. Biz vaxta və ya yerə qənaət etmək üçün bu cür yeni qısaltmadan istifadə edirik.Bu tip sözyaratma forması yeni sözlər yaradarkən istifadə olunan faydalı bir texnikadır. Bu tədqiqatın məqsədinə çatmaq üçün məlumatlar müxtəlif məqalələrdən, qəzetlerden və internet saytlarından toplanmışdır.

**Açar sözlər: Covid-19, pandemiya, yeni söz, abreviatura, akronim**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru İrina Orucova tərəfindən çapa tövsiyə olunmuşdur**

**RZAYEVA ŞƏFƏQ**
**ŞAMXALOVA GÜLŞƏN**
**HEYDƏROVA AYBƏNIZ**
Heydər Əliyev adına Ali Hərbi İnstitut
Polad Həşimov,18
missmelodiya62@mail.ru

# AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİ

**Key words: lexicology word meaning combination vocabulary**
**Ключевые слова: лексика слово значение словарный состав**

**Xülasə**

**Leksika** Sözün Lüğət Tərkibini öyrənir.Dilin əsas vahidlərindən biri sözdür. Dildəki sözlərin hamısı birlikdə dilin leksikasını, yəni lüğət tərkibini təşkil edir.Leksikanı öyrənən dilçilik bölməsi leksikologiya adlanır. Leksikologiyada sözlərin mahiyyəti, onların formaca və məzmunca əmələ gətirdiyi qruplar, sözlərin mənşəyi və işlənmə dairəsi öyrənilir. Dilimizdəki sözlərin çoxunun həm leksik, həm də qrammatik mənası vardır. Sözün birbaşa ifadə etdiyi mənaya onun leksik mənası deyilir. Başqa sözlə desək, sözün leksik mənası onun məzmununu bildirməsi, hər hansı bir anlayışı bir anlayışı bildirməsidir. Yalnız bir leksik mənası olan sözlərə təkmənalı sözlər deyilir. Eyni leksik məna ilə bağlı bir neçə yaxın mənada işlənən sözlərə isə çoxmənalı sözlər deyilir. Çoxmənalı sözlər əsas məna ilə bağlı əlavə mənalar da bildirir. Məsələn: ayaq, ağız, dil, boğaz, almaq, çəkmək və s. sözləri eyni leksik məna ilə bağlı bir neçə yaxın mənalarda da işlənir

**Açar sözlər: leksika söz məna birləşmə lüğət tərkibi**

**Söz birləşməsi** — Söz birləşməsi iki və daha artıq müstəqil sözün məna və qramatik cəhətdən birləşməsindən əmələ gəlir.Müstəqil söz dedikdə əsas nitq hissələri nəzərdə tutulur . Söz birləşməsi müstəqil sözlərdən əmələ gəlir.

large,a building –a large building; a tree, green-a green tree; a hair,long-a long hair; blue, sky-a blue sky;

Azərbaycan dilçiliyində iki və daha artıq sözün atributiv əlaqə zəminində birləşməsindən əmələ gələn dil vahidi söz birləşməsi adlandır. Belə dil vahidlərində iki şərt ödənilmiş olmalıdır:İki və daha çox sözün birləşməsi nəticəsində alınmış dil vahidinin, yəni söz birləşməsinin malik olduğu nominativ məna həyat həqiqətlərinə uyğun olmalıdır. Məsələn "gözəl qadın" və ya "məktub yazmaq" və s. İngilis dilində isə formal olaraq malik olduğu nominativ məna obyektiv həqiqətlərə uyğun gəlməyən aşağıda təqdim edilmiş tipli söz birləşmələri düzəltmək olar: "black sun" (qara günəş) və ya "eatable novel" (yeməli roman) və s. «İngilis dilində bu birləşmələr free combination/weak collocation (sərbəst tərkibi/zəif söz birləşməsi) adlanır» (1,56) və bu sözlər qrammatik cəhətdən məhsuldardır, yəni bir çox sıra

hallarda"buy" felindən də istifadə etmək mümkündür-(to buy a book/kitab almaq ; to buy a car / maşın almaq və s.). İngilis dilində sərbəst söz birləşmələri, weak collocation/zəif söz birləşmələri adlanır.Onu da nəzərə çatdırmalıyıq ki, ingilis dilində sərbəst söz birləşməsi Azərbaycan dilində olduğu kimi,tam geniş şəkildə tədqiq edilməmişdir; sözlər yalnız ingilis dilinin ümumi sintaktik qaydaları əsasında bir-birinin yanında işlədilir və onlarda dil vahidlərinin dəyişdirilməsi və proqnozlaşdırılması mümkündür. Lakin sabit və təkrar ardıcıllıqla işlənən "pay attention" (diqqət etmək) kimi ifadə və onun mənası yaradıcı vahidlər vasitəsilə qismən müəyyən ola bilər, çunki "diqqət" (attention) sözü özünün əsl real mənasında istifadə edilsə də, "pay" (ödəmək) feli öz gerçək məna çalarlığında işlədilməmişdir; çünki onun əsl sadəcə olaraq göstərməliyik ki, bu söz "attention" sözü ilə işlədildiyindən özünün əsas mənasından fərqli məna qazanmışdır, yəni "etmək" mənasında işlədilmişdir. Belə söz birləşmələri ingilis dilində "qismən idiomatik söz birləşmələri" adlandırılır. Həmçinin bu tərkibii dəyişdirməkmək və proqnozlaşdırmaq mümkün deyil və bu ardıcıllıqların başqa dilə tərcüməsi onların şərtiliyi ilə müəyyən olur.

Tərəflərinin leksik-semantik xüsusiyyətlərinə görə söz birləşmələri iki növə ayrılır:

**Sərbəst birləşmələr;**

**Sabit birləşmələr**

S ə r b ə s t b i r l ə ş m ə l ə r i n komponentləri müstəqil mənalı sözlərdən ibarət olur və həmin sözlər birləşmə daxilində də ilkin leksik mənasını – məna müstəqilliyini mühafizə edib saxlayır; məs.: məktəbin bağbanı, meşənin ağacları, traktorun səsi, maşının mühərriki, kitaba məhəbbət, vətənə sevgi, sizə gələndə, məktubu oxuyan və s.

English teacher, an interesting book, a wide street, a golden ring, a wonderful scene and so on

Sərbəst birləşmənin tərəfləri həm mə`naca, həm də qrammatik cəhətdən bir-biri ilə bağlı olur. Tərəflərin nominativ mə'nası və tərəflər arasında sintaktik əlaqələr aydın müşahidə edilir.

Sərbəst birləşmələr ünsiyyətin əsas vasitəsi olan cümləyə (söyləmə) necə xidmət edir? Bunlar dildə hazır şəkildə olur, yoxsa nitq prosesində yaradılır?

Sabit söz birləşməsi bir vahid məfhum ifadə etmə xüsusiyyətinə (semantik planda) görə ayrıca sözə bənzəyir. Lakin ayrıca sözdən öz mürəkkəb tərkibi ilə, müxtəlif sözlərin birləşməsindən ibarət olması ilə fərqlənir. 1) Sabit bağlayıcı birləşmələri: bunun üçün, bundan ötrü, ona görə də, o gün ki, bu səbəbdən də, və yaxud, bununla belə, və nə də ki. Bir sıra əsərlərdə amma ki, və yaxud da, və h

2) Sabit ədat birləşmələri: bəli də, bəli ya, kaş ki, yəni ki, məgər ki, necə məgər, heç də. 3) Sabit modal birləşmələr: əlbət ki, yəqin ki, heç şübhəsiz ki, ola bilər ki, bəlkə də. 4) Sifətin çoxaltma dərəcəsini əmələ gətirən birləşmələr: gözəldən gözəl, ucadan uca, yaxşıdan yaxşı, qaradan da qara.

Dildə çoxlu sayda söz və ifadələr mövcuddur. Bütün dillərdə olduğu kimi ingilis dilinin də özünə məxsus sabit və sərbəst söz birləşmələri, idiomlar, atalar sözləri və məsəlləri mövcuddur. Dildəki sabit birləşmələri dilin əsas frazeoloji birləşməsini təşkil edir. İngilis dilində frazeoloji birləşmələrin bəzilərində komponent əksikliyi olarkən, bəzilərində hissələrin sabitliyi görünür.(2,67)

Nominativ birləşməyə daxil olan feli frazeoloji vahidlərin komponentləri arasında 4 asılılıq vardır: 1. Sabit asılılıq; Chatter like a magpie – sağsağan kimi şaqqıldamaq, Fish in tronbad waters – bulanlıq suda balıq tutmaq, Make a montain out of a mole hill – milçəkdən fil düzəltmək, Strike while the iron is hot – dəmiri isti–isti döymək və s.

2. Sabit variantlı asılılıq

3. Sabit variantlı dəyişən asılılıq

4. Sabit – dəyişən asılılıq Əgər məchul növdə olan felli frazema cümləyə transformasiya edilərsə, feli frazeoloji vahidlər nomanativ – kommunikativ birləşmələrə aid olur.

Feli nominativ – kommunikativ frazeoloji vahidlərdə component asılılığının 4 növü var: 1. Sabit transformasiya asılılığı: break the ice – the ice is broker. 2. Sabit variantlı transformasiya asılılığı: cross (pass).

3. Sabit variantlı dəyişən transformasiya asılılığı: cast (shed, throw, or turn) light on (or upon) something – light is cast (shed, thrown, turned) on (upon) something – aydın etmək, işıqlandırmaq.

4. Sabit – dəyişən transformasiya asılılıq: lead somebody the nose – somebody is lid by the nose.

A dark horse-qara at (haqqında heç nə bilinməyən insan)

A white elephant-ağ fil (pul israfı)

Green-eyed monster-yaşıl gözlü şeytan( qısqanc mənasında Otello əsərindən götürülüb)

To let the cat out of the bag-bişiyi çantadan çıxarmaq( sirrin açılması)

To bark up the wrong tree- səhv ağaca hürmək( yalnış yerdə axtarmaq)

Stick and tired – boğaza gəlmək ; Born and bred – böyüyüb başa çatmaq

Short and sweet qısa və aydın; Safe and sound – sağ-salamat

Neat and tidy – səliqəli; Tried and tested – təcrübədə yoxlanılmış

Pick and choose – vasvası, iradcıl olmaq; Flesh and blood – qan və can

Peace and quiet süküt və rahatlıq; Hustle and bustle – hay-küy, qarışıqlıq, qaçaqaç;Pros and cons lehinə və əleyhinə; Here and now – burda və indi

Sabit söz birləşmələrinin leksika ilə daha sıx əlaqəsi olduğundan, onlar bir tərəfdən vahid bir məfhum ifadə etmək etibarilə sözlərə yaxın olduğu kimi, digər tərəfdən bu birləşmələrin törəməsində müxtəlif qrammatik vasitələr şəklində iştirak edir, eyni zamanda bu birləşmələrdən fikirlərin ifadəsi üçün dilin tərkibində məfhumun hazır vahidləri formatında istifadə edilir.

Söz birləşmələri ən azı iki əsas nitq hissəsindən ibarət olub hissələrinə bölünə bilən vahid bir məfhum bildirir. Cümlənin yaranmasında istifadə edilən söz birləşmələri dilin morfoloji-qrammatik strukturundan asılı olaraq yanaşma, uzlaşma, idarə əlaqələri ilə bir-birinə bağlanır. Nəzərə çatdırmaq lazımdır ki, dünya dillərinin əksəriyyətində söz birləşmələri, bir qayda olaraq, yuxarıda göstərilmiş sintaktik əlaqələr zəminində formalaşır. Bu baxımdan ingilis dili də müstəsnalıq təşkil etmir. Dillər arasında mövcud olan fərq sintaktik əlaqələrdən hər birinin işlənmə miqyasında müşahidə edilir. Sintaktik əlaqələrin müxtəlif dillərdə işlənmə miqyası təsadüfi olmayıb, hər bir konkret dilin morfoloji quruluşu ilə şərtlənir. Zəngin morfoloji quruluşa malik olan dillərdə söz birləşmələrinin komponentləri arasında uzlaşma və idarə əlaqələri, morfoloji quruluşu zəngin olmayan dillərdə isə, əsasən, yanaşma əlaqəsi işlənir. (3,elmi məqalə,Azərbaycan müəllimi qəzeti-səh.9)

Müasir ingilis dili analitik quruluşa malik olduğundan bu dildə söz birləşmələri əksərən yanaşma əlaqəsi vasitəsilə formalaşır. Yanaşma əlaqəsi zəminində mövcud olan söz birləşmələrində tabe söz tabeedici sözdən ya əvvəl, ya da sonra gəlir.

A vacant seat - a seat vacant - boş yer

Uzlaşma əlaqəsi söz birləşməsinin komponentləri arasında sintaktik əlaqələrin elə növüdür ki, tabe söz tabeedici sözlə eyni morfoloji formada olur. Uzlaşma hər iki komponent arasında cinsə və kəmiyyətə görə olur. Müasir ingilis dilində cins kateqoriyasına görə uzlaşma yoxdur və hal kateqoriyası çox zəifdir. Bu səbəbdən də uzlaşma əlaqəsinin işlənmə miqyasının çox məhdud olduğunu deyə bilərik. Müasir ingilis dilində uzlaşma əlaqəsi ancaq birinci komponenti say və this, that işarə əvəzliklərindən biri, ikinci komponenti isə isim olan söz birləşmələrində müşahidə edilir. Yəni tabe edici söz təkdədirsə tabe söz təkdə, cəmdədirsə cəmdə uzlaşır.

this book - bu kitab

these books - bu kitablar

Nümunələrdən də gördüyümüz kimi, birinci birləşmədə tabeedici söz mövqeyində olan book - kitab sözü tək formada olduğu üçün tabe söz olan this - bu işarə əvəzliyi də tək formadadır. Əksinə, ikinci nümunədə books - kitablar sözü cəm formada olduğu üçün these - bunlar sözü də cəm formadadır.

Tabe edici sözün tabe sözün müəyyən formada işlədilməsini tələb etdiyi əlaqəyə idarə əlaqəsi deyilir. Bu, ingilis dilində ən az rast gəlinən əlaqədir. İngilis dilində şəxs əvəzliklərinin feldən və sözönülərdən sonra obyekt halında işlədilməsini idarə əlaqəsinə misal göstərmək olar.

to visit us - bizə baş çəkmək

with me - mənimlə

İngilis dili analitik dil olduğu üçün söz birləşmələrində olduğu kimi cümlədə də söz sırası çox böyük əhəmiyyətə kəsb edir. . Müasir Azərbaycan dilindən fərqli olaraq müasir ingilis dilində söz sırası sabitdir. Cümlədə söz sırasının sabitlik, yaxud sərbəstlik dərəcəsi həmin dilin morfoloji quruluşundan asılıdır. Sintaktik əlaqənin söz sırası ilə ifadə edilməsi bəzi dilçilərin fikrincə bu dildə danışmağın asanlığını

təmin edən başlıca səbəbdir. Həm cümlədə, həm də söz birləşmələrində sözlər arasında sintaktik əlaqənin söz sırası ilə ifadə edilməsi lazım olan mənanı əldə etmək üçün sözləri düzgün, yerli-yerində işlətmək zərurəti yaradır. Əks təqdirdə cümlənin, söz birləşməsinin semantikası dəyişir. Müasir ingilis dilində söz sırası cümlə tərtib etməklə yanaşı iki əlavə funksiya da daşıyır: sintaktik-semantik və stilistik.

Məsələn, bir sıra hallarda cümlədə mübtəda ilə vasitəsiz tamamlığın yerdəyişməsi həm cümlə üzvlərinin sintaktik funksiyasını, həm də cümlənin semantikasını dəyişir.

The teacher teaches the pupil. - Müəllim şagirdi öyrədir.

The pupil teaches the teacher. - Şagird müəllimi öyrədir.

Qeyd olunan birinci və ikinci cümləni müqayisə etdikdə məlum olur ki, həmin vahidlərin arasında mövcud olan sintaktik və semantik fərq yalnız üzvlərin yerdəyişməsinə əsaslanır. Belə ki, birinci cümlədə mübtəda funksiyasında çıxış edən teacher sözü ikinci cümlədə vasitəsiz tamamlıq, birinci cümlədə vasitəsiz tamamlıq funksiyasında olan pupil sözü isə ikinci cümlədə mübtəda olmuşdur. Bu yerdəyişmə cümlənin mənasına da xələl gətirmiş, sözlərin yerdəyişməsi sayəsində bu cümlələrdə bir-birinə zidd məna çaları əldə edilmişdir. Müqayisə olunana həmin cümlələr arasında fərqlər - sintaktik və semantik eyni bir səbəbin, söz sırasının dəyişməsinin nəticəsidir.

İngilis dilində cümlənin məqsədə görə bütün növlərində söz sırası xeyli sabitdir, xüsusən də əmr, nida və sual cümlələrində biz dediklərimizin şahidi ola bilərik. Nəqli cümlələrdə də, bir qayda olaraq, cümlə baş üzvlərlə - mübtəda və xəbərlə başlayır, sonra müvafiq olaraq ikinci dərəcəli üzvlər işlədilir. Hər bir cümlə üzvünün sabit işlənmə yeri olmasına baxmayaraq bəzən üslub xətrinə hər hansı bir cümlə üzvü mübtədanın önünə keçə bilər. Çünki Azərbaycan dilindən fərqli olaraq ingilis dilində məntiqi vurğu xəbərin deyil, mübtədanın önünə düşür. Bu zaman cümlədə və ya söz birləşməsində sözlərin yerdəyişməsi sintaktik-semantik anlamda dəyişiklik yaratmasa da, fərqli söz sırası üslub fərqi əmələ gətirir. Məsələn:

I shall bring my sister with me. - Mən bacımı özümlə gətirəcəyəm.

My sister I shall bring with me. Mən özümlə bacımı gətirəcəyəm.

The lost hopes - puç olmuş ümidlər

The hopes lost -ümidləri puç olmuş

Yuxarıda sadaladıqlarımızın yekunu olaraq deyə bilərik ki, sintetik formalarla zəngin dillərdən fərqli olaraq analitik quruluşa malik olan ingilis dilində söz sırası həm söz birləşmələrinin, həm də cümlələrin formalaşmasında böyük əhəmiyyət daşıyır.

Söz birləşmələrindən danışarkən komponentlərin həm məna,həm də struktur baxımdan bağlılığı eyni dərəcədə əsas götürülür. Yəni hər bir söz

birləşməsində struktur-semantik bütövlük diqqət mərkəzində saxlanılır.

Dilin sürətli inkişafında əsas rol oynayan dilin lüğət tərkibi məhz dilin zənginləşməsində, yeniləşməsində, o dildə danışan xalqın maddi və mənəvi

səviyyəsinin yüksəldilməsində əsas rol oynayan amillərdən biridir. Lüğət tərkibi zəngin olan dilləri zəngin və qüdrətli dillər hesab edə bilərik. Dilin inkişafı, zənginliyi, rəngarəngliyi lüğət tərkibinin zənginliyi və çoxcəhətliliyi ilə əlaqədardır. Lüğət tərkibi özlüyündə dil üçün sözlərdən və ifadələrdən ibarət tikinti materialıdır. Xalqların iqtisadi, siyasi və mədəni həyatında baş verən dəyişikliklər, dünyada yaranan yeni istehsalat üsulları, müasir texniki tərəqqi, elmi naliyyətlər, aqrar təsərrüfatdakı əsaslı dönüş, elm, mədəniyyət, ticarət ədəbiyyatın inkişafı, ictimai yaşayış, əmək əlaqələrinin sıxlaşması, yeni ideologiyaların, İKT-nin inkişaf etdirilməsi və digər bir sıra amillərlə əlaqədar olaraq yaranan söz və söz ehtiyyatları ilə dilin lüğət tərkibinin zənginləşməsi və rəngarəngləşməsi baş verir.(4,49-50)

"Söz yaratmaq prosesinin əsas mahiyyəti yeni adların, vahidlərin meydana çıxması deməkdir və tezliklə belə adlar sözlərə çevrilir. Sözyaratma terminin sözün həqiqi mənasında söz yaradıcılığı prosesinin adlandırılması mənasında çıxış edir" (5, .47).

**Рзаева Ш, Шамхалова Г, Гейдарова А.**

## РЕЗЮМЕ

## Оброзавание словосочетаний в Азербайджанском и Английском языке

**Ключевые слова: лексика слово значение словарный состав**

Словосочета́ние — это соединение двух или более самостоятельных слов, связанных по смыслу и грамматически, служащее для отдельного обозначения понятийной единицы (предмета, качества, действия и другого). *Словосочетание* рассматривается как единица синтаксиса, которая выполняет *коммуникативную функцию* (входит в речь) только в составе предложения. Общепризнанно, что к словосочетаниям относятся соединения знаменательных (имеющих самостоятельное смысловое значение) слов на основе подчинительной связи (связи главного и зависимого членов.

Английские словосочетания — коллокации (collocations) — последовательность слов, употребляемых вместе, естественная для языка. Правильное употребление словосочетаний очень важная область в изучении языка, так как употребление неправильных сочетаний приводит к разного рода неловкостям. Другими очень распространенными примерами являются глаголы do и make.

Как правило, make относится к вещам, которые можно создать, сотворить (make a cup of coffee), a do относится к выполнению разного рода задач (do my homework,do the lundry )

**Rzayeva Sh.Şhamkhalova G,Heydarova A.**

**RESUME**

**Key words: lexicology word meaning combination vocabulary**

A Word combination (phrase ) is a non-predicative unit of speech which is, semantically, both global and articulated. In grammar, it is seen as a group of words that functions as a single unit in the syntax of a sentence. It is an intermediate unit between a word and a sentence. As well as noticing noun, verb and adjective combinations, you should also build up your knowledge of prepositional phrases and fixed expressions.in particular, in comparison with **,** for the most part, *in most respects/*The phrase can generally be defined as a combination of two or more words which is a grammatical unit but is not an analytical form of some word. The constituent elements of a phrase may belong to any part of speech. A word-combination can also be defined as a compound nominative unit of speech which is semantically global and articulated. Words in an utterance form various syntagmatic connections with one another: *a sudden trembling;* syntagmatic groupings of notional words with functional words,

*The* predicative connection of words, uniting the subject and the predicate, builds up the basis of the sentence. The nature of this connections is reciprocal (the subject dominates the predicate and vice versa).

**REFERENCES**

1.Lewis D. “Patterns and meanings”. London, Longman, 2004.

2.O.Musayev “İngilis dilinin qrammaikası,Bakı,2007

3. M.Hacıyeva” Söz sırası analitik ifadə vasitəsi kimi”,elmi məqalə,Azərbaycan müəllimi qəzeti, B.2022

4. Veysəlli F.Y. Dilçiliyin əsasları. Bakı-2013,

5. Кортуна С.А.Типы и функции новообразований Ф.А.Вязумского: Автореф. Дис. Канд. Фил. Наук М. 2002.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: f.f.d.dosent,M.Əsədova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**İSMAYILOVA MINAYƏ ABBAS QIZI**
AzMİU
Azərbaycan dili və pedaqogika kafedrasının müəllimi
**mina.ismayil.60@mail.ru**

# ALINMA SÖZLƏR VƏ ONLARIN XÜSUSIYYƏTLƏRI

## XÜLASƏ

Məqalədə Azərbaycan dilində alınma sözlər və onların xüsusiyyətləri haqqında danışılır. Məlumdur ki, Azərbaycan ədəbi dilinin formalaşması, təşəkkül tapması və təkmilləşməsi birdən- birə olmamışdır. O, əsrlərin məhsuludur və əsrlər boyu azərbaycanlılara fikir mübadiləsində ləyaqətlə xidmət edən kamil bir ünsiyyət vasitəsidir.

Azərbaycan ədəbi dili müstəqil bir dil olsa da Türk dilləri ailəsinə mənsub dillərdən biridir. Onun inkişafı dünya dillərinin ümumi inkişaf qanunauyğunluqlarına müvafiq olmuşdur.

Azərbaycan ədəbi dilinin əsas leksikasını əsl Azərbaycan sözləri təşkil edir. Onlar dildə mövcud olan sözlər əsasında söz yaratma üsulu ilə yaranmış və ya irsən ümumi türk dillərindən keçmiş sözlərdən ibarətdir. Əsl Azərbaycan sözləri məişət , heyvan, quş, təbiət hadisələrinin, hərəkət, vəziyyət, mücərrəd məfhumların adları ilə bağlıdır. Milli sözləri alınma sözlərdən fərqləndirən bir sıra xüsusiyyətlər vardır. Azərbaycan dilində alınma sözlər lüğət tərkibində müəyyən faiz təşkil edir. Onların dilin lüğət tərkibinə daxil olmasının müxtəlif səbəbləri vardır. Bunlar məqalədə göstərilmiş və izah edilmişdir. Bundan əlavə məqalədə Azərbaycan dilindəki alınma sözlərin mənşəyinə görə təsnifi də geniş izah edilmişdir.

**Açar sözlər:** alınma sözlər, leksik tərkib, ədəbi dil, qrammatik quruluş, beynəlmiləl sözlər.

## Giriş

Azərbaycan ədəbi dili ümumxalq Azərbaycan dilinin yüksək formasıdır və bu dil birdən-birə təşəkkül tapmamışdır. O, əsrlərin məhsuludur və əsrlər boyu azərbaycanlılara fikir mübadiləsində ləyaqətlə xidmət edən və kamil bir ünsiyyət vasitəsidir.

Azərbaycan ədəbi dili müstəqil bir dil olsa da, türk dilləri ailəsinə mənsub dillərdən biridir və onun inkişafı dünya dillərinin ümumi inkişaf qanunauy-ğunluqlarına müvafiq olmuşdur. Zaman keçdikcə bu ədəbi dil xidmət etdiyi xalqın ehtiyac və tələblərinə görə dəyişmiş, təkmilləşmiş və inkişaf etmişdir.

Müasir ədəbi dilimizin leksik tərkibində Azərbaycan sözləri ilə yanaşı, mənşəcə çox müxtəlif sözlər də vardır. Bunların bir qismi qədim və müasir türk dilləri ilə ortaqlı olan, bir qismi isə tamamilə başqa sistemli dillərdən keçmə sözlərdir.

Dilimizin leksik tərkibinin əsas hissəsini Azərbaycan milli sözləri təşkil edir. Əsl Azərbaycan sözləri qohum və yaxın dillərlə olan münasibətinə görə üç yerə bölünür: türk dilləri ilə ortaqlı sözlər, həm türk, həm də monqol dilləri üçün ortaqlı olan sözlər; xüsusən Azərbaycan sözləri.

**Türk dilləri ilə ortaqlı sözlər**.

Azərbaycan dilindəki sözlərin əsas hissəsini türk dilləri üçün ortaqlı və ümumi olan sözlər təşkil edir. Belə sözlər qədim dövrlərdən başlayaraq həm Azərbaycan dilində, həm də başqa qohum dillərdə işlənmiş və indi də işlənməkdədir. Bunlara misal olaraq *dış, yun, gülmək, bel* sözlərini göstərmək olar. Azərbaycan, qazax, qırğız, türkmən dillərində *dış,* tatar dilində *teş,* özbək dilində *tış*, eləcə də *yun*, *gülmək, bel* sözləri bu dillərdə müxtəlif formalarda yazılır və tələffüz edilir.

Türk dilləri üçün ümumi olan sözlər qohum dillərdə işlənmə dərəcəsi eyni deyildir. Belə ki, bəzi sözlər bütün dillərdə, bəzi sözlər isə bir qrup dillərdə işlənir. Görkəmli alim A.Qurbanov türk dilləri üçün ortaqlı olan sözləri belə qruplaşdırmışdır:

1) bütün türk dillərində işlənən ortaqlı sözlər: *ana, oğul, qız, demək* və s.;

2) bəzi türk dillərində işlənən ortaqlı sözlər; məsələn: *cuğullamaq* sözü bütün türk dillərində deyil, ancaq türkmən və Azərbaycan dilində işlənir. Azərbaycan dilində elə sözlər vardır ki, bunlar həm türk, həm də monqol dilləri üçün ortaqlı sözlərdir; məsələn: *ayran, balta, yara, saqqal, qabırğa, ordu, boz, qonur*.

Əsl Azərbaycan sözlərini dilimizin leksikasında olan başqa dillərdən alınmış sözlərdən fərqləndirən bir sıra səciyyəvi xüsusiyyətləri vardır:

Görkəmli alim A.Qurbanov əsl Azərbaycan sözlərinin səciyyəvi xüsusiyyətlərini belə göstərir:

- Söz kökünün ilk səsi samitlə başlananda onun arxasınca, əsasən, sait səs gəlir və qayda davam edir; məsələn: *gəlin, qanad, sümük, burun, qulaq, çiçək* və s.
- Söz kökünün ilk səsi saitlə başlananda onun ardınca, əsasən, samit gəlir və bu qayda davam edir; məsələn: *ət, əl, un, üz, iki, iri, üzüm, örüş, ələk, ərik, ətək* və s.
- Azərbaycan sözləri, əsasən, bir, iki və üçhecalı olur; məsələn: *at, göz, biz, qar, papaq, barmaq, yarpaq, kəpənək* və s.

Azərbaycan sözləri ən çox bir və ikihecalı olur. Xalis Azərbaycan sözləri içərisində üçhecalı söz kökləri nisbətən azdır.

- Azərbaycan sözlərində vurğu sözün son hecası üzərinə düşür; məsələn: *qarpız, arpa, qırmızı, sarı, badam, bəzək, dodaq, yovşan, manat* və s.
  İstisna hal kimi *bildir, dünən, bayaq* sözlərini göstərmək olar.
- Azərbaycan sözləri müəyyən ahəngə tabe olur. Buna görə də sözlər əsasən, qalın və incə saitlərin bir-birini izləməsi möhkəm bir qanun kimi özünü göstərir; məsələn: *yarpız, yağış, işçilər, yemək, görüşmək* və s.

*İlxı, işıq, ilğım, ilıq, ilan, ildırım, işarmaq, quzey, işıldamaq* sözlərini istisna hal kimi göstərmək olar.

Alınma sözlər dilimizin lüğət tərkibində müəyyən faiz təşkil edir. Onlar mənbə və mənşəcə müxtəlifdir. Alınma sözlər bütün dillərin leksikasında var.Lakin bütün dillərdə onların əhəmiyyəti eyni deyildir. Bu sözlər bəzi dillərdə çox, digərində isə azdır.

Alınma söz dilin fonetik sistemi və qrammatik quruluşuna uyğun gəldikdə və bu dilin daxili qaydalarına xələl gətirmədikdə həmin sözlər heç bir dəyişiklik edilmədən götürülür: Azərbaycan dilində bir sıra sözlər bu şəkildə mənimsənilmiş və hazırda da əslində olduğu kimi işlədilir: *beton, vaqon, vanna, vitamin, vulkan, ekran, yumor, kanal, kollektiv, maqnit, marka, monoloq* və s..Bu cür mənimsəmə ən çox beynəlmiləl sözlərdə özünü göstərir. Həmçinin ədəbi dilin yazılı növü ilə keçən sözlərin əksəriyyəti də bu şəkildə mənimsənilir.

Alınma söz keçdiyi dildə fonetik dəyişikliyə uğrayır. Bundan başqa müxtəlif səbəblərdən bəzi alınma sözlərin mənasında da dəyişiklik olur. Ümumiyyətlə, dildə alınma sözlərin dəyişiklik edilərək mənimsənilməsi çox mürəkkəb bir prosesdir.

Azərbaycan dilinə keçmiş sözlərin başlıca olaraq aşağıdakı formalarda mənimsənildiyini göstərmək olar.

Hər bir söz başqa dilə keçərək o dilin fonetik terminə uyğunlıaşmalı olur. Bunun nəticəsində sözdə müxtəlif şəkildə dəyişiklik baş verir. Bunlardan bir neçəsini göstərək.

Sözdə bir səs başqası ilə əvəz olunur: *adəm – adam* ; *zendan – zindan*; *təvəllod – təvəllüd*;*vedro – vedrə*

Belə dəyişiklik ancaq saitlərdə deyil, samitlərdə də vardır: *ğərib-qərib; rəğs–rəqs* və s. Bundan başqa, sözdə bir neçə səs də dəyişə bilər. Məsələn, *ğorbət-qürbət, vokzal-vağzal* və s.

Görkəmli alim S.Cəfərov alınma sözləri Qafqaz dillərindən, ərəb dilindən, fars dilindən, rus dili vasitəsilə başqa dillərdən keçən sözlər olmaq üzrə dörd qrupa bölür.

A.Qurbanov Azərbaycan dilindəki alınma sözləri mənşəyinə görə belə təsnif etmişdir:

1) Ərəb mənşəli sözlər; 2) fars mənşəli sözlər; 3) rus mənşəli sözlər; 4)Avropa mənşəli sözlər; 5) Qafqaz mənşəli sözlər.

Ümumiyyətlə, dilimizdəki alınma sözləri bir qayda olaraq, iki qrupa bölürlər.

1.Ərəb-fars mənşəli sözlər;

2.Rus və Avropa mənşəli sözlər.

Azərbaycan dilinin lüğət tərkibinin müəyyən hissəsini ərəb dilindən daxil olmuş sözlər təşkil edir. Bunlar VII əsrdə ərəblərin Orta Asiya və Qafqaza yürüşləri dövründən başlayaraq Azərbaycan dilinə keçən sözlərdir. XIII-XIV əsrlərə qədər ərəb dilinin dilimizə təsiri çox güclü olmuşdur.

Ərəb sözlərini fərqləndirən bəzi fonetik xüsusiyyətlər aşağıdakılardır:

Ərəb sözlərində

1.Tərkibində a və e səsləri iştirak edən sözlər; məsələn, *qane, tabe, laqeyd, mane* və s.

2.Tərkibində a və i səsləri olan sözlər; məsələn, *abid, alim, hakim, vahid, zahid* və s.

3.Tərkibində e və a səsləri iştirak edən sözlər; məsələn, *Leyla, ehsan, haram, mehman, eyham* və s.

4.Tərkibində ö və a səsləri olan sözlər; məsələn, *övraq, zövzaq, mövta.*

5.Tərkibində ü və a iştirak edən sözlər; məsələn, *vüsal, dünya, burhan.*

Eləcə də, dilimizdə üçhecalı, dördhecalı sözlər də var ki, saitlərin sıralanmasına görə ərəb mənşəli sözlər hesab olunur. Tərkibində a, i, ı; ə, a, ü; ə, i və a; ə, a, i; ü, ə, ə; ü, i, ə; ə, a, e və s. iştirak edən sözləri nümunə göstərmək olar. Məsələn, *Validə, qafiyə, tənasüb, təkamül, mədaxil, məxaric, mətbuat, məlumat, müstəntiq, müstəqim, ünsiyyət, mənafe.*

Bundan əlavə tərkibində a, i, a, ə; ə, i, a, ə; ə, ə, i, ə; i, a, i, ə; e, a, u, ə saitləri olan dördhecalı sözlər ərəb mənşəli sözlər hesab olunur.

Məsələn, *alimanə, malikanə, həkimanə, fəqiranə, mədəniyyət, bələdiyyə, insaniyyət, istixarə* və s.

Azərbaycan dilində qoşasaitli sözlər də var ki, onlar ərəb mənşəli sözlər kimi qəbul edilir; məsələn, *maaş, saat, mənfəət, mətbəə, səadət, fəal, ailə, dairə, sair* və s.

**Azərbaycan dilinə keçən fars sözlərinin xüsusiyyətləri**

1.Sonunda n samitindən sonra g işlənən sözlər; məsələn, *nəhəng, səhəng, pələng, tüfəng, qəşəng* və s.

2.Tərkibində a, ə və ə (xanəndə, ahəstə, sazəndə); u, a, a (xiyaban, firavan); u, ə, a (dübarə, rüxsarə) saitləri olan bir neçə hecalı söz.

3.Tərkibində a, u, ə iştirak edən sözlər: məsələn, *aludə, asudə.*

4.Tərkibində ə,ə,i (sərsəri); ə,a,ə (fərasət, gəcavə); ə,i,a (zərnigar); u,i,ə (Nuridə, julidə) iştirak edən sözlər.

**Rus dilindən keçən sözlərin fonetik xüsusiyyətləri**

Müasir dilimizdə rus dilindən və onun vasitəsilə başqa dillərdən alınan sözlərdə müşahidə edilən fonetik xüsusiyyətləri bu cür fərqləndirirlər:

1.Əvvəli iki samitlə başlanan sözlər; məsələn, *plan, klub, qlobus*, əvvəli *re* ilə başlanan sözlər; məsələn, *redaksiya, rektor,* əvvəli *para* ilə başlanan sözlər; məsələn, *paralel, paraqraf* ,əvvəli *poli* ilə başlanan sözlər; məsələn, *poliklinika, poliqrafiya,* ,əvvəli *radi* ilə başlanan sözlər; məsələn, *radio, radiometr, radioloq.*əvvəli *rep* ilə başlanan sözlər; məsələn, *repertuar, replika, repoirtaj,*əvvəli *te* ilə başlanan sözlər; məsələn, *tezis, telefon, teleskop, texnika,* və s.

Azərbaycan dilinin leksik tərkibində rus dili vasitəsilə daxil olan Avropa mənşəli sözlər də vardır.

Azərbaycan dilinin leksikasına rus dili vasitəsilə keçən sözləri belə qruplaşdırmaq olar:

Latın sözləri; məsələn: *akademiya, aspirant, assistent, auditoriya, dekan, klassik, laborant, norma, universitet, familiya, personal* və s.

Yunan sözləri; məsələn: *pedaqoq, astronomiya, dialoq, dramaturgiya, poema, poeziya, telefon, filosof, filoloq* və s.

İngilis sözləri; məsələn: *klub, lift, futbol, tunel, rels* və s.

Fransız sözləri; məsələn: *avanqard, adres, artist, bloknot, hektar, janr, marşal, milyon, milyard, partizan, , pasport, felyeton, redaktor, palto, kostyum, kabinet* və s.

Alman sözləri; məsələn: *abzas, marka, sex, ştat, bint, qalstuk, kurort, şlyapa* və s.

İtalyan sözləri; məsələn: *ariya, benzin, duet, konsert, libretto, novella, pianino, solo, opera,* və s.

Holland sözləri; məsələn: *matros, vimpel, kompas, reyd* və s.

Bunlardan başqa dilimizdə ispan, polyak və s. dillərin də ünsürləri vardır.

**Beynəlmiləl alınma sözlər**. Bir sıra dünya dillərində işlənib elmə, texnikaya, siyasətə, mədəniyyət və incəsənətə aid anlayışları ifadə edən sözlərə beynəlmiləl sözlər deyilir; məsələn: *demokrat, roman, opera* və s.

Beynəlmiləl sözlərin ən çoxu yunan və latın sözlərindən, müəyyən qismi isə rus sözlərindən ibarətdir.

Azərbaycan dilinə beynəlmiləl sözlərin keçməsinin tarixi, əsasən XIX əsrdən başlayır. Bu dövrdə dilimizdə "*proqres, teatr, ateist, deputat, despot, fanatizm, liberal*" sözləri işlədilmişdir.

Müasir Azərbaycan dilində beynəlmiləl sözlər xüsusi yeri tutur. Bu qrup sözlər elm, incəsənət, texnika, mədəniyyət və s. sahələrdəki yenilikləri əhatə edir.

**Ümumişlək alınma sözlər**. Bu tipli alınma sözlərə Azərbaycan dilini leksik sisteminə tamam keçərək, dilimizə xas olan qrammatik əlamətləri, leksik mənanı qəbul edərək müxtəlif üslublarda işlədilən, dilimizin fonetik sisteminə uyğun olaraq səslənən, Azərbaycan hərfləri ilə yazılan, hamı tərəfindən dərk edilən sözlərdir. Məsələn: *qanun, əsas, imkan, kitab, məktəb, tədris, saat, borş, sement* və s.

Belə alınma sözlər leksik mənalarına, fonetik cəhətdən formalaşmalarına və qrammatik əlamətlərinə görə tam azərbaycanlaşmışdır, müxtəlif üslublarda işlədilir, dilimizin leksik sisteminə tam daxil olmuşdur.

Ümumişlək alınma sözlər məişətin müxtəlif sahələrinə aiddir. Beynəlmiləl sözlər isə əsasən termin və peşə-sənət leksikasından ibarət olub , aid olduğu dillərdə müxtəlif anlayışı ifadə edir. Ümumişlək alınma sözlər Azərbaycan xalqının başqa xalqlarla insan fəaliyyətinin bütün sahələrində qarşılıqlı əlaqəsinin nəticəsidir. Beynəlxalq sözlər isə ancaq insan fəaliyyətinin əsas sahələrini əhatə edir.Alınma sözlər dilimizin orijinallığına, müstəqilliyinə əngəl törətmir, əksinə, onun inkişafına və zənginləşməsinə səbəb olur

Dilimizin leksikasındakı bir qisim alınma sözlər tez işləkdən düşür. O alınma sözlər tez sıradan çıxır ki, onlar daxil olduğu dildə vətəndaşlıq hüququ qazana bilmir, onun qayda-qanunlarına uyğunlaşmır. Ona görə də belə sözlərin ömrü az olur, getdikcə işlədilmə imkanı zəifləyir və aradan çıxır. Başqa dillərdən gələn sözlərin

alınmasının və işlədilməsinin möhkəm əsasları olmalıdır. Bunun üçün alınma sözləri yerində düzgün işlətmək lazımdır.

**ИСМАИЛОВА МИНАЯ**

## ФРАЗЫ И ИХ ХАРАКТЕРИСТИКИ

**РЕЗЮМЕ**

В статье говорится о заимствованных словах в азербайджанском языке и их характеристиках. Известно, что формирование, развитие и совершенствование литературного языка Азербайджана не произошло внезапно, он является продуктом веков и является совершенным средством общения, веками достойно служащим азербайджанцам в обмене идеями. Хотя литературный язык Азербайджана является самостоятельным языком, он является одним из языков, принадлежащих к семье тюркских языков, его развитие соответствовало общим законам развития языков мира.

Основную лексику азербайджанского литературного языка составляют настоящие азербайджанские слова, состоящие из слов, созданных методом словотворчества на основе существующих в языке слов или унаследованных от общетюркских языков. Настоящие азербайджанские слова связаны с названиями бытовых, животных, птиц, природных явлений, движений, ситуаций и абстрактных понятий. Есть ряд признаков, отличающих национальные слова от заимствованных слов.Заимствованные слова в азербайджанском.

Языке составляют определенный процент словарного запаса.Существуют различные причины, по которым они входят в словарный состав языка.Они показаны и объяснены в В статье также приводится широкая классификация заимствованных слов в азербайджанском языке по их происхождению.

**Ключевые слова**: заимствования, лексический состав, литературный язык, грамматический строй, интернациональные слова.

**ISMAILOVA MINAYA**

## PHRASES AND THEIR CHARACTERISTICS

**SUMMARY**

The article talks about borrowed words in the Azerbaijani language and their characteristics. It is known that the formation, development and improvement of the literary language of Azerbaijan did not happen suddenly. It is a product of centuries and is a perfect means of communication that serves Azerbaijanis in the exchange of ideas with dignity for centuries.

Although the literary language of Azerbaijan is an independent language, it is one of the languages belonging to the family of Turkic languages. Its development has corresponded to the general development laws of world languages.

The main lexicon of the Azerbaijani literary language is made up of real Azerbaijani words. They consist of words that were created by the method of word creation based on the words existing in the language or inherited from common Turkic languages. Real Azerbaijani words are related to the names of household, animal, bird, natural phenomena, movement, situation, and abstract concepts. There are a number of features that distinguish national words from borrowed words. Borrowed words in the Azerbaijani language make up a certain percentage of the vocabulary. There are various reasons why they are included in the vocabulary of the language. These are shown and explained in the article. In addition, the article also provides a wide classification of borrowed words in the Azerbaijani language according to their origin. explained..

**Key words:** loanwords, lexical composition, literary language, grammatical structure, international words.

**Ədəbiyyat**

M.Hüseynzadə. Müasir Aszərbaycan dili. Bakı – 1954
Ə.Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı, Bakı – 1962
Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi, I hissə. Bakı – 1979
T.Əfəndiyeva. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı -1980
S.Cəfərov. Müasir Azərbaycan dili. Bakı – 1982
H.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. Bakı – 1988
A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili, I cild, Bakı – 2010
N.Abdullayev. Nitq mədəniyyətinin əsasları. Bakı - 2014

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: professor Nadir Məmmədli**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

# ƏDƏBİYYATŞÜNASLIQ

**HÜSEYNOV BİLAL HÜSEYNAĞA OĞLU,**
**ADPU Cəlilabad Filialının müəllimi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**Naxçıvan Dövlət Universitetinin elmlər doktorluğu üzrə dissertantı**
**bilalalarli58@mail.ru**
**ORCID İD** 0000-0002-2249-6487

## SÖYLƏMƏ FOLKLOR JANRI KİMİ

**Xülasə**

Azərbaycan folklorunda rəvayətin bir növü olan söyləmələr yetərincə öyrənilməmişdir. Söyləmələr epik növün janrı sayılsa da, lirik şəkildə olan, daha çox düzgüləri xatırladan söyləmələr də yazıya alınmışdır. Bilməcəsayağı söyləmələr tapmaca xarakterlidir.

Söyləmə tipli nümunələr bəzi bölgələrdə söhbət adlanır. Söhbət adıyla təqdim olunan əhvalatları rəvayətin janrdaxili dəyişimləri saymaq olar. Söhbət mətndən-mətnə dəyişir və bəzi hallarda onu söyləmlə eyniləşdirmək mümkün olur. Söhbətə gileylər, öyünmələr, dolamalar, vəziyyətdənçıxmalar, əvəzləşdirmələr, vəsflər, bədahətlər, sövdələşmələr, hekayətlər, sınamalar və maraqlı söhbətlər daxildir. Bəzi söhbətlər isə öyüdlər, qandırmalar, müdrik cavablar, fırıldaqlar**,** rəvayətlər adı altında təqdim olunur. Hətta təqdim olunan söhbət-rəvayətlər komik ovqatlıdır.

Söyləmə nümunələri müxtəlif bölgələrdən sözbaşı, söhbət, hekayət, rəvayət, başagəldi və başqa adlarla yazıya alınmışdır.

**Açar sözlər:** ***Azərbaycan folkloru, epik növ, söyləmə folklor janrı.***

**Motiv.** Azərbaycan folklorunda janrdaxili dəyişmələrə məruz qalan nümunələrdən biri rəvayətdir. Başagəldilər, olmuş əhvalatlar, toponimik rəvayətlər, tarixi hadisələrlə və tarixi şəxsiyyətlərlə bağlı rəvayətlər, hədislər, rəvayət xarakterli mifoloji mətnlər, təbiət hadisələri ilə bağlı rəvayətlər, aşıq rəvayətləri, söyləmələr kimi xarakterizə olunan bu epik janrın tematik imkanları genişdir. Toponimik rəvayətlər yer-yurd adları haqındadır və əsasən etnoslarla, antronimlərlə və relyeflə bağlıdır. Hədislərə dini rəvayətlər, dini əfsanələr, dini lətifələr, müqəddəslərlə bağlı dini əhvalatlar və dini ehkamlarla bağlı fikirlər daxildir. Peyğəmbərlər haqqında, on dörd məsum haqqında, seyid və övliyalar haqqında, sufilər və dərvişlər haqqında, təriqət başçıları haqqında, tərbiyəvi mahiyyətli hadisələr haqqında hədislər, həmçinin Allah kəlamlarının yozumları bu folklor nümunələrinin mahiyyətini təşkil edir (**Alarlı 2019: 107**).

Aşıq rəvayətləri də rəngarəngliyi ilə seçilir. Azərbaycan aşıq sənətinin araşdırıcıları Məhərrəm Qasımlı və Mahmud Allahmanlı aşıq rəvayətlərini məzmununa görə *informativ-bioqrafik rəvayətlərə, yurd rəvayətlərinə, lətifə-rəvayətlərə, dastan-rəvayətlərə* bölürlər **(Qasımlı - Allahmanlı 2019: 45-48).** *Aşığın başına gələn rəvayətlər və aşığın özünün söylədiyi rəvayətlər* başagəldilər və deyişmələr üzərində qurulur.

**Araşdırma.** Söyləmələri ilk dəfə toplayıb çap etdirən Sədnik Pirsultanlı (Paşayev) bu folklor nümunələrinin forma yığcamlığı ilə fərqləndiyini bildirir və onları "folklorun bir növü" sayır. Söyləmələr aşağıdakı qruplara bölünür:

-Hikmətli söyləmələr;
-Nağılvari söyləmələr;
-Rəvayətvari söyləmələr;
-Lətifəsayağı söyləmələr;
-Hekayətvari söyləmələr;
-Təmsilvari söyləmələr,
-Ovçu söyləmələri;
-Bilməcəsayağı söyləmələr;
-Müxtəlif mövzulu söyləmələr **(Azərbaycan xalq söyləmələri 1992: 3)**.

S.Pirsultanlı söyləmələrin gündəlik həyatda fəal tərzdə işləndiyini, insanın mənəvi dünyasına bağlı şəkildə təkmilləşmə və zənginləşmə prosesi keçirdiyini yazır: "İnasanın daxili aləmini, fikir və düşüncəsini, fəlsəfi dünyagörüşünü, psixologiyasını, milli xüsusiyyətlərini açmaqda və öyrənməkdə xalq söyləmələri xüsusi əhəmiyyətə malikdir. Xalq ədəbiyyatı biliciləri, müdrik babalar, sinədəftər nənələr sözbaşı, mətləbdən-mətləbə keçdikcə söyləmə söyləməyi, öz fikrini əsaslandırmağı çox sevirlər" **(Azərbaycan xalq söyləmələri 1992: 3-4)**. Söyləmələrin digər epik folklor nümunələrinə bənzərliyinə, hətta bəzi janrlarla eyniyyət təşkil etməsinə baxmayaraq, onlar "özünəməxsus cəhətləri ilə" seçilir. Lətifələrə, təmsillərə və məsəllərə bənzəyən, daha doğrusu, mayasını bu janrlardan alan söyləmələr modulyativ (janrlararası keçid) xarakterli nümunələrdir. Nağılvari söyləmə kimi yazıya alınan "Əllamə" nümunəsi həcminə, təhkiyə formasına görə nağıldan fərqlənmir **(Azərbaycan xalq söyləmələri 1992: 52-55)**. Əllamə (Əlləmə şəklində) obrazı digər bölgələrdən toplanmış folklor nümunələrində fərqli şəkildə yer almışdır. Laçın folklor nümunələrini toplayıb çap etdirən İlham Qəhrəman məşhur gülüş qəhrəmanları Molla Nəsrəddin və Əlləmə ilə bağlı hekayətləri lətifələrdən fərqli təqdim edir. regional xüsusiyyətləri ilə diqqəti cəlb edən bu hekayətlər gülüş doğuran əhvalat xarakterli nümunələrdir. Bəlkə də bu nümunələr yığcam süjet xəttinə görə belə adlandırılır **(Laçın lətifələri 2014: 149-151).** Əlləmə haqqında olan hekayətlər isə komik əhvalatlardan çox ciddi hadisələri əhatə etməsi ilə fərqlənir. Loğmanın yanında şagird olan Əlləmə xəstə əməliyyyat olunan zaman naqqaşı qızdırmaqla bağlı ustadına verdiyi ağıllı məsləhətə görə işindən qovulur **(Laçın lətifələri 2014: 152)**. Belə mübahisəli janr təyinatına rəvayətvari söyləmələrdə də rast gəlmək mümkündür.

Burada verilən “Salyan” söyləməsi toponimik rəvayətdir **(Azərbaycan xalq söyləmələri 1992: 67-68)**. “Köhnə Naxçıvani” və “Ələsgər su içən bulaq” söyləmələri isə aşıq rəvayətləridir **(Azərbaycan xalq söyləmələri 1992: 75-76)**. Aşıq rəvayətləri “Hekayətvari söyləmələr” bölməsində də yer almışdır. “Valeh və Hanı” söyləməsi Aşıq Valehlə bağlı rəvayətdən ibarətdir. bölmədə verilmiş “Ayrılıq və görüş” söyləməsi aşıq deyişməsi, “Aşıq və qızlar” söyləməsi isə aşıq bağlamaları üzərində qurulmuşdur **(Azərbaycan xalq söyləmələri 1992: 94-101)**. Bilməcəsayağı söyləmələr tapmaca xarakterlidir. Başqa bölgələrdə bu tipli folklor nümunələri çaşlar, çaşdırmalar və bağlamalar adlanır. “Anası beşikdəykən” adlı söyləmədə qonşuluqda ərdə olan qızı oğlan doğan ata bu hadisəni arvadına bayatı ilə çatdırır. Bayatı müəmmasının (bilməcəsinin, bağlamasının) açılışı bundan ibarətdir ki, qız uşaq dünyaya gətirərkən anası Beşik kəndində olur:

*Gecə bir yağış yağdı,*
*Suya nə düşdü – boğdu.*
*Anası Beşikdəykən,*
*Qızı bir oğlan doğdu* **(Azərbaycan xalq söyləmələri 1992: 143)**.

Laçından toplanan folklor örnəkləri içərisində söyləmələrin nəzm variantları da mövcuddur. Nəzm şəklində olan söyləmələr düzgünü xatırladır və düzgü kimi misraları ard-arda qafiyələnir. Laçın bölgəsindən yazıya alınmış söyləmələrdə komizm də güclüdür. Bunu nümunə gətirdiyimiz mətndən də görmək mümkündür:

*Bacadan baxdım işılangöz,*
*Biri kəhər, biri boz.*
*Mindim bozun boynuna,*
*Çıxdım Urum yoluna.*
*Urum yolu həp baca,*
*İçində meymun gəzər.*
*Meymuncuğu ürkütdüm,*
*Qulaqcığın qırpıtdım.*
*Dedim – A meymun, hardan gəlirsən?*
*Dedi – Ala dağdan, Qərə dağdan.*
*Dedim – Ala dağın, Qərə dağın nəyi var?*
*Dedi – Şaqqır-şuqqur çayı var,*
*At oynadan oğlu var,*
*İnci düzən qızı var.*
*İncili-mərcan fil-fili,*
*Gəl oxu bizim dili,*
*Bizim dil Urum dili.*
*Urumdan gələn atlar,*
*Ağzında yüyən çatlar.*
*Heyva çiçəyi çırtlar* **(Laçın folkloru 2009: 180).**

Düzgünün nəzm tələblərini Xıdır Nəbi söyləməsində də müşahidə edirik:

*Xıdır Nəbi, xıdır Elyas,*
*Bitdi çiçək, oldu yaz.*
*Xıdır gəlir hayınan,*
*Altı qara dayınan.*
*Yağ gətirin yağlayaq,*
*Dəsmal gətirin bağlayaq.*
*Dəsmal dəvə boynunda,*
*Dəvə Şirvan yolunda.*
*Şirvan yolu buz bağlar,*
*Dəstə dəstə gül bağlar.*
*O gülün birin üzeydim,*
*Saç bağıma düzeydim,*
*Qardaşımın toyunda*
*Əzgil kimi süzeydim* **(Laçın folkloru 2009: 182).**

Söyləmə tipli nümunələr başqa bölgələrdə söhbət adlanır. *Söhbət* adıyla təqdim olunan əhvalatları rəvayətin janrdaxili dəyişimləri saymaq olar. Müxtəlif məzmunlu olduğu üçün söhbətin janr təyinatına qəti qərar vermək olmur. Söhbət mətndən-mətnə dəyişir və bəzi hallarda onu söyləmlə eyniləşdirmək mümkün olur. "Duz daşı" söhbətinin məzmunu belədir: *"Minkənddə oğluna ev tikdirən ata həyətə qoyduğu böyük duz daşını yerindən tərpədə bilmədiyi üçün evdən çıxarkən üç oğluna tapşırır ki, beş- altı tay-tuşunuzla duz daşını götürüb başqa yerə qoyun, sabah orda evin himi qoyulacaq.*

*Axşam ata evə qayıdır. Çay içərkən deyir, çox sağ olun, bu gün daşı ordan götürmüsüz. Sabah işə başlamaq olar. Bir-birinin üzünə baxan oğlanlar bundan xəbərsiz olduqlarını söyləyirlər. Atalarından daşı necə götürdüyünü soruşurlar. Ata da and-aman edərək xəbərsiz olduğunu deyir. Kənardan söhbəti eşidən ağzı yaşmaqlı gəlin onlara çay süzə- süzə əlləri ilə işarə edir ki, daşı mən götürmüşəm"* **(Laçın lətifələri 2014: 155).** Bu söhbətdə maraqlı olan cəhət ondan ibarətddir ki, üç-dörd adamın gücü çatmayan duz daşını evin gəlini təkbaşına götürür. "Qoçaqsan, gəl, düşü" söhbətinin məzmunu da gəlinlə bağlıdır, lakin bu nümunədə gəlinlərin danışığı nəzmlə təqdim olunur: *"Bir qız gəlin köçəndə anası tapşırır ki, ər evində dinməz otu, heç nəyə qarışma. Gəlin də anasının tapşırığına əməl edir - ər evinə gələn gündən dinib danışmır. Bir müddət keçəndən sonra gəlinin danışmadığını görən əri onun lal olduğunu zənn edir və ikinci arvad almaq eşqinə düşür. Ata minib yollanır ikinci arvadı gətirsin. Köhnə gəlin həyətdəki ocağın üstündə süd asmışmış. Bu vaxt geri qayıdan əri atın üstündə qucağında təzə gəlin evə tərəf gəlir. Köhnə gəlin başa düşür ki, əri onun üstünə günü gətirir. Bu dəmdə ocağın üstündə süd daşır. Təzə gəlin atın üstündə deyir:*

*- Lalım, karım, mürdəşirim,*
*Südün daşdı, get düşü!*
*Cavabında köhnə gəlin qayıdır:*

*- Özü yəhər qaşında,*
*Gözü ocaq başında,*
*Qoçaqsansa, gəl düşü!*
*Arvadın danışdığını görən əri dərhal atın başın geri döndərir"* **(Laçın lətifələri 2014: 157-158).**

Göründüyü kimi, söhbət mətnlərinin mahiyyəti tərbiyəvi mövzulara köklənmişdir. Söhbət nümunələrinin janr təyinatı mübahisəlidir. Bunu toplayıcılar da hiss edir və həmin nümunələri fərqli adlarla verirlər. Buraya gileylər, öyünmələr, dolamalar, vəziyyətdənçıxmalar, əvəzləşdirmələr, vəsflər, bədahətlər, sövdələşmələr, hekayətlər, sınamalar və maraqlı söhbətlər daxildir. Bəzi söhbətlər isə öyüdlər **(Laçın lətifələri 2014: 160)**, qandırmalar **(Laçın lətifələri 2014: 157**), müdrik cavablar **(Laçın lətifələri 2014: 164)** fırıldaqlar **(Laçın lətifələri2014: 167),** rəvayətlər **(Laçın lətifələri 2014: 164-177)** adı altında təqdim olunur. Hətta təqdim olunan söhbət-rəvayətlər komik ovqatlıdır.

**Nəticə.** Yekun olaraq, deyə bilərik ki, söyləmənin assiqnmentativ xüsusiyyətləri rəvayətlə bağlıdır. Söyləmə nümunələri müxtəlif bölgələrdən sözbaşı, söhbət, hekayət, rəvayət, başagəldi və başqa adlarla yazıya alınmışdır.

**Ədəbiyyat:**

**1.Alarlı 2019 -** Alarlı (Hüseynov) B. Muğan elləri, II kitab. Qədim Həməşərə diyarının söz sənəti (Cəlilabadın folklor dünyası və ədəbi mühiti). Bakı, Elm və təhsil, 2019, 256 s.

**2.Azərbaycan xalq söyləmələri 1992 -** ***Azərbaycan xalq söyləmələri. Toplayanı və tərtib edəni Sədnik Pirsultanlı (Paşayev). Bakı, Yazıçı, 1992, 216 s.***

**3.Qasımlı - Allahmanlı 2019 -** Qasımlı M., Allahmanlı M. İzahlı aşıq ədəbiyyatı sözlüyü. Azərbaycan Aşıqlar Birliyi. Bakı, 2019, 224 s.

**4.Laçın folkloru 2009 -** Laçın folkloru. Toplayıb tərtib edəni İlham Qəhrəman. Bakı, Adiloğlu, 2009, 218 s.

**5.Laçın lətifələri 2014 -** Laçın lətifələri. Toplayanı İlham Qəhrəman. Bakı, "OL" MMC, 2014, 196 s.

**Huseynov Bilal Huseynaga oglu**

**SPEAKING (NARRATİVE) AS A GENRE OF FOLKLORE**

**Summary**

Tales, which are a type of narration in Azerbaijani folklore, have not been sufficiently studied. Although the sayings are considered a genre of the epic type, lyrical sayings, more reminiscent of poems, were also recorded. Inquisitive sayings are riddles.

Narrative-type examples are called chats in some regions. The stories presented under the name of conversation can be counted as variations within the

genre of narration. Conversation varies from text to text and in some cases it can be equated with speech.

Conversation includes complaints, boasts, detours, excuses, substitutions, descriptions, improvisations, bargains, stories, trials and interesting conversations. Some conversations are presented under the name of oyudler, qandirmalar, mudrik cavablar, firildaqlar and revayetler. Even the conversations presented are comical.

Speaking examples from different regions have been written down by word of sozbashi, sohbet, hekayet, revayet, bashagaldi and other names.

**Keywords:** ***Azerbaijani folklore, epic type, narrative (speaking) folklore genre.***

**Гусейнов Билал Гусейнага оглы**

## ГОВОРЕНИЕ КАК ЖАНР ФОЛЬКЛОРА

***Резюме***

Повествование (говорение), являющиеся разновидностью повествования в азербайджанском фольклоре, изучены недостаточно. Хотя изречения считаются жанром эпического типа, записывались и лирические изречения, больше напоминающие стихи. Похоже на головоломку изречения - загадки.

Примеры повествовательного типа в некоторых регионах называются чатами. Истории, представленные под названием беседы, можно считать вариациями внутри жанра повествования. Разговор варьируется от текста к тексту и в некоторых случаях может быть приравнен к речи._Разговор включает в себя гилейлер, оюнмелер, доламалар, везийетденчыхмалар, евезлешдирмелер, весвлер, бедахетлер, совдалашмалар, хекайетлер, сынамалар и интересные разговоры. Некоторые разговоры представлены под названием оюдлер, гандырмалар, мудрик джаваблар, фырылдаглар и ревайетлер. Даже представленные разговоры комичны.

Примеры разговоров из разных регионов были записаны созбашы, сохбет, хекайет, ревайет, башагальди и другими именами.

**Ключевые слова:** ***Азербайджанский фольклор, эпический тип, фольклорный жанр говорение.***

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Akif Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur**

**SEVİNC MƏMMƏDOVA**
*Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasının dosenti*

# ALMAN ƏDƏBİYYATINDA "FIRTINA VƏ TƏZYİQ" ƏDƏBİ CƏRƏYANININ YERİ

**Xülasə**

XVIII əsr Almaniyanın həm siyasi, həm də ədəbi həyatında bir sıra dəyişikliklər baş verdi. Bu dəyişikliklərin başında "Fırtına və təzyiq" hərəkatı gəlirdi. "Fırtına və təzyiq" (Sturm und Drang) 1770-1785-ci illərdə böyük təsir göstərən və Avropa romantizminin inkişafında böyük rol oynayan ədəbi və siyasi cərəyan olaraq bilinməkdədir. Bu cərəyanın adı bəzi ədəbiyyatlarda "Fırtına və həmlə" olaraq da verilir. Bu cərəyanın adı Fridrix Maksimilian von Klingerin 1776-cı ildə səhnəyə qoyulan "Fırtına və təzyiq" əsəri ilə bağlıdır. Almaniyada maarifçilik hərəkatından sonra bu cərəyan ortaya çıxmışdır. Eyni zamanda, bu cərəyanın nümayəndələri həm də maarifçilər idilər. Rasionallığa qarşı olan bu cərəyan ağıla qarşı duyğunu, qəliblərə qarşı azadlığı dəstəkləyirdi. Bu cərəyan həm sadəliyi, həm də yenidən təbiətə qayıdışı dəstəkləyirdi. Bu cərəyanın nümayəndələri 30 illik müharibədən sonra Almaniyanın ağır vəziyyətini ürək ağrısıyla təsvir edir və üsyankarlıqla yanaşırdılar. Bu üsyankarlıq kor-koranə deyil, dərin düşüncə ilə, həssaslıqla özünü göstərirdi. Almaniyada hökm sürən feodal qaydalara, zalımlıqla ölkəni idarə edən krallara, köhnə qanunları icra edən knyazlara, hersoqlara qarşı kəskin çıxışlar edirdilər. "Fırtına və təzyiq" hərəkatı Almaniyanın ictimai həyatında da böyük dəyişikliklər həyata keçirdi. Bu hərəkatın qabaqcılları sırasında Jan Jak Russo və Şeksprin adı var. Bu iki təsiri bir çox əsərlərdə, xüsusilə, "Gənc Verterin iztirabları" əsərində aydın şəkildə görünür. Məqalədə "Fırtına və təzyiq" hərəkatının xüsusiyyətləri, onun təsirləri barədə araşdırma aparılmışdır.

**Açar sözləri:** Almaniya, təzyiq, fırtına, həmlə, ədəbi cərəyan, maarifçilik

XVIII əsrin II yarısında Almaniyada alman burjuaziyası ortaya çıxmışdır. Lakin bu burjuaziyanın inqilabi ruhu zəif idi və feodalizmə qarşı sərt çıxışlar etmirdi. Bu maarifçilər əsas istiqamət olaraq Alman xalqını bir mərkəzdə birləşdirilməsi üçün mübarizə aparır, cırtdan hersoqlara qarşı çıxırdılar.

Maarifçilik dövrünün ideyaları o dövrün Almaniyasının ədəbi-bədii dairələrinə kifayət qədər təsir göstərə bilmədi. Davamlılıq və üslub qayğısı ilə əsərlər yaratmağa davam edən ədəbiyyatçılar rasional, şablon və klassik ifadələri ilə dövrün liberal ab-havası ilə ziddiyyət yaratmağa başladılar. İyirmi yaşlarında bir qrup gənc sənətə fərqli məna verməyə çalışırdı. İçlərində yanan alov, onların daxillərindəki dəyişən dünya yeni bir cərəyana yol açırdı. Qothold Efraim Lessinqin 1767-ci ildə nəşr olunan "Minna von Barnhelm" əsəri bu intellektual konfliktə qarşı çıxan və sənətdə

dövrün qaydalarını qoruyan dəyişməz bir rasionallıq əvəzinə sırf emosional irrasionallığa meyli özündə əks etdirən bir əsər kimi ədəbiyyatda iz buraxdı. Əsər sənətdə və ədəbiyyatda uçurum yaratdı. Bu uçurum əslində yeni bir sənət cığırını açdı.

Dövrün tələblərini ödəməyən qaydalara tabe olmaq istəməyən alman gəncləri akademiyalarda öyrənilə bilən qəlibləşən poeziya əvəzinə duyğu və təcrübəyə əsaslanan bu yeni cərəyanı mənimsədilər, lakin bu keçid olduğu üçün bir sıra problemlər ortaya çıxdı. Bu problemlər sırasında mövzu axtarışları, quruluş və məzmun xüsusiyyətləri dayanırdı. Yenilik axtarışında olan gənclər bir müddət xalq əfsanələrindən və mifoloji elementlərdən istifadə etmişlər.

Almaniya mədəniyyətində, siyasətində, eləcə də ədəbi həyatında olan bu yeniliklər yeni bir başlanğıclar üçün əsas rol oynadı. XVIII əsrin 70-80-ci illərində Almaniyanın mədəni həyatında "Fırtına və təzyiq" hərəkatı ortaya çıxdı. Daha çox maarifçilərdən təşkil olunan bu cərəyan isə öz üsyankarlıqları ilə fərqlənirdilər. Təbii ki, bu üsyankarlıq kortəbii deyildi. Bu cərəyanın nümayəndələri yoxsul almanların güzəranına acıyır, kiçik cırtdan dövlətlərə bölünərək iqtisadiyyatı, təsərrüfatı, mədəniyyəti məhv olan Almaniyanın taleyinə ürəkağrısı ilə yanaşırdılar.

Bu cərəyan birdən-birə bütün Almaniyanı əhatə etməyə başladı. Bu cərəyanın zəif cəhəti o idi ki, vahid proqramları yox idi, bütün alman xalqı üçün problem yaradan mənfilikləri – insan mənəviyyatına toxunan, mənliyini əzən köhnə bürokratik qanunları, vaxtını çoxdan başa vurmuş feodal qaydalarını tənqid hədəfinə çevirirdilər.

"Fırtına və təzyiq" (Sturm und Drang) 1770-1785-ci illərdə ortaya çıxıb formalaşan və Avropa romantizminin inkişafında böyük rol oynayan ədəbi və siyasi cərəyan kimi tanınmışdır. Bu cərəyanın adı bəzi ədəbiyyatlarda "Fırtına və həmlə" olaraq da verilir. "Fırtına və təzyiq" hərəkatı Fridrix Maksimilian von Klingerin 1776-cı ildə səhnəyə qoyulan eyni adlı əsər ilə bağlıdır. "XVIII yüzilliyin 70-ci illərində Almaniyada şair və dramaturq Fridrix Şillerin (1759-1805) rəhbərliyi altında «Fırtına və təzyiq» adlı ədəbi cərəyan meydana gəlmişdi. Musiqi tarixində dönüş yaradan İohan Sebestyan Bax (1685-1750) və Volfqanq Amadey Motsart (1756-1791) kimi qüdrətli bəstəkarlar, Hegelin müasiri olmuş, astronomiya sahəsində inqilabi dönüş yaratmış İmmanuil Kant (1724-1804) kimi mütəfəkkirlər bu dövrdə Almaniyada xüsusi bir diqqətə malik idilər" (1,44).

Bu cərəyan rasionallığa qarşı idi və ağıla, məntiqə qarşı duyğunu, qəliblərə qarşı azadlığı dəstəkləyirdi. Bu cərəyan təbiətin özünə qayıdışı dəstəkləyir, insanın təbiətlə bağlılığını əsərlərində təbliğ edirdilər.

Bu cərəyanın nümayəndələri 30 illik müharibədən sonra Almaniyanın ağır vəziyyətini ürək ağrısıyla təsvir edir və üsyankarlıqla yanaşırdılar. Bu üsyankarlıq kor-koranə deyil, dərin düşüncə ilə, həssaslıqla özünü göstərirdi. Almaniyada hökm sürən feodal qaydalara, qəddarlıq, haqsızlıq, ədalətsizlik ilə ölkəni idarə edən

krallara, köhnə qanunları icra edən knyazlara, hersoqlara qarşı kəskin çıxışlar edirdilər.

"Fırtına və təzyiq" hərəkatının üzvləri şəxsi azadlığı məsuliyyət və vəzifələrindən üstün tuturdular. Bu cərəyanda fərdilik prinsipləri ön planda dayanır. Onlar ədəbiyyatı özünüdərk üçün ən mühüm vasitə hesab edirlər. Cərəyan nümayəndələri ictimai-siyasi məsələlərə həssas yanaşır, əsərlərində daha çox uşaq qətilləri, cinayətləri motivlərindən istifadə edirdilər. Xalq mahnılarından istifadə, estetikanın gözlənilməsi də qarşılarında olan prioritetlərdəndir. Şekspir sənətindən bəhrələnmə də özünü göstərirdi. Cərəyanın gənc yazarları maarifçilik hərəkatı ilə püxtələşmiş insanlar olaraq bu faktları öz əsərlərində maarifçilik cərəyanından öyrəndikləri ilə işləmişlər (4, 2).

Hərəkatın ilk nümayəndələri Lenz, H.L.Vaqner, rəssamlar Müller və Qerstenberq bərabərliyi və insan şəxsiyyətinə olunan hörməti təbliğ edirdilər. Eyni zamanda mövcud feodal ənənələrinə qarşı da çıxırdılar. Əsas qayələri insan haqları üçün mübarizə təşkil edirdi. Başlıca məqsədlərini insanın azadlığı uğrunda mübarizə təşkil edirdi. "Fırtına və təzyiq" cərəyanının müsbət cəhətlərindən biri xalqların özünəməxsus xüsusiyyətlərini üzə çıxarmaq üçün folklora müraciət etməsi idi. Cərəyanın önəmli nümayəndələrindən olan Herder (1744-1803) 1778-ci ildə bir çox xalqların xalq mahnılarından ibarət "Xalqların nəğmələrdəki səsləri" ("Stimmen der Völker in Liedern") adlı kitab nəşr etdirir. O, Şərq xalqlarının qədimdən yüksək mədəniyyətə malik olduğunu söyləyir, müsəlman mədəniyyətinin Qərbi Avropa mədəniyyətinə böyük təsir göstərdiyini vurğulamışdır. Herderin "Alman üslubu və sənəti" ("Von deutscher Art und Kunst" (1773) adlı məqaləsində əsərlərin yazı tərzi, dili və morfoloji xüsusiyyətləri, estetikası və fəlsəfəsi haqqında fikirləri yer almışdır.

Herderin nəzəri idealizmi yeni alman ədəbi hərəkatı və tarixi anlayışını meydana gətirdi. Hötenin "Faust", "Gənc Verterin iztirabları", "Eqmont" əsərlərində də bu təsiri görmək mümkündür.

Bu cərəyanın təsiri ilə yazılan əsərlər içərisində dillərin, ədəbiyyatların, dinlərin müqayisəli təhlillərinin yer aldığı əsərlər yazılırdı. Müqayisəli təhlil Höte və Şiller üçün ilham qaynağı oldu.

Bu hərəkatın qabaqcılları sırasında Jan Jak Russo və Şeksprin adı var. Bu iki təsiri bir çox əsərlərdə, xüsusilə, "Gənc Verterin iztirabları" əsərində aydın şəkildə görünür.

Bu cərəyanın təsiri ilə siyasətə münasibət də dəyişdi. Alman şəhzadələri teatrlarda gülüş obyektinə çevrildilər.

Fransa inqilabının vəsfi də "Fırtına və təzyiq" cərəyanının nümayəndələrinin əsərlərində əks olunurdu.

Maarifçilərin müəyyənləşdirdiyi qaydalar bu cərəyanın təsiri ilə elə öz nümayəndələri tərəfindən yavaş-yavaş rədd edilməyə başlanıldı. Bu cərəyanın nümayəndələri janrlar arasındakı sərhədləri ləğv etdilər, bunun əsl yaradıcılığı

məhdudlaşdırdığını hesab etməyə başladılar. Bu qaydaların tətbiqi ilə şeir, roman və dramlar yenidən formalaşdırıldı. Maarifçilik cərəyanının məqsədlərini təsvir etməklə yanaşı, bu cərəyanın disfunksional tərəflərini də oxuculara təqdim etməyə başladılar. Bu cərəyanın əsərlərinin əksəriyyətində üsyançı qəhrəman qaydalara qarşı çıxmaqla yanaşı, bəzən özünü, bəzən ailə üzvünü öldürməklə nəticələnirdi. Bu əsərlərdə üsyanın fərd üzərindəki təsirlərini üzə çıxarmaq üçün qardaş, ata və uşaq qətilləri ilə bağlı motivlərin işləndiyi görülür. Hötenin "Gənc Verterin iztirabları" əsərindən götürülən "kütləvi intiharlar" "Verter effekti" adlanır. Beləliklə, XVIII əsr burjua cəmiyyətinin həyatı ədəbi əsərlər vasitəsilə ümumi şəkildə təsvir edilir.

Zaman keçdikcə gənc yazarlar, o cümlədən Höte, Herder və Şiller dövrün normativ əxlaqını, cəmiyyət tərəfindən qəbul edilən qaydaları şübhə altına almağa başladılar.

Bu dövrdə tətbiq edilən digər bir yenilik təbiətə yanaşma idi. Təbiətin insanın mahiyyəti və əbədi dühanın mükəmməl yaradılması ideyası qəbul edilmişdir. Təbiətə, onun axarına heyranlığını bu cərəyandakı rəssamların əsərlərində, onların gərgin və poetik təbiət təsvirlərində görə bilərik. Dövrün nəbzini tutmağı bacaran bu xüsusiyyət, xüsusilə, gənc nəslə böyük təsir göstərmişdir. Öz həyatı haqqında düşüncələrini "Gənc Verterin iztirabları" əsərində əks etdirən Höte əsəri belə başlayır: "Mən yazıq Verterin hekayəsindən tapa bildiklərimi qəsdən bir yerə yığdım və bu, mənə təşəkkür edəcəyinizi göstərir. Onun ruhunu və insanlığını heyranlığınızdan və sevginizdən, taleyini gözyaşlarınızdan məhrum edə bilməzsiniz. Və sən, onun kimi şövqü duyan gözəl ruh! Onun əzablarında təsəlli tap, əgər taledən və öz günahından yaxınlıq görə bilmirsənsə, kitabın dostun olmağına icazə ver!" (2,5).

Göründüyü kimi, XVIII-XIX əsrdə Almaniyada siyasi cəhətdən ziddiyyətli dövr olsa da, mənəvi mədəniyyət ən yüksək bir mərtəbəyə çatdı. "Fırtına və təzyiq" cərəyanı maarifçilərdən təşkil olunsa da, özünəməxsus xüsusiyyətlərlə feodal qalıqlarına, köhnə adət-ənənələrə qarşı çıxmağa başladı. Cərəyan üzvləri Almaniyada zalımlıqla ölkəni idarə edən krallara, köhnə qanunları icra edən knyazlara, hersoqlara qarşı kəskin çıxışlar edirdilər. Yeni cərəyan yeniliklər üçün cığır açdı.

**Ədəbiyyat:**

1. Həsənov R. Georq Vilhelm Fridrix Hegelin ruh fəlsəfəsi. Bakı:Təknur, 2011, 172
2. İohann Volfanq Höte. Gənc Verterin iztirabları. Bakı: Qanun Nəşriyyatı, 2021, 228 s.
3. Quliyeva S.S. Görkəmli alman şairi Yohan Volfqanq Höte-nin əsərlərinin tərcüməsi və nəşri tarixindən. http://kitabsunasliq.narod.ru/kit11.htm

4. Luserke-Jaqui Matthias. Sturm und Drang als Programm. Handbuch Sturm und Drang. Hg. Matthias Luserke-Jaqui u.a., Berlin u.a.: De Gruyter. 2017, 1-7 s.

*Севиндж Мамедова*

## МЕСТО ЛИТЕРАТУРНОГО ДВИЖЕНИЯ «БУРЯ И НАТИСК» В НЕМЕЦКОЙ ЛИТЕРАТУРЕ

**Резюме**

В политической и литературной жизни Германии XVIII в. произошли ряд изменений. Во главе этих изменений стояло движение «Буря и натиск». «Буря и натиск» (Sturm und Drang) известен как литературно-политическое течение, оказавшее большое влияние в 1770-1785 годах и сыгравшее большую роль в развитии европейского романтизма. В некоторых источниках название этого течения также дается как «Буря и нападение». Название литературного движения восходит к одноименной драме немецкого писателя Фридриха Максимилиана фон Клингера, поставленного на сцене в 1776 году. Это направление появилось в Германии после движения Просвещения. В то же время представители этого направления были и просветителями. Противостоящее рациональности движение поддерживало эмоции против разума, свободу против стереотипов. Течение поддерживало как простоту, так и возвращение к природе. Его представители с болью в сердце изображали бедственное положение Германии после 30-летней войны и бунтовали. Этот бунт проявлялся не слепо, а глубокими раздумьями и чуткостью. Они выступали с резкими речами против господствовавших в Германии феодальных порядков, против королей, правивших страной, угнетая, против князей и герцогов, проводивших в жизнь старые законы. Движение «Буря и натиск» также внесло большие изменения в общественную жизнь Германии. Жан-Жак Руссо и Шекспир являются одними из пионеров этого движения. Их влияние отчетливо видно во многих произведениях, особенно в «Страданиях юного Вертера». В статье рассматриваются характерные черты и влияние движения «Буря и натиск».

**Ключевые слова:** Германия, натиск, буря, нападение, литературное течение, просвещение.

**Sevinj Mammadova**

## THE PLACE OF THE LITERARY TREND -STORM AND PRESSURE - IN GERMAN LITERATURE

**Summary**

In the 18th century, a number of changes took place in both the political and literary life of Germany. In the top of this change was the “Storm and pressure” movement.” Storm and pressure” is known as a literary and political movement that

had a great influence and played a major role in European romanticism in 1770-1785. The name of this trend is also given as “Storm and Attack” in some literature. The name of this trend was related to the play written by Fridrix Maksimilian Von Klingerin "The Storm and Pressure" staged in 1176. This trend appeared after the Enlightenment movement in Germany. At the same time, representatives of this movement were also educators. This trend supported both simplicity and a return to nature. The representatives of this movement described the difficult situation of Germany after the 30-year war with heartache and rebelled. This rebelliousness showed yourself not blind, but sensitive with deep thinking. They made sharp speeches against the feudal rules ruling in Germany, the kings who ruled the country with oppression, the princes and dukes who enforced the old laws. “The storm and pressure” movement also materialized a great change in the social life of Germany. There are have Jean Jacques Rousseau and Shakespeare among the pioneers of this movement. These two influences are evident in many works, especially “The Sorrows of young Werther”. In the article, the characteristics of the Storm and pressure movement, its effects were investigated.

**Keywords:** Germany, pressure, storm, attack, literary movement, enlightenment

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: professor Cəlil Nağıyev**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

UOT 82-053.2

**QAFAROVA SƏMƏNGÜL HÜSÜ QIZI**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti, Azərbaycan
Gulhusu01@gmail.com
ORCİD İD: 0000-0002-3548-8937

# AZƏRBAYCAN UŞAQ FOLKLORUNUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Ədəbi nümunələrin ilham pərisi folklorun qanadlarında yüksəlir. Mayası folklordan yoğrulur. Folklor, ədəbi mühitə sonsuz qollarını açmış bir dərya, zəngin bir xəzinədir. Bu söz dəryasının hər damlası bir dünyadır ki, hələ də açılmayan gecələri var. Yüksək mədəni səviyyə, elmlik, xalq dühasına bağlılıq xalqımızın gələcəyinə parlaq bir yolçuluğun pozulmayan xəritəsidir. Bu xəritə dünya türk xalqlarının birləşmə nöqtəsidir. Yerindən, havasından, suyundan asılı olmayaraq soykökə bağlılıq yeni yaradılacaq folklor nümunələrinin danılmazlığına əsas verir. Folklor – xalq biliyi, xalq yaradıcılığı, xalq hikməti olaraq, bədii söz sənətinin mühüm bir sahəsidir. Bu ümmanın inciləri yeni yaranacaq hər növ ədəbiyyata öz təsir gücünü göstərir. İnsanın əmək fəaliyyəti, xeyri, şəri, uğuru, zəhməti, sevinci, göz yaşı bir duyumla, bir nəğmə və ya bir musiqi növü, şeir parçası ilə ifadə olunmuşdur. Bu layladır, oxşamadır, nağıldır, holavardır, dastandır, bu lirik bir şeir, insanları ovsunlayan müəllifsiz, xalqın söz məhsulu, alınmaz qala, tükənməz bir dəryadır. Məna etibarı ilə folklor xalq hikməti, xalq biliyi, xalq yaradıcılığı, xalq dühasıdır. Bu bəstəkarsız, şairsiz, dərin mənaya malik, yer üzünün əşrəfi sayılan insanların kollektiv yaradıcılıq xəzinəsi, öz ümumbəşəri ideyalarını itirməyən, hər zaman xalqın mədəni-mənəvi aləminin kimliyi sayılan bir sahədir. Xalqın bilik və hikmətinin "folklor" adı altında toplanaraq, qərinələrin tarixini, yaşam tərzini, qəhrəmanlığını, humanistliyini özündə əks etdirən bir sahədir. Folklor, həm də məxsus olduğu xalqın zənginliyini, mübarizəsini öz nümunələrinin köməyi ilə çatdırır. Bununla xalqımız yaradıcılıq bacarıqlarından axıb gələn mədəni-xəlqi, doğma və insanı hiss, inanış, düşüncə və s. həyat təcrübəsindən qazandıqlarını ifadə etmişlər. Bu, başqa ölkələrdə olduğu kimi insan həyatının ən ibtidai çağlarından başlamış tarixin ayrı-ayrı mərhələlərinin süzgəcindən keçmiş və günümüzə qədər gəlib çatmışdır. Yəqin ki, folklor hər bir xalqın tarixi sələfi olduğu üçün onunla da yaşayacaq və inkişaf edəcəkdir.

Tarixboyu yaranan və yaşayan çoxsahəli və rəngarəng folklor nümunələri, malik olduğu xalqın ürək çırpıntılarını, duyğu və düşüncə xəzinəsinin incilərini müxtəlif şəkildə yaratmışlar. İnsana, onun dünyaya gəlişinə, yerişinə, gülüşünə, böyüməsinə, həyat yoluna həsr olunmuş bu nümunələr ədəbi aləmin inkişafına, yaranmasına çox güclü təsir göstərmiş, nəsildən-nəslə keçmiş, bir çox ölməz sənətkarların meydana gəlməsinə təməl daşı olmuşdur. Düşüncə, fərdi yaradıcılıq

qabiliyyətinin məhsulu olan bu incilər, layla, bayatı, oxşama, atalar sözü, tapmaca, məsəl və lətifələr, nağıllar, dastanlar insan ovqatının bədii təsviridir. Bu zəngin xəzinə şifahi xalq ədəbiyyatı olaraq yazılı ədəbiyyatın da yaranma mənbəyi olmuş, güclü sənətkarların, dərin mənalı, dünyəvi əsərlərin yaranmasına bir rəvac vermişdir.

Azərbaycan xalqının yaratdığı bu zəngin xəzinə elə bir ümmandır ki, tükənməz çay çeşməsi kimi çağlayar, elm və axtarış yolunda çabalayanlara yardımçı olar. Folklor nümunələri, ümid və nikbinlik ruhu yaradar, azadlıq arzularına qol-qanad verər, haqqın, ədalətin nə qədər yolu bağlansa da, sonda qələbə qazanacağına ümid verər, tarixi hadisələrin əsil güzgüsü rolunu oynayar, xalqın həyat yolunun müşahidə olunmasında güvənverici qaynağı sayılar. Şifahi xalq ədəbiyyatının – folklorun bu xüsusiyyətlərini böyük rus ədibi M.Qorki belə izah edirdi ki, bu sahəni öyrənmədən zəhmətkeş xalqın tarixini bilmək mümkün deyil. Folklor öz xüsusi yolu ilə hər zaman tarixə yoldaşlıq edir. Bu baxımdan xalqın qəhrəmanlıq tarixini, vətənə, elə-obaya, anaya, qadına olan əsil münasibətin, sevginin də bədii ifadəsini müşahidə edirik. Folklor nümunələri həm də mübarizliyi, düşmənlərə qarşı barışmazlığı, qoçaqlığı, döyüşkənliyi təbliğ edir, əməyə doğma münasibəti, yaşamaq uğrunda iradəli olmağı öyrədir.

Folklor, nəğmələri ilə ruhlandırır, lirikası ilə həvəsləndirir, sözləri ilə ovsunlayır, nağıl və dastanları ilə döyüşkənliyə öyrədir, məsəl və atalar sözləri ilə tərbiyələndirir və həyatı sınaqlara hazırlayır, oxudur, əzizləyir, sığallayır, bir sözlə, yaşadır.

Bu nümunələri, zəngin xəzinənin yaradıcısı mükəmməl bir xalq – azəri türkləri olanda, tarixi salnamələr yaranır. Folklorun təsiri ilə yaranan epos və dastanlarımızın, dünən, bu gün və sabah yaranacaq ədəbi nümunələrimizin də ilham mənbəyidir.

Tədqiqatçılarımız yazılı və şifahi xalq ədəbiyyatı nümunələrinin əlaqəsi ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Yazılı ədəbiyyatın şifahi ədəbiyyatdan istifadəsinə dair fikirləri rus alimlərindən Q.Samarin «Ədəbiyyatın və folklorun birliyi haqqında» əsərində məşhur yazıçı və folklorşünaslardan istinad gətirmiş, yazılı və şifahi ədəbiyyatı eyniləşdirmişdir.

Folklorşünaslıq bir elm kimi XVIII əsrin sonu, XIX əsrin əvvəllərində ortaya çıxmışdır. Bundan xeyli əvvəl bir sıra alim və tədqiqatçılar xalq ədəbiyyatını toplamağa, nəşrə meyl etmişdir. Bunlar pərakəndə halda həyata keçirilmiş bəzi kiçik şərhlər və qeydlərlə kifayətlənmişlər. Bunlar isə folklorun tədqiqinə elə də əhəmiyyətli olmamışdır.

«Folklor» ingilis sözüdür. Xalq, bilik və hikmət mənasını ifadə edir. Bu termini ilk dəfə 1846-cı ildə Vilyams Toms işlətmişdir. Xalqın bilik və hikmətinin «folklor» adı altında toplanması qərinələrin tarixi nümunəsidir. Çünki hər növ bir mövzunun yaşamasına, inkişafına, həqiqətlərin açılmasına xidmət etmişdir. Folklor bir elm kimi tarixlə hər zaman rabitədədir. Xalqın arzu və istəyinin, yasının, toyunun, mübarizəsinin, həyat və məişətinin, ictimai münasibətlərinin bədii güzgüsü

folklordur. Bu baxımdan xalq ədəbiyyatını, folkloru yaxşı öyrənməklə, həmin xalqın tarixini də öyrənmiş oluruq. «Folklorşünaslığın tədqiqində etnoqrafiyanın da böyük əhəmiyyəti vardır. Çünki xalq yaradıcılığında xalqın həyatı, məişəti, adət və ənənələri, mərasim və bayramları öz bədii əksini tapır. Bu səbəbdən xalq əsərlərini yaxşı öyrənmək və doğru araşdırmaq üçün o xalqın etnoqrafiyasını, əsil-nəsilliyini yaxşı bilmək lazımdır. Deməli, xalq yaradıcılığının elmi tədqiqində xalqın tarixini, qövmi xüsusiyyətlərini (etnoqrafiya), dilini və dil tarixini və ləhcələrini və musiqisini də göz önündə tutmağınız lazımdır» (Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1990).

Şifahi xalq ədəbiyyatının xalq tərəfindən hansı amillər əsasında yaranması, inkişafı, təşəkkülü tədqiqatçılar tərəfindən müxtəlif əsaslarla, fikirlərlə izah olunur. Qərb folklorşünasları mifoloji xalq əsatirlərinin ən qədim növ olduğunu irəli sürmüşlər. Alman folklorşünaslarından olan Qrimm qardaşları bu sahə üzrə çox tədqiqatlar aparmışlar. Müxtəlif xalqların folklor nümunələrini nəzərdən keçirmiş, müqayisə etmişlər. Onların qənaətinə görə, xalqların əsatirləri arasındakı oxşarlıq, onların qohumluq əlaqələrinə gətirir. Qrimm qardaşları folklor haqqında fikirlərini «Mifoloji nəzəriyyə» adı altında çatdırmışlar. Bu nəzəriyyənin müəllifləri folklorşünaslığı bir elm kimi bütün dünyaya tanıtmış, dünya elmi baxışlarının diqqətini, xalqların bu mənəvi sərvətinə cəlb etmişlər və beləliklə, xalq ədəbiyyatının toplanmasının və öyrənilməsinin bünövrəsini qoymuşlar.

Qrimm qardaşlarının əqidəsinə görə xalqın əfsanə, əsatir, inanc və ya nağıl kimi yaratdıqları nümunələr ilk dəfə Allahlara həsr olunmuşdu. Onlar müxtəlif xalqların əsatirlərini müqayisəli şəkildə təhlil etmişlər və əsatirlər arasında olan oxşarlığı da qohumluqlarda axtarmışlar.

XIX əsrin ortalarında bir sıra Avropa folklorşünasları Şərqə gəlmiş, buradakı xalqların dil, folklor və ədəbiyyatlarını öyrənməyə başladılar. Bunların tədqiqatı sayəsində məlum oldu ki, Şərq xalqlarının əfsanə, nağıl, dastan və digər nümunələri, Avropa xalqlarının şifahi yaradıcılığı arasında mühüm oxşarlıqlar olduğunu sübut etdilər. Bu oxşarlıqların tədqiqi müxtəlif nəzəriyyələr adı altında araşdırmalar aparmışlar. Bu baxımdan sosialist realizminin banisi kimi tanınan M.Qorki xalq yaradıcılığı sahəsində xeyli araşdırmalar aparmışdı. O, folkloru geniş, sadə, zəhmətkeş kütlələrin bədii-şifahi yaradıcılığı kimi qəbul etmişlər. Onun fikrincə, xalq yalnız maddi sərvətləri yaradan qüvvə deyil, həm də incəsənətin yaradıcısıdır. M.Qorki əsatirləri, təbiət hadisələrini, ümumiyyətlə, təbiətlə mübarizənin geniş, bədii, ümumiləşmiş yolu ilə ictimai həyatın əkslərindən ibarət olduğunu qeyd edirdi. O, yazıçıları, sənətkarları xalq ədəbiyyatından istifadəyə səsləyirdi. «Bütün ölkələrin böyük şairlərinin yaxşı əsərləri lap qədimdən bəri bütün poetik ümumiləşdirmələr bütün şöhrətlənmiş surət və tiplər verilmiş olduğu xalqın kollektiv yaradıcılığı xəzinəsindən götürülmüşdür» (Горький. М. О детской литературе. Москва, Детская литература, 1968).

Azərbaycanda folklorşünaslıq elmi xalq ədəbiyyatı nümunələrinin yazıya alınması, toplanması ilə başlanır. Bundan sonra bu əsərlərin mənşəyi, mövzu və bədii xüsusiyyətləri tədqiq edilir. Tədqiqatla bağlı araya-ərsəyə gələn mülahizə və qeydlər zamanla bir sistem halına düşərək folklorşünaslıq elminin əsasını qoymuşdu.

Azərbaycan xalq ədəbiyyatı nümunələrinin ilk yazıya alınması təxminən XVIII-XIX əsrlərə aiddir. Əlbəttə, bu o demək deyil ki, folklorla ətraf ədəbi aləm bu zamanlarda tanış olmuşdur. Daha qabaqkı əsrlərdə də yaşamış şairlərimiz şifahi ədəbiyyatdan hər baxımdan istifadə etmişlər. Nizami yaradıcılığının istifadə dairəsi ən gözəl nümunədir. Dahi şairin yaradıcılığında xalqımızın şifahi bədii söz xəzinəsindən istifadə olunan nümunələr az deyil. Nümunələrin bu və ya digər formada istifadə olunması, ya cüng kimi qorunub saxlanması xalqımızın tarixi dönəminə ehtiram və sevgidən yaranır. Bu nümunələrin müasir nümunələrlə müqayisəli şəkildə öyrənilib və tədqiq olunması, araşdırılması folklorşünaslar və dilçilər üçün böyük əhəmiyyət daşıyır.

XIX əsr Azərbaycan xalqının həyatında acı bir dövrdür. Bu illərdə parçalanma, dağılma, zülm, istismar dövrü kimi tarixə düşmüşdü. Lakin nə qədər yaşam tərzi sakit olmasa da, xalqın ifaçılığına söz qoşmaq və s. həyat tərzlərinin ədəbi nümunələrdə əks olunması heç dayanmamışdır. Burada acı həqiqətlə yanaşı, doğru həyat hadisələri nə rus çarının istismar siyasəti, nə də İranın sərhəd qadağaları dayandıra bilməmişdir. Xalqın elmi, mədəni inkişafını dayandıra bilməmişdir. Əksinə, bu sıxıntılar xalqın qayğı və dərdlərinin yeni nümunələrdə meydana gəlməsinə səbəb olmuşdur. Anamı baladan, qardaşı bacıdan ayrı salanlara nifrətlərini, kinlərini Arazın üstünə atmışlar. Onu günahlandırmağa ancaq gücləri çatmışdır:

Araz, Araz, xan Araz,
Sultan Araz, xan Araz.
Görüm səni yanasan
Gəl dərdimi qan Araz.
Arazı ayırdılar
Qum ilə doyurdular.
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar. (Bayatılar. Bakı, 1960).

Bütün bu və ya digər səbəblərdən başqa qonşu xalqların mədəni inkişafı digər ölkələrin təsiri və ya sürgün olunan xalqın nümayəndəliyinin təsiri ilə yaranan yeni nümunələr də folklor nümunələrinin inkişafına təşəkkülünə əhəmiyyətli səviyyədə təsir göstərirdi.

Bundan başqa xalqın elmi sahədə əməyi olan ziyalı və alimləri rus dilini və mədəniyyətini öyrənərək, həm Avropa mədəniyyəti ilə tanış olmuşlar, bir tərəfdən də Azərbaycan və Qafqaza sürgün edilən qabaqcıl rus ictimaiyyətinin nümayəndələri dekabristlər, Puşkin, Lermontov və s. kimi şairlərin təsiri ilə yaranan şifahi xalq ədəbiyyat nümunələri də zəngin xəzinənin formalaşmasında böyük əhəmiyyət kəsb

edir. Rus yazarları da Azərbaycan şifahi xalq ədəbiyyatının nümunələrindən bəhrələnmiş, öz əsərlərində istifadə etmişlər.

Bu ənənə hər zaman davam etdirilir. Hələ keçən əsrin son illərində 1890-cı ildə A.D.Yeritsov 114 Molla Nəsrəddin lətifəsini çap etdirmişdi. XIX əsrdə folklorun bütün növlərinə aid nümunələr: atalar sözləri, tapmacalar, əfsanələr, lətifələr, nağıllar və s. toplanmış rus mətbuatında çap olunmuşdur.

XIX əsr Azərbaycan mətbuatını nəzərdən keçirsək, nağıl nümunələrinin digər xalq ədəbiyyatı növlərindən daha çox toplanıb nəşr edildiyini görərik. Nağıl xalqlar içərisində daha çox yayılan, seçilən, söylənən, maraq doğuran və diqqəti cəlb edən bir sahə olduğu üçün toplayanlar da ilk dəfə bu növə müraciət etmişlər. Bu baxımdan 1825-ci ildə ilk dəfə Azərbaycan nağılı rus dilində çap edilmişdir. Sonralar rus dilində bir neçə qəzet, məcmuə və jurnallarda «Məlik Məhəmməd», «Məlik Cəmşid», «Şah Rüstəm», «Şah Qəmbər» kimi nağıllar çap olunmuşdu. Göyçay kənd məktəbində müfəttiş işləmiş Nikolay Kalaşov «Novruz», «Sövdəgər Əhməd», «Əlimxan», «Məlik Məhəmməd», «Yalançı Şahzadə» və s. adlı kiçik nağılları toplamışdı.

XIX əsr rus mətbuatında ən çox çap olunan «Koroğlu» dastanı olmuşdur. Azərbaycana gəlmiş səyyah və tarixçilərin diqqətini cəlb etmişdir, müəyyən hissələrini çapa vermişlər. Azərbaycanın da ziyalı cəmiyyəti də bu sahə də müəyyən çabalar göstərmişlər. Nəbati, Zakir, Bakıxanov, Vəzirov, Şirvani, Zərdabi, M.F.Axundov, H.M.Qayıbov və digərləri folklor nümunələrini toplamış, amma çap etdirə bilməmişlər. İmkanları olmamışdır. 1875-ci ildən sonra bu sahədə «Əkinçi»nin və «Kəşkül»ün böyük rolu olmuşdur. «Kəşkül» qəzeti öz səhifəsində xüsusi guşə ayırmışdı ki, burada folklor nümunələrini təqdim edirdi.

H.Zərdabi ömürboyu şifahi xalq ədəbiyyatı nümunələrini toplamışdı. O, bunu hamıya tövsiyə edirdi. Bu məqsədlə Azərbaycanda fəaliyyət göstərən məktəblərin müəllimlərinə məktublar göndərirdi, onları el mahnılarını toplamağa sövq edirdi. Bu mahnılarda elmə, təhsilə, tərəqqiyə çağırış, həvəsləndirmək var idi. Zərdabi topladığı mahnıları 1901, 1903, 1909-cu illərdə çap etdirmişdi. Çap olunan kitabların əvvəlində «Hər kəsi çağırıram gəlmir, deyirəm, eşitmir, göstərirəm, görmür» fikrini qeyd edirdi. Zərdabiyə görə mahnılar insanları daha çox düşündürər, müştərək amal uğrunda birləşdirər. O fikirlərini «Əkinçi» qəzetində çap olunan məqalələrinin birində belə ifadə edirdi ki, başımıza açılan müsibətlər barəsində məqalələr yazın, toplanmış mahnıları aşıqlar oxusun, əhalini məlumatlandırsın, savadlandırsın. Onun çağırışına S.Ə.Şirvani, A.səhhət, M.Ə.Sabir də qoşulmuşdur.

H.Zərdabi xalq sənətinə, xalq yaradıcılığına böyük önəm vermişdi, onun bədii-estetik, məfkurəvi əhəmiyyətini dəyərləndirmiş, çox qiymətli müxtəlif fikirlər söyləmişdir: «Hər tayfanın vətəndaşlıq və millətinin keçmişdə olan yaman-yaxşı günlərini şərh edən mahnıları olur ki, bu mahnılar ağızdan-ağıza düşüb birləşdirməyə bais olur» (H.Zərdabi. Türk nəğmələrinin məcmuəsi, Badukubə, Qubetnski upravleniyanın mətbəəsi, 1900).

XX əsrin əvvəllərində baş verən ictimai-siyasi hadisələr və inqilablar xalqda, xalq ədəbiyyatına olan marağı artırmışdı. Bu dövrdə təlim-tərbiyə mütəxəssisləri ilə birlikdə şair və yazıçılar da böyük maraq göstərirdilər. Yazılı ədəbiyyatın nümayəndələri folklordan öz pedaqoji fikirlərini yaymaq üçün istifadə edirdilər. Artıq şifahi xalq ədəbiyyatını sadə xalq dilinin və ana dilinin əsası hesab edirdilər, hər yerdə bu mənbədən qürurla istifadə etməyə çalışırdılar. Getdikcə bu sahədə müəyyən uğurlar qazanırdılar. Folklor nümunələri həm mətbuatda, həm də ayrı-ayrı kitablar halında çap edilirdi. «Molla Nəsrəddin», «Məktəb», «Dəbistan», «Rəhbər» jurnallarının səhifələrində xalq ədəbiyyatı nümunələrinə geniş yer verilirdi. «Milli nəğmələr», «Məlik Məhəmməd» nağıllar məcmuəsi, «Arvad ağısı», «Mahnılar», «Şeyx Bəhlul lətifələri» və s. kitablar da çap olunurdu.

Bu illərdə R.Əfəndiyevin, F.Köçərlinin, A.Şaiqin, A.Səhhətin, M.Mahmudbəyovun tərtib etdikləri dərs vəsaitlərinə folklor nümunələri də salınmışdır. 1898-ci ildə S.Əbdürrəhmanbəyovun topladığı nağıllar «Tatar uşaq nağılları» adı ilə çap olunmuşdu. S.M.Qənizadə və M.Mahmudbəyov 26 may 1896-cı ildə qubernatora «Nübar» adlı jurnal çıxarmaq haqqında müraciətdə uşaqlar üçün faydalı qiraət kitablarına ehtiyac olduğunu, uşaq nağılları, təmsillər, tapmacalar çap edəcəklərini göstərirdilər. Bu illərdə «Nicat» qəzeti də müəyyən işlər görməyə çalışırdılar.

F.Köçərli Azərbaycan ədəbiyyatı tarixində böyük rol oynamış bir şəxsiyyətdir. O, qabaqcıl, maarifpərvər müəllim, pedaqoq, folklor toplayan və bu sahədə çalışmaları zəngin və hərtərəfli, nəzəriyyə sahibi və ədəbiyyat tarixçisi idi. O, ilk dəfə ədəbiyyat tariximizə dair geniş miqyasda materiallar toplayıb tərtib etmiş və elmi-tənqidi fikirlər söyləmişdir. O, xalq ədəbiyyatını xalqın sərmayəsi adlandırmışdı. Folklorun təlim-tərbiyə üçün əhəmiyyətini qiymətləndirirdi: «O millət ki, öz tarixini, dolanacağını, vətənini və dilini sevir, bu qisim əsərləri kəmali-şövq və diqqətlə cəm edib, ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim-tərbiyəsinə onları oxumaqla başlayır» (F.Köçərli. Seçilmiş əsərləri. Bakı, Azərbaycan EA nəşriyyatı, 1963).

Bundan başqa onun əhəmiyyətli əməyi «Balalara hədiyyə» adlı kitabı idi. 1912-ci ildə hazırlanan bu kitab böyük bir hadisə kimi qarşılandı. S.Hüseyn kitabı Qafqazda birinci kitab adlandırmışdı: «Bizi kəndimizə tanıtdırır və keçmişimizə qarşı bizdə milli bir duyğu oyadır» (Kazımoğlu S.Hüseyn. balalara hədiyyə və ya Qafqazda birinci kitab. İqbal qəzeti, 1913, 23 may).

«Xüsusən, əsrimizin əvvəllərində mətbuat sahəsində əldə edilmiş geniş imkanlar folklor materiallarının daha çox toplanmasına maraq yaradır, onları kütləviləşdirirdi. Diqqəti belə bir cəhət xüsusilə cəlb edirdi ki, bu illərdə folklor əsərlərinin toplanmasında, həm də məqsəd və sistem aydınlığı gözə çarpmaqda idi» (Vəlixanov V. Azərbaycan maarifçi-realist ədəbiyyatı. Bakı, Elm, 1983).

F.Köçərli kimi ömrünü folklor nümunələrini toplamaqla keçirənlərdən biri də R.Əfəndiyev idi. O, keçən əsrin sonlarında bir çox xalq əfsanələri, xalq etiqadı, adət-

ənənələri və hətta xalq təbabətinə aid bir çox maraqlı məlumatları toplayıb rus mətbuatında çap etdirmişdir. Görkəmli şair və maarif xadimi A.Səhhətində bu sahədə müəyyən əməyi vardır. O, xalq ədəbiyyatı haqqında müxtəlif fikirlər irəli sürmüşdür. O, xalq ədəbiyyatını müntəzəm toplamaqla məşğul olmuşdur. Eyni zamanda tələbələrinin və müəllimin köməyi ilə (Şəfiqə x. Əfəndiyeva) bir çox nağıllar, minəqədər atalar sözü, altı yüz tapmaca, min bayatı toplaya bilmişdilər. Bu işi uzun müddət davam etdirmiş və 1928-ci ildə çap etdirmişdir. O, xalq yaradıcılığı haqqında «Dilimiz və ədəbiyyatımız» adlı məqaləsində yazırdı: «Məişətimizin aynası olan hədsiz-hesabsız bayatı, şikəstələrimiz, məsəllərimiz, tapmacalarımız ürəkləri ən dərindən çırpındıran, ruhları səmalardakı şəfəqlərə qədər yüksəldən mahnılarımız, nəğmələrimiz qibtə ediləcək səadətlərdən deyilmi?» (A.Şaiq. Seçilmiş əsərləri. Bakı, Gənclik, 1984).

Hənəfi Zeynallı təşkil olunmuş cəmiyyətdə folklor üzrə sədr olmuş, folklorun müxtəlif növlərini toplamaqla məşğul olmuşdur. 1926-cı ildə «Azərbaycan atalar sözləri - məsəlləri» kitabı nəşr etdirmişdi. 1927-ci ildə «Azərbaycan tapmacaları» kitabını çap etdirmişdi. O, tapmacalar haqqında Avropa və Rusiyada çıxan kitabları toplamış, araşdırmış, tərtib üsulunu yoxlamış və hamısından istifadə etmişdir.Hənəfi Zeynallı həm də şifahi xalq ədəbiyyatını mənsur (nağıllar, dastanlar, qaravəllilər, təmsillər, əfsanələr, tapmacalar, atalar sözləri və mənzum (bayatı, mahnı, ağı,bağlama, beşikbaşı, meyxana, tərifnamələr) növə bölmüşdür.

Y.V.Çəmənzəminli də bu sahədə müəyyən çabalar göstərmişdi. O, bu sahənin gözəl mütəxəssislərindən sayılır. İlk yaradıcılığa başlayanda «Məlik Məhəmməd» nağılını çap etdirmişdi. O, «Xalq ədəbiyyatının təhlili» başlığı altında yazdığı bir sıra məqalələrində xalq ədəbiyyatının mənşəyi, yazılması, folklorda olan müxtəlif surət və mövzulardan bəhs edir. Məqalələrində Azərbaycan xalqının adət-ənənələrinə, zərdüştlüklə əlaqədar, xüsusilə, novruzla bağlı olan bir sıra mərasimlərə aydınlıq gətirmişdi. O, həm də xalq ədəbiyyatının toplayıcısı idi.

Folklor sahəsində Salman Mümtaz da böyük işlər görmüşdü. Ömrüboyu folklor nümunələr toplamış, redaktə etmiş və çap etmişdi. Azərbaycanın tarixini yaşadan, xalqın dünyagörüşünü, ruhi xüsusiyyətlərini və bədii təfəkkürünü öyrənmək işində gözəl və qiymətli mənbəni, böyük bir xəzinəni S.Mümtaz qoyub getmişdir. Bu xəzinə yazıçı və şairlərimizə istinad nöqtəsi, Azərbaycan xalqının dünyagörüşünü, ruhi xüsusiyyətlərini və bədii təfəkkürünü öyrənmək işində gözəl və qiymətli mənbədir. Həqiqətən də yazıçılar xalqdan ideya istiqaməti götürmüş və götürür. «Ədəbi üslubların yaranmasında, müəyyənləşməsində, formalaşmasında folklorun böyük rolu olmuşdur. Şifahi ədəbiyyata məftunluq, ondan istifadə, sonralar həmin ədəbiyyatın özünün də inkişafına təsir göstərir» (Xəlilov Z. Azərbaycan sovet uşaq poeziyası və folklor (namizədlik dissertasiyası). Bakı, 1973).

Vətən ilə xalq məhəbbətinin mayası şifahi ədəbiyyatdır. Yazıçıların şifahi xalq yaradıcılığına marağı onların vətənə, xalqa nə dərəcədə və necə bağlı olması ilə sıx əlaqədardır. «Şifahi ədəbiyyatdan istifadə təsadüfi, yaxud hər hansı bir yazıçının

öz şəxsi arzusu olmayıb, qanunauyğun inkişafın nəticəsidir» - fikrini bir daha yada salmaqla, bu fikri bir daha təsdiqləyirik ki, xalq yaradıcılığı həm yaranıb, həm inkişaf edib, həm də yaradıcılığının gücü ilə görkəmli ziyalıların yetişməsinə təsir göstərib. Xalqının acısı ilə kədərlənib, şirini və xoş günü ilə sevinib, bütün həyatını bu işə sərf etmiş yüzlərlə Azərbaycan yazıçısı, şairi, ziyalısı vardır.

Dünya ədəbiyyatı tarixində öz sözünü demiş, görkəmli şəxsiyyətləri ilə öz dağını yaratmış Azərbaycan ədəbiyyatında sənət, şeir, xalq sənəti, xalq şeiri ilə yanaşı durur. Azərbaycanın zəngin ədəbi xəzinəsində dastanların genişliyi, atalar sözü və məsəllərin müdrikliyi, lətifələrin oynaqlığı, şuxluğu, qoşmaların əlvanlığı, tapmacaların, yanıltmacların sadəliyi, dərinliyi, laylaların zərifliyi, atmacaların kəskinliyi və s. mənəvi dəyərlərin ali xüsusiyyətləri hər zaman özünü göstərir. Dəyərli oxusu, ədəbi nümunələri və xalqın illərlə həyat aləmində min cür sınaqlardan çıxmış şifahi xalq nümunələrinin köməyi ilə ağı qaradan, pisi yaxşıdan, əyrini düzdən ayırmağı fərqləndirməyi öyrənməklə bərabər, estetik tərbiyə və həyatı idrak vasitəsi, tərəqqi və demokratiya uğrunda mübarizədə işıqlı yol, istiqamət, müasir zamanın açarını əldə etməklə yardımçı olmuşdur.

Baba, nənələrimizin tale yolunu müəyyənləşdirən, dərin iztirablardan çıxmış bu xalqın mübarizəsinin, qələbəsinin, uğurun salnaməsinə çevrilmiş şifahi xalq ədəbiyyatı nümunələri olmuşdur.

## Ədəbiyyat


1. Azərbaycan folkloru. Bakı, Şərq-Qərb, 2005.
2. Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı. Tehran, 1988.
3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1981.
4. İmanov M. Xalq gülüşünün poetikası. Bakı, 2006.
5. Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq əfsanəsi. Bakı, 2009.
6. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı, Gənclik, 1988.
7. Vurğun S. Balalarımız üçün gözəl əsərlər yaradaq. Əsərləri, VI cild. Bakı, Elm, 1972.


## Azərbaycan uşaq folklorunun əsas xüsusiyyətləri

## Xülasə


Folklor – xalq biliyi, xalq yaradıcılığı, xalq hikməti olaraq, bədii söz sənətinin mühüm bir sahəsidir. Bu ümmanın inciləri yeni yaranacaq hər növ ədəbiyyata öz təsir gücünü göstərir. İnsanın əmək fəaliyyəti, xeyri, şəri, uğuru, zəhməti, sevinci, göz yaşı bir duyumla, bir nəğmə və ya bir musiqi növü, şeir parçası ilə ifadə olunmuşdur. Bu layladır, oxşamadır, nağıldır, holavardır, dastandır. Məna etibarı ilə folklor xalq hikməti, xalq biliyi, xalq yaradıcılığı, xalq dühasıdır. Bu bəstəkarsız, şairsiz, dərin mənaya malik, kollektiv yaradıcılıq xəzinəsi, öz ümumbəşəri ideyalarını itirməyən, hər zaman xalqın mədəni-mənəvi aləminin kimliyi sayılan bir

sahədir. Xalqın bilik və hikmətinin “folklor” adı altında toplanaraq, qərinələrin tarixini, yaşam tərzini, qəhrəmanlığını, humanistliyini özündə əks etdirən bir sahədir.

Azərbaycan xalqının yaratdığı bu zəngin xəzinə elə bir ümmandır ki, tükənməz çay çeşməsi kimi çağlayar, elm və axtarış yolunda çabalayanlara yardımçı olar. Şifahi xalq ədəbiyyatının – folklorun xüsusiyyətlərini böyük rus ədibi M.Qorki belə izah edirdi ki, bu sahəni öyrənmədən zəhmətkeş xalqın tarixini bilmək mümkün deyil. Folklor öz xüsusi yolu ilə hər zaman tarixə yoldaşlıq edir. Bu baxımdan xalqın qəhrəmanlıq tarixini, vətənə, elə-obaya, anaya, qadına olan əsil münasibətin, sevginin də bədii ifadəsini müşahidə edirik. Folklor nümunələri həm də mübarizliyi, düşmənlərə qarşı barışmazlığı, qoçaqlığı, yaşamaq uğrunda iradəli olmağı öyrədir.

Folklor, nəğmələri ilə ruhlandırır, lirikası ilə həvəsləndirir, sözləri ilə ovsunlayır, nağıl və dastanları ilə döyüşkənliyi öyrədir, məsəl və atalar sözləri ilə tərbiyələndirir və həyatı sınaqlara hazırlayır, oxudur, əzizləyir, sığallayır, bir sözlə, yaşadır.

Tədqiqatçılarımız yazılı və şifahi xalq ədəbiyyatı nümunələrinin əlaqəsi ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər.

Azərbaycanda folklorşünaslıq elmi xalq ədəbiyyatı nümunələrinin yazıya alınması, toplanması ilə başlanır. Tədqiqatla bağlı araya-ərsəyə gələn mülahizə və qeydlər zamanla bir sistem halına düşərək folklorşünaslıq elminin əsasını qoymuşdu.

**Açar sözlər:** folklor, zəngin xəzinə, şifahi xalq yaradıcılığı, xalq dühası, xalq hikməti.

**Гафарова Самангюль Гюсю гызы**
**Бакинский славянский университет**

**Главные особенности азербайджанского детского фольклора**

Фольклор – как народное знание, народное творчество, народная мудрость, является важной отраслью искусства художественного слова. Жемчужины этого океана оказывают свое влияние на все виды литературы, которая только зарождается. Трудовая деятельность человека, его добро, зло, успех, труд, радость, слезы выражались чувством, песней или музыкальным жанром, стихотворным произведением. Это колыбельная, притча, сказка, холавар, эпос. По смыслу фольклор – это народная мудрость, народное знание, народное творчество, народный гений. Это область без композитора, без поэта, с глубоким смыслом, сокровищница коллективного творчества, не утрачивающая своих универсальных идей, всегда считающаяся самобытностью культурно-духовного мира народа. Знания и мудрость народа собраны под названием «фольклор» и представляют собой область, отражающую историю, образ жизни, героизм и гуманизм столетий.

Это богатое сокровище, созданное азербайджанским народом, - такой океан, который звенит, как фонтан неиссякаемой реки, помогает тем, кто стремится к науке и поискам. Особенности устной народной литературы – фольклора великий русский литератор М.Горький объяснял, что без изучения этой области невозможно узнать историю трудящегося народа. Фольклор всегда сопровождает историю своим особым образом. С этой точки зрения мы наблюдаем героическую историю народа, художественное выражение истинного отношения к родине, к матери, к женщине, любви. Фольклорные примеры также учат борьбе, бескомпромиссности по отношению к врагам, упрямству, воле к выживанию.

Фольклор своими песнями, лирикой вдохновляет, словами очаровывает, сказками и былинами учит воинственности, пословицами и поговорками воспитывает и готовит жизнь к испытаниям, читает, балует, ласкает, словом, живет. Наши исследователи выдвинули различные мнения относительно соотношения образцов письменной и устной народной литературы.

Наука-фольклористика в Азербайджане начинается с написания, сбора образцов народной литературы. Общие рассуждения и записи об исследовании со временем превратились в систему, заложившую основу фольклористики.

**Ключевые слова: фольклор, богатое сокровище, устное народное творчество, народный гений, народная мудрость**

**Gafarova Samangul Husu**
**Baku Slavic University**

## THE MAIN FEATURES OF AZERBAIJANI CHILDREN'S FOLKLORE

Folklore – as folk knowledge, folk art, folk wisdom, is an important branch of the art of the artistic word. The pearls of this ocean have their influence on all kinds of literature that is just emerging. A person's labor activity, his good, evil, success, work, joy, tears were expressed by a feeling, a song or a musical genre, a poetic work. This is a lullaby, a parable, a fairy tale, a holavar, an epic. In the sense of folklore is folk wisdom, folk knowledge, folk art, folk genius. This is an area without a composer, without a poet, with a deep meaning, a treasure trove of collective creativity that does not lose its universal ideas, always considered the identity of the cultural and spiritual world of the people. The knowledge and wisdom of the people are collected under the name "folklore" and represent an area reflecting the history, lifestyle, heroism and humanism of centuries.

This rich treasure created by the Azerbaijani people is an ocean that rings like a fountain of an inexhaustible river, helping those who strive for science and research. The great Russian writer M. Gorky explained that without studying this area it is impossible to learn the history of the working people. Folklore always accompanies history in its own special way. From this point of view, we observe the heroic history

of the people, the artistic expression of the true attitude to the motherland, to the mother, to the woman, love. Folklore examples also teach struggle, uncompromising attitude towards enemies, stubbornness, the will to survive.

Folklore inspires with its songs, lyrics, charms with words, teaches militancy with fairy tales and epics, educates and prepares life for trials with proverbs and sayings, reads, pampers, caresses, in a word, lives. Our researchers have put forward various opinions regarding the ratio of samples of written and oral folk literature.

The science of folklore studies in Azerbaijan begins with writing, collecting samples of folk literature. General reasoning and research notes eventually turned into a system that laid the foundation for folklore studies.

**Keywords:** folklore, rich treasure, oral folk art, folk genius, folk wisdom

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: prof. R.K. Rəsulov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**Z.N.NURİYEVA**
**BDU-nun dosenti**
**zoya.nuriyeva@mail.ru**

# XX ƏSRIN 80-90-CI ILLƏRINDƏ BOLQARISTAN HAKIMIYYƏTININ ETNIK AZLIQLARIN MƏDƏNIYYƏTINƏ QARŞI TƏCAVÜZKAR SIYASƏTI

Bəhs olunan dövrdə Bolqarıstanda etnik azlıqlara qarşı müxtəlif təyziqlər olmuş dövlətin, kommunist rejiminin onların hüquqlarını kobudcasına pozması müqabilində böyük gərginliklər yaranmışdı. 50-ci illərdə SSRİ-nin dəstəyi və köməyi ilə hakimiyyətə gələn Bolqarıstan Kommunist partiyasının fəaliyyəti dövründə türk əsilli azlıqların bolqar xalqı ilə inteqrasiya problemi daha da sərtləşmişdi. Türklərin, qaraçıların assimilyasiyası istiqamətlərində ilk addımlar 70- ci illərin əvvəllərindən 80-ci illərin sonlarına qədər davam etmişdir. Bu əsasən zorla bolqar adlarının və onların adət- ənənələrinin qəbul edilməsi kimi təzyiqlərə gətirib çıxarmışdı. Belə təzyiqlər müxtəlif dövrlərdə bolqar türklərinin köçlərə məruz qalmasına səbəb olması nəticəsində əhalinin sayı xeyli azalmış, bu imkandan istifadə edə bilməyənlər isə müxtəlif zülmlərə tab gətirərək assimilyasiyaya uğramışlar. Demək olar ki, BKP hakimiyyətdə olduğu 50 ilə yaxın bir dövr ərzində türk və ya digər etnik azlıqlar öz azadlıqlarından məhrum olmuşlar.(6, 37)

Bolqarıstanda "azlıq" anlayışı deyiləndə ilk növbədə türklər nəzərdə tutulur. Lakin türklərlə yanaşı qaraçılar və onlarla digər etnik azlıqlar da mövcud idi. Oğuz türkləri Anadoludan əsasən də Osmanlı dövründə həmin bölgəyə köçmüşdülər. BKP MK-nin birinci katibi Todor Jivkov ilk dəfə 1977-ci ilin dekabr ayında gənc yazıçıların konfransındadissidentlik haqqında söz açmışdı.(1, 709) 80-ci illərin əvvələrindən isə onun başçılıq etdiyi hökumət mövcud vəziyyətdən çıxış yolunu, "türk məsələsini" həll edərkən onların etnik və dini xüsusiyyətlərinin silinməsi kimi daha ifrat təzyiqlərə əl atmışlar. Hökumətin assimilyasiya istiqamətində son dərəcə vacib addımı etnik türklərin, eyni zamanda qarışıq nigahdan doğulanların adlarının dəyişdirilməsi olmuşdu. Ona görə də 1982-ci ildən belə nigahlardan doğulan uşaqlar yalnız bolqar adları ilə qeydiyyata alınırdılar. T.Jivkov belə qərara gəlir ki, artıq ölkənin bütün türk əhalisinin adlarının dəyişdirilməsinin vaxtı çatıbdır. 1984-cü ilin sonu 85-ci ilin əvvəllərində ölkədə yaranmış böhran, kütləvi zorakılıq tədbirləri, qeyri bolqar adlarının bolqar adları ilə dəyişdirilməsi kampaniyası nəticəsində 850 min nəfər adlarını dəyişdirmək məcburiyyətində qalmışdı. 1984-cü ildə Bolqarıstanda terror hadisəsi baş verdi. Sübut olmasa da terror aktlarının müsəlman əhalisinin zorakı assimiliyasiyasından narazı olan qüvvələrin törətdiyi ehtimal olunurdu. Elə həmin ildə hökumət tərəfindən bəyan edildi ki, Bolqarıstanın bütün türk əsilli müsəlman əhalisi etnik bolqar kökündəndir və onlar Osmanlıların

hakimiyyəti dövründə zorla islamlaşdırılmışdır. Odur ki, millətin bərpa prosesinə kömək məqsədilə müsəlmanlar öz slavyan adlarını qəbul etməyə borcludurlar.

Türk azlıqlarına qarşı göstərilən təzyiqlər 1984-cü ildə son həddinə çatmışdı. Onların çoxluq təşkil etdiyi kəndlərə tez-tez hücumlar edilirdi. Azlıqların müqavimət göstərməsinə baxmayaraq onlara öz ana dilində danışmaq qadağan edilir, ibadət yerləri bağlanılır, dəfn və digər mərasimlərin keçirilməsinə məhdudiyyətlər qoyulurdu. Türk dilindəki nəşrlər, radio verilişləri ləğv edilir, şəhər və kəndlər bolqar adları ilə əvəz olunur "türkdilli müştərilərə xidmət etmirik" şüarları səsləndirilirdi. Milis və təhlükəsizlik orqanlarının əməkdaşları da türkləri təqib edir, kitabxana və kitab mağazalarından türk dilindəki ədəbiyyatları müsadirə edirdilər. Bolqar türklərinin hakimiyyətin assimilyasiya siyasətinə qarşı müqaviməti toqquşmaya səbəb olurdu. (1, 710) Genişlənən haqsızlıqlar nəticədə müqavimət hərəkatının artmasına gətirib çıxarırdı. Ölkənin müxtəlif əyalətlərində ardı-arası kəsilmədən keçirilən nümayişlərdə türk azlıqları öz etirazlarını bildirirdilər. İnsan haqlarının pozulmasına qarşı ən böyük nümayiş 1984-cü il dekabr ayının 24-də Kircaalı vilayətinin Egridere mahalının Sütkesiyirayonunda keçirilmişdi. Təəssüflər olsun ki, dinc nümayişə qarşı polis və əsgərlərin qəddar yanaşması nəticəsində xeyli sayda insan yaralanmış və həyatını itirmişdi. (9. 224) Hadisələrin getdikcə genişlənməsindən qorxuya düşən hökumət dekabr ayının 27-də nümayişə rəhbərlik edən türk ziyalılarını, gənclərini həbs edərək Belene düşərgəsinə göndərdilər. Həbs olunan ziyalılara işgəncə verməklə assimilyasiya kompaniyası çərçivəsində onlara törədilmiş cinayətləri etiraf etmək, türk adlarından imtina etmək və digər təzyiqlər göstərirdilər. Lakin 1987-ci ildə bu düşərgə fəaliyyətini dayandırdıqdan sonra türk ziyalılarını ölkənin müxtəlif bölgələrinə sürgün edirdilər.

1985-ci ilin dekabr ayında müsəlman əhalisinin yaşadığı rayonlarda əhalinin siyahıya alınması keçirilməli idi. Lakin bununla bağlı hələ bir il əvvəl qeyri – bolqar adlarının bolqar adlarına dəyişdirilməsində belə nəticəyə gəlmişdilər ki, Bolqarıstandakı müsəlman əhali etnik olaraq bolqarlardır. (4, 168-169) Bundan sonra ölkə rəhbərliyi 1987-ci ildə islahatların yeni paketini hazırladı. İslahatdakı natamamlıq həyatın bütün sahələrindəki dəyişiklikərin qarşısını ala bilmədi. Bolqar türklərinə qarşı dövlət səviyyəsində tətbiq edilən milli ayrı seçkilik siyasəti kommunist rejiminin dağılmasını sürətləndirdi. T. Jivkov başda olmaqla partiya və dövlət rəhbərliyi ölkədə demokratik yeniləşdirməyə hazır olmadıqlarını sübut etdirdi. (1, 710) 1989-cu ilin may ayının sonlarında ATƏM-in Paris konfransının işə başlaması ərəfəsində bolqar müsəlman liderlərinin bir qrupu ölkədə müsəlmanların hüquqlarının pozulmasına etiraz olaraq aclıq elan etdilər. Eyni zamanda Vətən cəbhəsi tərəfindən açıq şəkildə təşkil edilmiş millətçi nümayişlər və Bolqarıstan əhalisinin böyük bir hissəsinin türklərə qarşı düşmənçilik münasibətləri ölkənin imicinə ağır zərbə vurdu. T. Jivkov da bəyan etdi ki, Türkiyəyə üstünlük verən etnik türklər ölkəni tərk edə bilərlər. Nəticədə 344 min türk Bolqarıstanı tərk etdi. 1989-cu il avqust ayının 21-də Türkiyə sərhədyanı bölgələrdə toplanmış çoxlu sayda

mühacirləri qəbul edib yerləşdirmək iqtitardında olmadıqlarından sərhədləri "müvəqqəti" bağlamaq məcburiyyətində qaldı. Demək olar ki, Bolqarıstan- Türkiyə münasibətləri ifrat həddə çatdı. Ölkədə yaranmış böhranın dərinləşməsi T.Jivkovun hakimiyyətinin başa çatması ilə nəticələndi. 1989-cu il noyabrın 10- da T. Jivkov BKP MK-nin Baş katibi və Dövlət Şurasının Sədri vəzifəsindən istefa verdi. (8, 168) Bunun nəticəsidir ki, 1984-1989-cu illər ərzində T. Jivkovun rəhbərlik etdiyi rejimin türk müsəlman azlıqlarına qarşı assimilyasiya siyasətini Bolqarıstan 22 il sonra etiraf etmişdi. Bolqarıstan parlamenti 11 yanvar 2012-ci ildə həmin illərdə müsəlmanlara qarşı etnik təmizləmə kompaniyasını pisləyən bəyannamə qəbul etmişdi. Yeni hökumət Bolqarıstandakı türklərə türk adları, türkcə danışmaq hüququ, ibadət azadlığı vəd edirdi. Bu sənəd Bolqarıstan dövlətinin türklərə qarşı apardığı assimilyasiya kompaniyasında rəsmən qəbul edilən ilk sənəd olmuşdu. (9, 197).

Beləliklə 1989-cu ilə qədər davam edən repressiyalar nəticəsində və həmin ildə devrilən kommunist rejimi hökuməti sərhədləri açmağa məcbur etdi. Eyni zamanda Türkiyə sərhədləri də soydaşlarının üzünə açıldı. 1990- cı ilin sonunadək Türkiyəyə 360 min nəfər köçmüşdü. Ölkəni tərk edən türk azlıqları avropanın müxtəlif ölkələrinə getməklə bərabər əksəriyyəti Türkiyədə məskunlaşırdı. Bolqarıstan Türkiyə ilə aralarında baş verən qarşıdurmada təcrid olmaq təhlükəsi ilə qarşılaşdığını bilərək yaranmış vəziyyətdən çıxış yolunu beynəlxalq aləmdə itirilmiş nüfuzunu artırmaqda görürdü. Həm də türk etnik azlıqlarının hüququnu tanımağa məcbur olaraq Türkiyə ilə münasibətləri bərpa etməli idi. Bolqarıstanda yaşayan türk azlığı isə ikitərəfli əlaqələr baxımından önəmli rol oynamaqla bərabər həm də iki ölkənin münasibətlərində müəyyənedici amil olmuşdu.(3,97)90-cı illərdə Bolqarıstanda türk azlıqlarının hüquqlarının müdafiəsi çərçivəsində iki ölkə arasındakı əlaqələr mühacirlərin məskunlaşdırılması və şəxsi azadlıqlarının təmin edilməsinin həyata keçirilməsi ilə bağlıdır. Qərblə yaxınlaşma prosesində azlıqlara verilən hüquqlarla bağlı qanunlarda ilk növbədə Təhsil, Dini Etiqad Azadlığı, Ayrı Seçkiliyin Qadağası və s. sahələrə yenidən baxılmalıdır.(7, 143)

Bolqarıstanda etnik azlıqların yaşadığı yerlərdə iqtisadi problemlərin yaranması işsizliyin artmasına səbəb olmuşdur. Ona görə də, bolqar türktərinin, əsasən də gənclərin iri şəhərlərə , xüsusilə də Qərbi Avropaya mühacir etməsi halları çoxalmışdı. Bolqar türklərinin yaşadığı problemlərdən biri də dini azlıqlarla bağlıdır. Bolqarıstan respublikasının resmi dini pravoslav dini olduğu üçün məktəblərdə xristian dini tədris olunurdu. Eyni zamanda türk müsəlman azlıqlarının çoxluq təşkil etdikləri bölgələrdə islam dini dərsləri də keçirilirdi. Amma müsəlman azlıqlarına dini dərsləri tədris edən müəllimlər dövlətdən heç bir maliyyə dəstəyi almayan Baş Müftilik tərəfindən maliyəlşirdi. Deməli türk azlıqların ən mühüm problemi iqtisadi həyatla bağlı olmaqla, şəhər və kəndlərdə yaşayanların şəraiti, siyasi proseslərdə iştirakı, yaşadıqları bölgələrə sərmaye qoyulmaması, sosial haqları, iqtisadi gerilik, türk təhsili, türk müəllimlərinin, dini məmurların sərişтəsizliyi ilə bağlıdır. (2, 315)

1991-ci ildə qüvvəyə minən Bolqarıstan Konstitusiyasının bəzi maddələrinə nəzər salsaq orada azlıqlarla bağlı məsələlərə də toxunulmuşdur. Doğrudur burada vətəndaşların qanun qarşısında hüquqlarının bərabər olması hər kəsin öz mədəniyyətinin inkişaf etdirilməsi, heç kimin məcburi assimilyasiyaya məruz qalmaması, azlıqların da öz dillərini istifadə etmələri və s. kimi məsələlər maddələrdə göstərilmişdi. Konstitusiyada azlıq anlayışı yer almasa da təhsil, siyasət, din sahələrində onların hüquqları ilə əlaqələndirilən müxtəlif tənzimləmələr mövcuddur. (5, 160) Lakin yeni parlamentdə azlıqaların hüququnu məhdudlaşdırmaq istəyən siyasi strukturlar səs çoxluğu əldə etdiklərinin müqabilində öz mövqelərini göstərə bilərlər. Elə bunu nəzərə alaraq qeyd edilməlidir ki, konstitusiyada mühüm məsələlərin həllində milli azlıqlar qeyd edilməmişdir. Azlıqların dini hüquqlarının tanınmasına baxmayaraq dini qurumlardan siyasi məqsədlər üçün istifadə edilməsi qadağan edilmiş, milli azlıqların hüququndan isə heç nə göstərilməmişdir. Amma ana dili bolqar olmayan vətəndaşların hüquqları öz əksini tapmışdır. Avropa İttifaqı Komissiyasının hesabatında Bolqarıstanda azlıqların hüquqları ilə bağlı məsələlər də göstərilmişdir. Doğrudur bu məsələlərin qaraçılarla bağlı daha geniş əks olunmasına baxmayaraq türk azlığına da yer verilmişdir. Buradan aydın olur ki, Bolqarıstan Avropa İttifaqının tam hüquqlu üzvü olması üçün tələb olunan meyarlara əməl edilməlidir.

1991-ci ildə parlamentdə Hüquq və Azadlıqlar Hərəkatı təmsil olunduqdan sonra qanun qarşısında din və vicdan azadlığı, bərabərlik, assimilyasiyaya qadağa qoyulması kimi hüquqlar bərpa olunmağa başladı. 1989-cu ildə məcburi Türkiyəyə köçən türk azlıqlarına yenidən geri dönmələri ilə bağlı müəyyən güzəştlər verildi. İlk növbədə dil, din, istədikləri inancları sərbəst seçmək, məscidlərin tikintisinə, Quran kurslarının fəaliyyətinə, məktəblərdə ana dilində təhsil almalarına icazə verildi. (7, 328) Sosializm sistemi dövrünün sona yetməsi ilə assimiliyasiya siyasətinin başa çatması bəyan edilmişdi. Lakin qeyd edilməlidir ki, Bolqarıstan Sosialist Partiyası hakimiyyətdə olduğu 1989-1997- ci illərdə türklər əldə edəcəkləri hüquq və azadlıqlara tam nail ola bilmədilər. Yalnız soyuq müharibənin başa çatması zəminində türk azlıqlarının həyatında müəyyən irəliləyiş baş verdi. (10, 189)

Bolqarıstanda türklərdən sonra ölkənin mühüm etnik qruplarından birini təşkil edən bolqar qaraçıları sosial həyatın əsas sahələrində problemlərlə yaşayırdılar. Sosializmin dağılması ilə ölkədə iqtisadi böhran dərinləşirdi. Eyni zamanda qərəzçilik, ayrı seçkilik sayəsində 1992 -94- cü illərdə qaraçılara qarşı zorakılıq hallarının tətbiq edilməsi də artmışdı. Qaraçıların əksəriyyəti təhsilsiz olduğundan ən aşağı qəbul qrupu kimi məşğulluq problemləri olmuş, əmək bazarında rəqabətə tab gətirə bilmirdilər. (5, 17) Avropa Şurası tərəfindən təsdiq edilmiş Milli Qaraçı İnteqrasiya Strategiyası qaraçı problemləri ilə bağlı iqtisadiyyat, təhsil, səhiyyə sahələrində müxtəlif addımlar atılsa da 1999-cu ilin aprel ayında tam inteqrasiya proqramının qəbul edilməsinə baxmayaraq hələ də onlara qarşı ayrı-seçkilik davam edirdi. Qaraçıların özünəməxsus həyat tərzi, həm də hökumətin illərdir davam edən

laqeyidliyi özünü büruzə verirdi. Qaraçıların Bolqarıstan cəmiyyətinə uyğunlaşa bilmədiyi təhsil, iş, sağlamlıq və s .sahələrdə kənarda qalırdılar, eyni zamanda pis rəftar, zorakılıqla üzləşdikləri görünürdü.

Türk azlığından sonra əhəmiyyətli bir azlıq təşkil edən romanlar siyasi arenada aktiv olmamışlar. Bu əsas səbəb kimi onların oturuşmuş yaşayış mədəniyyətlərinin olmaması, bir-birləri ilə din, dil fərqləri kimi problemlərinin olması ilə əlaqələndirilir. Makedoniyalılarla bağlı belə problemin olmadığı əsas götürülərək onların bolqar olduğunu iddia edirlər. Yəhudilər və digər etnik azlıqlarla bağlı problemlər yaşanmasına baxmayaraq neqativ hallar göstərilmir.

Bolqarıstan ölkənin NATO və AB üzv olmaq istəyini əsas götürərək 1989-90-cı illərdə çox mübahisəli olan sosializmdən demokratik sistemə keçidə başladı. Sovet İttifaqı ilə sıx əlaqələrə son qoyulurdu. İlk növbədə Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq məqsədi ilə yeni hökumətin prezidenti P. Stoyanov Ankaraya səfəri zamanı türk azlığına qarşı həyata keçirilən siyasətə görə rəsmən üzr istəmiş və 1989-cu ildə Bolqarıstandan Türkiyəyə köçənlərin sosial hüquqları ilə bağlı müqavilə imzalamışdı. (11, 14)

Avropa İttifaqı ilə yaxınlaşma prosesində Bolqarıstan demokratiya, insan hüquqları və azlıqların müdafiəsi ilə bağlı fəaliyyət göstərən institutların fəaliyyətində əsaslı dəyişikliklər etməli, üzvlük şərtlərindən biri olan "azlıqların hüquqlarının qorunması və inkişafı" anlayışında onların vəziyyətinin yaxşılaşmasına riayət etməlidir. Aİ hesabatlarında (2000-2001) Dini Etiqat Azadlığı haqqında qanunun qəbul edilməsi və həyata keçirilməsinə dair aydın ifadələr mövcuddur. Əgər bu qanun qüvvəyə minməsə insan hüquqlarının pozulmasına gətirib çıxaracaq. Azlıqların hüquqları çərçivəsində Aİ tərəfindən çox mühüm hesab edilən Milli Azlıqların Müdafiəsi üzrə Cərcivə Konvensiyası Bolqarıstan tərəfindən imzalandıqdan sonra ( 1 sentyabr 1999) qüvvəyə minmişdi. Lakin daha böyük əhəmiyyət kəsb edən Azlıqların Dilləri üzrə Avropa Xartiyası imzalanmamışdı. Bolqarıstanda azlıqların hüquqları ölkənin tarixi prosesi və siyasi mədəniyyəti konteksində qiymətləndirildikdə əsas məna daşıyır. Deməli buradan aydın olur ki, hakimiyyət azlıq qruplarına tətbiq etdiyi müxtəlif assimilyasiya siyasətləri ilə onları Bolqarıstan cəmiyyətinə inteqrasiya etməyə çalışırdı. Lakin Bolqarıstan keçmiş sosialist rejimindən qurtulmasına baxmayaraq azlıqların hüquq və həyat şərtlərində əsaslı dəyişikliklər edə bilmədi.

**Ə d ə b i y y a t**

1. Baxşəliyev T. S. Slavyan ölkələri tarixi 1917 – 2015 Bakı, Şərq- Qərb, 2018, 872 s.
2. Болгария в XX веке Очерки Политчреской истории М, Наука, 2003, 462 с.
3. Biçakli Hüseyin Avni. Türkiye –Bulqaristan İlişkileri, İmge Kitapevi Ankara, 2016, 442 s.
4. История южных и западных славян .Т 2.М. МГУ 2001, 272 с.

5. Кальонски А. Груев М. Възродителният процесс.Мюсюлманските общности и коммунистическият режим , София Сиела, 2008, 567 с.
6. Краткая история Болгарии. С древнейших времен до наших дней . М. Наука ,1987, 567 с.
7. Lütem Ö. E. Türk- Bulqar ilişkileri 1983-1989. C.1 ASAM yayınları, Ankara, 2003, 600 s.
8. Məmmədov H.N. Bolqarıstan tarixi. Bakı, Elm və Təhsil, 2009, 272 s.
9. Özgür Nurcan, 1989 sonrası Türkiye- Bulqaristan ilişkileri, Türk Dış Politikasının Analizi, Deri yayınları, İstanbul, 2004, 676 s.
10. Стоянов В Т. Туреското население в България между полюсите на етническата политика . Bulqaro- Turcica, София , «Лик», 1998, 254 с.
11. Валева Е. Л. Государственная политика Болгарии в отношении турецкой этнической общности (1980- е гг) М. Индрик, 2014, 293 с.

**Z.N.Nuriyeva**

## XX əsrin 80-90-cı illərində Bolqarıstan hakimiyyətinin etnik azlıqların mədəniyyətinə qarşı təcavüzkar siyasəti

### Xülasə

Məqalədə yarım əsrə yaxın bir dövr ərzində türk və digər etnik azlıqlarına qarşı aparılan təzyiqlərdən bəhs olunur. Bolqarıstanda "azlıq" anlayışı deyiləndə ilk növbədə türklər nəzərdə tutulur. Lakin türklərlə yanaşı qaraçılar və onlarla digər etnik qruplar da mövcud idi. 1980-cı ildən Bolqarıstanda yaşayan türk azlıqlarına qarşı dövlət siyasəti genişlənir. Həmin dövrdə kommunist rejimiazlıqların taleyində əsas rol oynamışdır. Türk azlıqlarına qarşı insan haqları pozulur, zorla, işgəncə yolu ilə slavyan adları almaları məcbur edilirdi. Türk dilinin istifadəsinə məhdudiyyətlər qoyulurdu. Şəhər və kəndlərin türk adları dəyişdirilərək bolqar adları ilə əvəz olunurdu. Hətta hökumət Türkiyəyə üstünlük verən etnik türklərin ölkəni tərk etməsini bəyan etmişdi. Nəticədə bolqar türklərinin hakimiyyətin assimilyasiya siyasətinə qarşı müqaviməti toqquşmaya səbəb olurdu. Müxtəlif bölgələrə sürgün edilən bolqar türklərinə qarşı da milli ayrı seçkilik siyasəti yeridilirdi. Məcburiyyət nəticəsində türk azlıqları Türkiyə və Avropanın müxtəlif ölkələrinə köçürdülər. Lakin hökumət Avropa Birliyinə üzvliyə uyğun olaraq bəzi dəyişikliklər etmək məcburiyyətində qaldı. İlk növbədə təhsil, siyasət, din sahələrində azlıqaların hüquqları ilə bağlı müxtəlif tənzimləmələr apardı. Eyni zamanda Bolqarıstan hökuməti türk azlıqlarının haqqını tanımağa məcbur olaraq Türkiyə ilə münasibətləri yaxşılaşdırmalı idi.

**Açar sözlər: etnik azlıqlar, bolqar türkləri, məcbur etmək, adların dəyişdirilməsi, insan haqları, kütləvi zorakılıq, cinayət, etiraz, işgəncə, azadlıq,dövlət siyasəti.**

**З.Н.Нуриева**

**Агрессивная политика болгарских властей в отношении культуры этнических меньшинств в 80-90-е годы XX века**

**Резюме**

В статье повествуется о притеснении турецких и других национальных меньшинств на протяжении почти полувека. Когда в Болгарии упоминается понятие «меньшинство», в первую очередь имеются в виду турки. Однако наряду с турками существовали цыгане и десятки других этнических групп. С 1980 года государственная политика в отношении турецких меньшинств, проживающих в Болгарии, расширяется. В то время коммунистический режим играл ключевую роль в судьбе меньшинств. Нарушались права человека в отношении турецких меньшинств, их заставляли силой и пытками принимать славянские имена. Были введены ограничения на использование турецкого языка. Турецкие названия городов и сел были изменены и заменены болгарскими названиями. Правительство даже объявило, что этнические турки, предпочитающие Турцию, должны покинуть страну. В результате, сопротивление турок-болгар ассимиляционной политике властей привело к столкновению. В отношении болгарских турок, депортированных в различные регионы, также была введена политика раздельных общенациональных выборов. В результате принуждения турецкие меньшинства переселились в Турцию и различные страны Европы. Однако правительству пришлось внести некоторые изменения в соответствии с членством в Европейском союзе. Прежде всего, были приняты различные меры в отношении прав меньшинств в области образования, политики и религии. В то же время болгарское правительство должно было улучшить отношения с Турцией, будучи вынужденным признать права турецкого меньшинства.

**Ключевые слова: национальные меньшинства, болгарские турки, принуждение, переименование, права человека, массовое насилие, преступление, протест, пытки, свобода, государственная политика.**

**Z.N. Nuriyeva**

**The aggressive policy of the Bulgarian authorities towards the culture of ethnic minorities in the 80-90s of the XX century**

**Summary**

The article is devoted to the oppression of Turkish and other national minorities for almost half a century.When the concept of "minority" is mentioned in Bulgaria, the Turks are primarily meant. However, along with the Turks, there were gypsies

and dozens of other ethnic groups. Since 1980, the state policy towards Turkish minorities living in Bulgaria has been expanding. At that time, the communist regime played a key role in the fate of minorities. The human rights of Turkish minorities were violated, they were forced to take Slavic names by force and torture. Restrictions were placed on the use of the Turkish language. The Turkish names of towns and villages were changed and replaced by Bulgarian names. The government even announced that ethnic Turks who prefer Turkey must leave the country. As a result, the resistance of the Bulgarian Turks to the assimilation policy of the authorities led to a clash. With respect to the Bulgarian Turks deported to various regions, a policy of separate nationwide elections was also introduced. As a result of coercion, Turkish minorities moved to Turkey and various European countries. However, the government had to make some changes in line with membership in the European Union. First of all, various measures have been taken with regard to the rights of minorities in the fields of education, politics and religion. At the same time, the Bulgarian government had to improve relations with Turkey by being forced to recognize the rights of the Turkish minority.

**Key words: national minorities, Bulgarian Turks, coercion, renaming, human rights, mass violence, crime, protest, torture, freedom, state policy.**

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: tarix üzrə fəlsəfə doktoru , dosent Abutalıb Cəlilov tərəfindən çapa tövsiyə olunmuşdur**

**GÜNEL AĞAYEVA ELMAN QIZI**
**Bakı Avrasiya Universiteti**
Email: gunel_agayeva2000@mail.ru

# XALİD HÜSEYNİ MİN MÖHTƏŞƏM GÜNƏŞ ƏSƏRİ LEYLA VƏ MƏRYƏM OBRAZLARININ TƏHLİLİ

**Xülasə**

Möhtəşəm Günəş, əfqan əsilli amerikalı yazıçı Xalid Hüseyninin 2003-cü ildə ən çox satılan "Çərpələng uçuran" debütünün böyük uğurundan sonra 2007-ci il romanıdır. Heratdan olan qeyri-qanuni yeniyetmə Mariam ailə faciəsindən sonra Kabildən olan çəkməçi ilə evlənməyə məcbur olur. Bir nəsil sonra dünyaya gələn Leyla nisbətən imtiyazlı bir həyat yaşayır, lakin oxşar faciə onu Məryəmin ərindən gələn evlilik təklifini qəbul etməyə məcbur edəndə həyatı Məryəmin həyatı ilə kəsişir.

Hüseyni qeyd edib ki, o, romanı "ata-oğul hekayəsi" hesab etdiyi "Çərpələng uçuran"dan fərqli olaraq "ana-qız hekayəsi" kimi qiymətləndirir. Bu, ailə dinamikası kimi əvvəlki işində istifadə olunan bəzi mövzuları davam etdirir, lakin bunun əvəzinə ilk növbədə qadın personajlara və onların müasir Əfqanıstan cəmiyyətindəki rollarına diqqət yetirir.

"Min Möhtəşəm Günəş" 22 may 2007-ci ildə buraxıldı və Kirkus İncelemeleri, Publishers Weekly, Library Journal və Booklist-dən müsbət geniş tənqidi bəyənmə aldı və buraxıldıqdan sonra on beş həftə ərzində bir nömrəli New York Times Best Seller oldu. Satışa çıxarıldığı ilk həftə ərzində o, bir milyondan çox nüsxə satdı. Columbia Pictures film hüquqlarını 2007-ci ildə satın aldı və kitabın teatral uyğunlaşdırılmasının premyerası 1 fevral 2017-ci ildə Kaliforniyanın San-Fransisko şəhərindəki Amerika Konservatoriya Teatrında baş tutdu.

**Açar sözlər:** Əfqan əsilli, amerikalı yazıçı Xalid Hüseyni, Min möhtəşəm Günəş əsəri, Leyla obrazı, Məryəm obrazı, təhlil

**Gunel Aghayeva Elman gizi**

# KHALID HUSEYNI'S ANALYSIS OF THE CHARACTERS OF LEYLA AND MARYAM IN THE GREAT WORK OF THE SUN

**Summary**

Magnificent Sun is a 2007 novel by Afghan-American author Khalid Hussain, following the huge success of his 2003 best-selling debut The Kite Runner. Mariam, an illegitimate teenager from Herat, is forced to marry a shoemaker from Kabul after a family tragedy. Born a generation later, Leyla lives a relatively

privileged life, but her life intersects with Maryam's when a similar tragedy forces her to accept a marriage proposal from Maryam's husband.

Huseyni noted that he considers the novel as a "mother-daughter story" in contrast to "The Kite Runner", which he considers a "father-son story". It continues some of the themes used in his earlier work, such as family dynamics, but instead focuses primarily on female characters and their roles in contemporary Afghan society.

A Thousand Splendid Suns was released on May 22, 2007, to positive widespread critical acclaim from Kirkus Reviews, Publishers Weekly, Library Journal, and Booklist, and became a number one New York Times Best Seller within fifteen weeks of its release. It sold over a million copies in its first week of release. Columbia Pictures purchased the film rights in 2007, and the theatrical adaptation of the book premiered on February 1, 2017 at the American Conservatory Theater in San Francisco, California.

**Keywords:** Khalid Hosseini, an American writer of Afghan descent, A Thousand Magnificent Suns, Leila's image, Maryam's image, analysis

**Гюнель Агаева Эльман кызы**

## АНАЛИЗ ХАЛИДОМ ХУСЕЙНИ ПЕРСОНАЖЕЙ ЛЕЙЛЫ И МАРЬЯМ В ВЕЛИКОМ ПРОИЗВЕДЕНИИ СОЛНЦА

### Резюме

«Великолепное солнце» — роман американского писателя афганского происхождения Халида Хуссейна, написанный в 2007 году после огромного успеха его дебютного бестселлера 2003 года «Бегущий за ветром». Мариам, незаконнорожденная девочка-подросток из Герата, после семейной трагедии вынуждена выйти замуж за сапожника из Кабула. Рожденная поколением позже, Лейла живет относительно привилегированной жизнью, но ее жизнь пересекается с жизнью Марьям, когда аналогичная трагедия вынуждает ее принять предложение руки и сердца от мужа Марьям.

Хусейни отметил, что считает роман «историей матери и дочери», в отличие от «Бегущего за ветром», который он считает «историей отца и сына». Он продолжает некоторые темы, использованные в его более ранних работах, такие как динамика семьи, но вместо этого фокусируется в первую очередь на женских персонажах и их ролях в современном афганском обществе.

«Тысяча сияющих солнц» была выпущена 22 мая 2007 г. и получила положительные отзывы критиков от Kirkus Reviews, Publishers Weekly, Library Journal и Booklist и стала бестселлером номер один по версии New York Times в течение пятнадцати недель после выпуска. За первую неделю после выпуска было продано более миллиона копий. Columbia Pictures приобрела права на экранизацию в 2007 году, а премьера театральной адаптации книги состоялась

1 февраля 2017 года в Театре Американской консерватории в Сан-Франциско, Калифорния.

**Ключевые слова:** Халид Хоссейни, американский писатель афганского происхождения, «Тысяча великолепных солнц», образ Лейлы, образ Марьям, анализ

## Giriş

Xalid Hüseyni 1965-ci ildə Əfqanıstanın Kabil şəhərində anadan olub.

2001-ci ilin mart ayında, tibblə məşğul olarkən, Hüseyni ilk romanı olan "Çərpələng uçuran"ı yazmağa başladı. Bu, ən azı yetmiş ölkədə satılan və New York Times bestseller siyahısında yüz həftədən çox vaxt keçirən beynəlxalq bestseller və sevimli klassik oldu. 2007-ci ilin may ayında onun ikinci romanı "Min Möhtəşəm Günəş" New York Times-ın bestsellerlər siyahısında 1-ci yerdə debüt etdi, on beş həftə və təxminən bir il ərzində bestsellerlər siyahısında qaldı. “Çərpələng uçuran” 2011-ci ildə eyniadlı qrafik romana uyğunlaşdırılıb. Hüseyninin üçüncü romanı “Və Dağlar Səs Verdi” 21 may 2013-cü ildə nəşr olunub.

"Min Möhtəşəm Günəş" 1960-cı illərin əvvəlindən 2000-ci illərin əvvəllərinə qədər Əfqanıstanda cərəyan edir. 1960-cı illərdə gənc qız olan Mariam Əfqanıstanın kiçik bir şəhəri olan Heratdan kənarda böyüyür. Məryəmin valideynlərinə qarşı mürəkkəb hissləri var: O, kinli və inadkar anası Nana ilə yaşayır; uğurlu iş adamı olan atası Cəlil isə həftədə bir dəfə onun yeganə qeyri-qanuni uşağı Məryəmə baş çəkir. Məryəm Cəlilin həyatındakı məhdud yerindən inciyir; onunla, onun üç arvadı və ögey qardaşları ilə Heratda yaşamaq istəyir. O, Cəlildən 15 illik yubileyində onu Pinokkionun yanına aparmasını xahiş etməklə arzularını bildirir. Cəlil könülsüz razılaşır, lakin sonra onu filmə aparmaq üçün heç görünmür. Məryəm ürəyi gedib Cəlilin evini tapır, onu içəri buraxmır, küçədə yatır. Ertəsi gün səhər Cəlilin sürücüsü Məryəmi evə aparır və o, anasının intihar etdiyini görür.

Məryəmi anasının yas mərasimindən sonra Cəlilin evinə aparırlar. Cəlilin arvadları Məryəmlə heç bir əlaqəsi yoxdur, ona görə də onu məcbur edirlər ki, onu Kabildə dul qalmış çəkməçi Rəşidlə evləndirsin. Rəşid əvvəlcə Məryəmlə ləyaqətlə rəftar edir, lakin o, doğuşdan sonra uşaq doğulduqdan sonra onu həm fiziki, həm də sözlə təhqir edir. Aydın olur ki, Rəşidin Məryəm üçün yeganə istifadəsi onun illər əvvəl itirdiyi oğlunu əvəz edə bilməsindədir.

Rəşid və Məryəmin küçəsində böyüyən Leyla, mehriban bir ailədən olan gənc, ağıllı qızdır. Lakin Sovetlərə qarşı Əfqanıstan müharibəsi Leylanın uşaqlığını pozur və onun hər iki böyük qardaşı müharibəyə qatılmaq üçün ayrılır. Leyla təsəllisini ən yaxın rəfiqəsi, özündən bir neçə yaş böyük Tariqdən axtarır. Leyla yeniyetməlik yaşına çatmazdan əvvəl valideynlərinə hər iki oğlunun öldürüldüyü xəbəri gəlir. Bir neçə ildən sonra müharibə Kabilə çatır və şəhərə müntəzəm olaraq bombalar düşür. Artıq Tarik və Leyla yeniyetmədirlər və sevgilidirlər. Tarik ailəsi ilə birlikdə Pakistana qaçdığını Leylaya dedikdə, cütlük ilk dəfə tez və ehtirasla sevişirlər. Bir

neçə gün sonra Leylanın valideynləri də Əfqanıstanı tərk etmək qərarına gəlirlər, lakin onlar yığışdırarkən evlərinə raket düşüb, Leylanın valideynlərini öldürür və onu yaralayır.

Rəşid və Məryəm tibb bacısı Leyla sağaldıqdan sonra bir qərib olan Əbdül Şərif ona Tariqin öldüyü xəbərini gətirir. Darıxmış və Tariqin uşağına hamilə olduğunu anlayan Leyla Rəşidlə evlənməyə razılaşır. Məryəm əvvəlcə Leylanın varlığından əziyyət çəkir və təhdid edir və onunla heç bir əlaqəsi yoxdur. Lakin Leylanın Əzizə adlı qızı dünyaya gəldikdən sonra qadınlar Rəşidin təhqiramiz, manipulyasiya üsullarına qarşı özlərini müttəfiq kimi görməyə başlayırlar. Bir neçə ildən sonra Leylanın Zalmay adlı oğlu dünyaya gəlir. Sonra, bir gün günortadan sonra, illərlə təhqir və kədərdən sonra, Leyla qapısının qarşısında dayanan bir kişini görəndə şoka düşür.

Rəşid işdə olarkən Tarik və Leyla günortanı birlikdə keçirirlər. Leyla və Məryəm başa düşürlər ki, Rəşid Əbdül Şərifi Leylaya Tariqin yalançı ölümünü söyləmək üçün işə götürüb ki, qaçmasın. Rəşid Tariqin evə gəldiyini biləndə Leylanı vəhşicəsinə döyür. Məryəm kürəklə Rəşidi öldürür. Ertəsi gün Məryəm Leylanın Pakistanda Tariqlə birlikdə özünə və övladlarına sığınacaq tapması yolunu açmaq üçün özünü Talibana təslim edir.

Pakistanda Tariq və Leyla evlənir və nəhayət illər əvvəl arzuladıqları həyata başlayırlar. Zaman keçdikcə Leylanın hər iki övladı Tarığa isti gəlir və onlar yeni həyatlarından həzz alırlar. Lakin 2001-ci ilin sentyabrında onların xoşbəxtliyi ABŞ-ın Əfqanıstana hücumu xəbərinin kölgəsində qalır. ABŞ-ın işğalından sonra Kabildə vəziyyət yaxşılaşır və Leyla təkid edir ki, ailəsi öz şəhərlərini bərpa etmək üçün evlərinə köçsünlər. Onlar Kabilə gedərkən Heratda dayanırlar, burada Leyla Məryəmin köhnə evinə baş çəkir və Məryəmin edam edilməsi ilə bağlı kədəri ilə barışa bilir. Leyla və Tariq Kabildə yeni həyat qururlar: Leyla bir vaxtlar Əzizənin yaşadığı uşaq evində müəllimə olur. Və Leyla hamilə olanda qərara gəlir ki, əgər qızı varsa, adını Məryəm qoyacaq.

İki qadın qəhrəmandan biri olan Məryəm kitabın əvvəlində sakit, düşüncəli uşaqdır. Zəngin və evli iş adamı (Cəlil) və onun keçmiş xadiməsi (Nənə) ailəsində nikahdankənar doğulan Məryəm anasının sərt davranışlarından və atasını həftədə yalnız bir dəfə görməsindən narazıdır. Məryəmin qeyri-qanuni olmasından utanması onu özünə qarşı dura bilmir. Məryəm 15 yaşında qaçdıqdan sonra anası intihar etdikdə, Məryəm həyatının çox hissəsini ona nəzarət edən təqsirkarlıq hissindən əziyyət çəkir və bu, onun təhqiramiz Rəşidlə evliliyinə dözümlü olmasına kömək edir. Rəşidlə uzun müddət evli olduğu müddətdə Məryəmin uşaq sahibi ola bilməməsi onu küskün, acıqlı və qorxulu bir qadına çevirir. Bu, onun öz anasını daha yaxşı başa düşməsinə kömək edir və Məryəmin həyatı Rəşidin ikinci arvadı Leylanın gəlişi ilə dəyişir. Məryəm Leyla və Leylanın övladlarına olan məhəbbəti sayəsində ana olmaq arzusunu həyata keçirə bilir və nəhayət, sevgini verib-verir.

İkinci qadın qəhrəman olan Leyla Həkim və Fəribənin ən kiçik övladı və yeganə qızıdır. Leylanın döyüşə gedən hər iki böyük qardaşının yoxluğu onu yaşına görə yetkinləşdirir və onu məqsədyönlülük hissi ilə doldurur. Leylanın zəkasını və təhsilini ətrafındakı dünyanı yaxşılaşdırmaq üçün istifadə etmək arzusu var. 15 yaşında Leyla uşaqlıqdan bəri ən yaxşı dostu Tariqə aşiq olur, lakin müharibə Tariq və valideynlərini Pakistana qaçmağa məcbur edir. Günlər sonra raket Leylanın valideynlərini öldürür və onu yaralayır və Rəşid və Məryəm onu sağaldır. Tariq tərəfindən bətnindəki uşağına ata vermək üçün Rəşidlə evlənmək qərarına gəldikdə, Leylanın idealizmi və müstəqilliyi meydan oxuyur. Ana olduqdan sonra Leyla öz uşaqlarını birinci yerə qoyur və bir vaxtlar açıq şəkildə istehza edəcəyi məhdudiyyətləri qəbul etməyə hazır olduğunu görür. Məryəmlə artan münasibəti ilə Leyla nəinki dost və ana obrazına sahib olmaqdan təsəlli tapır, həm də Məryəmdən nümunə götürərək yaxşı ana olmaq üçün lazım olan fədakarlıqları anlamağa başlayır.

Hekayənin indiki zamanda nəqlinə keçməklə, Hüseyni personajların həyatının nə qədər dəyişdiyini müəyyənləşdirir və eyni zamanda ümid hissini ifadə edir. İndiki zamandan istifadə etməklə, personajların keçdiyi bütün dəyişikliklər kitabın keçmiş zamanda deyilən əvvəlki bölmələrindən fərqli olaraq daha ani görünür (Leylanın bəzi yuxuları istisna olmaqla). Məsələn, Leyla ilə Tariqin az qala sözsüz toy mərasimini təsvir etmək üçün indiki zamandan istifadə edərək, Hüseyni bunu Leylanın Rəşidlə ilk mərasimi ilə müqayisə edir. Leylanın Rəşidlə toy mərasimi 30-cu fəsildə keçmiş zamanda rəvayət edilir, bu cür təfərrüatların səthinin altında yatan hisslərdən çox fiziki təfərrüatların ötürülməsinə diqqət yetirilir. Onun Tariqlə toyu beləcə şöhrət qazanır - bu indi baş verir, Rəşidlə evliliyi həmişə "keçmiş" olub - getməsini arzuladığı bir şeydir.

İndiki zamanın istifadəsi də Əzizə və Zalmanın keçdiyi dəyişiklikləri vurğulayır. Əzizə Tariğin əsl atası olduğunu öyrənəndə sevincindən boğulur. Yenə Tariqin "indiki"si Rəşidin "keçmişi"ni əvəz edir; Rəşid heç vaxt onun atası "olmayıb", sadəcə olaraq "olub" - və bunda çox da atası deyildi. Beləliklə, Hosseini bu ümid dolu, sevgi dolu indiki ilə keçmiş arasında kontrast yaratmaq üçün indiki zamandan istifadə edir - hər şeyin baş verdiyi kimi yox olmaq kimi göründüyü bir vaxt. Zalmay bu keçidlə ən çətin anlar yaşayır, çünki o, hələ də keçmişə və atasına həsrət qalır, hətta digər personajlar ümidlə yeni həyatlarına addım atırlar.

Tariq və Leylanın ABŞ-ın Əfqanıstanı işğalı ilə bağlı perspektivləri müharibələr haqqında iki dominant diskursla ziddiyyət təşkil edir: ədalətli müharibə ideyası ilə heç bir müharibənin yaxşı müharibə olmadığı ideyası. Birincisi, Tarik ABŞ-ın Talibanı aradan qaldırmaqla Əfqanıstandakı mövcud vəziyyəti dəyişdirə biləcəyi arqumentini təqdim edir. Onun arqumenti şəxsi inanclarına əsaslanır – o, "Taliban"ın "qonaq" olduğu üçün Üsamə bin Ladenə sığınacaq verdiklərini söyləməsindən dəhşətə gəlir, həm də Talibanı aradan qaldırmaqla Əfqanıstanda nəhayət, ədalətli hökumətə sahib olacağına ümid edir. qəddar diktatura. Leylanın arqumentləri əsasən Taliban işğalından əvvəl və onun Kabildə keçirdiyi təcrübələrə

əsaslanır. O, valideynlərinin öldüyünü və sevdiyi şəhərin və mədəniyyətin dağıldığını gördü. O, belə bir zorakılığın necə müsbət həll edə biləcəyini görə bilmir. Onların dialoqu vasitəsilə Hüseyni dəyişiklik yaratmağın çətinliyini, xüsusən də geniş miqyasda nümayiş etdirir. Hüseyni onların hər ikisinə öz fikirlərini söyləməyə imkan verməklə göstərir ki, hər iki baxış ləyaqətlidir və hər hansı bir dəyişiklik baş verərsə, hər iki baxış nəzərə alınmalıdır.

Leylanın Herata səfəri zamanı o, Məryəmlə vidalaşa bilir, həm də Məryəmin Cəlillə münasibətində gecikmiş sonluq tapır. Cəlilin məktubu həm də onun Məryəmin atası roluna dair yekun şərhi qeyd edir və bu romandakı bütün ata fiqurları arasındakı ziddiyyəti yekunlaşdırır. Leylanın Herata səyahəti ilə o, Məryəmin uşaqlığı, eləcə də Cəlil ilə münasibətləri haqqında daha çox məlumat əldə edə bilir və bu vəhylər vasitəsilə Leyla rahatlıq tapır. Məryəmin böyüdüyü kolbaya baş çəkməklə Leyla Məryəmi daha yaxşı başa düşür. O, söyüd dayağı, quru dərə yatağı və Məryəmin keçmişindən bütün bu şəkilləri görür ki, bu da ona Məryəmi xatırlamağa və son dəfə ona yaxın hiss etməyə kömək edir.

Bu ziyarət həm də Məryəmlə Cəlil arasındakı uçurumun bağlanmasını təklif edir. Cəlilin Məryəmə son üç hədiyyəsi - məktub, Pinokkio və onun mirası - Cəlilin Məryəmə olan səmimi peşmanlığını və məhəbbətini göstərir, hər bir obyekt onun hisslərinin fərqli cəhətlərini ifadə edir. Videonu daxil etməklə Cəlil pozduğu vədi etiraf edir və onu düzəltməyə çalışır. Məktub vasitəsilə Cəlil öz işini izah edir və vicdanını təmizləyib bağışlanma diləməyi bacarır. Nəhayət, mirasın daxil edilməsi Məryəmin nəhayət qanuni övlad olduğunu bildirir və nikahdan kənar doğulma damğasını aradan qaldırır. Leyla bu hədiyyələri qəbul edərək Məryəm üçün dayaq rolunu oynaya bilir.

Cəlilin ata kimi son hərəkəti onun Məryəmin uşaqlığı boyu özü ilə apardığı obrazını qismən də olsa bərpa edir. Roman boyu təqdim olunan əsas ata fiqurlarında - Cəlil, Hakim və Rəşid - onların hamısı müxtəlif dərəcədə yanılırlar, lakin hamısı müəyyən dərəcədə sevməyə qadirdirlər. Cəlil qızına xəyanət edir, lakin vəziyyəti düzəltməyə çalışır; Həkim gözəl ata olsa da, arvadının oğulları ilə bağlı çəkdiyi əzabları başa düşməkdə çətinlik çəkir; və nəhayət, Raşid, Zalmaya olan məhəbbəti və mehribanlığı istisna olmaqla, demək olar ki, hər cəhətdən ürəksiz və eqoistdir. Hosseini analıq, atalıq və gender rollarını araşdıraraq yaxşı kişi, qadın, ata və ya ana olmağın nə qədər çətin olduğunu və sosial tələblərin, dəyərlərin və məhdudiyyətlərin bu cəhdləri necə təşkil etdiyini göstərir. Bu ataların hamısını xilasedici keyfiyyətlərlə təmin etməklə, Hüseyni öz personajlarına və onların əllərindən gələni etmək üçün mübarizə apardıqları mürəkkəb vəziyyətə mərhəmət göstərir.

Romanın son fəslində Hüseyni uşaq evinin vəziyyəti, Leylanın məktəb müəllimi rolu və hamiləliyi vasitəsilə Kabilin ümid dolu portretini təsvir edir. Uşaq evi bütövlükdə Kabildə gedən dəyişiklikləri simvolizə edir. Təzə əkilmiş alma ağaclarından tutmuş yeni sinif otağına qədər uşaq evi müharibə nəticəsində valideynlərini itirmiş uşaqlar üçün əsl ziyarətgaha çevrilib. Əgər uşaq evi cəmiyyətin

ən həssas üzvlərinə qayğı göstərə bilsə, Əfqan cəmiyyətinin həqiqətən sağalacağına və inkişaf edəcəyinə ümid var.

Ümidin ikinci əlaməti Leylanın müəllim rolunda olmasıdır. Leyla uşaq ikən ona təhsilin yaxşı həyatın açarı olduğunu və bu təhsili almağın müqabilində cəmiyyətə qaytarmağa borclu olduğunu öyrədirdilər. Leyla bu şərtlərin hər ikisini yeni karyerası ilə yerinə yetirir. Uşaq evində həm qızlara, həm də oğlanlara dərs verməklə, onlara fərqli həyat tərzini göstərmək üçün ilk addımı atır, burada cinslər arasında bərabərliyin istisna deyil, normadır. Beləliklə, o, birlikdə işlədiyi bütün uşaqlar üçün "ana" olur, şəfqətli bir bələdçi kimi xidmət edir, onların zehnini və ruhunu tərbiyə edir.

Nəhayət, Leylanın hamiləliyi ümidin son əlamətidir. O, çox ağrı və əzab görüb, lakin o qədər müsbət dəyişikliklər görür ki, dünyaya başqa bir həyat gətirməyə hazırdır. Onun bir neçə dəfə ana olmaq istəyi – əvvəlcə Əzizə və Zalmai, sonra uşaq evinin uşaqları, indi isə yeni uşaq üçün – Hüseyninin analığın gücü və Əfqanıstanın sosial quruluşunu düzəltmək üçün necə vacib olduğu ilə bağlı mövzusunu təkrarlayır. Analıq dəyərlərini - fədakarlıq, şəfqət və başqalarına fədakarlıq - dəstəkləməklə, Leyla ətrafındakıların hamısına müsbət təsir göstərə bilir və Əfqanıstanın tarixinin yeni mərhələsini necə qəbul edə biləcəyinə dair nümunə kimi xidmət edir.

## Nəticə

“New York Times”ın ən çox satılan “Çərpələng uçuran” romanının müəllifi Khaled Hoessini “Min möhtəşəm günəş” adlı daha bir bestseller romanını yazıb.

“Min Möhtəşəm Günəş” demək olar ki, bütünlüklə Əfqanıstanda Taliban hakimiyyətindən əvvəl, dövründə və ondan sonra baş verir.

"Min Möhtəşəm Günəş" qadınlar arasındakı münasibətləri təsvir edir. Ana-qız bağlarından tutmuş qadın dostluqlarına qədər bu roman qadınların universal təcrübələrinə qəsiddir.

Roman çox fərqli uşaqlıq təcrübələri keçirən iki qadın personajın, Məryəm və Leylanın ətrafında fırlanır, lakin hər ikisi birtəhər eyni yerdə sona çatır və bir-birləri ilə gözlənilməz və səmimi dostluq yaradırlar.

Kitab dörd hissəyə bölünür. Birinci hissə Məryəmin uşaqlığının “harami” kimi böyüməsi ilə başlayır, kitabda nikahdan kənar hamilə qalan və doğulan uşağı təsvir etmək üçün istifadə edilən İslam sözü.

Çətin və kasıb uşaqlığına baxmayaraq, günahsız və sadəlövh Məryəm hamiləliyində haqsız yerə günahlandırılan anasının narahatlığına baxmayaraq, demək olar ki, tamamilə yox olan atasını bütləşdirirdi.

Məryəm anası Nanə və atası Cəlillə olan laqeyd münasibətləri ilə mübarizə aparır.

Məryəmin uşaqlığı, xüsusən də atası ilə münasibətləri, onun Əfqanıstandakı bir qadın kimi həyatının bir xəbəri ilə səpələnmişdir və bu, bir çox cəhətdən anasının həyat təcrübələrini əks etdirir.

İkinci hissədə ikinci əsas personaj olan Leyla uşaqlığından başlayaraq anası, atası və ən yaxın dostu Tariklə birlikdə böyüyür.

Müharibə ölkəyə sızdıqca, Leyla ailəsindən qoparılır, sonra üçüncü hissədə Leyla ilə Məryəmin hekayələri bir-birinə qarışır.

Roman oxuduğum ən kədərli romanlardan biridir. Hekayə xətti fəlakət üzərində fəlakətlə qurulduqca, bu ümid dəfələrlə qırılsa belə, oxucu və personajlar ümid bəsləyə bilmirlər.

Ən ürəkaçan hekayələrdən biri olmasına baxmayaraq, bir oxucunun bu sevimli personajlar üçün hiss edəcəyi kəskin empatiya səviyyəsini daha da artıran qısamüddətli gözəllik, sevgi və əlaqə anları var.

"Məryəm heç vaxt belə axtarışda olmamışdı. Sevgi ona heç vaxt bu qədər günahsız, bu qədər qeyd-şərtsiz elan edilməmişdi."

Xalid bu kimi ürəkaçan sətirlərlə yanaşı, iki personajın hekayələri bir-birindən ayrılarkən, üçüncü hissənin sonunda "Son bir dəfə, Məryəm ona deyilən kimi etdi" kimi ən ürəkaçan sətirləri çatdırır.

Hekayə gərgin qabaqcadan xəbərlərdən biridir və qızların qadın olduqdan sonra qəddar dərk etmələrini və 1900-cü illərdə Əfqanıstanda təsvir ediləndə heyrətamiz dərəcədə sıx olan varlıqlarının sadəcə yükünü mükəmməl şəkildə təsvir edir.

Xalid qadınların empatiyasını gözəl və mükəmməl şəkildə təsvir edir, kişilər tərəfindən daim emosional və fiziki olaraq döyülən hər iki qadının daxili düşüncələri və sadəcə bir qadın olaraq mövcud olmağın təhlükə olduğu bir cəmiyyət tərəfindən ağrılı şəkildə təfərrüatlandırılır.

## Ədəbiyyat siyahısı

1.Hüseyni, Xalid. Min Möhtəşəm Günəş. New York: The Penguin Group, 2007. Çap

2.Madison-Dunn, Lindsey. Dərs transkripti. www.education-portal.com

3.Byrd, Steven, Şimali Karolina Universiteti. www.uncp.edu

4.Franco, Dean J. Etnik Amerika Ədəbiyyatı: Çikano, Yəhudi və Afrikalı Amerika yazılarının müqayisəsi. ABŞ: U of Virginia P, 2006. Veb.

5.Banerrjee, Mita. "Ədəbiyyatda və mediada ərəb amerikalı". American Study Journal, 2008.

6.Layton, Rebecca. Ərəb-Amerika və Müsəlman Yazıçılar. New York: Infobase Publishing, 2010. Veb.

7.Null, Linda və Suellen, Alfred. "Min möhtəşəm ümidlər". JSTOR. New York, Riverhead: Milli İngilis dili müəllimləri şurası cild 97, №6 (İyul, 2008).

8.Namita Singh. (2013). Feminizm v/s Gender bərabərliyi: Xalid Hüseyninin Min Möhtəşəm Günəş əsərində ictimai-siyasi fəallıq. İnter. J. Təhsil. Res.Technol., Cild 4 [2] : 88- 92

9.http://athousandsplendidsuns403.weebly.com/themes.html

10. www.wikipedia.org

11. www.gradesaver.com

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Seyfeddin Gulverdi oğlu Rzayev tərəfindən çapa tövsiyə olunmuşdur**

**YUSIBOVA AYGÜN AZADIL QIZI**
**Gəncə Dövlət Universiteti**
**aygun.yusifova.91@list.ru**

# CƏLİL MƏMMƏDQULUZADƏ DRAMATURGİYASININ ÖZÜNƏMƏXSUSLUĞU

**Açar sözlər:** yaradıcılıq, şəxsiyyət, ədəbiyyat, mətbuat, fəlsəfi, milliyyət, demokratik fikir, inkişaf, problem
**Ключевые слова:** творчество, личность, литература, печать, философия, национальность, демократическая мысль, развитие, проблема
**Key words:** creativity, personality, literature, press, philosophical, nationality, democratic thought, development, problem

XIX əsr Azərbaycan ictimai fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmişdir. Cəlil Məmmədquluzadə belə insanlardan biri idi və Azərbaycan demokratik mətbuatın banisi sayılır.

Azərbaycan ədəbiyyatının ən zəngin dövrlərindən sayılan XIX əsrin 60-cı illərində doğulan, XX əsrin on illiyində geniş fəaliyyət göstərən simalardan biri də Mirzə Cəlildir. Ədibin hərtərəfli fəaliyyəti Azərbaycan ədəbiyyatında tənqidi realizm, satira, demokratik fikirlər üçün geniş meydan açıldı. Cəlil Məmmədquluzadənin qoyub getdiyi irs-zəngin xəzinə xalqımızın varlığı, keçmişi, bu günü və gələcəyi ilə sıx bağlıdır. Cəlil Məmmədquluzadənin elə bir əsəri yoxdur ki, orada xalqımızın dərd-bəlasına əsl vətən oğlu kimi ürək yanğısı ilə yanaşılmasın. Azərbaycanın həyatı və məişətinin aynası olan «Molla Nəsrəddin» jurnalı Cəlil Məmmədquluzadə yaradıcılığında müstəsna yer tutur. O, böyük bir ədəbi məktəb yaratmış Azərbaycan ədəbiyyatında yeni bir cığır açan ədibdir.

C.Məmmədquluzadə yaratdığı «Molla Nəsrəddin» məcmuəsi Azərbaycanda xalq hərəkatının məna və ruhunu ifadə edən ən nifuzlu bir mətbuat olaraq tanınmışdı. İstər Azərbaycanda, istərsə də İran və Türkiyədə zülmkarlara, istismarçılara qarşı aparılan şərəfli mübarizələrdə də «Molla Nəsrəddin» mütərəqqi iş görmüşdür. [1, 68]

Xalqa arxalanan və «Ey mənim müsəlman qardaşlarım, sizi deyib gəlmişəm!» xitabı ilə başlayan bu məcmuə oxucular arasında müstəsna şöhrət qazanmış, ildırım surəti ilə yalnız Azərbaycanda, Qafqazda deyil, bütün yaxın Şərqdə yayılmışdı.

Belə bir xitab ilə başlayan məcmuə öz sadəliyi şirin yumoru, xalqın ürəyindən xəbər verən doğru, təbii yazıları ilə az müddətdə ümumi hörmət və şöhrət qazandı.

C. Məmmədquluzadə «Molla Nəsrəddin» təxəllüsünü təsadüfü qəbul etməmişdi. Əfsanəyə görə, islam tarixində həqiqətin əsl tərəfdarı olan üç adam:

Molla Nəsrəddin, Bəhlul Danəndə, Həsən Kaşi özlərini dəliliyə vuraraq ürəklərindəki həqiqəti deməyə yol tapmışdılar. Hakimlər bu adamları dəli sayıb sözlərinə əhəmiyyət vermirdilər, məsuliyyətə çəkmirdilər. Beləliklə, dövlət dairələrindən çoxdan qovulmuş həqiqət bu «divanələr» vasitəsilə yaşayır və bir az da artıq rövnəq tapırdı.

C.Məmmədquluzadənin dramaturji irsi, ictimai mənada zənginliyi, zamanın mühüm problemlərinin yüksək sənətkarlıqla əks etdirilməsi baxımından seçilir. Onun hər bir pyesi komik, dramatik və tragik motivlərin qovuşmuş qaynağı şəklində meydana çıxır. C.Məmmədquluzadə belə əsərlərdə insan xarakterlərini, onun təşəkkül və inkişafını; ictimai konfliktlərin yaranmasını və kəskinləşməsini qarşılıqlı münasibətdən doğan mükalimələr vasitəsi ilə açır. Onun zəngin və çoxsahəli ədəbi irsi içərisində dramaturgiyası xüsusi yer tutur və Azərbaycan dramaturgiyası tarixində «ictimai məzmuna, ideyasına, həm də sənətkarlıq xüsusiyyətlərinə görə» yeni mərhələ təşkil edir. Xalq yazıçısı Mirzə İbrahimov C.Məmmədquluzadə yaradıcılığı haqda yazırdı: «Cəlil Məmmədquluzadənin komediyaları Azərbaycan dramaturgiyası inkişafının üçüncü dövrünü açır. Bu dövrün xüsusiyyəti realizmin kəskin siyasi aktuallıq kəsb etməsindən, satirik dramın yaranmasındadır».[2, 48] Mirzə Cəlilin dramaturji yaradıcılığı ilk növbədə M.F.Axundovun və daha sonra N.Vəzirovun, Ə.Haqverdiyevin, N.Nərimanovun dramaturgiyası ilə sıx surətdə bağlı idi. Daha doğrusu, onların yeni zəmində, yeni ictimai-siyasi şəraitdə, ictimai-bədii fikrin ən tələtümlü dövrünün davamı idi. 1905-ci ildən C.Məmmədquluzadə yaradıcılığının inkişafında yeni mərhələ başlanır. Hər bir ədəbi növ özlüyündə janrları ilə bağlı olaraq, inkişaf mərhələləjkrindən keçir. 1905-ci illəri əhatə edən bu dövrdə ədibin hekayələri həm mövzu, həm də bədii sənətkarlıq cəhətdən daha da inkişaf edir, zənginləşir. Bu illərdə ədibin yaradıcılığını zamanın ictimai həyatı daha mühüm məsələləri məşğul edir. İlk əsərlərində əsasən kənd və kəndli həyatından, bəy-xan zülmündən yazan müəllif sonralar hekayələri üçün fəhlə həyatından da mövzu seçir.

Zəhmətkeşləri ictimai-siyasi həyatdan, səmərəli örnək və mübarizədən uzaqlaşdıran Şərq ətalətinin, dini mövhumatın tənqidi C.Məmmədquluzadə yaradıcılığında mühüm yer tutur.

Azərbaycan ictimai fikir tarixində demokratik «Əkinçi» qəzeti ilə başlanan mütərəqqi ənənəni ədibin nəşr etdirdiyi «Molla Nəsrəddin» jurnalı özünəməxsus tərzdə inkişaf etdirirdi. Jurnal xalqın dözülməz həyatı, hökumətin müstəmləkəçi siyasəti, beynəlxalq irtica, millət, din, dil, maarif, məktəb kimi mühüm məsələlərdən yazırdı.

«Molla Nəsrəddin» yalnız Azərbaycan xalqının deyil, əksər Şərq xalqlarının ictimai-mədəni həyatında mühüm rol oynadı. Jurnalın müəlliflərini «yalnız Azərbaycana aid problemlər deyil, bəlkə bütün müstəmləkə və yarımmüstəmləkə olan Şərq ölkələrinin həyatı maraqlandırırdı».

«Molla Nəsrəddin» tez bir zamanda öz ətrafına M.Ə.Sabir, Ə.Haqverdiyev, Ö.Faiq Nemanzadə, Ə.Nəzmi, Ə.Qəmküşar kimi görkəmli şair və jurnalistləri topladı.

C.Məmmədquluzadə artıq böyük bir ədəbi məktəbin başçısı, realist-satirik jurnalın redaktoru və naşiri kimi Zaqafqaziyanın mədəni həyatında baş verən hər cür mühüm mədəni kütləvi tədbirlərə, mühüm hadisələrə öz münasibətlərini bildirirdi.

C.Məmmədquluzadə 1905-1920-ci illərdə qələmə alınmış hekayələrində ən çox işlənən mövzulardan biri də qadın əsarətinə qarşı mübarizə olubdur. Ədibin bir çox hekayələri ya bilavasitə, ya da dolayı yolla bu mövzuya həsr olunmuşdur. Qadın əsarətinə qarşı mübarizə mövzusu ədibin «İranda hüriyyət», «Xanın təsbehi», «Qoşa balınc», «Pirverdinin xoruzu», «Konsulun arvadı», «Qəssab», «Molla Fərzəli» və s. hekayələrində öz ictimai-siyasi həllini bədii cəhətdən tapmışdır.

Beləliklə, C.Məmmədquluzadə hekayələrində də həmişə qadınların ağır, kölə vəziyyətinə qarşı çıxmış, onların azadlığı uğrunda ardıcıl mübarizə aparmışdır.

«Molla Nəsərddin» tez bir zamanda rəğbətini qazandığı geniş oxucu kütləsinə, vətəninin azadlıq sevən adamlarına arxalanaraq ictimai tənqid dairəsini böyütdü və məzmununu daha da kəskinləşdirdi. İstər daxildə, istərsə də xaricdə irticaçılar üçün ən qorxulu mənəvi bir qüvvə oldu. Dönə-dönə cəriməyə, senzura, təqibinə uğrayan və səhifələri ağ buraxılan, bəzən də aylarla, illərlə bağlanan «Molla Nəsrəddin»in səhifələrində oxuyuruq. «Bu gün Kərbəla meydanı- Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin bir cüzi din, vətən hissi varsa onun qeydinə qalmalıdır. Məcmuə heç nədən qorxub çəkinmədən, daim öz məqsədində, məsləkində sabit qalır». [3, 62] C.Məmmədquluzadə realizminin ən başlıca xüsusiyyəti onun xəlqiliyindədir. Ədibin yaradıcılığını diqqətlə oxuduqda görürük ki, xəlqilik təkcə milli varlıqla bağlı bir anlayış kimi əks olunmur. Bu həm də yüksək bəşəri keyfiyyətdir. Xəlqilik ədibin əsərlərində milli-həyatın, adət-ənənələrin daxili məzmunun-dan doğur. Xalqın ictimai təşəkkül və varlığının real inkişafı kimi meydana çıxır: «Sizi deyib gəlmişəm ey mənim müsəlman qardaşlarım!... mən sizlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dilində danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdən… bir ana dilini danışmaqla keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!». Cəlil Məmmədquluzadənin bədii-publisist yaradıcılığı və çoxcəhətli fəaliyyəti sözün geniş mənasında doğma xalqına və millətinə həsr olunmuşdur. Mirzə Cəlil Azərbaycan ədəbiyyatı tarixində ən Milli və bəşəri yazıçılardan biridir. Çoxəsrlik ədəbi fikir tarixindəki milli ideyalar və proseslər ədibin yaradıcılığının timsalında yüksək səviyyədə inkişaf edərək Azərbaycan ədəbiyyatının həmişəlik bədii sərvətinə çevrilmişdir.

Böyük Mirzə Cəlilin milli ideyaları və görüşləri ümumi, mücərrəd anlayış-ların, baxışların deyil, konkret olaraq mənsub olduğu xalqın və vətənin həyatı, taleyi və tərəqqisi ilə bağlı olan, birbaşa vətənə və millətə xidmət edən mükəmməl bir ədəbi təlimdir. Bu təlim, eyni zamanda Azərbaycan məmləkətinin və xalqının

istiqlalına həsr olunmuşdur. C. Məmmədquluzadə Azərbaycanda milli istiqlal ədəbiyyatının bayraqdarı və sərkərdəsidir. Ədib Azərbaycan ədəbiyyatına təkcə milli istiqlal ideyalarını və motivlərini gətirməklə kifayətlənməmiş, özü də şəxsən millətimizin istiqlalı yolunda hər cür fədakarlıqlar göstərmişdir. O, ədəbiyyatda və ictimai həyatda Azərbaycanın milli oyanışı, dirçəlişi və müstəqilliyi uğrunda mübarizənin möhkəm bünövrəsini yaratmışdır. Onun dərin Milli-ictimai məzmuna malik olan hər əsəri sanki böyük ədibin öz xalqına bəxş etdiyi mənalı bir «Hüriyyət payı»dır.

Mirzə Cəlilin bədii nəsri Azərbaycan ədəbiyyatında yeni ədəbi hadisə idi. Real həyat hadisələrinin bədii vasitələrlə təqdim edilməsi, adi, sıravi, zəhmətkeş insanların maraqlı və qəribə taleyinin təsviri, milli oyanış və dirçəlişə çağırış, sadə, koloritli dil və üslub yazıçının bədii nəsrinin-yaradıcılığının əsasını təşkil edir. C.Məmmədquluzadə realizminin mahiyyətindən danışarkən onun dramaturgiyasında başlıca olaraq müsbət qəhrəman və müsbət ideal probleminin qoyuluşunu nəzərdən keçirmək lazımdır. Müsbət qəhrəman və müsbət ideal məsələsi böyük sənətkarın zəngin ədəbi irsinin tradikomik mahiyyətini, məzmun və mündəricəsini müəyyən edir.

Ədib təsvir etdiyi hadisələrə hər vaxt öz münasibətini bildirmiş, daha çox bitərəf mövqedə dayanmışdır. Belə hallarda oxucu ədibin real və həyati səhnələrdən çıxan nəticəni, ictimai mənanı özü müəyyənləşdirir. [4, 289 ]

Ümumiyyətlə, müsbət qəhrəman məsələsi Mirzə Cəlil realizminin zəif, məhdud cəhəti hesab olunmuşdur. Bu fikrin nə dərəcədə həqiqətə uyğun olub-olmadığını müəyyən etmək üçün ədibin yaradıcılığında müsbət qəhrəman məsələsinin qoyuluşunu, onun müsbət idealı inkişaf üsulunu «Ölülər», «Anamın kitabı», «Dəli yığıncağı», «Kamança» pyeslərində axtarmaq lazımdır.

C.Məmmədquluzadə yaradıcılığının ədəbiyyatımızdakı yerini, mövqeyini, tarixi əhəmiyyətini düzgün müəyyənləşdirmək, onun əsərlərinin daxili məzmununu və ideyasını hərtərəfli açmaq olduqca çətindir. Bir çox hallarda onun ədəbi irsinə münasibətdə meydana çıxmış yanlış, qeyri-obyektiv fikirlərin, mülahizə və hökmlərin mənbəyi də bu məsələ ilə bağlıdır. Elə buna görə də dramaturqun əsərlərinin janrlarını müəyyənləşdirmək çox zaman mübahisəyə səbəb olmuşdur. Yəni komiklik ilə faciə elə qaynayıb qarışmışdır ki, bəzən onları bir-birindən ayırmaq belə mümkün olmur. Bu, ədibin yaradıcılığının və xüsusilə də dramaturgiyasının əsas xüsusiyyətlərindən biridir. Dramaturq zamanın aktual, mühüm problemlərini, ictimai-siyasi əhəmiyyətli məsələlərini, ictimai və estetik ideyalarını bu yolla həll edir; şərq istibdadına, şərq qaranlığına qarşı kəskin mübarizə aparırdı.

Filologiya elmləri doktoru, professor Mir Cəlal Paşayev «Azərbaycanda ədəbi məktəblər» monoqrafiyasında bu barədə yazır: «Dramaturgiyamızda bir sıra surətlər var ki, özü-özlüyündə müvəffəqiyyətlidir və yaddan çıxmır. Ancaq bu surətlər məhdud və dar bir dairədən kənara çıxmır və təsəvvürü məşğul etmirlər. Mirzə Cəlil

dramaturgiyasında da tiplərin açıq və müstəqil xasiyyətnaməsi verilmir. O, heç bir qəhrəmanını tərifləmir, heç bir mənfi surəti pisləmir. Onun yolu həmişə məcazi, bədii təfəkkür, kinayə, təriz yoludur».

C. Məmmədquluzadə yaradıcılığının bütün sahələrinə eyni dərəcədə müvəffəq olmuşdur. O, naşir, jurnalist, həm də dramaturq kimi qüdrətlidir. Mirzə Cəlilin dramaturgiyası onun yaradıcılıq üslubu və metodu ilə əlaqədar olaraq bir çox keyfiyyətlər kəsb etmişdir.

Böyük rus dramaturqu A.Ostrovski yazırdı: «Dramatik poeziya ədəbiyyatın başqa sahələrinə nisbətən xalqa daha yaxındır. Bütün başqa əsərlər oxumuş adamlar üçün yazıldığı halda, dram və komediyalar xalq üçün yaranır».

Xalqa yaxınlıq heç bir dramatik poeziyanı gözdən salmır, əksinə onun qüvvəsini ikiqat artırır, onu bayağılaşmağa və xırdalaşmağa qoymur. C.Məmməd-quluzadənin dramaturgiyaya müraciət etməsində başlıca məqsəd də elə budur – xalqla yaxın olmaq, hansı yolla olursa- olsun dərin yuxuda olan islam millətini oyatmaq; həqiqəti, öz insanlıq ləyaqətini başa salmaq…

«Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxın camalınıza…»

C.Məmmədquluzadənin yaradıcılığının ilk dövründə dediyi bu sözlər onun sonrakı ədəbi fəaliyyətinin, xüsusilə də dramaturgiyasının əsas cəhəti kimi diqqəti cəlb edir. Bu gülüş tənqidin kəskin formasıdır. İslah və məhvedici gülüşdür, eyni zamanda təsdiq edən qüvvədir. Mirzə Cəlil gülüşünün məzmun və mündəricəsini faciə ilə komikliyin qaynayıb- qarışması təşkil edir. «…o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz»- deyə ədib «müsəlman qardaşları»nı düşünməyə çağırırdı. C.Məmmədquluzadə yaradıcılığı, üslubunu müəyyənləşdirən əsas xarakterik xüsusiyyət güldürə-güldürə düşündürmək, insanı özünü- özünə tanıtmaqdır. Gülən adamın qəlbi tərpənir, beyni fikirləşir. «Tamaşa zalında gülüş nə qədər hiddətlə səslənərsə, saxtakarlıq və eybəcərlik bir o qədər amansızca rüsvay ediləcəkdir». [5, 15]

Mirzə Cəlilin bir dramaturq kimi gücü və özünəməxsusluğu da bundadır-təlqin etdiyi müsbət idealını gülüş vasitəsi ilə çatdırır; məkrli fikirləri, saxtakarlığı, eybəcərliyi isə gülüş ilə ələ salır, qamçılayır, məhv edir və gerçəkliyin ziddiyətlərini açır. Müəllif tendensiyası birbaşa deyil, bilavasitə vəziyyətin və hadisələrin özündən meydana çıxır. «…Balamı saldat aparcaqlar, bala vay! Balamı uşkola aparcaqlar, bala vay! Balamın üzünə həsrət qalacam, bala vay!» - deyə çarşablı arvadların dizlərinə döyə-döyə ağlaşmaları, tutduqları matəm gülünc olsa da, dramaturqun oxucuda və tamaşaçıda yaratmağa çalışdığı ictimai və estetik ideal bu vəziyyətin özündən doğur. Bu gülüş «get bu saat uşağını gətir, yoxsa dərini soyaram»-deyə əlində şallaq kəndliləri döyə-döyə əmr verən çavuş Nəzəralıları yüzbaşılar aləminə yönəlmiş tənqidi görmək o qədər də çətin deyildir. Teatrşünas alim C.Cəfərov «Ölülər» əsərindən danışarkən yazırdı: «O, tragediya deyil, komediya yazmışdır». Lakin onun böyüklüyü ondan ibarətdir ki, komik surətlərin arxasında gizlənən həyati,

faciəni, dəhşətli həqiqəti görə bilmişdir. Bu görüntü elə faciədir: Cahilliyin, fanatizmin doğurduğu faciədir. İsgəndərin, Cəlalın, Nazlının, Gülbaharın faciəsidir. Sözün geniş mənasında bütün Şərqin faciəsidir. Professor Cəfər Cəfərov məsələnin bir tərəfini açıqlamamışdır.

C.Məmmədquluzadənin təkcə «Ölülər»-ində deyil, «Anamın kitabı», «Danabaş kəndinin məktəbi», «Dəli yığıncağı» əsərlərində də müsbət ideal daha çox köhnəliyin amansız ifşa və inkarından doğur. Ədibin pyeslərindəki idealın gücü, idrakı qüvvəsi köhnə cəmiyyətin, tənqid hədəfi kimi götürülmüş tiplərin real, təbii təsviri və həqiqi inikas səviyyəsilə bağlıdır. Burada hər şey öz yerində olduğu üçün müsbət idealın tamamlanmasına kömək etməli olan kənar vasitələrə, qəhrəmanlara çox az, bəlkə də heç bir ehtiyac qalmır.

**Ədəbiyyat:**

1. Mir Cəlal. Azərbaycan ədəbi məktəblər. «Ziya-Nurlan» NPM. Bakı, 2004, səh.68
2. M. İbrahimov. Böyük demokrat. Bakı, 1948
3. Mir Cəlal Azərbaycanda ədəbi məktəblər. «Ziya-Nurlan» NRM. Bakı 2004.səh.62
4. X.Əlimirzəyev. Problemlər və xarakterlər dramaturgiyası – 1979.səh – 289.
5. "Molla Nəsrəddin", Bakı 1986, I cild,səh 15

**Xülasə**

XIX əsr Azərbaycan ictimai fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmişdir. Cəlil Məmmədquluzadə belə insanlardan biri idi və Azərbaycan demokratik mətbuatın banisi sayılır.

Azərbaycan ədəbiyyatının ən zəngin dövrlərindən sayılan XIX əsrin 60-cı illərində doğulan, XX əsrin on illiyində geniş fəaliyyət göstərən simalardan biri də Mirzə Cəlildir. Ədibin hərtərəfli fəaliyyəti Azərbaycan ədəbiyyatında tənqidi realizm, satira, demokratik fikirlər üçün geniş meydan açıldı. Cəlil Məmmədquluzadənin qoyub getdiyi irs-zəngin xəzinə xalqımızın varlığı, keçmişi, bu günü və gələcəyi ilə sıx bağlıdır. Cəlil Məmmədquluzadənin elə bir əsəri yoxdur ki, orada xalqımızın dərd-bəlasına əsl vətən oğlu kimi ürək yanğısı ilə yanaşılmasın. Azərbaycanın həyatı və məişətinin aynası olan «Molla Nəsrəddin» jurnalı Cəlil Məmmədquluzadə yaradıcılığında müstəsna yer tutur. O, böyük bir ədəbi məktəb yaratmış Azərbaycan ədəbiyyatında yeni bir cığır açan ədibdir.

C.Məmmədquluzadə yaratdığı «Molla Nəsrəddin» məcmuəsi Azərbaycanda xalq hərəkatının məna və ruhunu ifadə edən ən nifuzlu bir mətbuat olaraq tanınmışdı. İstər Azərbaycanda, istərsə də İran və Türkiyədə zülmkarlara, istismarçılara qarşı aparılan şərəfli mübarizələrdə də «Molla Nəsrəddin» mütərəqqi iş görmüşdür.

**Summary**

**THE UNIQUENESS OF JALIL MAMMADGULUZADEH'S DRAMATURGY**

19th century gave great personalities to the history of public opinion of Azerbaijan. Jalil Mammadguluzadeh was one of such people and is considered the founder of democratic press in Azerbaijan.

Mirza Jalil was born in the 60s of the 19th century, which is one of the richest periods of Azerbaijani literature, and was widely active in the decade of the 20th century. The comprehensive activity of the writer opened a wide field for critical realism, satire, and democratic ideas in Azerbaijani literature. The rich heritage left by Jalil Mammadguluzadeh is closely related to the existence, past, present and future of our people. There is no work by Jalil Mammadguluzadeh in which the troubles of our people are not treated with heartburn as a true son of the country. "Molla Nasreddin" magazine, which is a mirror of Azerbaijan's life and everyday life, occupies an exceptional place in Jalil Mammadguluzadeh's creativity. He is a writer who created a great literary school and opened a new path in Azerbaijani literature.

The collection "Molla Nasreddin" created by J. Mammadguluzade was recognized as the most influential press expressing the meaning and spirit of the people's movement in Azerbaijan. "Molla Nasreddin" has done progressive work in the honorable struggles against oppressors and exploiters in Azerbaijan, Iran and Turkey.

**УНИКАЛЬНОСТЬ ДРАМАТУРГИИ ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ**

Азербайджан оставил великих личностей в истории общественного мнения XIX века. Джалил Мамедгулузаде был одним из таких людей и считается основоположником демократической прессы в Азербайджане.

Мирза Джалил родился в 60-е годы 19-го века, что является одним из самых богатых периодов азербайджанской литературы, и активно работал в десятилетие 20-го века. Всесторонняя деятельность писателя открыла широкое поле для критического реализма, сатиры, демократических идей в азербайджанской литературе. Богатое наследие, оставленное Джалилом Мамедкулизаде, тесно связано с существованием, прошлым, настоящим и будущим нашего народа. Нет произведения Джалила Мамедгулузаде, в котором к бедам нашего народа не относились бы с изжогой как истинный сын страны. Журнал «Молла Насреддин», являющийся зеркалом жизни и быта

Азербайджана, занимает исключительное место в творчестве Джалила Мамедкулизаде. Он писатель, создавший большую литературную школу и открывший новый путь в азербайджанской литературе.

Сборник «Молла Насреддин», созданный Дж. Мамедгулузаде, был признан самым влиятельным изданием, выражающим смысл и дух народного движения в Азербайджане. «Молла Насреддин» проделал прогрессивную работу в благородной борьбе против угнетателей и эксплуататоров в Азербайджане, Иране и Турции.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: dos. Axundova Nəzmiyə M.q.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**SELCAN QAFFARLI**
**Bakı Dövlət Universiteti**
**Akademik Zahid Xəlilov küçəsi - 33**
**Selcangafarli95@gmail.com**

# SATİRİK ŞEİR İKİ DÖVRÜN YOLAYRICINDA

**Açar sözlər:** *Satira, sosial, ziyalı, aşıq, realist, ruhani, tənqid, cəmiyyət, maarifçi, xalq, problem, şair, həqiqət, poeziya, tərbiyə*

XIX əsr Azərbaycan ədəbiyyatında satirik poeziyanın görkəmli nümayəndələrindən biri də S.Ə.Şirvanidir. Əsrin birinci yarısında daha çox Baba bəy Şakir, Qasım bəy Zakir, Mirzə Baxış Nadimlə özünü büruzə verən satirik poeziya artıq XIX əsrin ikinci yarısında S.Ə.Şirvani kimi sənətkarların yaradıcılığında yeni məzmun kəsb edir. Məhz bu zamandan başlayaraq milli satirada maarifçi məfkurə daha da güclənir. Q.Zakirin satiraları məktəbsiz, mətbuatsız bir cəmiyyətin problemləri, qayğıları ilə bağlı idisə, S.Ə.Şirvani satiraları tamam başqa bir ictimai-ədəbi mühitin, yeni tarixi şəraitin məhsulu idi. Elə məhz buna görə də, Şirvaninin fəaliyyəti ilə Azərbaycan poeziyasında satirik ədəbi cərəyan yeni bir mərhələyə çatır.

Şirvanin satira yazmağa təhrik edən amillər həm şəxsi həyatda yaşadığı məşəqqətli hallar, həm də ictmai mühitdə gördüyü ədalətsizliklər idi. "Şikayət" adlı şeirində şairin ailəsinin ehtiyac içində olduğunu, çörəksiz qaldığını göstərməklə bərabər evini qəbrə bənzədir, ailəsini diri ikən ölü adlandırır. Əslində, bu vəziyyət təkcə şairin ailəsi üçün yox, o dövrün bütün insanları üçün keçərli idi. Şirvani insanların belə vəziyyətdə yaşamasının səbəbini dövlətin zəifliyində görürdü. Bu vəziyyətlə bağlı Şirvanin "Ziya" və "Kəşkül" qəzetlərində çap etdirdiyi lakin çar senzurasına məruz qalan iki məqaləsi vardır. S.Hüseynov bu məqalələr haqqında ətraflı məlumat verərək yazır: *"Ziya"dakı məqalədə Şirvani haqqında danışdığımız məsələlərlə bağlı hökuməti xəbərdar edirdisə, "Kəşkül"dəki məqalədə bilavasitə hökümətin özünü tənqid edirdi"* [3, s. 39]. Bütün haqsızlıqları görən şair onu düşündürən mövzuları qələmə almaq üçün lirik növün müxtəlif janrlarından istifadə etməyi zəruri sayırdı. O artıq başa düşürdü ki, yazılması vacib olan mətləblər qəzəlin məhdud çərçivəsinə sığmır. Deməli, Şirvanin satiraya keçməsini təsadüfi hesab etmək olmaz. Şair mənəvi olaraq inkmişaf etdikcə onun öz mühiti ilə əlaqəsi də genişlənirdi. Nəticə olaraq, mühitin özü şairi satirik kimi yetişdirmişdi.

Şairin yaşadığı cəmiyyətdə islam-feodal zehniyyəti hökm sürür, din xadimləri avam camaatın nadanlığından istifadə edib onları ədalətsziliklərə məruz qoyurdular. Belə bir şəraitdə din xadimləri əleyhinə mübarizə aparmaq böyük bir cəsarət tələb edirdi. Kəskin satiralaradan biri olan "Allaha rüşvət"də quraqlıqdan təngə gəlmiş

elmsiz, avam camaatın göydən yağış yağdırmaq üçün Tanrıya rüşvət vermək istəməsindən bəhs olunur.

"Allaha rüşvət" satirasında "kəndxuda" ilə ova çıxmış həmin şəxsin arasında baş verən hadisənin təsvirində şairin Allaha və onun simasında hakim qüvvələrə, özlərini "naibi-zaman" hesab edən ruhanilərə qarşı istehzası daha da kəskindir. Burada sadəlövh kəndxudanın satirik obrazı nə qədər real, təbiidirsə, avam xalqı soymağa adət etmiş əmirin obrazı da eyni dərəcədə inandırıcıdır. Şair "Allaha rüşvət" satirasının sonunda təsvir edir ki, Allahın vəd etdiyi həmin gün yağış yağır, *"Sel yeddi qarışa"* çıxır. Bunun nəticəsində xalq daha da ağır bir vəziyyətə düşür. Bəzi alimlər bu satirada Şirvanin ateist dünyagörüşündə olduğunu söyləyirlər. Bunu da satirada Allahın "adilliyi" barəsindəki dini əfsanələrə inamsızlığın təbliğ olunması ilə əsaslandırırlar. K.Məmmədov qeyd edir: *"Allah istər müsbət, istər mənfi surətdə təsvir olunsun, təfavütü yoxdur, Allaha inanmamağın nəticəsi idi"* [4, s. 242]. Alim Şirvaninin Allahı islamın qanunlarına zidd olaraq insan kimi təsvir etməsini və satirada Allahın "tədbiri" nəticəsində bütün məhsulları məhv olan kəndlilərin Allahın üzünə ağ olaraq onu əfələ bənzətmələrini öz fikrinə arqument olaraq gətirir. K.Məmmədov qeyd edirki, satirada insanların dilindən eşitdiklərimiz, əslində, Şirvanin fikrinin məhsuludur. S.Hüseynov isə bu barədə alimlərin fikirlərini ilə razılaşmır və monoqrafiyasında qeyd edir: *"Şirvani Axundov kimi ateist olmamışdır onun dünyagörüşündə dinin qüvvətli təsiri aşkarlanır. Lakin öz əsrinin qabaqcıl adamı kimi dinə passiv münasibət bəsləmiş, yaradıcılığında mövhumatı, fanatizmi tənqid etməyə geniş yer vermişdir..."* [3, s. 154]. Qeyd etmək yerinə düşərdi ki, Şirvani yaşadığı dövrdə saxta dindarların, ruhanilərin xalqa verdikləri zülmlərin və onları necə aldatmasının şahidi olmuşdur. Dəfələrlə yalançı vaizləri satiralarının tənqid obyekti etmişdir. Əslində, fikrimizcə, şairin əsas inamsızlığı Allahın adından istifadə edərək xalqı talayan ruhanilərə idi. İslam düşüncəsinə görə, maddiyyat düşkünləri axirəti qazana bilməzlər. Şirvani düşünürdü ki, bəs onda ruhanilər bu qədər sərvəti nə edirlər? Niyə xalqı talayırlar? R.Əhmədli bu barədə yazır: *"Əzimin fikrincə, biz nə bu dünyanı qazanıb inkişaf etmişik, nə də mənəvi cəhətdən inkişaf etmişik...50 min seyid, 50 min axund, 50 min tələbə...50 min hoqqabaz var. Bunların hamsının məqsədi xalqı soymaqdır"* [2, s. 102]. Şirvani bütün bu cahillikdən xilas olmağın yolunu yalnız elm öyrənməkdə görürdü. Fikirlərimizi ümümiləşdirərək deyə bilərik, bəzi alimlərimiz Şirvanin ateist mövqədə olduğunu söyləsələr də, şair elm öyrənməyin vacib olduğunu vurğulayarkən "Quran"a istinad edərək Həzrəti-Məhəmməddən sitat gətirirdi. Fikrimizcə, ateist olan bir kəs Allahın peyğəmbərinə və onun müqəddəs kitabına inanmazdı.

Şairin "Yerdəkilərin göyə şikayəti" satirasında isə Allah dünyanın işlərindən məhrum olmuş, saqqalı ağarmış, beli bükülmüş bir qoca kimi təsvir olunur. Şair satirada özünü mürtəce qüvvələrini hədəfərindən qorumaq üçün təsvir olunan hadisəni qeyri-müəyyən bir zamana aid edir. Satirada şair Allahı və İsa peyğəmbərin bədii obrazlarını yaradır. Dünyanı hərc-mərclik, qətl, qarət və zülm bürüyəndə

camaat bir yerə toplaşıb Allaha şikayət etmək qərarına gəlir. Ancaq əsərdə bütün dünyada qətl-qarətlərdən insanların bezdiyini söyləyən yerdəkilərin şikayətinə cavab olaraq, dünya işlərindən tamamilə əl üzmüş bir qoca kimi təqdim olunan Allah onların dərdinə heç bir çarə etmir. Ruhanilər İsanın yanına təşrif gətirirlər. Şair İsanın dili ilə riyakar ruhaniləri tənqid edir. Çünki bir-birinə qənim kəsilmiş bu bəndələr olduqca qəddar və zülmkardırlar. Əsərin əsas gülüş hədəfi avam camaat və nadan ruhanilərdir. Camaat elmsiz olduğundan hiyləgər və yalançı ruhanilər onu aldadır, var-yoxunu əlindən alırlar. Bu satirada əslində, şairin məqsədi nə dini dünyagörüşünü, nə də Allahın varlığına inanmadığını təbliğ etmək olmamışdır. S.Hüseynov öz monoqrafiyasında Ə.Səidzadənin məqaləsindən söhbət açır. Alim Ə.Seyidzadənin *"Bütün bunlar Şairin Allahsız olduğunu tamamən sübüt edir"* [6] fikrinə etiraz edərək: *"Seyid Əzim əsərlərində heç vaxt Allaha etiraz etməmiş, dini tənqiddə ateizmə qədər yüksəlməmişdir"* – cavabını vermişdir [3 s. 141]. S.Hüseynovun fikri ilə razılaşaraq deyə bilərik ki, bu əsərdə satirikin məqsədi tam başqadır. Belə ki, şair bu satira vasitəsilə təsvir etdiyi hadisələrdən belə nəticə çıxarır ki, hər bir dərdin çarəsi insanın öz əlindədir. Xalq öz müşkülünü özü həll etməlidir. Xalq hər hansı bir fəlakətin dərd-bəlanın çarəsi üçün Allahdan və onun yerdəki naiblərindən kömək gözləmək əvəzinə, özünü real həyatın çətinliklərindən qurtarmağı bacarmalıdır. Çünki insanların həyata baxışları din adı ilə çərçivələrə salınmış, mütərəqqi ideyalara, maarifə, inkişafa yadlaşdırılmışdır. Bu yadlıq onların zülm içində yaşamasına mane olurdu. Şirvani də satiraları ilə təbliğ edirdi ki, insanların boş xülyalardan, mövhumi fikirlərdən qorumaq üçün başlıca vasitə onu maarifləndirməkdir.

Ruhani silkinin müxtəlif nümayəndələrini ifşa etməkdə xüsusi yaradıcılıq məharəti göstərən Seyid Əzim satirasının ən acı gülüş hədəfi mollalardır. Şair dini dinara satan yalançı şəriət xadimlərinin mənəvi-əxlaqi eybəcərliklərini ən çox özünün yaratdığı molla surətlərinin timsalında ümumiləşdirmişdir. "Köpəyə ehsan", "Molla və çoban əhvalatı" kimi əsərlərində isə Seyid Əzim yalançı, ikiüzlü, müftəxor mollaların daxili aləmini, onların gülünc, eybəcər simasını yaddaqalan əhvalat və hadisələr fonunda işıqlandırır. "Köpəyə ehsan" bir sıra xalqların şifahi və yazılı ədəbiyyatında mövcud olan "itin insan qəbristanlığında dəfni" süjeti əsasında yazılmışdır. İtin insan qəbristanlığında dəfnindən qəzəblənən şəriət təəssübkeşi ona vəd olunan bəxşiş qarşısında tamam yumşalaraq nəinki, öz fikrindən çəkinir, hətta əvvəlki etirazının, qəzəbinin əksinə olaraq, qanunların pozulmasına bəraət qazandırır. Dini-mənəvi qaydaları pozan adamı cəzalandırmaq məqsədilə gələn Molla ona çatacaq əlli qoyun haqqında məlumat alanda əvvəlki fikrindən vaz keçir və:

*İt demə, ol dəxi bizim birimiz.*
*Belə ölmüşlərə fəda dirimiz* [7, s. 114 ].

– deyə Hacının əməlinə haqq qazandırır. Beləliklə, "Köpəyə ehsan" satirasında din, şəriət qanunlarına riayət etməyənlərə qarşı amansız olmağı tələb edən molla rüşvət qarşısında dəyişilir, öz əvvəlki qərarından əl çəkib, dövlətlinin itə ehsan verməsinə

haqq qazandırır, iti tərifləyir və ona insani sifətlər verir. Molla özünün tamahkarlığını, rüşvətxorluğunu pərdələmək məqsədilə dini rəvayətlərə əl atıb, köpəyə ehsanın şəriət qanunlarına uyğun olduğunu isbat etməyə çalışır. Hətta itə "Yasin" oxuyub, özü də ona matəm saxlayır. *"Dünya folklorunda və yazılı ədəbiyyatında geniş yayılmış bir süjet əsasında yazılmasına baxmayaraq, "Köpəyə ehsan" orijinal bir əsərdir. O, Azərbaycan zəmini, həyatı və məişəti ilə sıx bağlı olan özünəməxsus bədii təfəkkür məhsuludur"* [4, s. 198]. Bu əsərdə əhvalatların təhkiyə üsulu, situasiya və xarakterlərin satirikləşdirilməsi, surətlərin bədii canlandırılması tamamilə yenidir. Gülüşün daxili məzmunu satirik istehza, kinayə və məsxərə ilə zəngindir. Molla isə təkcə ikiüzlü, yalançı və tamahkar olmasına görə deyil, həm də bicliyi, ağlı və hazırcavablığı ilə sələflərindən seçilir.

Tamahkar, yalançı mollalara qarşı "Köpəyə ehsan"dakı kəskin istehzanı Seyid Əzimin "Molla və çoban əhvalatı" əsərində daha da qüvvətləndirmişdir. Yığcam bir əhvalat kimi yazılan həmin əsərdə satirik gülüşün hədəfi yenə ikiüzlü mollaların tamahkarlığı və nəfsgirliyidir.

Şeirdə molla da çobanı "dəğəl"-hiyləgər, xəbis adlandıraraq onu fikrindən çəkindirmək üçün şeytanın sözünə qulaq asmamağı təlqin edir, şeytanın insana düşmən olması haqda "Quran"dan ayə gətirib onu lənətləyir. Lakin şeytanın buyuruğu ilə çobanın ona iki quzu bağışlamaq istədiyini eşidən molla dərhal şeytan haqqında əvvəlki fikrini dəyişir və həyatda salamat qalmaqdan ötrü bəzən şeytanın da sözünə qulaq asmağı çobana məsləhət görür.

Əhatəli məzmunu ilə seçilən "Şirvanın təzə bəyləri" şeirində Seyid Əzim lirik janrda satirik məzmun ifadə etməyin gözəl nümunəsini yaratmışdır. Sarsıdıcı və öldürücü gülüş, kəskin istehza və kinayə, tənqid hədəfinə qarşı nifrət və qəzəb hissi, əhvalat və xarakterlərin canlı bədii lövhələrlə təqdimi bu əsərin əsas məziyyətləridir. Burada həm imperatorun nümayəndəsi, həm bəylik hüququ verən komissiya, həm də ərizəçilər və şahidlər vardır. Belə tənqid üsulu isə təkcə ayrı-ayrı ictimai zümrələrə məxsus neqativləri deyil, bütövlükdə cəmiyyəti bürüyən sosial bəlaları tam və aydın görməyə imkan yaradır.

Şirvanin "Şamaxının təzə bəyləri" adlı satirası da eyni mövzuda yazılmışdır. Z.Əsgərli "Seyid Əzim Şirvani" adlı tədqiqatında haqlı olaraq deyir ki*: "Şamaxının təzə bəyləri»ni həcv satirası məzmunca «Şirvanın təzə bəyləri haqqında" əsərinin davamıdır*" [1, s. 38]. Hər iki satirada Şirvanın, Şamaxının timsalında bir anlığa o dövrün bütün Qafqazı, o cümlədən, bütün Azərbaycan görünür. Çar hökumətinin yerlərdə rüşvətxorluğa, rəzalətə rəvac verməsi, qabiliyyətsiz insanların başa çıxması, əsilli-nəsilli insanların nəzərdən, hörmətdən salınması acı təəssüflə yanaşı, hiddət və qəzəb doğurur, kəskin istehza ilə qarşılanır. Şirvan bəylərindən bəhs edən müxəmməsdən fərqli olaraq, həcvdə tənqid hədəfi daha konkretdir. Seyid Əzim, ümumiyyətlə, Şirvan bəylərindən deyil, on iki nəfər Şamaxı bəyindən söhbət açır. Müxəmməsdə bədii ümumləşdirmə, həcvdə isə fərdləşdirmə güclüdür. Burada şair

bəy komissiyasının iş üslubunu ifşa edir. Satiranın üstün cəhətlərindən biri də cəmiyyətdə pulun oynadığı rolu açıq şəkildə ifşa etməsidir.

Qasir Azərbaycan şeirində kapitalist münasibətlərinə toxunan və buna qarşı etiraz edən ilk şairdir. O, başa düşürdü ki, əslində tarixən heç bir təhkimçilik ziddiyyətləri olmamış Azərbaycanda Rusiyanın problemlərindən irəli gələn çar fərmanının tətbiqi əslində burada milli xanlıq-bəylik münasibətləri qalıqlarının tamamilə məhv edilməsinə, beləliklə, millətin özü içərisindən liderlər müəyyənləşməsinin qarşısının alınmasına və deməli, milli- mənəvi dəyərlərin, ənənəvi müsəlmançılıq münasibətlərinin məhv edilib, onlann pul-kapitalist münasibətləri ilə əvəzlənməsinə, bir sözlə, Azərbaycan mədəniyyətinin, azərbaycanlı şüurunun biryolluq kölələşdirilməsinə yönəldilmişdi. Odur ki, bu böyük sənətkarın əsərlərində kapitalist münasibətlərinin ifşası, pulun cəmiyyətdə iyrənc bir mövqe tutması, milli-mənəvi dəyərləri sıxışıdırıb məhv etməsi bədii ifşa olunmamış qalır. *"Tarix göstərir ki, Azərbaycanın klassik sənətkarlan öz dövrlərindəki haqsızlıq və zülmü tənqid etməkdə bir o qədər də sərbəst olmamışlar. İrticanın çomağı, yeni dövrdə isə çar senzurasının qanlı qələmi daim onların gözü qabağında gəlib durmuşdur"* [5, s. 73]. Seyid Əzimin poeziyasında da belə vəziyyət özünü büruzə verir şair ya pulun cəmiyyətdə mövqeyini hiss etməmiş, ya da çar métropoliyasından Azərbaycana ixrac edilən yeni münasibətlərə toxunmamağa üstünlük vermişdir.

Qasir pulun insanlar arasında zümrə fərqlərini dərinləşdirdiyini, ictimai ziddiyyətləri artırdığını, çərxi-fələyi tamamilə tərsinə fırlatdığını görür. Ümumiyyətlə, Qasirin satira yaradıcılığında pula, qara pula, əskinasa, kapitala həsr olunmuş bir sıra silsilə şerlər vardır ki, ideya-məzmun etibarilə bunların hamısı bir-birini tamamlayır, şairin kapitalist münasibətləri haqqında dünyagörüşünü əks etdirir. Qasir yaradıcılığında cəhalətin, geriliyin, hətta o dövr üçün belə köhnə fıkirliyin tənqidi, yenilik uğrunda mübarizə motivləri, təhsil almağa, maarifə qoşulmağa çağırış əsas yerlərdən birini tutur.

*"Hər zaman "ibrət götür girdari-şeyxü nabidən" deyən şair "tifli-məktəb"in "əbcədü dəftərdən agah" olmadığından məyus olur, bütün bunların vilayətdə kizbü-böhtana, yalançılığa, insanlar arasında bir-birinə pis münasibətlərin yaranmasına yol açdığını görür, bütün hirsini "sən öləsən!" nidası ilə kağıza tökür"* [5, s. 75]. Bu mənada şairin "Anlamadım" şeiri çox səciyyəvidir. Nadanlıqdan camaat ancaq var-dövlət, cah-cəlal yığmaqla məşğuldur. Şair əsl xoşbəxtliyin, tərəqqinin oxuyub təhsil almaqda olduğunu, xalqın öz mənliyini qoruya bilməsinin açarının maarifçilikdə olduğunu dərk edir. Pulun çox ədalətsizliklər törətdiyini və yaramaz adamlara qismət olduğunu göstərir. Ümumiyyətlə, Qasirin satira yaradıcılığında pula, qara pula, əskinasa, kapitala həsr olunmuş bir sira silsilə şerlər vardır ki, ideya-məzmun etibarilə bunların hamısı bir-birini tamamlayır, şairin kapitalist münasibətləri haqqında dünyagörüşünü əks etdirir.

XIX əsr Azərbaycan satirasında Qasir birinci şəxsiyyətdir ki, qadın hüquqsuzluğu məsələsinə öz yaradıcılığında geniş yer verir. Zakir və Seyid Əzim

satirasında qadın problemi böyük bir məsələ kimi qoyulmamış, sonralar Mirzə Cəlil, Sabir, Yüsif Vəzir kimi bir sıra ədiblərimiz tərəfindən inkişaf etdiriləcək bu mövzu ilk dəfə bu qədər dolğunluğu ilə Qasir poeziyasında işlənmişdir. XIX əsrin məşədibadlarının, gülnazlarının taleyini ilk dəfə Qasir görüb-sezmiş və kəskin atəşə tutmuşdur. Şair öz yaradıcılığında qadın məsələsinə ya birbaşa toxunaraq, bu mövzuda şerlər yazmış, ya da ayrı-ayrı şeirlərində nadan və cahil xalq kütlələrinin rəzilləşmiş dünyagörüşləri fonunda adiləşmiş belə eybəcər hallara toxunmuşdur.

Şeirin özünün məzmunundan məlum olur ki, Qasir cavanlığında Balaxanım adlı bir gözələ vurulmuş, lakin atası onu bir qocaya satmış, beləliklə, cəhalətdən doğan bir bəlanı öz taleyində hiss edəndən sonra o, qadın hüquqsuzluğunu ifşa edən "Balaxanım" adlı satirik şeirini yazmışdır. Tədricən bu həyatdan baş çıxarmağa başladıqca, Azərbaycan qadınının "malü əşya" kimi satılıb-alındığını öz gözləri ilə gördükcə, Qasirin hiddəti artır, belə ədalətsizlikdən yana-yana "Ərə verdi" şeirini yazır.

M.İ.Qasir irsinin tədqiqatçılarından M.Talışlı 3 cildlik əsərlərinin I cildində M.İ.Qasirin şeir yaradıcılığından danışarkən onun "Əskinas" şeirilə M.Ə.Sabirin "Məsləhət" satirasını müqayisə edərək qənaətlərə gəlmişdir*: "Qasirdən və Sabirdən misal gətirdiyimiz bəndlərin hər ikisində vəznin, qafiyənin, formanın, satirik üslubun, hətta dil sadəliyinin çox yaxınlığı istər-istəməz adamı düşündürür. Demək olar ki, Qasir XX əsrin Sabir kimi sənətkarlarına və onun ədəbi məktəbinə də təsir göstərə bilmişdir"* [8, s. 48].

Mirzə İsmayıl Qasir öz yaradıcılığına "Məcnun" təxəllüsü ilə yazdığı farsca və azərbaycanca qəzəlləri ilə başlamışdır. Onun lirika yaradıcılığının böyük əksəriyyəti həyatının İran dövrü və Lənkərana gəlib çıxmamışdan qabaqki illərə aid edilə bilər. Lənkəran mühitində isə Qasir bütün gücünü-qüvvəsini maarifçiliyə, yaratdığı ədəbi məclisə, məclisçilik hərəkatının Azərbaycanda yayılıb-möhkəmlənməsinə yönəltmiş və bu yolda çox böyük maneələrlə qarşılaşdığından onun yaradıcılığında mübarizlik, ifşaçılıq, satira əsas mövqeyə keçmişdir. M.İ.Qasirin ədəbi irsi klassik üslubda yazılmış qəzəllərdən, tərcibənd, tərkiband, qitə və rübailərdən, eləcə da mənzum məktublarından, satiralardan ibaratdir. Aşiqanə səpkidə yazdığı şeirlər, xüsusilə "Eylon", "Dogan", "Galir","Düşdü", "Bax" rədifli qəzəlləri orijinal deyim tərzi,hisslərin əlvanlığı ilə maraq doğursa da, Qasir yaradıcılığında satirik şeir yaradıcılığı xüsusi bir önəm daşıyır. M.İ.Qasirin satirik üslubda qələmə aldığı şeirləri mövzu və motivlər sisteminə görə aşağıdaki şəkildə qruplaşdırmaq olar: 1. Fərdi mahiyyət daşıyan həcvlər; 2. Yumoristik tənqidi şeirlər; 3. Yeni tipli satiralar.

Şairin mənzum məktub və həcvlərində ictimai kəskinlik yoxdur. Bu şeirlərin böyük əksəriyyəti məişət zəminində olan məsələləri işıqlandırmış gülüş doğurmaq, yaxud zarafat, ələ salmaq təriqi ilə yazılmışdır. Bir cəhəti də diqqətə çatdırmaq istəyirik ki, "Fövcül-füsəha"nın üzvləri arasında həcvvari məktublaşmaq, şeirlə bir-

birinə cavab vermək, bəzi hallarda konkret bir şəxsi tənqid hədəfina çevirmək bir adət halını almışdır.

XIX əsr Azərbaycan satirasının adı Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus sanballı yer tuta biləcək gözəgəlimli nümayəndələri içərisində Qasir birinci şəxsiyyətdir ki, qadın hüquqsuzluğu məsələsinə öz yaradıcılığında geniş yer verir. Zakir və Seyid Əzim satirasında qadın problemi böyük bir məsələ kimi qoyulmamış, sonralar Mirzə Cəlil, M.Sabir, Yusif Vəzir kimi bir sıra ədiblərimiz tərəfindən inkişaf etdiriləcək bu mövzu ilk dəfə bu qədər dolğunluğu ilə Qasir poeziyasında işlənmişdir. XIX əsrin məşədibadlarının, gülnazlarının taleyini ilk dəfə Qasir görüb-sezmiş və kəskin atəşə tutmuşdur. Şair öz yaradıcılığında qadın məsələsinə ya birbaşa toxunaraq, bu mövzuda şerlər yazmış, ya da ayrı-ayrı şerlərində nadan və cahil xalq kütlələrinin rəzilləşmiş dünyagörüşləri fonunda adiləşmiş belə eybəcər hallara toxunmuşdur.

Yeni əsrdə isə Mirzə Ələkbər Sabir və onun müasirləri kimi mütərəqqi ziyalılarımız Qasir poeziyasındakı ruhu və ideyanı mənimsəyib, davam və inkişaf etdirmiş, daha yüksək zirvələrə qaldırmışlar. Əgər Qasir yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixin də satiranın təşəkkülü və inkişafını öyrənmək baxımından maraq çəkirsə, ikinci, tərəfdən, Qasir şeirinin tədqiqi bütünlükdə XIX əsr boyu Azərbaycan ədəbiyyatının inkişafını, yeni ədəbiyyatın meydana gəlməsini, klassik ənənələrdən yeni-yeni forma və məzmun faktlarının meydana çıxması prosesini izləməyə imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Əsgərli, Z. Seyid Əzim Şirvani / Z.Əsgərli. – Bakı: Elm, – 2005. – 64 s.
2. Əhmədli, R. Seyid Əzim Şirvanin fəlsəfi görüşləri / R.Əhmədli. – Bakı: Elm, – 2005. – 196 s.
3. Hüseynov, S. Seyid Əzim Şirvaninin yaradıcılıq yolu / S.Hüseynov. – Bakı: Elm, – 1977. – 218 s.
4. Məmmədov, K. XIX əsr Azərbaycan şeirində satira / K.Məmmədov. – Bakı: Elm, – 1975. – 273 s.
5. Rəhimova, A. Mirzə İsmayıl Qasir / A.Rəhimova. – Bakı: Nurlan, – 2002. – 132 s.
6. Seyidzadə, Ə. Pir qəbrində it basdırılıbmış // Azərbaycan müəllimi. – 1964, №10, 2 fevral.
7. Şirvani, S.Ə. Seçilmiş əsərləri: [3 cilddə] / S.Ə.Şirvani. – Bakı: Avrasiya Press, – c. 2. – 2005. – 384 s.
8. Talışlı, M. Əsərləri: [3 cilddə] / M.Talışlı. – Bakı: Adiloglu, – I c. – 2006. – 390 s.

# SATİRİK ŞEİR İKİ DÖVRÜN YOLAYRICINDA


## XÜLASƏ

Satira fəal həyat mövqeyinin ortaya qoyulması səbəbindan yaranır, o, loyallıq barışdırıcılıq sevmir, konkret mövqeyi ilə seçilir. Belə bir münasibət insanı daha fəal olmağa, pisi yaxşıdan, ağı qaradan ayırmağa səfərbər edir. Tənqidi şeirin qoyduğu qayəyə, xidmət etdiyi həyati ideallara diqqət yetirsək, burada işığa, irəliləyişə köklənərək şərə qarşı kəskin, amansız bir vuruş olduğunu görmək mümkündür. Poetik düşüncə yaranan gündən bu vuruş ədəbiyyata yol yoldaşı olmuş, müxtəlif şəkillərdən, deyimlərdən cilalanaraq özünün ən yüksək mərhələsinə – yeni tipli inqilabi satira mərhələsinə qədər yüksəlmişdir.

Odur ki, Azərbaycan ədəbiyyatının inkişafında, milli və ümumbəşəri dəyərlərin əldə olunmasında, işıqlı idealların, nəsillərdən-nəsillərə daşınmasında, insanların şərə, ədalətsizliyə, cahilliyə, hər cür naqisliklərə qarşı köklənməsində, şəxsiyyət olaraq hər bir fərdin öz mövqeyini ortaya qoymaq bacarığının formalaşmasında poeziyanın, xüsusən də satirik ədəbiyyatın, satirik şeirin müstəsna ədəmiyyəti və rolu şəksiz-şübhəsizdir. Məqaləmizdə iki övrün yolayrıcında dedikdə biz onu nəzərdə tutmuşuq ki, XIX əsrin sonunda satira özünün ən pik zirvəsinə çataraq Sabir kimi sənətkarın yetişməsinə zəmin yaratdı.


**GAFFARLİ SELJAN**

## A SATIRICAL POEM IN THE GUIDE TO TWO PERIODS

**Keywords:** Environment, intellectual, position, society, criticism, enlightener, education, poet, the truth, poetry, problem, people.


Satire arises due to the introduction of an active life position, it does not like loyalty and conciliation, it is distinguished by its specific position. Such an attitude mobilizes a person to be more active, to separate bad from good, white from black. If we pay attention to the rock laid by the critical poem and the vital ideals it serves, it is possible to see that there is a sharp, merciless attack against evil, rooting for light and progress. Since the beginning of poetic thought, this stroke has been a companion to literature, polished from various images and sayings, and has risen to its highest stage - the stage of a new type of revolutionary satire.

Therefore, in the development of Azerbaijani literature, in the achievement of national and universal values, in the transmission of enlightened ideals from generation to generation, in rooting people against evil, injustice, ignorance, and all kinds of shortcomings, in the formation of the ability of each individual to reveal his position as a personality, poetry, especially the exceptional personality and role of satirical literature and satirical poetry is unquestionable. In our article, when we say

at the crossroads of two eras, we mean that at the end of the 19th century, satire reached its peak and created a foundation for the development of an artist like Sabir.

**СЕЛЬДЖАН ГАФФАРЛИ**

## САТИРИЧЕСКАЯ ПОЭМА В ПУТЕВОДИТЕЛЕ ПО ДВУМ ПЕРИОДАМ

**Ключевые слова:** поет, поэзия, среда, интеллигент, позиция, правда, народ, проблем, гуманист, общество, просветитель, воспитание

Сатира возникает благодаря внедрению активной жизненной позиции, она не любит лояльности и примирения, отличается своей специфической позицией. Такой настрой мобилизует человека быть более активным, отделять плохое от хорошего, белое от черного. Если обратить внимание на скалу, заложенную критической поэмой, и на жизненные идеалы, которым она служит, то можно увидеть, что идет резкая, беспощадная атака на зло, стремление к свету и прогрессу. С самого начала поэтической мысли этот штрих был спутником литературы, отчищенный от различных образов и изречений, и поднялся до своей высшей ступени — стадии революционной сатиры нового типа.
Поэтому в развитии азербайджанской литературы, в достижении национальных и общечеловеческих ценностей, в передаче просвещенных идеалов из поколения в поколение, в укреплении людей против зла, несправедливости, невежества и всякого рода недостатков, в формировании Способность каждого отдельного человека раскрыть свое положение как личности, поэзии, особенно исключительная личность, и роль сатирической литературы и сатирической поэзии несомненны. В нашей статье, когда мы говорим на перекрестке двух эпох, мы имеем в виду, что в конце XIX века сатира достигла своего расцвета и создала основу для развития такого художника, как Сабир.

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Sənan Məmmədəli oğlu İbrahimov**
**Filologiya elmləri doktoru, professor**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**İLAHƏ VÜQAR QIZI RÜSTƏMOVA**
**AMEA NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU**
E-mail: rustemova.ilahe99@gmail.com

# BƏXTİYAR VAHABZADƏNIN TÜRK ƏDƏBI ŞƏXSLƏRI VƏ YARADICILIQLARI HAQQINDA DÜŞÜNCƏLƏRI.

## XÜLASƏ

Hər bir dövlətin ictimai-siyasi və ədəbi-bədii həyatında publisistika səciyyəvi cəhət daşıyır. Dünyagörüş və bədii zövqün inkişafının əsasında məhz publisistika dayanır. Publisistikanın mətbuatda yeni təşəkkülü zaman məlumat xarakterli əhəmiyyət daşıdığı üçün təsir imkanları da geniş olmuşdur. Müəyyən tarixi şəraitin ərsəyə gətirdiyi hadisələrdən dolayı söz ustadlarımızın münasibətləri Azərbaycanda bədii və elmi-publisistikanın inkişafına təkan vermişdir. Adətən vətəndaşlıq mövqeyini ifadə edən, xalqa bağlılıq duyğularını izah edən bədii publisistika sənətkarların yaradıcılığının bəlli bir qismini təşkil edir. Bəxtiyar Vahabzadənin Azərbaycan qarşısında əvəzolunmaz xidmətlərinin biri də publisistika sahəsindəki imzalarıdır. O, elm, sənət, millilik və türk dili haqqında düşüncələrini publisistikasında bütün dərinliyi ilə şərh etmişdir. Bu məqalələr publisistin yaşantıları və dünyagörüşü ilə əlaqədar olduğundan öz düşüncələrini faktlara əsaslanaraq ifadə edə bilmişdir. Çoxsaylı axtarışlarının nəticəsi kimi Bəxtiyar Vahabzadə publisistikasında türk dili və türk ədəbi şəxsiyyətlərinə önəm vermişdir. Onların Türk xalqları ədəbiyyatındakı mövqeyini ifadə edən bu məqalələr əxlaqi-didaktik material hesab edilir. Sənətkar müxtəlif dövrlərin şairlərindən bəhs edərək onların ədəbi kimliyi və yaradıcılığı haqqında fikirlərini ifadə edir. Onun dönməz xarakterindən irəli gələn üslubu bədii irsinin hər növündə büruzə vermiş, bu yazılar araşdırmaya cəlb olunmuşdur. Bəxtiyar Vahabzadə türk ədəbi şəxslərindən bəhs etməklə kifayətlənməmiş, həm də milli yaddaş uğrunda mübarizəni bu yolla davam etdirmişdir. Türk kökənli xalqların mübarizliyi, dil uğrunda savaşları məhz bu məqalələrdə ön planda dayanır. Təbii ki, Bəxtiyar Vahabzadənin publisistikada müraciət etdiyi şəxslər səbəbsiz deyildi. Onların hər biri ədəbiyyatda ədəbi kimlikləri ilə xüsusilə anılan, ədəbiyyata öz töhfəsini vermiş sənətkarlardır. Publisist milli hisslərinin tərənnümçüsü olaraq Yunus Əmrə, Mehmet Akif Ersoy, Yavuz Bülent Bakiler, Yəhya Kamal Bayatlının yaradıcılığını ön plana çəkməklə ədəbi-nəzəri düşüncələrini ifadə etmişdir.

***Açar sözlər: publisistika, türk dili, milli kimlik, istiqlal, vətənpərvərlik***

## Giriş

Bəxtiyar Vahabzadə publisistikası həm bədii, həm də tənqidi mahiyyət daşıyır. Sözün ədəbi imkanlarından istifadə edərək türk ədəbi düşüncəsini müdafiə edən şairin bu fikirləri onun məqalələrində, müsahibələrində də nəzərə çarpacaq

şəkildə yüksək bədii dəyərə malikdir. Sözə dəyər verən Bəxtiyar Vahabzadə həm öz müasirləri, həm də klassik dövrü türk ədəbiyyatı nümayəndələri haqqında bədii düşüncələrini məqalələrində şərh etmişdir. Bu nümunələrin estetikliyi, milliliyi Azərbaycan publisistikasında yeni motivlərin formalaşmasında əhəmiyyətlidir. Bəxtiyar Vahabzadə bu qəbildən olan "Yunis İmrə", "İstiqlal şairi", "İman şairi", "Türküstan, Türküstan" ardıcıl məqalələri ilə mətbuatda çıxış etmişdir.

**Əsas hissə**

"Yunus İmrə" adlı məqalə Yunus Əmrənin həyatının ən önəmli faktorlarını ön plana çəkməklə onun ümumtürk ədəbiyyatındakı mövqeyini ifadə edir. 13-cü əsr klassik poeziyanın fars dilində tüğyan etdiyi zamanda Yunus Əmrənin Anadolu türkcəsində yazıb yaratması ana dilinin saflığının qorunması uğrundakı mübarizələrdən irəli gəlirdi. Bununla yanaşı, Yunus Əmrə Azərbaycanda poeziyanın inkişafında xüsusi rol oynayan ustaddır. Həmin mövqedən çıxış edən Bəxtiyar Vahabzadə məqaləsində Yunus Əmrənin kimliyi, türk ədəbiyyatındakı rolu, poeziyası, bədii irsinin əsas qayəsi haqqında və Mövlana Cəlaləddin Rumi ilə münasibətlərini müxtəlif cəhətdən izah etmişdir. Yunus sadəcə xalqın dilində yazmamışdır, xalqı duymuş, ruhuna bələd olmuş, ağrı-acısını hiss etmişdir. Bu cəhətlərdən dolayı haqqı müdafiə edərək ərsəyə gətirdiyi bədii nümunələr şeir kimi kağızda qalmamış, qəlblərdə yuva quraraq dillər əzbəri olmuşdur. Haqdan güc alan Bəxtiyar Vahabzadə hər zaman haqqın müdafiəçisi olmuşdur və bunu insanlığın özünüdərki kimi dəyərləndirmişdir. "Yunus Əmrə" məqaləsində Yunusun bədii simasını canlandıran zaman onun haqq yolçusu, haqq aşiqi kimi ifadə etmişdir. Yunusun yüz illərlə unudulmamasının səbəbini onun bir millətin deyil, bütün bəşəriyyətin haqq səsi olduğunu və bununla xalqın könlünə yol tapdığını qeyd edir. "Xalq onun adını qəlbində, şeirlərini dilində qoruyub saxlamış, bu günə qədər çatdırmışdır. Buna görə də Yunus bütün nəsillərin müasiri, bütün dövrlərin haqq aşiqidir. Onun üçün haqq insanın yaşamaq qayəsi olmalıdır" [3, s.71]

Bəxtiyar Vahabzadə Yunus Əmrədən söz açarkən onu eşq, könül, həqiqət kimi simvolizə edir. Rumi ilə münasibətlərindən də bəhs edən zaman sufizmin açarı olan bu ifadələrlə iki sufi şairin münasibətinin dərinliyini haqq və insanlıq çağırışı kimi müəyyən edir.

Özünü idrak fəlsəfəsi Bəxtiyar Vahabzadə yaradıcılığının əxlaqi-didaktik məzmununun ifadəsidir. Bu mətləbi dərk etmək üçün qədim türk mifinə üz tutub bugünkü günümüzü anlamaq lazımdır. Çağdaş dövrümüzdə özünüdərk məhz keçmiş inancları, mifoloji mətnləri anlamaqdan keçir. Bəxtiyar Vahabzadənın milli kimlik konsepsiyasının əsasında bu zəngin mənbələr dayanır. Heç təsadüfi deyildir ki, türk mifoloji sistemində önəmli yer tutan dörd ünsür- hava, od, su, torpaq "Risalətün-Nüshiyyə"də insanın ali mərtəbəyə ucalmasında inkişaf, idrak mərhələləridir. Bəxtiyar Vahabzadənin mənəviyyat fəlsəfəsi Yunus Əmrənin pislikdən arınmaqla insanın kamilləşmə mərhələsinə çatmaq ideyası bir-biri ilə səsləşirdi. Bu səbəbdəndir ki, onların ədəbi mühitdə bədii-mənəvi yolları kəsişirdi.

Yunus Əmrə həm insani, həm də ədəbi şəxsiyyəti ilə Bəxtiyar Vahabzadəni öz şeirlərinin istisi ilə isidə bilmişdir. Məhz bunun nəticəsidir ki, şair Yunusun bədii portretini təsvir edəndə onu təkcə poeziyanın məhdud tələbləri daxilində ifadə etməmiş, publisistikanın imkanlarından istifadə edərək geniş miqyasda əbədiləşdirmişdir. "O həyatı sevdi, amma ölümdən qorxmadı, çünki ölümdə həyatın ölməzliyini tapdı, həyatın yeniləşməsini gördü. Çünki həqiqəti və mərifəti – dinlər dini, şəriət və təriqəti isə yalnız o ulu dinə gedən yol hesab etdi." [3, s.74]

Türk dili, türk ruhu, türk tarixi və mədəniyyəti damarından türk qanı axan hər bir mütəfəkkirin müraciət etdiyi mövzu silsiləsidir. İfadə tərzinin müxtəlifliyindən asılı olmayaraq, bu mövzular ümumtürk xalq şeirində obrazlı ifadə olunmuşdur. Bu misraların bədii əksi türk ruhunda olan sənətkarları eyni duyğu altında birləşdirir. Bunun ən bariz nümunəsini "İstiqlal nəğməkarı" adlı məqaləsində izləyirik. Məqalə Mehmet Akif Ersoy haqqındadır. O, Türkiyənin milli mübarizə dönəmində minlərlə şəhid verən məzlum xalqının mənəvi dəstəkçisi olmuşdur. Yazdığı şeirlərlə xalqına təskinlik verən eyni zamanda, Türk xalqları ədəbiyyatına da öz töhfəsini vermişdir. Xalq ruhuna yaxından bələd olması əqidəsinin böyüklüyündən irəli gəlirdi. Bəxtiyar Vahabzadə Mehmet Akif Ersoyun bu addımlarını təqdirəlayiq addım kimi qəbul edir və bunu şəxsiyyət bütövlüyünün və kamilliyinin göstəricisi kimi nümayiş etdirir: "Türkiyə cümhuriyyəti "İstiqlal marşı"nın müəllifi, böyük türkçü, böyük vətənpərvər, böyük insan Mehmet Akif mənim ən çox sevdiyim ustad şairlərdən biridir. Onun böyüklüyü, hər şeydən öncə, fikir və düşüncəsinin, əqidəsinin və şəxsiyyətinin böyüklüyündən irəli gəlir" [3 , s.66]

Bəxtiyar Vahabzadə və Mehmet Akif Ersoy poetik təfəkkür oxşarlığı ilə yanaşı, tale bənzərliyi ilə də bir-birinə yaxındır. Mehmet Akifin millət, vətən eşqi ilə çırpınan şeirləri 1-ci dünya müharibəsi və ondan sonrakı milli mübarizə dönəminə rast gəlinir. Türkiyənin xarici dövlətlər tərəfindən işğalını qəbul etməyən şair mənəvi borcunu Türk xalqını, ordusunu milli-mənəvi yüksəlişə, gələcək qələbəyə səsləyir. "Bütün millətlərin İstiqlal marşını oxuyan Bəxtiyar Vahabzadə onu bütün İstiqlal nəğmələrindən daha yüksək zənn edirdi. Bu şeir xalqın qanı ilə yazılmış və vətənpərvərlik duyğularını ən gözəl şəkildə ifadə edən marşdır. Şeirin hər sətrini təhlil edən Bəxtiyar Vahabzadə "İstiqlal marşı"nın heç bir bənddə zəif, yaxud boş bir misra olmadığını analiz edir və düşüncələrinin ümumi şərhini belə ifadə edir: "Bu şeir, həqiqətən, bir millətin istiqlalını tərənnüm edən bir atəş, püskürtüdür [3 s.664]. Şeirdən bəhs edən Vahabzadə onun sadəcə tarixin dərin qatlarından süzülüb gəldiyini ifadə etmir. Bu marş həm də şair istedadından və səriştəsindən irəli gələn duyğuları özündə ehtiva edir. Şeirin yazılmasında ana sütun üçün zəruri forma elementləri məzmunla birləşərək mükəmməl nümunə yaratmışdır. Buna görədir ki, "İstiqlal marşı"ndan daha qüvvətli və obrazlı şeir yazılacağına heç kəs inanmır. Mehmet Akif bu şeiri xalqın milli mübarizəsinin mənəvi irsi kimi dəyərləndirirdi və buna görə bədii yaradıcılığının külliyatını təşkil edən "Səfahət"ə "İstiqlal marşı"nı

daxil etmir və onu millətin şeiri kimi səciyyələndirir. “Bu faktın özü onun şəxsiyyətindəki böyüklüyün ən gözəl ifadəsidir. M.Akif ölüm yatağında olduğu zaman yaxın dostları onu görməyə gəlmiş, bu görüşdə dostlarından biri ondan soruşmuşdu:Ustad, bu marşdan qüvvətli ikinci bir “İstiqlal marşı” yaza bilərsinizmi? Xəstə şair dərhal yatağından qalxıb demişdi:: Allah bu xalqa bir daha istiqlal marşı yazdırmasın. Amin!” [3 , s.664].

Tarixi gerçəkliyinin poetik ifadəsi və millətin fədakarlığını özündə cəmləşdirən “İstiqlal marşı” xalqın əyilməzliyinin sübutudur. Bəxtiyar Vahabzadə bu marşı hər dəfə oxuyan zaman Mehmet Akifin böyük şəxsiyyətinə daha bələd olmuş və onun ədəbi kimliyi qarşısında baş əymişdir.

Hər bir qələm sahibinin bədii irsində özünəxas imzası onun dünyagörüşü, hadisələrə baxış bucağı tərzi ilə bir vəhdətdə təsvir olunur. Böyük ideallar və onları sözün müxtəlif çalarlarına boyayaraq cəmiyyətə təqdim etmək vətənpərvərlik rəmzi kimi səciyyələndirilir. Bu ideyaların birləşib mətnə hopduğu zaman bir yazıçının düşüncələri yox, bir millətin düşüncələrinin izləri həmin bədii nümunədə öz yerini tapır. Bu düşüncələr Yəhya Kamal Bayatlının önəmli yer tutduğu üçün o, türk ədəbiyyatında layiqli yerini tapmışdır.

Onun din, ana dili, milli mücadilə və s. Kimi mövzuların yer aldığı şeirləri Mehman Akifin düşüncələri ilə səsləşir. “İman şairi” adlı məqaləsində Bəxtiyar Vahabzadə Yəhya Kamal haqqında dərin düşüncələrini bölüşür. Onun həyatını dərindən öyrənən şair poeziyasının yaranma mənbəyini araşdırır. Yəhya Kamalın yaşantılarının yazılarına da yansıması oxucunun marağına səbəb olur. “İman şairi” məqaləsi şairin böyüdüyü mühit və dini təliminin formalaşmasında müstəsna rolu olan anası haqqında məlumatla başlayır. “Yəhya Kamalın anası son dərəcə dindar olmuş və övladına kiçik yaşlarından iman tərbiyəsi vermişdir. Şair özü bu barədə yazır: “Mənim həm dini, həm də milli tərbiyəm üzərində daha şiddətlə müəssir olan anamdır. Anam çox müsəlman bir qadındı. Məhəmmədiyyə oxuyar, mənə Quranı öyrədərdi”. [3, s. 667]. Yəhya Kamal Parisdə təhsil alan zaman onun dini və milli düşüncələrində tərəddüd yaranır. Milli kimliyini sorğulayan şairi inanmaq və inanmamaq düşüncələri narahat edir. Lakin uşaqlıqdan gələn dini və milli duyğu yad təsirləri tezliklə dəf edə bilir. Bu hadisə şairin özünü dərk edərək və şüurlu şəkildə baş verdiyi üçün Bəxtiyar Vahabzadə Yəhya Kamalı “İman şairi” adlandırır. Bu predmet yalnız dini mənanı əxz etmirdi, həm də soykökə bağlılıq amili kimi dəyərləndirilir. Çünki Yəhya Kamalın mənsub olduğu millət və dövlət min illərlə tariximizlə yol qət edərək ən yüksək zirvəyə çatmışdır. Yəhya Kamal səmimi olaraq etiraf edir ki, milliyyətini unutmaq qanı bahasına vuruşaraq şəhid olmuş xalqa hörmətsizlik idi. Zəngin bədii irsin mənbəyini qədim düşüncə sistemində görək Bəxtiyar Vahabzadə bu hadisəni belə özətləmişdir. “Bu sözlər imana, inama şüurlu olaraq dönən böyük bir insanın səmimi etirafıdır. Çünki o, bütün varlığı ilə inandı ki, bir millətin tanıdığı, uğrunda qəza bayrağı qaldırdığı, milyonlarca şəhid verdiyi bir iman, ölkələr fəth etmiş, bizə vətən qazandırmış, bu vətəni cahanşümul abidələri ilə

süsləmişdir. Belə olduğu təqdirdə, bütün zəfərləri və daş abidələri yaradan imana inanmamaq, milyonlarca şəhidlərin ruhunu incitmək, özümüzü kiçik görmək deməkdir." [3, s.668]. Yəhya Kamal türkçülük və islamçılığı ümumtürk tarixinin məhsulu kimi səciyyələndirir. Hər biri mahiyyəti etibarilə eyni ideyanı özündə cəmləşdirir. Bəxtiyar Vahabzadə eyniadlı məqaləsində haqlı olaraq qeyd edir ki, İslamı qəbul etməzdən öncə də Göytürklər təkallahlılığa inanırdılar. Onların gündəlik həyat tərzindəki əxlaq və iman qaydaları İslam dininin dini ideyaları ilə üst-üstə düşürdü. İslam dinini qəbul etmək isə bu qaydalara daha dərin bir məna verməsinə əsas olmuşdur. Buna görə də islamçılıq deyən türkçülük, türkçülük deyəndə islamçılıq anılır. "Təsadüfi deyil ki, onlar Vizantiyadan gələn xristian elçisinin (missionerin) təklif etdiyi xristian dinindəki üçallahlılığı rədd edib, islamı tərəddüdsüz qəbul etdilər." [c.10, s.668]. Yəhya Kamal yüz illərlə tarixin məngənəsində qalib gələn Sultanların qalibiyyətinin əsasını onların imanında, əqidəsində görürdü. Türk kimi böyümək, onun dərinliyində varmaq İslamın dərinliyinə varmaq deməkdir. Bir-birindən ayrılmayan bu iki qavramı tarixdən silmək mümkün deyildir. Bu düşüncələrlə Mehmet Akiflə fikirləri də eyni yolda kəsişir.

Yəhya Kamal Bayatlının Cümhuriyyət dövrü Türkiyə ədəbiyyatında fərqləndirən xüsusiyyətlərdən biri ondan ibarətdir ki, yaradıcılığında mükəmməlliyətçiliyə önəm vermiş, dilin bütünifadə imkanlarından istifadə edərək türk dilini ən yüksək səviyyəyə qaldırmağa çalışmışdır. "Türkcə ağzımın ana südüdür" deyən Yəhya Kamal türk dilini qədim köklərə bağlılılığını, ata-babaların bizə yadigar qoyduğu miras kimi səciyyələndirmişdir. "Mən Y.Kamalı bir də ona görə sevirəm ki, "Türkcə ağzımda anamın südüdür" sözünə özü əməl edərək, dilimizin bütün imkanlarından istifadə ilə onu ən yüksək zirvəyə qaldıra bilmişdir." [3, s.669].

Bəxtiyar Vahabzadə publisistikası ümumtürk ədəbiyyatın ədəbi-nəzəri görüşlərinin ümumi mənzərəsini əks etdirir. Mürəkkəb ictimai-siyasi şəraitdən irəli gələn totalitar rejim söz sahiblərini öz məngənəsinə çəkərək onları şəxsi ideallarından ayırmağa və öz nəzarətində saxlamağa çalışmışdır. Bu proses ədəbiyyatın təsiri ilə xalqın özünüdərk inkişafı ilə yanaşı, həm də Azərbaycan dilinin tərəqqisinin ləngiməsinə səbəb olurdu. Belə bir zamanda-1977-ci ildə Bəxtiyar Vahabzadə Yavuz Bülent Bakilərin şeir kitabı ilə tanış olur. "Unutduğumuz insanlar" şeirini mütaliə edən şair öz duyğularının təcəssümünü Yavuz Bülentdə tapır və bu dərdi anlayanlar olduğu üçün cəsarətlənir.

Yavuz daim əzaba düçar olan türklərin dərdini öz dərdi kimi mənimsəmiş və şeirlərində həmin türklərin hisslərinin tərənnümü kimi çıxış etmişdir. Hər əzabla rastlaşan türklərin, xüsusən də azərbaycanlıların acınacaqlı taleyi Yavuz Bülentin diqqət mərkəzində olmuşdur. "Unutduğumuz insanlar" şeirindəki qəmgin motivlər də bu hadisələrdən qaynaqlanır. Bəxtiyar Vahabzadə bu şeiri oxuyan zaman Yavuz Bülentin bu can yanğısının səbəbini araşdırır və bunu milli-mənəvi dəyərlərinə

dayandığını görürdü. Bülentin ürəyi türk eşqi ilə döyündüyü üçün türklərin olduğu məkanı Bəxtiyar Vahabzadə Yavuz Bülentin vətəni kimi qələmə verirdi. "Mən o zaman Türkiyədən gələn bu doğma səsə güvəndim və bildim ki, məni düşünənlər, mənim dərdimi bilənlər və bu dərdə əlac axtaranlar var." [3, s.618]

"Türküstan, Türküstan" məqaləsi Yavuz Bülentin Özbəkistana səfəri və burada müşahidə etdiyi prosesləri eyniadlı kitabında qələmə almasının şərhindən ibarətdir. Bəxtiyar Vahabzadə onun səfər təəssüratlarını bölüşərək Sovet imperializm təbliğatının türklərdə təsirindən bəhs edir. Türkləri öz milli kimliyindən qopararaq onları manqurtlaşdıran bu siyasət Yavuz Bülentdə nifrət və kin oyadır. O, digər türkləri də Türkiyə türklərindən ayrı tutmurdu və onları qanda, canda, dində birliyin bəsləndikləri xalq kimi təsvir edirdi. Bu birliyi türklərin gücünə qüvvət gətirəcəyini hesab edirdi. Birlik və həmrəylik nümunəsi olan Yavuz Bülent bu ideyanın gerçəkliyini Mehmet Akif Ersoy haqda yanlış düşüncələrdən arındırmaqla həyata keçirmişdir. Mehmet Akif ulu Türk ruhunun davamçısı idi. Lakin cəhalətdən onun haqqında yanlış fikirlər formalaşmış və onu "geriçi" adlandırmışlar. Yavuz Bülent onu bu yad münasibətlərdən qoruyaraq Mehmek Akifin türk xalqı qarşısındakı xidmətlərini xatırlatmışdır. Bəxtiyar Vahabzadə "Türküstan, Türküstan" məqaləsində Yavuz Bülentin Mehmet Akif haqda düşüncələri ilə həmfikir olduğunu tez-tez ifadə edir.

Rus imperializmi Özbəkistanda firavan həyat tərzi nümayiş etdirməklə səyyahların gözündən pərdə asılırdı və özbəklərə psixoloji təsir edərək onları xalq olaraq bacarıqsız olduğuna inandırır və ən ağır işlər üçün özbəkləri istismar edirdilər. Özbəkistanın addımbaşı şəhər və kəndlərindən Anadolu ruhu, qoxusu alan Yavuz Bülent Özbəklərin rus təbliğatına baş əyməsi və taleyi ilə barışmasını qəbul edə bilmirdi. ""Bütün bunlardan iyrəndiyim üçün kalabalığa ibrətlə bakıyordum... Ruslar, gerçəkdən, ağıllı adamlar. İnsan psixolojisini çok iyi biliyorlar" . Teymurləngin nəvələrinin bu gün bu hala düşməsi, həqiqətən, insanda təəssüf doğurur. [3, s.620]. Özbəkistan səfəri Yavuz Bülentdə dərin izlər buraxmış və sarsmışdır. O, qüdrətli türklərin necə bu hala gəldiyinin səbəbini axtarır və oxucunu düşündürür. Bəzəklərin altındaki eybəcərlikləri üzə çıxararaq rus siyasətinin əsl mahiyyətini ifşa edir. Mənəvi köklərin ruhuna hökm etdiyi Yavuz Bülent müstəmləkəçilik altında qalan bütün türk xalqlarının sistemli şəkildə inkişafını arzu edirdi. Bəxtiyar Vahabzadənin qənaətincə, "Türküstan" kitabı Özbəkistanın mədəni və məişət həyatı haqda zəngin təcrübənin göstəricisidir. "Beləliklə, kitab başdan ayağa qədər ayıq gözlü yazıçının, milləti üçün yanan böyük bir vətəndaşın canlı müşahidələridir. Bu kitabı yalnız Türkiyə türkləri deyil, bütün dünya türkləri oxumalı, kommunizm deyilən bir kabusun törətdiyi dəhşətlərdən ibrət götürməlidir." [3, s.621]

Rusların yadlaşdırma siyasəti özbək xalqını buxova alaraq onu dini və milli kimliklərindən uzaqlaşdırmışdır. Özbəklərdə milli yaddaşsızlıq sindromu dəyərsizlik, bacarıqsızlıq və özünü bəyənməmə ilə əvəz edilmişdir. Yavuz Bülent Bakiler

"Türküstan" kitabı ilə rus rejimini təm forması ilə izah etmişdir. Bu həm də Türk xalqlarına çağırış motivi kimi səslənir.

**Yekun Nəticə**

Bəxtiyar Vahabzadə çoxşaxəli yaradıcılığı və fəaliyyətində hər zaman türk xalqlarının daxili duyğularının ifadəçisi olmuşdur və publisistik təfəkkürü ilə xalqın milli yaddaşını gücləndirməyə və onu milli əqidəyə sadiq qalmağa səsləmişdir. Bəxtiyar Vahabzadənin fitrətindən doğan bu məsləkonu bütün Türk dünyasının hisslərinin tərənnümçüsü kimi tanıtmışdır. Bu yolda şeirin məhdud tələblərindan çıxaraq yeni forma və janrlarda türk ədəbi şəxslərini onların daxili duyğuları və bədii yaradıcılığı nöqteyi-nəzərdən işləmişdir.

**Ədəbiyyat**

1.Əliyev, M. Böyük yolun davamı, elmi redaktor İ.Həbibbəyli. – Bakı: "Elm və Təhsil", -2022. – 528

2.Əsgərli, Ə. Bəxtiyar Vahabzadə həyatı, mühiti və yaradıcılığı, tərt. Ed., ön söz və elmi redaktor İ.Həbibbəyli. -Bakı: "Elm və təhsil", - 2022. -554

3..Vahabzadə, B. Seçilmiş əsərləri: [12cilddə] / B.Vahabzadə, tərt.ed., ön söz və redaktor R.Qafarlı. – Bakı: "Elm", -c.10. – 2008. -833

4.Vahabzadə, B. Seçilmiş əsərləri: [12cilddə] / B.Vahabzadə, tərt.ed., ön söz və redaktor R.Qafarlı. – Bakı: "Elm", -c.11. – 2008. -328

**İlaha Rustamova Vugar**

## SUMMARY
## BAKHTIYAR VAHABZADE'S THOUGHTS ABOUT TURKISH LITERARY FIGURES AND WORKS

Journalism has a characteristic aspect in the social-political and literary-artistic life of every state. Publicism is the basis of the development of worldview and artistic taste. Due to the informational importance of journalism in the new organization of the press, the possibilities of influence were also wide. Due to the events brought about by certain historical conditions, the relations of our masters of words gave impetus to the development of artistic and scientific journalism in Azerbaijan. Artistic publicism, which usually expresses the position of citizenship and explains the feelings of attachment to the people, constitutes a certain part of the creativity of artists. One of Bakhtiyar Vahabzade's invaluable services to Azerbaijan is his signature in the field of journalism. He explained his thoughts about science, art, nationality and the Turkish language in depth in his journalism. Since these articles are related to the life and outlook of the publicist, he was able to express his thoughts based on facts. As a result of his numerous searches, Bakhtiyar Vahabzade gave importance to the Turkish language and Turkish literary figures in his journalism. These articles expressing their position in the literature of Turkic peoples are considered moral and didactic material.The artist talks about the poets of

different periods and expresses his opinion about their literary identity and creativity. The style derived from his irrevocable character has manifested itself in all types of his artistic heritage, and these writings have been involved in research. Bakhtiyar Vahabzade was not satisfied with talking about Turkish literary figures, but also continued the struggle for national memory in this way. The struggle of peoples of Turkic origin and their language wars are in the foreground in these articles. Of course, the people whom Bakhtiyar Vahabzade addressed in publicism were not without reason. Each of them are artists who are especially mentioned in literature with their literary identity and who contributed to literature. As a publicist, he expressed his literary-theoretical thoughts by highlighting the works of Yunus Emre, Mehmet Akif Ersoy, Yavuz Bülent Bakiler, Yahya Kemal Bayatli as a praiser of national sentiments

***Keywords:journalism, Turkish language, national identity, independence, patriotism***

**Илаха Рустамова Вугар**

## РЕЗЮМЕ
## МЫСЛИ БАХТИЯРА ВАХАБЗАДЕ О ТУРЕЦКИХ ЛИТЕРАТУРНЫХ ДЕЯТЕЛЯХ И ПРОИЗВЕДЕНИЯХ

Журналистика имеет характерный аспект в общественно-политической и литературно-художественной жизни каждого государства. Публицистика является основой развития мировоззрения и художественного вкуса. В связи с информационным значением журналистики в новой организации печати возможности влияния также были широкими. Благодаря событиям, вызванным определенными историческими условиями, отношения наших мастеров слова дали толчок развитию художественной и научной журналистики в Азербайджане. Художественная публицистика, обычно выражающая гражданскую позицию и объясняющая чувства привязанности к народу, составляет определенную часть творчества художников. Одной из неоценимых заслуг Бахтияра Вагабзаде перед Азербайджаном является его подпись в области журналистики. Он подробно объяснил свои мысли о науке, искусстве, национальности и турецком языке в своей журналистике. Поскольку эти статьи связаны с жизнью и мировоззрением публициста, он смог изложить свои мысли, опираясь на факты. В результате своих многочисленных поисков Бахтияр Вахабзаде придавал большое значение тюркскому языку и турецким литературным деятелям в своей публицистике. Эти статьи, выражающие их позицию в литературе тюркских народов, считаются нравоучительным и дидактическим материалом.Художник рассказывает о поэтах разных периодов и высказывает свое мнение об их литературном своеобразии и творчестве.

Стиль, вытекающий из его неизменного характера, проявился во всех видах его художественного наследия, и эти сочинения были предметом исследования. Бахтияр Вагабзаде не ограничивался рассказами о турецких литературных деятелях, но и таким образом продолжал борьбу за национальную память. На первом плане в этих статьях – борьба народов тюркского происхождения и их языковые войны. Конечно, люди, к которым Бахтияр Вагабзаде обращался в публицистике, были недаром. Каждый из них — художник, особо отмеченный в литературе своей литературной идентичностью и внесший свой вклад в литературу. Как публицист он выражал свои литературно-теоретические мысли, выделяя произведения Юнуса Эмре, Мехмета Акифа Эрсоя, Явуза Бюлента Бакилера, Яхья Кемаля Баятлы как восхваляющих национальные чувства.

***Ключевые слова: Журналистика, турецкий язык, национальная идентичность, независимость, патриотизм***

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: f.e.d., professor Əlizadə Əsgərli**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**AFAQ CUMA QIZI HACIYEVA**
**ADPU. Filologiya**
**Müasir Azərbaycan dili kafedrası,**
**doktorant**
**E/mail: afaqhaciyeva@mail.ru**
**ID: https://orcid.org:0000-0003-0535-6818**

# MÜASİR REKLAM TEXNOLOGİYALARI VƏ ONLARIN HƏYATIMIZDA ROLU

## XÜLASƏ

Reklam auditoriyanı tamaşaçılar, oxucular və ya dinləyiciləri inandırmaq üçün nəzərdə tutulmuş ünsiyyət bir növüdür. Reklam müxtəlif məhsullar, ideyalar və ya xidmətləri istehlakçıya çatdıran bir fəaliyyətdir. Reklam həm də nəzərdə tutulan fikri daha çox sayda insana çatdırmaq üçün bir yoldur, audio və ya vizual üsulları əhatə edən kütləvi bir prossesdir.

Bir məhsul və ya xidmətin təşviqində müasir reklam texnologiyalarının böyük önəmi vardır. Müasir dünyada televiziya və radionu, hətta adi şəhər küçələrini reklamsız təsəvvür etmək mümkün deyil. Geniş istifadə olunan və əhəmiyyəti böyük olan reklam vasitələrindən biri də internetdir. İnsanlar gündəlik həyatda müxtəlif faydalı şeylər haqqında fikir əldə etmək üçün internetdən istifadə edirlər

Reklam texnologiyası informasiyanın toplanmasını təmin edən, reklam mesajı yaradılmasını və bu mesajı istehlakçıya çatdıran metodlar toplusunu ehtiva edən bir prossesdir. Başqa sözlə, reklam texnologiyası hədəf auditoriyasını təşviq etmək üçün tədbirlər toplusudur. Reklam texnologiyalarının seçimi heç də az əhəmiyyət kəsb etmir, çünki yaradıcı və ekstravaqant düşüncəyə malikdir. Buna görə də reklam texnologiyaları üzərində iş də yaradıcı prosses hesab edilir. Reklam texnologiyasını informasiyanın, başqa sözlə, müasir reklamın daşıyıcısı da adlandırmaq olar.

**Açar sözlər:** *reklam texnologiyaları, marketinq, qraffiti, bilbord, televiziya reklamları*

# СОВРЕМЕННЫЕ РЕКЛАМНЫЕ ТЕХНОЛОГИИ И ИХ РОЛЬ В НАШЕЙ ЖИЗНИ

**Афаг Джума кызы Гаджиева**

## РЕЗЮМЕ

Реклама, это форма коммуникации, предназначенная для убеждения аудитории зрителей, читателей или слушателей. Реклама – это деятельность, которая сообщает потребителям различные товары, идеи или услуги. Реклама – это еще и способ донесения идеи до большого количества людей, это массовый процесс с привлечением аудио- или визуальных методов.

Современные рекламные технологии имеют большое значение в продвижении товара или услуги. В современном мире невозможно представить телевидение и радио, даже обычные городские улицы без рекламы. Одним из наиболее широко используемых и важных средств рекламы является Интернет. Люди используют Интернет, чтобы получить представление о различных полезных вещах в своей повседневной жизни.

Рекламная технология – это процесс, включающий совокупность методов, обеспечивающих сбор информации, создание рекламного сообщения и доведение этого сообщения до потребителя. Другими словами, рекламная технология представляет собой комплекс мероприятий по продвижению целевой аудитории. Выбор рекламных технологий не менее важен, поскольку обладает творческим и экстравагантным мышлением. Поэтому работа над рекламными технологиями тоже считается творческим процессом. Рекламную технологию можно назвать носителем информации, иначе говоря, современной рекламой.

**Ключевые слова:** *рекламные технологии, маркетинг, граффити, билборды, телевизионная реклам*

## MODERN ADVERTISING TECHNOLOGIES AND THEIR ROLE IN OUR LIFE

**Afaq Juma gizi Hajiyeva**

## ABSTRACT

Advertising is a form of communication designed to persuade an audience viewers, readers, or listeners. Advertising is an activity that communicates various products, ideas or services to consumers. Advertising is also a way to convey an idea to a large number of people, it is a mass process involving audio or visual methods.

Modern advertising technologies are of great importance in promoting a product or service. In today's world, it is impossible to imagine television and radio, even ordinary city streets without advertising. One of the most widely used and important means of advertising is the Internet. People use the internet to get ideas about various useful things in their daily life

Advertising technology is a process that includes a set of methods that ensure the collection of information, the creation of an advertising message and the delivery of this message to the consumer. In other words, advertising technology is a set of measures to promote the target audience. The choice of advertising technologies is no less important because it has creative and extravagant thinking. Therefore, work on advertising technologies is also considered a creative process. Advertising technology can be called the carrier of information, in other words, modern advertising.

**Keywords:** *advertising technologies, marketing, graffiti, billboards, television commercials*

## GİRİŞ

Reklam bir məhsul, xidmət haqqında məlumatı yaymaq və çatdırmaq məqsədi olan, inandırıcı xarakter daşıyan bir çağırış və ünsiyyət vasitəsidir. Reklam istehlakçını bəzən alış-veriş etməyə məcbur edən tədbirlər toplusudur. Amerikalı menecer Leacock: "*Reklam haqqında deyə bilərik ki, o, insanlardan pul alana kimi onların beynini qaraldan bir elmdir*"

Hal-hazırda bir çox şirkət müştəriləri cəlb etmək üçün reklamdan istifadə edir.

Məhsul və ya xidmətlərin böyüməsi reklamdan çox asılıdır. Reklam termini latınca "reclamare" sözündən gəlir, "qışqırmaq" deməkdir və 18-ci əsrin ikinci yarısından dövriyyəyə daxil olmuşdur, ancaq reklam eramızdan əvvəl yaranmışdır. Reklamın ilk formaları yazının yaranmasından çox əvvəl carçıların lazımi məlumatları şifahi şəkildə yayması ilə meydana çıxmışdır. Qayaüstü rəsmlər şəklində açıq reklam prototipləri, demək olar ki, ilk qraffiti idi. Zaman keçdikcə cəmiyyətin texniki və elmi inkişafı bir sıra dəyişikliklərə səbəb oldu. Cəmiyyətin inkişafı ilə yeni reklam formaları və onların ötürülməsi üçün təkmilləşdirilmiş texnologiyalar meydana gəldi: mətbəə, qəzet çapı, elektrik, radio, televiziya, kompüterin ixtirası, internet, reklam mesajlarının cəmiyyətə ötürülməsi üçün kanallar və s.

**Məhsulun bazara çıxarılmsında müasir reklam texnologiyalarının rolu**

Reklam təşviqin effektiv həyata keçirilməsində, məqsəd və vəzifələrə nail olunmasında mühüm rol oynayır. Reklam texnologiyalarından hər şeydən əvvəl hədəf auditoriyasına çatmaq və onlarla ünsiyyət qurmaq üçün istifadə olunur. Reklam texnologiyalarından məlumatlılığı artırmaq və ROI (investisiya gəliri) əldə etmək üçün strateji və səmərəli istifadə etmək vacibdir. Reklam texnologiyası hədəf auditoriyasının şüurunda yaxşı brend imicini formalaşdırmağa kömək edir. Reklamın uğurla həyata keçirilməsi bazarın yerli səviyyədən regional səviyyəyə, regional səviyyədən milli səviyyəyə və milli səviyyədən beynəlxalq səviyyəyə qədər genişlənməsinə gətirib çıxarır. Bu məqsədlə marketoloq müxtəlif üsullar həyata keçirə bilər. Brendi dəstəkləyən şəxs, reklam mesajının məzmunu, qablaşdırmanın xarakteri və növü, sponsorluq edilən proqramların növü və ya hədəfin şüurunda marka imicini yaratmağa kömək edə biləcək fəaliyyətlər, müəyyən bir məhsulun tanıtımı kimi xidmət ediləcək auditoriya buna nümunə ola bilər. Müxtəlif reklam texnologiyalarının növlərinin necə işlədiyinə nəzər salaq.

Bu günə qədər gənclər çox vaxt emosiyalarını ifadə etmək üçün qraffitiyə müraciət ediblər. Qraffiti bəzən siyasi xarakter daşıyır, gənclər aqressivlilərini və etirazını ümumi kütlələrə çadırmağa çalışırlar. Bəzi hallarda qraffiti vandalizm aktı

ilə eyniləşdirilir, çünki bəzən gənclər görməli yerlər və ya mədəniyyət abidələri üzərində təsvirlər yaradırlar. Qraffiti tərəfdarları olanlar bunu şəhər incəsənəti adlanır. Bu və ya digər şəkildə, bu gün qraffiti müxtəlif insanlar tərəfindən istifadə olunur. Birincisi, qraffiti məhsulun tanıtımı üçün əlverişli, ucuz bir yoldur, parlaqlığı və yaradıcılığı ilə seçilir, böyük ölçülü olduğundan ətrafında diqqəti cəlb edir. Qraffiti təkcə açıq reklam deyil, diqqəti cəlb etməklə yanaşı həm də sosial reklam kimi mənəvi dəyərlərin təbliğində sənət obyekti kimi istifadə olunur, reklam edilən məhsulun kommersiya məlumatlarını ehtiva edir.

Texnologiya ilə birləşən sadə yaradıcı düşüncə nümunəsi uzun müddət mövcud olmuşdur. Bu gün, bütün digər reklam növləri kimi, açıq hava reklamı da rəqəmsallaşıb, müxtəlif interaktiv cihazlardan istifadə edilir və DOOH (evdən kənar rəqəmsal) adlandırılır. Smartfon kimi "ağıllı" cihazlar informasiya şəbəkəsi vasitəsilə (məsələn, internet) məlumatların göndərilməsi və qəbulu ilə ətraf mühitə dinamik reaksiya verən reklamdır.

Ənənəvi reklam lövhələri ilə müqayisədə ağıllı reklam yuxarıdakı nümunələrdən qat-qat mürəkkəbdir. Bəs gələcəyin billbordları nə işlər görəcək?! Onlar mühitə əsaslanıb ekranda göstərilən məzmunu dəyişdirərək müşahidəçi haqqında toplaya biləcəkləri məlumata dinamik şəkildə cavab verəcəklər. Bu vəzifəni həyata keçirərkən gələcəyin billboard və ya rəqəmsal ekranlar üçün kameralar və ya radarlar baxış üçün lazım olan "gözlər", ətrafı dinləmək və reaksiya vermək üçün infraqırmızı siqnallar və antenalar “qulaq” rolunu oynayacaq.

Ginnes Rekordlar Kitabına dünyanın ən böyük iki billbordu “Robot 3D billboard" və "Dünyanın ilk robot billboardu" daxil edilmişdir. Billborddakı məzmun diqqətlə hazırlanır və sonradan yenilənir. Məsələn, nahar fasiləsindən əvvəl iştahaaçan reklam təqdim olunur, təqdim olunan yemək yanında içki, insanları yeməklə bərabər bir şey içməyə təşviq edir.

İsveçdə Akestam Holst reklam agentliyi və əczaçılıq şəbəkəsi kimi tanınan “Apotek” açıq havada siqaretlə mübarizə aparmaq üçün bir reklam kampaniyası yaradıb. Siqaret çəkən şəxs ekranın yanından keçəndə tüstü detektorları sistemi işə salır, öskürən bir adamın videosu görünməyə başlayır. Siqaret əleyhinə mesaj və videodan sonra nikotin asıllığından xilas olmaq üçün nəzərdə tutulan məhsullar haqqında reklam göstərilir. Belə bir rəqəmsal reklam kampaniyası daha inandırıcıdır, çünki reklam birbaşa insanlarla əlaqə saxlayır.

Santa Monica, California, Posterscope rəqəmsal liderlər evdən kənar interaktiv reklam lövhələrini açıq hava reklamı üçün GMC üçün nəzərdə tutulmuş üz tanıma kameraları ilə təchiz edərək hər bir şəxsin cinsini, üz ifadəsini, yaşını və ailə tərkibini müəyyən edə bilir. Bu xüsusiyyət tərtibatçılara dinamik şəkildə videolar proqramlaşdırmağa imkan verir. Məsələn, bir qadın keçirkən ekranda əvvəlcədən qeyd edilmiş salamlama kimi "Salam xanımım" kimi ifadələrdən istifadə edən video oynadılır. Bundan əlavə, cihaza quraşdırılmış kameralar üz ifadələrini tanıyıb müşahidəçi ilə interaktiv oyunlar oynaya bilər. Məsələn, göstərilən axmaq rəqs

videolarına baxan müşahidəçi gülməməlidir, əks halda oyunu uduzacaq. Uğurlu və ya uğursuz olmasından asılı olmayaraq iştirakçı oyunu tamamlayır, nəticədə müvafiq olaraq reklamlar ilə tanış olur. Bu kameralar qarşısından keçən azyaşlı uşaqlar və onların valideynlərindən ibarət bir ailəni tanıya bilir, dinamik videolar ilə uşaqlara birbaşa müraciət edərək bütün ailənin ayaq saxlamasına və reklamda iştirak etməsinə səbəb olur.

"Radar" proqramı ilə Clear Channel Outdoor ümumiləşdirilmiş anonim məlumatları təhlil edən mürəkkəb sistem yoldan keçən avtomobillərdə cib telefonlarına sistem vasitəsilə daxil ola və məlumatları emal edə bilir, daha sonra reklamı məzmuna uyğun paylaşır. Reklam lövhəsinin məzmunu dəyişkəndir. Məsələn, yoldan valideynlərin uşaqları ilə səyahət etdikləri bir avtomobil keçərsə, ilkin olaraq fərqli bir tanıtım mesajı göstərilir, məzmunu dəyişir və həftəsonu kinoteatrlarda nümayiş etdiriləcək yeni ailə filminin reklamı göstərilir. Nəticədə rəqəmsal açıq reklam, özlüyündə daha canlı, fərqli, rəngarəng olur.

Bazarın təxminən yarısı bu günə qədər televiziya reklamlarından istifadə edir. İndiki nəslin internetdən getdikcə daha çox istifadə etdiyinə baxmayaraq, televiziya reklamından istifadənin daha məqsədəuyğun olub-olmaması ilə bağlı mübahisələr səngimir. İnsanlarda klişelər formalaşıb, yəni televizorda məhsul reklam olunursa, deməli, bütün keyfiyyət göstəricilərində daha yaxşıdır və istehlakçıda inam yaradır. Televiziya insanların bir növ boş vaxtını doldurur. İnsanlar uzun bir iş günündən sonra evə gəlirlər və ilk növbədə divanda oturub televizoru işə salıb dincəlməyə çalışırlar. Bütün boş vaxtlarını televizorun qarşısında keçirlər. Buna görə də, televiziya məhsul və xidmətlərin təşviqi vasitəsi kimi aktualdır. Digər reklam texnologiyalarından fərqli olaraq televiziyalar məhsul haqqında məlumatın uzun müddət tamaşaçıların yaddaşında qalması baxımından daha təsirli olur. Məsələn, Finlandiyada televiziya reklamı əhalinin 97%-nə ötürülür. Orta hesabla Braziliyada hər bir reklam kampaniyası 797 milyon baxış qazanır. Avstraliyada 1 dollar investisiya ilə TV reklamı 1,70 dollara bərabər ROI (investisiya gəliri) əldə edir. Televiziya reklamları satışı stimullaşdırır və mənfəət səviyyəsini artırır.

Ölkəmizdə bir sıra şirkətlər rəqəmsal marketinq sahəsində inkişaf edir, lakin müasir onlayn reklam çox vaxt apardığından çox ləng inkişaf edir, şirkətlərimiz məlumatların inkişafına kömək edəcək texnologiyalara sərmayə qoymaqdan çəkinirlər, ənənəvi üsullardan istifadə edirlər. Ancaq zəmanə ilə ayaqlaşmaq və risk etməkdən, nəyisə sınamaqdan qorxmamaq lazımdır. Bunun üçün yaxşı reklam və marketinq təklif edən agentlik tapmaq lazımdır. Agentliklərə nümunə ola bilər:

- Tam xidmət agentlikləri: *Banner, Mediaforce, MEC, Interpublic (Mccann Erickson), Omnicom (AAM reklamı) və s.*
- Qlobal Agentliklər: *WPP, Publicis, Omnicom, Aegis, Interpublic və s.*
- Yaradıcı Agentliklər: *Peoplebrand, JWT, Mccann Baku, Peachline, Young & Rubicam, Artgroup Bruketa & Zinic Baku, Creative Shamans Bürosu və s.*

- Media Agentlikləri: *Banner Group, MPG, Zenith Optimedia, Starcom Media Vest və s.*

## NƏTİCƏ

Son zamanlar onlayn marketinqin populyarlığının artması rəqəmsal texnologiytaların inkişafına səbəb olub. Rəqəmsal reklamların dəyəri getdikcə artır. Rəqəmsal marketinq təkcə onlayn marketinq deyil, o həmçinin simsiz mediadır. Burada bütün onlayn fəaliyyətlər oflayn səyləri tamamlayır, nəticədə rəqəmsal marketoloqlara və peşəkarlara tələbat artır. Bu gün rəqəmsallaşmış dünya, rəqəmsal marketinq və reklam termini bütün şirkətlər tərəfindən nəzərə alınır. Rəqəmsal marketinqin gələcəyi çox parlaq görünür. Halbuki markalar əvvəllər bir-birinin strategiyasına əsasən rəqabət aparırdılar, indi diqqətlərini internetə cəmləşdiriblər. Hal-hazırda brendlərin müştəriləri cəlb etmək, onlara təsir etmək yollarından fərqli istifadə etməli olduqları vaxtdır. Bunun üçün təqdim edəcəyimiz siyahı böyükdür: banner, firewall, billbord, lövhə, layt qutusu, neon reklam, panel mötərizəsi, pilon, sütun reklamı, yer reklamı, stiker, supersite, işıqlı lövhə, reklam stendi, reklam indeksi, afişa, video proyeksiya, media fasad, nəqliyyatda reklam və s. (15, s. 47.)

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1.Azərbaycanın Statistik Göstəriciləri - Bakı, 2017, 824 səh.

2. Перри Маршалл, Брайан Тодд. «Контекстная реклама, которая работает. Библия Google Ad Words». Издательство «Манн, Иванов и Фербер», 2014 год.

3. http://www.advertology.ru

4. http://www.esoonline.ru/fakty_reklamy/vyskazyvaniya_o_reklame/

5. https://www.gd.ru/articles/8928-qqq-16-m11-30-11- 2016-graffiti-reklama

**Redaksiyaya daxil olma tarixi: 08.05.2023**
**Çapa qəbul olunma tarixi: 25.05.2023**
**Rəyçi: Filologiya üzrə fəsləfə doktoru dosent**
**Könül İbrahim qızı Səmədova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**

**İÇİNDƏKİLƏR:**

# *DİLÇİLİK*

**NADİR MƏMMƏDLİ**
AZƏRBAYCANDA DİL SİYASƏTİ VƏ ORTAQ TÜRK ƏLİFBASI ..... 3

**KÖNÜL ELMAR ABDULRƏHİMOVA,**
İNGİLİS ATALAR SÖZLƏRİNDƏ İŞLƏDİLƏN MODAL FELLƏRLƏ MƏSDƏR BİRLƏŞMƏLƏRİNİN SİNSEMANTİK ƏLAMƏTLƏRİ ..... 11

**АБДУЛРАГИМОВА ГОНЧА ВАСИФ**
СОВРЕМЕННЫЕ ТЕХНОЛОГИИ ПРЕПОДАВАНИЯ НЕМЕЦКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО ..... 17

**NİGAR MİRZƏLİYEVA**
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI SOSİAL ŞƏBƏKƏLƏRDƏN İSTİFADƏ METODİKASI ..... 28

**ŞAHRUN SƏMƏDZADƏ**
ALİ MƏKTƏBLƏRİN YUXARI KURSLARINDA İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ AUDİO VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ METODİKASI ..... 35

**HƏSƏNOVA ŞƏFƏQ MƏCID QIZI**
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SOMOTOM KOMPONENTLİ SABİT İFADƏLƏR ..... 42

**İBRAHİMOVA İRADƏ RZA QIZI**
MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İNKARLIQ KATEQORİYASI VƏ ONUN FƏRQLİ-OXŞAR XÜSUİYYƏTLƏRİ ..... 50

**İLKNUR ƏSGƏROVA ÜLVİ qızı**
MƏSNƏVİLƏRDƏ RƏMZLƏŞƏN SAYLAR ..... 57

**QASIMOVA AZADƏ HƏSƏHALI QIZI**
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ ZAMAN KATEQORİYASININ LİNQVİSTİK TƏHLİLİ ..... 65

**DÜRDANƏ Əsəd qızı NAĞIYEVA**
**LEYLA Vəli qızı QOCAYEVA**
MÜASİR AZƏRBAYCAN DİLİNDƏ FUNKSİONAL ÜSLUBLARDAN İSTİFADƏ İMKANLARI, PUBLİSİSTİK ÜSLUB ..... 72

**İLAHƏ İSMAYILOVA**
RƏNGLƏRİN SEMANTİZMİ VƏ BƏDİİ MƏTNLƏRDƏ TƏZAHÜRÜ ..... 79

**АХУНДОВА КЕНУЛЬ БЕХБУД ГЫЗЫ,**
СЕМАНТИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ СЛОВАМИ-НАЗВАНИЯМИ ОДЕЖДЫ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ В СРАВНЕНИИ С РУССКИМ ЯЗЫКОМ ..... 86

**ƏLİYEVA GÜLŞƏN ŞAMXAL QIZI**
İNGİLİS DİLİNDƏ NEFT VƏ QAZ SƏNAYESİ TERMİNOLOGİYASINDA ALINMA SÖZLƏR ..... 94

**GULSHAN PASHAYEVA SHAKIR**
CHALLENGES OF GRAMMAR INSTRUCTION IN AZERBAJANI CONTEXT: A COMPARATIVE STUDY OF URBAN VS RURAL PUBLIC SCHOOLS.....101

**BƏŞİROVA GÜLBANU**
İNGİLİS DİLİNDƏ MİLLİ ÇALARLIQLI METAPHORLARIN TƏRCÜMƏSİ YOLLARI.....116

**SEVİNC HƏBİB QIZI FƏTƏLİYEVA**
“BEOVULF” VƏ “NIBELUNQLAR NƏĞMƏSI”EPOSLARINDA LEKSİK TƏKRARLAR 122

**İRADƏ TAHİROVA**
**NAİZƏ SALMANOVA**
**LALƏ MƏMMƏDOVA**
AUDIO-DİL METODU VƏ ONUN TƏTBİQİ YOLLARI .....131

**SÜLEYMANOVA GÖYÇƏK EYNUR QIZ**
FEİLİ SİFƏTİN MORFOLOJİ XÜSUSIYYƏTLƏRİ.....140

**YUSİFOVA ARİFƏ TAPDIQ QIZI**
AZƏRBAYCAN DİLİ LEKSİKOLOGİYASININ MAHİYYƏTİ ONUN TƏDRİSİ METODİKASI VƏ ÜSUBİ ƏLAMƏTLƏRİ.....147

**MƏMMƏDOVA ZENFİRA ƏLƏKBƏR QIZI**
**İNGİLİS DİLİNDƏ İSMİN HAL KATEQORİYASININ**
FUNKSIONAL VƏ SİNTAKTİK TƏSNİFATI.....154

**BAĞIROVA SEVİNC AĞADİN QIZI**
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ TERMİNOLOJİ ABBREVİASİYA VƏ ONUN SÖZ YARADICILIĞINDA ƏHƏMİYYƏTİ HAQQINDA .....161

**SEVİL NƏCƏFOVA**
MÜASIR AZƏRBAYCAN DILINDƏ ALINMALARIN IŞLƏNMƏSI .....168

**MƏMMƏDOV HÜMBƏT MƏMMƏD OĞLU**
QARABAĞ ŞİVƏLƏRİNİN ETNOQRAFİK LEKSİKASI ..... 176

**AXMEDOVA ЭЛЬМИРА,**
**ИСАЕВА СЕВИНДЖ**
БЕЗЭКВИВАЛЕНТНАЯ ЛЕКСИКА РУССКОГО ЯЗЫКА (БЭЛ).....184

**TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ**
XƏLİL RZA ULUTÜRK ŞEİRLƏRİNİN DİLİ .....191

**GÜLƏR HƏSƏNOVA**
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MÜASİR YANAŞMALAR 197

**VALİDƏ ŞƏRƏF QIZI ABBASBƏYLİ**
ONOMASTİK VAHİDLƏR VASİTƏSİLƏ YARANAN DÜZƏLTMƏ İSİMLƏR .....204

**ƏZİZƏ ZÜLFÜQAROVA**
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRİN MOTİVASİYASINA TƏSİR EDƏN AMİLLƏR.....212

**RƏHİMOVA GÜLNARA SAHİB QIZI**
TRANSLATION: TYPES AND TECHNOLOGIES.....218

**VALIDƏ ABIYEVA**
**AFƏT SƏFIXANOVA**
İNGİLİS DİLİNDƏ ALINMA SÖZLƏRİN VURĞU FƏRQLİYİ .....230

**AYGÜN QƏDİMLİİ**
ƏRƏB ƏLİFBASININ AZƏRBAYCAN DİLİNDƏ DOĞURDUĞU ÇƏKİNLİKLƏR .....236

**ABBASLI ELMIR ELŞƏN**
YAPON DİLİNİN BEYNƏLMİLƏLLƏŞDİRİLMƏSİ VƏ TƏDRİSİNİN
ƏLVERİŞLİ ÜSULLARI .....242

**ƏLİYEVA SƏDAYƏ ZAHID QIZI**
AUTENTİK MATERİALLARDAN İSTİFADƏNİN ÜSTÜNLÜYÜ.....248

**САБИНА Ч. ГУСЕЙНОВА**
ЯЗЫКОВЕДЧЕСКИЙ АСПЕКТ ИЗУЧЕНИЯ ПРИРОДЫ
СИНТАКСИЧЕСКОГО ПАРАЛЛЕЛИЗМА (СЕРЕДИНА – КОНЕЦ XX В.).....254

**LAMAN GAFAROVA**
**THE LANGUAGE OF PANDEMIC:**
ANALYSIS OF NEW WORDS DURING COVID-19……. .....265

**RZAYEVA ŞƏFƏQ**
**ŞAMXALOVA GÜLŞƏN**
**HEYDƏROVA AYBƏNIZ**
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİ.....275

**İSMAYILOVA MINAYƏ ABBAS QIZI**
ALINMA SÖZLƏR VƏ ONLARIN XÜSUSIYYƏTLƏRI.....282

# *ƏDƏBİYYATŞÜNASLIQ*

**HÜSEYNOV BİLAL HÜSEYNAĞA OĞLU,**
SÖYLƏMƏ FOLKLOR JANRI KİMİ ..... 289

**SEVINC MƏMMƏDOVA**
ALMAN ƏDƏBİYYATINDA “FIRTINA VƏ TƏZYİQ”
ƏDƏBİ CƏRƏYANININ YERİ..... 295

**QAFAROVA SƏMƏNGÜL HÜSÜ QIZI**
AZƏRBAYCAN UŞAQ FOLKLORUNUN ƏSAS XÜSUSİYYƏTLƏRİ ..... 301

**Z.N.NURİYEVA**
XX ƏSRIN 80-90-CI ILLƏRINDƏ BOLQARISTAN HAKIMIYYƏTININ
ETNIK AZLIQLARIN MƏDƏNIYYƏTINƏ QARŞI
TƏCAVÜZKAR SIYASƏTI ..... 312

**GÜNEL AĞAYEVA ELMAN QIZI**
XALİD HÜSEYNİ MİN MÖHTƏŞƏM GÜNƏŞ ƏSƏRİ
LEYLA VƏ MƏRYƏM OBRAZLARININ TƏHLİLİ ..... 320

**YUSIBOVA AYGÜN AZADIL QIZI**
CƏLİL MƏMMƏDQULUZADƏ DRAMATURGİYASININ
ÖZÜNƏMƏXSUSLUĞU ..... 329

**SELCAN QAFFARLI**
SATİRİK ŞEİR İKİ DÖVRÜN YOLAYRICINDA ..... 337

**İLAHƏ VÜQAR QIZI RÜSTƏMOVA**
BƏXTİYAR VAHABZADƏNIN TÜRK ƏDƏBI ŞƏXSLƏRI
VƏ YARADICILIQLARI HAQQINDA DÜŞÜNCƏLƏRI. ..... 346

**AFAQ CUMA QIZI HACIYEVA**
MÜASİR REKLAM TEXNOLOGİYALARI
VƏ ONLARIN HƏYATIMIZDA ROLU ..... 355

**FİLOLOGİYA**
**MƏSƏLƏLƏRİ**

**№ 6**

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 06.05.2023
Şərti çap vərəqi 23. Sifariş № 96
Kağız formatı 60x84 1/8. Tiraj 500

**Jurnal "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4